İki Şah, İki Sultan

TRİLOGİYA

# BƏNÖVŞƏYİ ƏNCİR

2

Hüseynbala Mirələmov

BAKI 2020



**HÜSEYNBALA MİRƏLƏMOV**

**İKİ ŞAH, İKİ SULTAN**
**(trilogiya)**

# BƏNÖVŞƏYİ ƏNCİR

***İkinci kitab***

Redaktorlar:
İSLAM QƏRİBLİ
SEVİNC MÜRVƏTQIZI

Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2020, 344 s.

«Bənövşəyi əncir» romanında təsvir olunan hadisələr birinci kitabın – «Süqut»un davamıdır. Müəllif görkəmli dövlət xadimi, cəsur Azərbaycan oğlu Uzun Həsənin parlaq surətini ustalıqla yaratmışdır. Ağqoyunlu imperiyası uğrunda mücadilədə heç bir başqa şərt qəbul etməyən Uzun Həsən eyni zamanda, Osmanlı Sultanı Mehmedlə üz-üzə gəlməmək, qardaş qırğını törətməmək üçün bütün diplomatik vasitələrdən istifadə edir. Lakin iki güclü türk dövlətinin mövcud olmasını istəməyən Avropadan qızışdırılan Sultan Mehmed gələcəyi görmür və zamanın iki nəhəng imperiyası toqquşur... Yazıçı hər iki hökmdarın faciəvi səhvlərinin köklərini açıb göstərməklə istəyir ki, gələcək nəsillər tarixdən nəticə çıxarsın, bu səhvlər bir daha təkrarlanmasın...

ISBN: 978-9952-528-56-5

© H.Mirələmov, 2020

*«Bu fani dünya üçün dəyməz quru qovğaya*
*Əcəl ki, bu dünyanın ziyanını qəsd edər...»*

**Fateh Sultan Mehmed**

*Məmləkət bir əlində qılınc, bir əlində qələm tutanda yenilməz olur…*
*Müəllif*

Təzimdən sonra Uzun Həsən çəkilib getmək istədi. Amma gedib nədən başlayacağını hələ də qəti kəsdirə bilməmişdi. Düzdür, onun Cahangir Mirzə ilə qarşılaşmaq üçün kifayət qədər qüvvəsi vardı. Üstəlik Cahangir Mirzə ilə görüşüb gələnlərdən onu da öyrənmişdi ki, qardaşı bədbin əhval-ruhiyyədədir, kifayət qədər özünə inamlı deyil. O, sadəcə saray fırıldaqçılığının və hakimiyyət hərisliyinin qurbanı olmuşdu. Onun tamah qılıncını itiləməsinin bir səbəbi də ətrafındakıların hördüyü tordan tamam xəbərsiz olması idi. Cahangir Mirzə əgər bir qədər dərindüşüncəli olsaydı, anlayardı ki, onu qızışdırıb Uzun Həsənə qarşı qiyama qaldıranların şəxsi məqsədləri var. Onlar istəyirdilər ki, Cahangir Mirzə ilə Uzun Həsən döyüş meydanında üz-üzə gəlsin. Biri digərini məhv eləsin. Yarımcan olmuş o biri qardaşla bacarmaq, – aradan götürmək asan olsun. Görünür zaman keçdikcə Cahangir Mirzə bu şirnikdirici vədlərin mənasızlığını anlamış, qardaşının üzünə ağ olmaqda, ona qiyam qaldırmaqda böyük səhvə yol verdiyini başa düşmüşdü. Ancaq lovğalığı və bir

qədər də təkəbbürü geriyə dönüş üçün yolunu bağlamışdı. Yəni Cahangir Mirzə istəsəydi də – o, bunu çox istəyirdi, – geriyə qayıda bilməzdi. Əvvəla, onun qayıdış niyyətini, peşmançılığını Sələbiyyə xan tez başa düşər, bu gedişatın Sələbiyyə xanın özünün məhvi demək olduğunu anlayardı.

Onsuz da Sələbiyyə xan nə qədər hiyləgər idisə, bir o qədər də fəhmli, fərasətli idi. Özünün tülkü hiyləgərliyi və fəndliyilə həmin andaca başa düşəcəkdi ki, Cahangir Mirzənin geriyə qayıdışı qardaşların barışığı deməkdir. Və onlar bir-birilə çox asanca dil tapa biləcəkdilər. Əgər ortada Sara Xatun olmasaydı, bəlkə heç Cahangir Mirzə qardaşı ilə belə asanca dil tapa bilməzdi.

Sələbiyyə xan anlayırdı ki, nə qədər Sara Xatun sağdır, nə qədər ki, onun oğlanlarının üstündə təsiredici gücü var, bir o qədər Sələbiyyənin Amid bəyliyini ələ keçirməsi məsələsi də düyünə düşəcəkdi. Ona görə də Amid bəyliyi get-gedə güclənir, zaman keçdikcə, insanların məmləkəti idarə edənlərə inamları da artırdı. Sələbiyyə xan hiss eləyirdi ki, son günlər Cahangir Mirzə dirəniş göstərir, qəti addımlar atmır, həmişə fikrə qərq olur. Ayrı-ayrı vaxtlarda təkliyə çəkilib, özünə qapılır, düşünüb-daşınır, xəyallara dalırdı. Qəribə burası idi ki, o, əvvəllər düşünüb bir qərara gələndə, mütləq Sələbiyyə xanı yanına çağırar, fikirlərini açıq bölüşər, hansı addımın atmağın daha üstün olduğunu hökmən məsləhətləşərdi. İndi belə deyildi. Bu hiyləgər adamı qorxudan elə bu idi ki, Cahangir Mirzənin düşündüklərindən xəbəri olmurdu. Ona görə hər ehtimala qarşı özünün təhlükəsizliyini ciddi-cəhdlə qorumaq istəyirdi. İndi Cahangir Mirzədən çox öz başının hayına qalmışdı. Hər şey ola bilərdi. Nə qədər güclü, məharətli olsa da, Sara Xatunun adamları müxtəlif yollarla Cahangir Mirzəylə əlaqə qurar, barışığa təhrik edər və barışıq şərtlərini də Sələbiyyə xandan gizli saxlayardılar. Belə olduğu təqdirdə Sələbiyyə xanı aradan götürmək nə qədər asan bir iş olardı.

Bütün bu məsələləri Sara Xatun da artıq tamam-kamal anlamış, tədbirini görmüşdü. Uzaqdan-uzağa ona məlum idi ki, Sələbiyyə

xan Cahangir Mirzənin ətrafında hördüyü hiylə torlarını bir qədər də sıxlaşdıracaq. Hər vəchlə Cahangir Mirzəni Sara Xatunun adamları ilə təmasdan təcrid etməyə çalışacaq. Sara Xatun əlaqə qurmaq üçün göndərdiyi adamlara hər ehtimala qarşı belə bir qabaqlayıcı fikri də təlqin edirdi, əgər işlər danışıqla yoluna qoyulsa, Sələbiyyə xan da heç bir təhlükəyə məruz qalmayacaq. Ona imkan veriləcəkdi ki, harada istəyirsə, öz əhli-əyalını, qohum-əqrəbasını başına yığıb orada rahat yaşasın, bütün ömrü boyu ona kimsə dəyib-dolaşmasın. Ancaq bir şərtlə ki, o, artıq dövlət işləri ilə məşğul olmayacaq, başına hərbi dəstə toplamayacaqdı. Onsuz da Sara Xatun yaxşı başa düşürdü ki, belə adamlar asanlıqla sakitliyə çəkilməz. Can qorxusu aradan qalxan kimi yenidən onun hakimiyyət ehtirasları baş qaldıracaq və bundan sonra o, təzədən əyaləti qaynar qazana çevirəcəkdi. Onda artıq layiqli cəzası ilə bahəm dili də qısa olacaqdı.

Ancaq indi başqa yol yox idi. Sara Xatun oğlu Cahangir Mirzəni xilas etmək, hələ üstəlik, Amid bəyliyinin də parlaq gələcəyinin təminatı üçün müvəqqəti də olsa, Sələbiyyə xanın ünvanına bu şirnikləndirici vədləri verməkdən çəkinmirdi. Bunu oğlu Uzun Həsənə də demişdi. Uzun Həsən isə anasının bu fikirlərinə bir qədər şübhə ilə yanaşaraq soruşmuşdu:

– Dünyanın ən ağıllı anası doğrudanmı, öz sözünə əməl edəcək?

Sara Xatun oğlunun sualından təəccüblənməmiş, hətta onun bu sualını bir qədər təbii qarşılamışdı.

– Bəs sən necə düşünürsən? Mən indiyə qədər verdiyim vədin, dediyim sözün arxasından nə vaxt qaçmışam, haçan dediklərimə xilaf çıxmışam?

– Mən elə bunu düşünürəm. Axı, sən həmişə öz sözünə sahib olmusan. Bir kimsəyə verdiyin vədin axıracan necə yerinə yetirilməsinə nəzarət eləmisən. Amma…

Sara Xatun əlini yuxarı qaldırdı. Bu, o demək idi ki, sən nigaran qalma, ancaq Sara Xatun sözünün gerisini deməyən oğlunu da nigaran qoymadı.

– Mən bilirəm, sən düşünürsən ki, bizim bəyliyə xəyanət eləmiş, qardaşın birini aldadıb, təhrik edib digər qardaşının üzərinə qaldıranın yeganə cəzası ölümdü. Mən bunu necə dana bilərəm? Bəli, elədir. Sələbiyyə xanın yeganə alacağı ənam bizdən ancaq ölüm ummaq olardı.

– Elə mən bunu deyirəm də! Biz onu indi bağışlasaq, sabah başqa düşmənlərimiz də baş qaldırar. Haqlı surətdə düşünərlər ki, bu qədər xəyanətlərin əvəzində Sələbiyyə xan bağışlandı. Bəs onda biz niyə qorxmalıyıq? – Uzun Həsən bunları elə inamla dedi, sanki Sara Xatunu öz düşüncələri ilə tərk-silah etdi. Onun düşüncəsinə görə elə bu an Sara Xatun oğlu ilə razılaşmalıydı. Ancaq belə olmadı. Sara Xatun bir qədər fikrə getsə də, nəhayət, asta-asta dilləndi:

– Bilirsənmi, oğlum, bir haqlı ölüm cəzasını çoxlu haqsız ölümlərin əvəzində bağışlamaq da olar. Yoxsa biz Sələbiyyə xanı belə asanlıqla niyə bağışlamalıyıq? Onsuz da o, çox hiyləgər və uzaqgörən adamdı. Yaxşıca başa düşəcək ki, bizim məqsədimiz nədir. Mən inanmıram ki, o, qətiyyən öz məqsədindən geri dursun. Bir növ o, Cahangir Mirzəni bizim əlimizdən qoparıb, özünün girovuna çevirib. O, Cahangir Mirzəni əlində saxlamaqla, bizim gücümüzü almaq, bizi Cahangir Mirzəylə qarşılaşmaqdan, – yəni özü ilə qarşılaşmaqdan çəkindirməyə çalışır. O, istəyir ki, biz döyüşdən yan keçək, onları sərbəst buraxaq. Doğrudur, barışığa mane səbəblərdən biri də sənin qardaşının lovğalığı və yersiz yekəxanalığıdır. O, özünü sındırıb geri qayıtmaq, səhvini etiraf etmək istəmir. Bizim onları sərbəst buraxmağımızı Sələbiyyə xanın istəməsi də, elə qardaşının zəif keyfiyyətləri ilə bağlıdır. Qulağını o doldurub. Hər vəchlə çalışır ki, biz nizami ordumuzu onların üstünə aparmayaq. Sələbiyyə xan bu uzanan vaxtdan istifadə eləsin, bizim düşmənlərimizlə əlaqə yaratsın, onların qüvvələri ilə birləşib hələ indi-indi ayaq üstə qalxmağa can atan Amid bəyliyinin toparlanmaqda olan

gücünü elə bu vadinin özündəcə boğsun. Yaxşı anlayırsanmı, mənim fikirlərimi?

– Deyəsən, indi-indi başa düşdüm. Dünyanın ən ağıllı anası gördüyü tədbirlərində heç vaxt səhv eləməyib, görünür, mənim başa düşmədiyim bir çox mətləbləri o, lap əvvəldən anlayıb və indi də nə deyirsə, düz deyir.

– Doğrudur, möhkəm inanmadığım hər hansı mətləbi dilimə gətirmərəm. Amma analıq hissi mənə təcrübəmdən təlqin eləyir ki, hər hansı bir işi görməzdən əvvəl zərgər dəqiqliyilə ölçüb-biçim. Sən bilməlisən, mən bir ana olaraq, oğlanlarımın hər birinin salamatlığını vahid Allahdan diləyirəm.

* * *

Anası söhbəti yarımçıq saxlamaq istəmirdi, bunu Uzun Həsən başa düşürdü. Ancaq daha görürdü ki, anası danışmağa çətinlik çəkir. Bəlkə də istəyirdi ki, oğlu onu danışmadan başa düşsün.

…Anasının başının üstündən azca yuxarı gözlərini divara zilləmişdi. Divardan enli ipək xalça asılmışdı. Xalçadakı naxışlar uzun vadini, dağları andırır, ana təbiətin bir guşəsini əks etdirirdi. Uzun Həsənə elə gəldi ki, yuxarıda – səmanı göstərən təsvirdə ayrı-ayrı tərəflərdə topa-topa buludlar var. Pənbə buludların dağların üstünü almış tərəfi isə qırmızı rəngə boyanıb. Amma bu dağların o biri üzündə Uzun Həsəni təhdid eləyən, Qara Yuluq Osmanın təməlini atdığı bünövrə üzərində hələ indi-indi bərqərar olan hakimiyyətini hədələyən qüvvələr mövcud idi. Dəxli yox idi ki, bu qiyamçılar nə istəyir… Məqsəd bəlliydi: hakimiyyəti Uzun Həsənin əlindən almaq, özünü də bir zindanın dərinliyində çürütmək. Hər halda Uzun Həsən bu niyyətləri bəri başdan görürdü. Ona görə də o, niyyətlərin qabağını almaq niyyətində idi, həm də qətiyyətlə. Ancaq anasının qərarı – Sara Xatunun hökmü məsələnin gedişatında müstəsna rol oynayırdı. Görürdü ki, anası vaxtı yubadır, hələ üstəlik, Cahangir Mirzənin

artıq xəyanət olduğu aşkar bilinən əməllərini birbaşa, açıq-aydın dilinə gətirmir. Bu, Uzun Həsəni narahat etməkdəydi. Axı o, yaxşı bilirdi, hakimiyyətin yalnız ona məxsus olduğunu Sara Xatun qardaşlarının hər birinə ayrılıqda da deyib. Onu da izah edib ki, qardaşların gələcək taleyi yalnız Uzun Həsənə sədaqətdən və ətrafında birləşməkdən asılıdır.

…Sara Xatun sözünü dedi. Və elə həmin andaca düşüncəsində sanki bir şimşək çaxdı, başından uğultu qopdu. İki əlilə başını tutub, gözlərini yerə dikdi. Onun bu halının kəskin dəyişdiyini görən Uzun Həsən lap dilinin ucuna gəlmiş cavabını saxladı. Həmin anlarda anasının nə düşündüyünü, fikrindən nələri keçirdiyini anlamaq istədi. Ancaq ilk dəfə anasında müşayiət etdiyi bu halətin qabağında heç nə deyə bilmədi. O da susub anasının nə vaxt fikirdən ayrılacağını, onu dinləmək istəyəcəyi vaxtı gözləməli oldu. Əlbəttə, indi Amid bəyliyinin hərb başçılığı və əsasən bütün idarəetmə işləri onun ixtiyarında olsa da, yenə Sara Xatunun hökmü daha üstün idi. Başqa sözlə, Amid bəyliyinin başçısı kimi bütün elat adamlarının qabağında hakimiyyəti qəbul etmiş, hələ üstəlik insanların rifahı, canları, malları üçün də cavabdehliyi öz üzərinə götürmüş Uzun Həsən bilirdi ki, məmləkətin əsl rəhbəri, mənəvi böyüyü Sara Xatundur. Ona görə indiki halda onun gözləyib nə qərara gələcəyini bilmək daha vacib idi. O, həm də anasının könlünü oxşaya-oxşaya ondan cavab istəyirdi. Nə qərara gələcəksə, özünün könüllü rəyi ilə olsun. Belə olanda Uzun Həsənin hakimiyyəti də qorunacaq, bəyliyin təhlükəsizliyi də təmin ediləcəkdi. İş burasında idi ki, Uzun Həsən anasının sonuncu kəlmələrindən hər vəchlə Cahangir Mirzənin canını qorumağa çalışdığını anlamışdı. Deməк, anası istəyirdi ki, necə olur-olsun, yollar Cahangir Mirzənin ölümünə aparmasın. İndi əlləri ilə başını tutmuş, artıq yarı yaşını da çoxdan keçirmiş, həm öz həyatında, həm də Qara Yuluq Osmandan bəri bəyliyin taleyində xeyli ağrılı-acılı günlər görmüş, dünyanın hər üzünə bələd ol-

muş bu qadın indi çətin təzadlar içində qalmışdı. Ya hakimiyyət naminə oğlanlarından birini qurban verməli, ya da onları qorumaqla hakimiyyətdən əl çəkməli, dünyanın bir sakit guşəsini tapmalı, ailəni ora köçürməli…

Sara Xatun bütün gerçəkliyilə anlayırdı ki, hakimiyyətsiz o, öz nəslini qoruya bilməyəcək. Qara Yuluq Osmanın zamanından bəri ətrafda çoxlu düşmənləri, nəsil-şəcərə tör-töküntüləri vardı, onlar da Qara Yuluq Osman soyuna qarşı dişlərini qıcamaqda idilər. Fürsət gözləyirdilər ki, nə olaydı, Cahangir Mirzə ilə Uzun Həsən arasında ədavət qızışaydı, onlar bir-birilərini qanına qəltan eləməyə başlayaydılar və Amid bəyliyi heydən düşəydi. Yox, Sara Xatun Amid bəylinin taleyindən keçə bilməzdi. O, hər vəchlə Amid bəylini qorumaq, bu yığcam məkanın nüfuzunu günügündən daha da artırmaq, gücünü toparlamaq və nəhayət, Anadolu civarlarından tutmuş, ta bütün Təbriz, Ərdəbil ərazilərinəcən bir hakimiyyət altında birləşdirsin. Yalnız bu yolla Qara Yuluq Osmandan üzü bəri üzülə-üzülə gəlib indi-indi şaxələnən nəslin taleyini qorumaq mümkün olardı.

Sara Xatunun dodaqları tərpənirdi. Doğrudur, Uzun Həsən lap böyrünü kəssə də, onun nə dediyini qədərincə anlaya bilmirdi. Ancaq hiss edirdi ki, anası dodaqlarının arasından asta-asta, güclə seziləcək bir tərzdə oğlanlarının adlarını sadalayır. Sara Xatun onu kimsənin dinləyib-dinləmədiyinin fərqinə varmadan ətraf aləmi unutmuş kimi əvvəlcə yavaş, sonra da səsi bərk eşidiləcək tərzdə öz-özünə danışmağa başladı. Danışırdı, danışdıqca da sanki dedikləri ona qeybdən diktə olunurmuş kimi, sözlər zəncir halqaları kimi bir-birinə bağlana-bağlana axışıb gəlirdi:

– Axı mən sizi elə böyütmüşdüm ki, bir-birinizə dayaq olasınız, bir-birinizin gücünə güvənəsiniz, bir-birinizi qoruyasınız… Axx, Cahangir Mirzə, Cahangir Mirzə!.. Sənin təkəbbürün, lovğalığın, vəfasızlığın olmasaydı, öz qardaşına dayaq dursaydın, gör məqsədimizə necə qovğasız, sürətlə yetə bilərdik. Axı in-

san bu dünyaya gələndə onun mayalanması, ayaq tutması üçün təkcə ana südü də bəs eləyir. Yox, yadıma düşür, hələ sən körpə ikən, yaşıdlarınla oturub-durarkən acgözlüyünlə qardaşlarından fərqlənirdin, səni başa salmaq çətin idi. Atanızın ölümündən sonra mən sizi çətinliklə üz-üzə gəlməkdən qorudum. Axı, üçünüzü də yanıma çağırıb, qardaşınıza beyət eləməyi məsləhət elədim. Axı, sən gərək ana halallığı ilə qəbul elədiyimiz qərarı pozmayaydın. Hələ Üveys Mirzə… onun da səhvləri var. O da gərək sənin hakimiyyət iştahanı görəndə, əl-qol açmamış bunun qabağını almağa cəhd göstərəydi, bu haqda mənə bildirəydi. Mən onda uçurumun daha da dərinləşməsinə yol verməzdim. Elə olur ki, bəzən insan bir addımı atır, hələ növbəti addımı atmamış geri qaytarmaq asan olur. İndi Cahangir Mirzə bütün bəyliyin gözünün qabağında qardaşının üzünə ağ olur… Yox, təkcə qardaşının yox, elə mənim də. Sözümü yerə salır, qərarımı pozur. Bəlkə, Üveysin də bu işdə əli var, bunu səhih bilmirəm. Qiyamət onda qopar ki, özünü haqqın, ədalətin rəmzi bilən birisi haqsızın tərəfində dursun.

Deyəsən, Sara Xatun ürəyini tamam boşaltdı. Get-gedə sakitləşdi. Amma yenə də Uzun Həsənə tərəf baxmadı. Və elə bu səbəbdən yenə Uzun Həsən dinməyə cəsarət eləmədi. Axır ki, özündə güc tapıb, bir addım qabağa atıb nəsə demək istəyirdi, Sara Xatun yenə əlini qaldırdı. Bu da o demək idi ki, Həsən hələ yenə də səbirli olsun. Demək, anası düşüncələrini yekunlaşdıra bilməyib, fikirlərini bir araya gətirməyib. Bu dəfə Uzun Həsən bir oğul istəyilə anasına daha diqqətlə nəzər yetirdi. İndi o, anlamaq istəyirdi ki, anası necə iztirablar keçirir. Bayaqdan əzəmətli görünən, qürurlu, inamı qəlbinə sığmayan Sara Xatunun əvəzində gözlərinin qabağına boynu vurulmuş, başı cəsədindən ayrılmış oğlu gələn ana durmuşdu.

İki od arasında qalmış kimiydi: bir tərəfində illər öncəsi cəsarəti, uzaqgörənliyi, səbir və təmkinilə, canı-qanı bahasına Ağqoyunlu tayfalarının ağzını bir yerə yığıb, bir dam altına gətirən

Qara Yuluq Osmanın taxt-tac varisi Uzun Həsən peşəkar ordusu ilə Diyarbəkirin üstünə yürüməkdə idi. O biri tərəfdə isə yenə də həmin o tədbirli, uzaqgörən Osman bəyin ikinci övladı Cahangir Mirzə təlaş içində canının hayına qalmışdı; salamatlığı üçün öz nəslinə, ata-babasının, doğma qardaşının taxt-tacına xəyanət etmiş hər kəsə sığınmağa, imdad diləməyə hazır idi. Tək bircə işarə, qığılcım lazım idi ki, bu iki od püskürsün, çarpışsın biri heydən düşsün. Qığılcım alova dönsün, aləmlərə hökm edən xanədanlıq bircə göz qırpımında yanıb külə dönsün, qan su yerinə axsın. Düşmən sevinsin, dost xar olsun.

Hər iki tərəfdə dayanan isə onun doğma ciyərparaları, əziz-xələf oğlanları idi. O oğlanları ki…

Apaydın xatırlayırdı Sara Xatun… O günü xatırlayırdı ki, Qara Yuluq Osman öz müdrik ağlı ilə, dünyanın bütün yaranmışları kimi, bu həyatda insanın da əbədi olmadığını götür-qoy edə-edə səltənətinin əbədiyə qədər uzanması qayğısına qaldığından oğlu Cəlaləddin Əlini yanına çağırıb, ona məsləhətlərini vermişdi. Hələ bir az da qabağa gedib, oğlanlarını da bacarıqlarına uyğun böyütməyi tapşırmışdı.

Zaman o zaman idi ki, indi başının dəstəsi, qoşun-ləşkəri ilə qardaşı Cahangir Mirzənin üstünə yeriyən Uzun Həsənin hələ vur-tut on iki yaşı vardı. Ancaq bu az yaşına baxmayaraq cəsarəti, zirəkliyi ilə babasının diqqətini daha çox cəlb eləmişdi. Odur ki, hər cür savaş, hakimiyyət qovğalarından qalib çıxmış Qara Yuluq Osman sevimli oğluna faydalı məsləhətlərini verəndən sonra yorğun baxışlarını hərləyib Həsənin üstündə saxlamış və xüsusi bir ahənglə «bunu da ki görürsən!» – demişdi…

Bu bircə kəlmə bəs etmişdi Cəlaləddin Əliyə… Yəni anlamışdı ki, atası taxt-taclarının gələcək varisi, qoruyucusu olaraq daha çox Həsəni görür, ona güvənir. Baba nəvəsini oğluna ayrıca bir şəstlə tapşırmaqla, əslində səltənətinin gələcək taleyinin hansı əllərə əmanət verilməsinin işarəsini verir. Odur ki, Cəlaləddin

Əli nəzərlərini atasının yorğun baxışlarından yayındırıb hələ çox gənc olan ciyərparası Həsəni oğrun-oğrun süzmüş, ancaq açıq-aşkar başının işarəsilə razılığını bildirmişdi; yəni «Bilirəm! Başa düşdüm!»

Olan olmuş, keçən keçmiş, deyilənlər başa gəlmişdi. Ancaq bu gəliş özüylə bərabər o ağıllı, tədbirli, uzaqgörən və hər cür hakimiyyət qovğalarından qalib çıxmış Qara Yuluq Osmanın canı-qanı bahasına qurduğu  Ağqoyunlu birliyini bircə göz qırpımında tar-mar etmək həddinə gətirib çıxarmışdı. Qara Yuluq dərin ağlına, hadisələrdən baş çıxara bilmək fəhminə heyran olduğu sevimli gəlini Sara Xatunu çıxılmazlıq sindromu qarşısında qoymuşdu. Belə halında Sara Xatun iç dünyasına qapılardı ki, kaş ki, o, adicə bir ev qadını olaydı. Kasıbca bir daxmanın ocağını qalayıb, gündəlik biş-düşünü edəydi. Gündüzlər ev-eşik işlərini görəydi. Axşamlar da əmin-arxayınlıqla balalarını başına yığıb şipşirin nağıllarını deyəydi. Lap elə Mahmudla Ağcaquşun nağılını maraqla, elə oxşaya-oxşaya danışaydı ki, körpə Həsəni də, Cahangiri də gün üfüqdə qulağı batmamış kəsdirəydilər dizinin üstünü… Yəni de görək sonra nə oldu, o əyyami-qədimdə padşahın başına daha nələr gəldi?

…Nə olacaqdı ki?!. Padşahın ömrünün çoxu keçibmiş. Lakin ondan sonra çırağını yandırası bir oğlu yoxuymuş. Padşah ağsaqqal-qarasaqqalların sözünə baxıb var-dövlətindən kasıb-kusublara pay ayırır, hər kəsə qayğı göstərir. Ay keçir, il ötür, dualar müstəcəb olur, şahın övrəti hamilə qalır. Doqquz ay, doqquz gün, doqquz saatdan sonra xatun dünyaya nur parçası kimi bir oğlan uşağı gətirir. Padşah böyük şadyanalıq keçirib oğlunun adını Mahmud qoyur. Onu dayələrə tapşırır. Mahmud naz-nemət içində böyüyüb, on yeddi yaşına çatır. Günlərin bir günü Mahmud vəzir-vəkillə ova çıxır. Ov-ovlayıb quş-quşlayır. Günün necə gəlib-keçdiyindən xəbər belə tutmur. Axşam düşdüyündən çöldə qalmalı olurlar. Çadırlar qurulur. Gecə Mahmud vəzirə deyir:

– Vəzir, bir nağıl de, gecəni keçirək.

Vəzir padşah oğlu üçün bir ibrətamiz nağıl danışır. Mahmud nağılı maraqla dinlədikdən sonra deyir:

– Vəzir, kaş ki, mən də nağıldakı oğlan kimi gün keçirəydim.

Vəzir deyir:

– Şahzadə, qadan alım, sən padşah oğlusan, ondan daha yaxşı gün görəcəksən! Sevimli, əziz, rəhmdil, vəfalı, aqil, zabitəli atanın taxt-tacının şöhrətini gələcəyə daşıyacaqsan. Ancaq sən hələ balacasan. Çox görüb-götürməli, öyrənməlisən.

Mahmud bir söz demir. Soyunub çadırında yatır. Yuxuda görür ki, bir dərviş başının üstündə dayanıb. Mahmud ondan soruşur:

– Ağa dərviş, niyə gəlmisən?

Dərviş deyir:

– Gəlmişəm səni arzuna yetirim. Al bu camı, içindəkini iç.

Mahmud alıb içir. Bu zaman ürəyindən dözülməz bir yanğı baş qaldırır. Qorxmuş halda:

– Ağa dərviş, yandım, amandı, yandım, yanğımı söndür, ağa dərviş! – təşvişlə qışqırır.

Dərviş onu sakitləşdirir:

– Qorxma! O yanğı elə yanğıdır ki, əsla sönməz. O eşq yanğısıdır. Barmaqlarımın arasından bax gör, nə görürsən?

Mahmud baxıb deyir:

– Bir şəhər görürəm. Şəhərdə bir gözəl imarət var, imarətin içində də bir gözəl qız.

Dərviş deyir:

– Ey Mahmud, o şəhər Daşqala şəhəridi. O qız da Xası xanın qızı Ağcaquşdu. Onu sənə göstərdiyim kimi, səni də ona göstərmişəm. Onu sənə, səni ona buta vermişəm. Vaxtı çatanda ayağına dəmir çarıq geyib, dəmir əsa götürüb, arxasınca get…

…Sara Xatun bu üzücü dağ yolu boyunca xəyalından belə keçirirdi. Düşünürdü ki, kaş o baba Dərviş onun da Həsəninə, Cahangirinə vaxtında belə bir eşq camından şərbət verəydi. Kaş,

deyəydi, Diyarbəkir valisi Ağur xanın qızlarını buta vermişəm Həsənlə Cahangirə. Kaş, Həsənlə Cahangir bu uzun yolu vergili olduqları qızların həsrəti, istəyi ilə keçib geri dönəydilər. Bu yorucu yolçuluqdan bəxtiyarlıq açarı tapaydı, Sara Xatun. Oğul ayrılığına dözüb-tablamayaydı. Öz bər-bəzəkli kəcavəsində oğlanlarının arxasınca Diyarbəkir səfərinə çıxaydı. Dərələrdən sel kimi, təpələrdən yel kimi gəlib, elçiliyi özü edəydi. Toy çadırları qurduraydı bu yamaclar boyunca. Eli elə qovuşduraydı. Çalıb-oxuyanların dilindən mərhum Qazi Bürhanəddinin düzüb-qoşduqları car olaydı:

*Yaxşı anladım cahanda vayə yox,*
*Yardan özgə bu xumarım, ayə, yox.*
*İki aləmdə ümid sərvərdürür,*
*Andan ayru dəxi hiç sərmayə yox…*

*Ərənlər öz yolunda ərtək gərək,*
*Meydanda erkək kişi nərtək gərək.*
*Yaxşı, yaman, qatı, yumşaq olsa xoş,*
*Sərvərəm deyən kişi erkək gərək…*

Nəzmi sevən, elm və ürfan adamlarına həmişə rəğbət bəsləyən, vaxtaşırı sarayda onlarla görüşüb söhbətlərindən feyziyab olan Sara Xatun ömür-gün sirdaşı Cəlaləddinlə eyni qandan, yaxın soydan olan, hökmdardan daha çox yaxşı şair kimi qəbul etdiyi Qazi Bürhanəddinin könül titrədən qəzəllərini ara-sıra təkrar-təkrar oxumaqdan usanmazdı. Sara Xatun bəzən də ud çalıb rəvan qəzəl söyləməyilə saray əhlinin könlünü fəth eləyən, elə buna görə saraydakı ali ziyafətlərin daimi iştirakçısı olan qıvrımsaçlı gözəl Bəyimcanı çağırıb, Qazi Bürhanəddinin nəzmlərini ona oxutdurub xəyala dalardı.

*Nə çəkdügümi mən bilirəm yarə irincə,*
*Kirpügün ilə ürəyimə yarə irincə.*

*Biçarə fəraqun odı ilə yanısardur,*
*Ta vəsli-zülalindən ana çarə irincə.*

*Məxmuramü məstanə gözün ilə yanaram,*
*Ta ləlü-ləbindən yenə xəmmarə irincə…*

*Zülfün ilə bərdar olur isə nedə könül,*
*Tapun bigi bir töhfəcə dildara irincə…*

*Gözləri ilə xəstəyəmü ləlü şəfadur,*
*Lütf eylə, şəha, şərbətü bimara irincə…*

Sara Xatun qıvrım, qətran kimi saçlarının uzunluğuna görə sarayda Şəbi Yelda xatun çağırılan qaragözlü, eyni zamanda dərin bilgili qızın titrək və qəlb ovsunlayan səsli ifasında Qazi Bürhanəddinin duyğu yüklü sevgi nəzmlərini dinlədikcə, aralıqda gəzən söz-söhbətləri də fikrindən keçirirdi. Danışırdılar ki, əslən Bizansdan olan Bəyimcan Uzun Həsənə aşiq idi. Qızın öz qəhrəmanına vurulmasını Sara Xatun təbii qarşılayırdı. Belə ki, uzun aylar öncə Uzun Həsən Diyarbəkirin mərkəzi küçələrini əyanlarla gəzərkən uzaqdan hansısa qələbəliyi görüb yaxınlaşmışdı. İzdihamın ortasında dalğalı saçları qana bulaşmış, üzgözünə dağılmış və uzaq Trabzondan təkbaşına bu böyüklükdə şəhərin düz ortasına necə gəlib düşdüyü bəlli olmayan o qənirsiz gözəli azğın kütlənin əlindən qurtarıb özüylə saraya gətirmişdi. Hərəmxanaya yerləşdirilən qızın sonralar həm ağıllı, həm də nəzm bilicisi və gözəl ud ifaçısı olması onu az müddət ərzində sarayda məşhurlaşdırmışdı. Onu da deyirdilər ki, Bəyimcan Uzun Həsənin olduğu ziyafətlərdə canalan baxışlarını düz gələcəyin böyük padşahının gözlərinə zilləyərək sevgi dolu qəzəllər oxuyurmuş. Onu da nəql edirdilər ki, Uzun Həsən bu baxışlara laqeyd qalmırmış…

*Əcaba, dərdümün dəvası qanı?*
*Əcaba, rəncümün şəfası qanı?*

*Ayağı tozuna yüz ururam*
*Ki, göz ağrısı tutiyası qanı?*

*Zülfi hil binübən irişdi cana*
*Ənbərin xəttinün yayası qanı?*

*Kimiya ilə qıldı zər yüzümi*
*Yarı bulmağa simiyası qanı?*

*Sidqümi bildi hüsni eşqində,*
*Bəs bizə vəslinün səfası qanı?*

Bəyimcanı dinlədikcə Sara Xatun bir yandan «ancaq aşiq bir qadın bu qədər məlahətli səslə oxuya bilər» – deyə düşünür, bir yandan da Qazi Bürhanəddinin nə qədər ürəyəyatımlı, əsrarəngiz nəzm nümunələri qələmə aldığını fkirləşir, bu cür böyük bir şairin hakimiyyət uğrunda çək-çevirdə öz bacısı oğlunun əlində həlakına haqq qazandırmır, için-için yanırdı. «Gərək olmayaydı o savaş…» – Sara Xatun boğazındakı qəhəri udub düşündü: «Qazinin şairliyi, ilahi bəxşişi olan təbi naiblik qürurunu önləyəydi. Öz növbəsində gənc bacıoğlu – Qara Yuluq Osman doğmaca dayısının, Sivas naibinin yox, uzun sənələrə hökm edəcək qüdrətli söz sərkərdəsinin, şairin üstünə yürüdüyünün fərqində olaydı… Heç bünövrəsi qoyulmayaydı bu ənənənin… Qara Yuluq Osman doğma dayısının üstünə yürüdü, az keçmədi Əhməd öz doğma dayısı Qara Yuluq Osmana qarşı asi çıxdı. Tarix təkrarlandı. Qara Yuluq Osman bu dəfə də fəndgirliyi sayəsində taxtını qoruya bildi. Doğma bacısı oğlunun qətlinə fərman verdi. Kəlləsini aldırdı. İndi budur, taxt-tac naminə dayı-bacıoğlu, ata-oğul, qardaşla-qardaş savaşı acı bağırsaq kimi uzanıb getməkdəydi. Adlar dəyişib. Amma öz doğmalarına qıyan, özününkünün başını kəsən əllər həminkidi. Kaş Qazi Bürhanəddin vaxtilə gənc, ancaq özü kimi tədbirli, qətiyyətli, yenilməz olan bacısı oğlu Qara Yuluq Osmanın sözünü eşidəydi. Əhmədin axırına çıxmayaydı. Razılaşıb ümumi

dil tapaydılar. Olmuşdu axı bu söhbət aralarında. Çətin durumda qalan Qazi Bürhanəddin bacısı oğlu Osman bəyi yanına çağırıb fikrini soruşmuşdu:

– Qurduğumuz dövləti düşmənlərin felinə uymuş xalan oğlunun ayağına verək?

Bir şair, söz adamı, könül dostu kimi yox, hakimiyyətinə qarşı soyuq küləklər əsməyə başlamış taxt-tac sahibi, siyasət, savaş adamı kimi bacısı oğluna üz tutmuşdu o zaman Qazi Bürhanəddin. Ona qarşı çıxan şəxsin doğmaca bacısı oğlu olduğunu bilə-bilə «bacım oğlu» yox, hirsindən Osman bəyə xitabən «sənin xalan oğlu» deyə anlatmışdı. Özündən uzaq, yad bir adam olduğuna eyham vurmuşdu. Yəni aralarında olan bütün doğmalıq bağlarının qırıldığını diqqətinə çatdırmışdı. Osman bu işarəti anlamamış deyildi. Ancaq yenə də özünü toparlayıb, işlərin gedişini barış yoluna tərəf çevirmək istəmişdi:

– Hökmdar, bəlkə, qiyamı döyüşsüz yatırtmaq olar?.. Mən Əhməd bəyi döyüşsüz-filansız hüzurunuza gətirməyə calışacam.

– Aha… Əhməd bəyi gətirərsən hüzurumuza və bununla da münaqişə sona yetər!

– Doğrudur, hökmdar, münaqişə başa çatar. Amma onun ağır cəzaya məruz qalacağı məni narahat edir.

– Bəs onda necə olsun, Əhməd bəy qiyam qaldırsın, düşmənlərlə birləşsin, biz də onu bağışlayaq?!

Osman bəyin dəlilləri önündə geri çəkilən Qazi yenə də bir şair kimi yox, hökmdar kimi hərəkət etmişdi. Söz vermişdi ki, təslim olacağı halda günahından keçəcək Əhməd bəyin. Öz doğma bacısı oğlunu cəzalandırmayacaq. Ancaq həlledici məqamda, vədinə xilaf çıxmış, necə deyərlər, tüpürdüyünü yalamışdı. Edam əmri vermişdi…

…İndi tarix təkrarlanırdı. Bu təkrarlanan dövr haqda düşündükcə Sara Xatun dərin bir ağrı, kədər hissi ilə fərqinə varırdı ki, elə bu dəqiqə, bu an, indinin özündəcə doğma qardaşına, ataları-

nın saray qanunlarına əks çıxmış Cahangir Mirzə də eynilə həmin Əhmədin durumundadı. Öz aqibətini düşünür. Təslim olacağı təqdirdə doğma qardaşının onunla necə davranacağını, qarşıda onu hansı aqibətin gözlədiyinin nigarançılığını çəkir. Hakimiyyət naminə qardaşın qardaşdan, oğulun atadan keçmədiyini bilir. Ona görə də bağışlanacağına inanmaq istəmir. Ağır səksəkə, qorxu içində sarısını udub. Hər anda bəlkə min dəfə ölüb-dirilir. Bu səbəbdən ikiüzlü, var-dövlət əsiri, nəsillərinə, taxt-taclarına qənim kəsilmiş bir para nakəslərin himayəsinə sığınmağı son çıxış yolu bilir. Haralardasa oğlunun çəkdiyi bu iztirabları ağlına gətirdikcə Sara Xatunu az qala xəcalət təri bassın. Alnını, kürəklərinin arasını soyuq tər basdığını hiss etdikcə daha da əzginləşirdi Sara Xatun. Cismi, ruhu ağrıyırdı. Və belə vaxtlarda tədbirli, hər işin çəmini bir göz qırpımında tapa bilən qayınatası Qara Yuluq Osmanın sınayıcı baxışlarını üzərində hiss edir, bu baxışlar altında özünü toparlamağa çalışırdı.

…Elə bil hər şey lap elə dünən olmuşdu… O günü dönə-dönə xatırlayırdı: Oğlu Cəlaləddin Əlinin dövlət işlərində elə də səriştəli olmadığını anbaan hiss edən Osman bəy ömrünün ixtiyar çağında «bir erkək aslanın arxasında bir dişi aslanın dayanması çox yaxşıdır. Erkək aslan daha cəsarətli olar» – məsəlini xatırlatmış elə bu səbəbdən də «Saranı bura çağırın» buyurmuşdu. O çağırış sonunda aralarında olan söhbət anbaan yadında idi, Sara Xatunun. Qara Yuluq Osmanın hüzuruna gəlmiş və gülərüzlə sevimli qayınatasını salamlamışdı:

– Salam olsun, Bayandur elinin ağsaqqalına.

Qarşılığını gecikdirməmişdi Osman bəy.

– Salam olsun sənə və övladlarına!

– …İstəkli nəvəniz Həsən dedi ki, məni hüzurunuza çağırtdırmısınız…

– …Bilirsiniz, övladlarım, dünya həddən ziyadə qarışıqdı. Oğluma sözümü demişəm. Səni də ona görə çağırmışam ki, hər vaxt

onun dayağı olasan. Yersiz çəkinib, ya utancaqlıq göstərib dəyərli məsləhətlərini əsirgəməyəsən. Hərb kişi meydanıdır. Ancaq o meydanda əvvəlcə ağıl döyüşür. Səni gəlin seçəndə, təkcə oğluma arvad yox, həm də ona bir məsləhətçi, ağıl, təmkin dayağı kimi gətirmişəm.

Qayınatasının sözünü göydə tutmuşdu Sara Xatun. Fikrini, qənaətini gecikdirməmişdi. Arxayın salmışdı Osman bəyi:

– Cəlaləddin Əli ayağını qoyduğu yerə mən başımı qoyaram. Həmişə də belə olacaq.

Razılıqla gülümsəmişdi Qara Yuluq Osman:

– Sağ ol, qızım, bax, səndən bu cavabı gözləyirdim…

…İndi nə Qara Yuluq Osman vardı, nə də ki, sevimli həyat yoldaşı Cəlaləddin Əli. Çoxdan qovuşmuşdular haqq dünyalarına. Onlardan sonra bəyliyin idarəçiliyi bir müddət onun zərif çiyinlərində qalmışdı… Xatırlayırdı Sara Xatun; ömür-gün yoldaşı Cəlaləddin Əlidən sonra ağlının, dərrakəsinin ikiqat gücüylə işlətməli olmuşdu. Hakimiyyətə həris tayfa əmirlərinə yerlərini göstərmək elə də asan başa gəlməmişdi. O ağır məqamlarda həmişə tədbirli, uzaqgörən qayınatası Qara Yuluq Osmanın, bəyliyin sərhədlərini genişləndirə bilməsə də, hər halda, qoruyub-saxlamağı bacaran həyat yoldaşı Cəlaləddin Əlinin sınayıcı nəzərlərini üstündə hiss edir, bu baxışlardan qüdrət alırdı. Lakin hakimiyyət hərisi olan düşmən qüvvələrin onu bir qadın kimi gördüklərinin də fərqindəydi. Buna görə iti zəkası, iradəsi, məntiqi ona diktə edirdi ki, bəyliyin idarə işlərini artıq böyüyüb boya-başa çatmış oğlanlarına – Həsənə, Üveysə və Cahangirə həvalə olunmağın zamanıdı.

Üveys bəyliyin ticarət işlərinə rəhbərlik etməyi istəmişdi. Cahangir ordu hazırlığı sahəsini seçmişdi. Bəyliyin taxtına oturacaq şəxs isə Həsən idi. Bu bölgü Sara Xatunun seçimi idi. Və bu barədə fikirlərini oğlanlarına bildirəndə yenə də tədbirli, yüz ölçüb-bir biçməyin ustası olan qayınatası Qara Yuluq Osmanın sınayıcı nə-

zərlərini üzərində hiss etmişdi. Elə bil üzbəüz dayanıb baxışırdılar və Sara Xatun qayınatasının sınayıcı nəzərlərinin dərinliyində bir suala cavab tapmaq, əmin olmaq istəyirdi ki, görsün, Qara Yuluq Osman – Bayandur elinin başçısı onun tədbirindən razı qalıb, ya yox…

Bu tədbir müqabilində elə bil ağır bir yük Sara Xatunun çiyinlərindən götürülmüşdü. Rahatlanmışdı. Bu rahatlığın bağını qıran, özülünə ilk balta çalan isə Cahangir Mirzə oldu. Gözləmədiyi yerdən aldığı zərbə indi ağır duz yükünə dönüb onun bütün cismini, ağıl və düşüncəsini basmarlayıb altına almışdı. Sevimli övladları arasındakı bağ qırılmış, adına inam, etibar deyilən məfhumlar tapdanmış, təsbeh dənələrinə dönüb hərəsi bir küncə yuvarlanmışdı. Yenidən bu qırılmış bağa dərindən-dərin bir düyün çalmaq, hərəsi bir tərəfə diyirlənən təsbeh dənələrini eyni səfə düzmək mümkün olacaqdımı? Qılıncların çəkildiyi, nizələrin irəli tuşlandığı, döyüşə səsləyən gəranayların gurladığı bir məqamda nəyisə yolundan etməyə bacarığı yetəcəkdimi? Yoxsa birini qazanmaq üçün o birini qurban verməyin yolunu seçəcəkdi? Eynən qayınatası Qara Yuluq Osman kimi… Eynən Qara Yuluq Osmanın əli qılınclı, dili söz yüklü dayısı Qazi Bürhanəddin kimi…

Bilirdi bu əhvalatı. Bacardığı qədər gözünün işığı, bəyliyin taxt-tac sahibi etdiyi oğlu Həsənə də söyləmişdi; nəticə çıxarsın, həlledici qərarından öncə xatırlasın deyə.

O zaman hakimiyyət sütununun laxlamaması naminə Qazi Bürhanəddin doğma bacısı oğlu Əhmədi qurban verməyi üstün tutmuşdu. Bu əhvalatı ən xırda detalına qədər nəql eləmişdi Həsənə. O yerə qədər ki, Əhmədi doğmaca dayısı Qazi Bürhanəddinin göstərişilə düz edam kötüyünün yanına gətirmişdilər. İki nəfər üzüörtülü, yalnız gözləri görünən adamlardan biri Əhmədin sağ qolundan, biri də sol qolundan yapışmışlar. Başıçalmalı, çiyni çuxalı ruhani əlində tutduğu iri, qara kitabdan nə isə hündürdən

oxuduqca, yan-yörəsi «Amin» deyə səsləndikcə, Qazinin qız balası Gülçöhrənin diləkləri daşa dəyir, çiliklənir, param-parça olur, dünya-aləm gözündə qaralırmış. Verilən fitvadan isə geriyə dönüş olmamışdı. Bir oğrunun, bir quldurun yox, bir naməhrəm üzünə baxanın yox, sevgi dolu ürəyinin qurbanı olan bir igidin başı kötük üstünə qoyulub kəsilmişdi. Əmri verən isə doğmaca dayısı idi… Doğma dayının əmrilə bacısı oğlunu edam kötüyünün önündə diz çökməyə məcbur etmişdilər. Ancaq ha çalışsalar da Əhməd tələbi yerinə yetirməkdən boyun qaçırmışdı. Nəhayət cəlladbaşı ikiəlli tutduğu qılıncı boyu bərabəri yuxarı qaldırmış, var gücüylə Əhmədin açıq boynuna endirmişdi. Bədəndən ayrılan baş diyirlənib kötüyün yan tərəfinə düşmüşdü. İki nəfər Əhmədin ayağından yapışıb cəsədini sürüyə-sürüyə harasa aparmış, başqa biri onun qanlı kəlləsini əlində hazır tutduğu dəri torbaya atıb ruh kimi qeyb olmuşdu.

Qara Yuluq Osman bu qətli, bu amansız xəyanəti bağışlamamışdı doğma dayısı Qazi Bürhanəddinə. Son qarşılaşmalarında əlli dörd yaşlı Qazi əlini qılıncına aparsa da, sıyırmağa macal tapmamışdı. Qazi Bürhanəddinin başı öz doğma bacısı oğlunun – Qara Yuluq Osmanın atının ayaqları altına dığırlanmışdı…

İndi də öz doğma övladları gözü baxa-baxa bir-birinə diş qıcamışdılar. Sara Xatun o uzaq əyyamda qalmış əhvalatları təkrar-təkrar gözləri qarşısına gətirdikcə günahsız Əhmədin edam kötüyü üstündən fırlanıb bir yana düşən başının yanında öz doğmaca oğlu Cahangir Mirzənin başını görürdü. Cahangirin qanı qaçmış dodaqları, avazımış sifəti, bərəlmiş gözləri apaydın qarşısında dayanırdı. Gözlərini yana çevirmək, özgə səmtə baxmaqla bu ürəkparçalayan səhnədən qaçmaq, uzaqlaşmaq istəyirdi ağrılı Sara. Özgə səmtdə isə Qazi Bürhanəddinin başı kəsilib at ayaqları altına diyirlənmiş heysiz cismini nalan-naçar şəkildə dayanmış görürdü. Və bu dəfə oğlu Cahangirin rəngi qaçmış dodaqları

elə bil durub-dayanmadan eyni sözü təkrarlayırdı: «Niyə?! Nə üçün?! Nədən ötrü?!»

Cavab vermək isə çətin idi… Çox çətin!

Sara Xatun dərddən büzüşdü. Elə bil qadının qüruru yoxa çıxmış, çəkdiyi ana iztirabları onu büzüşdürmüşdü. İndiki əyyamda dünyanın bütün zər-zibasından əl çəkib, yalnız oğlanlarının salamatlığını istəyərdi. Başlarını qucağına alardı, yanğı ilə uzun illərin həsrətlisi kimi onları öpüb-oxşayardı. Cəhənnəm olsun, dünyanın bütün bəylikləri də, var-dövləti də. Təki onun oğlanları yaşasın, oğul-uşaq, nəvə-nəticə sahibi olsunlar. Yenə Uzun Həsən gördü ki, anasının halı dəyişdi, başını yuxarı qaldırdı, qamətini düzəltdi. Birazdan demək olar ki, bayaqkı əzgin, övlad itaətsizliyi səbəbindən məyus, pəjmürdə Sara Xatun öz əvvəlki görkəminə qayıtdı. Yox, artıq bu Sara Xatun ana yox, məmləkətin başbiləni idi. Sanki Sara Xatun oğlunun nə düşündüyünü gözündən duydu. Başını yuxarı qaldırıb düz Uzun Həsənin gözlərinin içinə baxdı:

– Sən unutma ki, mən yalnız oğullarımın deyil, Qara Yuluq Osmandan qalmış bütün bəyliyin anasıyam. Bu bəyliyi yaşatmağın yeganə düzgün yolunu da mən bilirəm.

– Bəs xəyanət? Bunu asanlıqla necə bağışlayacaqsan?

– Yox, mən heç vaxt xəyanəti bağışlamağın tərəfdarı deyiləm, amma qanlı döyüş meydanında oğlanlarımın hər hansı birinin həlak olmağını da istəmirəm. Ona görə mən barış üçün hər cür vasitədən istifadə etməyin tərəfdarıyam. Onsuz da xəyanətkar gec-tez cəzasına çatacaq, hətta bu dünyanın divanından yaxa qurtarsa belə… Allahın da divanının olduğu haqqında bilməmiş deyilsən?

Uzun Həsən qırılmaz məntiqlə bir-birinə bağlanan bu aydın düşüncələri dinlədikcə, anasının ağlına heyran qalırdı. Düşünürdü ki, bir qadının canına Tanrı bu qədər böyük hikmətləri necə sığdıra bilib? Hələ gör, o nə qədər böyük dərrakə sahibidir

ki, ən çətin anlarda belə təmkinini əldən vermir, özünü şax tutur, məğrur aparır. Hər hansı bir işə qol qoymazdan əvvəl hansı nəticələr verəcəyini götür-qoy edir, özü də dəfələrlə.

Öz növbəsində Sara Xatun da düşünürdü. Birdən Uzun Həsən Amid bəyliyindəki gücünə güvənib tələm-tələsik qərar çıxarar. Və bununla da bir çox işləri korlayar. Ancaq Uzun Həsənin anasının xəbəri olmadan hər hansı bir qərarı özbaşına qəbul edəcəyinə də inanmaq istəməzdi. Saranın məsləhətləri olmadan o, Amid bəyliyini gələcəyin qüdrətli dövlətinə çevirə də bilməzdi.

Uzun Həsən yaxına durdu. Anasının qırışların naxışladığı ağ əllərinə bir də yaxşı-yaxşı diqqət etdi. Onun əllərini ovuclarına aldı və hiss elədi ki, ana əlləri çox cüzi tərpənişlərlə ruhundakı təmkini, hətta ən ağır savaşda belə dözümlü olmaq ehtirasını onun varlığına ötürür. Uzun Həsən əvvəlcə anasının sağ əlini dodaqlarına yaxınlaşdırdı, sonra da beləcə sol əlini. Bu, artıq o demək idi ki, Uzun Həsən anasının qərarı olmadan bircə addım belə atmayacaqdı.

Beləcə, ana və oğul bayaqkı sual-cavabla aydınlaşan mətləbləri səssiz duyğularla başa düşərək, anlaşaraq sona çatdırdılar.

Uzun Həsən ayağa qalxıb bir qədər geri çəkildi.

– İndi get, hazırlaş, – bunu Sara Xatun dedi.

* * *

Artuq oğlu Ağru xan qalanın üstünə çıxmışdı. Hündür bir yerdə dayanıb, üzü aşağılara – sıx dumanın yatdığı vadilərə tamaşa qılırdı. Qalanın bürcünə söykənmişdi. Onun qəlbinə elə qalanın aşağı ətəklərinəcən sürünən boz dumansayağı tutqun kədər dolmuşdu. Doğrudur, baş verən hadisələri çək-çevir edir, canına qənim kəsilmiş kədəri qovub-dağıtmağa çalışırdı. Hərdən də öz-özündən soruşurdu: «Mənim ki, dünya malından bir təmənnam yoxdur, az qala bir əsrdən də çox bu yerlər mənim nəslimin ixtiyarında olub. Bir qonşu əyalətə kəc baxmamışam. Kimsənin va-

rında, dövlətində gözüm olmayıb. Gözütox yaşamış, nikbin həyat sürmüşəm. Bəs onda bu ağır kədər haradan dolub könlünə? Hansı məsafədən aşıb mənim içimi üşüdür, varlığıma hakim kəsilib?». Artıq özünə verdiyi suallara cavab axtarmaq həvəsində deyildi. Buna baxmayaraq, bu düşüncələr onu tərk eləmirdi. Lap elə Ağqoyunluların Cahangir Mirzəyə tabe olan qüvvələri gəlib qalada yerləşəndən bəri o, demək olar, hakimiyyətdən əl çəkmişdi, qınına girmişdi. Bütün ixtiyar Cahangir Mirzənin əsabələrinin əlində idi.

Doğrudur, Cahangir Mirzənin özünün tapşırığı və tələbi ilə heç kim ona, ailəsinə, eləcə də saray əhlinə toxunmur, güldən artıq söz demirdi. Əslində, yaşının, dövranının ötüb keçmiş olduğu bir vaxtda heç onun özünün də savaş açmaq, qalanın ona məxsus olduğunu iddia etmək fikri yox idi. Ancaq təbiət etibarı ilə çox müdrik və aqil insan olduğu üçün hadisələrin yaxşı cərəyan etməyəcəyini də görürdü. Hiss edirdi ki, qüvvələrin əsas başçısı Cahangir Mirzə hesab olunsa da, əslində başqa adamlar idarəetməni ondan qoparıb ələ keçiriblər. Ələlxüsus, Sələbiyyə xandan heç gözü su içmirdi. Bu adamın hiyləgər və qəddar olduğunu qırımından görürdü. Hər halda, Cahangir Mirzə ilə ayrı-ayrı vaxtlardakı görüşlərindən duymuşdu ki, o, əməlindən peşmanlayıb. Qardaşı Uzun Həsənə qarşı qaldırdığı qiyamla öz başını çox dolaşıq bəlaya salıb, bir cəncələ düçar olub. İndi də ha çalışıb vurnuxur, bu dolaşıq kələfi çözüb aça bilsin, ancaq bacarmır. İndi də nə irəli getməyə təpəri yoxdu, nə də geri qayıtmağa üzü…

İşlərin belə gedəcəyi təqdirdə yəqin ki, Cahangir Mirzə bu dolaşıq cəzirədən azad olmayacaqdı da. Çünki Sələbiyyə hər vəchlə onu qarşılaşmaya sövq edir. Hər vəchlə çox istəyirdi ki, Uzun Həsən Diyarbəkirə qoşun çəkməsin. O da burada uyğun vaxta qədər özünə əlavə qüvvələr toplasın. Artuq oğlu Ağru xan isə başa düşürdü ki, həm elmdən, həm də siyasətdən yaxşı baş çıxaran, qonşu əyalətlərin məqsədlərini, məramlarını yetərincə

anlayan Sara Xatun işlərin belə gedişatı ilə barışan deyil. O, tezliklə Ağqoyunluların parçalanmış qüvvələrini birləşdirmək, qiyamda əli olanların hər birini layiqli cəzalarına çatdırmaq üçün tədbir görəcək. Sara Xatun bilirdi ki, istər Qaraqoyunlu hökmdarı Cahanşah Həqiqi, istərsə də Teymurilərin tör-töküntülərini başına yığmış Əbu Səid qətiyyən istəməzdi ki, az qala yüz ilə qədər bir dövr ərzində cücərməkdə olan və nəhayət, güclənib görünməkdə olan ikinci bir Oğuz kökənli türk hökmdarının rəhbərliyi altında, başqa sözlə, güclü qonşu dövlət rəqib olaraq meydana çıxsın. Yalquzaq kimi ağız-ağıza yatan bu yırtıcılar nə qədər bir-birlərindən ehtiyatlansalar da, Qara Yuluq Osmanın nəslinə qarşı hər an birləşmək istəyində olardılar. Demək, baxmayaraq ki, Uzun Həsənə qarşı qüvvələr hələ pərakəndə idi, bu qüvvələrin birləşmək üçün yolları da açıq idi. Buna görə, Sara Xatun vaxtın uzanmağına yol verməzdi. Cahangir Mirzədən az-çox eşidib-bildiyi kimi onun istəyinə uyğun olaraq burada uzun müddət üçün daldalanmasına da imkan verilməyəcəkdi. Bütün bunları Artuq oğlu Ağru xan yaxşı bilirdi. Amma özü ciddi tədbir görmək istəmirdi. Baxmayaraq Cahanşahın və Əbu Səidin adamları yanına gəlib təkliflər verirdilər ki, Cahangir Mirzəyə qarşı sui-qəsd təşkil olunsun, o, aradan götürülsün. Hərbi başçıların da zərərsizləşdirilməsi üçün köməklər vəd olunurdu. Tədbirli Ağru xan bunların heç birini qəbul etmirdi, çünki o, sülaləsinin artıq qüruba doğru əyildiyini, siyasi aləmdən kənara çəkilməli olduğunu bilirdi. Onun hərbi qüvvələri çoxdan sarsılmış, muzdla da olsa, ayrı-ayrı dərəbəylərin ixtiyarına keçmişdi.

İndi qalanın bürcünə söykənib ətraflara nəzər yetirdiyi kimi, qalanın içərisinə də, lap elə Cahangir Mirzənin ordugahına da diqqətlə baxırdı. Anlayırdı ki, tezliklə burada güclü toqquşma olacaq. Ailənin adamlarını savaşdan xilas etmək, onların mühafizəsini qurmaq, özünə sədaqətli olan qulluq adamlarının müharibəyə qoşulmaması üçün yollar arayırdı. Onun qənaətinə gö-

rə, bugün-sabah Uzun Həsənin qoşununun ön dəstələri qalanı mühasirə etməli idi. O, görürdü ki, Sələbiyyə xan da altdan-alta müəyyən hazırlıq işləri görür, çünki artıq Sara Xatun tərəfindən əlavə elçilərin gəlişi gözlənilmir. Deməк, Sara Xatun Cahangir Mirzənin qüvvələrini ləğv etmək, bəlkə də kiçik bir zərbə ilə ilk döyüşü udandan sonra bu qüvvələrin hamısını tərəfinə çəkmək tədbirlərini də görmüşdü.

Ağru xan geriyə qayıtdı. Əhli-əyalını, nəvələrini təhlükəsiz yerlərə göndərmək, bütün ailəni xilas eləmək indi onun ümdə vəzifəsi idi. Bu məqamda yenə də sonuncu dəfə Cahangir Mirzəni görmək istədi.

Cahangir Mirzə öz hücrəsinə sığınmışdı. Bir mütəkkəyə dirsəklənib, sağ əlini də başının altına söykək vermişdi. Görkəmindən yorğunluğu dərhal sezilirdi. Üzündə təlaş vardı. Sanki ona elə gəlirdi ki, başının ağırlığına qolu davam gətirmir. Az qalırdı, əli biləkdən qırılıb düşsün… Tez-tez mütəkkənin yerini dəyişir, o biri yanı üstə çevrilir, bir az da sol əlilə dayaqlanmaq istəyirdi, amma hiss eləyirdi ki, sol gücsüzdür. Qınayan olmasaydı, elə bu dəm yerindən qalxıb, bayıra çıxar, bir andaca yəhərlənmiş atının belinə sıçrayıb, hansısa uzaq bir tərəfə, bəlkə də heç adını-ünvanın bilmədiyi bir səmtə çapıb gedərdi. Cahangir Mirzə şöhrətpərəst və mənsəbpərəst olmaqla yanaşı, həm də tamahkar və sərvət acgözü idi. Həmişə deyərdi ki, sərvəti olmayan adamın ağlının da dəyəri yoxdur. Ağla cila verən, zəkanı nura döndərən onun arxasında dayanan sərvətdir. Kimin sərvəti yoxdur, ağlını dəryadan götürmüş olsa belə heç kimin yanında xətir-hörməti olmaz, sözü keçməz. İndi bəlkə də Cahangir Mirzə kəhər atının belinə qalxıb, baş götürüb bir tənha guşəyə qaçardı, amma illər boyu yığıb, topladığı sərvətin taleyinin necə olacağı indi onu hər şeydən çox narahat edirdi. Doğmaları olmadan, var-dövləti də əlindən çıxmış halda başını harada saxlayacağını bilmirdi. Hələ üstəlik, başını qoruyub-saxlaya biləcəkdimi? Bu da onun üçün müəmmalıydı.

Ona görə, nə bir hərəkət edə, tədbir tökə bilir, nə də çıxış yolu tapırdı. Bu çıxılmazlıqda vurnuxurkən onu mühafizə edənlərin başçısı içəri girib, Ağru xanın onu görmək istədiyini deyəndə, içində bir ümid işığı yandı. Bəlkə dünyadan bir təmənnası olmayan bu qocanın ağıllı bir sözü onu düşdüyü bu fikir burulğanından xilas edə bilərdi.

– Buyursun, Ağru xan, – razılığını bildirdi. Özü də ayağa qalxdı, qapının astanasınacan yeridi. Qoca ilə hörmətlə görüşdü. Əlindən tutub işıq düşən tərəfə apardı.

Payızın buludlu günlərinin birində hücrədə bu iki şəxsin söhbətinin şahidi elə bu dilsiz-ağızsız divarlar idi. Ömrünün qüruba enən çağında taleyindən heç bir gileyi olmayan Ağru xanın təmkini və aramlı danışığı Cahangir Mirzəni heyrətdə qoymuşdu. Əvəzində Cahangir Mirzənin özünün hakimiyyət ehtirası, qarşılaşacağı döyüşdə yalnız taxt naminə qalib gəlmək istəyi, gözlərindən yanan parıltılardan da görünürdü. Ağru xan onun nə qədər çaşqın olduğunu görsə də, yenə qalibiyyət naminə bir yol tapmaq üçün vurnuxduğunu açıq-aşkar hiss eləyirdi.

– Ay oğul, biləsən ki, insanın qəlbinə girmiş olan şeytan orada rahat yuva qurandan sonra başlayır insanın ağlını oğurlamağa. Əvəzində öz ağlını verir insana, insan da başlayır şeytanın ağlı ilə idarə olunmağa, – Ağru xan bunu dedi, sonra bir qədər sükut elədi. Cahangir Mirzənin dodaqları istehzalı tənə qarışıq titrəyişlə səyridi. İstədi, qocanı elə ilk sözündəncə zəhərləsin. Yenə onun içindən iddiaları baş qaldırmışdı, hakimiyyət sevgisi qəlbini oda qalamışdı. Özünü birtəhər ələ aldı. Danışmağa tələsmədi. Gözlədi ki, içində baş qaldırmış bu etiraz dalğası ötüb keçsin, sakitləşsin.

Nəhayət, özünü toparlayıb dilləndi:

– Əmi, sizin dədə-babalarınız bizim dədə-babalarımıza hörmətlə yanaşıblar. Neçə nəsil sakit qonşuluqda, dostluq münasibətlərində ömür yola salıb. Mən də elə bura gələndə, o keçmişdə olan halal duz-çörəyi gözümün önündə tutub gəlmişdim.

– Qonaq kimi gəlmisənsə, xoş gəlib, səfa gətirmisən. Ancaq onu da bilirsən ki, qonaq kimi gəlməmisən. Sən də gördün, mən birinci gündən heç nəyə etiraz eləmədim. Səni qalaya qəbul edib yerləşdirdim. Dəfələrlə görüşlərimizdə doğru-düzgün məsləhətlər verdim, nəticəsi olmadı.

– Doğrudur, elə mən də bunu nəzərə alıb, anam Sara Xatuna xəbər göndərdim ki, barışıq yolu tapsın, izin versin, mən burada sakit yaşayım.

– Yox, oğlum, – Ağru xan etiraz elədi. – Sənin məqsədin sakit yaşamaq olsa da, buna Sara Xatun razı olmazdı. O, çox ağıllı qadındır. Bilir ki, Qara Yuluq Osmanın nəsil-şəcərə yolunu kəsmək istəyənlər səni burada sakit yaşamağa qoymazlar, öz tərəflərinə çəkməlidirlər, səndən istifadə edib get-gedə qüvvətlənən Uzun Həsənin çırağını söndürməlidirlər. Onlar Uzun Həsən kimi bir məharətli sərkərdənin – özün bilirsən, onun hərbi səriştəsi haqqında söz-söhbət hər yerdə dildə-ağızda gəzir – burunlarının ucunda güclü dövlət yaratmasını istəməzlər. Elə buna görə, sənin silahından ona qarşı yararlanmaq cəhdi elə indinin özündə də onlar üçün əsas məqsəddir.

– Bəs mənim bir çıxış yolum yoxdurmu? – Cahangir Mirzə əlacsız-əlacsız soruşdu, həm də artıq onun bu sorğusundan Ağru xan bir çarəsizlik, yazıqlıq duydu. İndi bayaqkı hakimiyyət sevdası, iddialar yağı qurtarmış piltə kimi gözlərindən sönüb getmişdi.

– Yox, hər bir insan üçün bütün çətinliklərdən çıxış yolu var.

– Bəs o çıxış yolu nədədir?

– O sənin öz varlığında, ruhunda gizlənib, gərək bütün qərəzlərdən, kinindən, qəzəbindən qurtulasan, yalnız bundan sonra o çıxış yolunun işığını öz varlığında təcəssüm etdirərsən.

Bəlkə də Cahangir Mirzə yenə nəsə soruşacaqdı, bəlkə Ağru xanı daha başqa mətləblərdən də söz açacaqdı. Ancaq qalanın bayır tərəfində gəranayların hayqırtıları aləmi başına götürdü.

Təbil gurultuları qalanın divarlarında əks-səda verib, tükürpədici vahimə yaratdı.

Bu vaxt Cahangir Mirzənin baş mühafizi hövlnak içəri girdi:

– Əyalətin sərhədlərindəki keşikçilərdən xəbər gəlib ki, Uzun Həsənin qoşunu Diyarbəkirə yaxınlaşır.

Cahangir Mirzə artıq ayaq üstə idi. Ağru xan da ayağa qalxmışdı. Qabaqda Cahangir Mirzə, arxasınca Ağru xan qalanın çıxışına tərəf getdilər.

* * *

Ordu asta-asta irəliləyirdi. Qoşunun sağ cinahında – meymənədə və sol cinahda – meysərədə süvarilər, mərkəzi – qul hissəsində isə məxsusi geyimli atlılar gedirdi, arxasınca isə ehtiyatda olan nizami ordu alayı məsafə qət edirdi. Ordunun önündəki dəstələrdə – münqəlayda coşqun döyüş ruhu elə uzaqdan sezilirdi.

Sara Xatunun kəcavəsinin ətrafında əlli nəfərlik çevik və sınanılmış süvari dəstəsi vardı. Uzun Həsən əvvəlcə anasının bu narahat, səfərə gedişatını əngəlləmək istəmişdi. Hiss etmişdi ki, anası Cahangir Mirzə ilə qarşılaşmanın nəticəsindən çox nigarandır. Ona görə də bu çarpışmada iştirak eləmək üçün təkid eləmişdi. Əvvəlcə Uzun Həsən istədi ki, Cahangir Mirzəyə qarşı heç bir kin-küdurət göstərməyəcəyini, qardaşına qarşı heç bir qəzəbinin olmadığını, anasına doğru-dürüst anlatsın, ancaq gördü ki, anası qətiyyən razılaşmır. Çünki Sara Xatun Uzun Həsənin güzəştə gedib bağışlayası olsa belə, Cahangir Mirzənin fürsət düşən kimi onu aradan götürə biləcəyindən ehtiyat edirdi. Doğrudur, Sara Xatun Cahangir Mirzənin mətin qüvvəsi olmadığına əmin idi. Ancaq həyatın necə gözlənilməzliklərlə dolu olduğunu bildiyindən o, ehtiyatı əldən vermək istəmirdi. Başlıca məqsədi o idi ki, oğlanlarının hər ikisini xilas etsin, düşməni özünə güldürməsin. Hətta Üveys Mirzəni də yanınca aparırdı və ona tapşırmışdı ki, o, heç bir döyüşə girməsin. Onun yeganə

tapşırığı anasının yanında olmaq, yeri gəlsə, tövsiyələrini yerinə yetirmək idi.

Üveys Mirzə də can-başla buna razı olmuşdu. Çünki əvvəldən dava-dalaşla arası yox idi. Onun işi ticarətlə, alış-verişləydi. Əyalətin də alış-veriş işləri, ticarəti elə əvvəlcədən ona tapşırılmışdı. Doğrudur, Cahangir Mirzənin dövründə bu alış-verişdən demək olar, ona bir xeyir qalmırdı. Bütün gəlir əyalətin xəzinəsinə ünvanlanırdı. Yerdə qalanı da Cahangir Mirzə mənimsəyir, götür-qoy edir, ordu quruculuğuna yönəldirdi. Hələ bir, Üveys Mirzə qapazaltı olmuş, ondan əlavə xərclər də tələb edirdilər. Həm də deyirdi ki, bu xərclər orduya əlavə qüvvələr cəlb etmək üçündür. Üveys Mirzə hiss eləyirdi ki, Cahangir Mirzə bu əlavə qızılları yalnız orduya əlavə qüvvələr gətirmək üçün sərf eləmir. Sələbiyyə xanla gizli danışıqlar aparır, dəstələr yaradır. Hətta bu barədə maraqlananda deyir ki, bizim inanılmış adamlardan ibarət çevik döyüşçü alaylarımız olmalıdır, biz yeri gələndə, canımızı onlara etibar etməliyik. Onlar da bizi sədaqətlə qorumalıdırlar. Ən azı bizdən aldıqları haqqın müqavilində buna borcludurlar.

Bir dəfə Üveys Mirzənin olan-qalan bir ovuc qızılını da Cahangir Mirzə çəkib əlindən alanda, bu barədə Sara Xatuna məlumat verəcəyini demişdi. Əvəzində Cahangir Mirzə kiçik qardaşının üstünə bozarmışdı:

– Sən bilirsən, bu əyalətin mühafizəsi mənə tapşırılıb. Mən də üzərimə düşən işi gücüm çatan qədər yüksək səviyyədə icra etməliyəm.

– Sənə ayrılan qızılları ki, götürmüsən. Özün bil, əgər narahat deyilsən, onda nə üçün nahaqdan özündən çıxırsan? Axı mən bu haqq-hesablara görə cavab verirəm. Mənə de görüm, bu hesabatlar dəqiq aparılsa, qalan kəm-kəsir üçün mən nə cavab verim?

– Sən çox dərinə getmə, Üveys, bu siyasət işləridir, sənin bu məsələlərdən başın çıxmaz. Yaxşı olar, haqq-hesabı dəqiq apara-

san. Axı mənim bildiyimə görə yerdə hələ xeyli qızıl qalır, bəs onlar haradadır?

Üveys Mirzənin durduğu yerdə rəngi qaçmışdı. Nə deyəcəyini, nə cavab verəcəyini bilməmişdi. Düşünmüşdü ki, bu gözüdoymaz qardaşı yəqin, onun araya gətirmədiyi yolüstü qazanclar haqqında da məlumat yığıb. Hər səfərdən sonra gələn xeyirin Üveys Mirzə tərəfindən yeyildiyi haqqında Sara Xatuna məlumat versəydi, onda bu alış-veriş işi də tamam əlindən alınardı. Üveys Mirzə də qalardı gözlərini döyə-döyə. Elə bil ki, onun qəlbindəkiləri Cahangir Mirzə göydə oxumuşdu.

– İndi nə deyirsən? Sara Xatuna sən məlumat verirsən, yoxsa mən olan-qalanı təfərrüatıyla ovcuna qoyum?

Üveys o zaman az qaldı ki, Cahangir Mirzənin bu sözlərindən sonra ayağına düşüb yalvarsın, bu söz-söhbət öz aralarında qalsın. Hətta özünü saxlaya bilmədi. Sağ əlinin şəhadət barmağını dodaqlarının üstünə qoydu. Bunu da Cahangir Mirzə belə başa düşdü ki, qardaşı hər cür təklifə razıdı. Təki bu barədə nə diş bilsin, nə də dodaq.

Hər halda, Üveys Mirzə düşündü ki, bu, yeganə çıxış yoludur. Kimsəyə heç nə deməmək daha üstündür, əslində, o, bilirdi bu maliyyə, haqq-hesab başdan-ayağa cəncəl işdir, söz-söhbət araya gəlsə, Cahangir Mirzə xoruz səsi eşitməmiş elə dəlillər, sübutlar gətirəcəkdi ki, Üveys Mirzənin özünü müdafiə üçün deməyə heç bir sözü olmayacaqdı. Son nəticədə də Cahangir Mirzə sudan quru çıxacaqdı. Üveys Mirzənin də etibarı əlindən gedəcəkdi. O, ayağa qalxıb, qardaşının iki qollarını əlləri ilə tutdu:

– Qardaş, bizim qazancımız əlimizdə qalan elə bu xırım-xırdadır. Onu da gözüyumulu aparıb əyalətin xəzinəsinə verəsi deyilik ki? Bir hissəsinə Uzun Həsən qılınc-qalxan alsın, at ilxılarını birəbeş artırsın, bir hissəsinə də anamız Sara Xatun bulaq çəkdirsin, yetim-yesirə pay ayırsın, yedirdib-içirsin. Bəs onda bizim gecə-gündüz çalışmağımızın əvəzi harada qalsın?

– Hə, mən elə əvvəldən bilirdim ki, sən ağıllı qardaşsan, özü də xeyirini-ziyanını heç qardaşından da az istəmirsən.

Cahangir Mirzənin bu kinayəli kəlmələri Üveys Mirzənin yeddi qatından keçmişdi. Onu içindən doğrayıb-kəsmişdi. Qardaşının qəddarlıq yağan gözlərinə baxan Üveys Mirzə xəyalına gətirmişdi: «Heç sən də sağ gözünün xeyirini sol gözünə qıyan deyilsən. Var-dövlət sənin üçün qardaşından da, anandan da çox-çox üstündür». Ancaq o, bu sözləri demədi. Uzun illərdən bəri o, bu həqiqəti dərk eləmişdi ki, əgər dünyada var-dövlət, sərvət yığmaq, firavan yaşamaq istəyin varsa, bütün gücünlə gərək dilini dinc saxlamağı bacarasan, dodaqlarını kilidləməyə güclü qətiyyətin olmalıdır. İndi də o, özünü sakitləşdirdi, bir qədər tox tutdu. Bir az geri durdu, arada var-gəl elədi. Yenə qayıdıb Cahangir Mirzəyə yaxınlaşdı:

– Nə deyirəm ki, bundan sonra bütün haqq-hesab ikimizin arasında həllini tapar. Yerdə qalanını Sara Xatunun yanına apararam, o da özü bilər neyləyər, hara xərcləyər.

– Sən də aralıqda işsiz-gücsüz qalıb it boğuşdurmazsan. Bu boyda Amid bəylinin mühasiblik – maliyyə işini aparmaq üçün səndən yaxşısını görmürəm. Amma gərək bir qədər də ağıllı və təmkinli tərpənəsən.

– Baş üstə, baş üstə, Cahangir Mirzə. Sənin şücaətin hamıya bəlli olduğu kimi, ədalətin də məlumdur. Mənim özüm yaxşı görürəm ki, sən özün mənimlə necə qayğıyla davrandın. – Üveys Mirzə bu sözləri dilində desə də, ürəyində qan ağlayırdı. İmkanı olsaydı, elə həmin andaca xəncəri Cahangir Mirzənin kürəyinə saplayar, çuxasının ciblərinə acgözlüklə yığdığı qızılları təzədən geri götürər, qardaşı namərdi də qan içində çabalaya-çabalaya qoyub gedərdi. Bunu eləyə bilmirdi. Birinci, ona görə, o, Cahangir Mirzə ilə dava-dalaşa çıxmağa cəsarət eləməzdi. Yanından asdığı gödək qılıncı qınından sıyırmağa macal tapmamış Cahangir Mirzə onun başının üstünü kəsərdi. Lap elə qılınc savaşı olmasa

da, Cahangir Mirzə bir anda sol əli ilə onun yaxasından yapışar, sağ əlinin də barmaqlarını boğazına keçirərdi. Bircə anda onu boğub əldən salardı, sonra bərəlmiş gözlərinə baxıb yerə tullayar, hələ böyrünə bir təpik də ilişdirərdi.

…İndi anasının yanınca atın belində Diyarbəkirə tərəf irəliləyən Üveys Mirzə Cahangir Mirzə ilə necə qarşılaşacağını, ona nə deyəcəyini xəyalında çək-çevir edirdi. Allaha yalvarıb-yaxarırdı ki, kaş elə ilk savaşdaca, Cahangir Mirzənin ölüm xəbərini eşidəydi, heç onun qan sızmış, qızarmış gözlərinə baxmağı Yaradan ona nəsib etməyəydi. Ancaq Üveys Mirzənin nəyi necə düşünməyindən asılı olmayaraq, ordu hərəkətdən qalmırdı, irəliyə addımlamaqdaydı. Hər təpəni, gədiyi aşdıqca, sanki təhlükə onun üstünə yeriyirdi. Üveys Mirzə isə susa-susa xəyal aləmindəydi: «Birdən Cahangir Mirzə bu cür böyük xəyanətdən sonra yenə bu bulanıq axan suların içindən qupquru, tərtəmiz çıxsa, onda onun halı necə olacaqdı? Hələ Cahangir Mirzə Amid bəyliyindən çıxmamış, qardaşına tapşırmışdı ki, ona çatası əmanətləri vaxt tapıb ala bilməsə də, zamanınacan saxlasın, haqq-hesaba xəyanət eləməsin, işdi-şayət əgər qulağı başqa söz çalsa, yerin deşiyindən onu çıxarıb cəzasını verməli olacaq». İndi Üveys Mirzə başına haranın daşını salsın, doğmaca qardaşına necə can-sağlığı arzulasın? Allah ona da bir cəza vermir, canı qurtarsın.

Düşündüklərini dilinə gətirməyən Üveys Mirzə dərindən ah çəkdi. Bu zaman heç o, diqqət eləməmişdi ki, atı lap kəcavə ilə yanbayan Sara Xatun da onun ah çəkməyini lap açıq-aydın gördü.

– Hə, Üveys, niyə belə ah çəkdin? – anası qayğılı-qayğılı soruşdu.

– Neyləyim, aləmlərin anası, bu dünyanın işlərindən baş çıxarmaq olur ki?

– Doğru deyirsən, oğlum, bir qardaş ki ölkəsinə, əyalətinə xəyanət eləyə, qardaşına qarşı qiyam qaldıra, anasının da üzünə ağ ola… Bundan betəri varmı?

Üveys Mirzə anasının sözlərinə cavab verməzdən əvvəl xeyli dinmədi. Elə cavab axtardı ki, anası da narazı qalmasın. Gələcəkdə hadisələrin son ucunda özü də öz dediyinin cəzasını çəkməli olmasın. Axı, Üveys Mirzə bilirdi ki, Cahangir Mirzə Sələbiyyə xan kimi bir hiyləgərə inanır. Birdən o Sələbiyyə xan da elə bir tor qurar, işlər Cahangir Mirzənin xeyrinə qurtarar, onda onun cavabının çiy tərəflərini yan-yörəsində olan satqınlardan biri Cahangir Mirzəyə çatdırsa, onun canını heç kim, heç nə xilas edə bilməyəcəkdi. Ona görə, bir qədər ehtiyatlı olmağı qərara aldı.

– Darıxma, ay ana, Allah haqq ilə gedənin yanındadı. Kimin haqqı daha üstündürsə, qalib də o gələr.

– Bəs qardaş qanı axsa, necə? – Sara Xatun bir qədər əsəbi halda dilləndi.

– İnşallah, aləmlərin anası olan yerdə, qardaş qanı da axmaz. Axı qardaşlar da bilməmiş deyillər ki, onların yolunda ürəyinin yağını əridən, min cür əzab-əziyyətlər çəkən ana var. Onun hüzurunda övladları bir-birinə qılınc çəkə bilər?!

Üveys Mirzənin bu ağıllı sözləri Sara Xatuna bir az təmkin gətirdi. Elə bil ki, onu sakitləşdirdi. Ürəyində Allaha dua elədi. Nədənsə ona elə gəldi ki, Üveys Mirzə bu sözləri havadan demir. Onun analıq inamını yenidən özünə qaytarmaq üçün söyləyir.

* * *

Ağru xan Artuqlu həyəcanlı gəranay səslərini, təbillərin gurultusunu aydınca eşidirdi. Qalanın içində bir qaçhaqaç, qovhaqov başlamış, haray-həşirdən qulaq tutulurdu. Belə həyəcanlı vaxtlarda İç qalada yaşayanlar, xüsusilə, Ağru xanın əhli-əyalı haraya yığışmağı, təhlükəsiz yerə toplaşmağı əvvəlcədən dürüstləştdirmişdi. Ümumiyyətlə, gözlənilən hadisənin nədən ibarət olduğunu, həyəcanın səbəblərini Ağru xan bildiyindən heç o qədər nigaran deyildi. O, yaxşı bilirdi ki, Sara Xatun Ağru xanın Qara Yuluq Osman nəslinə nə qədər sədaqətli olduğundan

xəbərdardır. Ta babası Hüseyn xan Artuqlunun zamanında Qara Yuluq Osmanla bu dostluğun bünövrəsi qoyulmuşdu. Uzun illər ərzində də Hüseyn xan Artuqlunun tabeliyində olan Diyarbəkir qalası Qara Yuluq Osmanın himayəsində olmuş, oranı təhdid edən hər hansı bir yağıya da Qara Yuluq Osman qılıncını sıyırmaqla gücünü göstərmişdi. Əslində, Artuqlunun dövründən üzübəri bu yerlər də Qara Yuluq Osmanın tabeliyində olmuş, onun tərəfində Hüseyn xanın qüvvələri mərdliklə döyüşmüşdü. Əlaltından Sara Xatunla Ağru xan arasında da aparılan danışıqlarda Ağru xan öz mövqeyini ayrıca bildirmişdi. Yəni bir kimsənin gücü çatmazdı ki, Ağru xanı Sara Xatunun əleyhinə müharibəyə qaldırsın. Ağru xan Sara Xatunun yanına gedən elçisinə aydınca başa salmışdı, qoy aləmlərin anasına məlum olsun, mən hər bir işin qan-qadasız ötüşməyinə çalışacam. Əks təqdirdə, hər hansı bir məcburiyyətə baxmayaraq, Ağru xanın qılıncı öz sinəsinə sancılar, ancaq Qara Yuluq Osmanın nəvəsi Uzun Həsənə tərəf şığımaz.

Əlbəttə, Sara Xatun da göndərdiyi adamlarla Ağru xana çatdırmışdı ki, imkan daxilində Cahangir Mirzəyə vəziyyəti doğru-dürüst anlatsın. Ən başlıcası, onu Sələbiyyə xanın gözlənilməz hiylə manevrlərindən gücü çatdığı qədər qorusun. Ağru xan da Sara Xatunun nə dediyini, nəyi istədiyini yaxşıca anlamışdı. Öz adamları vasitəsilə hər vaxt Cahangir Mirzənin canını qoruyur, onu bir xətərə tuş gəlməkdən mühafizə edirdi. Ancaq burası da var idi ki, Ağru xan Cahangir Mirzəni kifayət qədər inandıra bilməmiş, onu Sələbiyyə xandan ayırmağa gücü çatmamışdı.

Əslində, bu sarıdan elə Ağru xanın özü də, Cahangir Mirzə də gücsüz idilər. Çünki bütün hərbi qüvvələrə Sələbiyyə xanın özü başçılıq edirdi. Silah-sursat, ayrı-ayrı döyüş dəstələri… bütün bunların hamısını Sələbiyyə xan əlində cəmləşdirmişdi. Hələ Ağru xan hiss edirdi ki, bu məsələni çox açıb-ağartmamağı Cahangir Mirzənin özü də istəyir. Üstəlik, əgər Ağru xan bir balaca qətiyyət göstərib, qaladakı hakimiyyətini bərpa eləmək istəsəydi,

onda Sələbiyyə xan ordunu qalanın daxilinə yeridər, Ağru xanın bütün əhli-əyalını qılıncdan keçirər, varını-yoxunu talayar, heç Cahangir Mirzəyə də aman verməzdi. İndiki halda bu məsələlərin tamam açılmamağı, həm Ağru xanın, həm də Cahangir Mirzənin xeyrinə idi. Çünki qonşu əyalətlərdə də, həm Cahangir Mirzəni, həm də Ağru xanı nəsil-şəcərələrinə görə bir ittifaqda birləşmiş güc mənbəyi kimi görənlər vardı. Lap elə Qaraqoyunluların özləri belə istəyirdilər ki, Cahangir Mirzə daha güclü çıxsın, Uzun Həsənlə axıracan çarpışmaq qüdrətində olsun. Onlar nə qədər ağır döyüşlər aparsalar, bir-birini bir o qədər taqətdən salarlar. Sələbiyyə xan isə kim idi ki, onu da sayalar? Diyarbəkiri gözaltı eləmiş qonum-qonşu qalanın Sələbiyyə xanın əlində olduğunu bilən kimi, hücum çəkər, qüvvələrini bir suiçimində darmadağın edər, ərzaq ehtiyatlarını da, cəbbəxanasını da, ilxılarını da ələ keçirərdilər. Bax, bütün bu işlərin hamısı necə deyərlər, zəncinin qıvrım saçları kimi bir-birinə qarışmışdı. Ağru xan da bir vaxt Sədinin «Gülüstan»ından oxuduğu zənci başının tükləri barədə hekayətini indi təsadüfən yada salmırdı. Yaxşıca görürdü ki, onun özünə kimin haqlı, kimin haqsız olduğu məlum olsa da, çoxlarına bu məsələ tam aydınlığı ilə bəlli deyildi. Odur ki, axırıncı dəfə üzünü Cahangir Mirzəyə tutdu:

– Bilirəm, Sələbiyyə xan səni məcbur edəcək ki, qoşunun qabağına gedəsən, vuruş meydanına çıxasan. Çalış, mümkün qədər yayınasan, qabağa keçməyəsən…

Ağru xan fikrini Cahangir Mirzəyə tam açıq çatdırmaq cəhdindəydi. Cahangir Mirzə isə bu müdrik qocanın nə demək istədiyini onsuz da yaxşı anlayırdı. İndi özü-özünü bəlaya salmış, odla su arasında qalmışdı. Bilmirdi ki, vəziyyətdən necə çıxsın? Anlayırdı ki, cəbhənin önünə yaxınlaşsa, bədxahları onu asanlıqla bada verə bilərdilər. Bunu da ancaq Sələbiyyə xanın təhrikiylə yerinə yetirərdilər. Əlbəttə, Sələbiyyə xan görsəydi ki, vəziyyət onun ziyanına dəyişir, onda o, Sara Xatuna, Uzun Həsənə axırıncı

zərbəni Cahangir Mirzəni öldürməklə vurmağa çalışardı. Cahangir Mirzə üçün çətin idi. Axı ona da inanan qüvvələr az deyildi. Onun bircə yolu qalırdı: öz mühafizlərinin əhatəsində qoşunun əsas cəmləşdiyi yerin lap ortasında mövqe tutmaq. Əgər döyüş baş verərdisə, qarşı-qarşıya gələn qüvvələrin üstünlüyü Uzun Həsənin tərəfində olardısa, təhlükə ona yaxınlaşana qədər canını xilas edə bilərdi.

Cahangir Mirzə heç nə demədi. Onsuz da Ağru xan da, o da – ikisi də ayaq üstə idi. Hücrədən, hər kəs çıxıb özünə münasib bildiyi tərəfə gedəcəkdi. Cahangir Mirzə çoxlu qan-qadalar görmüş, bir vaxtlar şücaəti ilə böyük ad-san qazanmış bu kişini dönüb başdan-ayağa süzdü. Özü də gördü ki, Ağru xan əvvəl gördüyü adam deyil, indi elə bil, bu həyəcanlı xəbərlər, şeypur sədaları, təbillərin gurultusu onu dəyişdirmiş, damarlarından axan qanını coşdurmuşdu. Kişinin gözləri oynayırdı. Qartal kimi iti nəzərlərlə baxır, sivri burnunun ucunda, yanaqlarında bir qızartı da əmələ gəlmişdi. Doğrudan da, yaşlaşmasına baxmayaraq, artıq müharibənin yaxında olduğunu bilən Ağru xanın damarlarında dədə-babasından qalma cəngavərlik, igidlik əlamətləri üzə çıxmışdı. Cahangir Mirzə bu qocanı heç belə təsəvvür eləmirdi. Təkcə elə xanın üzünə baxmaqla, müharibənin nə demək olduğunu anlamaq olardı. Və Cahangir Mirzə də gördüyü bu qocanın timsalında indicə anladı ki, anası nə üçün hakimiyyəti ona yox, böyük qardaşı Uzun Həsənə vermişdi. Deməli, müharibə təkcə qoşuna başçılıq eləmək deyildi, həm də hər bir igidin, qəhrəmanın özünün ruhundakı güc idi. Bu gücü gərək yerinə və vaxtına görə, öz zamanında səfərbər edə biləsən. Yoxsa, müharibənin təkcə qılıncı yox, elə qara-qorxusu, ölüm vahiməsi adamı bəri başdan tərki-silah edər, onu qorxaqlıq adlanan bir düşmənin caynağına verər. Həmin qorxaqlıq da yalançı igidlik iddiasında olan, hakim olmaq tamahının quluna çevrilən hər kəsi külli-aləmin qabağında xar eləyər. Onu şərəfsizcəsinə ayaqlar altına atar, hətta adamlar

üstünə qılınc çəkməyi, sinəsini nizə ilə deşməyi belə özlərinə rəva bilməzlər. Çünki əsl döyüşçü cəngavərlə vuruşmağı üstün tutar. Qorxaqla üz-üzə gəlməyi vüqarına sığışdırmaz.

Bəli, Hüseyn xan Artuqlu nəslinin yadigarı olan Ağru xanın gözlərinin qabağında böyük cəng meydanı açılmışdı. Bir tərəfdə Qara Yuluq Osman, onun yanında Hüseyn xan Artuqlu atlarına süvar olub qoşunun qabağında dayanmışdılar. Bir tərəfdə də Qara Yuluq Osmanı, eləcə də onun bütün tərəfdarlarını yerlə-yeksan etmək üçün müsəlləh düşmən qoşunu dayanmışdı. Aradakı məsafə heç də çox deyildi. İndi birazdan sanki axırıncı döyüş təbilləri gurlayacaq, bu üz-üzə dayanmış atlı cəngavərlər qartal zirvədən şığıyan kimi bir-birinin üstünə şığıyacaqdılar. Kimin qılıncı kimin başında qana boyanacaqdı, bunu hələ bilmək olmazdı. Gözünün qabağında oynayan bu xəyali mənzərəni Ağru xan seyr eləməkdən doymurmuş kimi Cahangir Mirzənin başının üstündən asimana doğru boylandı. Axı, qala divarları da aranı kəsmişdi. O, çölü görə bilmirdi. Bəlkə elə bu səbəbdən o, bu xəyalındakı döyüşü havada müşayiət edirdi. Cahangir Mirzə dünyanın çox belə cənglərindən çıxmış qocanı heyran-heyran süzməkdən doymurdu və elə indicə ona əyan olmuşdu ki, qalaya ilk addım basdığı gündən əgər bu kişinin məsləhətlərinə əməl etsəydi, onun dedikləri ilə durub-otursaydı, heç Sələbiyyə xan da onun başının üstündə cəngavərə çevrilməz, quyruq bulamağa macal tapmazdı. Vaxtında görə bilmədiyi dünyanın görmək istədiyi üzünü aydınca görərdi.

Birdən Cahangir Mirzənin ağlına gəldi ki, bəlkə elə buradan atına süvar olub, üz tutub hansısa bir məchulluğa çəkilsin. Təki başını salamat saxlasın. Onsuz da onun ailəsini Sara Xatun harada olsa tapıb himayə edəcəkdi, bir də qalırdı yığdığı sərvəti, hələ Sələbiyyə xanın ələ keçirə bilmədiyi qızılları, qiymətli daş-qaşları – onların kiçik hissəsini qurşağının arasına yığıb lap altdan belinə bağlayardı. Daha Sələbiyyə xanın ixtiyarında olan varidatına əli

çatmayacaqdı. Ancaq hara getsin, kimə pənah aparsın, bunu bilmirdi. Əgər Qaraqoyunlu Cahanşahın hüzuruna üz tutsaydı, hələ bilmək olmazdı ki, Cahanşah onu necə qarşılayacaqdı. Dədə-babadan qalma ədavətin müqabilində inanmırdı ki, Cahanşah «xoş gəldin» deyib ona qol-qanad versin. Teymurilərə üz tutmağın da bir mənası yox idi. Onsuz da elə əvvəldən də onlar Qara Yuluq Osman soy-kökünə, tarixdə ad qoymuş bu cəngavərin adına-sanına heç vaxt rəğbət bəsləməmişdilər. Sadəcə, Teymurilər Qara Yuluq Osman nəslini qoymazdılar heç dirçəlsin, ayaq açsın, qüvvə toplasın, imkan yaransaydı, onu elə beşikdəcə boğardılar. Amma ərazi baxımından Amid bəyliyinin üstünə yerimək Teymurilərə sərf eləmirdi, onda gərək əvvəlcə Qaraqoyunluları yer üzündən siləydilər. Bu da ki, hərbi qüvvələr baxımından sərfəli deyildi. Həm də yerli əhalinin Teymurilərə rəğbəti yox idi. Harada olsa onları işğalçı kimi qarşılayırdılar. Girəvə düşən kimi onların adlı-sanlı adamlarını öldürür, at ilxılarını mənimsəyib, üzü dağlara doğru qovurdular. Bu biri tərəfdən, Osmanlıların gücü ilə əhatə olunmuş ərazilərdən də hücum mümkün deyildi. Əslində, Qara Yuluq Osmanın nəslini hifz edib saxlayan, qoruyan bu əlverişli mövqe idi.

Cahangir Mirzə üzbəüz dayandığı qocanın cəsarətinin qarşısında xəcalət çəkirdi, utanırdı. Elə bil ki, onun hündür boyu xanın qabağında bir az kiçilmişdi. Nitqi də yox idi ki, bir söz desin. Amma birtəhər özündə cəsarət tapıb, qocaya tərəf yeridi. Onu qucaqladı, sinəsinə sıxdı, özündən ixtiyarsız olaraq gözlərindən axan yaşlar qocanın da üzünü, saqqalını islatdı. Ağru xan qocalığına baxmayaraq, cəsarətli, təpərli qolları ilə onu sinəsinə sıxdı, bağrına basdı, sanki, bir ciyərparasını oxşadı. Onun necə titrədiyini, ürəyinin qorxudan necə döyündüyünü açıq-aşkar duydu:

– Qorxma, bala, Allah kərimdi.

Cahangir Mirzə müdrik xanın sifətinə gözlərinə bir anlığa baxıb yenə baxışlarını çəkdi. O, qocanın gözlərinə daha baxa bil-

mədi. Nəsə demək istədi, kəkələdi, elə bil yalvarırdı. Ağru xan sanki onun nə dediyini anladı:

– Mən çalışıb özümü Sara Xatuna çatdıraram.

Cahangir Mirzədən ayrılıb qətiyyətli addımlarla uzaqlaşdı. Cahangir Mirzə yerində donub qalmışdı. Deyərdin ki, elə ayaq üstə canı çıxmışdı.

* * *

Sara Xatun hələ Amid bəyliyindəki iqamətgahdan çıxmamış, həm oğlanları ilə, həm də iqamətgahda şəxsi nüfuzu olan adamların hər biri ilə ayrılıqda söhbət eləyib hər birini dinlədikdən, hər kəsin qənaətini öyrəndikdən sonra, onları bir yerə toplamışdı. Doğrudur, bu yığıncaqda çox adam iştirak eləməsə də, elə bu azlığın özü də bəyliyin idarə olunmasında əhəmiyyətli rolu olan adamlar idi. Diyarbəkirə hərbi yürüşün əsas məqsədi Cahangir Mirzəni birinci növbədə məğlub eləmək, onu darmadağın eləmək, üsyankarların cəzasını vermək, bir sözlə, hərc-mərcliyi aradan qaldırmaq deyildi. Bundan öncə əsas məqsəd Diyarbəkir qalasını ələ keçirmək, Qara Yuluq Osmanın vəsiyyətini yerinə yetirmək idi. Hələ oğluna da onu demişdi ki, biz imkan daxilində qan tökməməyə çalışacağıq, əgər zərurət yaranarsa, o başqa məsələ, ona da gedəcəyik. Sara Xatun yaxşı bilirdi ki, Amid bəyliyinin bu vadidə yerləşən iqamətgahında oturub qalmaqla, məhdud ərazilərə nəzarəti saxlamaqla, qəddar qonşuların əhatəsində nəinki bu məkanı, heç özlərini də qoruya bilməzlər.

Qara Yuluq Osmanın vəsiyyətinin əsasında o dayanırdı ki, daha böyük əraziləri birləşdirməklə, Bayandurlar nəslinin güclü dövlətini qurmaq üçün birinci növbədə Diyarbəkir qalasına sahib olmaq gərəkdir. Yalnız bundan sonra paytaxt Təbriz olmaqla, Bayandurlar nəslinin gücünü aləmə göstərə bilən dövlət yaratmaq olardı. Ancaq o vaxt Qara Yuluq Osman demişdi ki, hələlik Qaraqoyunlular çox güclüdürlər, vaxtından əvvəl onlar-

la toqquşmaq böyük fəlakət gətirər. Gərək o zamana qədər səbir edəsiniz ki, Qaraqoyunluların öz içindən çöküşü mərhələsi başlasın.

Elə bunu da Uzun Həsənə Sara Xatunun özü xatırlatmışdı. Və Uzun Həsənə anlatmışdı ki, Cahangir Mirzə arada o qədər də dayağı olmayan maneədir. Biz əgər qüvvələrimizi itirmədən qoşunun döyüş ruhunu qoruyaraq, Diyarbəkiri ələ keçirə bilsək, bundan sonra Cahanşahla danışmaq o qədər də çətin olmayacaq. Onsuz da Cahanşahın özü də hiss eləyir ki, qonşu ərazilərə hücum eləmək, böyük hərbi qənimətlər ələ keçirmək iqtidarında deyil. Dövlət də o vaxt güclü olur ki, ərazilərinə göz dikən düşmənlərini həm iqtisadi, həm də hərbi qüdrəti ilə çəkindirsin. Sara Xatun da bütün bunları illər uzunu hafizəsində hifz eləmişdi. Ona görə indi nüfuz sahibi olan ayrı-ayrı tayfa başçıları, hərbi dəstələrin rəhbərlərini sarayda həmişə məsləhətə çağırdığı müdrik adamları ətrafına toplamışdı ki, əsas məsələni anlatsın.

– Mən sizi bura ona görə çağırmışam ki, biz daha bundan sonra bəyliyin vadiyə sığınmış bu iqamətgahında yaşamayacağıq. Ərazilərə nəzarət edən kənd-kəsəyin əmin-amanlığını qoruyan kiçik bir dəstəni burada saxlamaqla, qalan qoşunu və eləcə də bütün əmlakınızı, əhli-əyalınızı da yığıb-yığışdırıb ordunun arxasınca Diyarbəkirə yola düşməlisiniz. Tanrı yolumuzu açsa, bəxtimizdə uğur varsa, bir daha bura qayıtmayacağıq. Mən öyrənmişəm, Diyarbəkir qalasında kifayət qədər imkan var. İqamətgahın bütün adamlarını inşallah, orada yerləşdirəcəyik.

– Aləmlərin anası yəqin ki, doğru buyurur. Mən də başa düşürəm ki, bizim bəxtimizin açarı Diyarbəkir qalasındadır. Amma bir məsələ var, bəlkə köç-külfəti sonraya saxlayaq. – Uzun Həsən cəsarət eləyib dilləndi, anasının nə deyəcəyini də gözləmək üçün sözünün izahını vermədi. Gözlədi ki, anası onun fikrinə münasibət bildirsin. Məsələyə Sara Xatun münasibət bildirməzdən əvvəl üzünü ətrafdakılara tutdu:

– Bəs siz necə düşünürsünüz? Nə deyirsiniz? – Sara Xatunun sözlərindən sonra araya dərin sükut çökdü. Kimsə dillənmədi, handan-hana Əbdülsəid Əfəndi izn alıb, fikrini bildirdi:

– Hörmətli Sara Xatun, izzətin bundan sonra da daha üstün olsun, şöhrətin gündən-günə daha çox yayılsın. Aləmlərin günəşi kimi parıldayır, bizim hamımızın ruhuna işıq salırsan. Mən bilirəm ki, nə desən, onu xeyirə yozmalıyıq. Amma dədə-babadan bir söz də yadigar qalıb: Şər deməsən, xeyir gəlməz.

Sara Xatun hiss elədi ki, Əbdülsəid Əfəndi bir qədər tərəddüd eləyir. Ona görə onu ruhlandırmaq üçün bir qədər də məhrəmliklə gülümsündü. Və onun təbəssümüylə aradakı gərginlik sovuşdu. Sonra da üzünü elə Əbdülsəid Əfəndiyə tutub dedi:

– Əbdülsəid Əfəndi, sənin gəncliyin Qara Yuluq Osmanın yanında keçib, sən onun necə cəsarətli bir sərkərdə olduğunu yaxşı bilirdin. Qardaşın Əmir Əsgər də Qara Yuluq Osmanın uğrunda hər an başını verməyə hazır idi. Elə digərlərinizin də ata-babaları Qara Yuluq Osmanın ən qüdrətli silahdaşları olublar. Lətif bəy, Rəhim bəy Köylü, İlyas Ağa və başqaları köhnə kişilərin yaxşı yadındadır. Onların şan-şöhrəti haqqındakı söz-söhbəti heç biriniz unutmamısız və nə yaxşı, bu gün o hünərli insanların yolunun davamçısı kimi siz də Qara Yuluq Osmanın varisi Uzun Həsənin qol-qanadı, vuran əli, düşünən beyinlərisiniz. İndi keçirəm əsas mətləbə. Mən başa düşürəm. Yəni Əbdülsəid Əfəndinin narahatlığından belə çıxır ki, olmadı elə, oldu belə. Yəni bütün əhliəyalı, uşağı-böyüyü, bir sözlə, əlsiz-ayaqsızı da hərbi yürüşə cəlb eləmək bir qədər xatalıdır. Ancaq mən deyirəm ki, hər şey ölçülüb-biçilib, qalanın özünün mühafizləri bizim tərəfimizdədir. Ağru xan Artuqlu Hüseyn xan Artuqlunun nəslindəndir. Onları vaxtilə ora Qara Yuluq Osman yerləşdirib. Onlar da bu günəcən bizim xanədana hörmətlə yanaşıblar. Alış-verişlərini də bizim yollardan keçməklə aparıblar. Bac-xəraclarını vaxtı-vaxtında ödəyiblər. Onların qüvvələri bizə qarşı vuruşmayacaq. Hələlik

Cahangir Mirzə də tərəddüd içində vurnuxur. Özünüz bilirsiniz ki, onu hansı qüvvə tora salıb, bəlkə indi Cahangir Mirzənin özü də çıxış yolu axtarır, yəni bizim ordumuzun qabağında duruş gətirəsi gücləri yoxdur. – Sara Xatun yenə nitqini saxladı və diqqət eləyib gördü ki, adamlar daha bayaqkı kimi şübhə və nigarançılıqla yox, indi onu dinc bir əhvalla dinləyirlər. Bütün şübhələr dağılmış, hamının düşüncəsində, baxışında qətiyyətli bir inam bərqərar olmuşdu. İndi Əbdülsəid Əfəndi də nigarançılıqdan çıxmışdı.

– Mən də elə bunu istəyirdim ki, məsələnin hər tərəfini aləmlərin anası onu dinləyənlərə açıb göstərsin, hər kəs mətləbi daha yaxşı bilsin, ancaq düşünürəm ki, analar anasının hələ bizə deməyə sözü var. Mən onu istəyərdim ki, Cahangir Mirzənin də taleyini elə indidən müəyyən edən hökmü verəsiniz.

Sara Xatun həqiqətən kişinin uzaqgörənliyinə ürəyində «əhsən» dedi, başa düşdü ki, Əbdülsəid Əfəndi istəyir ki, Uzun Həsən Cahangir Mirzənin üzərinə qəzəblə getsə də, hirsini-hikkəsini boğmağa bacaran, qərəzi, kini öldürsün, özünü ələ alsın, soyuqqanlı olsun. Bu məqamda onun müdaxiləsi lap yerinə düşmüşdü. Əbdülsəid Əfəndi də, Uğur kişi də, qeyriləri də əslində elə məsələnin imkan qədərində sülhlə həll olunmasına çalışırdılar. Qaldı, məsələnin ikinci tərəfinə, daha Əbdülsəid Əfəndi dərinə getmədiyi üçün Sara Xatun da sözünü bir az da üzə çəkdi:

– Hərbi qüvvələrin arxasınca yeriyən dinc əhali zərər çəkməyəcək. Biz bu barədə düşünmüşük. Dinc əhalinin düşərgəsi müharibə meydanından kənarda olacaq. Biz onların mühafizəsini unutmayacağıq.

Bu axırıncı müşavirədə iştirak edənlərin hər biri sıxıntıdan çıxmış, şübhədən qurtulmuşdu. Ona görə fikir və mülahizələrini deməkdən çəkinmirdilər. Söhbətin sonunda Sara Xatun ziyafət verdi. Adamlar məclisdən şən əhvalla dağılışdılar. Əslində, elə həmin məclisdə bir daha Uzun Həsəni gələcək böyük xanədanın

hökmdarı kimi hamı təqdir etmiş, hələ öncədən təbrik də eləmişdilər.

...Atlı dəstələr ağır-ağır irəliləsə də, vaxt öz hökmünü vermiş, aradakı məsafəni də yemiş, qısaltmışdı. Qoşun o qədər yaxınlaşmışdı ki, hətta qala bürcləri, oradan baxanlar açıq-aydın görünürdülər. Ağru xan Artuqlu qaladan gizli yolla çıxdı. Üzü dağa tərəf söykənmiş kiçik talada yəhərli-yüyənli at və beş-üç nəfərlik mühafizə dəstəsi onu gözləyirdi. Ağru xan tədbirli adam idi. Bilirdi ki, onun qaladan çıxmağından Sələbiyyə xan xəbər tutsa, yarı yolda saxlatdırıb, qətlə yetirər, bütün planlar da alt-üst olardı. Amma indi elə bir yerdən çıxmışdı ki, uzaqbaşı onun qalanı tərk eləyib təhlükəsiz yerə qaçmağını zənn edərdilər. Ağru xan bilirdi ki, döyüş sabah baş tutacaq, əlbəttə, belə bir döyüş olsa. Elə ona görə də özünü Sara Xatuna çatdırmaq üçün o, tamam əks tərəfə uzun müddət yol getməli, sonra dağları dolanıb gələn qoşunun arxa tərəfindən onlara yaxınlaşmalıydı. İndi Ağru xanı öz canının qorxusu düşündürmürdü, o, bütün iradəsiylə özünü Sara Xatuna yetirib ömrünün bu ahıl çağında onu oğul itkisindən qorumaq məqsədini daşıyırdı. O, bununla nəslinin Qara Yuluq Osmana borcunu qaytaracağını düşünürdü. Hətta qalada qalmış olan övladlarının, nəvə-nəticələrinin taleyindən bədgüman görünsə də, yenə bu addımı atmalı olmuşdu, digər tərəfdən Cahangir Mirzədən də arxayınçılığı vardı. Cahangir Mirzə, hər halda, onun əhli-əyalına bir xətər toxunmasına yol verməzdi.

Səhərə yaxın ordugaha yaxınlaşdı. Keşikçi dəstələri onları qarşılayıb, sorğu-suala tutdular. Ayrı-ayrı dəstəbaşıları Ağru xanı və onun dəstəbaşılarını dindirdilər, nəhayət, onları Uzun Həsənin yanına gətirdilər. Uzun Həsən Ağru xanı bir neçə dəfə görmüşdü. Onun Amid bəyliyinə qonaq olduğunu, atası ilə hörmətli-izzətli münasibəti olduğunu yadına saldı.

Nəhayət, qaladakı əhvalı soruşdu. Ağru xan demək olar ki, özünə tabe olan bütün qüvvələrə tapşırıq verdiyini, hamının sə-

birsizliklə Sara Xatunun yolunu gözlədiyini bildirdi. Üstəlik, onu da dedi ki, Cahangir Mirzə indi can qorxusu altındadır.

– Niyə? – Uzun Həsəni daxilən bir istehza bürüsə də, bunu büruzə vermədi, ancaq qısaca elə sualla kifayətləndi.

– O, Sələbiyyə xanın üzərində demək olar, təsir gücünü tamam itirib. – Ağru xan da söhbətə çox rəvac vermədi. Elə qısaca dediyindən sonra dayandı. Ancaq Uzun Həsənin fikrə getdiyini görüb özü söhbəti davam etdirdi: – Bilirsən, oğul, bəlkə də onun hakimiyyət tamahı gözünü bağlayıbmış, ona görə hiyləgər adamların toruna düşübmüş. İndi o, bu qədər uzun vaxtdan sonra bütün imkanlarını ölçüb-biçdi, gördü ki, ac yırtıcılar kimi ətrafı hədələyən düşmənlərin arasında çətin baş çıxara bilər. Ona görə, özünü tamam itirib, bərk peşman olub. Mən indi onu özümlə də gətirə bilərdim, ancaq indiki halda qaladakı vəziyyəti nəzarətdə saxlayar, dinc əhalinin əmin-amanlığını təmin edər, üstəlik, bizim qüvvələrin də döyüşə qatılmasının qarşısını alar.

Uzun Həsən yaxşı başa düşürdü. Bu dünyagörmüş müdrik qocanın danışdıqları Cahangir Mirzənin vəziyyətini yüngülləşdirən, qismən də günahlarını bağışlamaq üçün atılan addımlardır.

Səhər açılırdı. Artıq qala Uzun Həsənin qüvvələri tərəfindən mühasirəyə alınmışdı. Onun qarşısında, qalanın çöl tərəfində Sələbiyyə xana tabe ordu birləşmələri müsəlləh idilər.

* * *

Sara Xatun təzəcə işıqlanmaqda olan səhərin alatoranlığında Ağru xan Artuqlunun ordugaha gəlməsi xəbərini eşidəndə əhvalı yaxşılaşdı. Bir xeyli susdu, handan-hana öz-özünə danışırmış kimi: «Mən belə də gözləyirdim! Onlar dədə-baba salam-kəlamı, duz-çörəyi unutmazdılar» – pıçıldadı. Əgər yaxında kimsə olsaydı, Sara Xatunun bu sözlərindən bəlkə də heç nə başa düşməzdi. Ancaq həmin anlarda Sara Xatunun yaddaşı uzaqlara qayıtmışdı. O uzaqlara ki, orada Qara Yuluq Osman ilin ayrı-ayrı

fəsillərində, xüsusilə, Novruz və Qurban bayramları günlərində yaxın əyalətlərin başbiləni, ağsaqqalı olan adamları çağırar, məsləhət-məşvərət eləyər, sonra onların şərəfinə böyük ziyafətlər verərdi. Bu qonaqlıqlarda hörmət sahibi olanlar Qara Yuluq Osmanın lap yaxınlığında əyləşərdilər. Doğrudur, Diyarbəkirə ağalığı elə Hüseyn xan Artuqlu eləyər, ancaq hər bir vaxt Qara Yuluq Osmana güvənərdi. Hətta Qara Yuluq Osmanın yürüşlərinə öz tərəflərindən qüvvə də göndərər və çox vaxt elə dəstənin başında özü durardı. Qara Yuluq Osman Hüseyn xan Artuqluya bərk etibar edirdi, çünki sınaqlardan çıxmışdı. Hətta ən təhlükəli yürüşlərdə Qara Yuluq Osmanın döyüşdüyü yerdə onun dörd tərəfində Hüseyn xan Artuqlunun mətin əsgərləri mövqe tutardı. Sonralar Hüseyn xan Artuqlu Qara Yuluq Osmanın hüzuruna gəlib balaca, dağınıq əyalətləri birləşdirib bir mərkəzə yığmağı öz dilindən təmənna etmişdi. Qara Yuluq Osman da xeyli fikrə getmişdi. Doğrudur, o, özü də əvvəldən bu barədə çox düşünübdaşınmışdı. Onsuz da əyalətləri idarə edənlər Qara Yuluq Osmana kifayət qədər tabeçilik göstərirdilər. Lakin bir növ bu tabeçilik könüllülük üzərində bərqərar idi. Qara Yuluq Osman da onlara qətiyyən təzyiq göstərmirdi. Əlbəttə, bunun səbəbləri vardı. Əgər tərəflərdən hər hansı biri cüzi narazılıq etsəydi və bu narazılığın da əsnasında ixtilaflar, münaqişələr yaranıb dərinləşsəydi, Qara Yuluq Osmana qarşı kənar qüvvələrin də təzyiqi artacaqdı. Ondan ayrılan əyalətləri hər kəs özünə tərəf çəkməyə çalışacaqdı.

Qara Yuluq Osman bütün bu işləri zamanı gələnəcən eləmək istəmirdi. Ümumiyyətlə, belə bu niyyətdə olduğunu kimsəyə büruzə vermirdi. Ağıllı Hüseyn xan Artuqlu gəlib ondan xahiş etdi ki, birlik məsələsi tezliklə həll olunmasa, bir tərəfdən Teymurilər, o biri yandan da Qaraqoyunlular, hələ o arxadan da Osmanlılar ayrı-ayrı əraziləri zəbt edəcəklər. Çünki açıq-aşkar görünür ki, güclü qonşular yaxınlıqdakı zəif qonşuları nəinki saya salmır, heç tanımaq belə istəmirlər.

Bunu da Hüseyn xan Artuqlu uzaqgörənliklə başa düşmüşdü. Hələ bir az da zamanı qabaqlamışdı. Osmanlılar Hüseyn xan Artuqlunun sahibləndiyi əraziləri, xüsusən, Diyarbəkir tərəfləri zəbt etmək üçün qüvvələr toplayırdılar. Özü də bir vaxt bu könüllü qüvvələr Diyarbəkir tərəfdən olub, müəyyən narazılıqlar üzündən Osmanlılar tərəfə getmiş olanlardan yığılırdı.

Qara Yuluq Osman diqqətlə baxırdı. Şübhəsiz, anlayırdı ki, Hüseyn xan Artuqlu yalnız qara-qorxuya görə hüzuruna gəlməyib. Uzun illərin sədaqətli dostluğunun bir-birinə verdiyi qarşılıqlı inamın sayəsində o, bu görüşə təşrif gətirib. Özü də Qara Yuluq Osmana bəslədiyi dərin inamla.

– Hə, Hüseyn xan, sən deyirsən ki, biz indiyədək birgə deyildik?

Qara Yuluq Osman özü məsələnin belə ağır tərəfindən başladı. Ancaq sözünün davamını gətirməyə tələsmədi. Gözlədi ki, görsün Hüseyn xan Artuqlu onun bildiyindən daha artıq nə deyəcək?

– Əziz qardaşım, sən bilirsən ki, bu Amid bəyliyinə bünövrə qoyandan bəri sənin hər bir söz-sovuna mən «baş üstə» demişəm. İradəmə və istəyimə uyğun səmimi şəkildə. Fikrimdən, xəyalımdan da özgə bir nəsnə keçməyib. Unutmamışam yaxşılığını. Çünki Qazi Bürhanəddin haqlı cəzasına çatıb sənin qılıncının sayəsində o dünyaya təşrif aparmasaydı, Diyarbəkir tamam dağılıb gedəcəkdi. Allah bilir, indi hansı yad əllərdə didilirdi. Bəlkə qalanın daş-divarı da sökülüb-dağılmışdı. Amma sənin sayəndə biz Diyarbəkiri qoruyub-saxlaya bildik. Qazi Bürhanəddinin nəslindən olanlara da elə sənin sayəndə hörmət olundu, toxunulmadı.

– Bunlar çoxdanın əhvalatlarıdır. – Qara Yuluq Osman yenə danışmaq ixtiyarını Hüseyn xan Artuqlunun özündə saxladı. Gözlədi, görsün illərdən bəri halal çörək kəsdiyi dostluğu bundan sonra necə davam etdirmək fikrindədir.

– Bilirəm, bunlar keçmişin unudulmaz hadisələridir. – Hüseyn xan Artuqlu bir az dikəldi və qətiyyətlə cavab verib sözünə əlavə elədi:

– Ancaq indinin olayı da elə o çoxdankı əhvalatın özündən gəlir. Keçmişini unudan heç gələcək haqqında düzgün danışa bilməz.

– Unudan deyirsən, yoxsa, unutmaq istəyən? – Qara Yuluq Osman bu dəfə bir az qımışdı. Dostunu bundan artıq cırnatmaq istəmirdi. Hüseyn xan Artuqlunun da üzünü təbəssüm bürüdü. Ancaq sözünün əsasını da deyib-bitirmək istədi.

– Hə, elədir, unutmaq başqadır, unutmaq istəmək başqa. Hansı yana baxsan, ikisinin də zərəri birdir.

– Necə? – Qara Yuluq Osman lap ciddiləşdi. – Necə yəni ikisi də birdir?

– Bəli, bəli, mən elə belə də düşünürəm. Unutmağın da fəsadı var, unutmaq istəyənin də. Əlbəttə, cüzi fərqlər ola bilər. Düşünürəm ki, nəticə eyni olar.

– Biz həmişə səni böyük bəy bilmişik. Əslində, bizim böyük bəyimiz sən olmusan. Biz də əyalətləri sənin adınla qoruyub-saxlamışıq. – Hüseyn xan Artuqlunun bu sözləri Qara Yuluq Osmana xoş təsir bağışladı. Adəti üzrə – bir məsələ haqqında qəti fikir deməzdən əvvəl tük bitməyən çənəsini ovuşdurardı. Bunu Hüseyn xan Artuqlu da bilirdi. Ona görə bir az səbir elədi. Nəhayət, Qara Yuluq Osmanın özü dilləndi:

– Orası elədir, bilirəm, ancaq mən də yaşlanıram. Bunun üçün də indiyə qədər mənə hörmətlə baş əyib, təzim edənlərlə hakimiyyət dilində danışmaq istəmirəm. Yaxşı olar ki, hakimiyyəti daha cavan olan kimsələrdən birinə verək. – Qara Yuluq Osman bilirdi ki, Amid bəyliyinin ətrafında özünü mühafizə edib saxlayan kiçik bəyliklərin hər birinə başçılıq edənlər elə onun özü ilə həmyaş olanlardı. Bir çoxları da əyalətləri ağsaqqallıqla idarə edir. Onlar da elə Qara Yuluq Osmandan yaşca, bəlkə, böyük olardılar.

İndi bu hakimiyyət söhbəti araya gələndə Hüseyn xan Artuqlu qətiyyətlə bildirdi:

– Mənə hakimiyyət gərək deyil. Bu hakimiyyəti, dişimə vurmuşam, az-çox nədirsə, dadmaq üçün mənə sən vermisən. Sənin sayəndə əyaləti qoruyub-saxlamışam, Diyarbəkiri mühafizə etmişəm, xain-xəyanətkar adamların əlinin altına güc yığıb, üzünə ağ olmağına yol verməmişəm. İndi isə zaman başqa hava çalır. Osmanlılar o tərəfdən Diyarbəkiri ələ keçirmək üçün hazırlıq görürlər. Onların qarşısında təkbaşına dayanmaq mənlik deyil. Bütün bunların hamısını mən yaxşı görürəm. Belə olduğu təqdirdə, yəni hər şeyi itirə biləcəyimiz bir halda, təhlükənin üstümüzə yeridiyi bir zamanda durub hakimiyyət iddiası etsək, bu dünyada heç izimiz-tozumuz da qalmayacaq.

– Doğrudur, Hüseyn xan, o biriləri də belə düşünürmü? – Qara Yuluq Osman soruşdu.

Hüseyn xan Artuqlu həmin anda yenə cavab vermədi, azca fasilə verməklə düşünməli oldu. Çünki Qara Yuluq Osman məsələni başqa cür qoyurdu. Bir növ, Hüseyn xan Artuqludan digər əyalət ağalarının əvəzində cavabdehik istənilirdi. O da birbaşa bu cavabdehliyi öz üzərinə götürməyin məsuliyyətli olduğunu anlayırdı. Bu səbəbdən az tərəddüd etdi. Ancaq çox dərinə varmadı. Bir anlığa onun beynindən keçdi ki, ölmək-ölməkdi, xırıldamaq nə deməkdir. Gərək hər şeyi Qara Yuluq Osmana açıq desin:

– Bəy, bir Allah şahiddir ki, özümə cavabdehliyimə heç bir şübhəm yoxdur. Başqalarının da sizə ürəklə tabe olub güvəndiklərini, arxalandıqlarını yaxşı bilirəm. Onu da yaxşı bilirəm ki, bu hakimiyyət deyilən elə bir azardır ki, lap Allahın bacısı oğlunu tap qoy, yolundan çıxarar. İndi sən öz gücünü göstərməlisən. – Hüseyn xan Artuqlu sözünün bu yerində dayanıb, Qara Yuluq Osmana bir də diqqətlə baxdı. Gördü, yenə çənəsini ovuşdurur. Bildi ki, Qara Yuluq Osman onu diqqətlə dinləyir. Elə sözünü qaldığı yerdən davam elədi: – daha düzgününü desəm, bir vaxt

haqqı ayaqlamış Qazi Bürhanəddinin başını bədənindən ayıran qılıncını yenə sıyırmalısan. Bu qılıncsız insan övladı təhlükə başının üstünü kəsdirsə belə, Allahın da birliyini yadından çıxarar. Amma sənin qılıncının kəsəri yenə öz qüdrətini göstərsə, onda hər kəs ağlını başına toplayar, deyər ki, sənin yerin haradırsa, orada da durmalısan.

– Yaxşı, indi necə məsləhət bilirsən? – Qara Yuluq Osman onun üzünə baxmadan elə astadan səsini çıxartdı.

– Hə, mənim əzizim, mən yenə sənin qardaşlığınla, kölgənə sığınıb yaşamaq istəyirəm. Hələ qılıncımda güc, qolumda təpər görürsənsə, hələ məni kardan düşməmiş hesab edirsənsə, mən yenə sənin sağ tərəfində durmağa hazıram, varam, əgər layiq bilirsənsə. Ömrümü əlimdə qılınc, başa vursam, özümə şərəf sayaram.

Qara Yuluq Osman Hüseyn xan Artuqlunun gözlərinə diqqətlə baxdı. Onun necə şövq və həyəcanla danışdığına diqqətlə qulaq asdı. Üstəlik, onu da hiss etdi ki, xeyli coşub, riqqətə gəlib.

Araya sükut çökdü. Hiss olunurdu ki, tərəflər bir-birini yaxşıca başa düşür. Onu da anlayırdılar ki, Hüseyn xanın dediyi birlik məsələsi olmasa, hələ üstəlik, nəinki olmasa, hətta geciksə belə, qara-qorxulu təhlükə əjdaha kimi yeriyib Diyarbəkiri də, Amid bəyliyini də, və elə Amidə sığınan digər əyalətləri də çox asanlıqla nəfsinə çəkib udacaq. İşlərin bu cür, belə bir məqamda qarışması Qara Yuluq Osman üçün gözlənilməz deyildi. Onsuz da o, az-çox qüvvə sahibi olanların hamısını bu günlərdə bir yerə yığacaqdı. O, istəyirdi ki, yaşının bu ahıl çağlarında ətraf əyalətlərlə Amid bəyliyi arasında münaqişə baş verməsin. Oğlu Cəlaləddin Əlinin bu dünyanın fitnə-fəsad qarışıqlığından yaxşı baş çıxaracağından tam arxayın deyildi. Ona görə də gördüyü işlərdə daha artıq sabitqədəm, tədbirli və həm də təmkinli olmağı vacib hesab edirdi.

– Hə, Hüseyn xan, mən biləni sənin əli qılınc tutan bir oğlun gərək olsun.

– Bəli, elədir, var.

– Onun adı necə idi?

– Onun adını elə sən qoymusan axı, qardaşım, gərək yadından çıxmamış olsun.

Dostunun bu sözləri Qara Yuluq Osmana yenə xoş bir əhval gətirdi. Həqiqətən də onun yadına düşdü ki, iyirmi beş il bundan əvvəl dostunun oğlunun mübarəkbadlığına getmiş, orada təklif etmişlər ki, adı gərək Qara Yuluq Osman qoysun. O da qoy – Ağru xan olsun, – demişdi. Bütün bunlar xatırladıqca yaddaşında çözələnirdi. Hələ onu da demişdi ki, böyüyər, bizə arxa-dayaq olar…

…Bütün bunlar Sara Xatunun yaddaşında təzələnirdi. Son anda Ağru xan Artuqlu Qara Yuluq Osmanın övladlarına doğmalıq hissini unutmamışdı.

…Sara Xatun sədaqətli insanların hələ də yaşadığına fərəhlənir, sevincindən qanad taxıb pərvazlanırdı.

* * *

Xəyal Sara Xatunu uzaqlara aparsa da, günün gərgin əhvalı onun daxili dünyasına təsirsiz ötüşməmişdi. Doğrudur, ordugah ön cəbhədən bir az aralıda idi. Özü də Sara Xatunun düşərgə saldığı yer xeyli hündürdə yerləşmişdi. Birazdan duman çəkiləcək, çən-sis yol-yamacdan uzaqlaşacaqdı. Ətraf büsbütün, açıq-aydın görünəcəkdi. Onsuz da bu yerlərin təbiətinə, otən gənclik çağından kifayət qədər bələd idi. Və elə Uzun Həsənin yerli şəraitə görə hərbi qüvvələri hansı səmtə yerləşdirməyini də müşahidə etmək istəyirdi. Doğrudur, bu sarıdan o, oğlundan arxayın idi. Bilirdi ki, buradan göz yetirib qaladakı qüvvələrin təxmini sayı-hesabını öyrənmək olar. Həmçinin süvarilərin harada dayanacağını, piyadaların necə hərəkət edəcəyini, döyüşün nə vaxt, hansı şəraitdə başlayacağını… Bütün bunlara Uzun Həsən şəxsən nəzarət edəcəkdi. Sara Xatun hər vəchlə tapşırmışdı, döyüş meydanındakı hadisələrə qarışmayacaq. Ancaq başqa bir məsələ də vardı: bu

da ondan ibarət idi ki, Uzun Həsənin təkidlərinə baxmayaraq, ona «bir səbir elə, tələsmə, qoy görək, ümumi vəziyyət necədir?» – demişdi. Uzun Həsən daha anasının sözünü çevirməmişdi. Fikirli-fikirli nə üçün Sara Xatunun qətiyyətli tapşırıq verməməsinin səbəblərini araşdıra-araşdıra hərbi mövqelərin tutulması, qoşunun yerləşdirilməsi ilə məşğul olmaqdaydı. Uzun Həsənə qalsaydı, elə səhəri dirigözü açılar-açılmaz döyüşə başlayardı. O, artıq neçə ildən bəri hərbi savaşlarda çevik hərəkətin nəticəyə necə təsir etdiyini sınaqdan çıxarmışdı. Fəhmlə hiss elədi ki, Sara Xatun indilikdə qılıncların sıyrılmasına razılıq vermir. Doğrudur, o, qəti bir söz deməmişdi, Uzun Həsən də özbaşına hərəkət etmək istəmirdi.

İndi Ağru xanla görüşün ola bilsin ki, elə bir xeyirli tərəfi var ki, bunu hələ Uzun Həsən yaxşı başa düşmür. Anası ilə bu barədə söhbəti o, ötən gün eləmişdi. Fikirləşirdi ki, bəlkə, Sara Xatun elə bu gəlişin özünü gözləyirmiş. Bu gəliş bəlkə, tamam başqa bir xəbər gətirmiş olaydı. Ağru xanı ordugahda saxlayıb əvvəlcə Sara Xatunun yanına yüyürmək, yoxsa, elə birgə söhbətdə iştirak etmək? – bunun üçün tərəddüdləri vardı. Uzun Həsən çox yaxşı başa düşürdü, elə indicə qılıncı sıyırıb hücum əmri vermək məsələnin çox qısa bir zamanda həlli demək olardı. Bunu isə eləməkdə çətinlik çəkirdi.

Vaxtilə Cahangir Mirzə Amid bəyliyindən ayrılıb Diyarbəkirə üz tutanda da o, anasına təkid etmişdi ki, təqibə razılıq versin. O vaxt da Sara Xatun belə bir təqibin xeyir gətirməyəcəyini demişdi. İndi vaxt keçmiş, Cahangir Mirzə qalada kifayət qədər möhkəmlənmişdi. O vaxt az qüvvə ilə Cahangir Mirzənin və Sələbiyyə xanın təkidlərilə Amid bəyliyindən ayrılmış qüvvələri təqib edib asanca  darmadağın etmək mümkün idi. Amma indi gör, nə qədər artıq qüvvə lazım olmuşdu. Hələ üstəlik, bədxah qonşular da Amid bəyliyində baş verən ixtilafdan xəbərdar olmuş, kimin nə fikrə düşdüyünü də Allah bilirdi. Bəlliydi ki, Uzun

Həsən müəyyən hərbi qüvvələrin hərəkət zamanı döyüş taktikasını mövqeyinə uyğun dəyişsin, qədərincə Sara Xatundan yaxşı bilmiş olsun. Lakin Sara Xatunun özünün də bir bildiyi vardı. Yoxsa heç yürüşdə iştirak eləməzdi də! Görünür, bu yürüşə rəvac versə də, hadisələrin necə gedəcəyini tam dəqiq öyrənmədiyindən o, qoşundan ayrılmamış, özü də Diyarbəkirə hərəkət edən qüvvələrə qoşulmuşdu.

Aydın məsələdir ki, Sara Xatunun əlinin üstündə əl yox idi. Əgər o, gəlmək istəmişdisə, ona Uzun Həsən yox deyə bilməzdi. Çünki ən çətin məqamlarda hər hansı bir məsələnin aydınlaşdırılması üçün Sara Xatunun dəmir məntiqə söykənən ağılı-düşüncəsi kara gəlir, mütləq dolaşmış torların hamısı təzədən açılıb sökülür. Onun bircə kəlmə sözündən sonra sanki aydın yol görünür. Bütün bunların hamısını Uzun Həsən başında, qarmaqarışıq fikirlərin içində götür-qoy edirdi. Birdən ona sanki göydən vəhy gəldi. Düyünlənmiş yumruğunu ağzına tərəf apardı, dişlərinə söykədi: «Ay dadi-bidad, gör mənim ağlıma necə gəlməyib? Axı Sara Xatun istəmir, bu döyüşdə Cahangir Mirzə həlak olsun. Əgər biz Cahangir Mirzənin əyalətə xəyanət eləyib Sələbiyyə xanın fitnə-felinə uyub bəylikdən ayrılmasına dözməyib, arxasınca düşsəydik, demək, qardaş qırğını düşəcəkdi. Və heç şübhəsiz, Cahangir Mirzə həmin dövrün qəzəbinə düçar olacaqdı. Yəqin, Cahangir Mirzə də qardaşı ilə qətiyyətlə döyüşəcəkdi. Hələ məsələnin bütün tərəfləri aydın olmadığından qoşunda da tərəddüdlər işini görərdi. Axı Sələbiyyə xanın adamları yatmırdılar. Onlar da hər iki dəstənin arasını bulandırır, qarışdırır, şayiələr yayırdılar. Guya Cahangir Mirzənin Amid bəyliyindən ayrılmasına Sara Xatun rəvac verib. Guya Sara Xatunun özü Cahangir Mirzənin tərəfindədir. Onu, sadəcə, Uzun Həsən girov kimi saxlayıb. Bütün bunların hamısı ildırım sürətilə Uzun Həsənin düşüncələrini alt-üst edirdi. Artıq tamam əyan olmuşdu ki, bütün bunların hamısı Cahangir Mirzənin sağ qalması üçün imiş… Elə indi döyüşü gecikdirməkdə,

hadisələrin gedişatını izləməkdə Sara Xatunun məqsədi oğlunu xilas eləməkdi.

Bu fikirlər Uzun Həsəni əzir, bəzən az qala onda anasına qarşı şübhə yaradırdı: bəlkə şayiələr doğrudur. Bəlkə Sara Xatun Cahangir Mirzənin əməllərinə haqq qazandırıb, məni ləngitməkdə başqa planı var?.. Düşüncələr Uzun Həsəni yorub əldən salırdı. Onu boğan bir məsələ də vardı. Axı Sara Xatunun belə bir fikri vardısa, bəs onda niyə qoşunun döyüşə hazırlıq vəziyyətini bu qədər dəqiqliklə öyrənmiş, əlavə qüvvələrin də çəkilib gətirilməsini tapşırmışdı. Yox, deyəsən, məsələ bir az da tündləşirdi. Axı bu vəziyyət çox da davam edə bilməzdi. Elə indinin özündə o, Sara Xatunun yanına getməli, məsələni tam aydınlaşdırmalı idi. Ağru xan hələ gözləməli olacaqdı.

Hər tərəfə gözətçilər qoyulmuş, ətrafa ciddi nəzarət olunmaq tapşırılmışdı. Heç kim əlini silaha ata bilməzdi. Ancaq birdən Sələbiyyə xanın fitnəsilə təxribatlar olacağı ehtimalı diqqətdən kənarda deyildi.

– Aləmlərin anasının sabahı xeyirli olsun.

Sara Xatun fərşin üstündə qoyulmuş taxtda rahatca əyləşmişdi, əli çənəsində idi. Hiss olunurdu ki, açılan səhər heç də ona fərəh gətirməyib. Üz-gözündən məlum idi ki, Sara Xatun demək olar, gecəni yatmayıb.

Uzun Həsən gəlişinin anasını açmadığını dərhal hiss elədi.

– Tək mənim yox, hamınızın sabahınız xeyir olsun – axır ki, Sara Xatun cavab verdi.

Uzun Həsən anasının bu cavabından anladı ki, Sara günün gətirəcəyi qan-qadanın iztirablarını çəkir.

– Niyə fikirlisən, canım mənim? Bayandurlar nəslinin hamısı sənin əllərini öpür. Üzünün nurunu görmək üçün növbə çəkir.

– Bəs deyirsən fikirli olmayım? Axı, birazdan sonra qarşılaşacaq qüvvələr bir-birinin qanını içməyə hazırlaşır. Axı, o tərəfdəkilər də Bayandurlar nəslidir. Siz bir-birinizi qırıb-töküb, qanını içib,

sabaha hansı gözlə baxacaqsınız? Elə bilirsən, düşmənin qabağına çıxmaq üçün Bayandurlar nəslinin anaları doğduqları körpələri bir də belə tezcənə böyüdüb, boya-başa çatdırıb, qoşuna çevirib, ixtiyarınıza verəcəklər?

Uzun Həsən gözləmirdi ki, anası belə sərt üzlə, bozarmış halda onunla söz döyüşünə çıxacaq. Əslində, heç o, indiyə qədər anasının belə gərgin sifətini də görməmişdi. İndi onu bir qədər sakitləşdirmək üçün özü də yumşalmış halda dilləndi:

– Ana, mən oğlun sənə qurban olsun, sənin ağlına da, qüdrətinə də inanıram. Elə ona görə, bura gəlmişəm ki, görüm, daha nə məsləhətin var. Axı qabaqda…

Uzun Həsən sözü uzatmağı lüzumsuz saydı. Onsuz da bir də döyüş söhbətini təzələyib anasını yenidən qəzəbləndirmək, onunla üz-göz olmaq istəmirdi. Axı buraya o, elə Saranın nə məsləhət verəcəyini bilmək üçün gəlmişdi.

Hərçənd, o da fikrindən çıxmamışdı ki, onu razı salsın, təbillər guruldasın, sinclər vurulsun, şeypurlar hamını döyüşə səsləsin. Yox, deyəsən anasının görkəmi tamam başqa hava çalırdı. Ona görə tələm-tələsik anasının fikrini bilməyi daha üstün tutdu. Yenə məsləhət özünündür. Bəs onda bu dəbdəbəylə biz bura niyə gəlmişik?

– Biz bura ona görə gəlmişik ki, Bayandurlar nəslinin bizdən ayrılmış olan qolunu geriyə qaytaraq. Daha onları qılıncın ağzına verib zəmi kimi biçməyək.

– Bəs onlar bizi qılıncın ağzına versələr, necə?

– Bax, elə məsələnin çətin tərəfi budur. Söz yox, qılınc qınından sıyrıldı, qabağında qalxan, ya qılınc görməsə, başdan, bədəndən keçəcək, qızıl qana boyanacaq.

Uzun Həsən qarşısında yarı yaşını keçirmiş, üstəlik də nəvələrinin nəvazişi ilə ruhunu aram edəsi olan qadının canında nə qədər güc və qüdrət, qüvvə olduğunu görür və buna heyrətlənirdi.

Və elə anasının danışığından anlayırdı ki, o, təkcə Uzun Həsənin, ya Cahangir Mirzənin anası deyil, elə bütün Bayandurlar nəslinin anasıdır.

– Hə, oğul, bilirsən, iş necədir? Mən düşünürəm ki, Cahangir Mirzə də, onun ətrafındakılar da sən düşündüyün qədər axmaq deyil. Onlar da bu qədər güc və qüvvə ilə əhatə olunduqlarını bilib, bir qərara gəlməlidirlər. Ən azı bizim say-seçmə qoşunumuzu görmələri üçün onlara kifayət qədər vaxt verməliyik. Bu, onların dəstəsindən olanların hamısına aydın olmalıdır. O zaman onlar kor-koranə qılınc sıyırmaz, inamla döyüşəcəkləri müşkülə çevrilər. Çünki nəticənin faydasız olacağını anlayacaqlar. Doğrudur, ola bilsin, elə adamlar olsun, axıracan hamını döyüşə təhrik eləsin.

Uzun Həsən başa düşdü ki, anası Sələbiyyə xanın adını çəkmir. Çünki artıq bu, o demək idi ki, Sara Xatun Sələbiyyə xanın səhvini başa düşüb, silahı yerə qoyub bağışlanmaq üçün gələcəyinə də inanmır. Axı Sələbiyyə xanın özü də necə böyük xəyanətlər elədiyini bilməmiş deyil.

Sara Xatun oğluna sarı baxdı. Onun hansı qərara gələcəyini, bəlkə də nə düşündüyünü də bilmək istədi:

– Hə, oğul, onu da deyim ki, ola bilsin savaş qaçılmaz olsun. Ancaq yenə hamıya tapşırmalısan, aman istəyən heç bir kəs öldürülməsin. Qaçanı qovmaq lazım deyil. Mümkün qədər Sələbiyyə xanı haqq divanına tez gətirmək, diri tutmaq lazımdır.

– Əgər döyüş meydanında həlak olsa, necə? – Uzun Həsən soruşdu.

– Bu, çox pis. İşin kökünü bilməyən camaat ona rəhmət oxuyacaq. Bax, buna yol vermək olmaz.

Uzun Həsən anasını süzdü, ürəyinə yayılan toxdaqlıq sifətində təbəssümə çevrildi.

* * *

Onsuz da Sələbiyyə xan da neçə gün idi ki, yuxu üzünə həsrət qalmış, qəfil tələyə düşmüş goreşən kimi çabalayırdı. Əvvəllər hələ Amid bəyliyindən ayrılıb harasa səfərə çıxanda, taleyin ona xoş günlər vəd etdiyini düşünürdüsə, get-gedə bu ümidlərin puç olduğuna şübhəsi qalmırdı. Gərək belə olmayaydı, axı işlər harada əyildi, kələfin ucu harada itdi ki, vəziyyət bu qədər gərginləşdi? Qabaqlar ordunun içində görünən kimi alqışlanır, yer-yerdən ünvanına xoş sədalar göyə ucalırdı. Amma son günlər bu alqışlanmalar seyrəlmiş, fərəhlənmələr elə bil qeybə çəkilmişdi. Gözgörəti hara baxırdısa, çıxış yolunu bağlanmış görürdü. Vaxt ötdükcə hövsələsi daralır, əsəbindən dilini-dodağını gəmirir, dişlərilə parça-parça eləyirdi. Arada əlini üzünə çəkdi. Ovcunda qan gördü. Deyəsən, alt dodağı partlamışdı. Tən ortadan çat vermiş, qan ordan sızmağa başlamışdı.

Birdən kələfin ucunu o qədər itirirdi ki, az qaldı xəncərini çıxarıb sinəsini yarsın. Özünü üzünə durmuş bu dünyadan qurtarsın, xilas eləsin. Ancaq bunu da bir çıxış yolu kimi heysiyyətinə sığışdırmırdı. Nə olaydı, əvvəlki kimi Cahangir Mirzə ilə bir hücrədə təklənəydi, qılıncını çəkib onu iki yerə bölər, bəlkə bununla bir az ürəyini soyudardı. Onda Bayandurlar sülaləsinin heç olmasa, bir üzvünü, bir nəfərini dünya işığından məhrum etməklə ötəri də olsa, özünə gələr, axır ki, məqsədinə çatmış kimi rahat nəfəs dərərdi. Qəzəb və qisas hissi qəfil gəlmiş tufan kimi onu qabağına alıb daşa-divara çırpırdı. Hərçənd kimsə irəli keçib ondan soruşsaydı, bu Bayandurlar nəsli sənə neyləyib, heç cavab verə bilməzdi. Axı, doğrudan da hələ yadına gəlmirdi ki, Amid bəyliyindən üzü bəri kimsə Sələbiyyəyə artıq söz desin.

…Uzun Həsənin sözlərini yadına saldı: «Quldurluğun bir gün sənin başını yeyəcək. Gəl, əməli-saleh, təmiz, pak ol. Qoçaq adamsan, tədbirlisən, qılıncını Bayandurlar nəslinin qorunmasına sərf elə. Əhli-əyalın, uşaqların da təhlükəsiz, yaxşı dolanar, elə öz başın da salamat olar».

O vaxt bu uzundraz cavanı diqqətlə dinləyən xan düşünmüşdü ki, necə bunun dizlərini qılıncla qoparıb atmaq olar, bəlkə, ondan sonra bir az adama oxşayar. Yoxsa, bu uzunluqda da adam olar?

Ancaq içindən boğula-boğula qalmışdı. Heç nə deməmişdi. Yoxsa onu elə quldurluğuna görə divan ayağına çəkər, təqsirini üzünə oxuyar, hansı yoldan keçənin nəyini aparıbsa, qaytarıb alar, bəlkə də axırda özünün boğazına kəndir keçirib atın üzəngisinə bağlayar, üzü daşlığa, tikanlığa dəhmərləyərdi. Hürkmüş at onu hara gəldi çırpar, hər tikəsini bir kol-kosa ilişdirərdi. Adamlıqdan çıxmış baş-gözünün qanı da daşları al-qırmızı boyayardı.

Yox, Sələbiyyə xan asanlıqla can əldən verən deyildi. O, belə hallarda vəziyyətdən çıxmağı bacarırdı. Hirsini ustalıqla boğur, quzuya dönür, üzünə çəkir, günahını tam olmasa da, qismən boynuna alır, qılıncını çıxarıb iki əlinin üstündə saxlayır, sonra isə dil tökmələri başlayırdı:

– Sənə qurban olum, bəyzadə, bu qılınc, bu da mənim boynum. Haradan istəyirsən, oradan vur! Heç bircə qaşıq qanım da yerə tökülməsin.

– Torpaq murdarlıq götürmür. Sənin o töküləcək qara qanın kimə lazımdır? Hansı torpağa düşsə, orda ot da bitməz.

Uzun Həsən ikrahla hərdənbir onun gözlərinin içinə baxırdı. Bu yalvarışlar, guya içindən gələn sözlər hara, baxışlarında oynayan ilan-qurbağa hara?..

Uzun Həsən gözlərindən oxuduğunu həmişə varlığından keçirəndə elə bil ki, qəlbindən başsız yellər əsirdi, soyuq bir ruzigar: Amid bəyliyinin indiki gücsüz məqamında belə bir çevik adamı itirmək düzgün olmazdı. Yoxsa, elə bu dəqiqə qılıncı ilə onun başını iki yerə bölərdi. Sələbiyyə xan Uzun Həsənin gözlərindən onun daxili qəzəblə nələr düşündüyünü ağlından keçirirdi. Sanki iki canavar üz-üzə gəldi. Birinin arxasında böyük bəylik, xanədan, güclü nəsil, o biri təklənmiş, hələ üstəlik, boğulub əldən salınmış,

gücdən düşmüş yırtıcı. Amma Uzun Həsən onu heç də gücünü itirmiş hesab eləmirdi. Bu adam əgər xanədana sadiq olsaydı, özünün fəhmi, fərasəti ilə necə böyük fayda gətirərdi. O, çevik dəstə yığmağın, qəfil hücum eləməyin, düşməni gözləmədiyi tərəfdən sarsıdıcı zərbəsilə karıxdırıb pərən-pərən salmağın mahir ustası idi.

Belə məqamlarda Uzun Həsən öz qəzəbinə – dayan, – dedi. Bu adamı aradan götürmək Bayandurlar nəslinin özünə zərbə vurmaq deməkdir. Baxmayaraq ki, Uzun Həsən onu da bilirdi ki, girəvə düşəndə bunun köhnə xisləti yenə baş qaldıra bilər. Özü də elə vaxt baş qaldırar ki, elə yerdən çalar ki, heç bilməzsən də. Adətən zəhəri qana işləyər, zəqqumu elə asta-asta canda qövr edər, çaldığını çürüdüb məhv edər.

Bir dəfə də Həsənin qəzəbi kükrədi, səbri daşdı, ancaq onu ölümün ağzına vermədi. Öz əlilə Sələbiyyə xanın əllərinin üstündə tutduğu qılıncın dəstəyindən yapışıb yuxarı qaldırdı. Sələbiyyə xanın da çiynindən çəkib yanına gətirdi. Üzünü qabağa çevirdi. Amid bəyliyinin sərhədlərindən uzaqları göstərib dedi:

– Bax, o əraziləri görürsən? Bir vaxt gələcək, biz öz dədə-baba yurdlarımızın hamısına sahiblik edəcəyik. O yerlərin hamısı bizim qılıncımızın nəzarəti altında olacaq. Əgər sən də bizimlə qalmaq istəyirsənsə, onda gərək qəlbindən hisi-pası, xəyanət hissini tamam-kamal silib atasan.

– Baş üstə, bəyzadə, – tez Sələbiyyə xan özünü yığışdırdı. Hiss elədi ki, daha ölüm təhlükəsi keçib getdi, daha ölüm qorxusu yan ötdü. İndi başqa bir girəvə keçdi əlinə – Uzun Həsəndən mənsəb almaq fürsəti. O, elə də axmaq adam deyildi ki, bu fürsəti fövtə verib qaçırsın.

Doğrudur, Sələbiyyə xan bilirdi, Uzun Həsənin hələ ona ehtiyacı var. Onun qüvvəsindən faydalanmaq istəyir. Bütün gücüylə, bacarığıyla Sələbiyyə xanı bəyliyin işlərinə qatmaq, sərhədlərin qorunmasını ona tapşırmaq istəyərdi, əgər inansaydı…

Sələbiyyə xan şübhəli qalmışdı; görəsən, Uzun Həsən ona tamam-kamal inanmışdı, ya yox, hərçənd ki, məsələnin başqa görünməyən tərəfi də vardı. Cahangir Mirzə ilə Sələbiyyə xanın uşaqlıq-gənclik illəri eyni yerdə keçmişdi. Cahangir Mirzə ilə onun arasında ancaq özlərinə bəlli olan sirlər vardı. Bu da ondan ibarət idi ki, Cahangir Mirzə bəyliyin iqamətgahında hansı karvanın haradan, nə vaxt keçəcəyini, hansı yükü apardığını, karvanda qiymətli şeylərin kimdə olduğunu öyrənib-bilir və bunu Sələbiyyə xana çatdırırdı. Sələbiyyə xan da öz növbəsində dəstəsini başına toplayır, kimsənin ağlına gəlməyəcək bir yerdə pusqu qurub gözləyirdi. Cahangir Mirzənin dediyi kimi, çəkidən yüngül, vəzndən ağır əmanətlərin pusqusunu çəkirdi. Karvan girəvəyə düşən kimi hər tərəfdən şığıyır, Cahangir Mirzənin tapşırığına əsasən, imkan daxilində, ölümə yol vermədən, qan tökmədən qiymətli şeyləri qamarlayıb alır, sonra da qəfil gəldikləri kimi, qəfil də çapıb gözdən-qulaqdan itirdilər.

Əlbəttə, qənimətin qədərini, miqdarını Cahangir Mirzə yaxşı bildiyindən Sələbiyyə xan ona toxunmurdu. Necə ələ keçiribsə, eləcə də Cahangir Mirzənin hüzuruna gətirirdi. Ancaq, karvandakı varlı tacirlərin özlərinin üstündə olan üzük, qızıl, daş-qaşları qarət etməyi haqqında Cahangir Mirzəyə əlavə məlumat vermirdi. Söz-söhbət də olanda deyirdi ki, əldə elədiyi xırda-xuruş xərci dəstənin təchizatına sərf eləyib, yaraq-yasaq alıb, yürüşdə sıradan çıxmış atları dəyişib. Belə-belə işlər…

Cahangir Mirzə də götür-qoy edir, sədaqətli dostunu itirməmək üçün, əldə olunan qənimətdən payını doğru-düzgün ayırırdı. Yəni payın tən yarısı Cahangir Mirzəyə yetir, qalan yarısı isə Sələbiyyə xana çatdırılırdı. O da öz növbəsində aldığı qənimətin bir hissəsini özünə götürür, qalan yarısını isə dəstədəkilərin arasında bölüşdürürdü.

Beləliklə, axır ki, onun quldurluğunun sonu çatdı. Onsuz da dəstədə olanlardan heç kim bilmirdi ki, bu yol-yolağanı göstərən

Cahangir Mirzənin özüdür. Ona görə də tutulanlar sorğu-sualın, işgəncələrin qarşısında Sələbiyyə xandan özgə bir kimsənin adını çəkə bilmirdilər. Beləcə, uzun illər ərzində bir neçə il davam edən bu talançılıq məsələsində Cahangir Mirzənin adı heç kimə bəlli olmamışdı. Hələ indiyədək də Sələbiyyə xan bu barədə heç kimə bir söz deməmişdi. İndiyə kimi, topladığı qənimətlər, var-dövlət Cahangir Mirzənin sayəsində olub. Elə Cahangir Mirzənin özü də məsələnin bu şəkildə qurtarmağından narazı deyildi. Çünki bundan sonra Sələbiyyə xan ona gərək olacaqdı, özü də çox. Bu səbəbdən də qardaşından Sələbiyyə xanı mümkünsə, bağışlamağı təvəqqe etmişdi. Uzun Həsən də fikrə gedib xeyli susmağa üstünlük vermişdi. Üzü sifətinin yanlarına tərəf, az qala çənəsinədək uzanmış bığlarını dartışdıra-dartışdıra qalmışdı. Bu da Uzun Həsənin şakərlərindən biriydi. Bir qərar qəbul edə bilməyəndə, çətinə düşəndə, fikirləri dolaşanda gah sağ əlilə bığının sağ tərəfini dartışdırır, gah da sol əlilə sol tərəfini. Bu adəti Sara Xatun da müşahidə etmişdi.

Axır ki, çox yuxarı-aşağı baxandan sonra Uzun Həsən Cahangir Mirzəyə bir söz deməsə də düşünmüşdü: Yuxarı bığdı, aşağı saqqal – ikisi də mənimdi. İndi mən onların hansından əl çəkə bilərəm? Elə bu səbəbdən Sələbiyyə xanı ümumi divan ayağına verməmişdi. Özü onunla qabaq-qənşər gəlib bir qəti cavab alanacan onu belə sıxmışdı. Və görmüşdü ki, döyüşdə ildırım kimi şığıyan, qılıncını çalmaqda əli titrəməyən Sələbiyyə xanın rəngi-ruhu necə qaçıb?..

Hər halda, Uzun Həsən də babasından az şey öyrənməmişdi. Atasından da nə ki vardı görüb-götürmüşdü. Ustadının, müəllimlərinin öyrətdikləri də həmişə çətin vəziyyətlərdə onun karına gəlirdi. Bir adam dişini-dişinə sıxıb, dodaqlarını bir-birinə yapışdırıb susanda, nə düşündüyünü gözlərindən oxuyurdu.

İndi də yaxşı başa düşürdü ki, Sələbiyyə xan xirtdəyəcən günah içərisindədir. Lap elə bir-iki məsələnin ucundan tutub onu

divara dirəsə, hər şeyi olduğu kimi boynuna alacaqdı. Amma heç bunu da istəmirdi. Onda gərək dəstənin qalan üzvləri də divan ayağına çəkiləydi. Bütün aləmə də Sələbiyyə xanın quldurluğu, yolkəsənliyi faş olaydı. Əgər onu öldürməyib saxlayacaqdısa, daha məsələnin müəyyən həddə çatmağına da lüzum qalmırdı.

Uzun Həsən o zaman demişdi:

– Sələbiyyə xan, mən sənin günahlarından keçirəm. Ancaq bundan sonra elə yaşa ki, Allah da sənin günahlarından keçsin. Elə etmə ki, bir gün xəyanətin, dələduzluğun öz başında çatlasın.

Diyərbəkirin qala divarlarının dibində hələ qaçıb dağılmamış, özünə sədaqətli adamların qarşısında dayanan Sələbiyyə xanın fikirlərindən keçən bunlar idi. Nədənsə, hələ də onun gözləri uzaq yollara tərəf baxmaqda idi. Axı o, Künəgünü Cahanşahın hüzuruna göndərmişdi. Elə indilərdə gedib çatmalıydi. Bəlkə, elə Cahanşahın da köməyi onunla birgə gələcəkdi. Bax, bunu bilmirdi.

* * *

Sara Xatun Ağru xanın gəlişini biləndə xeyli məmnun qaldı. Ağru xanla bağlı olub-keçənləri də, Ağru xanın əsli-nəslilə bağlı xatirələri yaddaşında canlandırdıqca, əhvalı bir az da durulur, işlərin onun düşündüyü kimi gedəcəyinə inamı daha da artırdı. Çünki o, Uzun Həsəni inandırmışdı ki, onun vuruşacağı, qılıncını sıyırıb üstünə gedəcəyi adamlar düşmən deyillər. Səhvə yol vermiş, yalan vədlərə aldanmış adamlardır. Bunların çoxu Bayandurlar nəslinin özünə mənsubdur. Onların içərisində elələri var ki, hər biri gələcəyin ordu başçısı olmaq qüdrətindədir. Belə adamları asanlıqla fənaya vermək nə Uzun Həsənə, nə də bütövlükdə Bayandurlar nəslinə başucalığı gətirməz. Odur ki, bir az da zamanın hökmünü gözləmək gərəkdir. İndi Ağru xan Artuqlunun Sələbiyyə xanın əlindən çıxıb bura gəlişi həm də o demək idi ki, onun ordusu Sələbiyyə xanın tərəfindən bizə qarşı döyüşməyəcək. Düşməni həmişə meydanda məğlub etmirlər ki?..

Birinci növbədə, düşməni gərək ağlınla, fəhminlə çökdürəsən. Bu vaxtın uzanmağı həm də imkan verdi ki, Bayandurlar nəslindən olanlar da düşünüb qərara gəlsinlər.

...Sara Xatun qarşısında özünə inamla dayanmış oğlu Uzun Həsənə bir də diqqətlə nəzər yetirdi. Gördü ki, daha Uzun Həsənin əvvəlki qəzəbindən heç əsər-əlamət nəzərə çarpmır. Doğrudan da, həmin anlarda Uzun Həsən düşünürdü ki, Amid bəyliyinin gələcək şöhrəti təkcə onun adı ilə yox, birinci növbədə anası Sara Xatunla bağlı olmalıdır. Bu, onun halal haqqıdır.

Cahangir Mirzənin ordunun qabağına çıxmaması, Uzun Həsənin müsəlləh ordu ilə gəlib Diyarbəkiri mühasirəyə alması, qalanın bütün giriş-çıxışlarını nəzarətə götürməsi Sələbiyyə xanın amanını kəsmişdi. Necə olsa da, onun başçılıq elədiyi adamların xeyli hissəsi Bayandurlar nəslinə mənsub şəxslərdi. Özü də əvvəllər neçə-neçə yürüşlərdən keçmiş təcrübəli döyüşçülər idi. Əgər onlardan bircəsi bilsəydi, Cahangir Mirzə ilə Sələbiyyə xanın arasında ixtilaf var, münaqişəni əsas sayıb, heç qılınclarını qından çıxarmazdılar. Bütün bu hadisələrin axarı o yerə gətirib çıxarmışdı ki, o da Künəgünü yanına çağırıb özünü Cahanşaha çatdırmağı yeganə çıxış yolu kimi qəbul eləmişdi. Əlbəttə, o, Künəgünə təlim verib yola salanda hələ Sara Xatunun da yürüşdə iştirakı ilə Uzun Həsənin qoşun çəkib gəlməyini təzəcə eşitmişdi. Sələbiyyə xanın hesablamalarına görə əgər Künəgü özünü Cahanşaha vaxtında çatdırsa, çox qiymətli almaz qaşlı üzüyüylə gözlərini qamaşdırsa, Cahanşah yəqin ki, onsuz da Bayandurlar nəsli ilə çoxdan haqq-hesab çəkmək istədiyindən bu fürsəti əldən verməz.

Sələbiyyə xan bu düşüncələrilə barmağındakı qiymətli üzüyü çıxarıb ovcunun içində atıb-tutdu. Üzüyün qiymətli almaz qaşı gunəş işığında hərdən bərq vurur, elə bil ki, göyün üzündəki günü çəkib özünə yığır, bu işığı da elə özündən ətrafa səpələyirdi. Sələbiyyə xan indiyədək elə bir çətinə düşməmişdi ki, bu qiymətli

daş-qaşı kiməsə bağışlasın. Üzüklə bağlı əhvalat indi onun dağınıq düşüncələrini alt-üst etməkdəydi.

...Cahangir Mirzənin tapşırığına əsasən Bağdaddan gələn karvanı yarıyolda qarşılayıb olan-olmazın hamısını qəsb edib, hüzuruna aparmalı idi. Karvan deyilən vaxtda Quldurluq dərəsindən keçəndə Sələbiyyə xan karvanın başının üstünü kəsdirdi. Mühafizlərin əl-qolunu açmağa imkan vermədilər. Bir-iki nəfər yüngül xəsarət alsa da, hamını tərksilah etdilər. Karvanbaşından yüklərə toxunulmayacağı təqdirdə ancaq qiymətli daş-qaşları tələb elədi. Karvanbaşı da naəlac qalıb ölümdən canını qurtarmaq üçün nə vardısa, hamısını gətirib verdi. Sələbiyyə xanın nəzəri karvanın ortasında, üstündə kəcavə olan bir dəvəni manşırladı. Atını yaxına sürüb kəcavənin ipək pərdəsini yana çəkdi. İçəridə qız oturmuşdu. Bir anlığa Sələbiyyə xanın tülkü gözləri hədəqəsindən çıxdı. Qız elə bil ki, ayla, günlə bəhsə girib onlardan da üstün olduğunu bildiyindən örtülü kəcavəyə girmişdi. Sələbiyyə xana elə gəldi, ətraf bir az da işıqlandı. Sanki qız bir çıraq idi, işıq salırdı. Əlbəttə, o, kəcavənin içərisində olsa da, quldurların yalnız tamah məqsədilə hücum etdiyini artıq bilmişdi. Ona görə qiymətli qaşı olan üzüyünü barmağından çıxarıb heç nə demədən Sələbiyyə xana uzatdı. Bir anlıq Sələbiyyə xan istədi ki, qızın uzanan əlini elə üzükqarışıq tutub özünə sarı çəksin. Amma yadına düşdü ki, Cahangir Mirzə ancaq «vəzndə yüngül, qiymətdə ağır şeyləri» götürməyi tapşırıb. Yoxsa, bu qız əhvalatı özgə söz-sova səbəb olacaq, başına qovğa açacaqdı. Sonralar bu qızla o, Amid bəyliyinin sarayında bir neçə dəfə rastlaşmışdı. Sələbiyyə xan onu görən kimi tanımışdı. Deyəsən, qız da şübhəli-şübhəli bu tülküsifəti süzmüşdü. Hər dəfə rastlaşanda onun gözlərinə diqqətlə baxırdı. Sələbiyyə xanın gözlərindən başqa manşırlanası bir tərəfi yox idi. Çünki o, quldurluqdan sonra atını, libasını tez dəyişərdi. Arada cəsarət edib qızla bağlı Cahangir Mirzəyə heç nə deməmişdi. Və məlum olmuşdu ki, həmin qızı Amid bəyliyinin

sarayına İraq türkmanlarının başçısı göndərib – Sara Xatunun hüzuruna. Sara Xatun qızın belə bir qənirsiz gözəl olduğunu və İraq türkmanlarının başçısının Bayandurlar nəslinə sədaqət rəmzi olduğunu bildiyindən onu Üveys Mirzəyə almışdı. Hətta bir dəfə Sələbiyyə xanla qarşılaşma zamanı onun gözlərinə yenə diqqətlə baxıb Üveys Mirzəyə demişdi ki, bu adamdan gözüm su içmir. Sanki o, öz gözlərini göstərməkdən həmişə çəkinir. Bu sözləri də Üveys Mirzəyə qızın dediyini onların yaxınlığında duran Künəgü eşitmişdi. İndi o zamandan bəriyə – ta Amid bəyliyindən ayrılıb Diyarbəkirə gələnə qədər Künəgü həmişə üzüyü gizli saxlamış, üzüyün haradan çırpışdırdığını kimsəyə deməmişdi.

Sələbiyyə xanın gizli fikirlərindən biri də bu idi ki, nə vaxtsa Bayandurlar nəslinin axırına çıxıb öz istəklərinə yetəndən sonra Üveys Mirzəni də o dünyaya göndərib onun arvadını – İraq türkmanlarının başçısının qızını özünə zövcə edəcək və təzədən «yadigar» üzüyü ona qaytaracaqdı.

Zaman keçdikcə ümidlərinin yavaş-yavaş puça çıxdığını, dövranın başqa hava çaldığını başa düşdüyündən daha Üveys Mirzənin arvadını onun əlindən almaq planları da dəyərini itirirdi. Canının sağ qalacağına inansaydı, heç zinət əşyasını əldən verməzdi.

Üzüyü əlində möhkəm-möhkəm tutmuşdu, hələ Künəgüyə verməmişdi. Əvvəlcə Künəgünü öyrədib onun Cahanşahın yanına gedib çata biləcəyinə inanmalı idi. Sonra da üzüyü ona verib yola salmalı…

Künəgü artıq yanında idi. Boyu balaca olduğundan ağasının üzünə aşağıdan yuxarı baxırdı. Gözlərini onun ağzına dikmişdi ki, ağası nə deyəcək?..

– Hə, Künəgü, sənin də bir işə yarayan günün axır, gəlib çatdı.

– Ağa, başına dönüm, mən hər vaxt sənin hansısa qulluğuna yaramağa çalışmışam. Lap bir az da bərkə düşsə, deyərəm ki, mən elə bu dünyada sənə xidmət etmək üçün doğulmuşam.

Sələbiyyə xan Künəgünün cavabına əvvəlki dövrlər olsaydı, heç bir şəkk-şübhə etməzdi. Amma indi dünyanın belə qarışıq, özünün bəxt ulduzunun sönən vaxtında eşitdiyi hər sözü yetərincə, doğru-düzgün qəbul edə biməzdi. İndi o, bir atın kişnərtisinə də, bir itin hürüşməsinə də səksənir, yoldan keçən təsadüfi adamın asqırmağından da şübhələnirdi. Ona görə, Künəgünü danışdırarkən onsuz da onun verəcəyi cavabı əvvəlcədən bilirdi. İçindəki xof artıq oyanmışdı. Çünki bir ara ötəri də olsa, onun Cahangir Mirzə ilə pıçıldaşmağını gözləri almışdı. İndi nökərinin onu aldada biləcəyini və bu aldanışdan sonra işlərin necə dəyişəcəyini də düşüncəsində götür-qoy edirdi. Vəziyyət xarab idi, bir tərəfə çıxara bilmirdi. Əvvəlcə istədi, ona birbaşa tapşırıq versin, Cahangir Mirzəni izləyib aradan götürsün. Bu, əlbəttə, asanlıqla başa gələn iş deyildi. Künəgü döyüşçü olmadığından hərb meydanına girməyəcəkdi. Bütün bunlardan sonra hadisələrin başqa cür inkişaf edəcəyi təqdirdə Cahangir Mirzənin dalından dəyib, özünün Cahanşahın hüzuruna qaçmaq planı elə çətinləşmişdi ki, heç ağlabatan işə oxşamırdı. Əlbəttə, o, həm də Cahanşahın hüzuruna elə Cahangir Mirzə ilə birgə getmək istəyərdi. Fəhmlə hiss etmişdi ki, Cahangir Mirzə onun hər gəlişinə, hər görüşünə bir xofla yanaşır. Sələbiyyə xan görürdü ki, Cahangir Mirzə çox dəyişilib. Amid bəyliyindəki iddialı, qolu zorlu Cahangir Mirzə artıq yox dərəcəsindəydi. Onun əvəzində ümidləri puça çıxmış, ruhdan düşmüş, yalnız can qorxusunun qayğısına qalan, ölümün həndəvərində dolaşdığını görüb əzrayılın kölgəsindən çəkinən, qorxaqlığı, yazıqlığı ürək dağlayan Cahangir Mirzə qalmışdı. Belə bir adamla Cahanşahın hüzuruna getməyin mənası yox idi. Çünki o, çox asanlıqla Sələbiyyə xanın xainliyindən danışar, tamahkarlığını, niyyətlərini tamam açıb-ağardardı. Cahanşah da ki, köhnənin qoca qurdu idi. Ətrafına da şeir-sənət adamlarını toplayıb onlarla ağız-ağıza verənin biriydi. Əgər onun məsləhət verənlərindən biri desəydi ki, üstündə tülkü adını daşıyan biri Cahanşahın sarayına

heç bir fayda verməz, öz ağalarına xəyanət edən birisi təzədən Cahanşaha çətin ki, sədaqətli olsun, söhbətə son qoyular, məsələ qapanardı. Bu da Sələbiyyə xanın yer üzündən silinməsi üçün bəs edən sözlər idi.

* * *

Sələbiyyə xana yaxşı məlum idi ki, Sara Xatun da, Uzun Həsən də qonşu əyalətlər haqqında camaat arasında ağızlarından bir söz qaçırmasalar da, onların özgə niyyətləri var. Elə Cahangir Mirzəni də, onun tamahkarlığından istifadə edib hakimiyyət hərisliyini alovlandırmasının əsas səbəbi bu idi. Çünki Sələbiyyə xan anlamışdı, özü də çoxdan anlamışdı ki, Amid bəyliyindəki vəziyyəti yoluna qoyandan sonra onlar bu vadiyə sığışmayacaqlar.

O zaman onsuz da Sələbiyyə xanın keçmiş quldurluq əhvalatları haqqında əyalətdə dolaşan söz-söhbətlərin də yəqin bir arxasınca düşən olacaqdı. Hələ ki, onun tükənməyən gücündən, imkanlarından istifadə edə bildikləri üçün bunun üstünü vurmurlar. Üstəlik, Cahangir Mirzə onun asanlıqla, tənə oxlarına tuş gəlməsinin qabağını bir qalxan kimi alırdı.

Tez-gec Uzun Həsən kifayət qədər, güclənəcək, nəinki Sələbiyyə xana, elə Cahangir Mirzənin özünə də sərhədlərini haracan desən göstərə biləcəkdi. O zaman artıq Cahangir Mirzə də Sələbiyyə xan üçün qalxan ola bilməyəcəkdi. Bir sözlə, Sələbiyyə xanın canına vicvicə düşmüşdü. Özünü bir yerdə rahat hiss eləmirdi. Bu da onda elə bir əsəbilik, gərginlik yaratmışdı ki, istər-istəməz qəza-qədərin yolunu dəyişməyə cəhd göstərməli olmuşdu. Və günün birində, axır ki, Cahangir Mirzəyə anlatmışdı: «Sən nəyi gözləyirsən? Gözləyirsən ki, bu gün-sabah əyalətdəki əmniyyət səlahiyyətlərini də əlindən alıb özünə elə həqiqi bir mirzəlik versinlər, məni də olsa-olsa, elə sənə qarovulçu qoysunlar. Daha bundan o yana nə sənin artıq bir imkanın olar, nə də mənim kiçik səlahiyyətim».

O vaxt Cahangir Mirzə dinməmişdi, maddım-maddım onun üzünə baxmışdı. Və elə bu vaxt Sələbiyyə xan hiylə qılıncını sıyırıb Cahangir Mirzənin ürəyini söz ovxarı ilə dəlmə-deşik etmişdi: «Sənin qabaqda bircə yolun var. Gərək bu tezlikdə əlinin altındakı qüvvələri cəmləyib Amid bəyliyindən ayrılasan. Özün gördün ki, bu məmləkətdə iki adamın qabağında baş əyirlər. Biri Sara Xatun, digəri oğlu Uzun Həsən». Sələbiyyə xan qəsdən Cahangir Mirzəyə Uzun Həsəni qardaş kimi ismarlamadı.

Elə bununla da Cahangir Mirzənin qəzəbi aşıb-daşdı və Sələbiyyə xana yır-yığış edib Amid bəyliyindən ayrılmağı əmr elədi. İndi o vaxtdan ötən aylar nə qədər intizarda keçsə də, qaranlıqların dağıldığı, bütün sirlərin açıldığı bir zaman gəlib çatmışdı. Sələbiyyə xan bilirdi ki, bircə zəifliyi bəs edər ki, əməllərinə görə cavab verməli olsun. İndi Künəgü axırıncı ümid, güvənc yeri olmuşdu. Ona görə, Künəgü ilə ona həyat üçün, yaşam vəd edəcək ehtiyat planlarının sonuncusunu bölüşürdü. Künəgü də boyunun balacalığı ilə az aşın duzu deyildi: «Baş üstə, ağa, canımla sənin yolunda hazıram», deməyinə baxmayaraq, Sələbiyyə xanın da, elə Cahangir Mirzənin də ümidlərinin boşa çıxmağını yaxşıca başa düşmüşdü. Və təbii Künəgü üçün öz ailəsi, övladları min Sələbiyyə xandan, bir o qədər də Cahangir Mirzədən üstün idi. Ona görə, Sələbiyyə xan danışdıqca, öz planlarını aşkarladıqca o da bir tərəfdən nə edəcəyini düşünüb Sələbiyyə xanın dediklərinə qarşı öz mülahizələrini qoyurdu. Əlbəttə, çalışırdı, üzündən-gözündən, hərəkətlərindən bunu Sələbiyyə xana qətiyyən sezdirməsin. Yoxsa Sələbiyyə xanın bircə eyhamı bəs edərdi ki, Künəgünü elə buradaca öz qanına qəltan eləsin.

Sələbiyyə xan Künəgünü diqqətlə süzürdü. Lap gözünün balaca bir işartısının dəyişməyinə də diqqət edirdi. Əgər Künəgünün ürəyinə bircə damla Sələbiyyə xana xəyanət düşüncəsi sızmış olsaydı, onun gözlərindən gərək bunu başa düşəydi. Amma Sələbiyyə xan qətiyyən bir dəyişiklik duymadı. Bu səbəbdən Künəgü

tərəfdən bir növ toxdadı, arxayın oldu. Daha Künəgüdən nəyisə gizlətməyin mənası yox idi. Onsuz da Sələbiyyə xan çarəsizdi. Künəgünün də qoçaqlığına verilən tapşırığı, işi yarıtmaq bacarığına arxayın olduğundan elə bu sonuncu imkanlarını işə salmaq istəyirdi.

– Hə, ümid göydə Allahadır, yerdə də Cahanşaha – Sələbiyyə xan düşünürdü. Daha baş sındırmaqdan keçib, gərək qəti əməli tədbir görülsün; Dərya bulanır, hər tərəfdən su üstümüzə gəlir. Biz adadayıq. Az keçməz bu adanı da su basar. – Axır ki, fikirlərini yekunlaşdırdı, tərəddüdlərindən qurtuldu. Elə bil Allahla Cahanşah arasında, ordan da Sələbiyyə xana tərəf görünən yol bu Künəgünün özündən keçirdi.

«Ay sən öləsən, elə bilirsən ki, bu boyu balaca Künəgünü sınmayan yumurta kimi hara istəsən, yumalaya bilərsən? Ehtiyatlı ol, ovcunda olsam, sıxarsan, mən də partlayıb dağılaram. Elə o dağılmağım da sənə bəs eləyər. Üzün, gözün, yaxan yumurta sarısı ilə boyanar. Daha el içinə, camaat arasına çıxa bilməzsən. Hamı səni barmaqla göstərər. Deyər ki, qırx illik sədaqətli qulluqçusunu nə günə qoydu? Bundan sonra sənə kim inanar, kim gəlib sənin yanında qulluq tutar? Yox, mən sən düşündüyün qədər də sadəlövh, aciz və mağmın deyiləm. Ailəmi, uşaqlarımı Sara Xatunun nəzarətində elə-belə, havayı yerə girov qoymamışam. Mən səni həmişə adam bilmişəm, sənə sədaqətlə qulluq etmişəm. Sən namərdcəsinə son anda məni Amid bəyliyində aralıqda qoydun, özünlə götürməyə rəva bilmədin. Bəlkə də düşünürdün ki, mən orda yazıq, yesir günümə qısılıb sənə xidmət edəcəm. Gərək biləsən, məzlumların da qisası yaman olur ha… Hamı sənin şərəfsizliyindən ağızdolusu danışır. Mən isə sənin kimi qeyrətsizə qulluq etmişəm, yanında müncər olub qalmışam. Amma bir balaca yolun dəyişən kimi məni aralıqda qoydun. Ailəm, uşaqlarım, övladlarım indi canımın girovudur. Bütün bunların hamısının əvəzi son anda sənin bir halallığın olardı. Mənim illərlə qulluq etməyimin əvəzində ac gözlərinlə,

doymayan tamahınla yığdığın sərvətindən payımı ayırardın. Sən bunu etmədin. İndi istəyirsən ki, mən səni bu son anda xilas edim? Əvəzində heç nəyin yiyəsi olmayım? Ara yerdə də canım getsin, ailəm, övladlarım gözdən düşsün, qapazaltı olsun, ac-yalavac qalsın?.. Heç oğlumun birini də xəyanət sahibi olduğum üçün orduya qulluğa götürməsinlər?..« – Künəgü bu düşüncələrilə öz-özünə təskinlik vermirdi, haqq qazandırırdı. Sələbiyyə xandan birdəfəlik ayrılmağının səbəblərini aydınlaşdırırdı. Daha bir kimsə onu qınaya bilməzdi, o, Vətənə, Bayandurlar nəslinə xəyanət edib. Artıq ona gün kimi aydın idi ki, çıxış yolu həm əslinin-nəslinin xilası, həm də özünün can xilası Bayandurlar nəslinə tərəf qayıtmaqdadır. Amma Künəgü onu da bilirdi ki, hələlik Sələbiyyə xanın onun gizlin hərəkətlərindən xəbəri olmamalıdır. Onsuz da Sələbiyyə xan Künəgüdən bir cüzi də olsa, şübhələnə bilməmişdi. Künəgü indi ona dünyanın ən yaxın adamı kimi görünürdü.

– Hə, dünyanın işinə bax, Sələbiyyə xan son anda Künəgüyə möhtac olarmış…

…Ona görə də Sələbiyyə xan çox istəyirdi ki, ümumi əfv olmayacağı təqdirdə o, Cahanşahın hüzuruna təkcə getsin. Daha onu necə inandıracaqdı, başını salamat saxlamaq üçün hadisələrin kökünü necə izah edəcəkdi, bu, onun öz işiydi.

Nə isə… bütün bunlar hələ gələcəyin işi idi. Nə olacaqdı, olmayacaqdı, bunu hələ heç Sələbiyyə xan bilmirdi.

– Özünü çatdırırsan Cahanşaha. – Sələbiyyə xan bunu dedi və sonra Künəgüyə bir də diqqətlə nəzər yetirdi. Bir anlığa ona elə gəldi ki, Künəgünün dizləri əsdi, boyu bir az da balacalaşdı. Deyəsən, rəngi-ruhu da qaçmışdı.

– Ağa, buradan çıxmaq olarmı? Yəqin ki, hər yer nəzarətdədir. Bütün yolu-rizi bildiyimiz, bilmədiyimiz adamlar mühafizəyə götürüb.

Doğrudur, Künəgü hərb sahəsindən elə də hali deyildi. Yəni daim silah tutan, döyüşən adam olmamışdı. Ancaq hər vaxt Sə-

ləbiyyə xanın yanında olduğundan belə məsələlərdən hali idi. Bilirdi ki, hadisələr qarışan kimi ayrı-ayrı tərəflərin adamları yollara, get-gəllərə nəzarət edir. Quş da quşluğu ilə bu nəzarətçilərin gözündən yayınıb bir tərəfə çıxa bilməzdi.

– Yaxşı, ağciyər olma, – Sələbiyyə xan səsinə bir gümrahlıq, inam ovqatı verdi, – sənin bacarmadığın hansı iş var ki?!.

Sələbiyyə xan əlini Künəgünün çiyninə qoydu. Həqiqətən də elə bil ki, ağasının son sözləri və çiynində olan əli ona güc, qüvvət bəxş eləmişdi.

– Baş üstə, ağa, lazım olsa, lap yerin altı ilə gedərəm.

Sələbiyyə xan özü çox bic adam olsa da, Künəgünün bu sözlərində onun bacarığını ehtiva edən mənanı lap yerində tutmuşdu. Künəgü doğru deyirdi; əgər onun könlü olsaydı, libasını elə dəyişərdi, bir kimsə onu nəinki özünə oxşatmazdı, heç tanımazdı da.

– Hə, demək, onda gecənin elə vaxtı çıxırsan ki, bir kimsə səni görməsin. Mənə yaxın olan adamların müşayiətilə qaladan uzaqlaşacaqsan. Bizim nəzarətimizdə olan ərazini tərk edəndən sonra onlar qayıdacaqlar. Ancaq sən özünü onlara da tanıtmırsan. Aramızdakı söz-söhbət barədə heç kəsə bir kəlmə demirsən.

– Baş üstə, ağa, Cahanşahın hüzuruna qədər dişlərimlə dilimi elə kilidləyərəm ki, arasından bir kəlmə çıxmaz. – Daha bu sözlərdən sonra Sələbiyyə xan Künəgünə lap inandı, üzüyü çıxarıb ona verdi: – Bunu da nəzərdən uzaq bir yerdə gizlədirsən. Cahanşahın hüzuruna yetəndə onun mühafizlərinə deyərsən ki, hökmdara çatası əmanət var. Əmanəti özünə verərsən.

– Baş üstə, ağa, Cahanşahdan başqa bir kimsə o üzüyü məndən ala bilməz.

– Lap yaxşı, indi get yola hazırlaş. Vaxtında mən özüm gəlib sənə çıxmağı bildirəcəyəm.

– Onda üzük də səndə qalsın. Özün gəlib məni yola salanda verərsən.

Sələbiyyə xan rahat nəfəs aldı. Bir az arxayınlaşdı. Düşündü ki, Künəgünün fikri dolaşıq olsaydı, gedəcəyi yola şübhəsi onu çaşdırsaydı, heç üzüyü geri qaytarmazdı. Bir tərəfdən Künəgü sarıdan arxayınlıq, bir tərəfdən də Cahanşahın üzüyü görəndən sonra şirnikib yürüşə rəvac verəcəyini təsəvvürünə gətirən Sələbiyyə xanın kefi kökəldi, əhvalı bir az da yaxşılaşdı.

…İndi elə o üzdən idi ki, gəlib Diyarbəkir qalasını mühasirəyə alan Uzun Həsənin arxasından zərbə endirə biləcək yeganə ümid kimi Cahanşahı gözləyirdi. Bir-iki gün də mühasirə davam etsəydi, döyüş ləngisəydi, onun başçılıq etdiyi qüvvələrin arasına elə bir pərakəndəlik düşərdi ki, heç təzədən bu adamları bir yerə nəinki o, ya Cahangir Mirzə, ya qeyrisi olsun, yenə bir yerə toplaya bilməzdi. Əgər hər şey onun düşündüyü kimi baş tutmuşdusa, Künəgü özünü Cahanşaha çatdırmışdısa, onda gərək üzüyü almış Cahanşah özünü bura yetirmiş olaydı. «Ha indi gələr, ha birazdan gələr» nigarançılığı Sələbiyyə xanı bir tərəfdən üzməkdə, qarnın sancıqlamaqdaydı.

Qalanın bürclərində əvvəlki planlara əsasın Ağru xanın ox atanları mövqe tutmalı idi. Amma nə Ağru xanın özü görünürdü, nə də onun ox atanları…

Cahangir Mirzə də öz mühafizləri ilə qalanın içindən bayır tərəfə bir addım belə atmamışdı. Birdən elə bil ki, Sələbiyyə xanı ildırım vurdu. Özündən asılı olmayaraq sağ əlini dizinin üstünə çırpdı; «Gör mən necə unutmuşam, Ağru xan Artuqlu Hüseyn xan Artuqlunun oğludur. Ağru xan Uzun Həsənin qüvvələrinə qarşı çıxmazdı. Məni bu əbləh inandırdı» – Sələbiyyə xan dönüb Cahangir Mirzənin qərar tutub yerləşdiyi hücrəyə tərəf diqqət elədi. Elə bil özünə baxıb düşünürdü. Həqiqətən Cahangir Mirzə özünün inamına əsasən Sələbiyyə xanı da inandırmışdı ki, Ağru xan Artuqlu keçmiş haqq-salamlara əsasən bizə çox sədaqətlidir.

* * *

Künəgü gedəndən sonra Sələbiyyə xan bir qədər rahatlanmış, sakitləşmişdi. Qalanı mühasirəyə alanların da hərəkətə keçməməyi onu bir az da arxayınlaşdırmışdı. O, Uzun Həsənin nə üçün hücuma keçmədiyini, bir həmlə ilə qarşısındakı qüvvələri dağıda biləcəyi halda şeypurları çaldırmamağının səbəbini anlamırdı. O, heç vaxt Uzun Həsəni ağıllı adam hesab eləməmişdi. Həmişə düşünmüşdü ki, uzunun ağlı topuğunda olar. Hələ gəncliyində Uzun Həsənlə, Cahangir Mirzəylə, lap Üveys Mirzəylə birlikdə atçapma yarışlarında, qılınc döyüşü təlimlərində Uzun Həsənə bərk kələk gəlmiş, çox vaxt atını Həsənin atının qabağına salıb qəflətən dayandırmaqla onu atdan salmaq istəmiş, qəzəbləndiyini görəndə şirin dilini işə salmış, elə izahlar vermişdi ki, onu inandıra bilmişdi. İndi bunları yaddaşına gətirəndə son anda yenə onu yola gətirə biləcək bəhanələr axtarmağa başladı. Qərara gəldi ki, Uzun Həsənin özünün ixtiyarına qalsaydı, bəlkə lap onu yola gətirmək olardı. Amma Sara Xatundan ağlı heç nə kəsmirdi. Allahına yalvarırdı ki, kaş, Künəgünün vasitəsilə gələcək Cahanşah özünü tez yetirəydi. Beləcə, o, ələ keçəcəyi təqdirdə vəziyyətdən necə çıxacağını düşündüyü kimi, Cahanşahdan kömək gələcəyi halda, sifətinin tərs üzünü də göstərməyi düşünürdü: «Bu əbləhi də gərək əlimdə saxlayam. Elə edəm ki, Sara Xatun oğlunun salamatlığı naminə mənə toxunmasın. Amma bu səfeh Cahangir Mirzənin heç bu qədər can qorxusu daşıyacağını bilməzdim». Sələbiyyə xan vaxtilə Cahangir Mirzənin ona verdiyi cəsarətli tapşırıqların hamısını xatırlayırdı. Hətta onu da bilirdi ki, qılınc savaşında Cahangir Mirzə heç də aciz deyildi. İndi nə üçün bu qədər ağciyərlilik göstərir – bunu başa düşə bilmirdi. Cahangir Mirzənin ordunu başına buraxıb haradasa qaçıb gizlənəcəyini də ağlına gətirdi: «Yox, indi o, heç yana qaçıb gizlənə bilməz. Mən təcili onu tapmalıyam, onu elə qorumalıyam ki, başından bir tük əskik olmasın. Cahangir Mirzənin salamatlığı elə mənim də salamatlığım deməkdir».

O, son ana qədər mənim tərəfimdə olacaq. Əlbəttə, Cahangir Mirzə də Ağru xana da bu barədə heç nə deməmişdi. Və bir gün Uzun Həsənin qoşun çəkib gələcəyini, hətta qoşunun başında Sara Xatunun özünün də olacağını heç vaxt dilinə gətirməmişdi. Çünki son anda anasının qəti qərar verəcəyini, özü də bu qərarın Cahangir Mirzənin ziyanına, Uzun Həsənin xeyirinə olacağına inanmırdı. Cahangir Mirzə Amid bəyliyindən ayrılmanın səbəblərini və bu səbəbin də əsasən hakimiyyət davası ilə bağlı olduğunu nə Ağru xana, nə də başqa bir kimsəyə deməzdi. Özü də əvvəllər Ağru xanı inandırmağa çalışmışdı ki, onun Diyarbəkirə gəlməsi anası Sara Xatunun özünün məsləhətinin nəticəsidir. Ağru xan da məsələnin üstünü vurmasa da, qismən şübhəli olsa da, Cahangir Mirzənin doğru danışdığına inanmaq istəmişdi. Həm də Cahangir Mirzə demişdi ki, ona tabe olan qüvvələr bura ona görə gətirilib ki, Diyarbəkiri hədə-qorxu altında saxlayan düşmənlərdən müdafiə eləsin.

Bütün bunlar artıq keçmişdə qalmışdı. Örtülü nə var idisə, hər şey açılmış, məsələnin daha ciddi olduğunu Ağru xan Artuqlu tam başa düşmüşdü. Ağru xan anlamışdı ki, Cahangir Mirzənin hakimiyyət ehtirasları Amid bəyliyinə başçılığı əlinə keçirmək istəyi onu xəyanət yoluna sürükləmişdi. Heç şübhəsiz, bu xəyanətdə Sələbiyyə xanın da rolu az olmamışdı. Görünür, Sələbiyyə xan nə vaxtsa iç üzünün açılacağından qorxmuş, Sara Xatunun ittihamından yaxa qurtarmaq, Uzun Həsənin caynağından xilas olmaq üçün Cahangir Mirzəni də yolundan çıxarıb hələ dünyada görünməmiş xəyanətə sövq eləmişdi. Ağru xan Sara Xatunun yanında gözləməli olduğu vaxtda bura daha bir nəfəri də gətirən mühafizlər Uzun Həsənə bu adamın vacib bir xəbərlə gəldiyini deyəndə, Ağru xan da onun kimliyini bilmək istədi. Gətirilən adamın gözlərini bağlamışdılar. Amma elə beləcə, gözləri bağlı halda olsa da, onun boy-buxunu, görkəmi Ağru xana tanış gəldi. Az keçməmiş onun gözlərini açdılar. Uzun Həsən də

gəldi. İndi mühafizlərin əhatəsində Uzun Həsən, Ağru xan və bir də gətirilən adam dayanmışdı. Uzun Həsən birbaşa Ağru xandan soruşdu:

– Sən bu kişini tanıyırsanmı?

– Hə, bu adamı tanıyıram. Həmişə Sələbiyyə xanın yanında olurdu, – Ağru xan cavab verdi.

– Adı nədir? Bəlkə, adını bilirsən…

– Doğrusu, heç maraqlanmamışam. Amma arabir Sələbiyyə xanın dilindən onun Künəgü adı ilə çağırıldığını eşitmişəm.

Uzun Həsən üzünü Künəgüyə tutdu:

– Bilirsən ki, səni tanıyıram. Doğrudur, sənin adın Künəgüdür. Özün də həmişə Sələbiyyə xanın xidmətində olmusan. Bəs bura necə gəlib çıxmısan?

– Bu, sirdir, mən onu sahibindən başqa, heç kimə deyə bilmərəm, – Künəgü açıq-aşkar inadkarlıqla cavab verdi.

Maraq Uzun Həsəni götürdü: »Bu, nə sirr ola bilər? «

İndi Künəgünü cəzalandırmaq, sıxışdırmaqla gizlətdiyi sirrin nədən ibarət olduğunu bilmək çətin olacaqdı. Uzun Həsən bilirdi ki, elə adamlar var ki, verdiyi sözün qabağında özlərini axıracan, son nəfəslərinəcən cavabdeh hesab edirlər. Lap onların başını da kəssən, bildiklərini dədələrinə verən deyillər. Belə olduğu halda Uzun Həsən məsələni qəlizləşdirmək istəmədi.

– Yaxşı, onda bu sirrin sahibi kimdir? Kimi tapaq gətirək ki, sirri sahibinə deyəsən, – Uzun Həsən bacardıqca səsinə yumşaq ahəng verdi. İstədi ki, Künəgü sirri, ona açmasa da, səmimiyyətinə inansın. Künəgü isə hələ də susurdu. Ona görə də Uzun Həsən təkrar elədi, – hə, indi nə deyirsən? Kimi gətirək, sirrin sahibini haradan tapaq sənin üçün?

Künəgü başını yuxarı qaldırdı. Uzun Həsəni yaxşı-yaxşı süzdü. Onun nə qədər qəzəbli olub-olmadığını aydınlaşdırmaq istədi. Həm də hiss elədi ki, Uzun Həsənə onun ölümü yox, sirrin sahibinin kim olduğunu, onun nədən ibarət olduğunu bilmək daha

vacibdir. Vaxtı uzadıb Uzun Həsəni də hövsələdən çıxarmamaq üçün dilləndi:

– Sirrin sahibi aləmlərin anası Sara Xatundur. Mən Sara Xatunun üzünü görməyincə, razılığını eşitməyincə, bu barədə bir kəlmə kəsə bilmərəm. – Elə bil ki, Sara Xatunun adı Künəgüyə güc bəxş eləmişdi. Özünə əmin və arxayın bir halda inadını təkcə sözlərilə yox, həm də görünüşü, duruşu, ilə də verirdi.

Uzun Həsən anladı ki, deyəsən, məsələ ciddidir. Və bu kişidə çox vacib olan xəbər var. Özü Künəgünü də, Ağru xanı da işarə ilə arxasınca çağırdı. Birlikdə Sara Xatunun iqamətgahına yaxınlaşdılar. Uzun Həsən əvvəlcə özü təklikdə anası ilə görüşdü. Ağru xanın burada olduğunu, həm də xoş məramla gəldiyini bildirdi. Sonra məlumat verdi ki, Ağru xana aid qüvvələr Uzun Həsənə qarşı vuruşmayacaq.

Sadəcə, Ağru xanın bir nigarançılığı vardı, Sələbiyyə xan son anda onun ailə üzvlərinə, bəlkə, lap Cahangir Mirzəyə xətər yetirə bilər. Özü də bu işlərin yoluna qoyulması üçün tədbir istəyir. O, yenidən geriyə qayıda bilərdi. Heç ölümdən də qorxmurdu. Deyir ki, qoy, lap Sələbiyyə xan onu öldürmək fikrinə düşsə, yetər ki, ağır qırğın, savaş olmasın.

Ağru xanın fikirlərini Sara Xatuna deyəndə, üzündə nurlu bir təbəssüm göründü. Uzun Həsən başa düşdü ki, anası bu təbəssümü ilə öz məsləhətlərini oğlunun yaddaşına gətirmək istəyir. Axı o, özü Uzun Həsənə təlqin eləmişdi ki, qılıncı vaxtından əvvəl qınından çıxarmaq olmaz. Onsuz da son illər bir-birinə qohum tayfaların savaşı Bayandur nəslini xeyli gücdən salıb, itkilərə yol açıb. Qazi Bürhanəddinin özündən bəri Qara Yuluq Osmandan keçən dövr bu çəkişmələr sayəsində qüdrətli dövlət yaratmaq şansları heçə enib.

Bütün bunları Sara Xatun oğlu Uzun Həsənə anlatmışdı. Onun özü də bütün gücü ilə zordan ağla, təmkinə üstünlük verməyə çalışırdı. Zaman göstərirdi ki, anası Sara Xatunun məsləhətləri hər

ötən günün arxasınca yeni hadisə ilə özünün doğru təcəssümünü tapır.

Artıq Sara Xatun Ağru xan haqqında kifayət qədər məlumatlı idi. Onun atasından üzü bəri keçən ömür-gün yolu da tam təsəvvürünə gətirmişdi. Hüseyn xan Artuqlunun Qara Yuluq Osmanla dostluğu, bu dostluğun dəyəri onların bir-birinə sədaqətilə ölçülmüşdü.

Sara Xatun belə gərgin vaxtda Uzun Həsəni yanında çox saxlamamaq üçün – «başqa bir sözün varmı?» deyə – soruşdu.

– Hə, mühafizlər bir nəfər də gətiriblər. Bizim Amid bəyliyindəndir. Həmişə Sələbiyyə xanın qulluğunda olardı. Ancaq qəribə sözlər danışır.

– Hə, hə, yadıma gəlir, mən o adamı tanıyıram, – Sara Xatun tez cavab verdi, adını xatırlaya bilməyib, əlavə elədi – İndi o, haradadır? Nə istəyir?..

– Buradadır, deyir, sözümü ancaq Sara Xatuna deyə bilərəm.

– Çox doğru deyir. Tez onu mənim yanıma gətirin. Qoy Ağru xan da gəlsin.

Ağru xan içəri girəndə Sara Xatun ayağa qalxıb bir neçə addım qabağa yeridi. Onunla əl tutdu. Ağru xan  böyük hörmət naminə Sara Xatuna təzim elədi.

– Çox xoş gördük səni. Saç-saqqalını nə tez ağartmısan, Ağru xan?

– Aləmlərin anası, mən də səni görməyə şadam. Cah-cəlalınla var olasan. Qurbandır bu Diyarbəkir torpağı sənin xanimanına.

– Biz ayağımızı Diyarbəkir torpağına ehtiyatla basırıq. Bir qarışqanın da tapdanmasını istəmirik.

– Allah da sizin varlığınızı eləcə qoruyar, – Ağru xan ürəkdən gələn səmimiyyətlə Sara Xatunu ürəkləndirdi.

– Ağru xan indi ötənləri yada salmaq, olub-keçənləri yaddaşımıza gətirib yaxşı olanlardan fərəhlənmək, yaxud xoşagəlməz nəsə olubsa, ondan da kədərlənmək zamanı deyil. Mən qaladakı

vəziyyəti yaxşı bilirəm. Ona görə də hesab edirəm, əgər sənin can qorxun yoxdursa, heç qalaya qayıtma.

– Yox, Sara Xatun, mənim əhli-əyalımın hamısı qaladadır, onlar sarıdan nigaranam. Bəlkə, mənim orda olmağım hansısa bəd hadisənin də qarşısını alar.

– Doğrudur, Ağru xan, sən qalaya qayıdarsan. Lap mənim yanıma gəlib-getdiyini də o xain Sələbiyyə xana çatdırarsan. Deyərsən ki, bura qədər olan xəyanətlərinin üstündən keçərəm. Əgər bundan sonra onun əməlləri bircə damla qana bais olsa, özündən küssün, sonrakı nəsillər onu lənətlə xatırlayacaqlar. Yaxşı-yaxşı düşünsün.

Ağru xan bu qadının nə qədər ağıllı, müdrik olduğunu sanki indi görürmüş, başa düşürmüş kimi ona heyranlığını gizlətmədi. O nə qədər açıq-aydın, doğru-dürüst söz danışırdı. Hələ indiyəcən Ağru xan bilmirdi ki, qalaya qayıdanda o, Sara Xatunla görüşünü bir kimsəyə bildirsin, ya bildirməsin. İndi Sara Xatun özü deyirdi, qayıdanda bu barədə xəbər çatdırsın. Hələ üstəlik, Ağru xanın özü də Sələbiyyə xanın caynağından qurtarmış olurdu. Əlbəttə, əgər Sələbiyyə xan bir qədər vəziyyətə uyğun ağıllı özünü aparsaydı.

* * *

Sara Xatun iqamətgahında rahat, ayın-arxayın oturmamışdı. Çox nigaran idi. Ən azı, ona görə, qabaqda onun oğlu ilə bağlı döyüş məqamı artıq çatmışdı. Yox, Sara Xatun bununla razılaşası deyildi. Ona görə, bu qarşı-qarşıya duracaq qüvvələrin arasında onun əzizləyə-əzizləyə böyütdüyü övladları var idi. Yox… Sara Xatun qətiyyən razı ola bilməzdi ki, bu qədər gedişdən, bu qədər ağır, ləngərli yürüşdən sonra qüvvələr əsəb və qəzəblə qarşı-qarşıya gəlsin. Yox… bu heç vaxt baş verə bilməzdi. Bu yürüşün əsas tərəfində böyük Bayandurlar nəsli dayanırdı. Bayandurlar soyu isə ulu türk gücünün təzahürü idi. Ona görə, bu böyük türk gücü

gələcəyin insanlarına böyük həqiqətləri diktə etməli idi. Bayandurlar nəslinin tarixi kökü türk mənəvi mühitindən qidalanmışdı. Əslində, bu kök elə türkün özünün səsi, sorağı idi. Bəlkə də türk varlığıyla dolaşan böyük mənəvi istinad heç təsəvvürünə də gətirməzdi ki, bir vaxt onun varlığını kimsə danacaq. Ancaq indiki məqamda böyük türk ruhu və düşüncəsi hərəkət edə-edə irəliyə doğru yeriyirdi. Ona görə ki, qarşısında onu geriyə döndərəcək bir güc görmürdü. Böyük hərəkat, möhtəşəm güc o yerə aparır ki, orada insan özünü, varlığını, mənəvi mühitini tapır.

Qısası, bir həqiqət mütləq sözə, düşüncəyə ona görə gətirilməlidir ki, orada insanın arzuladığı mənəvi düşüncə, böyük yükü özündə ehtiva edən fikir var.

Bir sözlə, böyük həqiqət o yerdə özünü təsdiqləyir ki, orada tarixi-mənəvi kök mövcuddur. Və zaman keçdikcə bu mənəvi kök o yerə işləyir ki, orada insanın özünün həyatı uğrunda mücadilə var. Sara Xatun hiss edirdi ki, qarşısında dayanan, gözünün qabağından keçən adamlar adi adamlar deyil, onların hər biri ayrı-ayrılıqda Sara Xatunun düşüncəsində xüsusi yeri olan, ən başlıcası, zamanı, məkanı olan adamlardır. Gözünün qabağından keçən bu adamlara Sara Xatun sıradan olan adamlar kimi baxa bilmirdi. Çünki insanlar danışdıqları kimi, göründükləri kimi deyildi…

Sələbiyyə xanı əsmədə tutmuş ağlını-huşunu itirəcək dərəcədə bayılmışdı. İşin də kökü orasında idi ki, Sələbiyyə xan bu çətin mühitin içində tənha surətdə özünün çıxış yolunu axtarırdı. Amma iş onun fikirləşdiyi kimi getmirdi, məsələ qarışmışdı. Sələbiyyə xan elə bir dərəcədə qaranlığa düşmüşdü ki, heç addım atmağa macal tapmır, bir kimsənin qarşısını işıqlandıracağı ümidində deyildi. Sələbiyyə xan vurnuxurdu. Gərginlik altında idi. Ən azı ona görə, düşdüyü vəziyyətlə bağlı bir kimsəyə izahat vermək gücünü özündə tapmırdı. Başlıcası, Sələbiyyə xanın təbiətində yox idi ki, kiminsə qabağına yerisin. Kiminsə hər hansı bir işini özünün istəyinə uyğun həll eləsin… Axı Sələbiyyə xan vərdiş et-

mişdi ki, hər hansı bir məsələni özü Bayandurlar nəslinin, lap elə Cahangir Mirzənin adından hökm etməklə bircə kəlməsilə yerinə yetirsin. Bədbəxtlikdən iş gəlib o yerə çatmışdı ki, tarix, zaman Sələbiyyə xana həqiqətin, doğruluğun hansı tərəfdə olduğunu diktə etməkdəydi. Və bunu artıq Sələbiyyə xan özündən kənarda, qalanın çöl tərəfində yetişən hadisələrlə uzlaşdırmağa çalışırdı. İstəyirdi özünün düşüncəsi və varlığından keçən hissləri elə qalanın çöl tərəfindəki hər an baş verəcək hadisələrlə uyğunlaşdırsın, üz-üzə gətirsin. Amma məsələ bu cür asan deyildi. İş o yerə tərəf səmt götürmüşdü ki, Sələbiyyə xan özünün təklənməyini, qarşı tərəfin güclənməyini bütün varlığıyla duyurdu…

…Sara Xatunun hüzuruna boyca balaca, sifətindən cin yağan diribaş bir adamı gətirdilər. Sara Xatun üzünü görən kimi onu tanıdı. Bu, Künəgüydü. Sara Xatunun xəyalı dərinlərə getdi. O, düşünürdü: bu «Künəgü» sözünün mənası nə deməkdi? Hərçənd ki, Sara Xatun onu əvvəldən tanıyırdı, adını bilirdi. Elə indi birdənbirə ona belə bir maraq güc gəldi ki, bu Künəgü sözü nə deməkdi. Sara Xatun Künəgünü, əslində, heç bir səbəb olmadan, hətta özünün yaxşı tanıdığı bir kimsə olaraq ona görə ləngitmirdi, bu adamı guya başa düşmür. Yox, Sara Xatun onu da aşılamaq istəyirdi ki, bu adamı başa düşür. Hətta kimliyini bilir. Onun adının arxasında dayanan mahiyyəti anlayır. Sara Xatun Bayandurlar nəslinin içində özünə yer, yuva tapan adamların arasında elə bir kimsəni də görürdü ki, bu adam ancaq nə qədər Bayandurlara aidiyyəti varsa, nə qədər yer-yurda bağlı olsa da, hər halda Künəgü adında olan bir adama da yer, ad, ünvan olacaq.

Zaman, o yerə gətirib çıxarıb ki, Sara Xatunun özünün ruhunda qura biləcəyi məmləkətin sərhədləri bu adamların da varlığından keçməliydi. Dövr ötdükcə vəziyyət o yerə keçdikcə iş o yerə gətirib çıxarırdı ki, müharibələr, qarşıdurmalar göstərirdi ki, yox, heç də Sara Xatunun arzuladıqları asanlıqla bərqərar ola bilməz. İndi dünya çalxanır, yer-göy silkələnir, yaxşı pisə qarış-

mışdı, yalan doğrunu üstələmişdi. Belə bir dolaşıq mühitdə Sara Xatun çox istəyirdi ki, oğlu Cahangir Mirzənin aqibətini onun bu gündən sonrakı əhvalı ilə kimsə gətirib barışdırsın. Sara Xatun başa düşürdü, təpədən-dırnağacan günah içində olan bir kimsə asanlıqla gəlib özünün kimliyini elə bu aradaca təslim edə bilməz. Ona görə də Sara Xatun da, onun ailəsi də müntəzir idi ki, kimsə gəlib aləmlərin anasına beyət etmək istəsə, onu yerli-yataqlı təqdim eləsin. Bax, elə bu məqamda Künəgünün üzük əhvalatı kara gəlmişdi. Künəgünü Sara Xatunun hüzuruna gətirəndə o, əlində qaşı par-par yanan üzüyü tutmuşdu. Sara Xatun üzüyü görən kimi elə bil sehrləndi. Xeyli sükuta daldı. Dinmədi, xəyala qərq oldu. Amma bir az keçəndən sonra halı özünə qayıtdı, dinc şəkildə dərindən nəfəs aldı. Nəhayət, əlini uzadıb üzüyü barmaqlarının arasında tutdu.

Künəgünün əlindən alıb barmaqlarının arasında tutduğu üzüyün bərq vuran qaşı ilə danışmağa başladı: «Sən haradansan?», «Mən elə bu üzüyün qaşında gördüyün tərəfdənəm».

Sara Xatun çaşıb qalmışdı. Əyni-başı pırıq balacaboy, liliput künəgün hara, qızıl üzük hara? Nə vaxt, necə ələ keçirib, onu kimdən alıb? Üzük özüboyda sirr idi – ancaq təfərrüatı naməlumdu.

Künəgünün təqdim elədiyi üzük ilk dəfə görmüş olsa belə, əslində, Sara Xatuna tanış idi. Bu üzük türkman başçısının Sara Xatuna göndərdiyi üzük idi. Mənası da bundan ibarət idi ki, İraq türkmanlarının başçısı Bayandurlar nəslinin böyük türk övladları ilə həmfikirdir. Qısası, üzüyün sirri onda idi ki, Təbrizin bu tərəfindən İraqın o tərəfinəcən ərazilərin hamısı türk-türkman oylaqlarıdır.

Sara Xatun bilirdi ki, dünyada türk ruhunun, türk gücünün duyulduğu, türk səsinin eşidildiyi yerlər onun tərəfindədir.

Əlbəttə, Sara Xatunun ağlına şübhə yox idi. Bilirdi ki, bu üzük təsadüfən qənşərinə gəlib çıxa bilməzdi.

Künəgü yavaş-yavaş yeridi. Lap Sara Xatunun önünəcən… Sara Xatun da heç narahat olmadı. Üstəlik, hələ əli ilə mühafizlərinə işarə verdi ki, bir az da geri durun. Bu adamla işiniz olmasın, – dedi. Sara Xatun onunla üzbəüz gəlməkdə olan Künəgünü heç doğması kimi də qarşılamaq fikrində deyildi. Ancaq onu hörmətlə, izzətlə qarşılamaqla ətrafındakılara demək istəyirdi ki, sizin hər biriniz də insanla insan kimi davranın. İşin yekunu orasında idi, Sara Xatun Künəgünü başqalarının görmədiyi, bilmədiyi, hətta bəlkə dərk etmədiyi bir əhvalla qəbul etmək istəyirdi. Açığı işin çətin tərəfi onda idi ki, Sara Xatun lap elə onunla üzbəüz gələn adamların hamısını ağlının, fəhminin xəlbirindən keçirirdi. Onların hansı gücdə bulunduqlarını, kimliklərini, nəyə qadir olduqlarını qədərincə anlayırdı. Sara Xatun üçün ən ümdə məsələ Bayandurlar nəslinin böyük hakimiyyətini qorumaq idi. Ona görə bütün digər məsələlər bu arzunun kölgəsində qalırdı. Bəs Künəgü nə istəyirdi? Bax, Sara Xatun bunu bilmirdi. Ancaq Sara Xatun özünü bir az da cilovladı. Nə isə soruşub-soruşmamaq indiki məqamda lüzumsuz idi.

Bu, üzük əhvalatı haradan araya gəldi? Hər halda Sara Xatunun gözünün qabağında qaşı bərq vuran bir üzük parıldayırdı. Və bu zinət əşyasını onun hüzuruna gətirən Künəgü idi. O Künəgü ki, Sara Xatunun əmri ilə Cahangir Mirzənin və Sələbiyyə xanın qərargahına göndərilmişdi.

Sara Xatun fikrə qərq olmuşdu. Öz-özünə xəyalların arxasınca uçub getmişdi. Ona görə ki, axı bu dünyanın adamları gərək haqqa, ədalətə tərəfdaş olaydılar. Ancaq bu dünyanın adamlarında bir elə də haqq-ədalət düşüncəsi görünmürdü. Bir sözlə, bu, haqq-ədalət düşüncəsinin görsənmədiyi zamanda dünyanın elə bir məqamı hökm sahibi olur ki, orada insana kimsə «sən kimsən, mən kiməm?», – deyir. Bütün bunların hamısının yekununda o həqiqət gəlib öz yerini alır ki, orada insanın ən ləyaqətli, ən üstün tərəfləri dəyər alır, qiymətə minir. Böyük idrakın gücü bu yerdə

gəlib özünü həqiqət kimi üzə çıxarır və Sara Xatun qabağında dayanan adamın gözlərinin içinə deyir: «Sənin ağlın nə kəsir? Bizə təqdim elədiyin üzüyün adı, mənası nədir?»

Sara Xatun susmuşdu. Heç Künəgüdən nəyisə soruşmadı da. Hələ ki, onların arasında qeyri-adi həqiqətləri danışacaq bir sükut hakim idi. Bu sükut elə bil ki, ağzına qıfıl vurmuşdu. İstəyirdi, həqiqət üzə çıxsın. Həqiqət isə sehirlənmişdi, qabağa durmurdu. Ona görə ki, onun həqiqi qiymətini verən yox idi. Sara Xatun onunla üzbəüz dayanmış Künəgünün timsalında dünyanın bütün gəldi-gedərinin hamısını görürdü. Künəgünün ona tərəf uzatdığı üzüyün parıltısından, görünüşündən artıq o üzüyün haradan, kimlər tərəfindən göndərildiyini anlamışdı. Amma zaman başqa, dövr fərqli idi…

Sara Xatun anlayırdı ki, nə üzük, nə bu daş-qaşın dəyəri zamanın özü deyil. Zaman güc və qüdrət mənbəyidir. Künəgünün ona təqdim elədiyi üzüyün mahiyyəti, əslində, böyük həqiqətin təsdiqiydi: Mən kiməm, sən kimsən? – bəlkə də elə Sara Xatuna bu həqiqət lazım idi. Bu həqiqət onun hakimiyyətinin haçanacan uzanacağının təminatçısı, aydın göstəricisiydi.

* * *

…Nə Sara Xatun, nə Ağru xan, nə də Uzun Həsən hələ açılacaq səhərin nə gətirəcəyini heç olduğu qədər axıracan təsəvvür etmirdilər. Onların hər birinin içində bir təlatüm, bir narahatlıq, bir nəticəsizlik əhvalı sakin idi. Ağru xan Sara Xatuna baxırdı. Yəni günün hadisələrinin necə olacağına qoy Sara Xatun qiymət versin. Ona görə, axı Ağru xan da, Sara Xatun da, lap elə Uzun Həsən də çalışırdılar, bu hadisələr sakit axarda davam eləsin. Amma yox, əslində, Uzun Həsən çox istəyirdi ki, həm Sələbiyyə xanın, həm də Cahangir Mirzənin müqaviməti tamam qırılsın. Onların nəyə qadir olduqları, gücləri, qüdrətləri gərək bu üzbəüz savaşda görünsün. Ən başlıcası, ona görə ki, Uzun Həsən istəyirdi qar-

daşı Cahangir Mirzə axıracan anlasın onun gücünün, qüdrətinin nəyə qadir olduğunu. Bu da o demək idi, Cahangir Mirzə qardaşı ilə qabaq-qənşər gəlməli olsa, özü açıq-aşkar görəcəkdi ki, onun Bayandurlar nəslindən ayırıb gətirdiyi qiyamçılar bu gün Uzun Həsənin ətrafında olan güc və qüvvə ilə eyni tarazlıqda deyil. Əslində qorxunun da, can-cəsəd istəyinin də bir titrəməyə, döyüşdən imtina etməyə tərəf çəkən hissin kökündə bu dayanırdı. Cahangir Mirzəyə tam əyan idi ki, qarşı tərəf daha güclüdür. Bu tərəfin nəyə qadir olduğunu artıq təkcə Cahangir Mirzə yox, elə Sələbiyyə xan da qorxa-qorxa dərk etməkdə idi.

Qarşı tərəfdəki düşərgədə tamam başqa məsələlər müzakirə olunurdu.

İndi hər kəs donuq bir vəziyyətdə idi. Heç kim dinib-danışmırdı. Axı kim danışası idi ki?.. Bəs bu üzük kimə məxsusdur? Bir yandan da onun fikri. Haradan necə gəlib və Sara Xatuna hansı həqiqətləri söyləyəcək?

Sara Xatun özü heç, yanındakı adamlar da – nə Ağru xan, nə Uzun Həsən, nə də elə üzüyü gətirən Künəgünün özü bir kəlmə dinib-danışmaq əhkamında deyildilər. Bu, o demək deyildi ki, bu adamlar Sara Xatunun hüzurunda dinib-danışa bilmirlər. Xeyr, Sara Xatun əslində heç bu adamlara zaman keçdikcə bu ünsiyyəti, bu münasibəti də rəva görməmişdi ki, kimsə onun hüzurunda danışmağa qorxsun, qorxmasın, yaxud çəkinsin. Əslində, Sara Xatun o qədər sakit, təmkinli bir münasibət göstərmişdi ki, hər kəs istəyəndə qarşısında ayın-arxayın dərdini deyə bilirdi. Ən başlıcası, Sara Xatunun qəbul otağına qədər gələn hər kəs başına gələn əhvalatı lap elə axırınacan danışmağa fürsət tapırdı. Əsas da o idi ki, Sara Xatun bu əhvalatların məğzindən özü üçün daha böyük həqiqətlərin kökünü arayıb-axtarırdı. İstəyirdi ki, ona hər hansı bir şikayətə gələn adam məqsədini, məramını axıracan deyə bilsin. Gələn adamlar da elə bilirdi ki, Sara Xatun onların özlərinin dərdinə çarə üçün axıracan, yetərincə nitqlərini dinləyir; burasın-

da da bir həqiqət var idi. Açığı, Sara Xatun istəyirdi ki, adamlar hüzuruna gələndə istəklərini, niyyətlərini qorxmadan desinlər. Bu da ona imkan verirdi ki, qəbul elədiyi qərarda insanların istək və arzularını ədalət naminə nəzərə ala bilsin. Bir sözlə, biri Sara Xatunun hüzuruna gəlib başına gələn müsibəti anadan olduğu gündən lap elə Sara Xatuna çatanacan həqiqəti danışırdısa, yenə Sara Xatun onu səbirlə, diqqətlə dinləyirdi. Vəzir, vəkil ətrafında olan adamlar əsəbiləşirdilər, qanları qaralırdı. Sara Xatuna irad tutmaq istəyən tapılardı ki, axı o, nə üçün bu qədər səbir etməli, uzun-uzadı cəfəngiyyat dinləməlidir. Yox, Sara Xatun sonralar, məqamı gələndə saray əyanlarına vəzir-vəkilə izah edirdi ki, siz səhv başa düşürsünüz. Bilmirsiniz ki, mən bu adamları dinlədikcə təkcə onların şəxsi xahişlərini və diləklərini eşitmirəm. Həm də məmləkət barədə, bizim hakim olduğumuz diyar haqda geniş təsəvvürüm yaranır. Anlayıram ki, ölkənin vəziyyəti nə yerdədir? Bəlkə elə bilirsiniz, bu məmləkətin vəziyyətinin hansı yerdə olduğunu bilmək az işdir? Yox, sizə də aydın olmalıdır – Sara Xatun onunla üzbəüz dayanan məmurlara xitab edirdi. Bəli, yaxşı bilməlisiniz, dövlət təkcə saraylardan verilən əmr və göstərişlərlə, rəsmi qanunlarla idarə olunmur. Həm də özünün dədə-baba qaydaları ilə, yazılmamış qanunlarla idarə edilir. İnsanlar yaxşıya-pisə özləri bildikləri qədər qiymət verirlər. Və bu yolla da insanlar öz qanunlarının diktə elədiyi çərçivədə ali mərtəbədə qərar tuturlar.

Sara Xatun gördü heç ətrafındakılar dillənmir. Və üzüyü ona təqdim edənin də səsi çıxmır. Amma Sara Xatun cəsarətinə, fəhminə uyğun olaraq üzüyü alıb iki barmağının arasında gözünün qabağına tutdu. Axı onun doğma, nəsə tanış tərəfləri də vardı. Amma bu üzük ona həm də hansısa bir keçmiş həqiqəti, bəlkə də yaddan çıxmaqda, unudulmaqda olan bir əhvalatı xatırladırdı. Sara Xatun əşyanı yenə gözünün qabağına tutdu, yuxarı qaldırdı. Lap elə o yan-bu yanınacan diqqətlə süzdü. Amma üzük nə

qədər dumanlı da olsa, ona nələrisə xatırlatmalıykən dəqiq heç nə «deyə» bilmədi.

Künəgü qabağa yeridi:

– Bütün aləmlərin anası, Sara Xatuna bildirmək istəyirəm ki, bu üzüyü mənə Sələbiyyə xan verdi.

– Bəs Sələbiyyə xan bu üzüklə bağlı nəsə dedi, ya demədi? – Bunu da Sara Xatun Künəgüdən soruşdu.

Künəgü yenə əllərini sinəsinə basıb bağır basdı, ehtiramla iki dəfə başını endirdi və yuxarı qaldırdı. Yalnız bundan sonra o, bir də dilə gəldi:

– Aləmlərin anası, bu üzüyü Sələbiyyə xan mənə verib dedi, sizə çatdırım. Onda siz hər şeyin, hər hansı bir ağrılı-ağrısız, yaxşı-pis tərəfini olduğu kimi biləcəksiniz.

Sara Xatun dinmədi, fikrə getdi. Ancaq elə həmin xəyala daldığı anlarda həm də düşünürdü ki, bu üzük məsələsi adi bir məsələ deyil. Ən azı, ona görə ki, üzüyün həm maddi dəyəri, həm də inam təlqin edən gücü onu deyirdi, bu üzüyü göndərən adam artıq bütün varlığı ilə Sara Xatunun tərəfindədir. Və Sara Xatun onun tərəfində olan bu qüvvəni qılınc gücünə dağıtmaq, parçalamaq, məhv etmək istəməzdi. Ən azı, ona görə ki, onun bir ana ürəyi vardı…

Sara Xatun istər yaxşı tərəfə, istər də pis tərəfə yozduğu bu mənzərənin içindən əsl həqiqəti axtarırdı. İstəyirdi ki, bilsin, onun hərbi qüvvəsinin qabağında dayanan insanlar can qorxusuna görə dayanıblar, yoxsa, elə-belə, sadəcə bir əmrə göstəriş üçün dayanıblar? Yaxud həqiqətən nə Sara Xatunu, nə Uzun Həsəni, nə də Qara Yuluq Osmanın nəslini istəmirlər…

Əslində, Sara Xatun elə bircə bunu bilmək istəyirdi. Bunu isə ona dəqiq və aydın hələ ki, bir kimsə nə söz, danışıq, nə də bir işarə müqabilində çatdıra bilməmişdilər. Sara Xatun nigaran idi. İstəyirdi ki, qabaq-qənşər tərəfdən hər kəs irəliyə dursun; ya desin biz Qara Yuluq Osmanın Uzun Həsən ilə davam edəcək şəcərəsinin əleyhinəyik, ya da bu şəcərəni heç qəbul etmək

istəmirik. Sara Xatun görürdü ki, bu məramla heç kimsə qabağa durmur.

* * *

Amma onun gözünün qabağında cərəyan edən hadisələr onu da göstərirdi ki, əsl həqiqət təkcə elə onun iki oğlunun qarşıdurmasında deyil. Bu qovğanın kökündə daha başqa uzaq zamanlardan gələn məsələlər dayanır.

Sara Xatun barmaqlarının arasında bərq vuran üzüyün Künəgüyə aid olmadığını artıq yaxşı bilirdi. Bəs bu üzük Künəgüdə haradan idi? Sara Xatun təzədən, təkrar-təkrar qiymətli əşyanı götür-qoy eləyə-eləyə Künəgünü nəzərdən keçirirdi. Onsuz da Sara Xatun anlamışdı ki, bu üzük bir vaxt az qala dünyanın o başından – türkmanların – özü də İraq türkmanlarının başçısının adından ona göndərilmişdi. Ancaq təəssüf ki, Sara Xatun həmin üzüyü aradan illər də keçsə ala bilməmişdi. İndi ona təəccüblü gəlirdi? Necə olub ki, bu halal üzük bu qədər uzun bir müddətdən sonra şəxsən onun ünvanını gəlib tapır?

– Doğru de görüm, bu üzüyü sənə kim verib? – Sara Xatun soruşdu.

Künəgü heç halını da dəyişmədən birbaşa, aydın şəkildə cavab verdi: – Bunu mənə Sələbiyyə xan verdi. Özü də dedi ki, gərək Sara Xatunun özü bu üzüyü qəbul etsin.

Künəgü bildiyi sözü demişdi. Amma Sara Xatun həmin anda yenə dərin fikrə qərq oldu. Axı həmin üzüyü türkmanların başçısı Sara Xatuna göndərməklə əlavə bir ismarıc da – heç karvana aid olmayan adamların arasından qıraq bir adamla sifariş göndərmişdi, yəni mən sənə məmləkətimin illik varidatının lap elə yarısını əvəz edəcək üzük göndərirəm. Onun qaşı bir məmləkətin varidatının illik gəlirinin hamısı deməkdir.

Ancaq üzük hansı müdhiş səbəbdənsə Sara Xatuna gəlib çatmamışdı. İndi Sara fəhmilə hiss etdi ki, bu elə həmin üzükdür.

Nəinki öz məmləkətinin, üstəlik, qonşu məmləkətinin varını, dövlətinin hamısını özündə ehtiva edəcək bir qiymətli zinət əşyasıdır. İndi üzük Sara Xatunun gözünün qarşısında idi. Onu heyrət bürümüşdü. Axı bu üzük vaxtilə İraq türkmanlarından Bayandurlar tərəfə gələn karvanın başçısında olmuşdu. Həmin karvan isə yarıyolda fəlakətlə üzləşmiş, hadisədən az adam canını salamat qurtara bilmişdi. Necə ola bilərdi ki, bu üzük təzədən Sara Xatunun özünə gəlib çatsın?

* * *

…Kimsə dinib-danışmırdı. Hamı sükuta qərq olmuşdu. Ağru xan istəyirdi ki, dillənib bu üzüyü Sələbiyyə xanın barmağında gördüyünü desin. Hələ neçə dəfə də aralıdan görmüşdü ki, Sələbiyyə xan bu üzüyü ovcunun içində atıb-tutur, əyarlayır, elə bil ki, üzüyün dəyəri ilə onun ağırlığını müqayisə edir, qiymətə mindirir. Əslində, üzüyün dəyəri onun qaşında idi, iri almaz qaş günəşin işığında birdən elə bərq vururdu ki, səmtinə düşəndə, parıltısından az qala Ağru xan üzünü yana döndərməli olurdu. Həmin anlarda bu məsələnin heç fərqinə varmamışdı, amma indi anlayırdı ki, sən demə, bu üzük nadir əşyadır. Hələ qiymətindən başqa haradan gəlməyi, kimə çatmağı, hansı yolları keçməyi ilə də bir tarixi özündə yaşadır. Ağru xan gördü, nə Uzun Həsən dillənir, nə də Sara Xatun özü. Ona görə özü də susmağı üstün bildi.

Uzun Həsən də öz növbəsində üzük məsələsindən ötrü ziddiyyətli fikirlərə qərq olmuşdu, hətta ona elə gəlirdi ki, bu üzük nadirsə, Sara Xatuna elə qəribə mətləblərdən xəbər verib ki, elə bu səbəbdən də aləmlərin anası özünə gələ bilmir. Axı, Uzun Həsənə qalsaydı, heç bu üzük əhvalatının fərqinə də varmazdı və bu gün məsələni tamam-kamal bitirmək üçün şeypurların çalınmasını, təbillərin vurulmasını əmr edərdi. Axır onu cana yığan, hövsələdən çıxaran bu hiyləgər Sələbiyyə xanın və xəyanətkar Cahangir Mirzənin axırına çıxardı. Doğrudur, xeyli müddət idi

ki, anasının təlqinlərindən sonra Uzun Həsən könülsüz olsa da barışığa meyillənmişdi. Çox təəssüf ki, barışığa ilkin addım atmalı olan Cahangir Mirzədən xəbər-ətər çıxmırdı. İndi də bu üzük əhvalatı baş qatmaq üçün ortaya atılmışdı. Axırı nə ilə qurtaracaqdı, hələ Uzun Həsənə məlum deyildi. Bir tərəfdən anası da sükuta qərq olmuşdu. Nə bir söz deyir, nə də məsələni aydınlaşdırırdı.

Axır ki, Sara Xatun dillənməli oldu: – Yaxşı, gəlin bir qədər təmkin göstərək. Və bu işlərin daha ağıllı bir yolunu tapmaq üçün vaxtımızdan bir qədər səbir diləyək.

– Elə bilirəm ki, bizim bu qədər səbir eləməyimiz vaxtımızı bezdirər. Vaxt da yaxasını bizim əlimizdən qurtarmaq üçün fürsəti düşmənə verər.

Deyəsən, Uzun Həsənin bu sözlərindən anlaşılan kəmhövsələliyi Sara Xatuna xoş gəlmədi. Axı hər vaxt oğlu həmişə axırıncı söz kimi anasının nə deyəcəyini gözləmiş və dediyi ilə də qeyd-şərtsiz razılaşmışdı. İndi Uzun Həsənin bu köntöy cümləsi Sara Xatunun daxili təmkinini pozdu. Ancaq bütün gücü ilə özünü yenə tox tutdu. Çalışdı ki, heç əsəbiləşdiyini ətrafdakılar hiss etməsin. Ona görə ki, bu adamların hər biri Sara Xatunu həmişə çox təmkinli, hədsiz dərəcədə səbirli görmüşdülər. Bəlkə də həmişə düşünmüşdülər ki, onun gücü elə ətrafa, baş verən hadisələrə səbir əta etməyində, təmkin göstərməyindədir. Yoxsa, tez-tez əsəbiləşib özündən çıxsa, qərarlarını da gərgin məqamlarında verər, şübhəsiz, bu zaman səhvləri də üst-üstə qalaqlanardı. Nəhayət, indi-indi ayaq tutan Bayandurlar elinin yolunu uçurar, səmtini aparıb dağa dirəyər. – Yox, Sara Xatun asanlıqla hövsələdən çıxan adam deyildi, indi də onun gücü çatacaq ki, yenə onun əsəbiliyinin qarşısını özü alsın. Ətrafına da bir daha göstərsin ki, onu əsəbiləşdirmək, belə dindəndondan çıxarmaq hələm-hələm mümkün olan məsələ deyil.

Ağru xan aradakı əhvalın ağırlaşdığını gördüyündən istədi ki, bir yüngüllük gətirsin araya. Söhbəti başqa bir məcraya döndərsin. Ona görə də üzünü Sara Xatuna yox, Uzun Həsənə çevirdi:

– Elə bilirəm, aləmlərin anası daha böyük mətləblərdən xəbərdardır. İnşallah, daha düzgün nəticəyə gələr. Lazım bildiyi vaxtda bizi agah edər. Yəqin hər şey işin xeyrinə olar. Bu, bizim səfərbərliyimiz üçün mütləq lazımdır.

Uzun Həsən Ağru xanın bu sözlərini bəyənmədi. İstədi ki, onun sözünü kəssin. Ancaq anasının yanında Ağru xanın yerinin çox yuxarı olduğunu başa düşdüyündən dinmədi. Elə Ağru xan sözünü bitirəndə, anasının üzündəki xoş təbəssüm Uzun Həsənin də əhvalında müsbət dəyişiklik yaratdı. Ona görə də – nə deyirəm, olsun, – dedi.

Dinməyən, səsini çıxarmayan bir tərəfdə dayanmış Künəgü idi. Elə bil ki, bu söhbətlərin ona dəxli yoxdu. Sakit, səssiz dayanmışdı. Lakin bu dəm Sara Xatunun gözlərini döndərib onun üzərində dayandırması kürkünə birə saldı. Yerində qurcalandı, dinmədi. Sara Xatun əlini çənəsinin altına vermişdi. Dirsəyini dizinə söykəmişdi. Künəgüyə yaxşı-yaxşı nəzər yetirirdi. O, Künəgünün əhvalındakı dəyişikliyi hamıdan tez sezdi. Bunu büruzə vermədi, nəzərlərini Künəgüdən çəkmədən asta-asta dedi:

– Ancaq mənə elə gəlir, bu üzüyün ünvanı başqa olub. Sələbiyyə xan qətiyyən istəməzdi ki, bu qədər uzun vaxtdan sonra üzük gəlib mənim əlimə keçsin.

Elə bu sözləri demişdi ki, Künəgünün qarayanız bənizi saraldı. Onsuz da balacaboy Künəgü bir az da büzüşdü. İndi Sara Xatun diqqətlə baxanda onu da görürdü ki, Künəgünün dizləri elə titrəyir, elə titrəyir, ayaq üstə güclə dayanır. Saplağından ayrılmağa hazır yarpaq kimi deyərdin, bu andaca bu titrəyiş onu qabağına alıb aparacaq. Küləyin xəzan yarpağını apardığı kimi…

İşlərin beləcə qəlizləşəcəyini gözləməyən Künəgü ha istəyirdi ki, ağzını açıb nəsə desin, udqunur, sıxılır, deyə bilmirdi. Deyəsən, bunu həm Ağru xan, həm də Uzun Həsən hiss eləmişdilər. Birdənbirə bu adama nə olduğunu, başına nə gəldiyini anlamasalar da,

artıq duymuşdular ki, onların başa düşmədikləri elə bir sirr var, çox böyük əhəmiyyət daşıyır. Hələ üstəlik, deyəsən, məsələnin kökündən Sara Xatun da az-çox xəbərdardır. Ya da elə söhbətdən bəzi mətləbləri başa düşməkdəydi.

Sara Xatun ayağa qalxdı. Ağru xan da, Uzun Həsən də əyləşdikləri yerdən durdular. Sara Xatun əlilə qapını göstərdi. Künəgüyə isə qalmağını işarə elədi.

Künəgünün titrəməsi ötməmişdi. Yenicə avazımış, meyit rənginə dönmüş üzünün rəngi hələ özünə gəlməsə də, bir az sakitləşmişdi. Ətrafdakı adamların bayıra çıxması ilə ölüm qorxusu üstündən çəkilmişdi. Təkcə Sara Xatunun qalması onu bir qədər arxayın eləmişdi. Yəni, bir olan Allahın köməkliyilə doğru danışar, Sara Xatun da onun pis niyyətdə olmadığını bilər və onun canını gözləri yolda qalan balalarına bağışlayar. Bir də var, yalan-palan uydurasan, sayıqlaya-sayıqlaya ağzına gələni deyəsən.

«Bəlkə, birdən bağışlamadı?» – Künəgü bunu xəyalına gətirdi. Sonra öz-özünə danışırmış kimi az qala dodaqlarının arasında pıçıldadı: «Daha bundan sonrası bir Allaha qalıb, bir də Sara Xatunun kəramətinə. Neyləyim, mən istədim ki, arada qardaş qanı…» Künəgü heç fikrini tamamlamamışdı, bu düşüncəsini başa vurmamışdı ki, Sara Xatun dilləndi:

– Hə, Künəgü, axı sən mənə söz vermişdin, hər şeyi düz danışacaqsan.

Künəgü bu kəlmədən sonra özünü Sara Xatunun ayaqları altına atdı. Sara Xatunun ayaq qoyduğu yeri öpüb, alnını təkrar-təkrar ora sürtdü.

– Qalx ayağa! – Sara Xatun hökmlə səsləndi.

Künəgü başını qaldırıb Sara Xatunun zəhmli gözlərinə baxar-baxmaz yenə Sara Xatun dilləndi: – Elə bilirəm ki, sənin bu qədər qorxmağına səbəb olacaq qəbahətin yoxdu.

– Bir Allah şahiddir ki, mənim pis niyyətim olmayıb. İndi mənim ölümümə də fərman versə də, aləmlərin anası bir günah

eləməz. – Künəgü hiss olunacaq dərəcədə qəlbindən keçənləri dilinə gətirdi.

– Yaxşı, Künəgü, sənin elə bir günahın yoxdursa, onda nə üçün ölümü burnunun ucunda hiss eləyirsən?

– Doğrusu, aləmlərin anası, mənim qəbahətim var, bir az başqa cürdü…

– Yaxşı, sənin qəbahətin nədir?

– Aləmlərin anası, hüzurunda yalan danışdım…

– Nədir o yalan? – Sara Xatun çəkilib öz yerində əyləşdi. İndi deyəsən, üzündəki qəzəb tamam yoxa çıxmışdı. Lap belə olmasa da, Künəgüyə belə gəlmişdi.

– Hə, indi bir başlı-binəli danış görək, nə baş verib? – Sara Xatun əlavə elədi.

– Hə, aləmlərin anası, mənim başımın bəlası elə çoxbilmişliyimdir. Bir də ki, ömrünü-gününü Sələbiyyə xan kimi bir hiyləgərin yanında keçirmiş adamdan daha nə gözləyəsən? Orası da var ki, mənim üçün aləmlərin anasına verdiyim söz ailəmin, övladlarımın taleyi deməkdir. Heç də mən doğmalarımı bəd ayaqda qoyub asanlıqla bu dünyadan köçmək istəmirəm, çox istəyərdim bu qan-qada həddini aşmasın. Bura qədər hər nə olub-olub, amma iki qardaş da bir-birinin üstünə qılınc çəkməsin, biri digərini qanına boyamasın. Axı onların salamatlığı mənim sonrakı həyatım, övladlarımın taleyi deməkdir.

Sara Xatun gördü ki, Künəgü çox uzaqdan başlayır, amma uzaqdan gəlsə də, məsələnin kökünü danışır. Onu yalana vadar edən səbəbləri doğru-düzgün açıb-ağardır. Ona görə, Künəgünün sözünü kəsmək, yarımçıq qoymamaq üçün axıracan dinləməyə qərar verdi. İndi Künəgü də dayanmışdı, Sara Xatunun növbəti sualını gözləyirdi.

– Hə Künəgü, danış, hər nə var, olduğu kimi danış.

Bununla o, Künəgüyə ürək-dirək verdi. Künəgü də tez sözünə davam elədi: – Allahın nəzəri həmişə sənin üstündə olsun, Sara

Xatun, sən bircə Bayandurlar nəslinin yox, bütün aləmlərin anasısan. Kimin kim olmasını yaxşı bilirsən. Bu üzük bir vaxt türkmanların başçısından dostluq əhdi-peymanı kimi sənə göndərilibmiş. Əgər bu üzük vaxtında sənə gəlib çatsaydı, bəlkə heç Sələbiyyə xan da qudurub cızığından çıxmaz, başqa niyyətlərə düşməzdi. O, bu əmanəti saxlamaqla bir vaxt türkmanların başçısının varisindən üzüyü şahid çəkib, kömək almaq niyyətində idi. Bir sözlə, onun niyyəti başqa idi.

– Yaxşı, bu üzük Sələbiyyə xanını əlinə necə keçib?

Künəgü udqundu. O bilirdi ki, sonda belə bir sual olacaq. İndi sualın cavabından yayınmaq fikrində deyildi.

– Ucdan-qulaqdan başıbatmış Sələbiyyədən eşitmişəm. İraq türkmanlarından gələn karvanı Cahangir Mirzənin göstərişilə Sələbiyyə xan qarət eləmişdi.

– Demək, o karvan qarətlərinin hamısında Cahangir Mirzənin əli varmış.

Künəgü bu dəfə dinmədi. Sara Xatun da başa düşdü ki, Künəgü öz dili ilə təsdiqləmək istəmir. Ancaq Künəgü olan-olmazı axıracan demək istəyirdi:

– O vaxt Sələbiyyə xan qənimətin içindən üzüyü götürüb gizlətmişdi. Bu barədə Cahangir Mirzəyə əvvəllər heç nə deməmişdi. Sonra üzüyü Cahangir Mirzəyə göstərib türkmanların onların tərəfində olacağını bildirmişdi və Cahangir Mirzəni beləcə tamahlandırıb, hakimiyyət iştahasına salmışdı.

– İndi sən üzüyü kimə aparmalı idin? – Sara Xatun daha qətiyyətlə sonuncu məlumatı da öyrənmək istədi.

– Mən üzüyü Cahanşahın yanına aparmalı idim. O, bunun müqabilində türkmanların bizə kömək eləyəcəyini düşünüb, hərbi qüvvələrini köməyə göndərəcəkdi.

– Sizə, yəni kimə?

– Əlbəttə, Cahangir Mirzəyə, yolunu azmış Sələbiyyə xana – bu dəfə Künəgü də, deyəsən, çəkdiyi adlara nifrətini gizlətmədi.

Sara Xatun düşündü: «Demək, Cahangir Mirzə xəyanət yoluna lap çoxdan qədəm qoyubmuş. İndi də ölümdən xilas olsa, bəsidi. Daha yenidən onu Bayandurlar nəslinin içərisinə qaytarmaq olmaz».

– Künəgü, sən, bu ordugahdan kənara çıxmayacaqsan. İnşallah, hər iş yaxşı qurtarar, özün də buradan övladlarının yanına qayıdarsan, həqiqətən də sənin niyyətin təqdirəlayiqdir. Sənin niyyətin xoşməramlıdır, istəməmisən qardaşlar arasında müharibə baş versin!

* * *

Künəgü ürəyində onu sıxan, boğan vahimədən hələ tamam yaxa qurtara bilməmişdi. Doğrudur, Sara Xatunun sözləri bir qədər arxayınçılıq yaratdı. Onun danışığının həlimliyindən, üz-gözünün mülayimliyindən xeyli sakitlik tapmışdı. Tam arxayın olmaq üçün cəsarət eləyib başını yuxarı qaldırdı. Sara Xatunun dediklərinin nə qədər ciddi olub-olmadığını yəqinləşdirdi. Əslində, Sara Xatun da onun hərəkətlərini gözaltı nəzərlərilə izləməkdəydi. Künəgünün tərəddüd etdiyini görürdü və onu da düşünürdü ki, ilk baxışdan idbar təsiri bağışlayan bu adam, əslində, nə qədər zərərsiz, kimsə ilə işi-gücü olmayan yazığın biridir. Amma həyat, ailəsini dolandırmaq, bir sözlə, yaşamaq onu bu cür əzib sıradan çıxarmış, Sələbiyyə kimi adamların təsirinə salmışdı. Görünür, nə qədər torda olsa da, ağlı da, düşüncəsi də işləyir. Son anda doğru yolun hansı olduğunu görə bilib. Elə bu səbəbdən hiyləgər Sələbiyyə xanın Cahanşahın adına göndərmək istədiyi üzüyü Sara Xatuna çatdırmaqla nə qədər gizli mətləblərin üstünü açmışdı.

Təkcə elə bir üzüklə İraq türkmanlarının başçısı ilə sıx əlaqə yaratmaq, onlarla qardaşlıq münasibətlərini təzədən qurmaq mümkün idi. Eyni zamanda daş-qaşın bir maddiyyat tərəfi də ortadaydı. Lap onu gələcəkdə türk sultanına göndərməklə onlarla

da əlaqəni sahmanlamaq olardı. Bir sözlə, üzüyün özünə qalanda, dəyərinə görə nə qədər qiymətli idisə, siyasətə təsirinə görə də bir o qədər əhəmiyyətliydi. Bu üzük yaxşı vasitə kimi Bayandurlar nəslinin indiki müstəqil siyasətinə çox gərəkli təsir göstərə bilərdi.

Sara Xatun bütün bunların hamısını düşünsə də əsas mətləbi ağlından kənara qovmağa çalışırdı. Amma dilinə gətirmək istəmədiyi o əsas mətləb beynində dolanır, fikirlərini alt-üst edir, rahatlığını pozurdu. Ona görə düşündüklərini oğlu Uzun Həsənə açıq deməyi qərara aldı.

Uzun Həsəni içəri çağırdılar – Sara Xatunun yanına. Sara Xatun oğlu hüzurunda əyləşəndən sonra aram-aram sözə başladı.

– Hə, oğlum, indi hər şey aydındır. – Sara Xatun bunu deyib bir az fasilə verdi.

Uzun Həsən də diqqətlə anasının üzünə baxdı. Gördü ki, anası sözünə davam etmir, suallı baxışlarını sözə çevirdi:

– Nə aydındır, aləmlərin anası?

– Aydın olan odur ki, Cahangir Mirzə bir daha Bayandurlar nəslinin iqamətgahına qayıda bilməz. Çünki bu üzük məsələsi mənə illərdən bəri bizi düşündürən sirləri açdı. Yadındadırmı, biz ticarət karvanlarını qarət edən quldur dəstələrinin kimlər tərəfindən himayə olunduğunu açmağa çalışsaq da, buna nail ola bilmirdik? Səbəbi də o idi ki, dəqiq sübut-dəlil düşmürdü əlimizə. Ancaq bu balaca kişinin – Şələbiyyə xanın nökərinin mənə açdığı sirr vaxtilə bizim axtardıqlarımızı indi bəyan edir. – Sara Xatunun sözlərindən sonra elə bil Uzun Həsənin canına isti keçdi. Başa düşdü ki, məsələ ciddidir. Hər halda hövsələsini basa bilməyib bir də anasından təkidlə soruşdu:

– Əziz anam, üzülürəm, bu, nə məsələdirsə aç, məni bu sirrdən agah elə. – Uzun Həsənin bu müdaxiləsindən sonra Sara Xatun başa düşdü ki, Həsən olub-keçənləri tam başa düşmək üçün diqqətini səfərbər edib. Daha bundan o yana mətləbi uzatmağın yeri yoxdur.

– Hə, biləsən ki, bu işlərin başında sənin qardaşın Cahangir dayanırmış. Sələbiyyə xanın quldur dəstəsinə himayə edən, onu bu yola şirnikləndirən elə Cahangir Mirzə olub.

Uzun Həsənlə üzbəüz dayandığı bu gərgin anlarda Sələbiyyə xanın atası Yalavuz xanın törətdiklərini, bədnam aqibətini dönüb xatırlayırdı Sara Xatun… Yalavuz xan elə bil ki, öz tülkü xislətini oğlu Sələbiyyə xana əmanət şəklində ötürmüşdü. Bir almanın iki üzü kimiydilər. Vaxtilə Yalavuz xan da Qara Yuluq Osman bəyin oğlu, Sara Xatunun ömür-gün yoldaşı, Uzun Həsənin, Cahangir Mirzənin atası Cəlaləddin Əlinin yanında yaxşı qulluqda olmuşdu. Bir müddət Amid bəyliyinin əmin-amanlığına nəzarət etmişdi. İşinin öhdəsindən ustalıqla gələrdi. Hər cür fitnə-fəsadın içindən yəni, sudan duru çıxmağın ustasıydı. Tayfa başçıları arasında nifaq salmaqda, sonra da barışdırıcı mövqedən məsləhətlər verməklə işləri yoluna qoymaqda tayı-bərabəri yox idi. Bu oyunbazlığı isə uzun sürmədi. Müəmmalı şəkildə ortadan qeyb oldu. Hara getdi xəbər çıxmadı. Özü kimi fitnə-fəsad dağarcığı olan Sələbiyyə xanı yurdunda qoydu. Oğlu Cahangir Mirzə ilə yaxın dostluq etdiyinə görə Cəlaləddin Əli Sələbiyyə xana toxunmadı. Zaman keçdikcə Cahangir Mirzənin daha çox etimadını qazanmağa nail oldu Sələbiyyə xan. Onun sağ əlinə çevrildi. Cahangir Mirzənin sayəsində bəylikdə ən mühüm vəzifələrdən birini tutdu…

Bütün bu olmuşları xatırladıqca Sara Xatun yaralı aslan kimi nərə çəkmək istəyirdi. Dönüb qınayırdı özünü… Axı bütün aləmlərin anası olan, tədbirli, uzaqgörən Sara Xatun nədən biganə qalmışdı tülküxislətli, fitnəkar Yalavuz xanın kökü üstə bitən oğlu Sələbiyyə xanın əməllərinə? Onun öz oğlanları ilə yaxın olmalarına niyə izin vermişdi? Nədən uzaq tutmağa təşəbbüs göstərməmişdi? Yoxsa bütün oyunlarının içində it-bata düşən, urvatsız şəkildə unudulan Yalavuz xanın aqibətini bildiyi üçün əhəmiyyət verməmişdi oğlanları ilə münasibətinə? Elə bilmişdi ki, Sələbiyyə

xan da atasının yoluyla gedəsi olsa, günün birində o da hansısa görünməz bir əlin kəramətindən dibsiz bir uçuruma yuvarlanacaq, pisliyinin qurbanına çevriləcək. Bu səbəbdən də ocağının başında necə bir iblisin böyüyüb, baş qaldırdığının fərqinə varmamışdı. Ağlına gətirməmişdi ki, gorbagor Yalavuz xanın yetimçəsi onun Cahangir Mirzəsinin qəlbində hansı şeytani hisslərin toxumunu cücərdərək, qardaşı qardaş üstünə qaldıracaq, Bayandurlar nəslinin taleyini riskə qoyacaq. Nəticədə iş gəlib bu yerə çıxmışdı. İndi bütün dəlillər Sara Xatunun ciyərparası Cahangir Mirzənin əleyhinəydi. Təbii ki, işlərin belə bir düyünə düşməsinin əsl baisi, səbəbkarı məhz Sələbiyyə xan, onun fitnəkarlığı, anadangəlmə xisləti idi…

Uzun Həsənin bütün bədənini tər basdı. Əvvəlcə isti tər, sonra da soyuq. Haldan-hala düşdü. Öz-özünə məəttəl qalmışdı. Necə qardaş olasan, öz doğma yerinə, yurduna bu qədər nankor münasibətin olsun?! Axı onun hakimiyyətdə kifayət qədər yeri və rolu vardı. Bütün bunları düşünə-düşünə Uzun Həsən az qala anasının hüzurunda olduğunu da unutmuşdu. Onu ağuşuna alıb aparan fikirlərin arasında azıb qalacaqdı. Yenə anasının söhbəti onu ayıldıb diqqətini məsələnin məğzinə yönəltdi. Bu, nə demək idi? Bu işdən o, necə baş çıxaracaqdı? Anası nə məsləhət edəcəkdi? Bu sualları o, verməsə də diqqətlə anasını süzürdü. Anası məsələnin nədən ibarət olduğunu və oğlunun nigarançılığını artıq anlamışdı. Daha işlərin bu yerə çatmağı ananın canını boğazına yığmışdı. Oğluna da nə demək istəyirdisə, elə onu da dedi:

– Mənim ana ürəyimə dağ çəkmə. Bu gün qısa müddətli olsa da, savaş olacaq. Çünki qala mühasirədədir və bir kimsə bizim iznimiz olmadan qaladan canını götürüb qaça bilməz. Sələbiyyə xan gərək mümkün qədər döyüş meydanında öldürülməsin. Onu adamların mühakiməsinə verməliyik. İndiyə qədər törətdiyi əməlləri camaata açıq deməliyik. Yoxsa, Bayandurlar nəslinin arasına da çaxnaşma salarıq. Doğmalar bir-birindən ayrı düşər,

ixtilaf, qarmaqarışıq başlamaq istədiyimiz işi yarımçıq qoyar. Gərəkdir ki, ağıllı tərpənək, tədbirli olmağımızı unutmayaq. Qoy Sələbiyyə xanın öz qohum-əqrəbası da, əhli-əyalı da onun indiyə qədər törətdiklərindən hansı yuvanın quşu olmağından axıracan xəbər tutsun. Onda bir kimsə bizim ədalətimizə şübhə etməz. İnsanlar yaxşı bilərlər ki, kimin tərəfində olmaq Haqqın tərəfində olmaq deməkdir.

Sara Xatun fikrini təmkin və aramla, açıq-aydın deyirdi ki, heç Uzun Həsənin nəyisə çevirib soruşmağına ehtiyac qalmırdı. Elə ki, Uzun Həsən gördü, anası Sələbiyyə xan haqqında danışır. Cahangir Mirzənin adını hələ çəkmir. Yəni Cahangir Mirzənin taleyinin necə həll olunacağını demir.

Uzun Həsən səbirsizliklə: – Bəs… – dedi, ancaq gerisini gətirmədi.

Sara Xatun başa düşdü ki, o, Cahangir Mirzənin son taleyini soruşmaq istəyir:

– Hə, oğul, doğrudur, onun da günahı böyükdür. O da Qara Yuluq Osmanın vəsiyyətlərinə xəyanət edib. Cəzası ölümlə əvəzlənər. Amma gələcək nəsillərin qınaq yeri olarsan. Əlini qardaş qanına batırma. Mümkün qədər mühasirədən ona bir yol qoy, keçib getsin.

Uzun Həsənin qəlbində qardaşına ölüm hökmü verəcək qədər kini olmasa da, böyük qəzəbi soyumamışdı. Lap onu qolları bağlı bir zindana atdırıb illərlə orada saxlamaq da istəyərdi. Təəssüf ki, anası buna qol qoymurdu. Belə olan halda başqa nə etmək olardı? Gərək anasının dediklərinə əməl edəydi. Sara Xatun daha Uzun Həsənə tərəf baxmırdı. Amma deyəsən, asta-asta dodaqlarının altında nəsə danışırdı. Uzun Həsən ha diqqət elədisə, anasının nə söylədiyini, hansı tapşırığı verdiyini, belə özü üçün aydınlaşdıra bilmədi. Bəlkə də Sara Xatun Allaha yalvarırdı. Baş verəcək hadisədə qan-qada, qırğın həddini aşmasın. İşin də bir tərəfi yumşaq qurtarsın.

Uzun Həsən nə qədər diqqət kəsilsə də, başa düşmədiyi bu pıçıltıların, heç şübhəsiz, dualar olduğunu özü üçün qərarlaşdırdı. Hiss etdi ki, daha anasının yanında qalmağı artıqdır. Ayağa durdu. Gedə də bilmədi. Çünki Sara Xatun axırıncı, qəti tapşırığını verməmişdi. Sara Xatun da deyəsən, dualarını qurtardı. Gözlərini yumdu. Sanki Allahla sözsüz anlaşırmış kimi sükuta daldı.

Axır ki, handan-hana özünə gəldi. Gözünü açanda oğlunun qabaq-qənşərində ayaq üstə dayandığını gördü. Özü də ayağa durdu. Qabağa gəlib oğlunun qolundan yapışdı. Üzünü ordugaha tərəf tutub həyəcanla Uzun Həsənə göstərdi:

– Bu insanlar sənin üçün özgə deyil. Gərək onların hər birinin qədrini biləsən, qanlarının havayı yerə axmasına könlün razı olmaya…Biz təkcə bu adamların özlərinə yox, həm də onların övladlarına borcluyuq.

Uzun Həsən astaca dilləndi: – Bilirəm, ana!

– İndi get, səssiz-səmirsiz hazırlıq gör. Sabah gün yayılandan sonra qalanın hər tərəfindən hücuma keçərsən. Çalış, təbillərin səsi gur olsun. Döyüşçülərin əhvalları da yaxşı vəziyyətdə… Bilirik ki, qalada artıq böyük qüvvə yoxdur. İnamlarını qıran kimi, hamı silahlarını yerə töküb təslim olacaq. Məğlub əsgərin gərək biri də öldürülməsin. Yoxsa, onların günahı boynunda qalar, ruhları qarabaqara səni izləyər. Sən ki, zəfər yoluna elə indi çıxmısan. Bunu gərək unutmayasan.

Uzun Həsən anasının bu dərəcədə hərb işinə bələdliklə danışmağından xeyli mütəəssir olmuşdu. Xəyalında qələbəlik, toy-busat vardı. Gəlin ocağa gələr – yavaşdan pıçıldadı. Qara Yuluq Osmanın çırağını yandıran xatun belə də olmalı idi. Əhsən, Sara Xatuna, anasının qüdrəti onu valeh etmişdi. Hətta söz də tapa bilmirdi danışmağa.

Bu məqamda isə anasını arxayın etmək üçün bir neçə kəlmə deməli idi:

– Cahangir Mirzə bizdən aman alacağına arxayın olacaq. Çünki Ağru xan onun razılığı ilə bizim qərargahımıza təşrif gətirib. Əslində, Ağru xan onun elçisi sifətində gəlmişdi. Ancaq o, bilmir ki, biz nəinki indiki, hətta keçmiş xəyanətlərindən də xəbərdarıq. Ona görə də lap yenidən bizimlə birgə olmaq istəyini də bildirər. İş burasındadır ki, onu daha Bayandurlar nəslinin iç aləminə qaytara bilmərik. Mən anamın dediklərindən bunları başa düşdüm. Doğrumu bildim?

– Bəli, elədir, – Sara Xatun təsdiqlədi.

– Demək, onda biz Sələbiyyə xanı diri ikən ələ keçirməliyik, onun murdar cəsədi gərək deyil. Ancaq Cahangirə qoy elə Ağru xan özü xəbər aparsın ki, təkbaşına ona qoyulmuş yoldan keçməklə çıxıb getsin. Daha onun haraya gedəcəyinin, kimə pənah aparacağının bizə dəxli yoxdur.

Sara Xatun da oğlunun doğru-düzgün cavablarına qane oldu, bunu bildirmək üçün başını razılıqla tərpətdi.

Uzun Həsən söhbətin bitdiyini güman edib getmək istədi, Sara Xatun onu bir də saxladı:

– Yaxşı, sən necə düşünürsən? Allahın köməyilə qələbə də sənin oldu, əlin də qardaş qanına batmadı, Cahangir Mirzə də baş götürüb getdi. Sonra fikrin nədi, nə etmək istəyirsən? Yenə də Amid bəyliyinə – vadiyə qayıtmaq fikrindəsən? – Bayandurlar nəslinin sahib olacağı torpağın bir küncünə?..

Doğrudan da Uzun Həsən bu barədə düşünməmişdi. Həqiqətən də bu döyüşdən sonra o, təzədənmi Amid bəyliyinə qayıtmalı idi? Yox, yəqin ki, bu, mənasız bir addım olardı.

Yenə də cavabı anasından gözlədi. Sara Xatunun üzünə işıqlı, gülümsər bir ifadə gəlmişdi. Elə bil ki, səhərin gəlişi ilə doğulan günün işığı indidən sifətini nura bələmişdi. Bu hisslərin təsiri altında oğluna axırıncı sözləri dedi:

– Hələ ki, Bayandurlar nəslinin iqamətgahı elə burada – Diyarbəkirdə olacaq. Sən bura gələn gündən Diyarbəkirin ha-

kimisən. Yolumuz isə buradan Təbrizədir. Ancaq gərək tələsməyəsən. Dədə-babalardan qalmış ağıllı kəlam var: – «İpəyə dönmək üçün yarpaq gərək tam açılsın. Eyni zamanda səbirlə qoradan halva da bişər, – deyiblər.

Uzun Həsən artıq qəlbindən gələn bir hisslə sehrlənmişdi. Sifətini bürümüş xöş təbəssümdən qanadlanmışdı. Sara Xatunun amiranə səsi onu diksindirdi.

– Hə, indi get, Tanrı köməyin olsun!

Uzun Həsən heç bilmədi anasının yanından necə çıxdı…

* * *

Onsuz da qoşun qalanı dörd tərəfdən əhatə eləmişdi. Bir quş da quşluğuyla qaladan uçub kənara çıxmaq istəsəydi, Uzun Həsənin keşikçilərinin nəzərindən yayına bilməzdi. Ayrı-ayrı bölüklərin başçılarını Uzun Həsən yanına çağırıb axırıncı məxfi tapşırıqlarını verdi:

– Bir kimsə qaladan çıxa bilməz, əlbəttə, müqavimət göstərən, zərbə vuran, döyüşən düşmən layiqli cavab almalıdır. Ancaq bir məsələ var. Təslim olmaq istəyən, silahı yerə qoyan hər kəs gərək bağışlansın, amanda olsun. – Uzun Həsənin yumşaq sözlərinə kimsə etiraz eləməsə də, bəzilərinin gözlərindən oxunurdu ki, bu tələblə barışmaq onların heç ürəyindən deyil.

Axır ki, kimsə – bölük başçılarından biri idi – dilləndi: – Bizim bir etirazımız yoxdur.

– Deyəsən, məsləhətim heç ürəyinizcə olmadı.

– Olmaz da. Onlar xəyanət eləyib, bizə düşmən çıxıblar, biz də onların başlarını sığallamalıyıq?

Uzun Həsən bu etiraz eləyən cavanın qoçaq bölükbaşı olduğunu bilirdi. Özü də düşmən arxasına keçməkdə, kəşfiyyat işlərində pərgar idi. Ona görə də heç onun xətrinə dəymək istəmədi. Bir qədər mülayim dilləndi:

– Sən onları düşmən hesab edirsən?

– Əlbəttə, düşmən hesab edirəm. Onların imkanları olsaydı, səni də, Amid bəyliyini də yer üzündən silərdilər.

– Doğrudur, elədir. İndi onların bizi yer üzündən silmək imkanları yoxdur. Əvəzində bizim onları məhv eləmək gücümüz var. Biz onları məhv eləməklə nəyə nail olacağıq? Düşmənə nə qədər qəddarlıq göstərərsən, o da sənə bir o qədər qəddar olar.

– Orası elədir, – bölükbaşı dil boğaza qoymadı.

– Amma sən bir məsələni unudursan. Yaddan çıxarırsan ki, bizim böyük məqsədimiz var. Gücümüzü, qüvvəmizi qorumalıyıq. Axı onlar da Bayandurlar nəslinin törəmələridir. Ölümlər ixtilafları daha da dərinləşdirər. Biz gərək xalqımızın birliyinə nail olaq. Onu gələcək böyük bəlalardan qorumağın bircə yolu var. O da bu xalqın birliyini təmin etməkdir. Bax, bu səbəbə görə gərək mümkün qədər ölüm-itimin qarşısını alaq. Onların bir çoxu heç düşmən də deyil, aldadılmış adamlardır. İndi tezliklə səhvlərini başa düşüb, bizimlə bir araya gəlməyə sevinəcəklər.

Uzun Həsənin bu sözləri, deyəsən, kifayət qədər təsirli oldu. Nə böyuk bölükbaşı dilləndi, nə də onun yanındakı bayaq üz-gözlərindən narazılıq oxunan qoşun başçıları…

Uzun Həsən sakitliyi razılıq kimi qəbul elədi. Nəsihətamiz sözlərindən məmnun da qalmışdı. Birazdan sonra döyüşə atılacaq bu cəngavərlərə qəlbində gizlin saxladığı sirri demək üçün məqam gözləyirdi. Baxdı ki, vaxt yetişib, o, əsl həqiqəti çatdırmalıdır. Ancaq necə desin, haradan başlasın, bax, bunu bilmirdi. Bir-bir bölükbaşlarının üzlərində gözlərini gəzdirirdi. Qardaşı Üveys Mirzə də burada idi. Yenə başqasına yox, Üveys Mirzəyə nəzərlərini yönəltdi.

– Hə Üveys, sən necə düşünürsən? Bəs Cahangir Mirzənin taleyi necə olsun?

Bəlkə də Üveys Mirzə ona belə bir sual veriləcəyini heç gözləmirdi. Əvvəlcə bir az çaşqınlıqla Uzun Həsənin, bir az da bölükbaşıların nəzəri altında devikmiş qalsa da, özünü toparladı.

Ayağa qalxıb əvvəlcə Uzun Həsənə təzim elədi, hörmətlə baş əydi. Onun bu hərəkətləri Uzun Həsənə xoş gəldi. Çünki bayaqkı bölükbaşı cəsarətinə güvənib Uzun Həsənə təzim etmədən danışırdı. Uzun Həsən də döyüşqabağı onun əhvalını korlamamaq üçün bu hərəkətinin üstünü vurmamışdı. İndi Üveys Mirzənin belə ehtiramlı münasibəti, nümunəvi hərəkəti həmin bölükbaşıya da, digərlərinə də bir görk olurdu. Üveys Mirzə təzimdən sonra bir az qabağa durdu, elə dayandı ki, həm Uzun Həsəni, həm də digər bölükbaşıları yaxşı görə bilsin. Bundan sonra sözünə başladı:

– Bizim rəhbərimiz Həsən padşahdır. Onun dedikləri hamı üçün qanundur. Bilirəm ki, o da aləmlərin anası – Sara Xatunun dediklərilə, rəylərilə hesablaşır, sözündən çıxmır. Demək, biz də Uzun Həsənin sözündən çıxmamalıyıq. Onda gərək unutmayaq ki, Cahangir Mirzənin də taleyini elə o özü həll etsə yaxşı olar.

– Gərək unutmayaq ki, insanın taleyini əvvəlcə Allah həll eləyir, sonra bəndə. Əgər Sara Xatunun məsləhəti belədirsə, biz qaçanı qovmamalı, aman istəyənə aman verməli oluruqsa, onda Cahangir Mirzəyə də amanımızı əsirgəməyək.

– Doğrudur, mən razıyam. Amma inanmıram ki, bu qədər böyük biabırçılıqdan və xəyanətdən sonra Cahangir Mirzə təzədən bizim sərkərdəmiz Uzun Həsənlə üz-üzə gəlmək istəsin. – Üveys Mirzə sözünü tamamladı.

– Mən də belə düşünürəm. Onda bircə yol qalır. Cahangir Mirzəyə imkan vermək lazımdır ki, o, beş-üç nəfər ən yaxın adamı ilə haraya istəyir, qaçıb çıxıb getsin.

– Bəs Sələbiyyə xan, onun haqqında nə qərar qəbul edək? – Bayaqkı bölükbaşı sözün arasına girdi.

Uzun Həsən bu dəfə onun sözün arasına girməyindən razı qaldı. Sələbiyyə xanın mərəkədə araya gətirilməsi çox vacib idi. Ona görə də Uzun Həsən qətiyyətlə dedi:

– Hamılıqla diqqətli olmalıyıq ki, bu qədər böyük günahların və xəyanətkarlıqların baisi Sələbiyyə xan aradan çıxa bilməsin. Onu mümkün qədər, yaralansa belə, diri götürməliyik. O, bu xalqın qarşısında törətdiyi cinayətlərə görə, bütün bəd əməllərinə görə cavab verməlidir. Görək onu nə vadar edib ki, öz xalqına, doğmalarına qarşı bu qədər qəddar olub: hələ bu xəyanətindən qabaq o, keçmiş quldurluqlarının cəzasını almalıdır. Yoxsa, elə bilər ki, bizim heç nədən xəbərimiz yoxdur. Qoy, onun iç üzünü elə özünün doğmaları da yaxşı bilsin. Onda Sələbiyyə xana verilən cəzadan yaxınları xəbərdar olar, narazı qalmaz. – Uzun Həsən sözünü tamamladı. Amma düşündü ki, bu qarşısında dayanan, hər cür əmrə müntəzir adamlar üçün yenə nəsə qaranlıqdır. O, diqqətini toplayıb sözünə davam elədi. – Hə, bir də onu deyirəm. Anamız Sara Xatunun adından sizin hər birinizə qarşısındakı ilk döyüşümüz üçün xeyir-dua arzulayıram. Biz böyük amalımızın astanasında dayanmışıq. Bu döyüşdən asılıdır, gələcəkdə Bayandurlar nəsli savaşda hansı mənsəb, ehtiram mərtəbəsində olacaq. Demək, bu igidlik göstərən hər kəs gələcək nəslin önünə alnıaçıq çıxacaq. Əgər hər hansı birimizin yaşam yolu bu gün bitəcəksə, ruhumuz əbədi surətdə, gələcək soy-kökümüzün varlığında yaşayacaq. Bu gün bizim şərəf tariximiz başlanır. Qorxaqları, xainləri Allah bağışlamadığı kimi, divan da bağışlamır. İndi iki yol var; şərəfli döyüşlə adımızı xalqımızın yaddaşına yazmaq və buna görə ləyaqətlə xatırlanmaq, bir də qorxaqlıq və xəyanət. Buna görə yenə gələcək tərəfindən lənətlə damğalanmaq.

Uzun Həsən nitqini bitirdi. Deyəsən, bir az həyəcanlanmışdı. Kənara çəkilib işarə elədi, aralıda onun atını saxlayan döyüşçü bir anda yaxına çəkdi. Ağ at elə bil ki, qarşıdakı döyüşün həyəcanını sahibinin bu alovlu danışığında hiss eləmişdi. Fınxırıb qabaq ayaqlarını yerə döyürdü. Uzun Həsən yüyənini əlinə aldı, sonra da yüyəni atın başına çevirib bir anda belinə sıçradı. Uzun ayaqları yerə çatırdı. Qılıncını sıyırıb hündürdən hay vurdu:

– Təbillər vurulsun, şeypurlar çalınsın!

Qalanın dörd tərəfi bir andaca cana gəldi. Hər tərəfdən həyəcanlı səslər – «Ya Allah!, Ya Allah!» – səsləri göyə yüksəldi. Ayrı-ayrı bölüklərdən kimlərinsə səsləri aydınca eşidilirdi: «Biz haqqın tərəfindəyik!», başqa birisi səsinə əks-səda verdi: «Var olsun anamız! Sara Xatun, aləmlərin anası əbədi yaşasın!».

Qoşun hərəkətə keçdi. Uzun ağır dirəklərlə hücum çəkən əsgərlər bir anda qalanın qapılarını sındırb dağıtdılar. Qala bürclərindən ara-sıra oxlar atılsa da, elə də böyük zərər vurmadı. İçəridən xoflu Sələbiyyə xanın qara-qışqırtısı gəlirdi: – Ay namərd oxatanlar, cəld tərpənin, Uzun Həsəni vurun, onu öldürsəniz, bütün qoşun ruhdan düşər, biz qalib gələcəyik.

Yox, bu sözlərin elə də təsiri olmadı. Çünki bütün döyüş boyu Uzun Həsənə tərəf bircə ox da atılmamışdı. Uzun Həsən qoşunun başında qalaya girəndə Sələbiyyə xanın ətrafından bir qədər aralıda olanlar o saat yaraq-yasaqlarını atıb kənara çəkildilər. Sələbiyyə xan qılıncını sıyırıb özünə silahdaş hesab elədiyi, hələ düşmən çatmamış tərksilah olanların üstünə cumdu. Bir neçə nəfərə qılınc xətası yetirdi. Bu vaxt Uzun Həsəni düz qənşərində gördü. Uzun Həsən isə:

– Ay namərd, axı bu adamları sən tovlayıb bura gətirmisən. Bəs indi necə əlin qalxır ki, onların üstünə qılınc çəkirsən? – deyib Sələbiyyə xana tərəf atını ildırım kimi sürdü. At bir anda irəli şığıyıb, Sələbiyyə xanın qara atı ilə burun-buruna dayandı. Atlar fınxırıb kişnəşdilər, sonra hər ikisi dal ayaqları üstə şahə qalxdı. Uzun Həsənin ağ ayğırı qabaq ayaqlarını o qədər yuxarı qaldırmışdı ki, az qala Sələbiyyə xanı vurub atdan salacaqdı. Sələbiyyə xan atın yüyənini sola döndərdi. Bu vaxt imkan oldu ki, Uzun Həsən qılıncı ilə başını bədənindən ayırsın. O, qılıncı sıyırıb Sələbiyyə xanın boynunun arxasında saxladı. Sələbiyyə xan hiss elədi ki, Uzun Həsən onun boynunu vura bilərdi, amma əl saxladı. Ürəyində düşündü ki, Allah belə bir imkanı mənə qismət edəydi. Bir də atını

döndərib Uzun Həsənin üstünə şığıdı, qılıncını var gücü ilə onun başına çaldı. Uzun Həsən güclə vaxt tapıb müdafiə qalxanını qaldırdı. Sələbiyyə xanın qılıncının ağzından od parladı. Deyəsən, bu zərbə ona güc bəxş elədi. Ona görə də üzünü Uzun Həsənə tərəf tutub qışqırdı:

– İndi mən sənin uzun ayaqlarını kəsərəm. Hamı ilə bərabər olarsan.

Növbəti həmlə Uzun Həsənin idi. Qılıncını var gücü ilə çaldı. Sələbiyyə xan qılıncı onun qılıncının qabağına verdi. Doğrudur, qılıncın zərbəsinin qarşısını aldı, ancaq öz qılıncını əlində saxlaya bilmədi. Zərbədən qılıncına bağlanmış qayış Sələbiyyə xanın qolundan qopdu. O, qılıncı əlində saxlaya bilmədi və əliyalın qaldı. Uzun Həsən qılıncını qaytarıb qınına qoydu. Atını döndərib düz Sələbiyyə xanla üzbəüz durdu. Bu dəfə Sələbiyyə xan ikinci cəhddə təbərzinini qaldırdı. Ancaq zərbəyə imkan olmadı. Çünki Uzun Həsən həmişə böyründən asılı saxladığı əmudunu çəkmişdi. Əmudu əlində çox sürətlə fırladıb Sələbiyyə xanın başını girəvələdi. Əmudun Uzun Həsənin əlindən çıxması ilə Sələbiyyə xanın başına dəyməyi bir oldu.

Dünya-aləm Sələbiyyə xanın gözlərində qaraldı. Atın üstündə başına hərlənən yeri-göyü seyr elədi. Daha duruş gətirmədi, başı üstə yerə gəldi.

* * *

Sara Xatun Bayandurlar ordusunun qaladan xeyli aralıda – hündür təpədə qərar tutmuş ordugahın düz ortasında qurulmuş çadırında idi. Seçilmiş yer bir qədər küləkdöyən olsa da, çadırın hündür təpədə qurulmağı ətrafı müşahidə etmək baxımından əlverişli idi. Sara Xatunun uzağı görən iti nəzərləri qala tərəfə zillənmişdi. O, təbiətən çox ehtiyatlı qadın idi. Uzun Həsənin gördüyü əsas tədbirlərdən əlavə özü də hazırlıq işləri görmüş, ordugahdan xeyli aralı məsafələrdə keşikçi dəstələri saxlatmışdı. Bu

da ondan irəli gəlirdi ki, o, Sələbiyyə xanın hiyləgər olmağından, ən rəzil tədbirlərə əl ata biləcəyindən ehtiyat etmişdi. Bilirdi ki, bu şərəfsiz Bayandurlar nəslinin bədxahları ilə əlaqə qura bilər. Yaxud da əlavə dəstə təşkil eləyib, əsas qüvvələrin Diyarbəkir qalası ətrafına toplaşmağından istifadə edər. Beləliklə, həmin alay Sara Xatunun müvəqqəti iqamətgahı üzərinə hücuma keçər. Əlbəttə, məqsədi o olar ki, Sara Xatunu girov tutmaqla, Uzun Həsəni tərksilah etmək məcburiyyətində qoymaq məqsədi güdər.

Doğrudur, bunu Sara Xatun fikirləşir, ehtimal eləyirdi, hər ehtimala qarşı, namərd düşmənin əlindən nə desən, gələr. Ancaq bilmirdi ki, həqiqətən Sələbiyyə xan belə bir təşəbbüsdə olmuşdu. Özünə yaxın, sədaqətli adamları toplayıb, Sara Xatunun üzərinə göndərmək, ona kənardan hücum edib, gözlənilmədən mühasirəyə alıb, girov götürmək. Məlum olmuşdu ki, əgər o belə bir dəstəni təşkil eləyib, qəfildən Sara Xatunun üzərinə göndərsə, özünün qala ətrafında döyüşlərdə mühafizə eləyəcək qüvvəni azaldardı. Ona görə də Sara Xatunu girov götürmək fikrindən vaz keçmiş, öz yaxınlarına tapşırmışdı ki, bəd ayaqda onun özünü mühafizə eləsinlər. O da mühafizəni yarıb elə yaxınları ilə birlikdə aradan çıxar. Sonra təsdiq olundu ki, Sələbiyyə xanın bu məqsədi də baş tutmamışdı.

İndi Sara Xatun ətrafda sakitlik olduğunu yaxşı görürdü. Hələ üstəlik, ondan da arxayın idi ki, üzük Cahanşaha çatmamışdı. Ünvanı yolda dəyişən Künəgü onu Sara Xatuna gətirmişdi. Deməк, Cahanşah da Diyarbəkirdə baş verənlərdən xəbərsiz idi. Hətta qismən xəbərdar olsa belə hərbi vəziyyətin necə olduğunu bilmədiyindən hərəkətə keçməzdi. Qalırdı bircə narahatlıq. Bu da elə narahatlıq, nigarançılıq idi ki, Sara Xatunun analıq hissinə dönüb, onu daxilən didir, varlığını, ixtiyarını əlindən alırdı. Səbəb də o idi ki, Cahangir Mirzənin taleyi məlum deyildi. Artıq Cahangir Mirzənin Bayandurlar nəslinə qayıdışına yol birdəfəlik bağlanmışdı. Bəlkə Cahangir Mirzə təzədən anasının

hüzuruna qayıtmaq, ayaqlarına düşüb yalvarmaq, elə Bayandurlar nəslinin arasında sakit yaşamaq yolu da tutmaq istəyərdi. Daha Sara Xatun bunu qəbul eləyə bilməzdi. Çünki beyni siyasət iddiaları ilə qarışmış Cahangir Mirzənin əlinə fürsət düşən kimi yenidən aləmi bir-birinə qata biləcəyindən ehtiyatlanırdı. Əslində, Cahangir Mirzəyə heç etibarı qalmamışdı. Gizlinlər açığa çıxmışdı. Cahangir Mirzə hələ neçə il əvvəl Amid bəyliyinə gələn karvanları soyub, talayanların başında dururmuş, qaçaq-qulduru ətrafına yığıbmış. Onsuz bu kimi məsələlər də aydınlaşacaq, hamıya bəlli olacaqdı. Bütün bu səbəblərin hamısına görə Sara Xatun istəyirdi ki, Cahangir Mirzə müharibəyə girmədən, hansı yollasa xilas olsun, salamat başını götürüb qürbət ellərə üz tutsun. Daha onun dostun, ya düşmənin yanına getməyinin bir fərqi yox idi.

Sara Xatunu bir də o narahat edirdi ki, kaş tale, qəzavü-qədər Uzun Həsənlə Cahangir Mirzəni qarşılaşdırmayaydı. Artıq qalaya qayıtmış Ağru xanın da orada olması bir qədər Sara Xatuna təskinlik gətirirdi. Nə qədər olmasa da, Ağru xan da fürsəti əldən verməzdi. Qardaşların arasında dayanardı. Hər övladın bir ana əmanəti olduğunu onlara anladardı. Hər halda Sara Xatun ordugahdaydı. Döyüş isə Diyarbəkir qalasının ətrafında gedirdi. Ancaq birdən nağaraların və kəbrəkələrin qulaq batıran gurultusu Sara Xatunu diksindirdi. Diqqət kəsilib bilmək istəyirdi ki, adətən qələbə vaxtı çalınan kəbrəkə sədaları kimin şərəfinədir. Nə qədər olmasa da, Uzun Həsənin gücünə inanırdı, qalibiyyətin onun tərəfində olduğunu yəqin edirdi. Bir az keçmiş kürən, qaşqa atın yalına yatmış gənc bir döyüşçü özünü Sara Xatunun yanına çatdırdı. Qarabağ atının burun pərələrindən od çıxırdı. Hiss olunurdu ki, dəlisoy köhlən həyəcanlı xəbərlə gələn çapan dördnala gətirib. Sanki at uzaq məsafəyə qaçış üçün hazırlanıb, amma məsafənin tez tükəndiyindən hələ də qızğınlığı ötməmişdi. Sara Xatun cavan oğlanın necə qürurla və sevinclə

gəldiyinə diqqət yetirdi. Elə bil bu gənclə atın gözəlliyi bir-birini tamamlayırdı.

Atın cilovundan tutmuş oğlan düz Sara Xatunun yanına çatanda dayandı:

– Mən Həsən padşahdan şad xəbər gətirmişəm. Sələbiyyə xan zəbun oldu – gənc bu sözləri deyib dayandı. Sanki başqa heç nəyi deməyə lüzum görmürdü. Əslində, Sara Xatuna elə bu xəbər lazım idi. Qaydaya görə həmin gənc bu sözləri deyəndən sonra Sara Xatun izn verməli idi ki, çıxıb getsin. Başqa xəbərlər başqa çaparların işi olacaqdı. Amma Sara Xatun cavanın necə fərəhlə gəldiyini, atın üstündəki məğrur duruşunu hələ uzaqdan çatmamışdan görürdü. Belə qoçaq, qürurlu gənclərin Uzun Həsənin yanında olması vacib idi. Gəncin bığ yeri təzəcə tərləyirdi. Bəlkə də daha betər qanlı döyüşlərdə iştirakı bundan sonra olacaqdı. Sara Xatun yaxınlaşandan sonra onun gözlərinə də diqqət elədi. Hətta onun gəlib çatan kimi dediyi sözləri bir də xəyalından keçirdi. Başqası olsaydı, Sara Xatuna təmtəraqlı sözlər deyərdi. Aləmlərin anasını sicilləmə, şit sözlərlə salamlayardı. Ancaq bu gənc üçün elə uzun söz-söhbət gərəkli deyildi. Vacib bilirdi ki, deyiləni çatdırsın. Sara Xatun gənci bir az da danışdırmaq üçün soruşdu:

– Sən öz gözlərinlə gördünmü?

– Bəli, anamızı inandırıram ki, Sələbiyyə xanın atdan yerə necə yıxıldığını öz gözlərimlə gördüm.

– Döyüş davam edir, ya yox?

– Doğrusu, mən elə həmin andaca padşahımızın tapşırığına əsasən atımın başını döndərdim, qalan hadisələrdən daha xəbərim olmadı, amma gördüm ki, hamı yer-yerdən Həsən padşahı alqışlayır.

Sara Xatun gəncin nə qədər səmimi, saf bir qəlbə malik olduğunu daha artıq duyduqca ondan daha çox xoşlandı:

– Sən özün haralardansan, igid?

– Əslimiz Qarabağ tərəflərdəndir.

– Bəs bu yerlərə necə gəlib düşmüsən?

– Babam Qara Yuluq Osmanın yanında qulluq edib, atam Cəlaləddin Əliyə xidmət göstərib. Biz şöhrətimizi bu xanədanda tapmışıq. Mən də Həsən padşahın çaparıyam, – dedi.

– Nə yaxşı, – Sara Xatun dilləndi, sonra sol əlilə yaxınlıqda dayanan xidmətçisinə işarə elədi. Yaxına gələn adama nəsə dedi. Çox keçməmiş adamlar yanında təzədən hazır oldular. Bir nəfər əlində təzə bir döyüş libası tutmuşdu. O biri şəxs də at üçün təzə yəhər, yüyən.

– Sən bundan sonra Uzun Həsənin yanında bu fəxarət libasınla xidmətdə olacaqsan. Üstəlik, bu təzə yəhər-yüyən də sənin Qarabağ köhlənin üçündür.

Gəncin gözləri güldü. Sara Xatundan belə bir dəyərli muştuluq almaq hər igidin işi deyildi. Hələ üstəlik, atının da xalatını Sara Xatun əsirgəməmişdi. Elə bil ki, ağ kəhər təzə yəhər-yüyənin onun üçün olduğunu duymuşdu. Səkil ayaqlarını götürüb-qoydu, sonra dırnağıyla yeri diddi, boşalmış yüyənin verdiyi imkan qədərində yerində hərəkət elədi. Sonra fərəhli kişnərti ilə şahə qalxdı. Bununla da deyərdin ki, Sara Xatuna öz təşəkkürünü bildirirdi. At sakitləşən kimi gənc dilləndi.

– Mənim üçün bu ənam hələ tezdi.

Sara Xatun gəncin qızaran yanaqlarına, fərəhdən qaynayan gözlərinə bir də baxdı.

– Yox, tez deyil, – dedi, – götür, bütün bunlar sənə halaldır.

Oğlan Sara Xatunun qarşısında ləyaqətlə təzim elədi. Əllərini sinəsində cütlədi, sonra ayağa qalxıb, xalatı aldı. Bir də Sara Xatuna təzim elədi və dedi:

– Atam, babam Qara Yuluq Osmana sədaqətli olub, mən də bu sədaqətin keşiyindəyəm.

Sara Xatun gənci bir az da yaxınına çağırdı: – Bəri gəl, – dedi, sonra da alnından öpdü. Bundan sonra əlilə Diyarbəkir tərəfi göstərib:

– Döyüşdə özünü qoru, sənin kimi sədaqətli oğullara bizim ehtiyacımız var, sənin kimin övladların sayəsində biz böyük qələbələr qazanacağıq.

– Tanrı dayağımız olsun, – oğlan yenə özünəməxsus əda ilə cavab verdi.

Sara Xatunun fərəhdən gözləri dolmuşdu. Elə bil döyüş meydanını da, Cahangir Mirzənin taleyini də unutmuşdu. İndi onun gözlərinin önündə möhtəşəm Bayandurlar nəslinin quracağı dövlətin qüdrətli sütunları canlanırdı. Bir anlığa araya sükut çökdü. Ancaq bu bir an Sara Xatun üçün çox uzun müddət kimi göründü. Xəyaldan ayrılıb gəncə son diləklərini bildirdi: – İndi get, tale sənə yar olsun! – dedi.

Bir anda o, geri çevrildi. Hərbi mühafiz dəstəsinin başçısı oğlanı özüylə apardı. Ona yüngül nahar verdilər. Həmin müddətdə atın yəhər-yüyəni dəyişdirildi. Sonra oğlandan tələb etdilər ki, dedilər ki, gərək libasını da dəyişəsən. Birazdan Sara Xatunun qərargahından çıxan köhlən dördnalla qalaya tərəf çapırdı. Atın tüklü ayaqları günəş işığında ağ corab kimi parıldayırdı. Sara Xatun onun belə qürurla çapıb getməyindən çox duyğulandı. «Belə igid döyüşçüləri olan ordu böyük qələbələrə layiqdir» – deyə düşündü.

…Bu vaxt mühafizlərdən biri yaxınlaşıb kiminsə təzə xəbər gətirdiyini bildirdi. Sara Xatun hər kim olur-olsun, marağını gizlətmədi: «Olmaya döyüş bölgəsindən gəlir, başqa xəbər gətirir?» Heç bu düşüncələri özündən qədərincə qovmamışdı, həmin şəxs qənşərində hazır oldu.

– Aləmlərin anasına uzaq diyarın bir qonağından salam gətirmişəm, – dedi.

– O qonaq haradadı, o hansı diyardı? – Sara Xatun soruşdu.

– Rum ölkəsidir, qonaq da həmin ölkədən gəlib, mühüm xəbərlə.

– Bəs biz o qonaqla hansı dildə danışacağıq? – Sara Xatun ciddiləşdi.

– Mən qonağın dilini bilirəm. Əgər rəva bilsəniz, mən həmin qonağı gətirərəm, – xəbər sahibi inamla sözü-sözə calayırdı.

Sara Xatun xeyli fikrə getdi: – Qonağı gətirə bilərsən, – dedi, sonra da düşündü: «Deyəsən, Bayandurlar nəslinin xəbəri uzaq ölkələrə bizim bildiyimizdən də tez yayılıb».

* * *

XV əsrin ortaları… Zaman o zaman idi ki, Osmanlı sultanı II Mehmed Bizansı çökdürüb İstanbulu fəth etmiş, bütün dünyanı lərzəyə salmışdı…

Sara Xatunun iqamətgahına paltarının üstündə xaç nişanı olan bir qonağı gətirirlər. Başqa vaxt olsaydı, bəlkə Sara Xatun heç nəinki qonağı başqa bir kimsəni də qəbul etməzdi. Amma indi Diyarbəkir qalasının Uzun Həsənin əlində olduğunu biləndən sonra arxayınlaşmışdı. Könlündən hələ bir şadyanalıq da keçirmək istəyirdi. Axı, onun iki məqsədi baş tutmuşdu – yerinə yetmişdi. Birincisi, onun ən böyük istəyi və arzusu Ağqoyunlular tayfasının – Bayandurlar nəslinin gücünü göstərən ilk döyüş Uzun Həsənin qələbəsilə qurtarmışdı. Özü də bu qələbənin dəyəri ona görə böyük idi ki, ilk dəfə Bayandurlar nəsli bir yerə cəm olmuş,  başçıları əminliklə döyüşə atılmış və qalib gəlmişdi. Doğrudur, yerdə qar, sazaq olmasa da, qışın bu oğlan çağında əsas qüvvələri Bayandurlar nəslindən olan döyüşçülər qorxmadan, şücaətlə hərbə girmişdilər. Özü də Diyarbəkir qalasını nəzərdə tutulduğundan az itki ilə tutmuşdular. İkincisi, nə qədər olmasa, Sara Xatun bir ana olaraq övlad nigarançılığından qurtulmuşdu: döyüşdə Cahangir Mirzə öldürülməmişdi. Hər halda onun döyüşdə öldürülməsi ilə bağlı xəbər yox idi. Sara Xatun anlamışdı ki, Cahangir Mirzə döyüşdə həlak olsaydı, özünün muzdlu xəbər gətirənləri çoxdan ona xəbər çatdırarılar. Bu sarıdan da bir qədər arxayınlaşmışdı. Onun bildiyinə görə, Cahangir Mirzə yaxın adamları ilə birgə döyüşə-döyüşə mühasirədən çıxmışdı.

Əslində, onun mühasirədən çıxma əməliyyatını Sara Xatun qurmuşdu. Yəni Cahangir Mirzənin tutulmağına da, öldürülməyinə də razılıq verməmişdi. Onda Uzun Həsənə tabe olan, bir az da dəqiq desək, Sara Xatunun nəzarətində olan qüvvələrlə Cahangir Mirzə qarşılaşmış və güclü müqavimətə rast gəlmədiyinə görə yaxın adamlarının müşayiətilə mühasirədən çıxıb Mardin qalasına tərəf çapıb getmişdi…

Sara Xatuna əyan idi ki, Diyarbəkir qalası Bayandurlar nəslinin nəzarətinə keçib. Bu, o qala idi ki, bir vaxt bu qalada Qazi Bürhanəddin hakim olmuşdu. Sara Xatunun qayınatası Qara Yuluq Osmanın qətiyyəti və cəsarəti sayəsində Qazi Bürhanəddin öz ədalətsiz hökmlərinin qurbanına çevrilmiş özünün çoxsaylı qoşun dəstələrinə güvənsə də, Qara Yuluq Osmanın azsaylı, cəsur igidləri ilə qarşılaşmada uduzmuş, Qazi qiymətli başından keçmişdi.

O vaxtdan Diyarbəkir qalasında Qara Yuluq Osmanın dostu və etibar elədiyi Hüseyn Xan Artuqlunun hakimiyyəti bərqərar idi. Əlbəttə, Qara Yuluq Osmanın himayəsi sayəsində. Lakin Hüseyn xan Artuqlu və ondan sonrakı hakim Ağru xan Artuqlu qalanın müdafiəsi üçün qədərincə hazırlıq tədbirləri görə bilməmişdi. Elə bu səbəbdən də Cahangir Mirzə Sələbiyyə xanın fitvası ilə Diyarbəkir qalasına yürüş edəndə, nə məqsədini soruşulmuş, nə də qalaya girənlərə qarşı bir müqavimət göstərilmişdi. İş də gətirib o yerə çıxarmışdı ki, Sara Xatunun özü oğlu Uzun Həsənin rəhbərliyi ilə Diyarbəkir qalasına gəlməyə məcbur olmuşdu. Qısası, hadisələr o qədər dəyişmişdi ildırım sürətilə qonşu əyalətlərə xəbər yayılmışdı: Burunlarının ucunda təzə bir güc mərkəzi yaranır. Onun başçısı Uzun Həsən adında bir cavan olsa da, yol göstərəni, anası Sara Xatundur. Doğrudur, o döyüş meydanında qılınc çalan, küştü tutan deyil, amma ağıl və düşüncəsinə görə zamanın ən qüdrətli hökmdarları ilə üz-üzə gəlmək gücündədir. Və istər-istəməz dörd tərəfdən Diyarbəkiri izləyən qonşular əlli

tərpənib Diyarbəkiri tutmadıqlarına görə, başlarına döyməkdə idilər. Daha nə faydası? Artıq hər şey əldən getmişdi. Yəni vaxtında hərəkət etmədiklərinə görə – istər Teymurilər, istər Osmanlılar, istərsə də Qaraqoyunlular qəm dəryasına batmışdılar. Sonrakı peşmançılığın bir fayda verməyəcəyini bildiklərindən hərə yerində fərağat oturmağındaydı. Amma onların heç biri bilmirdi ki, dünyanın daha uzaq yerlərindən olan missionerlər bu getgedə güclənməkdə olan təzə qüvvə sahiblərini necə dördgözlə izləyirlər.

…Roma Papası V Nikolay öz missionerini, adaşı Qabrieli yanına çağırdı. Papanın əsl adı Qabriele Kondulmer idi. Onun öz həmyerlisi İtaliyanın ən uzaq əyalətlərindən bir kəndli obasından çıxıb onunla birgə hələ gənc yaşlarından Romaya gəlmiş, adaşı Qabriellə arasında yaxın dostluq münasibətləri yaranmışdı. Roma monastırlarında onlar sadəcə gün keçirməmişdilər, adlı-sanlı monarxların yanında təlim almış, xristianlığı yüksək səviyyədə öyrənmişdilər. Və öz aralarında belə qənaət hasil eləmişlər ki, Romada hakim olan təriqəti dünyaya yaymaqla kifayətlənməsinlər, həm də Romanın gücünü-qüdrətini artırsınlar. Yoxsa, bir vaxt qədim zamanların bir Şərq sərkərdəsi Attila kimi qüvvətlənən cəngavər ortaya çıxar, təzədən yeriyib Avropaya gələr və bu ölkəni darmadağın eləyər. Hərçənd o vaxt Attila da Avropanı yerləyeksan eləyərdi, amma Roma-Vatikan din adamlarının tədbirləri sayəsində Attila gənc ikən fitnə-fəsadın qurbanına çevrildi – aradan götürüldü. İndi başqa bir təhlükə meydana çıxmışdı. Bu təhlükə də ondan ibarət idi ki, Kiçik Asiyada Osmanlılar sülaləsi güclənməkdəydi. Onların güclənməsi göstərirdi ki, artıq bəxt ulduzu sönməkdə olan Bizansı necə böyük təhlükə gözləyir. Bizansı mövcud fəlakətdən xilas etməyin yeganə yolu ondan ibarət idi ki, Bizansı dağıtmaq gücündə olan Osmanlılara qarşı döyüşə biləcək bir qonşu ölkə ilə onu qarşılaşdırmaq, bitməyən müharibələrlə başını qatmaq və beləliklə, Bizansı bəladan qurtarmaq.

Qabriele Kondulmer elə bu məqsədlə də öz həmyaşıdı və həmkəndlisi Qabrieli onu düşündürən məsələlərlə bağlı məlumatlandırmaq istəyirdi. Ancaq Qabrieli tək-tənha göndərmək fikrində deyildi. Hələ Qabrielin razılaşmağı, onu həvalə olunan işin öhdəsindən gəlib-gəlməməyi bir tərəfə, ikinci bir şəxsi qoşmaq, onunla birgə kiçik Asiyaya göndərmək niyyətindəydi. Qabriele Kondulmer düşünürdü ki, əgər adaşı Qabrielə Bizansın düşdüyü vəziyyəti dəqiq aydınlatsa, əvvəlcə Qabriel Bizansa getsə, onun siyasi vəziyyətilə yaxşı tanış olsa, oradan Kiçik Asiyaya keçər. Osmanlılarla dil tapar. Hələ bir onların dillərini, adət-ənənələrini öyrənər…

Papa V Nikolay – Qabriele Kondulmer yaxşı başa düşürdü ki, daha səlib müharibələrin zamanı ötüb. Daha Avropadan qoşun yığıb, Kiçik Asiyaya, oradan da Yerusəlimə hərbi qüvvələr yetirməklə yürüş keçirmək mümkün deyil. İndi Avropa ölkələri özləri bir-birini didir, çəkişmələrlə başlarını qarışdırıblar. Heç ağıllarına da gəlmir ki, bir vaxt onların Şərqə səlib yürüşlərinin uğurlu sonluğuna Bizans imperatorluğu necə böyük xidmətlər göstərmişdi? Təəssüf, indi Bizans imperatorluğu artıq çökməkdə idi. Bütün ətraf ərazilər əldən çıxmış, güclənən Osmanlı hərbi qüvvələri sərhədlərini tamam daraltmışdı. Bir sözlə, Bizansın əli, ayağı qarnına yığılmışdı. Ona görə də Papa V Nikolay düşünürdü ki, Bizansı xilas etməyin və əlbəttə, onun dediyi kimi, müqəddəs dini xilas etməyin bircə yolu qalırdı. Bu yol da ondan ibarət idi ki, Bizansı təhdid edən hərbçilərin başını qatmaq. Həmin qüvvələrin aralarını vurmaq və son nəticədə Bizansı xilas etmək… V Nikolayın əsas məqsədi bu idi. Elə bu fikirlə də adaşı Qabriellə üzbəüz əyləşmişdi. Dəri üzərinə çəkilmiş xəritədə Bizansı, Osmanlıların yerləşdikləri əraziləri və üstəlik Osmanlılara qonşu olan əyalətləri Qabrielə göstərirdi. İzah eləyir, aydınlaşdırır, son nəticədə Qabrielə demək istəyirdi ki, əgər İsanın həvariləri onun ideyalarını, fikirlərini yaymağa nə qədər

borclu idilərsə, sən də bizim bu məqsədimizin yerinə yetirilməsi üçün yorulmadan səy göstərməlisən. Üstəlik də ora tək gedə bilməzsən. İnandığın bir-iki nəfəri də özünlə götür. Ən başlıcası, o yerlərə çatan kimi Osmanlıların dilini yaxşı öyrən, onların adət-ənənələrini mənimsə. Səninlə gedən köməkçilərin də çox ayıq, o yerlərin həyatı, adamları haqqında bilgili olsunlar. Yoxsa, mənim tapşırığıma əməl eləməyin bir yana, öz başını da cəncələ salar, itirərsən. Həm də gərək özünlə apardığın adamlar da yaxşı tanıdığın şəxslər olsun. Şərqin isti səhralarında bir parç suya sənin başını dəyişməsinlər.

Qabriele Kondulmeri dinləyən Qabriel tərəddüd içindəydi. İndiyə qədər öz adaşının və həmkəndlisinin himayəsində Vatikanda rahat yaşayırdı. Yalnız məqsədi Tanrıya dua etmək, keçirdiyi günlərin daha xoş olmasını arzulamaqdan ibarət idi. İndi birdən-birə ona tanımadığı, görmədiyi, heç məlumatı olmadığı yerlərə getmək təklif olunurdu. Qabriel bu təklifdən boyun qaçırmaq istəmirdi. Ona görə ki, Papa özü ona bu səfərin necə böyük əhəmiyyət daşıdığını faktlarla təsdiqləmişdi.

İzah eləmişdi ki, onun missiyası ilə İsa həvarilərinin missiyası eynidir. Belə bir müqəddəs missiyadan hansı katolik məzhəbinin nümayəndəsi boyun qaçıra bilərdi?

Papa deyirdi ki, vətəndə qalan bütün qohum-əqrəbası özünün himayəsində olacaq. Yəni Qabrielin əziz dostu Qabriele Kondulmerin himayəsində şad-xürrəm yaşayacaq. Onların heç biri çətinlik, ehtiyac görməyəcək. Hətta Qabriele Kondulmer dostuna izah edirdi ki, əgər nə vaxtsa onun üz tutub getdiyi o vahiməli ölkələrdə adamlıqdan kənar olan şəxslərin arasında ölümü olarsa, onun adı iri hərflərlə Vatikanın daş sütunlarına yazılacaq. Gələcək nəsillər əbədi surətdə onun hansı müqəddəs yolda həlak olmağını hörmət və ehtiramla xatırlayacaqlar.

…Qabriel fikrə getmişdi. O yaxşı bilirdi ki, bu yerlərə bir də qayıdıb-qayıtmayacağı dünyanın bilinməz bir işidir. Onsuz da

bu yerlərdə onu çəkəcək bir hissi yox idi. Ona görə o, əyalətdən Vatikana gəlib, qayıtmadığına görə kəndli qızı sevgilisi də onu tezliklə unutmuşdu. Eşitdiyinə görə, qız başqa bir kəndli oğluna ərə getmişdi. İndi belə olan təqdirdə Qabrieli burada saxlayacaq heç nə yox idi. Daha Papaya da – dostu Qabriele Kondulmerə onsuz da bu yerdə qalmaq istəmədiyini deyə bilmirdi. Əvvəla, bunun heç əhəmiyyəti yox idi, ikincisi, ona görə demək istəmirdi ki, belə halda Papanın yanında daha hörmətli olardı.

Qabriel başını razılıqla silkələdi. Papa Qabriele Kondulmerin gözləri güldü. Sevindi, ona kiçik, boğazı bağlanmış dəri kisə verdi. Əslində, Qabriel Papanın onun yanından ayrılıb küncdəki dəmir sandığının yanına getməyinə maraqla baxırdı. O, nə üçün küncə getdi? Məqsədi nə idi, bunu bilmirdi. Ancaq qayıdanda bunun qızıl olduğunu başa düşdü. Bəli, bununla Qabriele Kondulmer öz adaşına demək istəyirdi ki, onun səfər ərzində heç bir maddi sıxıntısı olmayacaq. İndi qalırdı Qabrielin özünə sədaqətli olacaq adamları tapması. O iki şəxs kim olacaqdı? Bunu hələ nə Qabriele Kondulmer bilirdi, nə də uzaq səfərə çıxmağa razılıq vermiş Papanın adaşı Qabriel.

* * *

…Sara Xatunu fikir götürmüşdü. İndi bu tezlikdə xarici qonağın – uzaq məsafədən gəlmiş yad adamın məqsədini anlamağa çalışırdı. O, bilirdi, güclü dövlətlərin sarayına qonşu ölkələrin – əyalətlərin, uzaq-yaxın məmləkətlərin elçiləri gəlib-gedə bilər. Ticarət əlaqələri qurmaq, alış-veriş aparmaq məqsədilə gələnlərin hörmətlə qəbul edilib, onların alış-verişinə şərait yaratmağın özü də ölkəni tanıtmağın bir yolu idi. Bu adamlar yalnız ticarətlə məşğul olmur, həm də əyalətdəki ab-havanı öyrənir. Geri qayıdarkən öz məmləkətlərinin hökmdarlarına məlumatlar verir, onları maraqlandıran sualları cavablandırırdılar. Hansı ölkədə qorxusuz-hürküsüz ticarət aparmağın, alış-veriş etməyin müm-

künlüyü vardısa, bu da o demək idi ki, həmin ölkənin hökmdarları idarəetmə işlərini yaxşı bacarırlar. Qaçaq-quldur yad ölkənin tacirlərinə dəyib-dolaşmırsa, demək, o ölkədə əmin-amanlıq var. Üstəlik tacirlər, həm də öyrəndikləri məmləkətdə ordunun vəziyyəti haqqında da məlumatlar toplayırdılar. Bilirdilər ki, öz hökmdarları onlardan ordu haqqında da bilgilər soruşacaq. Hansı tacir daha mükəmməl məlumat gətirirdisə, o tacirin qonşu ölkələrə gediş-gəliş imkanları daha da çoxalırdı. Hökmdarlar məktublar verir, elçilər göndərir, qonşu ölkəyə gələcəyini xəbər verirdi. Bununla da, həmin təşrif gətirən şəxs haqqında məlumat ötürülür, onun əmin-amanlığı təmin olunması rica edilirdi. Sara Xatun bütün bunları bilirdi. İndi onun qarşısında paltarının üstündə xaç nişanı olan qonağın nə məqsədlə gəldiyi məlum deyildi. Çünki bu qonaq ticarət məqsədilə gəlməmişdi. Hələ üstəlik qabaqcadan göndərdiyi şəxsin vasitəsilə də məqsədini bildirməmişdi. Sara Xatun xeyli var-gəldən sonra bu gəlişin bir ziyanlı məqsədini görməsə də, xeyirli tərəfindən də şübhəli qalmışdı. Buna baxmayaraq, qonağı qəbul eləmək, onunla söhbətləşmək istəyindən qaçmamışdı. Qonağa bələdçilik edən şəxs də onun yanında idi.

Bər-bəzəkli iqamətgahda qızıl suyuna çəkilmiş taxtında əyləşmiş bu qadının zəhmli baxışlarından Qabriel çəkinmədi. Onun üzünə baxıb hörmətlə salamladı. Əllərini üzünə gətirib birləşdirib alnına apardı, başını da bir xeyli aşağı əydi. Bunu sonra da təkrar elədi. Qabriel bilirdi ki, Şərqdə hökmdarları hörmətlə salamlayanda onların xoşuna gəlir. Əhvallarında bir xoş münasibət yaradır, amma Qabriel onu bilmirdi ki, bu salamlaşma tərzi hindlilərə məxsusdur. Osmanlı sarayında olanda, ya Bizans hökmdarının görüşünə gedəndə, onları necə salamlamağı öyrənmişdi. Ancaq bilmirdi ki, burada bütün imtiyazları əlində cəmləmiş qadın hökmdarla qarşılaşacaq. Doğrudur, ona məlum idi ki, hökmdarlıq boyca uzun bir cavanın əlindədir. O cavan elə bu qadının oğ-

ludur. Ancaq qonağı adına Uzun Həsən deyilən adamın yanına aparmamış, bu zabitəli xanımın hüzuruna gətirmişdilər. Qabriel hələ Papa V Nikolayın – Kondulmerin yanında olanda, daha doğrusu, səfər üçün son hazırlıq işləri bitəndən sonra məsləkdaşı ona çatdırmışdı:

– Şərqlilərlə, xüsusilə, müsəlmanlarla yalan və kələkbazlıqla danışmaq olmaz. Onları yalnız üzdən olsa belə səmimiyyətlə yanaşmaqla özünə inandıra bilərsən. Xüsusilə, unutma ki, onlar qarşılarındakı qonağın səmimiyyətinə inandıqda, qonaqpərvərlikləri adamı heyran edir.

– Bəs əks təqdirdə necə olar? – Bunu da Qabriel Papanın özündən bir də soruşmuşdu.

– Heç nə, başqa bir şey olmaz, səni it kimi döyüb qovarlar, bir də qapısının həndəvərinə buraxmazlar.

– Bəs ən pis halla necə olar?

– Onda heç, başını elə həmin andaca bada verirsən.

– Tutalım, onlar mənə inandılar – Qabriel Papadan nə mümkündürsə, öyrənmək istəyilə soruşmağında davam edirdi.

– Onda sən həmişəlik hökmdarın süfrəsinin əziz qonağına dönərsən. Daim onun yanında olarsan, bu da bilirsən, nə deməkdir?

Qabrieli maraq götürdü. Deyəsən, Papa şərqlilərin nəinki xasiyyətini bilir, həm də onların adət-ənənələrindən də xəbərdar idi. Təəccübünü gizlətmədi.

– Bizim Papamız elə bil Şərqi səyahətdən dünən qayıdıb. O qədər məlumatlı və biliklidir ki, təəccüb qalmaya bilmirsən.

– Bəli, bəli, mən hələ ki, səfər edə bilməmişəm. Ancaq onların adətlərini indiyəcən öyrənmişəm. Ona görə, sənə bəri başdan deyirəm, sən daimi qonaqları olsan, inamlarını qazansan, hörmət-izzət sahibinə çevrilsən, çox açıq ürəkli olacaqlar. Bütün siyasi niyyətlərini də səndən gizlətməyəcəklər. Hətta fəhmini, fərasətini görsələr, hərbi planlarından da xəbər tutarsan.

– Bunun üçün mən neyləməyiləm?

– Bunun üçün sən əvvəlcə Bizansı yaxşıca öyrənməlisən. Bizim Bizansı hərbi qüvvə ilə müdafiə etmək zamanımız keçib, bəlkə də heç Bizansı qoruya bilmədik. Amma Bizansı öyrənəndən sonra osmanlıların güclərinin nəyə qadir olduğunu gərək yaxşı biləsən. Osmanlıları bizanslılar diz çökdürə bilməyəcəklər. Əkstəqdirdə Osmanlılar Bizansı darmadağın edib, bütün sərvətini ələ keçirəcəklər. Belə bir hadisə çox qədim zamanlarda olub. Parsların (İran) hökmdarı Xosrov Pərviz ölkəsini möhkəmləndirmək üçün Bizansın sərvətini ələ keçirmək istəmişdi.

– Gənc Pars hökmdarı təcrübəli Bizans hökmdarına necə qalib gəlmişdi? Mən də eşitmişəm o əhvalatı azdan-çoxdan. Ancaq yetərincə bilmirəm. – Qabriel məlumatsızlığını etiraf eləmişdi.

– Çox sadəcə. Bizans hökmdarının yanında olan məsləhətçiləri qorxaqlıqla hökmdara məsləhət görmüşdülər ki, bütün sərvəti gəmiyə yığıb, dənizə çıxsın. Xosrov Pərviz də gəlib görsün ki, onun axtardığı sərvət yoxdur. Daha ac ordusunu Bizansda saxlamayacaqdı ki, qayıdıb gedəcəkdi. Xosrov Pərviz Bizans hökmdarının gözləmədiyi halda donanması ilə dənizdən gəlir. Bu vaxt Xosrov Pərviz görür ki, dənizdə tənha bir gəmi var-gəl edir. O da Bizans haqqında məlumat almaq üçün gəmini mühasirəyə alır. Məlum olur ki, Bizansın bütün var-dövləti bu gəminin içərisinə toplanıb. Sərvəti mənimsədikdən sonra daha əlavə itki verməmək üçün elə oradan birbaşa geriyə qayıdır. Beləliklə, Pars dövləti Bizansın dünyaları almağa qadir sərvəti sayəsində güclənir. Əgər o vaxt Bizans hökmdarının ayıq məsləhətçiləri ağıllı, qorxmaz olsaydılar, hökmdara ölkəni qorumaq üçün dəyərli məsləhətlər verərdilər. Çox təəssüf ki, o vaxt bu mümkün olmamışdı. Bir sözlə, biz səhvimizin ucbatından Bizansın yaxınlığında qüdrətli Pars İran dövlətinin təşəkkülünə rəvac verməli olmuşduq. İndi bu səhvi təkrar edə bilmərik.

Qabriel öz həmkəndlisi, adaşı və yaxın dostu olan Papanın dərin biliyinə heyran idi, hələ ki, onun məqsədlərini tam anlamaqda çətinlik çəkirdi.

– Bəs onda biz neyləyək? Bizi Bizansın taleyi düşündürmürsə…

– Bəli, bəli, bizi Bizansın taleyi düşündürmür, yəni bu, artıq mümkün deyil. Mənim bildiyimə görə osmanlılar çox güclənibləр. Biz də Bizansı qorumaq üçün qüvvələr göndərə bilmirik.

– Bəs onda neyləməliyik?

– Bax, əsas baş sındırılası məsələ də budur, – Papa ayağa qalxıb, divardakı dəri üzərinə çəkilmiş xəritənin yanına gəlib barmağıyla göstərdi: – Bax, osmanlılar buradadırlar. – Sonra da əlavə elədi. – İndi onlar çox güclüdürlər. Heç şübhəsiz, Bizansı darmadağın edəcəklər. Ancaq onların bir qənimi də var. Lap yaxınlıqlarında, qonşuluqda artıq kifayət qədər güclənibləр. Onlara Ağqoyunlular deyirlər, özü də cavan hökmdar Bizans hökmdarının qızı ilə evlənib, yəni hökmdarın kürəkənidir. İndi biz o cavan hökmdarı tapıb ona elə ağıllı məsləhətlər verməliyik ki, o, öz qayınatasının köməyinə gəlsin.

Qabriel indiyə qədər tanıdığı həmkəndlisinin bu qədər hiyləgər olduğunu bilmirdi və indi onun danışığından anlayırdı ki, Papa onu nə üçün Şərqə göndərir.

Papa söhbətini qurtarıb, üzünü Qabrielə tərəf döndərdi, xəritənin yanından birbaş Qabrielin yanına gəldi. Qabriel də ayağa durdu. O, Qabriellə üz-üzə dayandı:

– Hə, indi bildinmi, biz neyləməliyik?

– Hə, indi-indi başa düşməyə başlayıram.

– Əgər başa düşürsənsə, onda yaxşı-yaxşı dinlə. – Papa sözünə davam elədi. – Osmanlıların qonşuluğundakı gənc dövlət bayaq dediyim kimi Ağqoyunlular adlanır, onlar mənşəcə türklərdi, Ağqoyunlular da türklərdi. Özü də bu türklərin hamısının qəribə xasiyyətləri var. Ürəklərində inamları olanda, qabaqlarında heç

nə dayanmır. Gözləri yedikləri ölkələri diz çökdürə-çökdürə irəliləyirlər. Sən əvvəlcə dediyim kimi Bizansın vəziyyətini tam yaxşı biləndən sonra Osmanlıların yanına keçirsən. Onlara deyərsən ki, dünyadakı katolikləri axtarırsan. Əsas məqsədin də odur ki, İsa məzhəbinin sülh dini olduğunu dünyaya car çəkmək istəyirsən. Demək, Osmanlıları inandırmalısan ki, sən katoliklərə başa salmaq istəyirsən, hansı ölkədə onlar varsa, həmin ölkəyə sədaqətli olsunlar, həmin ölkənin qayda-qanunlarına tabeçilik göstərsinlər. Elə olsun ki, katoliklər hansı ölkədə yaşayırlarsa, hökmdarlar onlara sığınacaq versin. Xüsusilə, sən gərək İslamın qaydalarını yaxşıca öyrənməlisən. Müsəlmanların hökmdarlarına deməlisən ki, bir vaxt Məhəmməd peyğəmbər gücsüz olanda, köməyə ehtiyacı olanda, Həbəş kralının yanına adamlar göndərmişdi, o da Məhəmməd peyğəmbərin yaxınlarını qorumuşdu. Yəni sənin məramın, məqsədin elə olmalıdır ki, müsəlmanları inandırasan. Guya katoliklər Avropada zillət içərisindədir. Onlar uzaq ölkələrə yayılıblar ki, öz canlarını qorusunlar. Müsəlmanlar buna borc kimi baxarlar. Həmin andaca düşünərlər ki, bir vaxt onların peyğəmbərinə kömək etmiş şəxslərin borcunu indi katoliklərə beləcə qaytara bilərlər. Bu da Allahın böyük razılığına səbəb olar və onları cənnətlə mükafatlandırar. Müsəlmanlar öz dinlərinə çox bağlıdırlar, hər hansı bir yaxşı əmələ görə o saat xəyallarına gətirirlər ki, cənnətin qapıları onların üzünə açılacaq, orada isə onları eyş-işrət gözləyir.

Papa bunları dedi və sonra da qəhqəhə çəkib güldü. Qabriel də ona qoşuldu, bir-birlərini yaxşı başa düşmüşdülər. Ona görə Qabriele də gülə-gülə cavab verdi:

– Demək, mən kömək eləməliyəm ki, müsəlmanlar cənnətə daha tez çatsınlar. Onda bizim işlərimiz yağ kimi gedər. Allah müsəlmanları cənnətlə mükafatlandırar. Bir-birinin üstünə qılınc çəkməklə cənnətin qapısını açarlar. Və bizim də işlərimiz daha sahmanlı olar.

Papa V Nikolay dostu Qabrielin belə fəhmli olmağına sevindi. Başa düşdü ki, Qabriel heç onun düşündüyü qədər avam deyil. Hər hansı məsələni daha tez qavrayır və sürətlə nəticə çıxarır.

* * *

Sara Xatun qarşısındakı adamın məramını-məqsədini onun hərəkətlərindən, təhər-tövüründən anlamaq istəsə də, hələ ki bir şey başa düşmürdü. Qonağın gözlərində heç bir təlaş yox idi. Qorxu-hürkü olmadığı, xofun görünmədiyi yerdə bir şübhə də axtarmaq gərəksizdi. Sara Xatun bunu hələ qayınatası Qara Yuluq Osmandan eşitmişdi. Qara Yuluq Osman o zaman söyləmişdi ki, dədə-babadan üzü bəri bizim xalqımız arasında məsəl var: «Xain xoflu olar». İndi Sara Xatun qonağın təhər-tövründə şübhəli məqam, xof görmürdü, gözlərində heç bir təlaş nəzərə çarpmırdı. Deməli, hələlik qonağa hörmətlə yanaşılsın. Əgər sağlam niyyətlə gəlibsə, bizdən həmişə hörmət görər, qayıdıb getdiyi ölkəsində haqqımızda xoş sözlər danışar. Yox, əgər pis niyyəti varsa, tez-gec onsuz da bilinəcək. Biz də diqqətimizdən kənarda qoymarıq. Onun hər bir hərəkətini, əməlini sərf-nəzər edərik. Əməllərinin yaxşısını-pisini ayırarıq. Onda görərik ki, xeyrimizədir, gəlişində bir ziyanımız yoxdu, bu daha yaxşı. Yox, əgər ziyanımıza aid bir işi, əməli olsa, onda «xoş gəldin», layiqli cəzasını verərik. Uzaq başı qonaq olduğunu nəzərə alıb, öldürməsək də, sağ-salamat sərhədlərimizdən keçirərik. Hansı ölkədən, kimin yanından gəldiyini öyrənib, onun adına da öz adamımızla namə göndərərik. Həmin kağızda əməllərini, niyyətini yazarıq. Qoy öz ölkəsində onu yaxşı tanısınlar. Bilsinlər ki, buradakılar onların düşündükləri qədər avam deyil. Dilindən, dinindən asılı olmayaraq, insana hörmət göstərmək hər kəsin özünün əxlaqıdır. Sara Xatun övladlarına həmişə tapşırırdı ki, adamlar arasında fərq qoymasınlar. Bu müsəlmandır, o xiristiandır. Yaxud kim hansı millətdəndir?! Hərçənd ki, bunun da fəsadı çıxmışdı. Qaraqoyun-

lular arasında guya çətin şəraitdə yaşadıqlarını bəhanə edən bir neçə erməni ailəsi köçüb Amid bəyliyinə gəlmişdi. Bir vaxt Qara Yuluq Osmanın onlara rəhmi gəlmiş, himayədarlıq etmişdi. Onlar da Amid bəyliyinin yaxşı torpaqlarında yer almış, yaşamağa başlamışdılar. Ancaq Qara Yuluq Osmanın qonşu əyalətlərdən hansısa birilə münasibətləri kəskinləşən kimi həmin erməni ailələri bir gecənin içində yığışıb köçmüş, hara getdikləri bilinməmişdi. Ancaq çox sonralar məlum olmuşdu ki, onlar Təbrizə – Qaraqoyunlu hökmdarının yanına yollanmış, orada Qara Yuluq Osmandan şər-böhtan yağdırmışlar. Guya ki, Qara Yuluq Osman onları gözümçıxdıya salmış, dinlərinə hörmətsizlik edibmiş. Bunlar Sara Xatunun yaxşı yadında idi. Hər halda ermənilərdən söhbət getmirdi. Söhbətin mövzusu Avropa əsilli katoliklər idi. Az qala dünyanın o başından gəlmiş qonaq da ona Avropa əsilli katoliklərdən dəm vururdu.

Sara Xatun qarşısındakı qonağı diqqətlə süzdükdən sonra üzünü ona tutub soruşdu:

– Qonağımız haradan gəlib? – Qonaq yanındakı bələdçisinə baxdı. Bələdçi ona Sara Xatunun nə soruşduğunu dedi. Bundan sonra qonaq dilləndi:

– Mən uzaq Avropadan gəlmişəm – Romadan. – Qabrielin ağzından çıxan bu sözləri elə həmin andaca bələdçi türk dilində Sara Xatuna çatdırdı.

Sara Xatun Romanın adını eşitmişdi. Hətta Romanın keçmişdə qüdrətli dövlət olmağından xəbərdar idi. Bilirdi ki, bir vaxtlar Roma ordusu nəinki Avropa ilə kifayətlənməmiş, hələ üstəlik Arazın o tay-bu tayını da işğal altına almış, bütün Kiçik Asiyanı, Yunanıstanı belə qəsb eləmişdi. Bütün bu ölkələrin sərvətləri daşınıb Romaya aparılırmışdı. Sara Xatun eşitmişdi ki, Romada nəhəng sütunları olan saraylar, möhtəşəm binalar tikilib. Daş döşənmiş küçələrdə ayrı-ayrı zəfər günlərində təntənəli bayramlar keçirilərmiş. Doğrudur, Romanın indi belə bir halı yox idi. İndi

Romanın əzəmətini Papa sarayı əlinə cəmləmişdi. Dünyadakı katoliklərə dini rəhbərlik eləyirdi. Sara Xatun bunlardan xəbərdar idi. Amma Sara Xatun bunu bilmirdi ki, mənəvi rəhbərlik adı ilə Papa, həm də dini baxımından yaxın olan ölkələrin rəhbərliyini əlində birləşdirib.

– Yaxşı, Romadan gəlişinizin məqsədi nədir, hörmətli qonaq?

Əslində, Qabriel Osmanlı sarayında olan türk dilini çox sürətlə öyrənmişdi. İndi Sara Xatunun nə dediyini demək olar ki, yaxşıca başa düşürdü, amma hələ ki, bələdçisinə dili yaxşı başa düşmədiyini demiş və bu barədə susmasını tapşırmışdı. Əgər onun az-çox dili bilmiş olduğunu bilmiş olsalar da, bunun bir qorxusu olmayacaqdı. Çünki bu barədə də yaxşı düşünmüşdü. Nə deyəcəyini qabaqcadan bilirdi. Ancaq indi hələ ki, ondan gəlişinin məqsədini soruşurdular. O da bu barədə danışmalı idi.

– Həşəmətli xanım, mənim gəlişimin məqsədi Allahın istəyilə bağlıdır. – Qabriel bilirdi ki, Şərq hökmdarlarına təntənəli sözlərlə müraciət edəndə, onlar xoşlanır, özlərini dartırlar. Və hər bir işi Allahın adı ilə bağlayasan. Bu onların inamını daha da artırır. İndi də Allahın adını çəkdikdən sonra dayanıb gözlədi. Bələdçi onun sözlərini mümkün qədər həmin təmtəraqla çatdırdı. Sara Xatun qonağın Allaha istinad etməsindən razı qalmışdı.

– O yerdə ki Allahın istəyi var, demək, məramınız da xoş niyyət olar. – Bələdçi də Sara Xatunun bu sözlərini Qabrielə çatdırdı.

Qabriel bundan sevindiyini gizlətmədi. Çöhrəsinə razı bir görkəm verdi, gülümsündü. Və sonra cavab verdi:

– Bəli, bəli elədir. Uca Allahın ixtiyarındayıq. Allah da həmişə istəyər ki, bəndələri xoşniyyətli olsun, əməllərindən insanlar ziyan görməsinlər.

Sara Xatun qonağın ədəb-ərkanlı cavabından hər halda bələdçinin tərcüməsi ilə olsa da razı qalırdı. Elə söhbətin davamı olaraq özü də başını yuxarı qaldırıb:

– Allahın kərəminə şükür – dedi. – Biz xeyirxah niyyətliləri daha tez tanıyırıq. Bir də ki, əziz qonağımız, biləsən ki, Allah xoşniyyətli adamları cənnətlə müjdələyir.

Onsuz da Qabriel Sara Xatunun nə dediyini anlamışdı, ancaq tələsmədi, Papa V Nikolayın dediyi kimi, hər şeydə fəhmi karına gəlməli idi. Burada da ehtiyatlı davranırdı. Bilirdi ki, əgər bələdçidən əvvəl Sara Xatunun sözlərinə münasibət bildirsə, onda onun dili bildiyini anlayar və beləliklə, vaxtından əvvəl özünü ələ vermiş olardı. Yox, hər bir əməldə ehtiyat daha yaxşıdı. Onda başım salamat olar, – düşündü.

– Biz də o şəkildə anlayırıq. Xeyirxah adamları Allahın kəraməti qoruyur, onların insani əməllərinə rəvac verir. İnsan qəlbi əkin sahəsinə oxşayır, oraya yaxşı toxum səpərsən, yaxşı da cücərər. Bələdçinin tərcüməsindən sonra Sara Xatun qonağın belə bir zəkalı adam olmağından razı qaldı. Hələ ki, dəqiq bir qaneedici cavab almamışdı, ona görə, bir daha soruşdu: – Yaxşı, məramınız, məqsədiniz nədir?

– Biz dünyanı gəzib katolikləri axtarırıq, hansı ölkədə onlar varsa, tapıb, söhbət eləyirik. Dinlərinin kamilliyini yoxlayırıq. Biz istəyirik ki, katoliklər öz dinlərində yetkin olsunlar. Mən biləni sizin müsəlmanlar da öz dinində mükəmməl olanları sevərlər.

– Bəli, bəli, elədir. Bizim peyğəmbərimiz buyurur ki, hər kəs öz dinində kamil olmalıdır. Özü də bizim peyğəmbərimiz İsa peyğəmbərin özündən əvvəl olduğunu qəbul edir. Onun dininin kamil olduğunu bildirir, biz də İsa dininə sahib olanlara hörmətlə yanaşarıq. – Sara Xatun razılıqla danışırdı. Bu da Qabrieli sevindirirdi. Hətta o qədər sevinirdi ki, ona elə gəlirdi ki, artıq burada məqsədinə tam nail olacaq. Doğrudur, hələ ki, Sara Xatun qonağın danışığından narazı deyildi. Çünki qonaq bütün suallara aydın və dürüst cavab verirdi. Qabriel də elə bil dilotu yemişdi:

– Həşəmətli xanım, əsas odur ki, biz katolikləri tapıb onlarla danışanda, bir məsələni əsas tuturuq.

– O hansı məsələdi elə?

– Bu, o məsələdi ki, biz katoliklərin təhlükəsizliyini istəyirik, arzu edirik ki, onlar hansı ölkədə yaşamalarından asılı olmayaraq həmin ölkənin qayda-qanunlarına ciddi riayət etsinlər. Bir sözlə, həmin ölkəyə sadiq olsunlar, lazım gələndə, o ölkənin müdafiəsində güclərini əsirgəməsinlər. Beləliklə, yalnız bu zaman katoliklərin özlərinin də başları salamat olar.

Bələdçinin tərcüməsindən sonra Sara Xatun başını razılıqla tərpətdi.

– Mən biləni bizim ərazimizdə katoliklər azdırlar. Lakin onlar mövcuddur, indiyə qədər bir ziyanını görməmişəm. Xüsusilə, ticarət məqsədilə gələnlər var ki, onlar burada azad ticarət edib, rahat yaşadıqlarını gördüklərindən daha qayıdıb öz ölkələrinə getməyiblər. Elə burada qalıb yaşamaqlarını davam ediblər. – Sara Xatun ürəkaçıqlığı ilə danışırdı. Qabriel ilk görüşün belə uğurlu olacağını düşünmürdü. Elə bu səbəbdən də sevincini gizlətmirdi.

– Həşəmətli xanım, mən çox sevinirəm ki, bizim katoliklər belə yaxşı adamların əhatəsindədir. Daha doğrusu, məni üzürlü hesab edin, himayəsindədir, demək istəyirdim. Ancaq mənim kiçik bir istəyim var.

– Bəs indi bizdən istəyiniz nədir?

Qabriel fürsəti fövtə vermədi. Tərcüməçidən cavabı alan kimi dedi.

– Bizim istəyimiz budur ki, əgər sizin razılığınız olsaydı, burada qalıb din qardaşlarımızı tapıb onlarla görüşərdik. Dinlərinin inkişafı naminə, daha da kamilləşməsi üçün əlimizdən gələni əsirgəməzdik. – Qabriel bunu dedi və dayandı. Bələdçi də onun sözlərini Sara Xatuna çatdırdı.

– Yaxşı, onda qonaq nə isə demək istəyirdi, buyursun.

– Bir də ki, onu çatdırmağı borc bilirəm, əgər Sara Xatun istəsə, biz hər vaxt gördüyümüz işlər barədə onunla görüşüb məlumat verərdik.

– Əlbəttə, əlbəttə, bu daha yaxşı. – Sara Xatun razılaşdı, ancaq sonra əlavə elədi. – Biz də sizə nə kömək lazım olsa, əsirgəmərik.

Qabriel cavabdan sonra, ümumi razılığını bildirdi:

– Çox sağ olun, əgər icazə versəniz, biz hüzurunuzdan çıxardıq.

Sara Xatun gülümsündü. Hər halda qonağın danışığı da, hərəkətləri də onu mütəəssir eləmişdi.

– Əziz qonaq, biz hörmətimizi əsirgəmərik. Süfrəmizdə əyləşən qonaqlara diqqətlə yanaşarıq.

Qabriel tərcüməçinin cavabından sonra bir daha sevincini gizlətmədi.

– Həm də sizdə çörək kəsmək müqəddəs adətdir.

– Əlbəttə, əlbəttə, hər bir qonaq kəsdiyi çörəyin qədrini bilməlidir.

– Mən yollarda bunu öyrənmişəm. – Qabriel dedi. – Həm də deyim ki, sizlərdə çörəyə xəyanət bağışlanmır.

Sara Xatun yenə başını razılıqla tərpətdi.

– Mən sevinirəm ki, qonağımız bizim adətlərimizdən xəbərdardı. İndi adamlarınıza çatdırın, qonağımız olacaqsınız. – dedi. Sara Xatun ayağa qalxdı. Bunu görənlərin hamısı ayağa durdu. Sara Xatun əvvəlcədən hazırlamağı tapşırdığı böyük ziyafət köşkünün yerini göstərdi.

Hamı geniş çəmənliyin bir tərəfində yastı yerdə qurulmuş çadıra tərəf getdi. Çadırın dairəsi xeyli geniş idi. Ətraflarına qışın soyuğu adamları üşütməsin deyə qalın keçələr çəkilmişdi. Çadırın içəri yanları da al-əlvan xalılarla bəzədilmişdi. Təbriz xalısı baş tərəfdən vurulmuşdu. Yanlarda Qarabağ, Şirvan xalıları göz oxşayırdı. Yer də döşənmişdi. Altdan keçələr, üstdən də xalılar.

Qabriel onu kənarda gözləyən adamlarına işarə elədi. Onlar yaxına gəldilər. Sara Xatuna bir-bir təqdim elədi. Adlarını, dəstədə kimin hansı işi aparacağını – bütün bunların hamısını Sara Xatuna sadaladı.

Bir anda nökərlər, qulluqçular yaxınlaşdılar. Qonaqların əlinə su tökdülər, təmiz dəsmallarla qurulandılar. Sara Xatun və yaxın adamları bir-bir çadıra keçdilər. Sara Xatun qonaqlar üçün ayrılmış yeri göstərdi.

* * *

Qabriel üçün Romadan ayrılmaq çətin olsa da, onsuz da qəti qərara gəlmişdi. Əgər Şərqə səfər məsələsi olmasaydı da, başını götürüb harasa getməyi çoxdan qərara almışdı. İndi adaşı Qabriele Kondulmerin ona Şərq səfərini təklif etməsi bir növ lap yerinə düşmüşdü. Papa Qabriele Kondulmerin adaşına isti münasibəti təsadüfi deyildi. Və bunun özünün də ayrıca tarixçəsi var idi. Əslində, bu tarixçəni bir kimsə dəqiq bilməsə də, hər halda bir əfsanə kimi dolaşan söz-söhbət Papanı daim izləyirdi. Məsələ belə idi ki, guya Qabriele Kondulmerin, yəni Papanın atası ilə Qabrielin atası eyni adamdı. Hətta adlarının Qabriel olması da təsadüfi deyil.

Deyilənə görə, VII əsrdə Romadan bir ruhani Alban çarlığına gəlir. Xristianlığı yaymaq missiyası ilə gələn həmin ruhani çarlıqda hörmətlə qarşılanmır. Hətta az qalır ki, onu şübhəli adam qismində axırına çıxsınlar. Ancaq çarlıqda ruhani ata kimi tanınan Qabriel adlı nüfuz sahibi olan, özü də hökmdarın yanında sözü keçərli bir şəxs onu himayədarlığa götürür. Qabriel Ata cavan – Yevgeni adlı həmin şəxsi danışdırır. Və tam əmin olur ki, bu adam sadə bir din havadarıdır. Nikolay də uzun müddət Alban çarlığında çalışdığından buradakı tayfaların dilini öyrənmişdi. Ona görə də yerli Alban hökmdarının «ruhani ata» deyə müraciət etdiyi Qabriel Ata ilə tez dil tapmışdı.

– Bura gəlməkdə məqsədiniz nədir? – Qabriel Ata soruşur.

– Biz bilirik ki, Alban çarlığı çoxlu tayfaların birliyindən ibarətdir. Bu ərazilərdə əsasən çarlığın bel sütunu olan türk əsilli tayfalar yerləşir. Məqsədimiz odur ki, bu müxtəlif tayfalar eyni dinə sitayiş etsinlər.

– Bunun bizim çarlığa nə faydası? – Əslində, bu sualın cavabını Qabriel Ata yaxşı bilirdi. Ona görə də bir növ bu sual sınayıcı bir istək daşıyırdı. Sualı verdikdən sonra uzaq diyardan gəlmiş cavan ruhaniyə diqqət elədi. O da elə bu sualı gözləyirmiş kimi cavabı ləngitmədi.

– Mən bilirəm, burada atəşpərəstlər də var, başqa məzhəblərə qulluq edənlər də az deyil. Bu tərəfdən də bilməmiş olmazsınız, uzaq Ərəbistan səhrasında yeni bir din baş qaldırıb. Çox sürətlə də genişlənməkdə davam edir. Tezliklə onların hərbi qüvvələri bu yerlərə də gəlib çatacaq. Onlar öz dinlərini yaymaqdan başqa, dillərini də yerli xalqlara məcburiyyətlə sırıyırlar. Belə olan halda Alban çarlığındakı xalqların başına gələcək fəlakətləri təsəvvür etmək elə də çətin deyil.

Qabriel Ata susdu, xeyli fikrə getdi. Bu cavan ruhaninin dediklərini düşüncəsində çək-çevir elədi. Ağıllı və həm də dəyərli sözlərdən sonra daxilən yüngülləşdi, özünü göyün yeddinci qatında saydı. Düşünə-düşünə pıçıldadı. Bu barədə gərək hökmdarın özünə ətraflı məlumat verilsin: Qabriel Ata qonağa məxsusi yer ayırdı. Onun çarlıqda sərbəst hərəkət etməsi üçün bələdçilər və mühafizəçilər də vermək qərarına gəldi. Ancaq bütün bunlar üçün gərək hökmdarla danışaydı. Tezliklə hökmdarla görüşdə uzaq diyardan gəlmiş ruhaninin dediklərini ona çatdırdı. Onlar bu cavan ruhaniyə bu yerlərdə şərait yaratdılar. Bir gün eşitdilər ki, bu cavan ruhani çarlığın sərhədlərindən keçib, başqa bir ölkəyə gedib. Əslində, o, başqa bir ölkəyə yox, elə birbaşa Romaya qayıtmışdı. Gəzib gördüyü yerlər haqqında ətraflı məlumat verdi. Onun gətirdiyi məlumatların mötəbərliyinə kimsə şəkk etmədi. Bu yerlərin sakinləri haqqında, mehriban insanları barədə, eləcə də, bütün dini kitablarda təsvir olunan gözəl cənnətin elə Albaniyanın özü olduğu haqqında dedikləri maraqla qarşılandı. Üstəlik, bu ərazilərin Qarabağ adlanması və burada köklü türk tayfalarının yaşadığı, özü də çarlığın əsas qüvvələrinin bu tayfalardan

ibarət olması daha çox cəzbedici görünürdü. Papa cavan ruhaninin gətirdiyi təlimatı eşitdikdən sonra belə bir qərara gəlmişdi ki, məhz bu cənnəti əldən vermək olmaz. Əlbəttə, bunun üçün gərək ərəblərin Albaniya ərazisinə hücumlarının qarşısını alan tədbirlər görüləydi. Yalnız bundan sonra həmin o gənc ruhaniyə əyalətlərdən ən varlısının kilsəsi həvalə olundu. Din xadimi də dünyaya gələn övladına, uzaq diyarda onu ölümdən xilas etmiş Qabriel Atanın adını verdi. Yeddi əsrdən çox idi ki, iki çay arasından – Araz qırağından gətirdiyi Qabriel adı onun nəslində davam etməkdəydi.

Nəhayət, indi Şərqə gəlib çıxmış Qabrielin adı da məhz həmin nəsil-kökünün davamı idi. Ancaq burada başqa bir incə məsələ də vardı. Qabrielin atası onların ixtiyarına verilmiş və ulu babalarından üzü bəri ötür-ötürlə başçılıq elədiyi kilsənin əhatəsində olan əyalətə də nəzarət etməkdəydi.

Bir dəfə Qabrielin atası çox gözəl bir kəndli qızı ilə rastlaşır. Onların arasında tezliklə yaxın ünsiyyət yaranır. Kilsə xadimi olan Yevgeni bir də onda ayılıb görür ki, öz arvadının hamilə olduğu vaxtda, kəndli qızı da uşağa qalıb. Həmin kəndli qızını kilsənin himayəsində saxlayır. Ona aralarındakı münasibəti gizli saxlamağı tapşırır. Qanuni nikahdan doğulan oğluna Qabriele adını verir. Bəlkə də, bir qədər söz-söhbətin arasını kəsmək üçün kəndli qızından olan uşağın ona aid olmadığını nümayişkaranə göstərmək üçün bu uşağa Qabriel adı qoyur. Doğrudur, kəndli qızı elə də çətinlik çəkməsə də, hər halda uşağın atasının kim olduğu daimi söz-söhbətə səbəb olur. İki Qabriel adlı övladın atasını bu söz-söhbətlər həmişə izləyir. Qabriele Kondulmer, nəhayət ki, kilsəyə başçılıq etmək missiyasını əlinə keçirir. Atası son anda onu yanına çağırıb, bəzi mətləblərdən agah edir.

– Qabriele, bilirsənmi, səni niyə çağırmışam?

Qabriele artıq həyatının son günlərini yaşayan atasına bir az da yaxın gəldi. Onun asta-asta tərpənən dodaqlarının tez-tez

səyridiyini də görürdü. Bəlkə də ölüm mələyi lap yaxında idi. Ona görə, mümkün qədər az söz danışmaq, atasını daha çox dinləmək istəyirdi.

– Hə, ata, eşidirəm, nə sözün var, buyur, – dedi.

– Hə, oğlum, elə eşitdiyin, bəlkə də inanmadığın bir həqiqəti sənin diqqətinə çatdırmaq istəyirəm. – Atası yenə dayandı, arada susdu. Gözlərilə ətrafa nəzər saldı. Ömrünü daim keçirdiyi kilsə hücrəsinin baş ruhaninin yaşaması üçün nəzərdə tutulan otağının divarlarına – freskalarına baxdı. İsanı qucağında tutmuş Məryəmin iztirablı baxışları onun nəzərlərini tutub saxlamışdı, sanki Məryəm ona deyirdi ki, mən bu uşağı neyləyim? İndi həmin uşaq atanın nəzərlərində kəndli qızının oğlu Qabriel idi. Doğrudur, naz-nemət içərisində olmasa da, hər halda Qabriel onun nəzarəti ilə böyümüşdü. Aclıq çəkməsə də, həmişə adamların qınaq dolu nəzərlərini görmüşdü. İndi bu barədə danışmaq istəsə də, hələ ki, çətinlik çəkirdi. Onsuz da məsələni dəfələrlə oğluna açmaq istəsə də, indiyə qədər deməmişdi. Axır ki, ömrünün bu son çağlarının gəldiyi məqamda qəti qərara gələ bilmişdi.

– Hə, oğlum, biləsən ki, həmkəndlin Yevgeniyanın oğlu Qabriel qardaşındır. Yaxşı olar ki, bundan sonra ona diqqət və qayğı göstərəsən. Mənim diqqətim sayəsində o, yaxşı ruhani təhsili alıb. Müqəddəs dinimiz yolunda hər cür cəfaya dözməyə hazırdı. Təki ona öz biliyini insanlara öyrətmək üçün şərait yaradasan.

Atası bayaqdan sözünü bitirsə də, Qabriele daxilən sarsılmışdı. Nəsə bir söz demək, hətta atasını arxayın salmaq üçün yalandan vəd vermək də istəmirdi. O, bilirdi ki, atanın son vəsiyyətinə əməl etmək övladlıq borcudur. Təəssüf ki, indi belə bir iş bütün ağırlığı ilə onun çiyinlərinə düşəcəkdi. Necə, hansı yolla qardaşı Qabrielə qayğı göstərməli idi, – bunu bilmirdi. Hər halda atasından daha doğru məsləhət eşitmək üçün o, düşüncəsindən keçənləri açıq-aşkar bildirməyi daha üstün hesab etdi:

– Ata, mən onun ixtiyarına əyalətin hansı kilsəsini verə bilərəm? Hara getsə, hər halda onun kəndli mənşəyi məlum olacaq. İş bir az qəlizləşəcək.

– Mən bilirdim, sən belə düşünəcəksən. Səni də qınamıram. Doğru deyirsən, ancaq elə bir məsələ yoxdur ki, onun əlacı olmasın.

Qabriele söz güləşdirmədi, atasının dediklərində bir işıq gördü. Doğrudur, sözlərində işıq görsə də, atasının gözlərindəki həyat işığının sönməkdə olduğunu da müşahidə edirdi. İndi belə halda çox istəyirdi ki, mümkün qədər atası, daha tez mətləbə gəlsin. Sözünə aydınlıq gətirsin.

– Doğru deyirsən, ata, mənim heç etirazım yoxdur. Axı sənin həyat təcrübən böyükdü, sən bu dünyanı yaxşı tanıyırsan. İnsanlara bələdliyin daha üstündür. Onda bir az açıq danış, yol göstər, mən də işimi bilim.

– Lap yaxşı. Onda sən məni yaxşı dinlə.

– Dinləyirəm, ata.

– Bilirsən ki, Qabriel də sənin kimi çox fəhmli, fərasətli, ağıllıdır. Bizim ulu nəslimizin neçə əsr bundan əvvəl, ulu babamızın Qabriel adını haradan gətirdiyini də sən yaxşı bilirsən. Ona görə də elə imkan düşən kimi Qabrieli həmin yerlərə göndərərsən. Bütün papalığın hakimiyyəti sənin əlində olacaq. Vaxtaşırı istəsən, Qabriel haqqında məlumatlar da ala bilərsən. Onun arxasınca adamlar göndərərsən, vəsait ayırarsan. Qoy heç bir maddi çətinlik çəkməsin, üstəlik də ulu babamızın gördüyü yaxşı adamların nəsillərini tapsın, onlarla ünsiyyətə girsin. O yerlər çox gözəldi. Bizim müqəddəs kitablarımızda haqqında danışdığımız cənnət elə o yerlərdədir. Qarabağ adlı məşhur bir diyar var. Əgər Qabriel gedib o yerə çıxsa, başı da salamat olar, özü də yaxşı insanlar arasında yaşayar. – Ata danışırdı, danışdıqca da Qabriele onun sözlərini bütün varlığı ilə qavramağa, yaddaşında saxlamağa çalışırdı. Atası Qabrielenin sağ əlindən tutmuşdu. Asta-asta onun

sağ əlini çəkib, sinəsinə qoyulmuş papalıq xaçının üstünə apardı. Xaç indi Qabrielenin əlindəydi. Ata da Qabrielenin əlini xaçın üstünə sıxdı. Bununla sanki ona sonuncu tapşırığını verirdi. Yəni ki, bütün deyilənlərin hamısından üstün bu müqəddəs xaçı qorumaqdı.

* * *

Ata yaxşı bilirdi ki, hər iki övladının – həm Qabrielenin, həm də Qabrielin taleyi elə bu xaçdan asılıdır. Əgər Qabriele bu xaçı yaxşı qoruya bilsə, yəni papalıq hakimiyyətini indiki əzəmətində saxlasa, onda elə bütün ömrünü müqəddəs dinin inkişafına həsr etmiş atanın ruhu şad olar. Bir sözlə, atanın ürəyindəki nigarançılıq hissləri daha onu o biri dünyada narahat etməzdi. Ata bir daha nəzərlərini kilsə divarları boyu gəzdirdi. Yenidən körpəsini qucağında tutmuş Məryəmə baxdı. Deyəsən, indi Məryəm də ona başqa nəzərlərlə, daha xoş iltifatla baxırdı. Qabriele atasının nəzərlərini izləyirdi. Birdən atasının üzündə daha aydın duyulan bir təbəssüm işıqlandı. Atasının əli onun əlini daha bərk sıxdı. Bu oğlanlarının gələcəyindən arxayın olan ruhaninin xoş ovqatının təzahürü idi. Qabriele gördü ki, həmin xoş təbəssüm atanın üzündə necə vardısa, eləcə də donub qaldı. Gözləri də Məryəmin qucağında tutmuş uşağa zillənib baxmağında idi. Qabriele hiss elədi ki, atasının əli heydən düşdü, o, daha tərpənmirdi, nəfəs almırdı. Qabriele atasının gözlərinə daha artıq diqqət elədi. Artıq bu gözlərdə tərpəniş yox idi. Gözləri necə vardısa, eləcə də donub baxırdı. Qabriele atasının hər iki əlini qatlayıb, sinəsinin üstünə qoydu. Sonra xaçı götürüb boynundan asdı. Ayağa durdu, bir qədər kişinin cansız cəsədinə kənardan diqqət yetirdi. Sonra aşağı əyilib onun göz qapaqlarını bağladı. Qabriele bu hadisəni sanki əvvəlcədən gözləyirmiş kimi, heç bir həyəcan keçirmirdi.

Qabriele Kondulmer dörd divarın arasında xeyli var-gəl elədi. Divardakı ikonalara təkrar-təkrar baxdı. Ən çox da Məryəm ana-

nın qucağına sığınmış uşağı – məsum körpəni göstərən şəklə. Atasının bu şəklə baxmağındakı sirrin, səbəbin kökünü axtarmaq istədi. Başqa bir qənaət tapmadı. Ona qəribə gəldi ki, nə üçün atası bu qədər belə diqqət göstərirdi həmin freskaya. Dönüb təzədən atasının cəsədi uzadılmış taxtın yanına gəldi. Donuq təbəssüm hələ qalırdı. Bircə o fərq görünürdü ki, yalnız atasının gözləri qapanmışdı. Bir anlığa təsəvvür elədi ki, bayaqkı açıq gözlərlə baxan atası Məryəmin qucağında tutmuş körpəyə yenə sonsuz maraqla, diqqətlə baxır. Birdən ona elə gəldi ki, bu diqqətin səbəbini tam anladı. Demək, atası həmin günahsız körpənin timsalında qardaşı Qabrieli görürmüş, onunla eyni adı daşıyan Qabrieli.

... Qabriele Kondulmer, əslində, qardaşı olan, amma kimsənin bilmədiyi, tanımadığı, bəlkə də Qabrielenin özünə belə hələ də dumanlı qalan qardaşlıq əlaqəsini ona izah eləmək istəmirdi. Ancaq o, bilmirdi, necə ki, atası ona son anında Qabriel adlı qardaşının olduğunu demişdi, eləcə də, Qabrielin anası ona kəndli qadınla atasının sevgi macərasını olduğu kimi söyləmişdi...

– Qabriel, oğlum, yaxın gəl, sənə sözüm var. Sən bu kəndli uşaqlarının sənə qarşı soyuq münasibətindən incimə. Bir gün gələr, sən öz yerini taparsan. Bəlkə, hələ Roma papasına da hamıdan daha artıq xidmət edərsən. Özü də təkcə Roma papasından söhbət getmir, bəlkə, bütün Roma üçün sən elə böyük xidmət göstərərsən ki, bu gün rişxənd edənlər, səndən kənar qaçanlar sənə qibtəylə yanaşarlar.

Anası danışırdı. Amma Qabriel onun nə dediyinin heç yarısını başa düşmürdü. Vəziyyət gəlib o yerə çatmışdı ki, anası artıq iki dünyanın arasında vurnuxurdu. Ağır kəndli həyatı, tək-tənhalığın iztirabları onu çox yormuşdu, yaşamaq taqəti də qalmamışdı. Belə halda Qabriel anasının iztirablarını, ağrı-acılarını, yaşadığı həyatın özüylə daha çox bağlayırdı. Bilmirdi ki, onun bu həyatı başqa amillərlə bağlıdır. İndi anasının ağır xəstəliklərə qarşı dözümü-

nün qabağında Qabriel heç nə eləyə bilmirdi. Qadının dərdlərini yüngülləşdirmək onun üçün mümkün əməl deyildi. Bütün bunlara baxmayaraq, anasına yaxın olmaq, ona xüsusi bir ünsiyyətlə övladlıq borcunu qaytarmaq istəyi Qabriel üçün hər şey demək idi. Qabriel anasının yatağının yanında dizi üstə çökmüşdü. Doğrudur, onların evi sadə bir kəndli koması idi. Hərçənd onlar yaşadıqları ömür boyu bu kəndli komasında qonşuları kimi çörək dərdi çəkməmişdilər. Heç Qabriel bilmirdi ki, onların dolanışığı haradan gəlir. Ancaq Qabriel onu bilirdi ki, kəndli uşaqları heç də ona doğma yaxınlaşmırlar. Yalnız anasının qohumları ona az-çox yaxınlıq göstərir, onunla ünsiyyətdə olurdular. İndi Qabriel bu tənhalığın gətirdiyi qüssəni təkcənə yaşamaq təhlükəsi qarşısında idi. Çünki anası dünya ilə vidalaşmaq məqamına çatmışdı. Yəqin ki, anası da bu dünya ilə vidalaşma vaxtının yetdiyini gördüyü üçün oğlunu yanına çağırmışdı. İndi anası ona nələri danışacaqdı, nə barədə söhbət açacaqdı? Bunu Qabriel, bəlkə də, heç köhnə ağlıyla bilmirdi. Qabriel xəyalından keçirirdi ki, anası ona az-çox əllərində olan torpaq sahələrini, daxmalarının mal-qara üçün hazırlanan yerlərinin haqq-hesabını göstərəcək. Ancaq deyəsən, anasını heç bu məsələlər düşündürmürdü də. Çünki bu barədə heç ona əhvalı yaxşı olanda da, heç nə deməmişdi. Qabriel yaxına gəldi, onun solmuş çöhrəsinə, çuxura düşmüş gözlərinə baxdı. Əlləri ilə dağınıq saçlarını sığalladı. Anası gözlərini açıb Qabrielə göz yetirdi. Qabrielin çox işıqlı gözləri vardı. Bu işıqlı gözlər onun üzünü çox qəribə bir nura qərq eləmişdi. Qabriel bu dəfə anasının əllərini ovuclarına alıb tumarladı. Öz əllərinin hərarətini anasının əllərinə ötürdü. Yadına gəlirdi ki, vaxtilə anasının əlləri daha isti idi. İndi bu əllər soyumuşdu. Anasının əllərinə diqqət elədi. Damarları çıxmışdı, üstündə qəhvəyi ləkələr vardı. Elə bil, quruca sür-sümüklərdən ibarət idi. Qabriel başını aşağı əydi, əvvəlcə qadının alnından, sonra o üzündən, bu üzündən öpdü. Və anasının əllərini də öpüşlərinə qərq elədi. Deyəsən, anası xoşhal olmuş-

du. Bəlkə də ana üçün indicə yaşadığı anlar dünyanın ona bəxş elədiyi ömrünün ən gözəl çağlarıydı. Çünki oğlunun öpüşlərinə qərq olmuşdu. Bir vaxt o, özünü Yevgeni Kondulmerin ağuşunda hiss eləyəndə, bu xoşbəxtliyin dadını yaşamışdı. O vaxt dünyanın heç bir dərdi-səri gözünə görünmürdü. Sevdiyi gəncin qoynunda bütün qayğılar onların sevgisindən aşağıda qərar tutmuşdu. Yevgeni Kondulmer onu elə bir acgözlüklə sevirdi ki, bu kəndli qızı həyatının ən xoş anlarını bundan o yana təsəvvür eləmirdi. Yevgeni Kondulmerin – kilsə rahibinin onu belə dərin istəklə sevməsi ona dünyanın bütün qayğısızlığını bəxş eləmişdi. Əlbəttə, sonralar bu sevgi ona dərd, bəla də gətirmişdi. Nə vaxt ki, Yevgeni Kondulmer öz adını qanuni nikahından doğulmuş övladına vermişdi. Bax, o zaman bu kəndli qadını dərk eləmişdi ki, oğlu gələcəkdə necə əzab və iztirablara məruz qalacaqdı. Bütün bunlara baxmayaraq, ana övladını sevgi ilə böyütmüşdü. Çalışmışdı, çəkdiyi iztirabları haqqında oğlunun xəbəri olmasın. Çünki əgər oğlu onun çəkdiklərindən xəbər tutmuş olsaydı, onda anasının ağrı-acısını özüylə daşımış olardı. Pis də orasında olardı, oğlu çox qorxaq, aciz bir uşaq kimi böyüyərdi. Amma ana bütün həyatı boyu yaşadığı iztirabları gizli saxlamağa çalışmış, Yevgeni Kondulmerdən aldığı köməyi də qohum-əqrəba arasında elə bölmüşdü ki, onun həyatının başqa kəndlilərin həyatından elə də fərqlənməyi hiss olunmasın.

İndi bütün bunların hamısı keçmişdə qalmışdı. Sevgisini Yevgeni Kondulmerə vermiş kəndli qızı düşünürdü ki, əri papalıq adını qanuni nikahdan olan oğluna verirsə, onda onun oğluna mənəvi olaraq, heç nə çatmayacaq. Bu halda o, neyləməlidir? Bəlkə də bu köklü, labüd səbəblər olmasaydı da, ana öz oğluna hansı nəsildən olmağını çatdırmağı özünə son borc hesab etməli idi.

Yevgeni Kondulmerin həyatı başa çatmaqda idi. Bunu onun sevgilisi – kəndli qızı da görürdü. Və əslində, kəndli qızı da eyni

sürətlə ömrünü başa vurmaqdaydı. Həm Yevgeni Kondulmerin qanuni nikahdan olan oğlu, həm kəndli qızından olan övladı – hər ikisi artıq kifayət qədər yaşa dolmuşdular. Onlar bu həyatı necə yaşayacaqdılar? Onlar bir-birini necə başa düşəcəklər? Bəlkə elə bir-birinə qənim kəsiləcəklər, həyat onları ölüm-dirim arası savaşda qarşılaşdıracaq, yoxsa, onlar bir-birini tanıyacaqlar? Həyatın onlara bəxş elədiyi qisməti ləyaqətlə daşıyacaq, bir-birinə sevgi hissi ilə yanaşacaqlar? Kəndli qızı bütün bunların hamısını düşünürdü. Yaddaşında dəfələrlə çək-çevir eləyirdi. Hətta bəzən qərara gəlirdi ki, heç bu barədə ətraflı və dəqiq məlumat verməsin, amma son anda oğluna Yevgeni Kondulmerin oğlu olduğunu dəqiq və aydın şəkildə bildirsin. Bütün bunlar indi ananın nəzərində olub-keçmişlərin xatirəsi deyil, həm də gələcəkdə baş verəcək hadisələrin əsası kimi, bünövrəsi kimi nəzərə çarpırdı. Elə bu səbəbdən oğlunu yanına çağırmışdı ki, ona həyatının ancaq özünə məlum olan tərəflərini olduğu kimi çatdırsın. Qısası, burada əsas məqsəd o idi ki, Qabriel qoy yaxşıca bilsin ki, Qabriele Kondulmerin – nüfuzlu papa Yevgeni Kondulmerin oğlunun qardaşıdır. Qoy, yeni papa kimi, Yevgeni nəslindən növbəti adam – yəni Qabriele Kondulmer taxta çıxanda, anlasın ki, onun Qabriel adlı qardaşı var. Qabriel isə öz növbəsində qardaşına qarşı ləyaqətli münasibət bəsləsin. Bütün gücüylə onun mənəvi hakimiyyətinin güclənməsinə xidmət eləsin. Bir sözlə, arada münaqişə, narazılıq olmasın. İndi həyatının son günlərini yaşayan kəndli qızı – Qabrielin anası beləcə düşünürdü.

– Oğlum, Qabriel, gəlmisən?

– Hə, ana, mən həmişə sənin yanında olmuşam, elə indi də sənin yanındayam.

– Mənim əziz balam, mən bu dünyada həyatımı sənə sərf etmişəm. Təkcə ona görə yox ki, sən mənim yeganə balamsan, həm də ona görə ki, sən mənim həqiqi sevgimin övladısan. Bax, buna görə mən səni dünyanın bütün nemətlərindən ən yuxarıda gör-

müşəm. Bax, elə bu səbəbə görə də sən bu dünyadan öz haqqını ləyaqətlə almalısan.

– Ay ana, sən nə danışırsan? Mən həmişə burada, böyründəyəm, heç kimə də heç bir borcumuz yoxdur. Axı sən mənə öyrətmisən ki, bu dünyadan özgə bir istəyimiz də yoxdur.

– Doğru deyirsən, oğlum, mən onu sənə öyrətmişəm. Öyrətmişəm ki, gözütoxluq dünyanın ən böyük var-dövlətidir. Bilirəm, bu dünyanın maddi var-dövlətində sənin gözün olmayacaq, buna mən əminəm.

* * *

Anası oğlunun boy-buxununu süzdü, gözlərinə diqqət kəsildi. Tanrı yaraşıq sarıdan övladından heç nəyi əsirgəməmişdi. Orta boydan da bir qədər hündür, tökməbədən, düz qamətli Qabrielin gözlərində bir aydınlıq və duruluq vardı. Onsuz da anası oğlunu yaxşı tanıyırdı. Bilirdi ki, onun təbiətində bir məsumluq, mülayimlik, canında sağlam ruh var. İnanırdı ki, əgər o, qardaşından kənarda yaşamalı olsa, başqa sözlə, artıq Romanın papası olan Qabrielenin ətrafındakı adamların quracaqları hiylə toruna düşməsə, insanlar arasında hörmət-izzətlə yaşayar, ömrünü sakitliklə başa vura bilər.

Doğrudur, Qabriel adamlarla elə də yaxından ünsiyyət bağlayan deyildi. Adətən adamlardan kənar qaçırdı. Hətta öz tay-tuşları ilə yaxın əlaqələri olmurdu. Əsas diqqətini Böyük Kilsə kitabxanasından götürdüyü kitabları oxumağa verir, dinlərin tarixini öyrənir, əsas güc mərkəzlərinin hansı dinlər ətrafında cəmləşdiyi haqqında məlumatları mənimsəyirdi. Onun oxuduğu kitablardan əxz elədiyi insanlara mehriban münasibət, adamlarla yaxşı davranmaq, hər kəsə dərdə və bəlaya tuş gəlməmək üçün düz yol göstərmək hissləriydi. O, mütaliə elədiyi kitablardan əsas bir cəhəti mənimsəmişdi; bu da insana humanist münasibət, insana insanpərvərliklə yanaşma idi.

Anası hələ bilmirdi ki, bu pak, dünyanın hiylə-kələklərindən iraq olan oğlunu gələcəkdə nələr gözləyəcək, kimlərlə qarşılaşacaq, üzləşdiyi ölüm səhnələrindən necə xilas olacaq, ya bəlkə heç xilas yolunu tapmayacaq… Bütün bunlar haqqında hələ bir söz deyə bilməzdi. Amma hər halda onu bilirdi ki, oğlu öz əməliylə başına bəla açmaz. Əgər yaxşı adamlarla üzləşsə, əlbəttə ləyaqətli insanlarla qarşılaşsa…

Qabriel həmin anlarda anasının düşüncəsindən süzülənləri tam yerli-yataqlı dərk eləməsə də, ona bir məsələ tam aydın idi; anası onun gələcək taleyindən nigarançılıq çəkir. Anaya aydın deyildi, övladı ömrünü yaşamaq üçün kifayət qədər həyati bacarıqlara yiyələnib, ya yox. Bir məsələdən arxayınçılığı vardı. İnanırdı, Papa Qabriele artıq onun Qabriel adlı qardaşının olduğunu bilməmiş deyil. Əgər atası ona bu barədə danışıbsa, onda qardaşlar arasında elə bir anlaşılmazlıq olmayacaq. İnsafən, Qabriele də papa olduqdan sonra qardaşı Qabrieli nəzarətdə saxlayırdı.

Hərçənd ki, qardaşı olduğu haqqında ona heç nə deməmişdi. Qabriel də hiss edirdi ki, bu barədə hələlik susmaq daha üstün olar. İndi anası ona özünün həyat tarixçəsini danışdıqca bütün bunları o, beynində çək-çevir eləyirdi.

– Düz deyirsən, ana, mənə heç nə lazım deyil, bircə öz doğma kəndimizin mühiti məni sıxır.

– Elədi, oğlum, həmişə bu kəndin mühiti səni sıxacaq. Çünki sən bu kəndə sığan deyilsən. Bu kəndin içindən sən kənara çıxmalısan.

– İndi necə deyirsən, ana, mən bu kənddən tamam çıxıb hara gedim?

– Yox, oğlum, mən demirəm ki, sən bu kənddən tamam üz çevirib gedəsən. Mənim dediyim tamam başqadır. Sən qardaşın Qabriele Kondulmerin yanına gedərsən, onunla görüşərsən. Zənn edirəm ki, sənin qardaşın olmağı haqqında onun artıq xəbəri var.

Ancaq bu barədə heç nə deməzsən. İş elə gətirər ki, qardaşın sənə nə qədər lazımdı, kömək edər. Həyatını ləyaqətlə yaşamaq üçün nə mümkünsə, heç nəyi əsirgəməz.

– Ana, mən bu barədə kənd uşaqlarından eşidirdim. Tay-tuşlarım, həmyaşıdlarım bu barədə mənə bəzi eyhamlar vururdular, mən bunlara əhəmiyyət vermirdim. İndi belə çıxır ki, doğrudan da Roma papası olmağa namizəd Qabriele Kondulmer mənim qardaşımdır. Mən buna əslində, elə əvvəlcədən də inanırdım, sən təsdiq etməsəydin, yəqin ki, bütün ömrüm boyu barışmayacaqdım – Qabriel anasının hüzurunda diz çökmüşdü. Və anası da ona çox fərəhlə baxırdı. Əgər üçüncü bir şəxs həmin anlarda içəri girmiş olsaydı, onları bu görkəmdə görsəydi, ananın elə indicə durub yeriyəcəyini, hələ bundan sonra neçə il yaşacağını da güman edərdi. Ancaq belə deyildi. Sadəcə Qabrielin anasının sifəti son dəfə – ölümqabağı nura boyanmışdı. Qabrielə də bu həyat işığı hələ yaşamaq imkanı kimi görünürdü…

…Sara Xatun yad ölkədən gəlmiş qonaqlara diqqət eləyirdi. Nədənsə şübhələnmişdi, ona elə gəlirdi ki, Qabrielin yanınca gəlmiş iki şəxsdən biri daha çox qadına bənzəyir, nəinki kişi xeylağına.

Qabriel də, onun yanında əyləşmiş iki şəxs də, qonaqlığın bütün şərtlərinə uyğun olaraq ədəb-ərkanla hərəkət eləyirdilər. Ancaq Sara Xatunun nəzərləri hələ də Qabriellə gəlmiş şəxslərdən birinə – gözəl simalı, incə rəftarlı şəxsə dikilib qalmışdı. Hər yerdə Qabrielin yanında əyləşən ruhani cavanın incə rəftarı, gözəl siması və həyalı görkəmi Sara Xatunun nəzərlərini daim üstündə saxlayırdı.

Qonaqların şərəfinə verilən ziyafət dəm-dəsgahlı şən keçirdi. Gözəl əndamlı rəqqasələrin süzə-süzə ifaları, mərasim iştirakçılarının ruhunu oynadır, musiqi üçlüyü məclisi bəzəyirdi. Xanəndənin ürəyəyatımlı səslə oxuduğu muğam hamının könlünü oxşayırdı:

*Bulıdın yağmurı çoxmı ya gözüm yaşlarımı,*
*Düşmən əgrimi bana, ya yarumun qaşlarımı?*

*Naz ilə nemət içində işrət edərsin bana,*
*Bən yeri döşək edüb, yasdanayım taşlarımı?*

*Eşq əhlü başı bizüz, yoluna can qoymışuz,*
*Göz yüzün görmək içün saxlayalum yaşlarımı?*

*Canü əql ilə könül oldı mülazim yoluna,*
*Can girü gəlür isə qaxıya yoldaşlarımı?*

*İçdi meyxana gözü qanumı, şişlər cigəri,*
*Gidərəlüm süciyi, çəkməyəlüm aşlarımı?*

*Sünbüli görgil pərişan, sərxoş anla nərgisi,*
*Anlara gözükdilər bu sübh oxşaşlarımı?*

Tarixin yaddaşına Əbülfəth – «zəfər və qələbə sahibi» adı ilə həkk olunan Qazi Bürhanəddinin sevilən bu qəzəli musiqinin sehrilə insanın qəlbinin sarı simlərinə toxunurdu… Sara Xatunun gözləri doldu. Nə isə demək istədi, ancaq susdu…

* * *

Qabriel qardaşından ayrılarkən aldığı tapşırıqları bir də yaddaşında çözələdi. Neçə müddət sultanın hüzurunda dolanmışdı. Az-çox öyrənmiş olduğu türk dili əhali ilə ünsiyyət tapmaqda demək olar, ona kifayət eləyirdi. Hələ ilk baxışdan Sara Xatunla qarşılaşarkən bu müdrik qadının simasında bütün analara xas olan bir qayğıkeşlik, insanpərvərlik duyurdu. Onu da yaddaşına gətirirdi ki, anası son nəfəsinə kimi həyatını ləyaqətlə yaşamağı ona təlqin eləmişdi. Fitnə-fəsaddan, hiyləgərlikdən, başqasına kələk qurmaqla şər işlər görməkdən uzaq olmağı tapşırmışdı. Bu tərəfdən də papa Qabrielenin tapşırıqları ona tapşırığına sadiq olmağı təlqin edirdi. Qabriel iki hissin təsiri altında qalmışdı. Bir

tərəfdən ona ləyaqətlə yaşamağı öyrədən anasının vəsiyyətləri, digər tərəfdən papa Qabrielenin Ağqoyunlular dövlətini qızışdırıb Osmanlılar uzərinə göndərmək tapşırığı… Bu iki hissin arasında xeyli fərq vardı, çıxış yolunu tapmaq Qabriel üçün çətin olmuşdu. O, bilmirdi haradan yapışsın, həqiqətən ona missiyasını yerinə yetirmək daha üstündür, yoxsa, bu ləyaqətli insanlara əsl həqiqəti açıb demək?!

Qabriel cavab tapa bilməsə də, hələ ki, bir şər iş görmədiyinə, anasının vəsiyyətlərindən kənar bir əməl törətmədiyinə sevinirdi. Hər halda, indiyə qədər onun vicdanı pak və təmiz idi. Bundan sonra həyat nə göstərəcəkdi? Onu taleyin keşməkeşləri, ağrı-acıları hara çəkəcəkdi? – Bunu bilmirdi. Bütün məclis boyu Sara Xatuna və cavan hökmdara – Uzun Həsənə oğrun-oğrun nəzər yetirir, onların məclis əhlinə diqqət və qayğılarına heyran qalırdı.

Sara Xatunun hüzurunda hər kəs öz yerini yaxşı bilirdi. Yalnız Sara Xatunun izn verdiyi bir şəxs aradabir qalxır, ayrı-ayrı qonaqların şəninə xoş sözlər deyirdi. Nəhayət, növbə uzaq Romadan gəlmiş qonaqlara çatdı. Onlar haqqında danışmağa izn alan sərpayı söhbətə xeyli uzaqdan başladı.

– Dünyaların ən xeyirxah anası Sara Xatun, Bayandurlar nəslinin öz gücünü, qüdrətini təsdiq etdiyi bir gündə onu təbrik edənlər sırasında uzaq Romadan gəlmiş qonaqlar var. Dünya bizim düşündüyümüzdən böyükdür. Bu dünyanın işlərini yalnız bir hökmdar idarə edə bilməz. Bir vaxtlar Makedoniyalı İsgəndər də belə bir fikrə düşmüşdü ki, dünya yalnız bir hökmdarın tabeliyində olmalıdır. Ağıllı, qoçaq İsgəndər dünyanı bir köhlən at bilirdi. Cilovunu da öz əlində saxlamaqla onu haraya, necə döndərmək ixtiyarını özü idarə etmək fikrində idi. Ancaq tale buna aman vermədi. İsgəndər az qala dünyanın yarısını tutmuşdu. O, həyatının ən gözəl çağlarında uzaq Hindistanda fil üstündən bir cəngavərin atdığı nizə ilə yaralanıb atından yerə düşmüş, bir daha cəngavərlik atına qalxa bilməmiş, qızdırma xəstəliyinə tutulmuş,

bir daha öz yerinə, yurduna qayıda bilməmiş və ölmüşdü. O, öz ölkəsindən çox uzaqlarda vəfat etmişdi. – Sərpayı danışdıqca Sara Xatunun ona xüsusi diqqət yetirdiyini görür və bir az da ilhamlanırdı. Qabriel də onun çıxışını maraqla dinləyirdi. Doğrudur, tərcüməçi hərdən onun fikirlərini Qabrielə izah edirdi. Çox vaxt Qabriel tərcüməçidən əvvəl onun dediklərini başa düşürdü.

Birdən Sara Xatun əlini qaldırdı. Sərpayı dayandı.

– Sən deyirsən ki, dünyanı tutmaq planı çox hökmdarlarda olub. Bəs uzaq Avropa ölkələri necə? Onların niyyətləri haqqında danışa bilərsənmi?

– Bəli, həşəmətli ana, danışa bilərəm. Onlar da dəfələrlə xaç yürüşləri ediblər. Adına səlib müharibələri də deyiblər. Hətta Yerusəlimə qədər gedib çıxıblar. Keçdikləri yerləri viran qoyublar. Bütün bunlar dünyaya böyük zərbə vurub. Yoxsa, dünya indikindən daha səliqə-sahmanlı olardı.

Sara Xatun:

– Sən bilirsən ki, bizim məclisimizdə avropalı qonaq var. Bizim məqsəd və məramımız haqqında danış. Qoy o da eşitsin.

– Baş üstə, dünyaların ən mehriban anası. Əvvəla, bizim məqsədimiz saf və sağlamdır. Biz öz torpaqlarımızı birləşdirmək, qəsb olunmuş ərazilərimizi ayrı-ayrı adamların cəngindən qoparmaq istəyirik. Bizim Diyarbəkir qalasına gəlib çıxmağımızın əsas məqsədi budur. Babamız Qara Yuluq Osmanın yolu bizim üçün müqəddəsdir. Biz bu yoldan geri çəkilən deyilik. Əsas odur ki, Bayandurlar nəsli dostluqda həmişə möhkəm olub. Haqsız düşmənlərinə də heç nəyi güzəştə getməyib. Qoy uzaq diyardan gəlmiş qonaqlar dünyaların ən mehriban anası Sara Xatunun xeyir-duası ilə zəfər yürüşümüzün uğurla başa çatması xəbərindən məmnun olsunlar.

Tərcüməçi bu sözləri təkrar elədi. Onsuz da Qabriel başa düşmüşdü. İndi razılıqla başını tərpətdi. Gülümsər çöhrəsilə Sara Xatunun üzünə baxdı. Həqiqətən Qabrielə sərpayının danışdığı

sözlər bərk təsir etmişdi. Xüsusilə, yürüşün ədalətli olmağı haqqında deyilənlər. Bütün bunlar Qabrieli o qədər cəzb etmişdi ki, az qala özgə bir diyardan olduğunu unutmuşdu. Özünü elə bu insanlardan biri kimi təsəvvür edirdi. Çünki varlığındakı xeyirxahlıq niyyətləri bu məqamda bütün bədxahlıqları üstələmişdi. Həmin anlarda bu döyüşkən insanların əhatəsində özünü Romada olduğundan daha əmin-aman, daha rahat, daha arxayın hiss edirdi. Birdən başını döndərib yanında əyləşmiş doğmalarına çaşqın-çaşqın göz yetirdi. Hər halda onların da üzündə bir xoş təbəssüm çaları vardı. Onsuz da onlar Qabrielin məxsusi tapşırığını bilmirdilər.

* * *

…Cahanşah Həqiqiyə xəbər çatanda ki, Cahangir Mirzə başının atlıları ilə ona pənah gətirib, çiçəyi çırtladı. Fərəhindən yerindən dik qalxıb əl-qolunu ölçə-ölçə var-gəl elədi. Düşmənin qapısına gəlməsi, imdad diləməsi, hər halda, onun gücünün, qüdrətinin etiraf olunması demək idi. Bu da Cahanşahı duyğulandırmaya bilməzdi. Amma bir az keçəndən sonra fikri dumanlandı. Cahangir Mirzəyə sığınacaq vermək, ona qayğı göstərmək Qaraqoyunlular üçün nə vəd eləyirdi? Bax, bu suala cavab tapmaqda çətinlik çəkirdi. Əgər Cahangir Mirzəni qəbul eləyib ona özünə gəlmək üçün şərait yaratsa, bunun axırı nəylə qurtaracaqdı? Cahangir Mirzə özünün müxtəlif yollarla ölkədən çıxardığı, gizlinlərdə saxladığı sərvətlərinin bir qismini bu xilaskarlıq naminə Qaraqoyunlu şahına verər, qalanına da özü üçün təzədən qüvvə toplamağına sərf edirdi. Bu qüvvəni müsəlləh orduya çevirmək üçün nə qədər xərc tələb olunurdusa, bir o qədər də vaxt, zaman gərək idi. Həmin vaxt ərzində Ağqoyunlu hökmdarı Uzun Həsən istər-istəməz xəbər tutacaqdı ki, Cahangir Mirzə Qaraqoyunlu hökmdarının yanında kef-damaqdadır. Bu da artıq çiçəklənməkdə olan Ağqoyunluların güclü ordusunun Cahanşahın üzərinə hücuma

başlaması üçün bəhanə olacaqdı. Bax, bu bəhanənin qarşısını almaq, Ağqoyunlularla münasibətləri qaydasına qoymaq üçün Uzun Həsənin əlinə bu bəhanəni verməmək daha münasib olmazdımı? Bunun üçün Cahangir Mirzəni yaxşıca qarşılayıb tərksilah etmək, hamısını əsir götürmək və eləcə də qaytarıb Uzun Həsənin ixtiyarına vermək gərək idi. Əgər arada Sara Xatun olmasaydı.

Cahanşah yaxşı bilirdi, Sara Xatun heç istəməzdi indiki məqamda Qaraqoyunlularla Ağqoyunlular arasında bir hərb meydanı açılsın. Hələ böyük siyasət meydanında Osmanlıların hansı hökmü verəcəyini də zaman gizli saxlayırdı. Bu sirri-xudanı isə vaxtından əvvəl bir kimsə asanlıqla bilməzdi. Çünki axşam və səhər yerini nizamla dəyişsə də, hadisələrin hansı məcrada dəyişəcəyi, hansı axarla davam edəcəyi bütün təfərrüatı ilə Allahdan başqa bir kimsəyə məlum deyildi.

Cahanşah Həqiqi dünyagörmüş şəxsiyyət idi. Həyat təcrübəsi ona hadisələrin daha görünməyən tərəflərinə nüfuz etmək üçün imkan verirdi. Elə həmin andaca başa düşdü ki, Cahangir Mirzənin Uzun Həsənin qüvvələri qarşısında davam gətirməyib vuruşdan yayınması – daha doğrusu, qaçıb aradan çıxması təsadüf ola bilməzdi. Bu da o demək idi ki, Sara Xatun Cahangir Mirzənin itkisiz-filansız getməsi üçün özü şərait yaradıb. Belə halda onun əsir alınaraq geri qaytarılması Sara Xatunu daha artıq özündən çıxara bilərdi. Qadın qəzəbinin də nə demək olduğunu Cahanşah yaxşı bilirdi…

Bəs onda neyləməli? – Cahanşah düşünürdü. Hər halda o, belə qərara gəldi ki, Cahangir Mirzəni yaxşıca qarşılayıb ona hörmət-izzət göstərsin. Əgər özü qüvvə toplaya bilib, Ağqoyunluların üstünə yeriyəcəksə, bunun da qabağını kəsmək lazım deyil.

Keçib taxtında əyləşdi. Sağ əlini başına dirsəklədi. Təzədən fikir onu götürdü. Anlayırdı ki, bir zamanlar Qaraqoyunluların yaşadığı çiçəklənmə, qüvvətlənmə dövrünü indi Ağqoyunlular yaşamaqdadır. Müxtəlif tərəflərdən Qaraqoyunluları sıxışdırmaq

cəhdləri açıq-aşkar vüsət alır. Osmanlılar da, Teymurilərin tör-töküntüləri də diş qıcayırdı Qaraqoyunlulara. Bu yandan da gənc, yenilməz Ağqoyunluların səhnədə peydası…

– Deyin, Cahangir Mirzəni gətirsinlər.

Az keçməmiş hökmdarın əmrinə rəğmən Cahangir Mirzə tərksilah olunmuş halda şahın yanına gətirildi. Doğrudur, Cahangir Mirzə Cahanşahın onu öldürməyəcəyinə əmin idi. Amma haradan bilmək olardı ki, hökmdar qəflətən fikrini dəyişməsin. O, sakitcə Cahangir Mirzəni sui-qəsdə çəkər. Bəhanəylə aradan götürərdi. Başlayardı günahkar axtarışına Sara Xatunu aldadardı. Cahangir Mirzə də bu kimi fikir-zikirdə dayanmışdı Cahanşahın hüzurunda. O, danışığında, davranışında səhvə, xətaya yol verməmək, ilk növbədə şahın acığına gələ biləcək heç bir təkəbbür göstərməmək qərarında bulundu.

– Hörmətli Bayandurlar nəslinin igid cəngavəri necə olub ki, döyüş meydanından sağ çıxa bilib? – Hökmdar başını qaldırıb düz Cahangir Mirzənin gözlərinə baxdı. Sualının onda hansı əhkam doğura biləcəyini görmək istədi.

Cahangir Mirzə özünü itirmədi. Əvvəlcə iki əlini sinəsində qoşalayıb başını az qala dizlərinə qədər əydi. Hökmdara təzim elədi. Sonra dikəlib ötəri də olsa hökmdarı süzdü. Ağır-ağır dilləndi:

– Dünyanın çox böyük hökmdarlarından birinə – aləmlərin hörmət və ehtiram göstərdiyi Cahanşaha nəslimin adından salam yetirirəm.

– Sən ki, nəslinə asi çıxmısan? İndi onun adından necə danışa bilərsən?

– Böyük hökmdar Cahanşah qılınc cəngavəri olduğu kimi, həm də söz və hikmət cəngavəridir. Onun necə böyük söz sahibi olduğunu hamı yaxşı bilir. Bu xəbəri biz də, Bayandurlar nəsli də çoxdan eşitmişik. Bizim sarayımızda – xüsusən də mənim məclislərimdə hökmdarın incə ruhlu qəzəlləri xanəndələrin dilindən düşmürdü. Bunu Sara Xatun da bilirdi. O, imkan tapıb mənə çat-

dırdı ki, qardaşımın xanədanına qarşı çıxmağımın cəzası ölümdür.

– Bəs onda nə üçün həşəmətli Sara Xatun səni cəzana yetirmədi?

– Burası müdrik hökmdara aydın olar. Ana qəlbi buna yol verməzdi. Elə ona görə də mənim döyüş meydanından salamat çıxmağıma şərait yaratdı.

– Sən nə niyyətlə məhz mənə pənah gətirmək qərarına gəldin?

– Bəndələrin ixtiyarı Allahda olduğu kimi, təbəələrin də ixtiyarı hökmdarların əlindədir.

– Hmm… – Cahanşah dodaqlarını qısıb gözlərini qıydı. Görünür, söz onu tutmuşdu. Hər halda onun şair qəlbi dəyərli sözün üstündən sükutla keçə bilməzdi. O, hiss etmişdi ki, Cahangir Mirzə bura Sara Xatunun rəhmi sayəsində gəlib çıxa bilib. İndi Cahangir Mirzəni nə qədər təhlükəsiz saxlaya bilsə, bir o qədər Sara Xatunun qəzəbindən kənar olar.

– Yaxşı, belə olan halda sən bizdən hansı imkanı umardın?

– Hökmdar sağ olsun, məğlubların umacağı olmur. Onlar rəhmi sədəqə kimi gözləyə bilərlər. – Cahangir Mirzənin bu sözləri də hökmdara təsir etdi. Elə bil ki, onun ruhu dəyərli sözlərin aclığına məruz qalmışdı. Ətrafındakı naz-nemət içində saray həyatı yaşayan adamların ildə bir dəfə ağzından dəyərli bir söz eşidə bilməməsi onu həmişə yandırıb-yaxırdı. Beynini piy basmış bu adamların yaltaq davranışları, hökmdara xoş gəlmək üçün gündə min sifətə düşmələri onu artıq bezdirmiş, yorub əldən salmışdı. Əgər sədaqətinə inansaydı, Cahangir Mirzəni elə özünə vəzir eləyərdi. Bəlkə elə bu səbəbdən Cahangir Mirzəyə rəğbətlə baxdı. Ona əmin-amanlıqda olacağını bəri başdan bildirmək istədi.

– Ağqoyunlular da, Qaraqoyunlular da eyni kökdən olan ağacın budaqları kimidir. Yarpaqlar eyni, bar-bəhər eyni. Ancaq ola bilsin, ağacın bir tərəfini küləklər döyər, digər tərəfi salamat qalar.

Hər halda, eyni kökün üstündə bitən insanlar gərək unutmasınlar bir-birlərinə doğmalıqlarını. Adətlərimiz birdi, dilimiz birdi, dinimiz eynidi…

Cahanşahın bu sözlərindən sonra Cahangir Mirzənin gözləri güldü. Hökmdarın bu müdrik danışığı onu valeh eləmişdi. Bir vaxt anasından Qazi Bürhanəddin haqqında da hikmətli kəlamlar eşitmişdi. Qazi Bürhanəddin də bir zamanlar bir dilin, bir ananın övladları kimi baxırmış bütün türk tayfalarına. Buna rəğmən eyni kökdən gələn türklərin bir-birilə yola gedə bilməməsi, ortaq dil tapmaması onu həmişə daxili bir gərginliklə sıxarmış. Bəlkə, elə Qazi Bürhanəddindən qalan o işıqlı fikirlərin sayəsində Sara Xatun da alicənablıq səviyyəsinə ucalmış, siyasətin ən qaranlıq tərəflərini görə bilmək elminə sahib olmuşdu. İndi Cahangir Mirzə gözlərinin qabağında Cahanşahın da belə bir müdriklik mərtəbəsində qərarlaşdığını hiss edirdi.

– Yaxşı, Qara Yuluq Osmanın nəvəsi Cahangir Mirzə əyalətin bir tərəfində yaşamaq istəyər, yoxsa, sarayda qalmaq? – Cahanşah yenə sınayıcı nəzərlərlə Cahangir Mirzəni süzdü. Cahangir Mirzə də ona baxan bu sınayıcı nəzərlərdən yan qaçmadı, fikrindən keçirdi: «Qoca, sənin nə düşündüyünü mən yaxşı bilirəm». Əlbəttə, bu barədə dəqiq heç nə demədi.

– Nə deyim, hökmdar, yenə Allah bilən yaxşıdır. Siz də Allahın bildiyini icra edən hökmdarsınız…

Cahanşahın üzünə yenə xoş təbəssüm yayıldı. Taxtında yerini təzədən rahatladı. İndi özünü daha əzəmətli və qürurlu hiss edirdi. Bir anlığa ona elə gəldi ki, ağılda, idrakda bir kimsə onunla özünü müqayisə edə bilməz. Necə ki, doğmaca dilində yazdığı gözəl qəzəllərilə ürəkləri fəth edə bilir, eləcə də insanların düşüncələrindən, fikirlərindən o qədər hali ola bilir.

Doğrudan-doğruya Cahanşah daxilən xeyli aram olmuş, həyəcanları keçib getmişdi. Tərəddüdləri yox idi. Elə bu səbəbdən də Cahangir Mirzəyə xoş bir məramla – «yaxın gəl», – dedi. Ona

yanında yer göstərdi. Hökmdarın işarəsiylə elə buradaca gözəl bir süfrə açdılar. O, Cahangir Mirzənin piyaləsinə əlilə şərab süzdü.

– Hörmətli bir nəslin övladı uzaq yol gəlib. Allahın iradəsindən bizə ürcah olub, himayəmizə sığınıb. Biz də gərək ona hörmət göstərək. Əmr edəcəm Ərzincanı iqta olaraq sənə versinlər…

Cahangir Mirzə sonsuz minnətdarlıq dolu baxışlarla şaha baxıb başını əyməklə razılığını bildirdi.

Cahanşah iştahla yeyir, qırmızı şərabdan içə-içə şahanə qonaqpərvərliklə Cahangir Mirzəni tam inandırmaq istəyirdi ki, bu dünyada da hökmdarlar arasında hansısa biri qələmi ilə yazdığı təmizlikdə, saflıqda ola bilər.

Kənarda əyləşən sazəndə dəstəsi məclisi daha da rövnəqləndirir, əlində dəf tutmuş xanəndə məlahətli səslə Cahanşah Həqiqinin qəzəlini muğam üstə oxuyurdu:

*Ağzın qönçeyi-xəndan dedilər, gerçəkmiş,*
*Xəti-ruxsarına reyhan dedilər, gerçəkmiş.*

*Lövhi-məhfuzini ta gördü kəlam əhli sənin,*
*Ayəti-vəchini Quran dedilər, gerçəkmiş.*

*Zövqi-eşqin ki, qəmi dünyavü üqbayə dəyər,*
*Bu könül təxtinə sultan dedilər, gerçəkmiş.*

*Ənbərəfşan saçını küfə münasib qılıban,*
*Dürci-yaqutuna mərcan dedilər, gerçəkmiş.*

*Əhli-təqva ki, sücud eylədi vəchində sənin,*
*Sacidi-surəti-rəhman dedilər, gerçəkmiş.*

*Ey Həqiqi, çu sənə nəqli-kəlam oldu müin,*
*Nəfsinin şərhini bürhan dedilər, gerçəkmiş…*

…Həqiqətən Cahangir Mirzə Cahanşahın mehribanlığından və qonaqpərvərliyindən məmnun idi. Əlini uzatdığı hər loxma-

da, agzına apardığı hər tikədə xəyalından keçirirdi: «Qəzanın əzəlindən xilas olduq. Görək Tanrı qədərimizi bundan sonra necə yazacaq?…»

* * *

Sara Xatunun fəhmli gözləri Qabrielin yanında oturan Aqnes adlı gəncin hərəkətlərində diqqətçəkən məqamlar görmüşdü. O qadın fəhmilə Aqnesin Qabrielə münasibətində elə örtülü məqamlar görürdü ki, bunu yaddan çıxara bilmirdi. Bütün gecəni beynində düşünüb-daşınmış, hissiyyatının süzgəcindən keçirmişdi. Hərdən şübhələr onun varlığını didir, rahatlığını əlindən alırdı. Ən başlıcası, Aqnesi oğlandan çox qıza oxşatması idi. Sara Xatun üçün onun oğlan, ya qız olduğunu öyrənmək elə də çətin deyildi. Ancaq məsələ başqa cür – başqa bir tərəfdən onu düşündürürdü. Əgər Qabrielin yanındakı həmin Aqnes adlı cavan qadın idisə, onda onların birgə çıxmağının məqsədi nəydi? Ola bilərdi ki, onlar görmədikləri yad bir diyarda yad təsirlərdən, təcavüzlərdən qorunmaq üçün bu yolu seçiblər.

Qadın kimi qorunmaqdansa, kişi geyimində gizlənərək daldalanmaq daha asan olardı. Bu halda Sara Xatun onların əməlində elə də qorxulu bir niyyətin olmadığını düşünərdi. Amma yox, özgə diyarlardan gəlmiş, tanınmayan adamların sonradan üzə çıxan fəsadlarını da çox görmüşdü. Ona görə istəyirdi ki, o məsələnin üstünü elə açsın, nə şiş yansın, nə kabab, həm də bu avropalı səyahətçilərin niyyətlərini də öyrənsin. Əlbəttə, Sara Xatun bilirdi, bunu öyrənmək elə asan deyil. Hər halda o, Qabrielin hərəkətlərində bir səmimiyyət, öz ölkəsinin adamlarına doğmalıq və yaxınlıq hiss eləyirdi. Ən çoxu bu adamlar missioner adı ilə gəlsələr də, daha çox bir sığınacaq axtaran, bir təhlükəsiz yerdə ömürlərini yaşamaq istəyənlərə oxşayırdılar. Hələlik bütün bunları Sara Xatun ehtimal kimi, şübhə kimi saxlayırdı. Axır ki, Qabriellə bir daha təklikdə danışmaq, onun keçmişindən üzü

bəri keçib gələn yolu yaxşı-yaxşı öyrənmək qərarına gəldi. Elə bu düşüncələrlə yuxuya daldı.

Əslində, Qabriel də həmin gecəni yaxşı yata bilmədi. Onu uzaq Romadan Papa kilsəsindən yola salan, Qabriele Kondulmerin tapşırıqları çox düşündürürdü. O da ikili düşüncələr arasında vurnuxurdu. Tapşırıq o idi ki, Qabriele Kondulmerin tapşırıqlarını yerinə yetirmək, Vatikanın ona həvalə etdiyi tapşırığı həyata keçirmək üçün ciddi-cəhdlə çalışsın. Sultan Türkiyəsinin Bayandurlar nəslini məhv etmək barədə Sara Xatuna və Uzun Həsənə daim qızışdırıcı xəbərlər versin. Bu xəbərlər isə ona ayrı-ayrı adamlar vasitəsilə Osmanlılar tərəfindən çatdırılacaqdı. Həm də ona göndərilən xəbərlər elə bir şəkildə deyiləcəkdi ki, onun mənasını ancaq özü başa düşəcəkdi. Yəni üzdə adi məlumatlar alt qatında tamam başqa mənaları bildirəcəkdi. Beləliklə, Roma nəhayət, bir gün Osmanlılarla Ağqoyunluların toqquşmasının nəticəsində törədilən qırğınlara, göylərə millənən alovlara baxıb həzz alacaqdı. Amma Qabrieli başqa məsələ də düşündürürdü. Axı, həmin Avropa onun rahat həyatını əlindən almış, insan kimi sakit, sevgi ilə yaşanan bir həyatı ona qıymamışdı. İndi belə olan halda Romanın idbar niyyətlərinin gerçəkləşməsi üçün niyə çalışmalı idi?

Hərçənd ki, bu öz vədindən imtina eləmək deməkdi. Romadan – Vatikandan başqa ölkələrə göndərilən baş missionerlərin gizlin-aşkar xəyanətləri Papanın həmişə dəhşətli qəzəbinə səbəb olardı. Hələ ayrılarkən, Qabriele Kondulmer sözarası ona xatırlatmışdı.

– Hə, Qabriel, indi gedirsən. Bax, sənin kimi özünlə aparmağına etiraz eləmədim.

– Doğrudur, mən Aqnesi seçdim. Siz də razılıq verdiniz.

– Bəli, bəli. Bir-birini tanıyan adamların yoldaşlığı yad adamlar arasında daha üstündür. Özü də hiss edirəm ki, sən Aqnesi istəyirsən.

Əslində, həmin gənc Aqnes deyildi. Onu Qabriel özü bu adla çağırırdı. Və əlbəttə ki, bu adın yaranışının da ayrıca bir tarixi vardı. Hələlik bu məsələ Qabrielin qəlbində üstüörtülü saxlanılırdı. Qabriele Kondulmer də – Papa da Aqnesin hərəkətlərində bir qədər qeyri-adilik görsə də, dərinliyinə varmamışdı. Amma o vaxt Qabriel bilməmişdi ki, Papa olan dostu Qabriele xəyalından keçirmişdi; artıq uzaq keçmişdə qalmış bir əhvalatı. Həmin əhvalatı hətta bir dəfə iki adaş bir yerdə söhbət edib, keçmişləri yada salanda, Papalıq tarixi haqqında məlumatları çözələyəndə xatırlamışdılar.

Qabriele Kondulmer Aqnesin hərəkətlərinə baxanda, bir daha Aqnessa əhvalatı sanki canlı olaraq gözlərinin qabağına gəlmişdi: «Elə çıxıb getsə, yaxşıdır. Bəlkə, elə bu bir vaxt Papessa İoannanın – Aqnessanın həyatını təkrar eləyər, nə bilmək olur». Əlbəttə, bu məsələni Qabriele Kondulmer heç açıb-ağartmadı da. Ancaq missiya ilə bağlı Qabrielə xəbərdarlıq etməyi də yaddan çıxarmadı.

– Hə, Qabriel, mən səni yaxşı tanıyıram. Gəncliyimiz, uşaqlığımız bir yerdə keçib.

– Bil ki, səndən ayrılmaq mənim üçün olduqca çətindir – Qabriel cavab vermişdi.

– Bilirəm, bilirəm. – Qabriele Kondulmer təsdiqlədi, sonra əlavə elədi: – Unutma ki, sən harada olsan, Vatikanı təmsil edirsən, Vatikanın tapşırığı sənin həyatından daha mühümdür. Sən o vaxt qalib kimi cənnət müjdəsi alacaqsan ki, Osmanlılarla Ağqoyunlular bir-birini al-qana qərq eləyəcəklər. Bir-birini gücdən salacaqlar. Biz türklərin güclənməyinə heç vaxt imkan verə bilmərik. Yəqin ki, Attila haqqında eşitmisən.

– Bəli, bəli eşitmişəm, – Qabriel təsdiqlədi – Böyük türk sərkərdəsi olub, Avropanı diz çökdürüb, Romanın sütunlarını laxladıb. Bütün Avropa sərkərdələri, ən qüdrətli Avropa cəngavərləri onun adını eşidəndə tir-tir əsirdilər.

– Doğrudur, yaxşı bilirsən. Biz istəmirik ki, təzədən bir qüdrətli türk dövləti Avropaya meydan oxusun. Hələ demirəm, belə gücdə olan iki türk dövləti olsa, onda gör, bizim vəziyyətimiz necə fəna olar. Ona görə də indilikdə əsas işimiz bu iki türk dövlətini bir-birinin üstünə salışdırmaqdı…

Bütün bunlar Qabrielin yaddaşında çözüldükcə, bir-birinə zidd olan düşüncələr onu iki tərəfdən atəşə tuturdu. Hələ Qabriele Kondulmerin axırıncı sözləri: «Bax a, sənə deyirəm, missiyanı yerinə yetirməkdən imtina edənlərin taleyi necə olur, bunu da gərək unutmayasan…» – deyə səsinin ahəngini qaldırmışdı.

Bundan sonra Qabriel ancaq başını silkələməklə Papanın dediklərini təsdiqlədi. Daha başqa heç nə demədi. Təkcə elə bu hədələyici tapşırıq bəs idi ki, Qabriel həyatının necə qurtaracağını düşünə bilsin. Düzdür o, təkcə öz taleyi üçün darıxmırdı. İlk sevgisindən ayrılandan sonra Aqnesi tapmışdı. Daha doğrusu, bu qızı Papessa İoannaya bənzətdiyi üçün bu adı ona vermişdi. Onlar razılığa gəlmişdilər ki, Aqnes həmişə kişi paltarında olsun. Onsuz da harasa uzaq bir yerə çıxıb getmək haqqında düşünürdülər. Və indi Şərqə səfər məsələsi araya gələndə, buna bərk sevindilər, çünki səfər üçün ölkələrarası əlaqələrlə təhlükəsizlik tədbirləri də görülmüş, ən başlıcası, yaşamaq üçün maddi təminat da almışdılar. Bütün bunlar Qabrieli bir an da olsun rahat buraxmırdı.

Sara Xatunun diqqətli nəzərləri onu nəinki üzbəüz gələndə, hətta təklikdə öz yatağında olanda belə izləyirdi. Aqneslə nə qədər gizlin olsa da, yaşadığı xoşbəxt həyatın asanlıqla qırılmağını istəməyən Qabriel əgər zərurət olarsa, hər şeyi Sara Xatuna açıq-aşkar deyəcəyini düşünürdü. Təki onların həyatı vaxtından əvvəl qırılmayaydı. Bu da o vaxt mümkün olardı ki, Qabriel öz səmimiyyəti ilə Sara Xatunu inandıraydı. Hər halda nəyi isə gizləyəcəyi təqdirdə Sara Xatunu asanlıqla inandırmağın mümkün olmayacağını da başa düşürdü.

Bütün bunlar onu hələ uzun müddət rahat buraxmayacaqdı. Və əslində, Qabrielin həyatı zəhərə dönəcəkdi. Çünki daim ifşa olunmaq qorxusu onu rahat buraxmırdı. Xüsusilə, Aqnesin qadın olduğundan şübhələnən Sara Xatunun məsələnin asanlıqla ayırd edəcəyindən hali idi. Qabriel Vatikanın qorxunc caynaqlarının uzaq türk torpaqlarına – Anadoluya yetə biləcəyini çətin hesab eləmirdi. Bu halda da onun həyatı təhlükədəydi. Yox, Aqnesi bu uzaq diyarda tək-tənha qoyub, ölümü seçə bilməzdi. Ona görə də bütün tərəddüdləri özündən kənara atmaq qərarına gəldi. Yanında uzanmış Aqnes əlini uzadıb onun saçlarını sığalladı.

– Sən hələ yatmamısan?

– Yox, hələ yatmamışam.

– Niyə?

– Çünki sənin necə yatmağına, yuxudakı gözəlliyinə tamaşa etmək mənə daha xoşdu.

Aqnes Qabrielin qucağına sığındı. Sanki uzaq ayrılıqdan sonra iki sevgili təzədən görüşürdü. İsti öpüşlər, məhəbbət dolu nəvazişlər, şirin xatirələr sel kimi axıb gəlməkdə idi. Qabriel Aqnesi elə hərarətlə qucaqlayırdı ki, o, özünü tənha və kimsəsiz hiss etməsin. Sevgilisinin timsalında necə qüdrətli bir insanın ona dayaq olduğunu, onu qoruduğunu düşünsün.

– Bu uzaq diyarda qorxmursan ki? – Qabriel soruşdu.

– Niyə qorxmalıyam ki?

– Axı burada bizim heç kimimiz yoxdur.

– Yox, elə düşünmürəm, sən mənim üçün indi bütün Avropanı əvəz eləyirsən, Qabriel.

Aqnes hərarətlə adını çəkdi və təzədən qadının məhəbbətinə öpüşlərlə cavab verdi.

– Bilmirəm, bəlkə düz eləmişik, gəlməkdə.

– Əlbəttə, düz eləmişik, Qabriel, çünki kilsə orada sənin evlənməyinə icazə verməyəcəkdi. Azad həyat yaşaya bilməyəcəkdik. Bax, elə bu səbəbdən də bizim gəlməyimiz yaxşı oldu. Hər hal-

da Osmanlıların arasından təhlükəsiz keçdik. Onlar bizdən də şübhələnmədilər. Vatikanın Osmanlılar arasındakı qərargahında da kimsənin ağlına heç nə gəlmədi. Əvəzində biz ikimiz də türklərin dilini az-çox öyrəndik.

– Doğru deyirsən, Aqnes. Mən görürəm ki, bu türklər doğma dillərində danışan əcnəbiləri çox sevirlər.

– Elədir, mən də elə düşünürəm. Bunlar dillərini bilən əcnəbilərlə tez ünsiyyət bağlayırlar.

Qabriel sevgilisinin dəqiq müşahidələrindən razı qaldı. Ona görə də bir növ Aqnesə xəbərdarlıq etmək, onu gələcək daha açıq mübarizəyə hazırlamaq üçün bir qədər düz danışmaq qərarına gəldi.

– Demək, biz bəzi məsələlərdə dürüst yol tutmamışıq.

Aqnes Qabrielin bu sözlərindən bir qədər təəccübləndi.

– Necə yəni biz düzgün yol tutmamışıq?

– Bəli, bəli, bu türkləri ki, mən görürəm, onlarla gərək tam səmimi olasan. – Qabriel sevgilisinə bəzi məsələləri açmaq qərarına gəlmişdi.

– Bəs biz necə olmalıyıq ki, onlar bizi düzgün anlasınlar.

– Heç nə, elə olduğumuz kimi.

– Bəs onda sən Vatikanın qəzəbinə gəlməzsən? – Aqnes soruşdu.

– Əlbəttə, gələrəm.

– Bəs qorxmursan?

– Bundan sonra qorxmaq bizə daha böyük fəlakət gətirər, – Qabriel cavab verdi.

– Qabriel, mən də qorxuram, daha doğrusu, sənin taleyindən. Bilirsən, bu Sara Xatun nə qədər mehriban və həlim olsa da, onun gözündən düşmək daha betərdi. Onun daxilində yatmış bir yırtıcı var, əgər qəzəblənərsə, o yırtıcı oyanar.

– Bax, elə buna görə də mən, nə varsa, hamısını Sara Xatuna danışmalı olacağam.

Doğrudur, Qabriel nə varsa, hamısını danışacağam deyəndə, bircə səfərinin məqsədini, tam açıqlamayacağını nəzərdə tutmurdu. Bu məsələ onu hələ də naharat eləyib, düşündürürdü. Bəlkə də Sara Xatunun münasibətindən sonra o, elə Vatikandan qorxmadan missiyanın məqsədini də açıqlaya bilərdi. Bu, hələ qalırdı Sara Xatunla onun söhbətlərinin necə olacağına. Əvvəla, o, Sara Xatuna Osmanlılar arasında yaşadığını, türk dilini danışmaq, başa düşmək qədərində bildiklərini etiraf edəcəkdi. Yalnız bunlardan sonra Sara Xatunun nə qərar qəbul edəcəyi hadisələrin gedişatına istiqamət verə bilərdi. Artıq hər ikisi sakit-sakit səhərin açılmağını gözləyirdilər. Qabriel ehtiyatı əldən verməmək üçün Aqnesə öz yerinə keçməyi bildirdi. Çünki bilirdi ki, fövqəladə hallarda həyəcan şeypurları vaxtı əsgərlər çadırlara izinsiz olaraq girir, xüsusi tapşırıqları çatdırırdılar.

Aqnes qaranlıqda Qabrielin gözlərini görməsə də, onun əllərinin təmasından elə xumarlanmışdı ki, heç yerindən qalxmaq istəmirdi. Belə hallarda o, daxilən öz Allahına qəzəblənirdi də. Ona rahat bir həyatı qismət etmədiyinə görə. Axı o, istəyirdi hər gecəni sevdiyi adamın qucağında olduğu kimi, səhəri də onun yanında açsın. Aqnes Qabrielin üzündə, boyun-boğazında gəzən əllərinin nəvazişindən nə qədər xumarlansa da, ayağa qalxmalı oldu. Yorğan-döşəkdəcə marça-març salıb ehtirasla kişisinin bədənini sığallayan əlini öpdü, sonra gözlərinin üstünə çəkdi. Qabriel əllərinin yaş olduğunu hiss elədi. Hətta Aqnes bu müvəqqəti ayrılıq anında da öz hisslərini göz yaşları ilə ifadə elədi.

«Daha neyləmək olar?» – Bu, onların qisməti idi. Bunu Aqnes düşündü. Hər kəs səhəri öz yerində açmaq üçün hücrəsinə çəkildi. Qabriel çadırın nisbətən aralana bilən tərəfindən havaya baxdı. Hələ göydə ulduzlar parlayırdı. Uşaq vaxtı öz kəndlərində qaçışan, bir-birini qovan həmyaşıdları yadına gəldi. Ulduzlar həmin uşaqlara çox bənzəyirdi.

Deyəsən, iki ulduz daha sıx topadan ayrılmışdı: «Bu elə Aqnes və mən olaram», – Qabriel çadırda yana-yana mızıldadı.

* * *

Anadoluya yaxın köylərin birində Osmanlıların nəzarətində olan balaca bir şəfaxana vardı. Çevik əfəndi də bu şəfaxanaya dərman bitkiləri toplayıb gətirirdi. Əslində, Çevik əfəndinin özü bu yerlərin adamı deyildi. Elə bu şəfaxanada «Çevik əfəndi» adı ilə dərman bitkiləri toplayan başqa bir şəxs də vardı. Yadelli bir qərib də gəlib bura çıxmış, elə bu şəfaxananın həyətində özünə sığınacaq tapmışdı. Neçə il idi ki, o, elə burada baş girləyir, şəfaxanaya dərman bitkiləri toplayan Çevik əfəndiyə kömək eləyirdi. Özləri də həmyaş olardılar. Şəfaxana sahibi onun əl-ayaq işlərinə əl yetirməyindən razı qalırdı. Əsl adı Nikol olan bu adam haradan gəlib çıxmışdı? Hansı millətə mənsub idi? Hansı ölkədə böyümüşdü? – bunu bilən və bununla maraqlanan yox idi. Nikol bu yerlərin adamlarının halını, adlarını tez mənimsəmişdi. Amma sonra iş elə gətirdi ki, Nikolun kömək elədiyi Çevik əfəndi qəflətən dünyasını dəyişdi. Xeyirxah müalici əvəzləyən Nikol Çevik əfəndidən öyrəndiklərini əməlinə çevirdi. O, həqiqətən təbiətdən baş çıxarmış, məlhəm bitkiləri yaxşıca öyrənmişdi. Ən başlıcası, bu yerlərin adamlarının dilini tam mənimsəmişdi. Hərdən də təkliyə düşəndə elə Çevik əfəndinin özü kimi, sanki ləhcəsiylə oxuyurmuş kimi gözünü yumub səsini qaldırırdı. Kənardan eşidənlər deyirdilər ki, elə bil mərhum, Çevik əfəndidir, dirilib qayıdıb.

Daha heç kim onu Nikol deyə çağırmırdı. Elə adına Çevik əfəndi deyirdilər. Bir gün dərman bitkiləri yığmaq adı ilə Çevik əfəndi harasa yola çıxdı.

Nikol – Çevik əfəndi Ağqoyunluların məskunlaşdığı əraziyə yaxınlaşanda onu saxlayıb sorğu-suala tutdular. Ha çək-çevir etdilərsə, artıq bir söz almaq mümkün olmadı. Hansı köydən

gəldiyini, şəfaxana üçün dərman bitkiləri topladığını deyib durmuşdu. Kimsəyə bir zərər vermək qəsdinin olmadığını düşünüb onu azad buraxdılar. Bir neçə gün əvvəl Osmanlıların içindən gələn adamlar Nikola xəbər çatdırmışdılar. İsmarıc isə uzaqdan gəlmişdi, Vatikanın özündən – Papanın sarayından. Qabriele Kondulmer Qabriel və Aqnesdən xəbərsiz olduğuna görə tapşırığı ciddiləşdirmiş, onun harada itib-batdığını, baş gizlədiyini bilmək istəmişdi. Osmanlıların içərisinə göndərdiyi missionerlər Sultana Vatikandan salam gətirdiklərini demiş, Papanın onun haqq işinə tərəfdar olduğunu çatdırmışdılar. Sultan da bundan xeyli məmnun olmuşdu. Hələ üstəlik, Papanın yanından təşrif gətirənlər Sultan Mehmedə onu da çatdırmışdılar ki, əgər Ağqoyunlularla savaşı olsa, Roma hər cəhətdən sultana kömək etməyə hazırdır. Bunlar Sultan Mehmedin sarayında cərəyan edən əhvalatlar idi. İkibaşlı oyun sakit gedirdi. Papa istəyirdi ki, belə bir arxayınlıq və məmnunluq Ağqoyunluların da qərargahında olsun. Qoy Ağqoyunlular da elə düşünsünlər ki, Roma bütün gücü ilə onlara yardımçıdırlar. Lap lazım gəlsə, qoşunu silah və atla, ərzaqla təmin etmək üçün Ağqoyunlular Papanın təmənnasız yardımına da bel bağlaya bilərlər. Təki Ağqoyunlular Osmanlıların güclənməsinin qarşısını alsınlar. Həm də Papa demişdi ki, hansı yolla olursa-olsun, Ağqoyunluların qərargahına onun adamları çatdırsın ki, Osmanlılar Ağqoyunlu adı ilə güclənməkdə olan bir dövləti görmək istəmir. Elə bu səbəbdən gələcək Avropa üçün də təhlükə ola bilər. Necə ki, Ağqoyunlular üçün elə bu günün özündə Osmanlılar təhlükə mənbəyidirlər. Təhlükələri nəzərə almayanda gələcəyin böyük bəlasına çevrilir. Qoy bunları Uzun Həsən və onun baş məsləhətçisi Sara Xatun yaxşı-yaxşı bilsin. Bəli, Nikolun da gəlişində məqsəd Ağqoyunluların qərargahına gəlib Qabrieli tapmaq, tapşırığın necə yerinə yetirib-yetirilmədiyini öyrənmək idi…

* * *

Nikol Qabriele Kondulmerin yanından, indi onun üçün çox uzaqlarda qalmış Vatikandan xeyli müddət əvvəl çıxmışdı. Bütün Avropanı dolana-dolana gəlib Kiçik Asiyaya çatmış, ərazinin şəhərlərində də bir müddət baş sındırdıqdan sonra bir gün müsəlman ruhanilərin qəzəbinə tuş gəlmişdi. O, İsanı bütləşdirmək, insanların çıxış yolunun da bu həqiqətə gəlməkdə olduğunu ağzından qaçırmışdı. Doğrudur, danışığında, söhbətlərində İslam Peyğəmbərinin də böyüklüyündən söhbət açırdı. Və İslam Peyğəmbərinin İsanı özündən əvvəlki peyğəmbər kimi tanıdığını da gizlətmirdi.

Nikol ehtiyatlı adam idi. Bilirdi ki, əgər İslam Peyğəmbərinin ünvanına bir ehtiyatsız söz işlətmiş olsa, onu daş-qalaq eləyərlər. Onu kafir adlandırar, qanını da halal bilərdilər. Kiçik Asiyanın müsəlman şəhərlərini gəzib-dolanan Nikol bütün bunları öyrənmişdi. Hələ deyəsən, get-gedə İsanı da yaddan çıxarmaqda idi. İslamın gücünün, qüdrətinin daha böyük olduğunu deməklə, müsəlmanlar arasında rəğbət qazanmaq onun üçün daha üstün idi. Beləliklə, bir daha müsəlmanların qəzəbinə tuş gəlməmək üçün heç vaxt ehtiyatı əldən vermirdi. Ancaq Nikolun varlığına hakim olan qorxu daha təhlükəliydi. Bu, Qabriele Kondulmerin qorxusu idi. Nikol hələ özü Vatikandan ayrılıb bu yerlərə gəlməzdən əvvəl Qabriele Kondulmerin bu yerlərə göndərdiyi adamların arxasınca cəza adamları ayırdığını və onlara necə sərt tapşırıqlar verdiyini gözlərilə görmüş, qulaqlarıyla eşitmişdi. Əslində, Papa gələcəkdə səfərə yollayacağı adamların yanlarında belə tapşırıqlar verməklə, onların daxilində qara-qorxu, xof yaradırdı. Yəni hər biriniz yadınızda saxlayın ki, bir gün mənim qəzəbimə beləcə tuş gələ bilərsiniz. Papanın tapşırığını yerinə yetirməyən adamların aqibəti uzaq ölkələrdə səssiz-səmirsiz ölüm-itimlə yekunlaşırdı…

* * *

…Qabriel neçə vaxt idi ki, Sara Xatunun gözünə görünmədən öz çadırının əhatəsində dolanırdı. Arabir havanın yaxşı olmağın--dan istifadə edib, Aqneslə birlikdə dağ ətəklərini, vadiləri də gəzməyə çıxır, eyş-işrətindən qalmırdı. Dumduru göz yaşı kimi axan bulaq sularından üzünə vurur, tənhalıqdan istifadə edib, ovuclayıb Aqnesin üstünə atıb əylənirdi. Bu sakitlik və tənhalıq içində həyatlarının xoşbəxt çağlarını yaşayırdılar. Bulaqdan axan suların kənarında bitən ətirli yarpızları dərib iyləyir, türklərin dovğa adlandırdıqları yeməkdə bişirilən yarpızın xoş rayihəsini ciyərlərinə çəkdikcə, özünü bütün dünyanın dərd və ağrılarından uzaq hesab eləyirdi. Avropanın təbii çöllərində bitən dərman bitkilərindən bu yerlərdə daha çox olduğunu görüb, təəccüblənsə də, türklərin necə bu dərman bitkilərindən istifadə etdiklərini görür və düşünürdü ki, bu adamların sağlamlığının bir səbəbi də elə bu gözəl təbiətdir. Yerli camaatın kəklikotu adlandırdıqları bitkinin çiçəklərindən toplayır, özü ilə götürdüyü torbaya doldurur, uzun xalatının ciblərinə yığırdı. Qaynadılmış suya bu otların atılması, həmin suyun rənginin dəyişməsi, qoxusunun ətrafa yayılması Qabriel üçün qəribə mənzərəydi. Əlbəttə, bütün bunların hamısından Aqneslə birgə yararlanırdı. Bir cam kəklikotu dəmləməsinin suyunu şirin xurma ilə içmək ləzzətli idi. Belə anlarda Qabrielin xəyalından keçirdi ki, əgər insanlar müharibə eləməsələr, sakitcə təbiətə sığınaraq yaşasalar, onların heç bir dərdi-səri, ağrısı olmaz. Nəinki qonşu xalqlar biri digəriylə yola getmir, hətta uzaq diyardan da, yad ölkələrdən də həyatlarına müdaxilə edənlər tapılır. Onların rahatlığını çox görürlər, istəyirlər ki, əmin-amanlığı, firavanlığı pozsunlar didib-dağıtsınlar. Elə Qabriele Kondulmerin tapşırığı da bu mənfur məqsədə xidmət etmirdimi? Qabriel bu mənfur tapşırığın icraçısı olmayacaqdı. Çünki o, təbiətin gözəlliyilə burada yaşayan insanların daxili aləmləri arasında bir oxşarlıq görürdü. Çox istəyirdi, bu oxşarlığın yaratdığı harmoniya, gözəllik dağılmasın. Ən başlıcası, onun əlilə müdaxilə olunmasın, xələl gəlməsin.

Qabriel günləri bir-birinin arxasınca yola verirdi. Sara Xatunla görüşməyə tələsmirdi. Yenə bir gecə Aqnes daxili narahatlığını görüb ona yaxınlaşdı. O, həmişəki adəti üzrə gecənin qaranlığında gözlərilə görmədiyi sevgilisinin üz-gözünü sığalladı. Həmişəki adətləri üzrə pıçıltıyla ona astaca dedi:

– Sən nə üçün Sara Xatunla görüşmək istəmirsən? Bəlkə tərəddüd eləyirsən, fikrindən daşınmısan?

– Yox, yox, heç bir tərəddüd eləmirəm, fikrimdən də daşınmıram.

– Bəs onda niyə gecikirsən?

– Doğrusu, mən bunların adətini görürəm. Hökmdarlar çağırmayana qədər təbəələr onları narahat eləmirlər.

– Bəs vacib olan bir məsələ varsa, necə?

– Hə, bu, başqa. Baxır məsələnin vacibliyinə, mahiyyətinə.

– Mənə elə gəlir ki, bizim məsələmiz təkcə bizim həyatımız üçün vacib deyil, elə Sara Xatunun özü üçün də mühüm ola bilər, – Aqnes qətiyyətlə dedi.

– Hə, həqiqətən, sən bunu doğru deyirsən. – Qabriel razılaşdı.

– Bəs onda daha nə üçün gecikəsən?

– Mən sənin heç bu qədər ağıllı olduğunu bilməzdim, Aqnes.

Aqnes Qabrielin onun adını çəkən dodaqlarından öpüb, əllərilə onu silkələdi:

– Bax, səndən inciyərəm.

– Yox, yox, incimə. Bunu zarafatyana dedim. Əslində, ləngəm, sən məni qətiyyətli addım atmağa təhrik eləyirsən.

– Bundan sonra ləngimək bizə çox pis ziyan vura bilər – Aqnes əlini Qabrielin dodaqlarının üstünə qoydu, yəni ki, daha bu haqda danışma.

Beləcə, onlar vüsal dadında daha bir xoşbəxt gecəni yola salacaqdılar…

* * *

Nikol – Çevik əfəndi ordugahın ətrafında dolanır, baş sındırırdı. Ancaq elə fərasətsiz deyildi. Xəstələnənə, nə vaxtsa döyüşdə yaralanıb yarası sağalmayana həmişə qoltuğunda gəzdirdiyi kisəsində saxladığı otlardan məlhəm düzəldib yardım göstərirdi. Adamlarla tez dil tapıb ünsiyyət bağlamışdı. Bir balaca başı ağrıyan üçün də «Çevik əfəndini tapın, onun elə şirin dili sağaldar», – deyirdilər. Beləcə, Çevik əfəndi ordugah ətrafındakı adamların hamısını nəzərdən keçirir, Qabrieli axtarırdı. Axır ki, onlar qarşılaşdılar. Əvvəla, Qabrielin kim olduğunu ordugahda demək olar ki, hamı bilirdi. Və Çevik əfəndi də tezcə öyrəndi ki, ordugah ətrafında uzaq Avropadan gəlmiş iki nəfər var. Və onlar Sara Xatunun qonaqlarıdır. Özü də burada hörmət-izzət sahibidirlər. Nikol – Çevik əfəndi o saatca bildi ki, bəli, ünvanı tapıb. Qabriel əvvəlcə Nikola heç əhəmiyyət vermək istəmədi. Uzaq Avropada, Papanın ətrafında gördüyü adamdan demək olar, indi bunda əsər-əlamət qalmamışdı. O, nəinki dili-danışığı ilə bu yerlərin adamlarından seçilmirdi, hətta zahiri görkəminə görə də bu yerlərin adamlarına tam uyğunlaşmışdı.

Nikol – Çevik əfəndi araya qatıb «sənə xeyirxah adamlardan salam var», – dedi. Qabriel o saatca bu sözün nə demək olduğunu anladı. Əgər «xeyirxah adamlar» sözünün ucundan yapışıb bunun nə demək olduğunu soruşsaydılar, Nikol elə həmin andaca vəziyyətdən çıxacaqdı. İzah edəcəkdi ki, onun niyyəti xeyirxahlıqdır. Ata-babalarının şəfa ocağı, xeyirxahlıq ocağı var. Ona görə də öz adından salam verəndə o, vərdiş elədiyi ata-babadan qalma sözü həmişə birinci işlədir. Ancaq Qabriel o saat anladı ki, bəli, bu, Papanın gizli sifarişidir – Papanın göndərdiyi adamın dilindən çıxan sifarişi. Hə, indi Qabrielin cavab vermək vaxtı gəlib çatmışdı:

– Xeyirxah adamların salamı bizim üçün işıqdır, – Qabriel astadan dilləndi.

Nikol – Çevik əfəndi arxayınlaşdı. Bildi ki, Qabriel arifcəsinə kimliyini başa düşüb.

…Qabrielin daxili aləmində bir qəzəb baş qaldırmışdı. O, çox yaxşı bilirdi ki, Avropa bütövlükdə Roma papasının nəzarəti altındadır. Vatikan Avropa ölkələrini sakit yaşamağa qoymur. Birini qızışdırıb digərinin üstünə salırdı. Vatikan bütöv bir şeytanlıq qurğusu yaratmışdı. İndi Qabrielə çoxdan bildiyi bir həqiqət təzədən açıq-aşkar görünməkdəydi. Yəni həmin şeytanlıq qurğusu özünün fitnə-fəsad torunu uzaq türk ellərinə qədər hörüb çatdırmışdı. Əgər bu fitnə-fəsad şəbəkəsinin necə, kim tərəfindən qurulduğunu anlamasalar, Osmanlı Sultanlığı ilə Ağqoyunlu türkləri arasında qanlı qırğın başlanacaqdı. Əlbəttə, ola bilsin ki, bunlar böyük şeytanın fırıldağına aldanmasınlar. Özləri dərk eləsinlər ki, Papanın bütün şirin vədləri tərəfləri şirnikdirib, qızışdırıb bir-birinin üstünə qaldırmaqdı.

* * *

…Bəzən tarix yazmağın sürəti tarixin özündən geri qalır. Tarix elə sürətlə irəliləyir ki, nəsillər onun necə keçib getdiyini bilmir. Uzun Həsənin Qaraqoyunlu şahını məğlub etməsindən və nəhəng bir ərazinin hökmdarı olmasından artıq kifayət qədər vaxt ötmüşdü. Arazdan Bağdadacan bütün əraziləri birləşdirməyə nail olmuş Uzun Həsən qələbələrinin səbəblərini, gücünün qaynaqlarını bilirdi.

Əvvəla, bu ərazilərin əhalisi pərakəndə halda ayrı-ayrı kiçik bəyliklərin əlində idi. Bəyliklər müxtəlif iddialardan yola getmir, uzun-uzadı çəkişmələr nəticəsində ara müharibələri səngimirdi. Cana doymuş əhali güclü bir hakimiyyət istəyindəydi. Və onların dolanışığına, güzəranına zərbə olan bu pərakəndəlikdən can qurtarmaq üçün artıq güclənməkdə olan Ağqoyunlulara sonsuz ümidlər bəsləyir. Hər tərəfdə Ağqoyunluların xoş sədasını yayan xəbərlər əvvəlcə əlçatmaz görünən ümidləri artıq inama çevirmişdi. Elə bu səbəbdən Qaraqoyunluların ərazilərini Amid bəyliyindən sonra Anadolu, Diyarbəkir tərəfləri də nəzarətinə

almış, Ağqoyunlu Uzun Həsənin hakimiyyətini əhali Allahın qisməti kimi qəbul etmişdi.

Vaxt ötdükcə Sara Xatun da öz növbəsində oğlunun hakimiyyətini xarici təcavüzlərdən qorumaq üçün ciddi-cəhdlə tədbirlər tökür, qoşunu bərpa etmək, hərbi qüvvələri vahid birliyə gətirmək üçün yollar arayırdı. O, vahid Bayandurlar nəslinin hakimiyyət uğurunu təmin etmək üçün birinci növbədə əhalinin rəğbətini qazanmaq, Ağqoyunluların əhalinin yeganə xilaskarı olduğuna insanları inandırmaq istəyirdi. Bunun üçün, nisbətən vergiləri yüngülləşdirmək, təsərrüfatı canlandırmaq üçün rəncbərlərə kömək etməyin vacibliyini oğlu Uzun Həsənə də anlatmışdı. Kimsəyə sirr deyildi ki, ordunu yenidən qurmaq üçün vaxt lazım olacaqdı. Vaxt isə Ağqoyunlulara nə qədər lazım idisə və bu vaxt Ağqoyunluların xeyrinə işləyirdisə, əksinə Ağqoyunluları artıq təcavüzlə hədələməkdə olan qüvvələrə bu zaman gərək deyildi. Onlar müvafiq şərait və imkan axtarırdılar. Orası da məlum idi ki, nə II Sultan Mehmed, nə də Teymuri Əbu Səid qüvvələri hələ ki, birləşdirmək haqqında düşünmürdülər. Əbu Səid Ağqoyunluları hələ gücsüz hesab eləsə də, ərazinin böyüklüyü onu düşünməyə vadar edirdi. Buna görə də Şirvanşahlarla əlaqə yaratmaq, onların qüvvəsindən yararlanmaq fikrindən daşınmırdı. Əslində, Teymurilərin qədim dostu olan Şirvanşahlara Əbu Səidin münasibəti elə də sağlam deyildi. O, hələ gənc və təzə-təzə çiçəklənməkdə olan Ağqoyunluları məğlub edib, ərazilərini ələ keçirəndən sonra, Şirvanşahlarla ayrıca danışmaq fikrindəydi. Əbu Səidin düşüncəsində bu danışıq məsələsi yalnız hərbi qüvvə ilə həll oluna bilərdi. Yəni Əbu Səid kifayət qədər böyük əraziyə, hərbi qüvvəyə sahib olandan sonra Şirvanşahları asanlıqla məğlub edib, Arazın Şimal ərazilərinə də sahiblənmək fikrindəydi. Özü üçün xəyallar qururdu. Tarixi yaddaşında vərəqləyib düşünürdü ki, heç özü hərbi səfərə çıxmaz, ayrı-ayrı hərbi qüvvələri təşkil edib, Arazın o üzünə göndərər. Vaxtilə əmir Teymurun dağıtdığı

şəhərlərə təzədən sahiblənərdi. Qarabağın dağlıq səfalı yerlərini, düzlərində bəslənən Qarabağ atlarını öz süvariləri üçün qənimət kimi ələ keçirərdi. Qədim Şirvanın xəzinəsi də ona gələcək planlarını həyata keçirmək naminə vacib olacaqdı. Hərdən Əbu Səid xəyallarına güc verir, bu xəyalların və qırmızı şərabın təsirindən gülürdü: «Hələ bir qoy bu Uzun Həsəni – anasının qucağından təzəcə ayrılmış bu uşağı bələyə büküm, o dünyaya göndərim, ondan sonra qalanlarına baxaram».

Bütün bunları bir tərəfi Osmanlı sultanlığı, digər tərəfi də Qərbi Azərbaycan ərazilərindən Qarabağa, Şirvanacan, eləcə də, Herat, Bağdad ərazilərinəcən səpələnmiş, Sara Xatunun gizli şəbəkəsini təmsil edən adamlar öyrənir. Bir-birinin arxasınca Sara Xatunu məlumatlarla təmin edirdilər. Sara Xatun bütün bunları sadəcə dəyərsiz məlumat kimi dinləmirdi. Bu xəbərləri tutuşdurur, hansının nə dərəcədə səhih olduğunun fərqinə varırdı. Kim hansı sözü gətirir, xəbər kimin haqqında hansı məlumatı verir… Bütün bunlar Sara Xatunun düşüncəsində çözələnir, nəhayət, onun aydın qənaətlərini yaradırdı.

Sara Xatunun xəyalı xeyli keçmişə qayıtdı. Qara Yuluq Osmanın ömrünün son anlarını gözlərinin önünə gətirdi. Qüvvəsi az olsa da, sədaqətli və igid döyüşçüləri, dərin ağlı, zəkası, hərbi istedadı sayəsində Qazinin saysız-hesabsız qoşunlarını necə məğlub etdiyini və nəhayət, güclü bir bəylik yaratdığını təfəkküründə canlandırdı. Bəli, bütün bunlar olmuşdu, əfsanə, nağıl deyildi, həqiqətdi. Və olub keçmişdi. İndi həmin bəyliyin əsasında Sara Xatun Ağqoyunluların necə uğurlu bir tarix yolu başladığını görürdü. Hər halda, Sara Xatunun o da diqqətindən kənarda deyildi ki, Osmanlılar sürətlə silahlanmaqdadı, ordularını gücləndirməkdə israrlıdırlar. O, oğlu Uzun Həsənə bir məsələni də yaxşıca başa salmışdı. Osmanlılar da, Ağqoyunlular da ruh etibarilə birgədirlər, qardaşdırlar, ancaq pis orasıdır ki, bədxah qonşular, hətta uzaq ölkələrin hökmranları iki qardaş dövlətin güclənməyini istəmirlər. Beləcə,

Sara Xatun Papanın bədxah niyyətinin əsas mahiyyətini Uzun Həsənə yetərincə anlatmışdı.

Xəyal yenə Sara Xatunu xeyli əvvələ qaytardı.

…Səhər divanında Uzun Həsən özü olacaqdı. Bu gün anası Uzun Həsənin işlərinə qarışmaq fikrində deyildi: «Qoy özü sərbəst hərəkət eləsin. Nə tədbir görəcəksə, özü görsün». Bununla Sara Xatun Uzun Həsənə elə mənəvi mühit yaratmaq istəyirdi ki, hər hansı bir gözlənilməz şəraitdə oğlu vəziyyətdən sərbəst baş çıxara bilsin. Ancaq bu gün üçün Sara Xatunun öz planları da vardı. O, Qabrieli yanına çağırmaq, onunla danışmaq istəyirdi. Hələ bir başqa adam da peyda olmuşdu ordugahda. Onu hamı Çevik əfəndi adlandırırdı. Özünün də yaxşı təbibliyi vardı, əli sayalı idi. Amma həkim Çevik əfəndinin Qabriellə isti münasibətinin olması da Sara Xatunun diqqətindən qaçmamışdı.

Gündəlikdə olan bəzi məsələləri həll etmək üçün Sara Xatun özünün divan yerində əyləşdi. Ölkənin vəziyyəti, adamların dolanışığı ilə bağlı çağırdığı ayrı-ayrı şəxsləri danışdırdı. Harada quraqlıq olduğunu, ərazinin hansı tərəfindən adamların nədən korluq çəkdiyini, hər yerin müvafiq səlahiyyət sahibindən soruşub öyrəndi. Müvafiq məsləhətlər və tapşırıqlar verdi. Axırda din xadimlərini də unutmadı. Onların da göstərdikləri ağıllı xidmət sayəsində yaxın gələcəkdə vəqflər alacaqlarını bəyan etdi. Axır ki, bütün bunların hamısından sonra xidmətçilərə Qabrieli günortadan sonra onun yanına gətirməyi tapşırdı.

…Qabrielə bu xəbər çatanda bir qədər həyəcanlansa da, əslində, Sara Xatunla görüşə biləcəyini düşünüb sevindi də. Onsuz da Qabriel Sara Xatunla görüşü çoxdan gözləyirdi. Demək olar, Qabriel bütün tərəddüdlərdən yaxasını qurtarmışdı. Ancaq onun üçün çətin olan bir məsələ hələ də qalırdı. Qabriel düşünürdü: «Cəhənnəm olsun Papa da, lap elə Romanın özü də! Əslində, elə Papanın yaratdığı o mühitdən, Romadakı ixtilaflardan canımı qurtarıb bu uzaq diyara pənah gətirmişəm. Aqnes də mənimlədi.

İndi bu uzaq məmləkətdə bu yaxşı adamların himayəsində yaşayırıq, kimsə bizə toxunmur. Hələ onların dinlərini də, dillərini də yaxşıca öyrənmişəm. Heç müsəlmanların dinləri bizimkindən geri qalan deyil. Bir çox məsələlərdə müsəlmanların dinləri insanın haqlarını daha yaxşı qoruyur. Belə olan halda mən nə üçün mütərəqqi islamı qəbul etməyim? Bir halda ki, bu din iki kimsəsiz şəxsi beləcə qoruyur və mühafizə edir, onda elə bu dinin özünə güvənməyim daha yaxşı olar».

Ancaq başqa məsələ onu daha ciddi narahat edirdi. Əgər Nikol – Çevik əfəndi ilə bağlı əlaqələrini Sara Xatuna açıqlamasa və nə vaxtsa bu barədə bir balaca xəbər sızsa, onda Ağqoyunluların divan adamlarının əlindən heç cür yaxasını qurtara bilməyəcəkdi. Əslində, o, hər şeyi olduğu kimi Sara Xatuna danışmaq istəyirdi, sadəcə, Çevik əfəndini də ələ vermək onun üçün çətin idi. Çevik əfəndinin özünü necə aparacağı müəmmalıydı. Çevik əfəndinin də Qabrieldən başqa kimlərlə əlaqəsinin olub-olmadığı bəlli deyildi. Bax, bu məsələlər Qabrieli düşündürür, beynini dağıdır, ağlını-huşunu aparırdı. O, əvvəlcə Aqneslə məsləhətləşib Nikolu – Çevik əfəndini çağırıb ona hər şeyi etiraf etmək istədi.

– Necə bilirsən, Aqnes, bəlkə, mən Nikolun özünə bəri başdan deyim ki, o da Sara Xatunun yanına getsin. Kimliyini etiraf eləsin.

Aqnes Qabrielə birbaşa cavab vermədi, xeyli fikrə getdi. Əvvəlcə ürəyində Nikolun bu yerlərə gəlib çıxmasına lənətlər yağdırdı. Ancaq təkcə lənətlə işin bitmədiyini düşünüb, Qabrielə də qaneedici bir cavab vermək istədi:

– Qabriel, biz dünyanın heç yerində tapa bilmədiyimiz rahatlığı burada gəlib tapmışıq, bir səhv hərəkət hər şeyi dağıdar. Eləcə də, öz həyatımızı da təhlükə altında qoyarıq.

– Əgər biz Sara Xatuna hər şeyi deməsək, o, özü nəyisə öyrənə bilsə, onda bizim üçün daha ağır olar.

– Elə ona görə də sən hər şeyi Sara Xatuna olduğu kimi de.

Aqnes qətiyyətlə dilləndi:
– Bəli, mən də elə düşünürəm. Hər şeyi olduğu kimi söyləmək, amma bir məsələ var – Qabriel sözünün gerisini gətirmədi.
– Hansı məsələni deyirsən, nəyi?
– Bəs Nikolun taleyi necə olsun?
Aqnes söz tapmadı. Çarəsizliklə pıçıldadı:
– Hımm…
Onda Qabriel öz qənaətini Aqneslə bir az da açıq bölüşdü:
– Belədir, Aqnes, müsəlmanların dinində özgəsinin həyatına təhlükə yaratmaq günahdır. Mən də Papanın məqsədini Sara Xatuna tam açıqlayaram, ancaq Nikol haqqında da bildiklərimi deyərəm.
Aqnes:
– Bəs onda Nikolun taleyi necə olacaq?
Qabriel:
– Mən Sara Xatuna hər şeyi səmimi şəkildə açıb danışandan sonra Sara Xatundan xahiş edərəm ki, Nikolu divan ayağına çəkməsin.
Aqnes:
– Verməzmi? O, Nikolun əsl niyyətini öyrənəndən sonra, edamına göstəriş verməzmi?
– İnanmıram, qadınların ürəyi yumşaq olur, – Qabriel qətiyyətlə öz inamını ifadə etdi. Sonra da Aqnesin əlindən tutub yaxına çəkdi, üz-gözünü, başını sığalladı. Bu məhrəm hərəkətlərilə onun narahatlığını götürmyə çalışdı. Sonra da asta-asta dilləndi:
– Mən Sara Xatuna deyərəm ki, Nikol yaxşı həkimdi. Onun orduda döyüş zamanı çox böyük xidmətləri olar. Sara Xatun da eləbelə adam deyil, yaxşı bilir ki, hərdən epidemiyaların yayılması orduya necə ciddi ziyan vurur. Əgər Nikolun bu bacarığına Sara Xatunu inandıra bilsəm, Nikol özü də burada qalıb səmimiyyətlə xidmət göstərmək istədiyini bildirsə, düşünürəm ki, həyatını xilas etmiş olar.

Aqnes ömür-gün sirdaşının bu qədər düşüncəli və ağıllı olduğunu sanki indi görürdü. Sevgi dolu valehedici nəzərlərlə, bitib-tükənməyən xoş duyğularla onu süzürdü. İndi Qabriel onun qarşısında İsanın özü qədər müqəddəs bir varlıq kimi dayanmışdı.

Doğrudan-doğruya Qabriel aydın baxışları ilə təkcə Aqnesə yox, bu təbiətə, arasında yaşadığı insanlara, bəlkə də bütün dünyaya bəyan edirdi: «Ey insanlar, mən sizə pənah gətirmişəm. Mən sizinlə doğma olmaq, yaxın olmaq, sizinlə qovuşmaq istəyi ilə bura gəlib çıxmışam. Bəlkə də dünyanın heç yerindən tapa bilməzdim öz istəklərimi. Ancaq aranızda təkcə özümə yox, sevgimə və eləcə də bütün ləyaqətli insanlara sonsuz hörmət və ehtiram tapmışam. Özü də mən görürəm; siz təkcə müsəlman dininə, İslam qaydalarına tabe olan adamlara yox, hər kəsə sevgi dolu münasibət bəsləyirsiniz. Ona görə, mən sizə arxa çevirə bilmərəm. Mən sizinlə birgə bu dünyanın axırınacan yol getməyə hazıram».

Bu vaxt Sara Xatunun adamları gəlib Qabrieli apardılar.

* * *

Qabrieli Sara Xatunun hüzuruna gətirəndə gün günortanı keçmişdi. Onu bir tərəfdə saxladılar. Birazdan – günorta namazından sonra, nahardan qayıdan divan adamları Sara Xatunun iqamətgahı ətrafında öz yerlərini tutmağa tələsirdi. Qabrielin diqqətindən o da yayınmadı ki, deyəsən, bu gün Uzun Həsən bu ətrafda yoxdur. Əslində, elə Qabriel bunu diləyirdi. İstəyirdi ki, Sara Xatunla söhbətinin başqa bir şahidi olmasın. Axı, o, üstəlik, hökmdarın qəzəbli baxışları altında özünün itirə biləcəyindən də ehtiyatlanırdı. Doğrudur, hərdən qorxuqarışıq həyəcanların qoynunda vurnuxan Qabriel Romaya da, onun əzəmətli sütunlarına da lənətlər yağdırırdı. Ancaq tez də belə qərara gəlirdi ki, nə qədər uzaq və qürbət olsa da, bu yerlər onun üçün Romadan daha təhlükəsiz, daha yaxşıdır. Çünki bir vaxt Aqnesin monastırda –

kişilər arasında qadın olduğu üzə çıxsaydı, nəinki, təkcə Aqnesi elə onun özünü də daş-qalaq edər, ölümü labüd həllini tapardı. Bir də ki, bu yerlərə səfəri əslində, onun özü istəmişdi. Kilsənin rəhmsiz qəzəbinə gəlmək təhlükəsindən qurtarmaq üçün. İndi bu yerin insanlarında bir mürvət də, insaf da görürdü. Üstəlik, onun özünün də Aqnesin, də İslama sevgisini hiss edən müsəlman dindarları onlara hər yerdə hörmətlə yanaşırdılar. Hələ Sara Xatunun qonaqları olduqlarını hər kəs bilirdisə, rəğbət birəbeş artırdı. Bircə niyyət məsələsi onu narahat edir, yuxusunu ərşə çəkirdi. O, gələcək Romanın sütunlarının sarsılmaması naminə bu uzaq yerlərdə çalışmalı, hakimlərin ağlına, düşüncəsinə yeritməli idi ki, guya Vatikan onlara hər cür kömək etməyə hazırdı, təki əsas təhlükə mənbəyi olan Osmanlılar güclənməsin. Onsuz da bu düşüncələr aylardan bəri idi ki, onun varlığını didir, beynini yeyirdi. Axır ki, Qabriel bütün tərəddüdlərdən yaxa qurtarmaq, nə varsa, onların hamısını Sara Xatuna daha aydın başa salmaq qərarına gəldi. Lap bundan sonra ölüm də olsaydı, bu qətiyyətindən geri dönmək fikrində deyildi. Xəyalında dolandırdı: «Müsəlmanlar belə yerdə yaxşı deyirlər: Xeyirə xeyir, şərə şər».

Bu vaxt mühafizlərdən biri ona yaxınlaşdı:

– Hörmətli qonaq, analar anası, məmləkətimizin dayağı, Bayandurlar nəslinin başbiləni Sara Xatun sizi gözləyir.

Qabriel içəri girdi. Yuxarı başda möhtəşəm taxt üstündə Sara Xatun əyləşmişdi. Bahalı, zərzibalı paltarlar, hündür boy-buxun onu daha da əzəmətli göstərirdi. Tanrının qələmi ilə çəkilmiş parlaq üz görkəmi, nurlu gözləri ətrafa işıq saçırdı. Qabriel çox irəli getmədi. Bir-iki addım atıb iki əlini sinəsində qoşaladı, lap elə bu yerlərin adamları kimi. Hörmətlə baş əyib, təzim elədi. Sara Xatun əlilə onu bir az yaxına dəvət etdi. Qabriel yaxınlaşıb dilləndi:

– Salaməleyküm, aləmlərin anası.

Onun şirin, bir qədər də yad ləhcə ilə salamı Sara Xatuna xoş gəldi. Üzünə nurlu təbəssüm qondu:

– Əleyküm salam, hörmətli qonaq.

Qabriel həyəcanlansa da, özünü toparladı. Bir az başını qaldırıb baxanda, Sara Xatunun üzündəki təbəssümü gördüyündən həyəcanı ötdü. Cəsarətə gəlib yenə dilləndi:

– Aləmlərin anası bizim də anamızdır, – dedi. Sonra əlavə elədi: – Padşahın başbiləni ilə görüş məni sevindirir. İndi özümü bu dünyada çox xoşbəxt bilirəm.

– Bilmək istədim ki, qonağımızın əhvalı necədir? Onun nəyəsə ehtiyacı varmı?

Qabriel bu cür qayğıkeşliklə sorğu-sual gözləmirdi. Ona elə gəlirdi ki, Sara Xatun hansısa şübhələrindən başlayacaq. Hətta Sara Xatun araya tərcüməçi çağırmamışdı. Qabriel də bilirdi ki, onun bu dili öyrənməsi ilə bağlı söz-söhbət Bayandurların yuxarı əyanları arasında çoxdan yayılıb. Qabriel tərəddüd eləmədən Sara Xatuna cavab verməyə tələsdi:

– Aləmlərin anasına bildirirəm ki, onun himayəsi altında biz qayğısız yaşayırıq. Heç nədən korluq çəkmirik.

– Yaxşı, onda deyə bilərsənmi, bu yerlərdə sizin dininizə meyil edənlər varmı? Xristianlarla münasibətini necə saxlayırsan?

– Mənim əziz anam… – Qabriel sözünün gerisini gətirmədi, bir qədər dayandı. Sara Xatun onu bir də süzdü. Tərəddüdünün səbəbini bilmək istədi. Onun gözlərinin qarşısında hökmdar hüzurunda olan bu şəxs qorxaq bir günahkar görkəmində deyildi. Qabriel bütün karlığıyla Sara Xatuna doğma, səmimi görünürdü.

– Danış, danış, mən səni dinləyirəm – Sara Xatun dedi.

– Gərək ki, sizin müsəlmanlar öz analarına elə belə müraciət edirlər. Mənim əziz anam, icazə verin, mən də sizə belə müraciət edim.

– Çox yaxşı, əgər sən özünü bizim insanların arasında belə doğma bilirsənsə, buyur.

– Bəli, mənim əziz anam. Mən lap əvvəldən başlamaq istəyirəm.

– Sənə haradan, necə başlamaq münasibdirsə, ordan da danış. Əgər çətindirsə, onda yadına sal, ilk günü – buraya gəldiyin günü deyirəm. Burada necə qarşılanmağını deyirəm. Elə ordan başla.

– Bəli, mənim əziz anam. Mən bura gəldiyim ilk gündən özüm də, səfər yoldaşım da sizdən böyük xətir-hörmət gördük. Siz bizə ən ali qonaqlara xas nəvaziş göstərdiniz. Bunların heç biri yadımdan çıxmayıb.

– Bizdə yaxşılığı unudan adamlara bilirsən də nə deyirlər?

– Bilirəm, mənim əziz anam. Deyirlər ki, eləsi çörək itirəndi, zatıqırıqdı. Hələ eləsinin ünvanına «çörəyi dizinin üstündədir» də söyləyirlər. Qabriel bu sözləri ilə sanki Sara Xatunun ürəyindən xəbər verirdi. Ona görə bunu hiss etdiyindən ürəklə danışırdı, cəsarətlə sözünə davam edirdi. – Mən deyəcəyim məlumatlara görə, vaxtında səmimi olmadığım üçün qanımı da sizə halal edirəm.

Sara Xatun hiss elədi ki, qonaq yavaş-yavaş mətləb üstə gəlir. Deyəsən o, Sara Xatunun düşündüyündən də artıq mətləblərdən halidir. Buna görə onu qəzəbləndirəcək hər hansı bir məlumatı da soyuqqanlı qarşılamağı nəzərə aldı. Onsuz da Sara Xatuna məlum idi ki, Avropadan üzü bəri gələn çoxlu xəfiyyələr var ki, üzdə bir məqsədlə gəldiklərini deyirlər, daldada tamam başqa məram uğrunda çalışırlar. Onların arasında gəldikləri ölkənin ərazilərini, adamlarının meyil və maraqlarını, bu yerlərin sərvətlərini öyrənmək istəyənlər də var. Elələri də var ki, dövlətin hansı gücdə olduğunu bilməyə çalışırlar. Və belə məlumatları müxtəlif yollarla məmləkətlərinə ötürürlər. Sara Xatuna yaxşı məlum idi ki, indi Avropa Şərq ölkələrində hörümçək toruna bənzər belə bir iyrənc şəbəkə qurub. Bu şəbəkəni tamam yırtıb-dağıtmaq asan məsələ deyildi. Onların bir çoxu heç bir-birini tanımır da. Yalnız bir-birinə xüsusi işarələrlə xəbər-ətər ötürürlər. Elə qisim də olur ki, böyük sui-qəsd planları ilə gəlir və bu sui-qəsdlərin üstünü açmaq asan olmur. Və ayrı-ayrı ölkənin gücünü təmsil edən adam-

ların qəfil ölümləri də məhz bu şəbəkənin planları ilə baş verən hadisələrdir.

Sara Xatun son illər ardıcıl olaraq Qaraqoyunluları və Ağqoyunluları əhatə edən ölkələrin nəinki hərbi gücü haqqında məlumat toplayırdı, həm də bu ölkələrin təbiətini, insanlarının dili, hansı dinə qail olduqlarını öyrənirdi. Mükəmməl bilgisi olan adamları saatlarla dinləyir, bu ölkələr haqqında suallar verirdi. O, təkcə bu ərazilərin əhatəsini öyrənmirdi, yeri gəldikcə, uzaq Hindistana qədər olan əyalətlər haqqında məlumatlar toplayırdı. Qədim dünyanın fatehlərini Şərqə hansı məqsədlər çəkib gətirmişdi. Hətta Zərdüşt məzhəbinə, inancına qənim kəsilən İsgəndər haqqında da xeyli məlumat öyrənmişdi. Onun nə qədər qədim Şərq kitabları yandırdığını bildikcə təəssüflənir və bunun hansı məqsədlə edildiyinin fərqinə varmağa çalışırdı.

«Avesta»nı – on min yazılı dana dərisini yandıran hökmdarın məqsədi, məramı xeyirxah ola bilərdimi? Hətta yeri gəldikcə, o, söhbətləri dinlədiyi alimlərdən soruşurdu ki, bəs onda niyə böyük Nizami İsgəndəri belə adil hökmdar kimi tərənnüm edib. Əlbəttə, Sara Xatunun özünə də aydın idi ki, Nizami ədalətli hakim arzulayırdı. Bilirdi ki, hakim ədalətli olmasa, onun səltənətinin ömrü uzun olmaz. Yeri gəldikcə, o, bu düşüncələri oğlu Uzun Həsənlə də bölüşürdü.

Sara Xatun bütün bunları ağlından keçirər-keçirməz qonağın deyəcəklərinin də düşündüklərinə nə qədər yaxın-uzaq olacağı onun üçün maraq kəsb edirdi.

Qabriel asta-asta danışırdı:

– Biz sizin əyalətinizə qədər xeyli müddət Osmanlıların arasında olmuşduq. Onlar da bizə dəyib-toxunmadılar. Sadəcə, dinimizə qulluq etmək istədiyimizi bildirdik və buna heç maneçilik törətmədilər. Amma onların arasında olduğumuz müddətdə biz dillərini öyrəndik, adət-ənənələri ilə tanış olduq. Romadan bizi bura yola salanlar deyirdilər ki, guya Osmanlılar nə vaxt-

sa Romaya hücum etmək planı hazırlayırlar, ancaq biz belə bir plan görmədik. Heç kimsənin dilindən, niyyətindən bir bədlik sezmədik.

– Ahaa… – Sara Xatun bir qədər təəccübqarışıq hisslərlə Qabrieli süzdü. Sonra astaca əlavə elədi: – Demək, belə.

– Bəli, bəli, mənim əziz anam. Mən nə var, hamısını olduğu kimi danışacağam, lakin ondan sonra tədbir sizin özünüzündü.

Sara Xatun yan tərəfə baxdı. Qabriel hiss elədi ki, yaxınlıqdakı hər iki yan pərdənin arxasından hənirti gəlir. Qabrielə aydın oldu ki, mühafizlər Sara Xatunun təhlükəsizliyini diqqətlə qoruyurlar. Nə qədər bu avropalının səmimiyyətinə inansalar da, yenə burada onu nəzarətdən kənarda qoymamışdılar.

Sara Xatun hiss elədi ki, qonaq mühafizlərin hənirtisini duydu. Başa düşdü ki, qonağın bu duyumu onda qorxu hissi yarada bilər və o, fikrindən daşınar. Yenə gülümsündü və mehribanlıqla dilləndi:

– Danış, bizim əziz qonağımız. Allahın bildiyindən artıq bəndə heç nə saxlaya bilməz. – Sara Xatun bununla Qabrieli sanki qorxu hissindən uzaqlaşdırdı.

– Bəli, mənim əziz anam, doğru buyurursunuz. Allahın bildiyindən artıq mən heç nəyi saxlaya bilmərəm, ona görə də mən burada, özümü mənim əziz anamın hüzurunda tam arxayın bilirəm… – Qabriel yenə ara verdi, tez də davam elədi: – Biz sizin hüzurunuza gələndə, danışığınızı eşidən kimi gördük ki, heç də Osmanlılardan çox fərqli danışmırsınız, dilləriniz yaxındır, asanlıqla anlamaq olur. Elə adət-ənənələriniz çox fərqli deyil. Bu onu göstərir ki…

– Bəli, bəli, doğrudur, biz qardaş xalqlarıq, dilimiz də birdir, adət-ənənələrimiz də. Biz də türklərik, onlar da türklərdilər.

– Elədir, doğrudur, mənim əziz anam, ancaq biləsiniz ki, Avropa bunu istəmir.

– Avropa bəs nə istəyir?

– Mənim əziz anam, Avropa deyəndə ki, mən Romanı nəzərdə tuturam. Lap bir az da dəqiqləşdirsəm, deməliyəm ki, Vatikanı nəzərdə tuturam. Papa istəmir ki, bu iki qardaş ölkənin insanları bir-biri ilə mehriban qonşuluq şəraitində yaşasın.

– Axı niyə? – Sara Xatun soruşdu. – Nəyə görə istəmir?

– Ona görə ki, Papa özü ayrıca bir sülalədir. O, Avropa ölkələrinin insanlarına din qardaşları deyə-deyə bir-birilə aralarını vurur, qarışdırır. Və bu əməllərinin sayəsində onların üzərində nüfuzunu, təsirini qoruyub saxlayır. İndi Vatikan qorxur ki, bu iki türk dövləti bir-birilə qardaşlıq münasibəti qursa, ayrı-ayrılıqda güclənər və Avropanın Şərqə doğru irəliləyən istəklərinin qarşısını kəsər.

– Yaxşı, əziz qonaq, onda belə çıxır ki, səni bura xüsusi tapşırıqla göndəriblər?

Qabriel bayaqdan bəri elə bu sualı gözləyirdi. Heç kim deyə bilməzdi ki, artıq gücü qonşu dövlətlər tərəfindən də etiraf olunan bir dövlətin başbiləni olan, yaşının da kifayət qədər kamillik çağlarına çatmış Sara Xatun indi xəyalından nələri keçirir. Çünki onun zahiri görkəmi kifayət qədər təmkinli, sakit, ilk baxışdan, dünyanın gəldi-gedərinin ona dəxli yox imiş kimi səbri, hövsələsi sabit idi. Qarşısındakı yad adamın dediklərinin arxasınca gələ bilən bəlanın miqyasını dərk eləsə də, bütün bunları büruzə vermirdi. Ancaq bu, o demək deyildi ki, xoşagəlməz niyyətlə onun oğlunun ordugahına qədər gəlib çıxmış və elə buradaca insanlar arasında xətir-hörmət sahibi olmuş yadellinin dedikləri onu həyəcanlandırmamışdı. Əslində, Sara Xatun Cahanşahın nəzarətində olan ərazilərin Ağqoyunluların tabeliyinə keçməsindən sonra kifayət qədər böyük dövlətin hökmranı olacaq Uzun Həsənə – yəni oğluna qonşu ölkələrlə sülh şəraitində yaşamağın üstünlüyünü təlqin etmək istəyindəydi. O, istəyirdi ki, kifayət qədər böyük olacaq Ağqoyunluların ölkəsi iqtisadi cəhətdən inkişaf eləsin. Ticarət əlaqələri genişlənsin, abad yollar

çəkilsin. İnsanlar öz əkin-biçini ilə məşğul olsunlar. Hər halda ölkənin öz adamlarının gəliri o ölkənin dövlətini də saxlamağa bəs edəcək qədər olar. Bu gəlirlə dövlət əhalinin əmin-amanlığını təmin edər, qaçaqlığın, quldurluğun qarşısını alar. Ticarət karvanları uzaq ölkələrdən yol alıb gələr. Və beləliklə, sakinlərin rifahı yaxşılaşdıqca, məktəblər, mədrəsələr açılar. Memarlıq inkişaf edər, şəhərlər salınar…

Sara Xatun düşündü ki, indi onun bu planlarını uzaq ölkələrdən uzanan qara əllər pozmağa cəhd edir. Çalışırlar ki, hər vəchlə kifayət qədər gücü və nüfuzu olan Osmanlıları onların üstünə qaldırsınlar. Hələ bir Ağqoyunlu divanının özündə də Osmanlılara qarşı kin-küdurət yaratmaq cəhdləri var. Bu cəhdlərin ən barizi elə onun qarşısında əyləşmiş yadellinin açıqladığı məqsəd və məramdır.

Sara Xatun zəndlə qonağı süzüb yenidən müraciət etdi:

– Hörmətli qonaq, bəlkə, tamam-kamal hər şeyi açıq danışasan?

– Mənim əziz anam, bir Allah şahiddir ki, necə səbirsizliklə aləmlərin anasının hüzuruna gəlməyin vaxtını gözləyirdim. İndi mən çox sevinirəm ki, bu vaxt gəlib çatıb. Və indi aləmlərin anasının hüzurunda dayanmışam. Daha bundan o yana yol yoxdur ki…

– Elə isə danış, – Sara Xatun dilləndi.

Doğrudur, dilləndi, ancaq elə dilləndi ki, onun səbrinin tükəndiyini hiss eləmədi. Elə bu səbəbdən də həmin arxayınçılıqla Qabriel söhbətinin davamını gətirdi:

– Romanın elə də uzaq olmağını düşünməyin. Onların əli hər yerə çatır. İndi biz burada sizin hüzurunuzdayıq. Ancaq siz bilmirsiniz ki, bizdən də başqa qara niyyətlərlə bura daha kimlər gəlib? Ona görə də bu məqsədlə gələn adamlarla dərhal əlaqə qurmaq, tanımaq, onları izləyib, zərər vurmadan tez aşkara çıxarmaq sizin işinizdi. Ancaq mənim demək istədiyim başqadır.

Qabriel danışdıqca Sara Xatun sağ əlini çənəsinə dayaq verib, onu aramla dinləyir, hər bir hərəkətinin, sözünün, səsinin ahəngindən onun keçirdiyi hissləri, duyğuları anlamağa çalışırdı. Sanki Sara Xatun onun düşüncəsinin arxa qatında daha nələrin dayandığını görmək, duymaq istəyirdi. Qabriel isə danışığına ara vermirdi:

– Roma cəhd edir ki, siz Osmanlıların üstünə ayaq alasınız. Çünki Osmanlıların məqsədi təkcə Bizansın axırına çıxmaq və onun min illik sərvətini mənimsəmək deyildi. Osmanlıların niyyəti digər ərazilərdə də böyük güc sahibi olmaqdır. Heç şübhəsiz, Romanın kiməsə hər cür kömək vədləri boş və mənasızdır. Və bunu da biləsiniz ki, Roma həmin yalançı vədlərlə Osmanlıların da arasına xüsusi tapşırıqla emissarlar göndərir. Onlara da hər cür kömək göstəriləcəyi vəd olunur. Çox ola bilər ki, hələ onlara başqa məsələlər haqqında da məlumatlar verilir.

– Məsələn, nələr haqqında? Nəyi nəzərdə tutursan, hörmətli qonaq? – Bu dəfə Sara Xatun Qabrieldən bir az sərt, bir az da rəsmi soruşdu.

– Onlar Osmanlılara çatdırırlar ki, guya siz Anadolu ilə kifayətlənməyib, Osmanlıların içərilərinə doğru gedəcəksiniz. Siz buradan Osmanlıların üzərinə yeriyəndə, o yandan da Bizans qalxacaq. Və beləliklə, Bizansla Ağqoyunluların ikitərəfli təzyiqinə Osmanlılar davam gətirə bilməyəcək, dağılacaq, parçalanacaq. Böyük ərazilər Bizansın ixtiyarına keçəcək və nəticədə Roma da Bizansdan öz payını alacaqdır.

– Demək, belə... – Sara Xatun deyəsən bu məlumatları eşidəndən sonra bir qədər rahat nəfəs aldı. Ağzından çıxan həmin iki kəlmə də Romanın necə idbar bir niyyətlə ölkələri bir-birinin üzərinə saldırmaq məqsədinin, iç üzünü bildiyinin təsdiqiydi.

Sara Xatun hiss eləyirdi ki, hələ Qabriel nələrisə deməyib, ancaq çalışırdı, müdaxilə eləmədən, heç nə soruşmadan Qabriel bildiklərinin hamısını danışsın. İnsafən, Qabriel də düşüncəsinə

yığdıqlarının, daha doğrusu, bildiklərinin hamısını Sara Xatuna danışmaq istəyirdi. Bircə onu narahat edən Nikol – Çevik əfəndinin taleyi idi. Elə bu narahatçılığından da yan keçmədi. Bəri başdan nigarançılığını da bildirməklə Nikol haqqında söhbət açdı.

– Bir də bir sözüm var, aləmlərin anası.

Sara Xatun başı ilə razılıq bildirdi, yəni ki, «danış» işarəsini verdi.

– Mənim əziz anam, sizdən gizlətməyəcəm, mən Romadan bura xain niyyətlə gəlməmişəm. Romadan canımı götürüb çıxa bilmək üçün onların təklifinə razılıq vermişəm. Mənimlə gələn Aqnes kişi paltarında olsa da mənim sevdiyim qadındır. Romada kilsənin qanunlarına görə monastırda çalışan şəxsin evlənmək hüququ yoxdur. Əgər bu məsələdən orda xəbər tutsaydılar, Aqnesi də, məni də daş-qalaq eləyərdilər.

Sara Xatunun üzündə övlad qayğısı çəkən ananın iztirabları göründü. Və bunu Qabriel də hiss elədi. Ona görə bir az da ürəkləndi.

– Biz, əslində, öz sevgimizi və canımızı götürüb sizə pənah gətirmişik. Mən burada müsəlmanların dini qanunlarını da öyrəndim. Bildim ki, təmiz niyyətlə pənah gətirən adamların günahları Allahın yanında bağışlanır. Siz müsəlmanlar, sizə sığınan insanlara hər cür kömək və qayğı göstərməyi özünüzə savab bilirsiniz. Hətta camaatınız deyir ki, belələri Allahın yanında çox hörmətli olur.

Sara Xatun yenə başı ilə təsdiq elədi. Qabriel bu hərtərəfli qadının necə böyük ürək və zəka sahibi olduğundan, necə təmkinlə onu dinlədiyindən sanki vəcdə gəlmişdi. Bəlkə elə bu vəcdə gəlməyindən idi ki, söhbəti də bitib-tükənmirdi.

– Bir sözlə, biz burada sizin himayənizdə heç bir bəd niyyətimiz olmadan rahat və sakit yaşamaq fikrindəydik. Çox təəssüf, bu, mümkün olmadı.

– Niyə? – Sara Xatun bir qədər təəccüblə soruşdu. –Axı sizin ki, burada xətrinizə dəyən kimsə olmayıb.

– Doğrudur, bizim xətrimizə bir kimsə dəyməyib.

– Bəs onda nədən narazısınız?

– Əslində, bir narazılığımız yoxdu, nigarançılığımız var.

– Nədən?

– Roma, əslində, Vatikan bizi burada da rahat buraxmır, bilirəm ki, arxamızca müxtəlif adamlar göndərib. Tapşırığı necə icra etdiyimizi öyrənib, əlavə tədbirlər görmək istəyəcək.

– İndi sənin düşüncənə görə belə bir «göz» arxanızca gəzirmi?

– Bəli, belə bir «göz» bilirəm, artıq var, ancaq onun da niyyəti, məqsədi o qədər də qərəzli deyil. Sadəcə, tapşırığı yerinə yetirməməkdən qorxur.

– Kimdir? Sən onu tanıyırsanmı?

– Bəli, mən onu tanıyıram. – Qabriel cavab verdi və sonra davam elədi, – Sizin ordugahınızda Çevik əfəndi adında türk təbibi kimi tanınmış bir şəxs var. Onun əsl adı Nikoldur. Uzun illər Osmanlıların arasında yaşayıb. Elə Vatikanda da təbib kimi tanınırdı. Burada da Şərq təbabətinin sirlərini öyrənib. Yaraları çox asanlıqla sağalda bilir, əslində, onun zərərindən çox faydası ola bilər. Sadəcə, can qorxusu olmadığına inana bilsəydi…

Sara Xatun tam inanırdı ki, bayaqdan bəri onunla üzbəüz dayanmış bu yadelli bildiklərinin hamısını bütöv bir səmimiyyətlə etiraf edir, əsl həqiqətləri deyirdi. Özlüyündə Sara Xatun düşünürdü ki, yaxşı ki, Qabriel bu məsələlər haqqında orduda – divan işlərinə baxan şəxslərə yox, məhz onun özünə məlumat verir. Ola bilərdi ki, onlar Qabrielin səmimiyyətini qəbul etmədən onu şübhəli şəxs qismində aradan götürərdilər. Hələ üstəlik, Nikolun – yəni Çevik əfəndinin özünü də, nə təbiblik bacarığına, nə də bəd niyyətinin olmamağına baxmayaraq, qısa müddətdə məhvə məhkum edərdilər. Əslində, vəziyyət indi o qədər dolaşıq idi ki, Sara Xatun da birdən-birə qəti qərara gələ bilmirdi. Buna baxma-

yaraq, o barədə kimsəyə heç nə deməməyi, burada danışılanların hələlik üstüörtülü qalmasını Qabrielə tapşıracaqdı.

Sara Xatunun xəyalına gəldi: «Gərək bu məsələlər o qədər açılmasın ki, Teymurilərdən qırılıb qalmış Əbu Səidin Xorasan ətrafındakı qüvvələrinin qədəri öyrənilsin. Onun məqsədi, məramı bilinsin. Bir də Osmanlıların da əlinə bəhanə verməmək üçün gərək şayiələrin qabağı alınsın. Bir halda ki, onların Osmanlılara qarşı heç bir bəd niyyəti olmayacaqdı, onda nə üçün yalan iftiralara qulaqlarını şəkləmiş bədniyyətli insanları sevindirsinlər».

– Demək, belə… – Arada olan sükutu Sara Xatun pozdu. – Hörmətli qonaq, mənə danışdıqların haqqında hələlik heç bir kimsəyə məlumat vermə.

– Bəs Nikol – Çevik əfəndi məni görüb soruşsa ki, tapşırığı necə yerinə yetirmişəm, onda necə?

– Deyərsən ki, Papadan gələn bütün tapşırıqları üzbəüz görüşdə Sara Xatuna çatdırmışam.

– Onlar bilmək istəyəcəklər ki, bu deyilənlərə inanmısınız, ya yox.

– Hər halda sən deyərsən ki, çatdırmışam, inanıb-inanmadığını sonra biləcəyik.

– Sonra, yəni necə?

İndisə, bu dəfə Qabriel Sara Xatunu söhbətə tuturdu. Bunu başa düşüb, bir qədər sıxıldı, daha heç nəyi soruşmamağı qərara aldı.

Amma Sara Xatunun marağı güc gəldi:

– Bəli, deyərsən ki, tezliklə Sara Xatunun elçiləri Vatikana yola düşəcək. Yəni bu da Vatikanın gücsüz ölkələri himayə etdiyinə inamın ifadəsi olacaq.

Qabriel daha Sara Xatundan heç nə soruşmaq fikrində deyildi. Ancaq onun hansısa bir nigarançılıq çəkdiyini də Sara Xatun hiss etdi. Buna görə də özü soruşdu:

– Yaxşı, bəlkə bir başqa da sözün var? Əgər varsa, mənə deyə bilərsən. – O mehribanlıqla Qabrieli süzdü. – Axı mənə «əziz anam» deyirsən.

Qabriel bu sözlərdən sonra sanki dünyada tək-tənha olmadığını, yaxşı adamın himayəsində qaldığını bir daha anladı. Ona görə də qəlbinin dərinliklərində saxladığı narahatlığını da gizlətməyə lüzum görmədi:

– Bəs mənim Aqneslə məxfi münasibətim necə olsun?

Qabrielin bu sözlərində sanki övladın anadan kömək istəyi duyulurdu. İndi Qabrielin varlığında qorxudan əsər-əlamət qalmamışdı. Və sonsuz ümidlə Sara Xatuna baxdı. Sara Xatunun üzündə xoş bir təbəssüm göründü. Elə bil səhər çıxan günəş ətrafa şəfəq saçırdı.

– Biz halal sevginin himayədarıyıq, əziz qonaq, xətircəm ola bilərsən…

Qabriel rahat nəfəs aldı.

* * *

…Sara Xatunun Qabriellə söhbətindən xeyli keçmişdi. Bu müddət ərzində çoxlu hadisələr baş vermişdi. Artıq kimsəyə sirr deyildi ki, Ağqoyunluların artan nüfuzu nəinki yaxın qonşuları, hətta uzaq ölkələri də narahat etməyə başlamışdı. Avropadan gələn gizli emissarlar bir-birinin arxasınca Papanın tapşırıqlarını canbaşla yerinə yetirməyə çalışırdılar. Sara Xatun Qabrielin üstünə xüsusi nəzarətçi qoydurmuşdu. Ona görə yox ki, o, Qabrielə inanmırdı. Xeyr, o, Qabrielə inanmışdı, hətta Aqnesin kişi paltarından çıxıb, qadın paltarını geyinməsinə icazə vermiş, bu iki avropalı gəncin müsəlman qaydası ilə evlənməsini də təşkil etmişdi. Ancaq Qabrielə tapşırmışdı ki, öz missiyası haqqında açıq danışdığını Çevik əfəndi adı ilə orduda təbiblik eyləyən Nikola bildirməsin.

Təbiidir ki, Sara Xatun Nikolu da nəzarətdən kənarda qoymamışdı. Heç Nikolun özünün xəbəri olmadan öyrənmişdi ki,

milliyyətcə erməni olan Nikol, əslində, Romadan gəlməyib, o, Romadan verilən tapşırığı icra etmək üçün Ağqoyunluların arasına girib. Nikol nə qədər cani-dildən xidmət göstərsə də, əsas tapşırığını unutmurdu. Ona görə arada Qabrielə doğma işini xatırladır, nəticə haqqında məlumat tələb edirdi. Qabriel də Sara Xatunun tapşırığına əsasən müxtəlif bəhanələrlə vaxtı uzadır, Nikola aydın bir cavab vermirdi. Amma Qabriel ordugahdakı xidmətlərinə görə çox istəyirdi ki, Nikol tərcümeyi-halı haqqında, kimliyi barədə Sara Xatuna ətraflı məlumat versin. Və bununla da Sara Xatun tərəfindən bağışlansın. Onu bilmirdi ki, Nikol fərasəti, bacarığı və istedadını bütün gücüylə səfərbər etmişdi. Ona görə ki, son nəticədə tapşırılan işi axıra çatdırsın. Bu barədə – yəni Nikolun son nəticədəki missiyasının nədən ibarət olduğunu özündən başqa heç kim bilmirdi.

Nikol ordugahdakı xidmətini demək olar, çox yüksək səviyyədə icra edirdi. Hətta ona təbiblik işini daha yaxşı aparmaq üçün xüsusi şərait yaratmış, köməkçilər də vermişdilər. Adamlar bir çətinə düşən kimi ona müraciət edir, yardım alır, təbiidir ki, razı qalanda, adına dualar edirdilər. Nikol isə müsəlman olmadığını ciddi-cəhdlə gizləyirdi. Hər yerdə özünü Çevik əfəndi kimi tanıdırdı. O, görürdü ki, Uzun Həsənin ordusunda sürətli hərbi hazırlıq işləri gedir. Adamlar hər gün təlim keçir, əsgərləri döyüş meydanlarına aparırdılar. Nikol öz-özünə düşünürdü: «Əgər Uzun Həsən bu tezliklə Osmanlılar üzərinə yürüş eləməyi planlaşdırmırsa, bəs onda fikri nədir?» Nikol bu düşüncələrlə nə qədər baş sındırsa da, hələlik bir məlumat öyrənə bilmirdi. Çünki o, Uzun Həsəni döyüşdə ya öldürülmüş, ya da əsir alınmış görmək arzusundaydı. Yox, əgər belə bir aqibət Uzun Həsəni yaxalamasaydı, onda vəziyyət tamam başqa cür olacaqdı.

Bir sözlə, Nikol, həm də təhlükənin özündən sovuşmasının çıxış yolunu Uzun Həsənin Osmanlılarla qarşılaşmasında görürdü. Ancaq işlər elə gedirdi ki, heç Osmanlılara qarşı bir nifrət hissi qal-

dıra bilmirdi. Bu da onu bərk narahat edirdi. Arada belə bir fikrə gəldi ki, Qabrielin Sara Xatunun yanındakı nüfuzunu məsələnin həlli üçün əsas tutsun. Yəni Uzun Həsənin taleyini həll etməyi Qabrielə həvalə eləsin. Bu işin öhdəsindən Qabriel gəlsəydi, sudan quru çıxardı və kimsə də ondan şübhələnməzdi. Bu riskli addım barədə cəsarət edib Qabrielə heç nə deyə bilmirdi. Beləcə, günlər bir-birini əvəz edir, zaman sürətlə keçir, fəsillər dəyişirdi…

* * *

Uzun Həsəni fikir götürmüşdü. İki əlilə başını sağdan və soldan araya almış, hərdən də uzun saçlarını külahının altından qarışdırır, həll edə bilməyəcəyi müşküllərin sirrini çəkişdirdiyi başının tüklərindən soruşurdu. Nə qədər fikrə qərq olsa da, hərdənbir dalğa kimi gələn qəzəb onu öz daxili aləmindən ayırır, Bayandurlar sülaləsinin gələcəyə gedən yollarına tərəf aparırdı. O, özünün inamını, inadını yaxşı bilirdi. Hələ cavanlıq və çiçəklənmə mərhələsində olan Ağqoyunlular dövlətinin də artıq nəyə qadir olduğunu kifayət qədər aydınlığı ilə dərk edirdi. Bircə orası var idi ki, ağır, qan-qadasız yaratdığı dövləti bundan sonra da əmin-amanlıqla idarə etmək üçün əngəllər gerçəkdən görünməyə başlamışdı. Məxfi ordu kəşfiyyatının ona çatdırdığı xəbərlərdən belə məlum olurdu ki, Ağqoyunluları iki təhlükə artıq hədələməkdədir. Bunlardan birincisi, Teymurilərdən qırılıb qalmış Əbu Səid əmirliyi onun lap burnunun ucundaydı. Elə böyük əraziyə sahib deyildi, hələ üstəlik, say baxımından ordusu da böyük gücdə olmadığına baxmayaraq, Əbu Səid «qan-qan» deyir. Teymurilər sülaləsinin keçmiş şöhrətini qaytarmaq xülyası ilə yaşayırdı. Doğrudur, Uzun Həsən hiss eləyirdi ki, Əbu Səid onun üzərinə gəlməyə maraq və cəsarət göstərmir. Bəlkə də üzbəüz vuruşdan çəkinirdi, amma ordusunun gücü-qüdrəti və döyüş təcrübəsi haqqında şayiələr yayılmasına rəvac verir. Bununla da hər vəchlə Uzun Həsəni qorxutmaq, özünə tabe etmək, ondan

külli miqdarda bac-xərac almaqla qarşılaşmanın vaxtını uzatmaq qərarında qalırdı. Ağqoyunluları hədələyən qüvvələrdən digəri Osmanlılar idi ki, bunun da tamam özgə səbəbləri var idi…

Hökmdar təkcə Əbu Səid haqqında düşünməkdə israrlı deyildi. Artıq kiçik Asiyada çoxdan möhkəmlənmiş Osmanlıların da öz sərhədlərinə sığışmadığını, daha doğrusu, aşıb-daşdığını duymaqdaydı. Elə Uzun Həsəni də ağır, üzücü fikirlərə qərq edən bu iki təhlükənin arasında qaldığını öncədən görməsi idi. Bir-birinin arxasınca Venetsiyaya, Romaya, Polşaya və Germaniyaya, Firəngə göndərdiyi qasidlər – İsaq Xoca Mirak, Hacı Məhəmməd, Həsən Əzən və Murad bəydən də hələ ki ürəkaçan xəbərlər gəlmirdi. Hiss olunurdu ki, Avropa Osmanlıların bundan o yana güclənməsini istəmədiyi kimi, ikinci bir qüdrətli türk dövlətinin meydana çıxması ilə barışmır. Bir növ, Trapezun-Trabzon öz başının hayında idi. Tarixi Bizansın sərvəti əlində olsa da, Osmanlıların qapazı altında bu sərvətə güvənclə nə qüdrətli ordu yarada bilir, nə də qədim Bizansın siyasət təcrübəsindən bəhrələnib möhkəm ittifaq qura bilirdi. Belə olan halda Uzun Həsən yenicə qurub ərsəyə gətirdiyi Ağqoyunlular dövlətinin taleyini özü təkbaşına həll eləməli olacağını anlayırdı.

…Bu vaxt qapı açıldı, Sara Xatun idi. Adətən Uzun Həsən anasını görəndə ayağa qalxır, nə qədər qayğılı olsa da, üzünə bir təbəssüm gətirir, həmişə başbiləninini xoş əhvalla qarşılamağa çalışırdı. Amma bu dəfə belə olmadı. Hökmdar yerindən ağır-ağır qalxdı. İstəsə də onun üz-gözünə hopmuş zamanın ağırlığı imkan vermədi ki, anasını adətinə uyğun xoş əhvalla qarşılasın. Bunu Sara Xatun hiss elədi.

Əslində, o, Uzun Həsənin nə barədə düşündüyünü, hansı qayğılarla belə rəncidə olduğunu anlayırdı. Çünki Sara Xatunun özünə də gələn məlumatlar heç də Uzun Həsənə gələn məlumatlardan az deyildi. Hələ bəlkə o, oğlunun bildiyindən də artıq bir çox məsələlərdən xəbərdar idi.

Sara Xatun başa düşdü ki, oğlunu bu ağır düşüncələrdən çıxarmaq üçün ona mənəvi dayaq durmalı, heç də bədxah qonşularından az gücdə olmadığını anlatmalıdır. Vəziyyət elə gətirmişdi ki, həm ana, həm də oğul – hər ikisi vəziyyətdən kifayət qədər hali idi. Amma aralarında bir fərq vardı – Uzun Həsən bütün məsələlərin həlli yolunu qılıncda görürdü. Bu da əsassız deyildi. Çünki yaxşıca başa düşürdü; nə Xorasandan üzü Təbrizə diş qıcayan Əbu Səid, nə də Ağqoyunluların Anadolu ərazilərinə iddialı olan Osmanlılar onun qılıncının kəsərini görməsələr, hücum planlarından heç vaxt əl çəkməyəcəkdilər. Digər tərəfdən bunu Sara Xatun da bilirdi, amma Sara Xatun oğlundan bir məqamda fərqlənirdi; belə başa düşürdü ki, hələ məsələnin döyüş meydanında həll olunacağına vaxt var. Əvvəla, ona görə, Ağqoyunluların dövlət kimi formalaşmağını istəməyən qüvvələr güclərinə belə tam əmin olsaydılar, çoxdan hücuma keçərdilər. Bu da o demək idi ki, hələ məsələnin döyüş meydanına tərəf gedən yolunu kəsmək olardı. Bunun üçün tərəfləri layiqincə qiymətləndirməyi bacaran şəxs lazım idi.

…Ana-oğul mehribanlıqla görüşdükdən sonra hərəsi bir tərəfə çəkilib oturdu. Sara Xatun Uzun Həsənlə üzbəüz əyləşdi. Uzun Həsən də hiss elədi ki, anası onunla vacib bir məsələni müzakirə eləməyə gəlib.

Birinci Uzun Həsən dilləndi:

– Aləmlərin anası bizi ziyarətə gəlməklə qaranlıq çökmüş sarayımıza, işıq gətirib.

– İşıq elə sənin sarayındadır, oğlum. Harada haqq və ədalət var, orda işıq da var.

– Amma haqqı və ədaləti boğub, asanlıqla bu işığı qaranlığa çevirmək istəyənlər var.

– Bəli, bilirəm, beləlƏri də var, ancaq unutma, kim haqqa güvənirsə və öz əməlində ədaləti qoruyursa, o, daha güclüdür.

– Aləmlərin anası bilməmiş deyil ki, zor ayaq açanda çox asanlıqla haqqı da danır, ədaləti də ayaqlayır.

– Yox, oğlum, bir zaman Qara Yuluq Osman az gücüylə böyük gücü necə yenmişdi. Mən biləli, sən bunları yaxşı bilirsən.

– Elədi, ana, mən sən deyənləri bilirəm, amma indi zaman o zaman deyil. Bizim torpaqlarımıza göz dikənlərin həm kifayət qədər döyüş təcrübəsi var, həm də ordularını odlu silahlarla təmin ediblər.

– Onda belə çıxır ki, biz öz haqqımızdan əl çəkməli, halal yerimizi, yurdumuzu tamahkarlara güzəştə getməliyik?

Uzun Həsən anasının məntiqi qarşısında susdu. Bir xeyli fikrə getdi. Həqiqətən də anası doğru deyirdi. O, belə asanlıqla ruhdan düşməməli, acgöz yağıların istəklərinə asanlıqla güzəştə getməməli idi. Doğrudur, hələ bir güzəşt məsələsi yox idi, Uzun Həsənin düşüncələrinin dərinliklərində bu fikir də yer almışdı. Bəlkə tamahgirlərə nə isə güzəştə getsin.

Sara Xatun sanki oğlunun nə düşündüklərini gözlərindən oxudu. Ona görə daha sükutun uzanmasını gözləmədi.

– Yox, biz heç nəyi ara yerə düşmənimizə bağışlamayacağıq, – Sara Xatun qətiyyətlə bildirdi.

– Onda birbaşa qılınca əl atmalıyıq? – Bu dəfə də Uzun Həsən anasının hökmünə uyğun dilləndi. – Bizim elə gücümüz varmı? Mən başa düşmürəm, bu vəziyyət birdən-birə necə oldu, belə kəskinləşdi?

– Sən özünü sıxma, oğlum. Əvvəla, vəziyyət birdən-birə kəskinləşməyib, tədricən bu hal yaranıb. Sən hakimiyyətə gələn gündən ətraf kifayət qədər narahat olub. Uzun müddət onların rəqibi Qaraqoyunlular idi, səni güc qismində görmürdülər. Amma zaman gəldi, Qaraqoyunlular sıradan çıxdı. Və onlar meydanda səni tapdılar. – Sara Xatun danışdıqca oğlunun necə dirçəldiyini anlaşılmaz xülyalardan necə ayrıldığını da görürdü. Və ona aydın olurdu ki, oğlu kifayət qədər qətiyyətli sərkərdədir. Döyüş meydanına getməyindən qorxmur. Yeni odlu silahlar kəşf olunub, ölkələrə satılıb. Ancaq bir orası var

ki, ətraf güclərin nüfuzu qarşısında tərəddüd eləyir. Ona görə bir də təkrar soruşdu:

– İndi sənin fikrincə, bir çıxış yolu görünmür?

Anasının gözlənilməz sualı o qədər kəskin idi ki, hökmdar susmağa üstünlük verdi.

– Hə, görürsən, cavab verməyə tərəddüd edirsən. Biləsən ki, insanın ən kəskin silahı onun ağlıdır, düşüncəsidir. Bütün müharibələrin əvvəlində ağıllar, təsirli tədbirlərlə qarşılaşır.

Hökmdar anasının nə dediyini artıq anlayırdı.

– Aləmlərin anası nə deyir, indi özümmü getməliyəm Əbu Səidin yanına?

– Yox, hökmdar, bu sənin kimi səriştəli hökmdara yaraşmaz. Əbu Səid kimi keçmiş nəslinin şöhrətinə güvənib, başıpozuq bir əmirin hüzuruna getmək nə deməkdi?

– Bəs onda kim getsin? – Hökmdar sanki sıravi bir divan üzvü danışırmış kimi anasına sual elədi.

Sara Xatun oğlunun amiranə sualından xoşlanmışdı, o, elə o Uzun Həsəni bu cür görmək istəyirdi.

– Yox, sən özünü darıxdırma, Əbu Səidin hüzuruna gedən tapılar. Əvvəlcə onu mənə de görüm, qonşu dövlətlərin Ağqoyunlulara belə qısqanc münasibəti haradan qaynaqlanır, bunu bilirsənmi?

– Hə, aləmlərin anası, bilirəm. Tam olmasa da, bir qədər məlumatım var. Hökmdar bu dəfə bir oğul ünsiyyəti ilə dilləndi. Bununla da sanki anasına çatdırmaq istədi ki, onun qədər olmasa da, az-çox vəziyyətdən xəbərdardı. Bu da Sara Xatunu yenə razı saldı.

– Düşmənin niyyətini bilməkdən çox, bu niyyətin haradan qaynaqlandığını daha yaxşı bilməlisən. Çünki elə düşmənə güc verən də çox vaxt elə qaynaqlar olur. Sara Xatun oğluna nəyisə anlatmaq üçün sözünün məğzini başdan açmırdı. İstəyirdi ki, oğlunun Ağqoyunluları əhatə edən siyasi mühit haqqında nə dərəcədə bilgili olduğunu öyrənsin.

Uzun Həsən anlayırdı ki, anası məsləhət-məşvərət üçün onun yanına gəlib. Anasını əmin etmək üçün bir qədər əhatəli danışmalı oldu:

– Aləmlərin anası, sən təkcə mənim anam yox, elə səltənətimizin anasısan. Özü də xeyirxah məsləhətlərinlə ağlı başından olanın, hikkəsi yer-göy dağıdanın da həddini göstərə bilmək gücündəsən. Əlbəttə, ağıllı yol göstərməyinlə. İndi də sənin dediklərinə ehtiyacım var. Onu da başa düşürəm ki, sən məndən ötrü nigarançılıq çəkirsən. Bilmək istəyirsən ki, mən bu dünyagir tamah sahiblərini necə başa düşürəm.

Sara Xatun oğlunun ahəngdar danışığından məmnun idi. Və bu razılığını hərdən başını tərpətməklə çatdırırdı. Və bundan ruhlanan Uzun Həsən də həvəslə sözünə davam elədi:

– Əmin ola bilərsən, aləmlərin anası. Qara Yuluq Osmanın qılıncı mənim əlimdədir, kifayət qədər də kəsərlidir, ancaq Avropa ölkələri bizi də, Osmanlıları da özlərinə gələcək təhlükə mənbəyi sayırlar. Ona görə də bütün imkanları işə salır, həm bizi qızışdırmaq niyyəti güdür, guya bizə kömək edəcəkləri adıyla vədlər verirlər. Eləcə də, qonşularımızı elə bu cür şirnikdirməyə çalışırlar. İnsan övladı da çiy süd əmib, tamah quludur. Nə qədər var-dövlət yığsa da, yenə də acgözlüyündən əl çəkmir. Elə bu Əbu Səidi götürək. Bizim onunla heç bir dava-şavamız yoxdur. Amma köhnə nəslinin şöhrət azarı onun gözlərini tutub və bizi gücsüz hesab edir, özündə bizə yuxarıdan aşağı baxmağa cəsarət tapır. Ona görə bəhanəylə Ağqoyunluların ərazilərinə soxulmaq, dövlətin ən çox gəlir gətirən ərazilərinə sahiblənmək diləyini açıq-aşkar bildirir, bunu gizlətmir də. Mənə isə vaxt lazımdır; ordunu nisbətən müasir silahlarla təmin etmək gücümüzü toparlamaq üçün. – Uzun Həsən sözünü bitirdi.

Sara Xatun başını qaldırıb sarayın sütunlarına diqqət elədi. Bununla o mərmər sütunların nə dərəcədə güclü olub-olmadığını görmək istəyirdi. Ancaq yox, fikri başqa idi:

– Hə, oğlum, sən bu sarayın əsas sütunusan. İnamını qorumalısan. İndi nə deyirsən?

– Bayaq da onu deyirdim, indi elə bir adam kim olsun ki, Əbu Səidin yanına gedib, onu fikrindən daşındırsın?

Sara Xatun başını qaldırıb oğlunu qürurlu nəzərlərlə süzdü, sonra da qətiyyətlə dedi:

– Əbu Səidin yanına mən gedərəm, Ağqoyunlu padşahı – Uzun Həsənin anası Sara Xatun. Bununla sən həm də onun ayağına getmədən gələcəyin güclü xanədanının padşahı kimi nüfuzunu Əbu Səid kimi əyyaş bir hökmdarın gözündə qorumuş olarsan, eyni zamanda bu Teymuri vələdinə hörmətsizlik də etmiş olmazsan…

Uzun Həsən sevinclə yerindən qalxıb anasını qucaqladı:

– Sən həqiqətən aləmlərin anasısan, mənim ağıllı ağbirçəyim!

* * *

Əmir Teymurun İslam bayrağı altında dəhşətli istilalar dövrü çoxdan ötüb keçmiş, dünyanı titrədən hərbi şöhrəti də unudulmaqdaydı. Fəqət, Orta Asiyadan üzü bəri Azərbaycana qədər çox ərazilərdə Teymur sülaləsinin davamçıları böyük və ya kiçik əmirlikləri idarə etməkdəydilər. XV əsrin ikinci yarısından sonra Səmərqəndin istilasından ruhlanaraq, özünü sultan elan edən Əbu Səid Xorasanı da ələ keçirmişdi.

Əbu Səidin başı əyyaşlığa qarışsa da, tarixi əmir Teymur ənənələrinin yalançı varislik gücündən də bəhrələnə bilmişdi. Azərbaycanın şimal-şərq əraziləri, – Şirvanşahların Teymurilərə rəğbətli münasibətindən arxayın olan Əbu Səid torpaqlarını genişləndirmək üçün çoxdan bəri Təbriz ətrafını işğal üçün gözaltı eləmişdi. Yaxşı bilirdi ki, otuz minlik güclü ordu ilə bu yerləri asanlıqla ələ keçirə bilər. Və elə onun əsas istəyi də birinci Ağqoyunluların əlinə keçmiş olan Qaraqoyunlu əyalətlərini geri almaq idi. Məqsədini başa vurmaq üçün həddən artıq tələsən

Əbu Səid ehtiyatı əldən vermirdi. Çünki o, nəsildəngəlmə hərbi fəhmilə anlayırdı ki, əgər Osmanlılar Ağqoyunluların üzərinə hücum etmək üçün tələsmirlərsə və Ağqoyunlular Cahanşahı bir həmlə ilə geriyə oturtmağı bacara bildilərsə, demək, onlar da kifayət qədər gücə malikdir. Niyyətini – yəni Cənubi Azərbaycan ərazilərinə hücum eləmək məqsədini var gücüylə gizli saxlayırdı. Ta o vaxta qədər bu niyyət davam edəcəkdi ki, Şimali Azərbaycan ərazisindəki güclə öz gücünü birləşdirə və möhtəşəm orduya Ağqoyunluları bircə həmləylə darmadağın edə bilsin. Yox, əgər Ağqoyunlular onun düşündüyü qədər də zəif deyillərsə, onda hələ uzun müddət onlarla sülh şəraitində yaşamağı üstün tutmalı idi. Babası Teymurun vəsiyyətlərindən biri də bu idi ki, qüvvəsini bilmədiyin düşməni gərək özündən çıxarmayasan. Xüsusilə, nə vaxtsa diz çökdürəcəyin qüvvə hələ ki, sənə qarşı güc göstərmək niyyətində deyilsə…

…Xorasan əraziləri ilə kifayətlənmək istəməyən Teymuri hakimi zamanın XV əsrinin ikinci yarısından sonrakı tarixi öz adı ilə şərəfləndirmək üçün əlaltdan planlar cızmaqdaydı. Bu planlardan biri də qarşılaşacağı qüvvələrə qalib gəlmək üçün hiylə işlətmək, düşməni uzun müddət arxayın salmaq, bununla da özünü hazır hesab edəndə, birbaşa zərbə endirmək idi. Əbu Səidin otuz minlik ordusunun ayrı-ayrı bölmələrinə böyük döyüş təcrübəsi keçmiş, ayrı-ayrı döyüşlərdə ad-san qazanmış, Teymurilərin şöhrətlənməsində xidmətləri olmuş Xacə Şəmsəddin, Əmir Nizaməddin və Mahmud Cəlaləddin rəhbərlik edirdi. Xüsusilə, Mahmud Cəlaləddin Cənubi Azərbaycan ərazilərini yaxşı tanıyırdı. Təbriz tərəflərə də bələdliyi pis deyildi, çünki uzun müddət qonşu dövlətlərin hökmdarları ilə elçi kimi görüşmüş, yaxşı müşahidələr aparmış, yolları, keçidləri kifayət qədər öyrənmişdi. Xacə Şəmsəddin əsasən Xorasan əyalətinə və üzü Orta Asiya tərəflərə bələdliyilə seçilirdi. Əmir Nizaməddin isə Muğan və Şirvan tərəfləri barədə dərin bilgiyə malik idi.

Yəqin elə bu səbəbdən Əbu Səid üç görkəmli sərkərdəni yanına çağırıb, onlarla məşvərətə başlamaq fikrində olduğunu bildirdi. Əbu Səidi yaxşı tanıyan sərkərdələr onun niyyətindən xəbərdar idilər. Ancaq hökmdar sözə başlamamış heç kim mülahizə yürütmək, fikir söyləmək istəmirdi. Əbu Səid şərab piyaləsini əlinə götürüb, az qala başı üzərinə qaldırdı:

– Hə, mənim quzğunlarım, necə bilirsiniz, biz hələ nə qədər toyuq kimi hazır dənlə qidalanacağıq? Biz qıy vurub ordular dağıtmalı, xanimanlar sökməliyik.

Birinci Xacə Şəmsəddin dilləndi:

– Hökmdar doğru buyurur. Daha Xorasan bizim ordularımızı yemləmək üçün bəs eləmir. Əgər təzə qənimətlər olmasa, nəinki ordu, əhali arasında da narazılıq başlayacaq.

Əbu Səid hövsələsizliklə şərabı başına çəkdi. Sərkərdələr də dolu badələrdən qurtum aldılar. Tünd qırmızı şərabın təsirindən Əbu Səidin üz-gözü qırışdı. Qızardılmış əmlik quzu budunun tikəsini əliylə qamarlayıb, seyrəlmiş və çürük dişləriylə dartışdırdı. Əti tələsik ağzında hövkələyib löm-löm uddu. Onu gözaltı süzən Mahmud Cəlaləddin sanki hökmdarın bu hərəkətindən belə başa düşdü ki, o, sərkərdələrinə məqsədini çatdırır: «Yəni baxın, görürsünüzmü, biz Azərbaycan ərazilərini bu əmlik quzu budu kimi parçalayıb löm-löm udmalıyıq». Bu məqamda Mahmud Cəlaləddin daha hökmdara demək istəmədi ki, seyrəlmiş və çürük dişlərimizlə didib-qopartdığımız parçaları qədərincə çeynəyə bilmədiyimiz üçün mədəmizə diri-diri ötürürük. Bu çeynənməmiş ət parçaları mədəmizdə kiflənər, bizi içimizdən dağıdar.

Hər halda Mahmud Cəlaləddin özü də nəsə deməliydi. Elə ona görə söz güləşdirmədi:

– Böyük hökmdar həmişə qəzəbə yox, ağıllı əmələ üstünlük verib. Mən bu gün də hökmdarımızı belə görürəm. O, hər addımı yaxşı-yaxşı ölçüb-biçəcək və sonra əmr verəcək.

Əbu Səid Mahmud Cəlaləddini diqqətlə dinlədi, amma söylədiklərini demək olar, tam başa düşmədi. Ya tünd şərabın təsiri onun başına vurmuşdu, ya da Mahmud Cəlaləddin çox dumanlı danışırdı. Yox, o, gərək aydın danışsın.

– Yaxşı, onda bizim Mahmud Cəlaləddin nə məsləhət görür, biz nə vaxta qədər qınımızda pas atacağıq? Gözümüzün qabağında Ağqoyunlular nəhəng palıd kimi kök atıb budaqlanır.

Mahmud Cəlaləddin hiss elədi ki, hökmdar onun çıxışından narazı qalıb. O, hökmdarın özünə olan rəğbətini itirəcəyindən qorxurdu. Ona görə də tez əsas fikrini malaladı:

– Biz çoxdan hərəkətə keçməliydik. Ancaq hərəkətə keçməzdən əvvəl gərək qarşı tərəfin də gücünü yaxşı-yaxşı öyrənək. Məncə, Ağqoyunlu Uzun Həsənin bir tərəfi Trabzona bağlıdır. Elə bu səbəbdən də Sultan Mehmed bu tezliklə onunla qarşılaşmaq istəmir.

Əbu Səid şərab kuzəsini piyaləsinin üstünə əydi. Al-qırmızı şərabın piyalədəki qabarcıqlarına bir xeyli baxdı. İndi şərab onun gözlərində qırmızı qan kimi çalxalanırdı, ancaq bu xırdaca köpürcəklər bir qədər onun diqqətini ayırmışdı. Elə bil şərab onunla danışırdı: «Hə, bax, bu qanı elə içməlisən ki, o sənə güc və qüvvət versin. Yoxsa, çox içərsən, axırına çıxar».

Əbu Səid, deyəsən, ətrafındakı sərkərdələrini unutmuşdu, öz-özünə danışırdı: – Mən hər bir əməlin qədərini yaxşı bilirəm. Bir vaxt bizim babalarımız bütün Orta Asiyadan, lap elə Altaydan üzü bəri Kiçik Asiyayacan hədər yol keçməyib. Onlar dünyanın yarısını öz qüdrətlərilə fəth ediblər.

Əbu Səid sanki öz-özünə danışdığı söhbətini davam elədi. – Deyirlər, Uzun Həsən öz sərkərdələrilə tez-tez məsləhət-məşvərət eləyir. Onların söylədiklərini vaxtaşırı dinləyir, Ağqoyunluların ədalətli olmaları haqqında bütün qonşu ərazilərdə söz-söhbətlər yayır. Siz görürsünüzmü, hətta bizim Xorasan əyalətində də insanlar Uzun Həsənin adını hörmətlə çəkirlər. Bizim babalarımızın

şöhrətinin müqabilində Uzun Həsənin şöhrəti nədir ki… Biz gərək Əmir Teymurun Azərbaycan ərazisindəki hökmünü geri qaytaraq. – Yenə Əbu Səid dayandı. Sakit-sakit onu dinləyən sərkərdələrinə baxdı, onların gözlərində bir ixtilaf, ya qorxu işartısı gəzdi. Onun sərkərdələri əmrə müntəzir idilər və özləri də kifayət qədər inamlı görünürdülər. Əbu Səid də elə bu inamdan sanki təzədən güc aldı. – Mən indi bu balaca Xorasan əyalətində baş qata bilmərəm.

Bayaqdan bəri məclisi ayıq gözlə süzən Əmir Nizaməddin piyaləsini başı bərabərinə qaldırıb üzünü Əbu Səidə tutdu:

– Mən onu deyirəm ki, bizim hökmdarımız – Əbu Səid heç də babası Əmir Teymurdan az qüdrətli deyil. Doğrudur, Əmir Teymurun bütün varidatı onun digər övladlarına qalıb. Onlar Orta Asiyada öz əmirliklərini həmin varidatın sayəsində saxladıqları halda, bütün Xorasanı biz ancaq öz gücümüzlə saxlayırıq. Əgər bizim gücümüz olmasaydı və gücümüzdən Uzun Həsən ehtiyatlanmasaydı, onda Qaraqoyunlularla savaşı bitirdikdən sonra elə birbaşa bizim üzərimizə yürüşə girişərdi. Məlum olduğu kimi, Uzun Həsən indi ətraf qonşularla sülh şəraitində yaşamağa üstünlük verir. Belə bir siyasət yürüdür ki, guya o, heç kimlə müharibə etmək niyyətində deyil.

Əmir Nizaməddinin nitqi uzun oldu, çünki Əbu Səid piyaləni əlində artıq saxlamaq istəmirdi. Nitqin uzunluğundan hövsələsi daralmış, yaxud elə tünd şərabın təsirindənmi əlləri əsməyə başlamışdı. Nizaməddin bunu görüb tez nitqini dayandırdı və sözünün yekununu dedi:

– Böyük əmirin sağlığı bizim üçün yenilməz güc və qüvvə deməkdi. Nə vaxt desə, biz bu gücü Uzun Həsənin də, lap elə Şirvanşahların da üzərinə asanlıqla endirərik. Qoy olsun, biz heç vaxt canımızdan qorxmamışıq. Hökmdarımızın şərəfinə! – Əmir Nizaməddin piyaləsini başına çəkdi, heç üz-gözünü də qırışdırmadı. Bir parça quzu quyruğunu götürüb ağzına qoydu. Asta-asta ağzını marçıltdatdı, ləziz tikənin ağzında əriməsindən həzz

aldı. Əmir Nizaməddin də köhnənin çoxbilmişi idi. O, bununla həm sərkərdələrə, həm də Əbu Səidə çatdırırdı ki, qənimətin yağlı və asan qoparılan yerindən yapışmaq gərəkdir.

Onu yaxşı başa düşən Xacə Şəmsəddin başını asta-asta silkələdi. Dolu piyaləsini yuxarı qaldırıb, sözə başladı:

– Əbu Səid mənim üçün hökm verən Tanrımdı. Mən onun əmrinin quluyam. – Bir anlığa dayandı. Deyəsən, bir az əvvəl Əmir Nizaməddinin uzun çıxışından hökmdarın xoşhal olmadığını gözlərinin önünə gətirdi. Əgər onun da çıxışından razı olmayacaqdısa, onda Əbu Səid cilovlaya bilmədiyi qəzəbilə məclisə pərxaşlıq salar, onların hər üçünü yanından qovardı. Özlərinə deməsə də, yadında saxlayıb, növbəti yürüşlərində onları qənimət payından məhrum edər. Vaxt isə gözləmirdi. Xacə Şəmsəddin sözünü bitirməliydi: – Mənim bir canım var, o da Əbu Səidindir.

Əbu Səid istehza ilə gülümsündü:

– Sənin canın mənim nəyimə gərəkdi?

Xacə Şəmsəddin asanlıqla güzəştə getmədi:

– Yox, mənim canım yalnız hökmdara qələbə payı gətirəndən sonra ənam alar. Lap bu ənam onun verdiyi ölüm hökmü olsa da.

Deyəsən, Xacə Şəmsəddinin bu sözləri hökmdarı xeyli razı saldı. O, rəğbətli baxışlarla qoşun bölmələrinin başçılarını süzdü. Şərab piyaləsini götürüb, sərkərdələrinin piyalələrinə yaxınlaşdırdı, sonra da başına çəkdi. Bu dəfə Əmir Nizaməddinin bayaq qoparıb yediyi quyruq tikəsindən o da qopartdı. Onu əzmək üçün dişlərə gərək yox idi. Quyruq tikəsi ağzında öz-özünə əridi. Və birdən Əbu Səid qəhqəhə çəkib güldü:

– Aha, mən indi bildim. Siz çox ehtiyatla hərəkət etməyi, qənimətin yağlı tikələrini ustalıqla ələ keçirməyi təklif edirsiniz.

Sərkərdələrin hər üçü birdən dilləndi:

– Bəli, hökmdar, biz də elə bunu düşünürdük.

– Bəs bunun üçün biz neyləməliyik? – Əbu Səid sualını qətiyyətlə verdi.

Yenə sərkərdələrin hər üçü bir ağızdan dilləndi:

– Bunun üçün səbir gərəkdir, hökmdar. Tələsmək bizə xeyir gətirməz, tələsik işə şeytan qarışar…

* * *

Zaman karvanının hakimi-mütləqi Ulu Yaradan olsa da, onu çəkib tarixin zirvələrinə doğru aparan güclü hökmdarlardı. İndi tarixin elə dönəmi gəlib çatmışdı ki, zaman karvanı öz ovsarını Uzun Həsənin ixtiyarına vermişdi. Az müddətdə güclü nüfuz qazanmış, sərhədlərini genişləndirməyi bacarmış, qonşu ölkələrlə sıx diplomatik münasibətlər yaratmış Uzun Həsən hələ ki, sürətlə yayılmaqda olan şöhrətindən xumarlanmağa vaxt tapmamışdı. Çünki onun gücünü rəqib ola biləcək hökmdarlar hələ o qədər bilmirdilər. Uzun Həsənin ölkəsi üzərinə hücum edib onun çiçəklənməkdə olan ad-sanının, şöhrətinin qabağını kəsmək, bu şan-şöhrəti bədnamlığa çevirmək istəyənlər də az deyildi. Doğrudur, Şirvanşahlarla, Qarabağ hakimləri ilə isti münasibətlər yaranmışdı. Buna baxmayaraq, bu isti münasibətlər də hələ hər şey demək deyildi. Anadolu tərəflərin Ağqoyunluların nəzarəti altına keçməsi əhali tərəfindən razılıqla qarşılansa da, Osmanlıların aşıb-daşan ehtiraslarına od vurmuşdu. Amma hələ ki, tarixi yol üstündə kifayət qədər güc qazanmış qonşular tərəfindən açıq hədələr gəlmirdi. Elə bu qonşuların özləri də, uzaq-yaxın Avropa ölkələrindən də Təbrizə, Uzun Həsənin sarayına elçilər gəlməkdə davam edirdi. Doğrudur, üzdə bu elçilər Uzun Həsəni öz taxtında qutlamaq məqsədilə gəldiklərini bildirir, öz ölkələri adından onu təbrik edir, taxt-tacında uzun ömür arzulayırdılar. Digər tərəfdən əsrlər boyu dövlətçilik təcrübəsi olan Avropa hakimləri bacarıqlı, təkcə elə bir göz yetirməklə ölkənin gücünü ölçə bilən adamlarını Uzun Həsənin sarayına göndərməklə, bu ölkənin nəyə qadir olduğunu, başçısının məqsəd-məramını tezliklə öyrənməyə can atırdılar. Güclü süvari ordusu varmı, yoxmu? Hansı müasir silah-

ları əldə edib? Odlu silah Ağqoyunluların əlinə keçibmi, əlinə keçibsə onlar bu silahdan necə istifadə ediblər?.. Bu kimi çoxlu sualların cavablarını Uzun Həsənin sarayına gələn elçilər öz hökmdarlarına yetirməli idilər. Bəlkə bundan sonra Uzun Həsənin hökmranlıq taleyi uzaq saraylarda həllini tapacaqdı. Bunlar uzaq sarayların nigarançılığı, öyrənmək istədikləri mətləblərdi. Ancaq yaxınlıqda da Uzun Həsənin sürətlə yayılmaqda olan şöhrətinin qabağını kəsmək istəyənlər vardı. Bunlardan birincisi Əbu Səid idi ki, o, tezliklə Ağqoyunlular üzərinə basqın etmək fikrindən əl çəkmirdi.

…Əbu Səidə elə gəlirdi ki, təkcə bir həmlə ilə babası Teymurun fəth elədiyi əraziləri öz cənginə ala bilər. Təkcə bir vuruş bəs eləyər ki, babası Əmir Teymur kimi uzaqdan-uzağa Avropa ölkələrinin də dizlərini titrətsin. Əlbəttə, bu, Əbu Səidin xam xülyası idi. Əsl həqiqət mənzərəsi isə başqa şey deyirdi. Uzun Həsənin bəxt gülzarı çiçəklənməkdə, tale yolu Tanrının əlilə açılmaqda idi.

Keçmiş şöhrətə arxalananların bəxti çox vaxt üzünə gülmür. Bəxtin üzüdönüklüyünü sonralar biləndə isə artıq gec olur. Axı tarixi yolundan döndərmək mümkün deyil…

Xorasanın yaxınlığında bağlı-bağatlı, sərin ab-havalı Kalbunda məskunlaşan Əbu Səid buranı özünə məskən seçmiş, ən mühüm qərarlarını da özünə yaxın sərkərdələrin iştirakı ilə elə burada qəbul edirdi.

…Yemək-içmək məclisi təzəcə yekunlaşmışdı, amma Əbu Səid sərkərdələrinə əsl məramını hələ çatdırmamışdı. Əslində Əbu Səid sərkərdələrinə ordunu hər cür əmrə hazır vəziyyətə gətirmək tapşırığı vermək istəyirdi, amma bu tapşırığın arxasında nə dayanır, onu hələ açıqlamaq niyyətində deyildi. Bu, onun köhnə xasiyyəti idi. Bir neçə istiqamətdə kəşfiyyat aparar, ətrafda müşahidəçilərin diqqətini yayındırar, sonra həmlə vaxtı gələndə, işə keçərdi. İndi də məramını yarıörtülü vəziyyətdə saxlamaq qərarında ikən mühafizlərdən biri içəri girib dedi:

– Ağqoyunluların elçiləri gəlib – xəbəri verib, Əbu Səidin nə deyəcəyini gözlədi.

Deyəsən, Əbu Səid bu xəbəri gözləmirdi. Ona görə də bir qədər əsəbi dilləndi:

– Nə Ağqoyunlu, nə elçi?!

Mühafiz bir qədər çaşqınlıqla geri çəkildi. Lakin Əmir Nizaməddin hökmdarın gözlərində parlayan qəzəb qığılcımlarının Təbrizlə, lap elə Uzun Həsənlə bağlı olduğunu həmin andaca anladı. Əbu Səid də asanlıqla hirsini büruzə verən deyildi. O, xaricdən gələn elçilərlə lap tülkü sayıqlığı ilə danışmağı bacarırdı. Ancaq indi hirsini boğa bilməməyi yəqin ki, şərabın təsirindən idi. Əmir Nizaməddin istəmədi ki, hökmdarın əsəbini bəri başdan gələn nümayəndələr hiss eləsin.

– Ey böyük Əmir, Uzun Həsən kimdir ki, sən bəri başdan qəzəbini büruzə verirsən? Bir gəlsinlər, biz onları dinləyək. Hələ bəlkə, xoş məramları da var. – Əmir Nizaməddinin bu sözləri sanki hökmdarın köpünü aldı, onu sakitləşdirdi.

Mühafiz yalnız bundan sonra bir də dilləndi:

– Hökmdar, Təbrizdən gələn nümayəndə heyətinin başçısı Uzun Həsənin anası Sara Xatundur.

O, əli ilə mühafizin getməsini işarə elədi. Bu işarə, həm də nümayəndə heyətinin qəbuluna razılıq idi. Əbu Səid yumşaq taxtın üstünə yayxandı. Dərindən nəfəs aldı. İstər-istəməz xəyal çəkib apardı. Əgər Uzun Həsən nümayəndə heyətinin başçısı kimi anasını göndəribsə, demək, o, Əbu Səiddən çəkinir. Hələ bəlkə, qorxur da. Amma onun Əbu Səidə qarşı elə bir bəd niyyəti olsaydı, heç nümayəndə heyətinin başçısı kimi anasını da yollamazdı. Demək, nümayəndə heyəti onun yanına xahişə, minnətə gəlib.

Əbu Səid sağ əlilə alnını möhkəm ovuşdurdu. Sanki şərabın təsirindən başı üstündə cəmləşmiş buludu dağıdırdı.

Mühafiz ikinci dəfə içəri girdi: – Nümayəndə heyəti sizi gözləyir.

Əmir yerindən qalxar-qalxmaz sərkərdələr də qalxdılar. Qabaqda Əmir Əbu Səid, arxasınca sərkərdələr Əbu Səidin hüzuruna çatmış elçilərin qabağına tərəf yeridilər. Qabaqda Sara Xatun atın üstündə idi. O, Əbu Səidin hüzuruna çatan kimi atın yüyənini çəkdi. Əbu Səid qabağa yeriyib Xatunun atdan düşməsinə kömək etmək istədi. Əbu Səid yaxınlaşmağa macal tapmamış Sara Xatun cəldliklə atdan düşdü. Onun hərəkətlərində cəsur qadın qıvraqlığı duyulurdu. Mühafizlər atları bir tərəfə çəkdilər. Elçilər Sara Xatunun yanında dayanmışdılar. Sara Xatun irəli yeriyib əlini uzatdı. Əbu Səid Sara Xatunun hökmlü gözlərində bir cəsarət və qətiyyət görürdü. O, Sara Xatunun irəli uzanmış əlini öpdü. Digər elçilərlə də sərkərdələr görüşdü. Hamı birlikdə Əbu Səidin iqamətgahına qayıtdı. Qonaqlar da, ev sahibləri də dövrə vurub əyləşdilər.

Birinci Əbu Səid dilləndi:

– Xoş gəlib, səfa gətirmisiniz.

Sara Xatun həmin andaca cavab verdi:

– Biz də sizin xoş gününüzə gəlmişik.

– Həsən əmirin anasını sarayımda görmək məni çox sevindirir. Anlayıram ki, ağıllı və müdrik bir ananın aramızda yaradacağı ünsiyyət körpüsü heç vaxt qırılmayacaq. Bu körpünün əbədi olacağına heç bir şübhəm yoxdur.

Sara Xatun Əbu Səidin hiyləgərliklə Uzun Həsəni padşah deyil, əmir adlandırmasının nə məqsədlə deyilməsini göydəcə tutsa da, özünü o yerə qoymadı. Başı ilə razılıq eləyib, dilləndi:

– Biz də elə bunu istəyirik. Bu inamımızı sizə çatdırmaq üçün gəldik.

– Bəs nə üçün Uzun Həsən özü yox, anası gəlib? – Əbu Səid hiyləgərliklə söhbəti dəyişmək istədi.

– Hörmətli sultana bildirim ki, indi Təbrizə dünyanın çox ölkələrindən elçilər gəlir. Onların əksəriyyəti təcili görüş istəyir, cavab aparırlar. Belə vəziyyətdə Həsən padşahın saraydan çıxması qeyri-mümkün idi. – Sara Xatun aydın cavab verdi.

– Doğrudur, başa düşürəm, cavan bir əmir üçün böyük bir xanədanın sərvəri olmaq asan deyil. Gələnlərin də hər birinin öz məramı, məqsədi var. Baxmayaraq ki, onlar təbrik adı ilə gəlirlər. – Əbu Səidin tülkü bicliyilə sözü müxtəlif tərəflərdən hərləyib, Uzun Həsənin hakimiyyətlə bağlı niyyətlərini ört-basdır etsə də, Sara Xatun onu lap yaxşı anlayırdı.

– Elə mənim özüm onun yanına təbrikə gələcəkdim. – Bunu Əbu Səid bir az yumşaq, həm də inandırıcı demək istədi.

Sara Xatun tez onun cavabını qaytardı:

– Yox, Həsən padşah qətiyyən razı olmazdı ki, siz uzaq yolu zəhmət çəkib Təbrizə gələsiniz. Ona görə də qonşuluq haqqı olaraq və aramızda davamlı sülhün təminatı üçün sizə çox qiymətli ənamlar yollayıb…

– Çox məmnunam, Sara Xatun, çox məmnunam. – Əbu Səid razılıqla sözünü təkrarladı.

Bundan sonra Sara Xatun özüylə gəlmiş elçilərdən birinə işarə vurdu:

– Sultan üçün olan hədiyyələrimizi gətirin!

Mühafizlərin köməyilə qiymətli hədiyyələr, bahalı xalatlar Əmirin qarşısına düzüldü. Əmir Əbu Səid hədiyyələri pişik gözlərilə seyr edir və baxdıqca da:

– Çox yaxşı, çox yaxşı – deyə razılığını gizlətmirdi.

Axırda bahalı parçaya bükülmüş qunduz dərisindən olan xəz xələti çıxartdılar. İri xəz xələt möhtəşəmliyi ilə Əbu Səidi lap sevindirdi. Qədim türk ənənələrinə görə xəz xələt hədiyyə göndərən hakim ömürlük dostluq əhdi bağlamaq niyyətini çatdırırdı. Elçi ənənəyə görə onu yuxarı qaldırdı. Və yenə qədim türk ənənəsinə görə Əbu Səid də ayağa qalxdı. Elçi xələti onun çiyninə saldı.

Əbu Səid, heç şübhəsiz, qədim türk ənənəsinə uyğun bu qiymətli hədiyyənin nə demək olduğunu yaxşı bilirdi. Əlilə xəz xələtin yaxasını sığalladı. O, xələtin yaxasını sığalladıqca, sanki qarışmış düşüncələrinin də düyününü axtarırdı. İtilənmiş tamah

qılıncının ağzını döndərib, bu qılıncı qınına çəkmək istəyirdi. Amma Ağqoyunlu xanədanına nifrətini də gizlədə bilmirdi. Handan-hana dilləndi:

– Hörmətli Sara Xatun, Həsən bəyə çatdırın ki, mən onun sülh təklifini ürəkdən qəbul edirəm, mənim onunla heç bir işim olmayacaq. Ancaq Qarabağ tərəflərə, Muğana səfərimin olacağını da gizlətmirəm. Bilirsiniz ki, o yerlərin hakimlərilə bizim dədə-baba dostluğumuz var.

– Bilirəm, sultan, bilirəm. Az-çox tarixdən xəbərdaram. – Sara Xatun ümumi, həm də ikibaşlı cavab verdi. Bununla o, Əbu Səidə çatdırmaq istədi ki, həm sənin niyyətini başa düşürəm, həm də bu səfərin nə demək olduğunu anlayıram.

– Əgər tarixdən xəbərdarsınızsa, onda gərək mənim səfərimə mane olmayasınız. – Bu sözləri Əbu Səid hökmlə dedi.

– Xoş niyyətlə gələn hər qonaq üçün, eləcə də hər müsafir üçün yol açıqdı. – Sara Xatun bu cavabı ilə Əbu Səidə açıqca onun nə demək istədiyini başa düşdüyünü anlatdı.

– Ha-ha-ha… əlbəttə, xoş niyyətlə, – Əbu Səid güldü.

Əbu Səid işarə elədi. İçəri daxil olan xidmətçilər öncə şərbət gətirdilər, ardınca qonaqların şərəfinə süfrə açıldı… Bir neçə saat sürən məclisin sonunda Sara Xatun ayağa qalxdı. Əbu Səid də, sərkərdələr də, eləcə də, elçilər də ayağa durdular. Elçilər atlara süvar oldular. Sara Xatun da əlini sinəsinə gətirib, Əbu Səidlə xudahafizləşdi. Sultanın göstərişilə Sara Xatuna Uzun Həsən üçün ənam olaraq göndərilən tac, qızıl kəmər və qılınc təqdim edildi. Sara Xatun elə gəldiyi qıvraqlıqla da öz atının belinə sıçradı…

…Kalbunun üstünü uzaq dağların kölgəsi örtməkdəydi. Kölgə sanki Kalbunun üzərinə qaranlıq gətirirdi.

Artıq gözdən itməkdə olan atlıların arxasınca baxan Əbu Səid başını buladı.

– Yox, bu qaranlıq mənim yox, Uzun Həsənin üstünə yeriyir, – astaca dedi.

Sonra da bayaqdan bəri göz qapaqlarıyla güləşən yuxunun arxasınca getdi…

* * *

Anası Əbu Səidin yanından qayıdandan sonra Uzun Həsən hadisələrin necə irəliləyəcəyini, zamanın kimin xeyrinə don biçəcəyini götür-qoy etməkdəydi. Uzun Həsən onu əhatə eləyən məmləkətlərlə dil tapmaq, ünsiyyət qurmaq, hətta mümkün qədər müharibələrsiz keçinmək üçün müxtəlif istiqamətlərə çapar – elçilər göndərir, təmtəraqlı məktublar yazdırırdı. Doğrudur, məktubların çoxuna başdansovdu cavablar verilir, bəzilərinə də ürək-dirək verən, təmkin aşılayan məsləhətlər də əlavə olunurdu. Xüsusilə, Avropa ölkələrinə göndərdiyi ismarıclar cavabsız qalır, həmin Avropa ölkələrindən gələn ayrı-ayrı şəxslər ona daha çox Osmanlılardan ehtiyatlı olmağına dair lüzumsuz məsləhətlər verirdilər. Roma Papasının adından gələn rəsmi elçi Uzun Həsənə ciddi-cəhdlə başa salmaq istəyirdi ki, Osmanlılar onun üzərinə hücuma keçmək üçün fürsət gözləyir və hətta məqsədlərinin gerçəkləşməsi üçün hətta Avropa ölkələrindən kömək də istəyirlər. Osmanlılar silahlarını yeniləməyə çalışır, Avropadan odsaçan toplar alırlar. Uzun Həsən bunu da başa düşürdü ki, əgər Osmanlılar belə bir ciddi-cəhdlə hazırlıq görürlərsə, demək, onların məqsədləri ciddidir. Şübhəsiz, Anadolu tərəflərin Uzun Həsənin hakimiyyəti altında olması məsələsilə Osmanlılar hələ də barışmamışdılar. Onlar hər vəchlə bu əraziləri geri qaytarmaq, eləcə də, Ağqoyunluları ilkin qarşılaşmada məğlub edərək, hərbi cəhətdən sındırmaq, gücdən salmaq yolu seçmişdilər. Və bu fikirlərindən daşınmırdılar. Uzun Həsən inanırdı ki, Osmanlılar ilkin fürsət tapan kimi onun üstünə hücuma keçəcəklər. Əvvəla, Uzun Həsənin bu inamında Roma emissarlarının xidmətləri danılmaz idi. Onlar artıq Uzun Həsənin gözündə Osmanlıları düşmən obrazı kimi kifayət qədər formalaşdırmışdılar. İkincisi də,

Osmanlılar özləri də Anadoluya olan iddialarını gizlətmir, imkan düşərkən sərhəd həmlələrindən çəkinmirdilər.

...Hələ də Şirvanşahlarla Ağqoyunlular arasındakı soyuq münasibətin dəyişməməsi də bir tərəfdən Uzun Həsəni narahat edirdi. Orası doğru idi ki, Şirvanşahlar tarixən Əmir Teymurun müttəfiqi olmuşdular. Ağıllı Şirvanşah İbrahim Teymur kimi az qala dünyanı əzmək iqtidarında olan bir sərkərdə ilə dil tapa bilmişdi. Bu hökmdarlar, – Teymurləng və Şirvanşah İbrahim öz zamanlarını yaşayıb, dünyadan köçdükdən sonra da, bu dostluq əlaqələrini Əmir Teymurun varisləri də, eləcə də, Şirvanşahların varisləri də qorumaqda idilər. Fəqət, zaman başqa zaman idi. İndi nə Teymur vardı, nə də onun yeri-göyü lərzəyə salan qüdrətli ordusu... Teymurun varisləri böyük imperiyanın bir çox ərazilərindən yığışaraq Orta Asiya səhrasının içərilərinə doğru çəkilmişdilər. Onlardan qalan Əbu Səid idi ki, o da artıq çevik hərəkət etmək iqtidarında deyildi.

İndi tarix səhnəyə Osmanlılarla rəqabət gücündə olan Ağqoyunlu kimi bir dövlət çıxartmışdı. Bütün bunları Şirvanşahlar da bilməmiş deyildilər. Yəqin ki, Şirvanşah Fərrux Yasar Teymuri sərkərdəsi – Xorasan sultanı Əbu Səidin hər hansı ittifaq təklifini açıq-aşkar etirazla qarşılamasa da, artıq ömrünü bitirməkdə olan bu əmirin yedəyində də gedəsi deyildi. Yəqin o, daha güclü Ağqoyunlu hökmdarı Uzun Həsənlə ittifaq bağlamağa, onunla birgə hərbi yürüşlərdə iştirak etməsə də, ona qarşı münasibətdə yumşaq və bitərəfliyi də qorumalı olmağa daha çox razı idi.

Sara Xatun Əbu Səidlə görüşünün bütün incəliklərini Uzun Həsənə danışmışdı. Və Uzun Həsən də anasının təlimatından belə başa düşmüşdü ki, Əbu Səid dədə-babadan qalma işğalçılıq niyyətindən əl çəkməsə də, onun çevik hərəkət gücü yoxdu. Orası var idi ki, əlində çox böyük ordu, özü də döyüş təcrübəsinə malik peşəkar ordu cəmləşmişdi. Əgər Əbu Səid çevik yerdəyişmə ilə ordusunu döyüş vəziyyətinə gətirsəydi, ara müharibələrində

yorulmuş, hələ də təzə qüvvələri cəmləşdirə bilməmiş Uzun Həsənin öhdəsindən gələ bilərdi. Bu da ağlabatan görünmürdü. Çünki Sara Xatun nüfuzedici nəzərlərilə Əbu Səidin ərazilərini müşahidə etmiş, sərkərdələrinin danışıq tərzi və tövrünü izləmiş və belə bir qərara gəlmişdi ki, Əbu Səid hələ bu tezliklə onun üzərinə yeriyə bilməz. Sara Xatun hiss etmişdi ki, Əbu Səid şərab aludəçisidir. Bu da onu sağlam düşünmək imkanından məhrum edir. Sara Xatun oğluna elə belə də söylədi:

– Onu tamahı cilovlayıb döyüş meydanlarına çəksə də, gözlərindən tökülən yuxu yatağa dartır.

– Deyirsən ki, tamahla yuxu Əbu Səidlə savaşdadır?

– Bəli, bəli, mən belə də gördüm, – Sara Xatun birbaşa cavab verdi.

– Əbu Səidin tamahı ilə yuxusu arasındakı savaş, bəlkə tez bitdi. Və bu savaşda, bəlkə elə onun tamahı qalib gəldi. Bəs onda necə olsun? – Uzun Həsən anasına baxmadan sanki bu sözləri özözünə dedi.

– Əziz anam, dediyindən belə başa düşürəm ki, biz tezliklə Əbu Səidlə qarşılaşacağıq.

– İndi bu döyüşdə kimin qalib gələcəyi onun necə hazırlaşmağından asılıdır; – Sara Xatun bu dəfə oğlu ilə sanki uzun illər öncəki ana-bala arasındakı dillə danışdı. – Mənim balam, sən nigarançılıq çəkmə, Tanrı ağıllı və ədalətli olanların tərəfini saxlayır.

– Onda belə çıxır ki, biz Əbu Səiddən daha ağıllıyıq?

– Mən deməzdim ki, Əbu Səid mənim oğlumdan ağılsızdır, yox, o da ağılsız deyil. Ancaq mənim oğlum daha cavan və güclüdür. Öz ordusunu da döyüşə sürətlə hazırlaya bilər.

– Bəlkə, Əbu Səidin ordusu döyüşə hazırdır? – Uzun Həsən səbirsizliklə sual verməkdən çəkinmədi.

– Yox, mən qətiyyən elə düşünmürəm, – Sara Xatun inamla dilləndi, azacıq sükutdan sonra oğlunun dinmədiyini görüb əlavə elədi, – mən Kalbunu da gördüm. Yolboyu yerli sakinlərlə də

söhbət eləmişəm. Əvvəla, onun heç bir hazırlığı yoxdu, sadəcə, köhnə qüvvələri əlində saxlayır. İkincisi də, əhali ondan narazıdır. Vergiləri o qədər çoxaldıb ki, adamların tabı-təvanı qalmayıb. Bir ölkədə ki, vergilər həddini aşdı, artıq əhalinin boynuna qoyuldu, o ölkədə insanlar sultanı qətiyyən istəməzlər. Əhali hakimiyyətin tərəfində durmadısa, onda ordu da gücsüz olar. Ordu kimdir, hansı qüvvədir? Yerli əhalinin övladlarıdır, onlar görürlər ki, doğmaları, yaxınları necə böyük əziyyət çəkir. Onda ürəklə vuruşmaz, hərbin yolunda can qoymayan belə qoşuna Vətən əziz ola bilməz. Bax, bu səbəblərə görə mən inanıram ki, Əbu Səidin qüvvələri sənin təsəvvür elədiyin kimi o qədər də güclü deyil. Onlar yalnız keçmiş ad-sanına, şan-şöhrətinə güvənir. O mərhələ isə keçilib, çoxdan Əmir Teymurun özüylə məzara gömülüb. İndi Azərbaycanda artıq Teymurilərin adı gələndə nifrətlərini gizlətmirlər. Bu, Muğanda da, Qarabağda da belədir. Mən inanıram, elə Şirvanda da belədir.

Anasının diqqətlə dinləyən Uzun Həsən yenə onun bu qədər zəngin, əhatəli məlumata malik olduğuna heyrətini gizlətmir, məmnunluqla qulaq asırdı. Ancaq ona elə gəldi ki, anası sözünü axıracan tamamlamadı.

– Bəs onda Osmanlılar haqqında nə deyirsən? – anasından soruşdu.

– Hə, yaxşı olardı ki, Osmanlılarla biz birdəfəlik, əbədi qardaşlıq sülhü bağlayaydıq. Axı hər iki tərəf türkdü. İki böyük türk dövləti bir-birilə qırılmaz qardaşlıq müqaviləsi bağlasa, onda dünyanın hansı bir ölkəsi cəsarət tapıb bu qardaşların üzünə ağ ola bilər? Bu qardaşların qüdrətli birliyi elə bir güc sahibi olar, dünya lərzəyə gələr, nüfuzlu ölkələr bizimlə ittifaqa can atarlar. Hələ belə bir etibarlı sülh yoxdur, onda hər kəs öz işini ehtiyatlı görməlidir. Əvvəla, Osmanlılar da belə bir ehtiyatı əldən verməzlər. Çünki Əbu Səid Ağqoyunlulara qalib gəlsə, onda Şirvanşahlarla asanlıqla ittifaq bağlayar. Və Osmanlılar üçün Əbu Səid qarşısıalın-

maz təhlükəyə çevrilər. Elə bu səbəbdən Osmanlılar istəyəcəklər ki, hələlik Əbu Səidin qarşısını ala biləcək yeganə qüvvə Ağqoyunlular olduğu üçün, qoy hələlik Ağqoyunlular Əbu Səidi tarix səhnəsindən silsinlər, – deyəsən Sara Xatun sözünü qurtardı, oğlunun acgözlüklə dinlədiyini görüb yenə nəsə əlavə etmək istədi. Deyəsən, dodaqaltı pıçıldadı. Heç Uzun Həsən də eşitmədi ki, anası nə əlavə elədi.

Onda Uzun Həsən özü dilləndi:

– Bu tarix səhnəsi elə bir tamaşa olsun ki, ondan hər kəs ibrət dərsi götürə bilsin.

– Bəli, tarix ibrət dərsi götürənlər üçün səhnədir. – Sara Xatun oğluna bununla razılığını bildirdi.

– Yaxşı, bəs onda anam nə məsləhət eləyir?

– Nəzərə al ki, Əbu Səid hazırlığa başlayacaq. Ancaq yəqin ki, bu çox çəkəcək. Sən isə bu fürsəti əldən vermə.

– Bunun üçün mən neyləməliyəm? – Bu sualla Uzun Həsən sanki anasına xatırlatmaq istədi ki, Ağqoyunlular dövlətinin başçısı elə Sara Xatun özüdür. Və Sara Xatun nə məsləhət eləsə, nə tədbir töksə, elə Uzun Həsən də onun dediklərini icra edəcək.

Oğlunun demək istədiyini Sara Xatun göydə başa düşdü, özünü o yerə qoymadı. Arada xeyli sükut oldu. Nə ana dilləndi, nə də oğul. Eyni vaxtda həm ananın, həm də övladının gözlərinin önündən heç də uzaq keçmişlə bağlı olmayan Ağqoyunlu dövlətinin yarandığı ilk illər gəlib keçirdi. Axı bu illər asan gəlib getmədi, xeyli çətinliklər olmuşdu. Və elə bu dövlətin əsasını qoyan, ilkin özülünü yaradan Qara Yuluq Osman az qüvvəylə böyük qüvvələri ram eləmişdi. Bu qələbələrdə Qara Yuluq Osmanın bir sərkərdə kimi fəhmi, fərasəti, igidliyi, cəsarəti, qoçaqlığı az əhəmiyyət kəsb etməmişdi.

Yenə sükutu birinci Sara Xatun pozdu:

– Sən vaxt itirmədən Fərrux Yasarla təcili əlaqə qur. Münasibətləri qaydaya sal. Fərrux Yasar cavan olsa da dünyagörmüş

adamdı. Olub-keçənləri də yaxşı bilir. O istəməz ki, artıq tarix səhnəsində öz yerini müəyyən etmiş Ağqoyunlularla münaqişədə olsun. Mən inanıram o, səninlə ittifaqa girəcək. Bir də başqa bir məsələ var.

– Bəs o hansı məsələdir ki, əziz anam onu mənə demək istəyir?

– Bizim Ərdəbil şeyxləri, Şeyx Səfi xanədanı ilə münasibətimiz həmişə doğma olub. Bacın Xədicə Sultanın əri Şeyx Cüneyt elə bizim mənafeyimiz naminə hər bir fədakarlığa hazırdır. Onların ocağında böyüyən Şeyx Heydərin də tezliklə xanədanımızın dayaqlarından biri olacağına əminəm. Bu qohumluq bağları bundan sonra da çox böyük əhəmiyyət kəsb edəcək…

Uzun Həsən həmişə ağıllı məsləhətlərindən sonra anasını bağrına basıb öpərdi. Bu dəfə də belə elədi. İndi Uzun Həsənə elə gəlirdi ki, Ağqoyunlularla Əbu Səidin savaşı onun gözünün qabağındadı. Və bu savaşda şəksiz qələbəni Ağqoyunluların tərəfində görürdü. Uzun Həsən anasının qoluna girib, qapıya tərəf yönəldi. Qapı açıq idi. Hamıya ədalətli münasibət bəsləyən günəş hər tərəfi nura qərq etmişdi…

* * *

Sara Xatunun taxtı irəlidə, həm də dayaqlarına görə bir qədər hündür idi. Amma Ağqoyunlular hökmdarının taxtı nə qədər əzəmətli görünsə də, yenə Sara Xatunun taxtından aşağıdaydı. Gələn elçilər birinci Sara Xatuna təzim eləyir, sonra Sara Xatunun işarəsilə Uzun Həsənə ehtiram göstərib, məqsəd və məramlarını bildirirdilər.

Səhərin günorta üzünə çatmağına bir az qalmış Sara Xatuna xəbər çatdırdılar ki, uzaq Avropa ölkəsindən, yəni Roma Papasının özündən bir elçi gəlib. O, mütləq görüşmək istəyir.

Sara Xatun soruşdu:

– Niyə məmləkətin yiyəsi Uzun Həsəni yox, məhz məni görmək istəyir?

Mühafizlərin başçısı cavab verdi:

– Həmin elçi məxsusi Sara Xatunla görüşmək istəyini bildirir.

Sara Xatun bir qədər təəccüb qarışıq sual elədi:

– Nə üçün məni? Axı hökmdar Uzun Həsəndir. Özgə ölkənin elçisi hökmdarı görmək istəməlidir?

Mühafiz yenə təzim elədi və bundan sonra bir də təkrar dedi:

– Aləmlərin anası, elçi təkidlə Ağqoyunluların böyük anası Sara Xatunu görmək arzusundadır.

– Əgər belədirsə, gəlsin. – Sara Xatun etiraz eləmədi.

Sara Xatunun divanı təmtəraqlı idi. Bu gün o, daş-qaşlarını bir az artıq taxmışdı. Qızıl boyunbağılar, bərq vuran bilərziklər, başına xüsusi görkəm verən bəzək-düzəklər Sara Xatunu daha da əzəmətli göstərirdi. Sara Xatun bu məqamı onu görmək istəyən, yəni uzaq diyardan gəlmiş elçini qarşılamaq üçün münasib bildi. Və orası da Sara Xatuna qəribə gəlmədi ki, Uzun Həsən onun yanında deyildi. Onsuz da mühüm hərbi məsələlərin həllində Sara Xatunun taxtı boş olurdu. Qonşu taxtda Uzun Həsənin özü oturardı. Ancaq Uzun Həsənin qəbul edəcəyi qərarlar qabaqcadan Sara Xatunun özüylə birgə, ya ikilikdə ya da iki-üç nəfərlik balaca bir heyətlə müzakirə olunardı. Qəbul edilən nə var idisə, o da yerinə yetirilərdi.

Bir az keçmiş qədim Avropa qiyafəsində kimsə içəri girdi. Sara Xatunun taxtına yaxınlaşar-yaxınlaşmaz, arada mühafizlərin dayandığını görüb təzim elədi. Onun yanında bir nəfər də dayanmışdı. Bu da Sara Xatunun öz sarayından olan dilmanc idi.

– Hörmətli Sara Xatun, mən sənə Roma Papasının adından bütün Avropanın qüdrətli hökmdarlarının salamını gətirmişəm. Əgər istəsəniz, mənim gətirdiyim salamların doğruluğunu biləsiniz, onda mənim dediklərimi indiyə qədər gələnlərin dedikləri ilə üzləşdirin. Onda görəcəksiniz ki, mənim söylədiklərim məndən əvvəl gələnlərin dediklərinin davamıdır.

Sara Xatun tərcüməçinin çevirməsindən sonra razılıqla başını tərpədirdi. Çünki Sara Xatun hiss eləyirdi ki, aldığı xəbərlərin davamı olaraq eşidəcəkləri heç də yox yerdən səslənmir. Və elçinin daha indi nə deyəcəyini Sara Xatun səbirsizliklə gözləyirdi.

Elçi danışmağa başladı:

– Hörmətli Sara Xatun, müqəddəs Papa sizə çatdırmağı bizə hökm elədi: «Papa doğrunu və düzgünü deyir; müqəddəs din deyir ki, haqq yolunda olanlara toxunmaq olmaz; Ağqoyunlular haqq yolundadır. Əbu Səid haqq yolunda olanlara qarşı çıxdığı üçün kafirdir. Ona qarşı döyüş haqq yolunda savaşdır…»

Sara Xatun ürəkdən təəccübləndiyini gizlətdi. Daxilən hansı hissləri keçirdiyini büruzə verməməyə çalışdı. Amma ona qəribə gəldi ki, uzaq eldən gələn elçilərin Ağqoyunluların Əbu Səidin taleyi ilə bağlı Ağqoyunlu sarayındakı qərarın mahiyyətindən haradan xəbəri var?

– Hörmətli elçilər, biz Əbu Səidlə necə davranacağıq – bunun kimsəyə dəxli yoxdur. Əgər Əbu Səid Ağqoyunlu sarayını hədəfə almırsa, onda biz nə üçün Əbu Səidlə dava eləməliyik? – Sara Xatun qətiyyətlə dedi, sonra dayanıb gözlədi. Tərcüməçinin onun dediyi sözləri elçilərə çatdırmağını axıracan dinlədi. Elçilər bir qədər təəccüblə qarşıladılar. Onlar elə bilirdilər ki, Sara Xatun təşəkkür edəcək. Deyəcək ki, «çox sağ olun ki, siz də bizim ədalətli mübarizəmizin tərəfindəsiniz». Burada onlar gördülər ki, Sara Xatun razılıq bildirmir. Hələ üstəlik, Sara Xatunun üz cizgilərində bir narazılıq ifadə olunur.

Sara Xatun: – Başqa sözünüz varmı? – deyə soruşdu.

Elçilər çiyinlərini çəkdilər. Əslində, elçilərin deməyə sözləri çox idi. Onlar demək istəyirdilər ki, Ağqoyunlular tezliklə Əbu Səidin üzərinə hücuma keçsələr, qalib gələcəklər. Çünki Əbu Səid hərbi iqtidarını itirib, onun qoşun üzərində heç bir nüfuzu yoxdur. Nüfuzu olmayan sərkərdənin döyüşdə qələbə çalmaq şansı yoxdur.

Avropalı elçilər guya ki, bəri başdan bu xəbərləri Ağqoyunlu sarayına çatdırmaqla, onlara yaxın və doğma olduqlarını bildirmək istəyirdilər. Təəccüblüydü, belə bir elçi dəstəsi bir xeyli əvvəl Əbu Səidin sarayına da qonaq getmişdi. Ona da Ağqoyunlulara qarşı hücum planı təklif etmişdilər. Əvəzində Ağqoyunluların məğlubiyyəti müqabilində Əbu Səidə Kiçik Asiyaya doğru hərəkət üçün hər cür kömək vəd olunmuşdu.

Amma nə Əbu Səid, nə də Ağqoyunlular bilmirdilər ki, Avropadan belə bir kömək Osmanlılar üçün də vəd olunmuşdu.

Sara Xatun elçiləri axıracan dinlədi. Onlar çox söhbətləşdilər, danışdılar. Gələcək Osmanlı savaşlarından, Ağqoyunluların böyük uğurundan, Əbu Səidin məğlubiyyətindən, Ağqoyunluların qələbə ilə başa çatdırdığı savaşlardan əldə etdikləri gəlirdən – yəni böyük qənimətdən Papa sarayına ayrılacaq vəsaitdən və s.

Sara Xatun sağ əlinin şəhadət barmağı ilə alnını ovuşdurdu. Alnında, üzündə barmaqlarını gəzdirdi. Sanki bununla cavabını tapmadığı sualların sonunu axtarırdı. Sara Xatuna qəribə gəlmirdi. Çünki o, əgər bu məsləhətlərin arxasınca getsəydi və onun oğlunun xanədanı doğrudan da qalib gəlsəydi, belə çıxırdı ki, o, Papa sarayına vergi verməliydi, özü də ağır vergi.

Sara Xatun başını qaldırdı, diqqətlə elçinin sifətinə baxdı:

– Cənab elçi, unutmayın ki, ölkəmizin sahibi özümüzük. Bizə xəbər çatdıra bilərsiniz, amma bizə hökm edə bilməzsiniz. Bizim kimsə ilə davamız yoxdur. Biz öz sərhədlərimizin keşiyindəyik, yurdumuzu qoruyuruq.

Bu sözlərdən sonra elçi, deyəsən, əsəbini boğmadı və ona görə bir az sərt cavab verdi:

– Papa bilmək istəyir, sizin sərhədləriniz haradan haracandır?

Sara Xatun elçinin qəzəbini güclə sinirə bildi, çalışdı ki, təmkinini pozmasın, ancaq elçiyə cavab verməyi vacib bildi:

– Hörmətli elçi, bizim sərhədlərimiz Azərbaycandır. Qədim xilafət sarayında adı çəkilən Azərbaycan… Əbu Səid də, Şirvan-

şahlar da, bu gün başsız qalmış Qarabağ da… bütövlükdə Azərbaycandır. Biz Azərbaycan davasındayıq. Ancaq qonşularımız görür ki, biz bu gün müharibə iddiasında deyilik… – Sara Xatun dayandı… Elçilər qadının qəzəbləndiyini hiss etdilər. Ona görə cəsarət edib dinmədilər. Handan-hana elçilərdən biri, ikiqat təzim edib dilləndi:

– Sara Xatun, biz sizin hakimiyyətinizin qiyamətəcən davam etməsini arzulayırıq.

Sara Xatun bu cavabdakı riyakarlığın mahiyyətini göydə başa düşdü. O başa düşdü ki, elçi əsas niyyətini özünün siyasət tapşırığı ilə pərdələyir. Demək, elçi bir qədər də ifrata varsa, Sara Xatun daha artıq özündən çıxar. Və bu halda elçilər, başda da elə böyük elçi müti görkəm aldı, yazıqlaşdı. Çünki böyük elçiyə aydın olmuşdu; Sara Xatun onların məqsəd və məramlarını kifayət qədər anlayıb, yaxşıca duyub.

Sara Xatun barmağı ilə mühafizləri yaxına çağırdı:

– Aparın elçiləri, hörmət və ehtiram göstərin.

– Bəs, Sara Xatun… – baş elçi nəyəsə etiraz eləmək istədi, bəlkə də nə isə bilmək istəyirdi. Ancaq Sara Xatun qətiyyətlə qapını göstərdi. Mühafizlər elçiləri dövrələdilər.

Sara Xatun əlini alnına qoymuşdu, o, yaxşıca başa düşürdü ki, baş elçi axırıncı sözündə «bəs Sara Xatun» müraciətində ondan soruşmaq istəyirdi ki, «Biz Papaya nə cavab verək?». Sara Xatun isə bunu aydın başa düşdüyündən nə sualı, nə də cavabı müqabil saymamışdı…

Sara Xatun dünyanın get-gedə qarışdığını və bu qarışıqlığın çoxunun başına bəla gətirəcəyini, elə bu bəlaların bir çoxunun da Ağqoyunlulardan yan keçməyəcəyini də uzaqgörənliklə anlayırdı. O, çox istəyirdi, Ağqoyunluların hələ indi-indi ayaq üstə qalxan dövlət sütunu bu tezliklə bir xətər görməsin.

Əlbəttə, onu da bilirdi ki, bunsuz da mümkün olmayacaq, toqquşan mənafelərin az-çox xətəri Ağqoyunluları da tutacaq. Bircə

qalırdı, toqquşan qüvvələrin arasından ustalıqla, ehtiyatla sivişib keçəsən.

Uzunmüddətli müşahidələrindən, gizli adamları vasitəsilə topladığı məlumatlardan Sara Xatun başa düşmüşdü ki, Avropanın dərinliklərindən üzü bəri axıb gələn bəd niyyətlər əsasən Osmanlılarla Ağqoyunluların ətrafında cəmləşib. Papanın gizli emissarları bir-birinin arxasınca üzdə xoş niyyətlər, şad xəbərlər çatdırsalar da, gizlində tərəflər arasında nifaq salmaq, Osmanlılarla Ağqoyunluları tezliklə qarşı-qarşıya gətirmək üçün ciddi-cəhdlə fəaliyyətə meydanına atılıblar. Bəlkə bu məlumatların bu dərəcədə qərəzliliyini başqaları bilmədiyi kimi, Sara Xatun da bilməzdi. Amma Sara Xatunu bu gizli niyyətlərdən agah edən Qabriel olmuşdu. Bunun da səbəbi o idi ki, Qabriel, öz ölkəsinə asi olub üzü Şərqə baş götürüb gəlmiş fanata çevrilmişdi.  Burada Sara Xatunun himayəsində yaşamağın daha təhlükəsiz olduğunu görmüş, elə burada kök salmışdı. Sara Xatun Qabrielin sayəsində müqəddəs dini yaymaq adıyla, eləcə də, elçi sifətilə gələn missioner və emissarları vaxtında aşkar eləyir. Özü sorğu-suala tutur, nəticədə onların əsl niyyətlərini üzə çıxara bilirdi. Sara Xatun hiss eləyirdi ki, əgər tezliklə tutarlı işlər görülməsə, özü demiş, dünyanın işləri bir az da qarışacaqdı. O, Roma Papasının və Avropa ölkələrinin məxfi niyyətlərini özünün gizli elçilərilə Osmanlı hökmdarı Sultan Mehmedə çatdırır, xəbər yollayır ki, düşmən qüvvələr nə qədər aranı qatmağa çalışsa da, Ağqoyunlulardan Osmanlılara heç bir xətər gəlməyəcək. Sara Xatun Sultan Mehmedə yazdığı məktublarda xüsusi bir səmimiyyətlə ona «övladım» deyə müraciət edirdi. Məktublarında təkrar-təkrar bildirirdi ki, iki böyük türk xanədanının bir-birinə dayaq olması, bir-birini onları gözləyən bəlalardan hifz etməsi hər cür tamahdan üstündür. Aldığı cavablarda da, elçilərin gətirdiyi məlumatlarda da Sara Xatunu məyus edəcək heç nə yox idi. Sultan Mehmed də ona «ana» deyə müraciət edir, ağıllı məsləhətlərini heç vaxt unutmayacağını yetirirdi.

Sara Xatun üçün artıq çoxdan məlum idi ki, Çevik əfəndi adı ilə ordugahda təbabət işlərinə baxan adam mənşəcə erməni olub, əsl adı da Nikoldur. Sara Xatunun Nikol haqqında hər cür məlumatı olsa da, ona toxunmamağı, ancaq ciddi nəzarətdə saxlamağı tapşırmışdı. Nikol isə nə qədər ki, hadisələr sakit axarla gedir, özünü təmkinli və ağıllı aparmağa çalışırdı. Mümkün qədər Avropadan gələn adamların gözündən yayınmağa, özünü göstərməməyə cəhd edir, bununla da belə bir təsəvvür yaratmağa çalışırdı, onu Ağqoyunluların ordugahındakı yaxşı həyat, belə rahat güzəran, kifayət qədər zəngin dolanışıq təmin edir. Onsuz da Nikol yaxşı başa düşürdü ki, əgər avropalıların planları baş tutsa, Ağqoyunlular Əbu Səid üzərində qələbə çalsalar belə, Osmanlılarla qarşılaşmada çətin, özlərini hifz edə bilsinlər. Belə olan halda yəqin Uzun Həsəni Sultan Mehmed sağ buraxmayacaq və ərazilərini də özünə yaxın adamlar arasında bölüşdürəcəkdi. Və Uzun Həsənə qəsd etmək kimi təhlükəli bir işə də Nikol tərəfdən lüzum qalmayacaqdı. Amma hər ehtimala qarşı Nikol ara-sıra Uzun Həsənə yaxın olan adamlara yalmanır, onlara tibbi yardımlar edir və yeri gəldikcə, Uzun Həsənin özünə də yaxın olmağa can atırdı. O, Uzun Həsənin qoşun önündən keçid vaxtı necə dayandığını müşahidə edir, istirahət vaxtı yanına kimləri buraxır, şənlənəndə özünü necə aparır… bütün bunları sadəcə izləyirdi. Hətta təklikdə olanda onu xəncərlə necə vuracağını məşq edirdi. Bu zaman özünü ustalıqla gizləməyi də düşünürdü. Üst libasını sürətlə dəyişmək və adamların arasına qarışmaq… bəlkə bu yolla canını xilas etmək mümkün idi.

Ancaq xəbərsizdi, o, bilmirdi ki, onun hər bir hərəkəti müxtəlif yerlərdən ayrı-ayrı şəxslər tərəfindən izlənilir. Sara Xatun da öz fəhmi ilə başa düşmüşdü, Nikol son anda hansı bəd əməl törədə bilər. Ehtiyatı əldən vermək olmazdı…

* * *

…Sara Xatun Ağqoyunlular səltənəti ətrafında baş verən hadisələrin nəinki yumşaldığını, hətta get-gedə gərginləşdiyini bütün fəhmiylə görürdü. Baxmayaraq, nəhəng ərazinin sahibi olan Ağqoyunlular nə içərilərindən olan müxaliflərə, nə də bu səltənətə qıraqdan asi kəsilənlər  hələ ki bir qarış da olsun, torpaq verməmişlər. Ancaq Sara Xatun onu da bilirdi, belə gərginlik, sükut çox davam edə bilməz. Çünki ailənin daxilindəki müxaliflərin doğma dövlətə, onları böyüdüb ərsəyə gətirən, əlinə qılınc, özünə hakimiyyət verib, ayrı-ayrı əyalətlərə hakim təyin edən Uzun Həsənə elədikləri aramsız xəyanətlər təsadüfi deyildi. Bütün bunların hamısı sərhəddən kənar – istər uzaq olsun, istərsə də yaxın ölkələrdən səltənətin içinə əsən zəhərli yellərlə bağlı olduğu bəlliydi. Sonsuz inam və təmkin bəxş edən amillər də az deyildi.

Mərkəzi Ərdəbil olan Səfiyəddin ocağında əqidəli şeyxlərin toplaşdığını Sara Xatun çoxdan müşahidə eləmişdi. Doğrudur, onlar siyasətə qarışmamaq niyyətlərini açıq bildirsələr də, hərbi təlimlərdən də geri qalmır, süvari dəstələr yaradır, döyüş üsullarını mənimsəyirdilər. Onda, Səfiyəddin ocağının Cüneyd kimi bir qəhrəmanı artıq meydanda idi. Sara Xatunun təklifi hələ hakimiyyət sahibi olmayan Uzun Həsənin Amid bəyliyindən gələn vergidən Səfiyəddin ocağına pay ayırması da mühüm  niyyətlərlə bağlı idi. Bu isti münasibətin artıq «şeyx» titulunu almış Cüneydin Amid bəyliyinə yaxınlığının başqa bir səbəbi də vardı. O, Sara Xatunun qızı Xədicə bəyimə aşiq idi. Və deyəsən, Xədicə bəyim də bu cəld, qıvraq, ədasından müdriklik yağan cavana biganə deyildi.

Əslində, Sara Xatun Şeyx Cüneydin Xədicə bəyimə münasibətini duymuş və bunun bir qədər də dərinləşməsi üçün özü şərait yaratmışdı. Orası da vardı, hələ Uzun Həsənin qardaşları bu məsələdən baş çıxarmasalar da, bacılarının Ərdəbil ocağına qismət olmasını istəmirdilər. Çünki onların da hər birinin ayrılıqda hakimiyyət planları, siyasət tamahları mövcud idi. Çox istəyərdilər ki, Xədicə bəyimi Amid bəyliyindən kənardakı nə-

həng güc mərkəzlərində kiməsə ərə versinlər. Və gələcəkdə də niyyətlərini gerçəkləşdirmək üçün bu qohumluq əlaqələrindən niyyətlərinə uyğun bəhrələnsinlər. Ona görə Şeyx Cüneydin Xədicə bəyimə sahiblənməsi o qədər də asan başa gəlməmişdi. Vaxtilə Sara Xatun Xədicə bəyimlə özü arasındakı söhbəti indi xəyalına gətirmişdi.

– Bizim gözəl-göyçək Xədicə bəyim çoxdan boy atıb, qızlar bulağından su içib.

– Bəlkə, aləmlərin anası öz qızına da desin, o, hansı bulaqdı elə? – Xədicə bəyimin deyəsən, yanaqları allanmışdı. Anasına sorğu ilə cavab versə də, başını aşağı dikmişdi.

Sara Xatun bunu Xədicə bəyimin utancaqlığı ilə yozdu, onu da duydu ki, qızı söhbətin nədən getdiyini yaxşı başa düşür. Ona görə söhbəti bir az kənardan gətirdi.

– Mənim gözəllər gözəli qızım, bu, o bulaqdı ki, bir vaxt ordan Allahın mərhəməti sayəsində mən də su içmişəm.

– Bəs o bulaqdan su içəndə nə olur? – Xədicə bəyim yenə özünü o yerə qoymadı.

Sara Xatun güldü. Qızının əlindən tutub özünə tərəf çəkdi. Sağ əlilə başına tumar verdi. Kürəyinin arxası boyunca topuqlarınacan uzanan hörüklərini təkrar-təkrar sığalladı.

– Hə, indi sənə deyə bilərəm. Sənin ərə getmək, könlüncə sevib-sevilmək vaxtındır.

Bu dəfə Xədicə bəyim dinmədi. Yenə başını aşağı saldı.

Aradakı sükutu Sara Xatun pozdu:

– Bəlkə sənin könlündə hansısa hökmdarın oğlu var?

Bu sorğu Xədicə bəyimin ruhunda ilan kimi qıvrıldı, bütün varlığı etiraz sədası ilə sözə döndü:

– Yox, yox, mənim belə bir kimsədə gözüm yoxdur, – qətiyyətlə cavab verdi.

– Bəs onda Ərdəbil şeyxinin cavan oğlu Şeyx Cüneydə necə, meylin varmı?

Bu sual deyəsən, çətin oldu. Xədicə bəyim susdu, sadəcə, başını aşağı saldı.

Sara Xatun anladı… Qədimlərdən belə bir deyim var: «susmaq razılıq əlamətidir» deməkdir. Xədicə bəyim könlündəki Şeyx Cüneydin adını deyə bilərdi, onu gördüyünü, sevdiyini söyləyə bilərdi. Amma səsi çıxmadı, axı, qardaşları, xüsusilə, Cahangir Mirzə onu Qaraqoyunlu hökmdarının oğluna vermək planı cızırdı. Və bunu artıq Xədicə bəyim atmacalı söhbətlərdən hiss eləmiş, duymuşdu.

İndi anasının onunla belə məhrəmanə danışığı qəlbində ümid işığı yandırmışdı, başa düşmüşdü ki, bu yolda anası ona ən üstün dayaq, vasitəçidir və heç böyük qardaşı Uzun Həsən də anasının bir sözünü iki eləməyə qadir deyil. Bir sözlə, Xədicə bəyim gələcək həyatını Ərdəbil şeyxinin igid oğlu Şeyx Cüneydlə birgə qura bilər. Əslində, Sara Xatun da bunu istəyirdi. Çünki insanların xüsusi bir inancla, əqidə ilə Səfiyəddin ocağının ətrafında toplanması, yenilməz bir qüvvəyə çevrilməsi diqqətindən kənarda qalmamışdı. Sara Xatun bilirdi ki, adamları qılınc, hakimiyyət gücünə bir yerə toplamaq olar. Bu müəyyən qədər qüvvə deməkdir, amma bu qüvvə əqidəylə, inamla bir yerə toplanan insanların qabağında heç nədi.

Beləliklə, Xədicə bəyim ailədaxili bəzi qüvvələrin müqavimətinə baxmayaraq, Səfiyəddin ocağına gəlin köçmüş və Şeyx Cüneydin zövcəsi olmuşdu. Sonralar Ağqoyunlu səltənəti qərarlaşmış və səltənətin ən güclü dayaqlarından biri də elə Şeyx Cüneydin qüvvələri kimi meydana çıxmışdı. Ölkənin Şimal sərhədlərinin, Böyük Qafqaz ətəklərinin Ağqoyunlu səltənətinə tabe etdirilməsi yolunda xidmətləri əvəzsiz idi. O, əqidə və inamla ətrafına yığdığı müridlərinin qorxubilməz döyüşü sayəsində, özü demiş, bu yerlərin insanlarına din, iman, əqidə, məslək gətirmişdi. Əslində isə həmin ərazilər qətiyyətlə Ağqoyunlular səltənətinin ixtiyarına keçmiş və Şeyx Cüneydin sayəsində şimal sərhədləri xeyli möh-

kəmlənmişdi. Doğrudur, sonra bu yolda Şeyx Cüneyd də başını qurban vermiş, Təbrizdən uzaq şimal sərhədlərində həlak olmuşdu. Əvəzində həmin müqəddəs ocaqda qızının ciyərparası Heydər böyüməkdəydi… Sara Xatun bütün bunları xəyalından keçirərkən düşünürdü ki, gələcəkdə Ağqoyunlular xanədanının taleyi Səfiyəddin ocağı ilə daha çox bağlı olacaq.

Bir çox hallarda Uzun Həsən balaca Heydəri lap yanında otuzdururdu, onunla böyük adamla olduğu kimi söhbətləşirdi. Sarayda Heydərə xüsusi hərbi təlim verilir, şəriət-din, dünyəvi elmlər öyrədilirdi.

…Sara Xatun bütün bunları gördükcə üzü fərəhdən işıqlanırdı. Bu həm də gələcəyə inamın işığı idi, onun varlığından keçib üzünə yayılırdı…

* * *

…Hər cümə günü olduğu kimi bu axşam yenə Ağqoyunlu sarayının Bayandur köşkünə elm və ürfan əhli toplanmışdı. Həsən padşah heç nədən asılı olmayaraq həftədə bir dəfə üləmalar məclisində söhbətə vaxt ayırırdı. Bu dəfə Təbriz, Şiraz və Səmərqənd alimlərinin də iştirak etdiyi məclisdə çox mühüm məsələlər müzakirə olunacaqdı. Sarayın salnaməçisi Əbubəkr Tehrani ali ziyafətin yuxarı başında yer alıb alimlərin söhbətinə qulaq kəsilmişdi. Ərəb dilinin biliciləri Yusif Qaraman və Əbdülvahab Bağdadi də yığıncağa dəvət olunmuşdular. Qarşılarında qiymətli mahuda sarınmış nəsə bir bükülü ilə padşahı gözləyirdilər. Sarayda yaşayan alimlər Şiraz və Səmərqənddən gəlmiş üləmalarla dövranın gərdişi, yeni yazılan əsərlər haqqında bəlağətli söhbətlər aparırdılar. Qiymətli İran xalılarının üzərində bardaş quran elm-sənət xadimləri hər an Həsən padşahın gəlişinə diqqət kəsilmişdilər. Az keçmədi ki, saç-saqqalına təkəmseyrək dən düşsə də, yaraşığını itirməyən, əksinə illər keçdikcə daha da xoşagəlim görünən, hündürboy Həsən padşah köşkə daxil olan-

da alimlər ayağa durub ehtiramla təzim etdilər. Təbəssüm içində bu ehtiram üçün razılıqla başını tərpədən Uzun Həsən boyuna uyğun iri addımlarla məclisin yuxarı başında onun üçün qoyulmuş taxtına sarı yeridi. Alimləri salamlayan şah öncə Əbubəkr Tehraniyə sarı döndü:

– Əbubəkr Mirzə, «Kitabi-Diyarbəkriyyə» nə yerdədir?

– Möhtərəm padşahımız, sizin əmrinizə əsasən, dediklərinizi və araşdırmalarımı hər gün ora yazıb, əlavələrimi edirəm. Həsən padşahımızın ta Adəm peyğəmbər əleyhissalama qədər şəcərəsini yazmışam, bundan sonra da inşallah, böyük fəthlərinizi və qələbələrinizi sizin göstərişiniz ilə verdiyiniz vaxtda salnaməmizə köçürərəm. Allah ulu padşahımızın və Ağqoyunlu xanədanının tarixini bundan sonra da qələbə və fəthlərlə zəngin etsin, inşallah…

Uzun Həsən razılıq əlaməti kimi gülümsədi, başını yüngülcə tərpədərək tarixçisinin dediklərini təqdir etdi. Padşah üzünü Yusif Qaraman və Əbdülvahab Bağdadiyə tutub təbəssümlə – görürəm, əliboş gəlməmisiniz, yəqin ki, tapşırdığım üzrə işinizi bitirmisiniz?

Yaşca daha böyük olan, nurani görkəmli Yusif Qaraman:

– Bəli, hökmdarım, göstərişiniz əsasında müqəddəs kitabımız Qurani-Kərimin türkcəyə tərcüməsini yetirməm Əbdülvahabla başa çatdırmışıq.

– Düzünü desəm, uzun zaman keçib, Qurani-Kərimin türkcəyə tərcüməsinin hazır olmasını səbirsizliklə gözləyirdim.

– Hökmdarımız izin verirsə, kitabı təqdim edərdik.

– İzinlisiniz, buyurun!

Yusif Qaraman təmkinli addımlarla yaşıl mahuda bükülü kitabı padşaha təqdim etdi. Uzun Həsən müqəddəs kitabı vərəqləyə-vərəqləyə razılıqla başını tərpətdi, – nəstəliq xətti ilə nəfis işlənib, xub, maşallah – deyə məmnun nəzərlərini kitabın səhifələrindən ayırmayaraq sevindiyini büruzə verdi.

– Elədir, padşahım, türkcə çevirməni bitirdikdən sonra tanınmış xəttat Mehdi nəstəliq xətti ilə kitabın üzünü hökmdarımızın adına layiq şəkildə köçürtdü.

– Cox gözəl bir iş ərsəyə gətiribsiniz. Böyük bir ənama layiqsiniz, Yusif Mirzə. Zəhmətiniz sarayın xəzinəsindən qiymətləndiriləcək. Ən gözəli isə budur ki, siz tarixi bir iş görübsünüz. Zamanın yaddaşına Həsən Bayandurun göstərişilə müqəddəs Qurani-Kərimin türkcəyə tərcümə edilməsi əbədi həkk olunacaq. Bu böyük əməl əsrlər keçəndən sonra da bizim xanədanımızın və adımızın şöhrətindən bəhs etdirəcək…

Uzun Həsən salnaməçiyə tərəf dönüb «Əbubəkr Mirzə, Qurani-Kərimi tərcümə etdirdiyimizi də «Kitabi Diyarbəkriyyə»yə salmağı unutma. Qoy gələcək nəsillərimiz bu böyük hadisənin dəqiq tarixindən bixəbər qalmasınlar» – dedi.

Uzun Həsən Yusf Qaramana baxaraq, duruxdu:

– Yusif Mirzə, sənin hafizliyin məşhurdur. Məclisimizi Allahın kitabından mübarək bir surə ilə zinətləndir, həm xanədanımıza mələklər bərəkət və uğur yağmuru göndərsin, həm də qulağımız Quran avazı eşitsin… Elə bu cümə gününün mübarək bərəkəti üzərinə «Cümə» surəsini sən ərəbcədən oxu, yetirmən Əbdülvahab da türkcədən tərcüməsini səsləndirsin, könlümüz işıqlansın…

– Baş üstə, hökmdarım…

Yusif Qaramanın ürəyəyatımlı səslə oxuduğu «Cümə» surəsi bir anlığa məclisdə oturan üləmaları da, söz-sənət adamlarını da, elə Uzun Həsənin özünü də dünya mülkünün, həyatın faniliyi ilə bağlı düşüncələrə daldırdı…

«…Ya Peyğəmbər! De ki, «Qorxub qaçdığınız ölüm mütləq gəlib sizə çatacaqdır. Sonra siz görünməyəni də, görünəni də bilənin hüzuruna qaytarılacaqsınız. O da sizə nələr yapdığınızı xəbər verəcəkdir!» – deyə Əbdülvahabın ustadı Yusif Mirzənin ardınca müqəddəs kitabdan «Cümə» surəsinin türkcəyə tərcüməsini

rəvan səslə oxuyaraq davam etdirməsinə hamı ruhunun diktəsiylə diqqət kəsildi.

Bütün məclis əhli bu işi gördürən Uzun Həsəni və məsələni yoluna qoyan alimləri təqdiredici minnətdarlıq dolu nəzərlərlə seyr edirdi.

Oxunuşdan sonra Təbrizdən təşrif gətirən din alimlərindən biri Uzun Həsənə üzünü tutub: ədalətli Həsən padşahın səltənəti əbədi olsun, Qurani Kərimi türkcəyə tərcümə etdirərək siz bir daha adınızı tarixin yaddaşına həkk etdiniz. Allah sizi pis nəzərlərdən hifz eləsin – deyə dua-sənayla sözünü bitirdi.

Dövrün ən görkəmli salnaməçiləri, din alimləri, xəttatları və rəssam-miniatürçülərinin də iştirak etdiyi məclisdə yer-yerdən «Allah Həsən padşahın ömrünü uzun eləsin, Dövləti-Bayanduriyyə əbədi yaşasın» – sədaları ucaldı.

Məclisdə Həsən padşahın istəyilə həmişə olduğu kimi İmam-əl Buxarinin «əl-Cami-üs-səhih» kitabından xeyli hədislər oxundu, üləmalar bəzi tanınmış ilahiyyatçı alimlərin təfsirləri ilə bağlı fikirlərini bildirdilər.

Alimlər məclisinin toplantısı sonradan sazəndələr və xanəndələrin, rəqqasə və mütrüblərin də qatıldığı şən bir ziyafətlə gecədən xeyli keçənə qədər davam etdi…

* * *

Aldığı xəbərdən Uzun Həsənin əhvalı əməlli-başlı pozuldu. Neçə vaxtdır ki, müşavirlərini, elçilərini Avropaya-Venesiya, Neapol Krallığına, Hunqariyaya (Macarıstana), Paloniyaya (Polşa), Firəngə (Fransa) yollamışdı ki, Ağqoyunluya odlu silah yardımı göstərsinlər. Fikri vardı ki, Avropadan toplar və yeni tüfənglər alsın. Əgər danışıqlar alınarsa, həmin hərbi yardım Qara dəniz və Aralıq dənizi vasitəsilə Uzun Həsənin müttəfiqi olan Qaraman bəyliyinin qərb sərhədlərində yerləşən, yaxın qohumluq əlaqələri olan yunan Trapezund – Trabzon imperiyası üzərindən

keçib gəlməliydi. Ancaq indi xəfiyyələri xəbər gətirmişdi ki, Osmanlılar əvvəlcə Trabzonu almaq, ondan sonra da yəqin Ağqoyunluya əl qaldırmaq fikrində idilər. Trabzonun alınması çox mühüm bir liman şəhərinin itirilməsi demək olardı.

Getdikcə güclənən Ağqoyunlular səltənəti təkcə Avropanın deyil, həm də Osmanlıların qorxu yerinə çevrilmişdi. Avropanın fikri iki türk xanədanını bir-birinin əlilə məhv etdirmək, Osmanlı imperiyasının fikri isə Ağqoyunluların həddən artıq güclənməsinin qarşısını almaq üçün mühüm mərkəzləri ələ keçirib, Bayandur dövlətinin fəaliyyətini məhdudulaşdırmaq idi. Dünya siyasətinin mərkəzi idarəsi əslində Avropanın əlinə keçmişdi. Roma Papası öz iqamətgahını Şərqin və Qərbin siyasətinə təsir edə biləcək mərkəz gücündə saxlayırdı. Və elə buradan da Avropa dövlətlərinə göstərişlər verir, müxtəlif yollarla Şərq ölkələrini yerindən oynadır, onları bir-birinin üzərinə qaldırmağa çalışırdı.

Zaman isə sürətlə öz axarında idi. Hadisələrin belə sürətlə dəyişməsi Ağqoyunlular səltənətinin baş iqamətgahında bir qədər çaşqınlıq yaratmışdı. İndi Uzun Həsən vəziyyətdən çıxmaq üçün bütün gücü və iradəsilə elə bir yol seçmək istəyirdi, səltənətin çölünü qorumaq üçün çabalayarkən xanədan içəridən parçalanmasın.

Sara Xatun içəri girəndə Uzun Həsən başını əlləri arasında sıxmış, gözlərini yerə dikmiş və ağır düşüncələrə qərq olmuşdu.

– Xəbəri eşitmişəm, ürəyini sıxma oğlum, Osmanlı sultanı ilə görüşüb sülhün davamlılığı üçün çalışacağam, Trabzonu almaq fikrindən də çəkindirəcəyəm.

Sara Xatunun arxayın davranışından bəlli olurdu ki, özü də dediklərinə inanır və bu görüşlə Sultanın düşüncəsində müəyyən dəyişiklik yaradacağına əsası böyükdür. Doğrudur, Sara Xatun bilirdi, nə vaxtsa, Osmanlılar və Ağqoyunlular arasında qanlı bir döyüş ola bilər. İndiki halda dərd burasında idi ki, bu savaşın başvermə tarixini dəyişdirmək mümkün olsun. Yəni hələ Ağqo-

yunluların qapısını kəsdirmiş daha vacib çətinliklər var idi. Bunun üçün vaxt gərəkdi. Bu zamanı isə Sara Xatun Sultan Mehmeddən qopara bilmək inamındaydi. İndiki halda ən qiymətli qələbə – vaxt qazanmaq idi. Hər halda, Sultan Mehmed də Ağqoyunluların döyüş meydanında asanlıqla məğlub edilə bilməyəcək bir qüvvə olduğunu bilməmiş deyildi. Və Sara Xatun da öz qüvvələrinə güvənirdi.

Baxmayaraq ki, bir müddət öncə Osmanlılarla ilk toqquşmada – Qoyluhisar savaşında Uzun Həsənin qoşunu manevrlə geri çəkilmişdi, amma elə həmin döyüşdə Sultan Mehmed Ağqoyunluların gücünü əyani surətdə görmüşdu. Sara Xatun məhz buna görə Osmanlı sultanının sülh müqaviləsi imzalayacağına inanırdı.

Sultan II Mehmed öz ordugahını Ərzincan yaxınlığında Yastıçəmən deyilən ərazidə müvəqqəti məskunlaşdırmışdı. Gələcək planlarını həyata keçirməyə buradan başlayacaqdı. Qarşıda isə Trabzonun taleyinin həll edilməsi ən vacib tarixi-siyasi hadisə kimi onun fikrini ərşə çəkmişdi.

Sara Xatun qiymətli hədiyyələrlə və sarayın nüfuzlu şəxslərindən ibarət elçi heyətilə 1461-ci ilin baharında Ərzincana doğru yol aldı…

II Mehmedə xəbər verəndə ki, Ağqoyunlular hakiminin anası karvanla ona qonaq gəlir, bu xəbər Osmanlı sultanını sevindirdi. Çünki məsələnin məğzi ona göydə agah olmuşdu. O, Trabzon hakiminin üzərinə yürüş etmək planı qurmuşdu. Ancaq Uzun Həsəndən ehtiyat edirdi. Axı Trabzon hakimi Uzun Həsənin qayınatası idi. Əgər o, Trabzon hakiminin üzərinə hücuma keçərdisə, bilmək olmazdı, bəlkə də Uzun Həsən ona arxadan öldürücü zərbə vurardı. Osmanlı hakimi iki cəbhədə vuruşmağın çətinliyini dərk edirdi. Bilirdi, iki od arasındakı çarpışmada düşmən qüvvələr onu elə əzərdi ki, bir daha qüvvələrini bərpa edə bilməzdi. Yəqin Ağqoyunluların elçiləri sülh bağlamaq niyyətilə gəlmişdilər. Bu

sülh indilikdə Sultan Mehmed üçün gərəkli idi. Ona görə də Sara Xatunun qəfil gəlişi onun üçün lap göydəndüşmə oldu.

Osmanlı sultanı Sara Xatunu çox böyük hörmət və nəvazişlə qarşıladı. Ona «ana» deyə müraciət etdiyindən Sara Xatun da Osmanlı hakiminin «ana» sözünün müqabilində «oğul» deyə çağırdı.

Əvvəlcə Fateh Sultan Mehmed söhbətə körpü saldı:

– Aləmlərin anası hüzurumuza gəlməklə bizi çox şərəfləndirib.

– Oğul, Allah sizi şərəfləndirib, biz isə bu şərəfdən məmnunuq.

– Anam, həyatım boyunca Allahın əmrlərindən kənara çıxmadım. Onun rizasını qazanmaq üçün çalışdım, tək qayəm bu idi… Dünyanın dövləti əbədi olmur, fani cahanda da heç kim ölümsüz deyil. İnsanın alıb-verdiyi nəfəs müvəqqətidir və ölümsüzlük qapısı üzümüzə bağlıdır…

Sara Xatun Fateh Mehmedin bu ibrətli və bəlağətli sözləri qarşısında ehtiramını başını razılıqla yelləməklə bildirdi.

Sultan II Mehmed də bu dünyagörmüş qadına hər hərəkətilə sayğısını izhar etməyə çalışaraq sözünə davam etdi:

– Mən çox sevinirəm ki, bir ananın sözü iki qardaş arasında tam anlaşılandı.

Sara Xatun həmin andaca duyğulandı:

– Mənim ömrümdən nə qalıb, nə qalmayıb, bu, Allahın işidir, ancaq mən istəyirəm, bu dünyadan köçəndə, tam ümidli gedim ki, iki qardaş arasında həmişəki anlaşma qalacaq. Hər kəs Allahdan ayrılmış paya qane olacaq. İnsanlar da hökmdarların arasındakı yaxşı münasibətdən fayda görəcək. Qarşılıqlı münasibətlər hər iki ölkənin çiçəklənməsinə, tərəqqisinə xidmət edəcək.

– Mən də belə düşünürəm. Xüsusilə, Sara Xatun kimi anamızın arada olmağı gərək bizim hər birimiz üçün ən etibarlı bir müqavilə olsun. Tarix yazmaq qorxaqların edə biləcəyi iş deyil. Düşünürəm ki, biz tarix yazacağıq. Talesizlik isə düşmənlərin nəsibidir… Savaş hər kəslə, sülh isə ancaq qürurlu insanların qəlbində olar…

Bu sözlərin alt qatında ikibaşlı mənalar olsa da, Sultanın yaxşı niyyətdə olması Sara Xatuna çox xoş təsir elədi. Əslində elə bura o məqsədlə gəlmişdi ki, II Mehmedlə Uzun Həsən arasında sülh, əmin-amanlıq yaransın. Onlar bir-birinin üzərinə hücuma keçməsin.

Sultan II Mehmedin yanındaca taxta əyləşmiş Sara Xatuna Osmanlı dövləti adından xeyli sayda hədiyyə verildi. Və onun da hədiyyələri hörmətlə qəbul edildi. Osmanlı divanının ən hörmətli adamları ilə birgə möhtəşəm ziyafət verildi. Qədimdən bəri Şərqdə olan duz-çörək müqəddəsliyi də dillərdə car oldu. Və II Mehmed arada fürsət tapan kimi dilləndi:

– Bizim qanımız, dilimiz, dinimiz birdir. Həmişə demişəm ki, Həzrəti Məhəmmədin dini qanımla yüksələcəksə, alın, qılıncla doğrayın məni. Çünki mənim düşüncəmə görə zəfərin sirri Həzrəti Peyğəmbərin iziylə getməkdir…

*Allah yolunda savaşmaqdır niyyətim,*
*İslam dininin yalnızca yücəlməsidir qayretim.*

*Allahın və övliya ordusunun yardımıyla*
*Küfür əhlini başdan-başa qəhr eyləməkdir niyyətim!*

*Peyğəmbərlər və vəlilərə dayanmışlığım var bənim,*
*Allahın lütfündəndir fetih ümidim və qüvvətim!*

*Bənligimi və malımı dünyada fəda etsəm nə olur,*
*Həmd olsun var Allah yolunda savaşmaya yüz bin rəğbətim…*

*Ey Mehmed! Ahmed-i Muhtarın möcüzələriylə,*
*Umarım qalib olur din düşmanlarına devletim…*

Ana, biz İslamın qılıncını əlimizdə tuturuq. Bu qədər zəhmət qarşılığında qazi ünvanını əldə etmədən ölüb getsəm, Allah və Peyğəmbər qatında üzlərinə necə baxaram? Biz türklər uzun illərdən bəri çörək kəsdiyimiz adamlara həmişə sədaqətli olmu-

şuq. Çörəyin müqəddəsliyini bütün mənafelərdən uca tutmuşuq. Yəqin ki, bundan sonra da belə olacaq.

Sultan Mehmedin bu həyəcanlı və dərin çıxışından sonra Sara Xatun cavab verdi:

– Allah süfrənizin bərəkətini bol, imanınızı kamil eləsin. İnanıram, bu duz-çörək müqəddəsliyini qorumağınız da, Həzrəti Peyğəmbərimizin yolunu tutmağınız da Allaha xoş gedəcək. Uca Yaradan sizin hər birinizi bəlalardan hifz edəcək, təki bir-birinizə dayaq olmağınızı unutmayasınız.

Əlbəttə, Sara Xatun bu sözləri deyəndə, oğlu Uzun Həsənlə II Mehmedi nəzərdə tuturdu.

Yer-yerdən «amin» sədaları qopdu. II Mehmed ayağa qalxıb Sara Xatunun sağ əlini öpüb gözünün üstünə qoydu.

Sara Xatun bu ehtiramdan mütəəssir oldu. Çal-çağırlı ziyafət musiqiçilərin ürəyəyatımlı ifaları ilə davam edirdi. İşvəli və gözəl xanəndə qızlar incə barmaqlarının dilləndirdiyi udun sədaları altında Sultan Mehmedin qəzəllərini oxuyurdular. İstanbulun fatehi Sultan Mehmedin şeirləri də Avni təxəllüsü ilə könülləri fəth etməkdəydi…

*Gözümdən akan yaşmıdur, qanmıdur*
*Ləbün yadına ləlü mərcanmıdur?*

*Gönüldə nə var isə faş itdi göz,*
*Səni sevdigüm yani pinhanmıdur?*

*Gözüm ilə dərya nice bahs idə,*
*Gözüm gibi ol gevher-efşanmıdur?*

*Gönül iztirab ilə oldı həlak,*
*Gələn görün ol afəti canmıdur?*

*Dimiş Avniye ben cefa etmezem,*
*Ana cevr iden yoksa devranmıdur?..*

Sara Xatun onun şərəfinə verilən bu ürəkaçan məclisə razılıqla göz gəzdirir, oxunan qəzəllərin, çalınan musiqilərin xoş təəssüratının təsirinə dalırdı…

*Yimə dilbərlər qəmin ey dil ki, zar eylər səni…*
*Gər azizi-aləm isən dahi har eylər səni …*

*Gər siyah kaküllerün sevdasın eylərsən həvəs,*
*Aləm içində pərişan-ruzigar eylər səni…*

*Yüz sürem bir şahsüvarun atı izine dime,*
*Dahi gərdinə erişmedin qubar eylər səni…*

*Der imişsün yoluma can virənə rəhm eylərəm,*
*Bu söz əhli-hüsn içində şərmsar eylər səni…*

*Eşqi simü ruyi zərdin yoluna harc eyləyüb,*
*Avni, bir gün dostum kəndüye yar eylər səni…*

Ziyafətin ən maraqlı məqamı isə Sultan Mehmedin sonda rübabın müşayiəti ilə dillər əzbəri olan məşhur qəzəlini özünün oxuması idi:

*Bağda güldən bahsədən yanağını qəsdedər,*
*Sərvidən söz açanlar əndamını qəsdedər.*

*Dilbərə vasıl olmak dar-ı dünyadan murad,*
*Aşık aşkın dərdilə dərmanını qəsdedər…*

*Bu fani dünya üçün dəyməz quru qovğaya*
*Əcəl ki, bu dünyanın ziyanını qəsd edər…*

*Ulduzlardan ucadır gözyaşı eşiyində*
*Bu buludlar ahımın dumanını qəsdedər…*

*Ey Avni, beyti pozma bəhsi-əğyar eyləyib,*
*Şeir o ki sadəcə cananını qəsdedər…*

Sara Xatun yaddaşına ilişib qalan beyti qeyri-ixtiyari pıçıldadı: «Bu fani dünya üçün dəyməz quru qovğaya».

Sözlü – rübablı qopuzlu ziyafətin yaratdığı dəruni əhval-ruhiyyə Sara Xatunu düşüncələr aləminə götürdü: «Bəs necə olur ki, fani dünyanın savaşa, qovğalara dəyməyəcəyini bilən, bu ali həqiqətə vaqif olan Fateh «Mənim qüdrətimin çatdığı yerlərə başqalarının xəyalları belə çata bilməz» deyərək, az qala dünyaya hökm etməyə iddialıdır? Bir insanın qəlbində bir-birinə təzad təşkil edən fatehlə şair necə yola gedə bilir? Hansının sözü haqdır? Hansı əsl sultandır – torpaqların, yoxsa könüllərin fatehi?..»

Və elə həmin təntənəli ziyafətdən sonra Sara Xatun geri qayıtmaq üçün hazırlıq görməli oldu. Amma Sultan II Mehmed onun qayıtmasına icazə vermədi:

– Yox, anamız uzun yol gəlib, o, hələ bir müddət burada qalıb, dincələr. Sonra biz özümüz çox böyük hörmət və ehtiramla onu öz ölkəsinə yola salarıq.

Sara Xatun səhəri gün söhbət əsnasında hiss etdi ki, Sultan II Mehmed Trabzon hökmdarının üzərinə yürüşə hazırlaşır. O, Sultanı fikrindən daşındırmaq üçün mehribanlıqla buyurdu:

– Sultan bilir ki, Trabzon hökmdarı Uzun Həsənin qayınatasıdır. Əgər Sultan II Mehmed onun üzərinə hücuma keçsə, bu Uzun Həsənin xətrinə dəyməzmi?

– Yox, gərək bizim əməlimiz Uzun Həsənin xətrinə dəyməsin, çünki Trabzon hakimiyyətinin taleyini artıq zaman verib.

Sara Xatun indi başa düşdü ki, Sultan II Mehmed nə üçün onun gəlişindən məmnundur. Və onu da anladı ki, Sultan nəyə görə geri qayıtmasına icazə vermir. Demək, səbəb bu imiş ki, bir növ Sara Xatunu əldə girov saxlasın. Uzun Həsənin Osmanlılar üzərinə yürüşünün qarşısını alsın. Bir ananı girov saxlamaqla, övladlarının əl-qolunu bağlamaq imiş məqsədi…

Sara Xatun bildi ki, Yastıçəməndə sülhü əldə etməyi bacarsa da, daha Trabzon imperatorluğunun taleyi həll olunub. Yaran-

mış şəraitə uyğun vəziyyətdən necə istifadə etmək olardı? Bunun bircə yolu vardı. O, II Mehmedə bildirsin ki, Trabzon hakimilə qohumluq Uzun Həsənə də haqq verir ki, onun varidatının, heç olmasa, yarısına iddia eləsin. Çünki Trabzon gəlini Dəspinə xatunun cehizi idi. Və ordakı varidata iddia gəlininin, dolayısı oğlu Uzun Həsənin halalca haqqı idi.

Növbəti həftə bahar yağmurları altında Sultan II Mehmedin qoşununun Trabzon üzərinə yürüşü başladı. Verilən əmrə görə, Osmanlı hərbi donanması da eyni vaxtda yüz əlli gəmiylə Trabzona doğru üzürdü. Sultan sözündən dönməyib, bu səfərdə Sara Xatunu da özüylə götürdü. Yollar keçilməz idi. Ərzincan düzənliyindən Trabzona gedən əsas girişi buraxıb, şimaldan Kəlkit tərəfdəki əlverişsiz yolla irəliləyirdilər. Gah dik təpələrdən, gah uca dağlardan, hətta sıldırım qayalıqlardan aşmağa məcbur olan qoşun xeyli əziyyət çəkirdi. Bəzən Sultan Mehmed özü belə atdan enib uzun-uzadı piyada getməli olurdu. Yolun hansısa hissəsində atların arabaları keçilməz palçığa saplanıb hərəkət edə bilməyəndə, Sultan əmr verdi ki, arabaların yükünü qoşunun yanınca götürdüyü səkkiz yüz dəvəyə yükləsinlər və arabaları yandırsınlar. Yüzdən artıq araba doğranıb yandırıldı, atları isə istəyənlərə verdilər.

Yollarda yorulan Sara Xatun bir gün dözməyib Sultan Mehmeddən soruşdu: «Hey oğul, Trabzon üçün niyə bu qədər zəhmət çəkirsən?» Sara xatun sualının qarşılığında sultandan «Hey ana, bu zəhmət din yolundadır, əlimizdə İslam qılıncı var, bu yolda zəhmət çəkməsək, bizə qazi demək yalan olar…» cavabını almışdı. Əlbəttə ki, Sara Xatunun fikri əslində son anacan sultanı Trabzon üzərinə yürüşdən çəkindirmək cəhdi idi.

Uzun əsrlər boyu nəhəng Trabzon az qala Şərqə və Qərbə basılmaz bir qala kimi görünürdü. Amma indi çiçəklənməkdə olan Osmanlıların gücü qarşısında aciz idi. Həm qurudan, həm də dənizdən hücuma məruz qalan Trabzon imperatorluğu iyirmi səkkiz günlük mühasirədən sonra Osmanlı yeniçərilərinə təs-

lim oldu… Qərb ölkələri də Trabzonu müdafiə etmək üçün heç olmasa, hədə-qorxu məktublarını belə göndərməyə vaxt tapa bilmədilər. Trabzonun saysız-hesabsız sərvəti Osmanlıların əlinə keçdi. Ancaq hər halda o Sara Xatunla olan anlaşmaya hörmət əlaməti kimi bu sərvətin xeyli hissəsini pay kimi Teodora xatuna, dolayısı ilə Uzun Həsənə ayırdı. Döyüşdən sonra qənimətin yığışdırılıb hesaba alınması da bir müddət vaxt apardı.

Hər şey aydın idi. Sultan II Mehmed Ağqoyunlular səltənətinə çatacaq sərvəti bir karvana düzənlədi. Sultan sarayından geri dönən Sara Xatun beləcə bir müddət iki qardaş arasında qüvvədə olan Yastıçəmən sülhü ilə barışın əsasını qoydu. Zaman yenə axarında dövrün küləkləri yeni hadisələri gətirməkdə davam edirdi…

* * *

1465-ci ilin qışı bəd gəlmişdi… Dövləti-Bayanduriyyə yas içində idi. Diyarbəkirdə bayraqlar endirilmiş, şəhərin hər yerindəki Bayanduriyyə damğalarının üstünə qaralar bağlanmışdı. Aləmlərin anası, xanədanın başbiləni Sara Xatun neçə müddət idi ki, hakimiyyət üstündə atanın oğula, qardaşın-qardaşa qıydığı bu fani dünyaya gözünü əbədilik yummuşdu.

Belə üzücü günlərin birində yenə qardaşı Uzun Həsənlə başbaşa unudulmaz Sara Xatunu yad edib xeyli ağlayandan sonra Xədicə Sultan qızarmış üz-gözünü cariyənin gətirdiyi gülabla yuyub sarayın qadınlar hücrəsinə çəkildi. Xədicə Sultan gedəndən sonra sarayın birinci xanımı, Həsən padşahın sevimli xatunu Dəspinə Sultan ərinin köşkünə gəldi. Səssizcə yaxınlaşıb dərin hüzn və kədər içində başını aşağı salıb taxtında büzüşən Həsən padşahın dizinin dibində oturdu. Şahın ayaqlarını qucaqlayıb üzünü söykədi. «Padşahım, ağrı-acını az da olsa səngitmək üçün hər şeyə hazıram. Əfsus ki, ana itkisini heç bir şeylə ovutmaq mümkün deyildir. Həm də Sara Xatun kimi aləmlər anasının. Amma biləsən, hər zaman padşahımızın xidmətindəyəm, yanındayam…»

Uzun Həsən Dəspinə xatunu ayağa qaldırıb bağrına basdı: «Teodoram, bu ana itkisi təkcə mənim deyil, bütün Bayandurların itkisidir. Bundan sonra mənim əsas vəzifəm ata-babalarımın, sonra anam Sara Xatunun yolu ilə gedib Dövləti-Bayanduriyyənin daha da güclənməsi üçün son nəfəsimə qədər qılınc çalmaqdır. Bu yolda varlığın mənə yetər, Dəspinə». Uzun Həsən göz yaşlarını saxlaya bilmədi… Bundan sonra Sara Xatun cismən yanında olmasa da, ruhən, xəyalən daim onunla olacaqdı. Bundan sonra da ən mühüm qərarları qəbul edərkən Sara Xatunun mübarək surəti onu tək qoymayacağına əmin idi. Çünki analar, hələ bu analar millətin anasıdırsa, – heç vaxt ölə bilməzlər, yoxa çıxmazlar…

* * *

Kəngəş məclisi[1] toplanmışdı. Bu gün Həsən padşahın «Qanunnamə»sinin[2] son müzakirəsi olacaqdı. Yüksək məqamlı dövlət adamların hamısı divana çağırılmışdı. Əmir əl-üməra, sədrəzəm[3], baş vəzir, sahibi-divan, padşahın möhürdarı[4], əyalət əyanları, əmirlər, şahzadələrin lələləri ilə yanaşı şəhər darğalarının[5] böyüyü də qurultayın başlanmasını gözləyirdilər. Əmirlərdən narahatlıq keçirənlər, qorxudan içi içini gəmirənlər var idi. Çünki əyalətlərdə padşahın qoyduğu qayda-qanunları pozanlar, özbaşınalıq edib müəyyən ediləndən artıq vergi toplayanlar, əhalini

[1] Kəngəş məclisi – Ağqoyunlular dövründə dövlətin daxili və xarici siyasət məsələlərinin müzakirə olunduğu qurultay.

[2] Uzun Həsənin «Qanunnamə»si – XV yüzillikdə Azərbaycanın Ağqoyunlu dövlətinin başçısı Uzun Həsən tərəfindən tərtib (1470-1477-ci illərdə) edilmiş qanunvericilik aktı.

[3] Sədrəzəm – Ağqoyunlular dönəmində padşahın adına dövlət işlərini idarə edən ən yüksək dərəcəli şəxsə verilən siyasi ad.

[4] Möhürdar – dövlət rəhbərlərinin möhürlərini daşıyan və lazımi sənədləri möhürləyən saray əyanı.

[5] Darğa – şəhər yaxud vilayət hakimi.

incidənlər aşkarlanmışdı. Belələrinin canlarına vicvicə düşmüşdü. Şahın divana girməsilə ümumi uğultu bir anda kəsildi. Uzun Həsən əvvəlcə böyük vəzirlərin son hesabatını dinlədi. Əmirləri gözdən keçirib aramla söz başladı:

– Tamğanın[1] ləğvilə bağlı əvvəlki divanda danışmışdıq. Məhsulun dəyərinin onda birini kəndlidən almaq onların vəziyyətini ağırlaşdırır. Təklif edirəm ki, tamğa vergisini ümumiyyətlə ləğv edək.

Əmirlər yer-yerdən dillənib etirazlarını bildirdilər:

– Padşahımız sağ olsun, tamğanı ləğv eləmək xəzinəyə mənfi təsir göstərər. Daxil olan mədaxil əhəmiyyətli dərəcədə azalacaq.

– Vergini azaltmaq, insanları arxayın salacaq, əvvəlki kimi işləməyəcəklər.

– Şahımıza Allah uzun ömür versin, tamğa xanədanın inkişafı üçün zəruri vergidir…

Uzun Həsən bütün əmirləri səbirlə dinlədi. Hiss edirdi ki, əmirlərin belə əl-ayağa düşmələri sarayın xəzinəsindən daha çox, ciblərinə görədir. Qəfildən səsini qaldırıb çığırdı:

– Xanədanın xəzinəsini deyil, özünüzün gəlirinizi fikirləşdiyinizi yaxşı bilirəm. Elə bilməyin ki, özbaşınalıqlarınızdan xəbərim yoxdur. Artıq bir neçə nəfəri əmirlikdən rədd etməyi nəzərdə tutmuşam.

Bu vaxt sahibi-divan ehtiramla məclisə müdaxilə elədi:

– Doğru buyurursunuz, məhsulun onda birini vergi kimi almaq xalqa ağır yükdür. Padşahımız məsləhət görsə, tamğanın tamam ləğvini yox, məhsulun iyirmidə biri miqdarında təyin etməyini xahiş edərdik. Əgər belə olsa, bu özü də əhalinin güzəranını xeyli yaxşılaşdıracaq.

Uzun Həsən fikrə getdi. Çənəsini ovuşdurub üz-gözünü turşutdu. Üzünün sərt ifadəsinə rəğmən xeyli yumşaq ahənglə sözə başladı:

---

[1] Tamğa – ticarət və istehsal edilən sənətkarlıq malları satılarkən onların üzərinə qoyulan vergi olub, əsasən, pul ilə yığılırdı.

– Səltənətlər ədalət və xeyirxahlıqla idarə olunur. Haramın bulaşdığı yerdə isə qüdrətdən söhbət gedə bilməz. Camaatdan mənim xəbərim belə olmayan mənasız vergilər alıb, onların güzəranını çətinləşdirən ümara tayfası bu məclisdən sonra lazımınca cəzalandırılacaq. Böyük vəzirin etdiyi təklifə isə baxmaq olar, indilikdə tamğa məhsulun iyirmidə biri qədər toplansın. Xalqdan bundan artıq almağa cəhd edənlərin imkanı isə edam kürsüsü olacaq. Xanədanımıza daxil olan ərazilərimizdən keçirilib başqa yerə satılmağa aparılan maldan alınan bac[1] isə tamğadan da az olmalıdır. İmkan verin ki, ölkələrarası ticarət inkişaf eləsin. Bu gündən etibarən şiltaqat vergisi[2] adı altında yığdığınız hər cür qanunsuz vergi tamamilə ləğv edilməlidir. Kim olmasından asılı olmayaraq hansısa əmirin özbaşına şiltaqat vergisi yığdığını eşitsəm, başını qurtara bilməyəcək. Şilənbəha, süfrəbəha[3] vergisi toplamaq adı ilə xalqı soyub talamağa son qoyulmalıdır. Bu vergiləri artırmaqdansa, ziyafətlərinizin sayını və israfını azaldın.

Saray mirzələri Həsən padşahın dediklərini bircə-bircə səliqə ilə qeyd edirdilər. İndiyə qədər vilayətlərdə özbaşınalıq edib qanunsuz vergi toplayan əmirlərin bəzilərinin hirsindən dişi bağırsağını kəsir, bəziləri isə qorxusundan sarısını udmuşdu…

Həsən Sultan davam etdi:

– Köçəri maldarlar məbləği daha az olan rəsmi yataq vergisi ödəsələr, kifayətdir. Çobanbəyi[4] vergisini də kəlləçarxa qaldırmısınız. Yüz qoyuna bir baş qoyun almaq çoxdur, üç yüz qoyuna bir qoyun ödəsələr, kifayət edər. Dəqiqləşdirdiyim vergi miqda-

---

[1] Bac – orta əsrlərdə bir yerdən başqa yerə aparılan əmlaka və tranzit olaraq keçirilən mallara görə alınan vergi rüsumu.

[2] Şiltaqat – qeyri-qanuni, özbaşına toplanan vergi.

[3] Süfrəbəha, şilənbəha – feodal ziyafətlərinin təşkili üçün yığılan vergi.

[4] Çobanbəyi – otlaqlardan istifadəyə görə köçəri maldarlıqla məşğul olan elatlardan alınan vergi.

rından artıq alanların sərt cəzası da «Qanunnamə»də əksini tapacaq.

Həsən padşah gözlərilə məclisdə kimisə axtardı, tapan kimi dilləndi:

– Hə, Əbubəkr Tehrani də buradadır, «Qanunnamə» ilə bağlı hər şeyi «Tarixi-Diyarbəkriyyə»də[1] də qeyd etmək sənin vəzifəndir.

Uzun Həsən sarayın möhürdarına üzünü tutub ötkəmliklə tapşırdı:

– «Qanunnamə»nin çoxlu surətləri çıxarılsın, xanədanın bütün böyük şəhərlərinə göndərilsin. Bundan belə «Qanunnamə» kəndlilərdən, tacirlərdən və sənətkarlardan alınan vergiləri qaydaya salmaq, karvan yollarında sabitliyi və asayişi təmin edən əsas qanunlar toplusu kimi tanınmalıdır. «Qanunnamə» ədalətimizin təzahürüdür. Bundan sonra Həsən padşahın qanunlarına qarşı çıxmaq elə ədalətə qarşı çıxmaqdır, ədalətə qarşı çıxanların cəzasının nə olacağını xatırlatmağa isə lüzum görmürəm, hamınız yaxşı bilirsiniz…

* * *

Uzun Həsəni hər şeydən çox incidən vaxtilə Cahangir Mirzənin canını bağışlayıb onun Mardinə qaçmasına şərait yaratsa da, qardaşının hələ də taxt sevdasından əl çəkməməsiydi. Xəbər gəlmişdi ki, Cahangir Mirzə qoşun toplayıb yenə Uzun Həsənlə savaşa girmək niyyətindədir. Uzun Həsən illər əvvəl qardaşı ilə qarşılaşdığını xatırladı. Həmin savaşdan əvvəl mərhum anası Sara Xatunun necə sıxıntı keçirdiyini, hər iki oğlunu ölümdən qorumaq üçün sarsıntılar içində qovrulduğunu da yadına saldı.

---

[1] «Tarixi-Diyarbəkriyyə» – Uzun Həsənin əmri ilə yazılmağa başlanılmış və onun ölümündən sonra tamamlanmış Ağqoyunlu xanədanlığının tarixi haqqında Əbubəkr Tehrani tərəfindən fars dilində yazılmış kitab.

Həsən padşahın ürəyi sıxıldı. Sara Xatun unudulmaz xatirələri və qürur mücəssəməsini xatırladan qədd-qaməti ilə gəlib Uzun Həsənin gözlərinin qarşısında durdu. Uzun Həsən hətta xəyalən də olsa, anasının sarsılmış üzünə baxmağa cəsarət etmədi. Anasının xəyalına pıçıldadı:

– Aləmlərin anası, mən o vaxt da qardaşımdı, deyə, Cahangir Mirzəyə qıymadım. Bayandur soyumuza, xanədanımıza və ədalətimizə xəyanət etməsinə rəğmən onu salamat buraxdım. Çünki eyni qanı daşıyırdıq. Həm də aləmlərin anası olan ağbirçəyimizin gözündən yaş axıtmasına qıya bilməzdim. İndi isə yenə Cahangir Mirzə dövlətimizin güclənməsini və artan zəfərlərimizi həzm edə bilməyərək, bizə qarşı müharibəyə hazırlaşır. Bir Allah şahiddir ki, mən illər öncə də qardaş qanı axıdılmasına qarşı idim, elə indi də bunu istəmirəm.

Uzun Həsən sanki xəyalında məhzun görkəmilə özünə yer edən Sara Xatunun nə cavab verəcəyini gözləyirdi. Ondan isə cavab gəlmədi… Çünki tarixin özü ilə müqayisədə ani görünən taxt-tac qovğaları əbədiyyətin üzündə istehzalı təbəssüm yaratmaqdan başqa bir işə yaramırdı…

Uzun Həsən qapıdakı mühafizlərə Kürd Osmanı hüzuruna çağırmağı tapşırdı. Bu müddətdə isə oturduğu otağı iri addımları ilə aşağı-yuxarı arşınlayıb var-gəl elədi.

Kürd Osman içəri girəndə Uzun Həsən yazıb bitirmiş olduğu məktunu ona uzatdı:

– Osman, oxu…

Osman burulmuş vərəqi alıb açdı, aramla oxumağa başladı:

– Ey Cahangir Mirzə, biz bir anadan və atadan doğulmuş iki qardaşıq. Gərək bir-birimizlə əhd-peyman bağlayaq, and içək ki, bundan sonra sülh və dostluq yolunu tutacaq, müxalif mövqedən və düşmənçilikdən uzaq olacağıq. Bizimlə Qaraqoyunlular arasında qədim ədavət olduğuna görə, onlara birləşmək münasib deyildir…» – Sultanım, yadımdadır illər əvvəl də Cahangir

Mirzəyə belə bir sülhə dəvət məktubu yollamışdıq, – Kürd Osman yada saldı.

– Elədir, mən yenə də hər şeydən əvvəl qardaşlıq əlimi Cahangir Mirzəyə uzadıram, əgər bu əli tutarsa, pənahımda olacaq, yox əgər Cahanşaha sığınmağı münasib bilərsə, deməli özü bilərəkdən məğlubiyyəti seçir…

…Cahangir Mirzə isə yenə də qardaşına əl uzatmağı seçmədi, taxt sevdası daha güclü çıxdı…

Soyuq payız günlərinin birində – Muş düzündə Cahanşahın tərəfində döyüşən Cahangir Mirzə yenə məğlubiyyət rüsvayçılığı ilə birtəhər canını qurtarmağı bacardı. Ancaq deyəsən, ömrünün sonuna az qalmışdı… Axı sonra Cahanşah Həqiqi, nə də oğulları Uzun Həsənin qəzəbindən yaxa qurtara bilmədilər. Cahanşahın kəsilmiş başı Teymuri Əbu Səidə, onun oğlunun başı isə İstanbula-II Sultan Mehmedə göndərildi… Bununla da Uzun Həsən rəqiblərinə həm qələbəsini çatdırmaq, həm də onları Ağqoyunlu dövlətinə qarşı açıq mübarizədən çəkindirmək məqsədi güdürdü. Dövr amansız idi, öldürməsən, öldürəcəkdilər… Qaraqoyunlu dövlətini çökdürən Ağqoyunlu xanədanının sultanı Həsən padşah bununla da Dövləti – Bayanduriyyənin tarixində yeni bir səhifəni açdı… Ağqoyunlu dövləti artıq Avropanı da, Osmanlı sultanlığını da qorxuya salan nəhəng bir imperatorluq idi. 1468-ci ildən isə bu imperatorluğun paytaxtı Azərbaycanın göz bəbəyi, qiymətli incisi Təbriz şəhəri oldu… Fateh Sultan Həsənin Təbriz fəthi də yaddaqalan idi. Padşahın zəfərlər tarixini və xanədanın şanlı salnaməsini yazan Əbubəkr Tehrani Sahibqran adlandırdığı padşahın Təbriz fəthini «Kitabi-Diyarbəkriyyə»də böyük həvəslə qələmə almışdı: «Sahibqran… uğurlu bir saatda Təbriz şəhərinə daxil oldu və Azərbaycan diyarını öz qədəmləri ilə şərəfləndirdi. O diyarın fəqir və miskinlərinin üzünə xeyrat və ehsan qapılarını açdı. Bir neçə gün ardıcıl şəkildə etibarlı adamlara böyük məbləğdə vəsait verdi ki, ölkənin alimlərindən, möminlərindən,

dərvişlərindən kimin nə qədər ehtiyacı varsa, onlara paylasın. Hər gün ariflərin başçısı Baba Əbdürrəhmanın dərvişləri üçün təşkil olunmuş yerdə halal süfrələr açıldı və dərvişlər, müridlər, mürşidlər, vəlilər tam asudəliyə çıxdılar. Hər cümə günü axşamlar ətraf yerlərdən öz ehtiyaclarını bildirmək üçün gələn üləma və əyanlar Sahibqranın məclisinə dəvət olunurdu. Sahibqran öz söhbətlərilə hamını feyziyab edir, təam və ənam verirdi…» Dövran ədalətin və xeyirxahlığın dövranı idi…

Padşahın Təbriz üçün hələ bundan sonra qiymətli planları vardı. Bu aralar beynində ancaq bu fikirlər dolaşırdı: «Ağqoyunlu imperatorluğunun paytaxtında mütləq elm və ürfan mərkəzi olan böyük Nəsriyyə mədrəsəsi tikilməlidir. Üstüörtülü böyük Qeysəriyyə bazarı daha mükəmməl şəkildə inşa etdirilməlidir. Bununla da xanədanın paytaxtında elm və ticarət daha da inkişaf edər, beləliklə də, bizi heç kim məğlub edə bilməz…»

* * *

Uzun Həsən padşah köşkündə dincəlirdi. Gözəl oymalarla işlənmiş qapı astadan döyüldü. Qapının tıqqıltısından Həsən padşah gələnin xatunu Səlcuqşah bəyim olduğunu anladı. Özü mühafizlərinə tapşırmışdı ki, xatunlarından hansı gəlsə, əgər padşah xəlvətiyyəyə çəkilməyibsə, heç birini qapıda gözlətməsinlər. Xəbərdarlıq tıqqıltısı yetərlidir. Səlcuqşah bəyim zərif addımlarla taxta tərəf gəlib xəfifcə təzim etdi. Adəti üzrə söhbətə oğlu Xəlili tərifləməklə başladı. Uzun Həsən Səlcuqşah bəyimin hər dəfə Xəlili atasının gözündə qaldırmaq istəyinin alt qatını yaxşı anlayırdı. Bununla da xatunu məhz ondan doğulan oğlunun gələcək taxtın varisi olduğuna işarə edirdi. Sözarası yenə az qala sezilmədən Uzun Həsənin Diyarbəkir bəyinin qızından olan böyük oğlu Uğurlu Məhəmməd haqqında da xəfifcə, gözdən salıcı ifadələrlə bəhs etməyi unutmadı. Həsən padşah qəfildən Səlcuqşah Bəyimin üzünə elə sərt baxdı ki, Səlcuqşah Bəyim anın-

daca söhbəti dəyişib başqa məcraya yönəltdi. Padşah özünün on beş yaşında ikən evləndiyi əmisi qızı Səlcuqşah bəyimi sevirdi, o, ağıllı və gözəl qadın idi, üstəlik padşaha Xəlil kimi şahzadə bəxş etmişdi. Ancaq bununla belə hiyləgərliyi və mənsəbpərəstliyi hərdən həddini aşırdı. Belə vaxtlarda Uzun Həsən bircə nəzəri ilə xatunu özünü yığışdırmağa məcbur edirdi. Səlcuqşah Bəyim isə ağıllı olduğu qədər hiyləgər idi, münasib zamanı gözləmək üçün kifayət qədər səbirli idi…

Uzun Həsən sarayın kitabxanasına baş çəkmək istəyirdi. Səlcuqşah Bəyim də şirin dillə padşahın könlünü ala-ala onun yanınca kitabxanaya yol aldı. Bununla da istəyirdi ki, Uzun Həsənin digər hərəmləri padşahın ona necə dəyər verdiyini görsünlər, özü ilə çox sevdiyi məkana – sarayın kitabxanasına apardığından hirslənib həsəddən çatlasınlar…

Uzun Həsən işıqlı kitabxanaya daxil olarkən içəridəkilər bir nəfər kimi ayağa qalxıb padşaha təzim elədilər. Kitabxana çox böyük idi, içəridə on minlərlə qədim kitablar, nadir əlyazmalar saxlanılır, göz-bəbəyi kimi qorunurdu. Elə təkcə bu elm ocağında altmışdan artıq üləma çalışır, qədim əlyazmaların əsasında araşdırmalar aparır, təfsirlərinin və qənaətlərinin yer aldığı yeni əsərlər, risalələr, traktatlar yazırdılar. Kitabxananın nəzdində çoxlu emalatxanalar da vardı ki, orda da istedadlı xəttatlar, rəssam–miniatürçülər çalışırdılar. Uzun Həsənin vaxtaşırı gəlib burada gedən işlərlə maraqlanmasına, bir-bir xəttat və miniatürçü rəssamların emalatxanalarını gəzib dolaşmasına hamı alışmışdı. Həsən padşah elm əhliylə söhbət edir, onların yeni işləri ilə maraqlanır, apardığı uzun-uzadı mükalimələrdən böyük zövq aldığını dilə gətirməyi də xoşlayırdı. Bu dəfə də adətinə xilaf çıxmadı. Emalatxanada Səlcuqşah Bəyimə Uzun Həsənin zəfər döyüşlərindən birinin əks olunduğu gözəl bir miniatür lövhə bağışladılar. Kitabxanada çalışanlar yenə böyük ehtiramla elm və ürfan həvəskarı olan və üləmaları sevgi ilə himayə edən ədalətli padşahı düz sarayın bağçasına qədər

bəlağətli sözləri ilə müşayiət etdilər. Uzun Həsən həmişə olduğu kimi bu dəfə də kitabxanadan köksü fərəhlə qabarmış, ürəyi sevinclə çırpınaraq çıxdı. Uzun Həsən sarayın bu zəngin kitabxanası ilə haqlı olaraq fəxr edirdi. Padşahın fikrincə, məmləkət bir əlində qılınc, bir əlində qələm tutanda, daha yenilməz olur. Bayanduriyyə dövləti kimi… Sırada isə görüləcək xeyli böyük işlər, qazanılacaq möhtəşəm zəfərlər vardı…

* * *

Uzun Həsən tərəfindən Əbu Səidə göndərilən Cahanşahın oğlunun kəsilmiş başı Teymuri hökmdarına Ağqoyunlular üzərinə hücuma hazırlaşmaq üçün bəhanə oldu. Guya Cahanşah Həqiqinin intiqamını almaq, onun sağ qalan yaxınlarını da müdafiə etmək məqsədilə Əbu Səid böyük qoşun toplayıb Azərbaycana doğru hücuma başladı. Miyanədə müvəqqəti məskunlaşan teymuriləri yaxşı aqibət gözləmirdi. Əbu Səid hələ ki Təbrizə girməyə ürək eləmədiyindən Qarabağ düzənliyinə endi. Ordusu aclıqdan əziyyət çəkirdi, qoşundakı süvari qüvvələrin atlarının zəiflikdən beli qarınlarına yapışmışdı. Muğanda nicat tapacağını düşünüb, Əbu Səid qoşunu ilə Mahmudabad və Qızılağaca doğru yol aldı.

Əbu Səid elə ilk qarşılaşmadaca Uzun Həsəni yenəcəyini – onu məğlub edib, əsir götürə biləcəyini düşünürdü. Həm də ona görə əsir götürməyi düşünürdü ki, onun Uzun Həsəni öldürmək fikri yox idi. O fikirləşirdi ki, Ağqoyunlular az müddət ərzində çoxlu sərvət toplayıblar, bunu gizli xəzinələrdə saxlayırlar. Əvvəlcə Uzun Həsəndən bu xəzinələrin yerini öyrənib, sərvəti ələ keçirmək, sonra da Uzun Həsənin döyüşdən kənarda qalmış qüvvələrini öz ordusuna qatmaq planını cızmışdı. Ancaq necə deyərlər iki qoçun başı bir qazanda qaynamazdı, sən saydığını say, gör fələk nə sayır…

…Əbu Səidin üz tutduğu yerlərdə heç kim ordusuna könüllü ərzaq yardımı göstərmədi. Əhali qoyun sürülərini və naxırla-

rı çəkib uzaqlara aparmış, beləliklə, Əbu Səidin əlini onun yaxın bildiyi ərzaqdan məhrum etmişdilər. Beləliklə, Əbu Səid Uzun Həsənlə heç qarşılaşmadan ciddi çətinliyə düşmüşdü. Artıq orduda güclü narazılıq başlamışdı. Dəfələrlə məktub yazıb, tələb etməsinə baxmayaraq, Şirvanşah Fərrux Yasardan nəinki yardım, heç cavab da gəlmirdi. Zənni onu yanıldırdı, Şirvanşah Fərrux Yasarı I Xəlilullahla eyni tutmuşdu. Axı o vaxt I Xəlilullahın dövründə Xəzərdən gəmilərlə Temurilərə hərbi qüvvə və ərzaq göndərilmişdi. Əbu Səid ac qoşunu ilə xəyalplov bişirməyində ikən Uzun Həsən lazımi tədbirlərlə işini sağlam qurmuşdu. İlk işi I Fərrux Yasara elçisini göndərmək olmuşdu. «Cığataylar gec-tez bu ölkədən gedəcəklər. Sən onların dostluğundan nə fayda görə bilərsən?» məzmunlu məktubunda Uzun Həsən Şirvanşaha qandırmışdı ki, yəni qaranquş gəldi gedərdi, yenə qalan boz sərçədi…

Həsən padşah Əbu Səidə qarşı birgə vuruşmaq üçün Şirvanşahların və Ərdəbil şeyxlərinin hakimiyyətinin birgə dəstəyinə nail ola bildi.

Əbu Səid təcrubəli sərkərdəydi. O, yaxşı bilirdi ki, bir yerdə dayanmaq ordunun əhvalına pis təsir edir. Aclığın başlaması, xəstəliklərin yayılması da ruh düşkünlüyü yaranmışdı. Axır ki, yazqabağı Əbu Səid anladı ki, bu ətalət bir qədər də davam etsə, ordu onun ətrafından dağılıb gedəcək və o, fərariliyin qarşısını ala bilməyəcək. Üstəlik də Ağqoyunluların ona qarşı Şirvanşahlarla və Ərdəbil hakimiyyəti ilə ittifaq qurduğunu eşitmişdi. Elə bu səbəbdən də Uzun Həsən üzərinə yürüşün daha acı nəticə verə biləcəyinin qarşısını almaq üçün təcili surətdə Təbrizə – Uzun Həsənin yanına barışıq elçiləri göndərməyi qərara aldı. Təbrizə də yaxşı tanınan, əhali arasında nüfuzu və hörməti olan iki mötəbər şəxsi – Seyid Qiyasəddinlə Seyid İbrahimi göndərdi. Onlar Uzun Həsənin sarayında hörmətlə qarşılandı. Seyidlərin hörmət-izzətlə pişvazı, Əbu Səidə olan düşmən münasibəti pərdələmək üçün idi.

Uzun Həsən özü danışdı:

– Hörmətli seyidlər, biz öz niyyətimizi mərhum anamız Sara Xatun vasitəsilə Əbu Səidə qabaqcadan bildirmişik. Bizim Əbu Səidə qarşı heç bir kinimiz yoxdu. Əgər bizim məmləkətin sərhədlərinə toxunmasa, onun hərbi səfəri elə sülhlə başa çata bilər.

Əvvəlcə Seyid Qiyasəddin danışdı:

– Əbu Səidin də Təbrizin böyük hökmdarı, Ağqoyunluların pənahı Uzun Həsənin yanına bizi göndərməkdə məqsədi odur ki, arxayın olsun, bizim onunla heç bir ədavətimiz yoxdur. O, gələcəkdə də Əbu Səidlə ittifaqa inana bilər.

Bu yerdə Uzun Həsən özünü saxlaya bilmədi:

– Bəlkə, ittifaq barədə Əbu Səid bir qədər gecikib. Niyə bu barədə bizə əvvəlcədən xəbər vermirdi?

Seyid Qiyasəddin Uzun Həsənin belə kəskin münasibətini gözləmədiyindən bir qədər çaş-baş oldu. Aradakı sükutu Seyid İbrahim pozdu:

– Sizin özünüz də yaxşı bilirsiniz ki, Əbu Səid səfərə çıxsa da, Ağqoyunluların sərhədlərinə toxunmayıb. Vaxtilə özünün ixtiyarında olan ərazilər boyu hərəkət edib.

– Əcaba, bu hərəkətdə məqsədi nə idi? – Uzun Həsən soruşdu.

Seyid İbrahim sözünə davam etdi:

– Həsən padşah, yaxşı məlumdur ki, ordunun bir yerdə dayanması bir çox fəsadlar yaradır. Əbu Səidin də səfərə çıxmaqda məqsədi ordusuna ərzaq ehtiyatı toplamaq idi.

Deyəsən, Seyid Qiyasəddin Uzun Həsənin əhvalının dəyişdiyindən narahat olmuşdu. Ona görə bir qədər yumşaq səslə söhbətə müdaxilə etdi:

– Hökmdar nə məsləhət görür? Bizim sülh təklifimizə necə baxır?

Bu dəfə sual deyəsən, Uzun Həsəni tərpətdi. Uzun Həsən anladı ki, bir az da əgər danışığı bu ahəngdə davam etdirsə, niyyətini

tamam açıqlayacaq. Ona görə, daha mülayim və xoş bir əhvalla dilləndi:

– Bizə sülh təklifilə müraciət edən hər bir qonşumuza hörmət və məhəbbətimizi bildiririk. Siz də hökmdarınıza çatdırın ki, bu təklif bizi sevindirdi. Əgər etiraz etməsəniz, bizim elçi Şeyx Heydər elə sizinlə birgə Əbu Səidin yanına gedər. Qoy bizim tərəfimizdən birbaşa onun özünə çatdırsın ki, bundan sonra da hörmətli qonşuluq münasibətini saxlamağa çalışacağıq. Əgər taledən bir qəza-qədər gəlməsə, biz öz sözümüzün sahibi olaraq qalacağıq.

Seyid Qiyasəddin:

– Allah, sənə çox şükür. İki hökmdarın arasındakı dostluq münasibəti nə qədər insanın vaxtsız ölümünün qarşısını alar.

Seyid İbrahim:

– Bəli, çox doğrudur, bizim hər ikimiz seyid övladı kimi yalnız sevinirik. İnsanlar gərək qan tökməsinlər. Bəşər övladı bu dünyaya bir-birini asıb-kəsmək üçün gəlməyib.

Uzun Həsən:

– Hörmətli seyidlər, mən də öz tərəfimdən bildirirəm ki, sizin kimi elm və mərifət sahiblərinin hüzurumuza gəlməsi, Əbu Səidin sözünün mötəbərliyindən xəbər verir.

Seyidlər hər ikisi bir ağızdan:

– Allah sənin xanədanını həmişə uca etsin! Hörmətli hökmdar, bu Allaha xoş gedən cavabınla təkcə bizi sevindirmədin, elə Allahın özünü də sevindirdin. Əgər icazə versəydin, biz bu xoş müjdəni hökmdarımıza tezliklə çatdırmağa tələsək – söylədilər.

Uzun Həsən: «İxtiyar özünüzdədir, – amma yaxşı olar ki, bir qədər istirahət edib, bizim elçi ilə birgə sabah səhər yola çıxasınız. İndi qabağınız qaranlığa düşər. Bizim mühafizlər təhlükəsizliyiniz üçün axıracan sizi mühafizə edər».

Uzun Həsənin bu sözləri seyidləri çox razı saldı. Və onlar Uzun Həsənin xoş niyyətdə olduğuna tam inandılar. Bayırda isə sabah

səhər erkən seyidlərlə birgə səfərə çıxmağa gənc Şeyx Heydər hazırlıq işləri görürdü.

…Şeyx Heydər sərrast ağlı, iti gözləri ilə Əbu Səidi və onun ətrafındakıları müşahidə edir, onların əsl niyyətlərini öyrənmək istəyirdi. Tezliklə ona aydın oldu ki, Əbu Səid ordunun ayrı-ayrı alay başçıları arasında nüfuzunu tamam itirib. Bir neçə il bundan əvvəlki döyüşə can atan ordunun əvəzində nizam-intizama tabe olmayan, ayrı-ayrı dəstələr, simaları soluxmuş, aclıq və səfalətdən əziyyət çəkən bölüklər qətiyyən çevik hərəkət edə bilməzlər. Şeyx Heydər ona da fikir verdi ki, Əbu Səidin qonaqların qarşılanma mərasimində təşkil elədiyi hərbi keçid çox sönükdü. Az-çox diribaş qüvvələr ön cərgədə, daha arxa sıralarda isə aclığın və xəstəliyin əldən saldığı gücsüz-çəlimsiz əsgərlər cərgələnmişdi.

Əbu Səid qüvvələrinin pərakəndə olduğunu, gücdən düşdüyünü nə qədər ciddi-cəhdlə gizlətmək istəsə də, bütün bunları Şeyx Heydərin görməsi elə də çətin deyildi.

Əbu Səid irəli yeridi, üzünə xoş ifadə verib, bir qədər də təntənə ilə dilləndi:

– Ağqoyunluların cavan hökmdarı Uzun Həsənin elçiləri hüzurumuza xoş gəlib.

Gənc olmasına baxmayaraq, səfi ocağında yetişmiş Şeyx Heydər Əbu Səidin qabağında şahanə dayanmışdı, qürurlu görkəmilə onu süzürdü. Əbu Səid sözünə davam etdi:

– Biz unutmadıq, vaxtilə Bayandurların başbiləni, mərhum Sara Xatunun hüzurumuza gəlməyini. Biz ona demişdik ki, Ağqoyunluların hökmdarını təbrik eləmək üçün gələcəyik. Ancaq qəzadan bu mümkün olmadı, aradan uzun vaxt keçdi. Elə bu səbəbdən də mən bizim Teymurilər dərgahında hörmət-izzət sahibi olan seyidləri hökmdarın hüzuruna göndərdim.

Əbu Səid çalışırdı ki, içindəki kini-küdurəti gizləyib elə sözlər işlətsin ki, qənşərində dayanmış bu kəskin baxışlı şeyxi sə-

mimiyyətinə inandıra bilsin. Yəqin elə bu səbəbdən Şeyx Heydərin də ünvanına bir neçə xoş söz dedi, nəhayət, dayandı.

Şeyx Heydər başa düşdü ki, indi növbə onundu. Bir az qabağa yeriyib, sağ əlini Əbu Səidə uzatdı, ancaq başını əyib təzim eləmədi. Əbu Səid də tez onun əlini tutub, mehribanlıqla sıxdı. Onlar göz-gözə durdular. Biri Allahın bəxş elədiyi ömrün qürub çağında, digəri bəxt ulduzunun yenicə parlamaqda olan dönəmində… İki sərkərdə sanki tale savaşında üz-üzə dayanmışdı.

– Xoş gəlib Uzun Həsənin elçiləri, – Əbu Səid bayaqkı sözünün əvvəlini bir də təkrar elədi.

– Xoş gününüzə gəlmişik, əmir, – Şeyx Heydər də Əbu Səidin sözünə qıvraqlıqla cavab verdi.

Əbu Səid sağ əlini qaldırıb Şeyx Heydərin çiyninə vurdu. Bununla sanki ona doğmalıqla yanaşdığını bildirirdi. Sonra da Şeyx Heydərin iti gözlərinə baxıb dilləndi:

– Görünür, Uzun Həsən belə cavan bir igidi elçi kimi göndərməkdə səhv eləməyib, onu ağlına, düşüncəsinə inandığı üçün seçib. Mən də inanıram ki, Uzun Həsənin seçdiyi cavan elçi bizim dostluq məramımızı hökmdara yetərincə çatdıracaq.

Əbu Səid danışdıqca, Şeyx Heydər düşünürdü: «Bu qoca yaxşı başa düşür ki, hər şeyi uduzub, amma hələ də nəyəsə ümid edir».

Əlbəttə, onun nəyə ümid etdiyini Şeyx Heydər yaxşı bilirdi. Əbu Səid Uzun Həsənlə bu tezlikdə qarşılaşmamaq üçün vaxtı uzatmaq, bəlkə də hadisələri taleyin ümidinə buraxmaqdan çox, Avropanın qızışdırıcı təkliflərinə bel bağlayırdı. Şeyx Heydər yaxşı başa düşürdü, Əbu Səid gümanında yanılmır. Əgər hadisələr Roma Papasının istəyinə uyğun getməli olsa, onda tezliklə Uzun Həsənlə Sultan Mehmed qarşılaşacaq. Kimin qalib gəlməyindən asılı olmayaraq, bir-birini gücdən salacaqlar. Çox güman, məğlub təqdirdə Ağqoyunluların əraziləri bölüşdürüləcək və bu zaman Əbu Səidin təzədən bəxti parlayacaq. Arxadan Ağqoyunlulara zərbə vurmaqla xeyli ərazilərə sahib olacaq. Hələ üstəlik Ağqoyun-

luların xəzinəsindən ona da pay düşəcək. Və varislərinə təzədən güclənmiş bir hakimiyyət qoyub gedəcək. Şeyx Heydərin bütün bunlardan məlumatlı olmağı bəs idi ki, Əbu Səidin hiyləqarışıq yaltaqlıqla dediyi sözlərin bir çürük qoza da əvəz olmayacağını bilsin.

Şeyx Heydər bütün olan – olmazları xəyalından sürətlə keçirirdi. O, Əbu Səidin danışdıqlarından çox, onun sözə çevrilməyən gizli, müəmmalı xəyal kimi varlığında yatıb qalan niyyətlərini daha aydın oxuyurdu. O da elə Əbu Səidin bu ikibaşlı oyun silahından istifadə etmək qərarına gəldi. Şeyx Heydərin ağlına gəldi ki, əgər Teymurilərin davamçısı hiylə və riyaya əl atıbsa, o, özü niyə gələcək niyyətlərini açıqlasın.

– Hörmətli sultan, biz bundan sonra da sizinlə dostluq münasibətini qoruyub saxlayacaq, düşməninizi düşmənimiz sayacağıq. Mən Uzun Həsənin adından sizə bildirməyə gəlmişəm, tezliklə qoşun üçün ərzaq, pal-paltar yardımı da göndərəcəyik.

Şeyx Heydər bu sözləri təsadüfi demədi. Söhbətin əvvəlində Əbu Səid işarə vurmuşdu, Uzun Həsənə hər hansı bir təhlükə zamanı köməyini əsirgəməyəcək.

Şeyx Heydər də Əbu Səidin ordusuna yardım məsələsində onu diqqətinə çatdırırdı ki, sənin özünün yardıma və köməyə ehtiyacın var. Biz səndən nə kömək uma bilərik? Şeyx Heydər onu da bilirdi, Əbu Səid köhnənin çoxbilmişidir. Onun nə demək istədiyini göydə başa düşür.

Burada qarşılaşan qüvvələr, əslində, üzdən bir-birilə mehriban davransalar da, sözlərinin alt qatındakı gücləriIə amansız savaş aparırdılar. Açıq-aşkar görünürdü ki, bu savaşda Şeyx Heydər güclüdür.

Bəlkə də bu Şeyx Heydərin ilk fikir savaşı idi. Və bu savaşdan o, tam qüdrətlə çıxmışdı.

Əbu Səid yaxına gəlib digər elçilərlə də görüşdü. Və onları süfrəyə dəvət etdi.

Şeyx Heydər ləngimək istəmədi, o, tezliklə Ağqoyunlular sarayına qayıtmaq istəyirdi. Amma Şeyx Qiyasəddinin «Ağqoyunlular sarayında onlara göstərilən ehtiramın müqabilində bizim də qonaqpərvərliyimiz Allaha xoş getməzmi?» – sözlərindən sonra Şeyx Heydər onlar üçün hazırlanmış süfrədə əyləşdi. Süfrədə hər cür yeməklər, şərbətlər vardı. Amma Şeyx Heydər əlini süfrəyə uzatmadı. Əbu Səid bundan incik olduğunu bildirərək, – Cavan elçi bizim çörəyimizi niyə kəsmək istəməsin? – dedi.

Şeyx Heydər:

– Süfrənizin bərəkəti bol olsun. Əgər qonaq üçün nemət təmənnasız qoyulursa, qonaq bundan imtina eləyirsə, günah onun özü ilədir, mən orucam. Halal xoşunuz olsun!

Mübarək Ramazan ayı olduğundan daha kimsə Şeyx Heydərə təklif eləmədi.

…Şeyx Heydər daha gördüklərini yox, Uzun Həsənə təcili və təxirəsalınmaz hansı işləri görməli olacağını deməyi düşünürdü. Könlü atlanırdı. Özünü bu an bir quş kimi uçub Təbrizə çatdırmaq üçün tələsirdi. Tarix isə heç vaxt heç nəyə tələsmir…

…Şeyx Heydərin Təbrizə qayıdışı uzun çəkmədi.

Uzun Həsən saray kitabxanasının ətrafındakı cənnətmisal bağçada narahatlıqla var-gəl edirdi. Şeyx Heydər mühafizin müşayiətilə dayısına yaxınlaşıb başıyla təzim etdi:

– Sultanımıza salam olsun!

– Əleykümsalam. Buyur igidim, nə xəbərlə gəlmisən?

– Padşahım, düşünürəm ki, Sultan Əbu Səidin barışıq istəməsi ordusunun ağır vəziyyətdə olmasından irəli gəlir. Onun hayı gedib, vayı qalıb. Qoşunu pis vəziyyətdədir, əsgərləri ac və xəstə, atları zəiflikdən ayaq üstə dura bilmir. İndilikdə Sultan Əbu Səid barışıq əldə edib qoşununu gücləndirmək məqsədi güdür. Vəziyyəti düzələn kimi üstümüzə hücuma keçəcək. Mənim fikrimcə, bu barışıq istəyi cığatay sultanının hiyləsindən başqa bir şey deyil.

– Hmm, deməli, Əbu Səid bizə kələk gəlmək istəyir. Elə isə biz də nə edəcəyimizi yaxşı bilirik, bundan sonra… Fərrux Yasar da Əbu Səidə heç bir kömək yollamayacaq, baxaq görək bu tör-töküntü nə zamana qədər duruş gətirə biləcək? Görək gələcək bizə nə göstərir? Şeyxin kəramətindən bəlkə buna da cavab alarıq.

Şeyx Heydər qürurlu görkəmilə Uzun Həsənin qarşısında dayanmışdı. Doğrudur, boyca Uzun Həsən daha hündür idi, amma onun məğrur, yenilməz vücudu Uzun Həsənin özünün də düşüncəsində qüdrətli bir adamın qənşərində durduğundan xəbər verirdi. Uzun Həsən bir az geri çəkildi. Bu görkəmdə boylu-buxunlu cavanın onun hüzurunda belə dayanmağını, bəlkə də həzm etmədi, ancaq özünü o yerə qoymadı. Bir özünə baxdı, bir taxt-tacına. Taxt-tac sahibi olan özünün qarşısında dayanan bir cavanla qürur savaşında qalib olmadığını yaxşıca duyurdu.

Uzun Həsən ürəyində dolaşan qara-qura xəyallarını sanki qovmaq istədi, əlini gözlərinin qabağında yellədi. Bir az keçmiş elə bil yuxudan ayıldı. O, daxilində Şeyx Heydərə bir hakimiyyət qısqanclığı oyandığını anlamışdı. Bu qısqanclığı o yerindəcə boğmaq məqsədilə ucadan səsləndi:

– Cavan olsa da, Şeyxin sədaqətinə güvənirəm. O, bizim xanədanımızı qorumağa ən layiqli sərkərdədir.

Şeyx Heydər hökmdarın gözlərinə baxdı. Gah alışıb-yanan, gah sönən işığı gördü. Bu hərdən yanan, hərdən də öləziyən işığın arasında Uzun Həsənin tərəddüdlərini aydın sezirdi. Bu inamla inamsızlığın, güvənlə güvənsizliyin sərhədində amansız döyüşə bənzəyirdi.

Şeyx Heydər arxayın-arxayın dilləndi:

– Ey hökmdar, biz həqiqət keşikçisi olaraq zühur etmişik. Nə qədər ki, sənin yolun həqiqət yoludur, biz də o yolun keşiyindəyik.

Uzun Həsən Şeyx Heydərin cavabından xeyli mütəəssir oldu. Hətta az qala onun nə dediyini anlamadığını dilinə gətirəcəkdi,

amma qarşısında dayananın parlaq gözlərindən, vüqarlı vücudundan bir qeyrət, təpər oxudu:

– Bu xanədanın gələcəyi sənin kimi igidlərin əlindədir. – Uzun Həsən yaxına gəlib Şeyx Heydəri qucaqladı…

* * *

Əbu Səid çıxılmaz vəziyyətdə idi. Ordusuna haradansa cüzi bir kömək gələndə də Ağqoyunlu qüvvələri göz açmağa imkan vermirdilər. Əbu Səidin qoşununun məskunlaşdığı düşərgənin ətrafında Uzun Həsənin süvariləri Sultana gələn bütün təchizatı ələ keçirib mənimsəyirdilər…

…Payız çoxdan qədəm qoymuşdu, yayın istisi isə hələ Muğanın üstündən keçib getməmişdi. Göyün üzü aydın olduğundan ulduzlar bütün parlaqlığı ilə şəfəq saçır, ay bir az da nurlanmış kimi bəzənib-düzənirdi. Əbu Səid kürəyini torpaq təpəsinə söykəyib uzanmış, qoşa iki əlini də başının arxasına dayaq eləmişdi. Dünyanın gəldi-gedərliyi, zamanın bədliyi haqqında düşüncələr onu ağuşuna almış, ömrünün ayrı-ayrı dövrlərindən keçirərək, xeyli uzaqlara – qılıncının şimşək kimi parladığı zamanlara aparmışdı.

Əvvəlcə ulduzları saya-saya fikrə getdi. Saydığı ulduzları bir tərəfə çıxara bilmədiyi üçün düşüncələri yarı yolda qırılır, harada başlayıb, harada qurtardığını təzədən ipə-sapa düzür, çaşqın-çaşqın mürgüsünə qovurdu. Qurcalanır, sağa çevrilir, bir xeyli beləcə qalsa da, yarası göynəyən xəstə kimi təzədən sola çevrilirdi. Heç belə də rahat ola bilmir, bir də təzədən kürəyini hələ soyumamış torpağa söykəyib, gözlərini göyə zilləyirdi. Bu dəfə deyəsən, nəzərləri ay işığına ilişib qaldı. Ay elə parlaq və elə nurlu idi ki, Əbu Səid gözlərini ondan çəkib başqa səmtə baxa bilmədi. Deyəsən, ay da elə onunla kəlmə kəsirdi.

– Axı sənin bu ilanmələyən Muğan düzündə nə işin vardı, niyə gəlmisən bura?

– Mən ona görə bura gəldim ki, öz ordumun xərcini, xəzinəmin borcunu buradan alım.

– Axı Xorasan elə balaca əyalət deyil. Düzgün hakimlik etsəydin, elə oradan gələn gəlirlə də ordunu təmin edərdin, bir kimsəyə minnətçi olmazdın.

– İndi də mənim heç bir kimsəyə bir minnətim yoxdur – Əbu Səidin səsi bərk çıxdı. Ona görə özü öz səsindən hürkdü. Ətrafına boylandı, yaxında kimsə yoxdu, bir az aralıda keşikçilər bir-birindən aralı məsafədə növbələrini çəkirdilər.

Əbu Səid qəzəbini cilovlaya bilmirdi, daxilən özü-özüylə vuruşsa da, üzünü Aya tutub danışırdı:

– Mən yenə güclüyəm, amma bu yerlərin insanları hələ mənim kimliyimi bilmirlər. Yoxsa özləri mal-davarlarını gətirib orduma təhvil verərdilər.

Əbu Səid üzünü göyə tutdu. Ay sakit-sakit, səssiz parlamağında idi. Əbu Səid sözünə davam elədi.

– Hə görürsən, indi daha bir səs gəlmir. Demək, yaxşıca aydın oldu ki, Teymurun nəslindən olan Əbu Səidin çox şeyə haqqı var. Səhradan üzü bəri kiçik Asiyaya qədər bütün ərazilər bir vaxt mənim babama bac-xərac verirdi. İndi necə ola bilər ki, bu yiyəsiz Muğan düzünün özü də mənim qarşımda susur, adamları da hüzuruma gəlib bac-xərac vermək istəmirlər.

Amma Əbu Səid unudurdu ki, bütün Xəzərboyu əraziləri onun ordusu yalayıb keçmiş, insanları var-yoxdan çıxarmışdı. Qarabağ yaylasına qədər dolanıb gəlmiş Əbu Səid insanların təsərrüfatını dağıtmış, həyatının nizamını pozmuşdu. Heç yerdə onu rəğbətlə qarşılamadıqları bir tərəfə, qəfil basqınlarla çəmənə, otlağa buraxılmış yerli əhalinin atlarını da oğurlayır, orduya məxsus əmlakı ələ keçirirdilər. Əbu Səid çaşqın vəziyyətə düşmüşdü. Başını sıxır, cavabsız qalan suallarının cavabını tapmağa çalışırdı. Heyhat, heç yana əli yetmirdi.

Gecənin qaranlığında kolların arasından gələn həşərat, qurbağa səsi Əbu Səidi bir az da vahimələndirmişdi. Səhərin necə açıldığından Əbu Səidin heç xəbəri olmadı. Ara qarışmış, hay-küy

ətrafı bürümüşdü. Əbu Səid hövlnak yerindən qalxdı. Nə baş vermişdi? Deyəsən, hələ heç kim dəqiq bir şey anlamırdı. Əsgərlər vahiməli şəkildə o tərəf-bu tərəfə qaçır, ağız deyəni qulaq eşitmir, kimi atının arxasınca yüyürür, kimi yaraq-yasaq axtarır. Əbu Səid diqqət elədi. Baş mühafizi həyəcanlı şəkildə uzaqlara boylanırdı. Diqqətini çəkəcək, nəyinsə olduğunu yenə də Əbu Səid anlaya bilmirdi. Axır ki, sərkərdələrdən biri tələm-tələsik Əbu Səidin yanına yüyürüb gəldi. Heç səhər salamını verməmiş, təzimsiz-filansız dilləndi:

– Hökmdar, üstümüzə bəla gəlir.

– Nə bəla, haradan gəlir? – Əbu Səid sərkərdənin sözünü yarımçıq kəsdi.

– Bilmirəm, kəşfiyyatçılar xəbər gətirib ki, Xəzərin sahillərindən xeyli yuxarıda – dağların arxasında qoşun var.

– Nə qədər məsafədə olar? Kimin qoşunudu, xəbəriniz varmı?

– Hökmdar, dəqiq deyə bilmərik. Əvvəla, kəşfiyyat dəstəsi göndərmişəm, bir məlumat öyrənib, bizə çatdırarlar.

– Heç olmasa, deyə bilərsənmi, nə vaxt bizim yanımızda ola bilərlər?

– Gələnlərin dediyindən belə çıxır ki, sabah axşama Muğanın hüdudlarında bərqərar olacaqlar.

Əbu Səid qəfil xəbərdən başını elə itirdi ki, müdafiə tədbirlərinin haradan, necə başlayacağını belə aydınlaşdıra bilmədi. Handan-hana özünə gəlib sərkərdə Sədrəddinə içinə yığılmış qəzəbi tökürmüş kimi qışqırdı:

– Siz ad batıransınız, beş-on nəfər tərəkəmə atlanıb üstümüzə gəlir, siz də buradan başınızı götürüb hərə bir tərəfə qaçmaq istəyirsiniz.

Sərkərdə Sədrəddinin dizləri titrədi. Düşündüklərindən Əbu Səidin xəbəri var idimi – xəyalından keçirdi. Həqiqətən sərkərdə Sədrəddin ordunun indiki durumundan xəbərdar idi, bilirdi ki, gələnlər beş-on nəfərlik tərəkəmə atlıları deyil, güclü süvari ordu-

dur. Bu qoşunun qabağında isə Əbu Səidin pərakəndə, ac-yalavac, ruhdan düşmüş adamları çətin ki, duruş gətirə bilsin. Elə bu səbəbdən sərkərdə Sədrəddin heç özünü ölümə vermək fikrində deyildi. O, hökmdarından yox, az qala Allahından da gizlətdiyi bir fikrə gəlmişdi. Əgər gələnlər Uzun Həsənin qoşunu idisə, o, ətrafındakı süvarilərdən sözünü eşidənləri, tabe olanları bir yerə toplayıb, Əbu Səidin ordusundan aralanar və sonra Uzun Həsənin qoşununa yaxınlaşıb, onlara tabe olar. İnanarlar lap yaxşı, inanmazlar hər halda onun ölümünə hökm verilməz. Qalanı gələcəyin işidir.

Sərkərdə Sədrəddin cəsarətini toplayıb, nəhayət, Əbu Səidin üzünə baxdı. Hökmdar heç nədən şübhələnməmişdi. Sərkərdə Sədrəddin bir qədər düşündüklərini dəqiqləşdirdi. İndiki halda Əbu Səid öz hayında idi. Əgər qorxusu-hürküsü olmasaydı, bütün sərkərdələri çağırıb toplayar, müdafiə tədbirləri görməyi tapşırar, hər halda, düşmənlə qarşılaşmaq üçün tədbir görərdi. Amma yox, Əbu Səidin ağlına heç bunlar gəlmirdi də. O, sərkədəsinin gözlərinə baxdı. Sərkərdə də bərəlmiş gözləri ilə hökmdarını izləyirdi.

– Hə, nə gözlərini döyüb baxırsan, indi neyləyək?

– Hökmdar, biz sizin tədbirinizi gözləyirik, nə tədbir töksəniz, onu da icra edərik.

– Nə tədbir tökməliyəm, beş-on tərəkəmə atlısının qabağından qaçaqmı?

– Mən demirəm ki, tərəkəmə atlılarının qabağından qaçaq. Yaxşı olar ki, barışıq yolu axtaraq. Bəlkə, gələnlərin bizimlə döyüşmək fikri yoxdu. Onda nə üçün biz bəri başdan münaqişə yaradaq?

– Sənin düşüncənə görə döyüşməsək, onlar bizi sağ buraxar?

Sərkərdə Sədrəddin heç nə demədi, başını aşağı saldı.

Əbu Səid yaxındakı mühafizləri yanına çağırdı. – Gedin, əmir-əl ümərə[1] Məzid Ərğunu və bütün sərkərdələri yanıma çağırın, – dedi.

---

[1] Əmir-əl ümərə – "əmirlər əmiri". Marşal hərbi rütbəsinə bərabər idi.

Əbu Səid asta-asta yaxınlıqdakı yulğun kollarına tərəf addımladı. Gün günortaya çatmışdı. Hələ günorta olmasa da, isti adamı yandırıb-yaxırdı. Qayğısız, asudə vaxtlarda adətən Əbu Səid üçün yaxşı kölgəlik qurardılar. Axşam qoşunu ilə Qızılağacın içərilərinə doğru gəlib çatmış və buradan o tərəfə getmək imkanı olmamışdı. Elə çatdıqları yerdə də dayanmışdılar. Səhərin açılması ilə Qızılağac ətrafı kəndlər ögey münasibətini Əbu Səidə göstərmişdi.

Əbu Səid uzun illər Teymuri xanədanının adlı-sanlı sərkərdələrindən biri kimi türkmən sərhədlərindən tutmuş Təbriz, Naxçıvan, Qarabağ tərəflərinin hər qarışında güclü ordusu ilə hərbi yürüşlərdə olmuş, heç vaxt belə bir acınacaqlı vəziyyətlə qarşılaşmamışdı, sanki bədbəxtlik onu qəflətən yaxalamışdı. Bir tərəfdən də gün başının üstündə ildırım kimi çaxırdı. Yer-göy Əbu Səidin gözlərində oda-alova bürünmüşdü. O da bu odun-alovun içərisində qaldığından, nə qədər arasa da, bir tərəfə çıxış yolu tapa bilmirdi. Hara tərpənirdisə, üzünü alov qarsıyırdı.

Çaşqınlıqdan Əbu Səidin dili ağzında şişmişdi. Dodaqları bağlanmış, ağzının suyu çəkilmiş, boğazı qurumuşdu. Ha udqunurdu, nəfəsi açılmırdı.

Bir az da keçmiş olsaydı, halının necə olacağı təsəvvürə gəlmədi. Ancaq sərkərdələri ətrafına yığışandan sonra bir az təskinlik tapdı. Axı bu sərkərdələrlə o, necə böyük ordularla üz-üzə gəlmiş, necə ağır döyüşlərdən qalib çıxmışdı. Bu döyüşlərin çox böyük əksəriyyəti elə Teymuri şəcərəsindən olan ayrı-ayrı əmirlərə qarşı olmuşdu. Axı Teymurun ölümündən sonra böyük imperiya hər kəsin gücünə görə paylanmış, kiminə çox, kiminə az ərazi düşmüşdü. Düzünə qalsa, Əbu Səidə əvvəldən pay çatmamışdı. Xorasan əyalətini o, öz səyi, bacarığı ilə ələ keçirmiş, burada əmirliyini qurmuşdu. Axı bura qədərki zamanda Əbu Səidin də xidmətləri az olmamışdı, axı o da Teymuri imperiyasının güc sütunlarından biri olmuşdu. Amma indi vəziyyət elə gətirmişdi ki, özünə yaxın

olan doğmalarından da kömək almaq imkanı yox idi. Bu da onunla bağlı idi ki, Əbu Səid tamahkarlığı ilə doğmalarını incitmiş, ayrı-ayrı vaxtlarda onlara qarşı ya hücumlarla zərbə vurmuş, ya da hakimiyyət istəyində olan Teymurilərə ayrı-ayrılıqda sui-qəsdlər təşkil eləmişdi. Axır ki, indi bu dünyadan ona qalan döyüşlərdən bezib-usanmış insanların – Qarabağ, Muğan əhlinin nifrətindən başqa heç nə qazanmamış, ruhdan düşmüş sərkərdələri, bir də həyata keçməmiş arzu və istəkləri idi.

Əmir-əl üməra Məzid Ərğun və bütün sərkərdələr qısa müddətdə sultanın hüzuruna toplandılar. Hər biri gücsüz, güləşdə məğlub olmuş uşaqlar kimi büzüşüb durmuşdular.

Araz boyundan – Qarabağdan keçib, Muğana qədər gələn ordu heç nəyə nail olmadığından hərəkətdən bezmişdi. Əbu Səid başa düşdü ki, sərkərdələri bir-bir danışdırmağın mənası yoxdur. Lakin onlara da açıq deyə bilmirdi ki, döyüş meydanından hansı yolla, hansı tərəfə geri çəkilmək olar... Üzü Şimala getsə, Şirvanşahlarla qarşılaşacaq. Onsuz da Şirvanşahlar onun bitişik Muğana qəfil girişini razılıqla qarşılamamışdılar. Qarabağ tərəfdə isə istinadgah yox idi. Əhalini soyub-talamış, özlərindən narazı salmışdılar.

Əbu Səid əlacsız-əlacsız nəzərlərini əmir-əl üməraya, sonra sərkərdə Sədrəddinə tərəf döndərdi. Çətin məqamlarda sərkərdə Sədrəddinin dəyərli məsləhətləri olardı.

– Bəlkə, indi sərkərdə Sədrəddin nə isə demək istəyir? – soruşdu.

– Hökmdar, – sərkərdə Sədrəddin irəli yeriyib təzim elədi. Sonra fikrini cəmləyib, asta-asta danışmağa başladı, – düşünürəm ki, müdafiə tədbirlərini də görək, ancaq döyüşə başlamaq üçün tələsməyək. Biz də şərtlərimizi deyərik, onlar da şərtlərini söyləyər, bəlkə ortaq razılığa gəldik.

Əbu Səid ilan vurmuş kimi qışqırdı: – Birdən desələr ki, hamınız silahlarınızı tökün, təhvil verin, sizi əsir alırıq, onda nə deyək?

Sərkərdə Sədrəddin hökmdarın qəzəbləndiyini görüb, dinmədi, təzimlə geri çəkildi. Əbu Səidə elə gəldi, indicə sərkərdələrdən kimisə cəsarətlə dillənəcək, çıxış yolu göstərəcək. Amma yox, daşdan səs çıxırdı onlardan çıxmırdı. Əbu Səid onların gözlərində həyat işığının öləzidiyini görüb dayandı. Elə bil onların varlığında yanan işığı kimsə üfürüb söndürmüşdü. Amma Əbu Səid bilmirdi ki, bu adi çıraq deyil, inam işığı idi…

Elə həmin günün səhəri Əbu Səid üçün bəd xəbərlə açıldı. Gecəylə Ağqoyunluların məxfi süvari dəstəsi heç kimin ruhu incimədən Əbu Səidin düşərgəsinə gizlicə soxulub əmir-əl üməra Məzid Ərğunu əsir götürmüşlər. Əbu Səid tələyə düşən tülkü kimi çarəsizdi. Çırpındıqca canı daha çox ağrıyırdı…

* * *

Nəhəng dünya cahangirləri zamanlarını yaşayıb, vaxt karvanından ayrılandan sonra da bu mövcud ərazilərin odları, alovları səngimədi. Nə Osmanlılar, nə Qazi Bürhanəddinin Anadolu bəyliyi, nə də Qara Yuluq Osmanın Amid bəyliyi, bundan sonra meydana çıxan Ağqoyunlular hökmranlığı və bu hökmranlığın axırında qüruba yetmiş Qaraqoyunlular sultanı Cahanşah… adları siyahıya gəlməyən çox böyük, ya kiçik əmirliklər, bəyliklər hakimiyyət və taxt-tac savaşlarından bezib, usanmır, bu savaşlarda biri digərini məğlub edir, öldürürdü. Qalib tərəf də cismani, ya da mənəvi yaralar alırdı. Bütün bu hadisələrin hamısı türk-oğuz yurdu Azərbaycan ərazisində baş verir və Azərbaycan az qala iki yüz illik bir zaman ərzində qanlı savaşlar meydanı idi.

Bu dönəmdə Həsən Bayandurun yaşı qırx beşi təzəcə keçmişdi. Bu yaşın bəxş elədiyi imkan, güc, təcrübə ona deyirdi ki, ölkəni düzəltmək, taxt-tacı təhlükəsiz bir məqama yetirmək üçün sənin əsl yetişən, bar verən vaxtındır. Uzun Həsən də uzaqgörənliklə zamana cavab verirdi ki, bilirəm, ancaq bilməklə icra etmək arasında çox fərq var. Bu da o deməkdir ki, Uzun Həsən kifayət qədər

böyük olan ərazisini iqtisadi cəhətdən dirçəltmək, adamların gün-güzəranını yaxşılaşdırmaq, təsərrüfatı, əkin-biçini qaydaya salmaq üçün qədərincə təcrübə qazanmışdı. Çətin olan orası idi ki, burnunun ucunda Azərbaycanın xeyli torpaqlarına hakimlik iddiasında olan Əbu Səid sakit durmur. Bu tərəfdən də Osmanlılar Anadolu ərazilərinə iddialarından əl götürmür. Üstəlik, Uzun Həsənin get-gedə güclənən imperatorluğunun varlığı onlar üçün böyük narahatlıq yaradır. Doğrudur, hələ ki, Osmanlılarla açıq savaş üçün elə bir ciddi zəmin yaranmamışdı. Lakin, bu savaşın nə vaxtsa labüd olacağını Uzun Həsən anlayırdı. Arzulayırdı ki, kaş, Osmanlılarla heç bir qarşılaşma baş verməsin. Sadəcə, anlaşma ilə məsələ yoluna qoyulsun. Onsuz Osmanlıları da təhdid edən qüvvələr az deyildi.

Avropanın üzü Şərqə diş qıcadan yırtıcıları Kiçik Asiyanın türklərin əlində olmasından və burada Avropanın özünə meydan oxuyacaq bir dövlət qurmasından çox dilgir idilər. Onlar nə Osmanlı dövlətinin ərazilərilə, nə də siyasətilə barışmırdılar. Uzun Həsən yaxşı bilirdi, əgər Osmanlılarla dil tapmaq mümkün olsaydı, onda Qərb pusquçuları Şərqin bu iki güclü türk dövlətinə səcdə eləyər, məcburiyyət qarşısında ticarət, iqtisadi əlaqələri vacib bilərdilər. Təəssüf ki, onlar türk varlığı ilə barışmaq niyyətində deyildilər. Və yenə hayıf ki, iki böyük türk dövləti də bir-birini axıracan anlamaq meylindən yan qaçırdılar. Belə bir zamanda artıq iddia və qəsbkarlıq niyyətləri abır-həya pərdəsini yırtmış Əbu Səid də cızığından çıxmış, Ağqoyunluların, eləcə də, Şirvanın ortasına ox kimi sancılmışdı. Uzun Həsən Əbu Səidin üzərinə yürüşə Şeyx Heydəri göndərərkən dediyi sözləri Şeyx Heydər Qızılağac çölündə təzədən xəyalından keçirtdi.

– Axı bu Əbu Səid kimdir? İndi o bizdən nəyi qoparmaq iddiasındadır? – Uzun Həsən soruşmuşdu.

Şeyx Heydər çoxdan sevdiyi Aləmşah bəyimin atası, həm də doğma dayısı Uzun Həsənin qarşısında nə qədər qürurla dayan-

sa da, onun bir hakimiyyət sahibi olduğunu yaxşı bilir, hakim – təbəə münasibətlərini diqqətlə qoruyurdu. Elə bu səbəbdən sağ əlini sinəsinə qoyub, başını azca qabağa əyməklə, hökmdara təzim etmiş və demişdi:

– Əbu Səid zəhərli bir oxdur. Azərbaycanda Ağqoyunlularla Şirvanın arasına sancılıb.

Deyəsən, Şeyx Heydərin bu obrazlı cavabı və cəsarətli deyim tərzi hökmdarı razı salmışdı. Elə ona görə də Şeyx Heydərin sözü bitər-bitməz əmrlə demişdi:

– Demək, bizim bircə yolumuz qalır; həmin oxun Azərbaycanın ürəyinə doğru irəliləməsinə imkan verməmək. Onu yarıyoldaca, havadaca qapıb, sındırmaq. O oxu atan əl elə dirsəyindən kəsilməlidir ki, bir daha onu qaldırıb uzada bilməsin.

Şeyx Heydər:

– Baş üstə, hökmdar, fərman yerinə yetər, – demişdi.

Qızılağac çölünün ilan mələyən kolluqları arasında başını kölgələməyə yer axtaran, tərli sifətini otla yelpikləyən Əbu Səidi qəza belə yaxaladı. Şeyx Heydər qabaqcadan iki böyük atlı dəstəsi göndərmiş, bu dəstələrdən bir qismi, qüvvəcə daha artıq olanı Əbu Səidi dənizə tərəf sıxışdırmalı idi. Digər dəstə – daha çevik hərəkət gücündə olan süvarilər Şimal tərəfin Küryanı ərazilərini tutmalıydılar. Demək, Əbu Səid nə şimal tərəfdə – Fərrux Yasara ümid bəsləyə bilərdi, nə də üzü qərbə – Muğanın içərilərinə doğru hərəkət imkanı olacaqdı. Şeyx Heydər bilirdi ki, əvvəlcədən məlum razılaşmaya əsasən Fərrux Yasar Əbu Səidə köməyə gəlməyəcək. Beləliklə, Əbu Səidin bir tərəfi Kür, bir tərəfi də Xəzər dənizi idi. Qalan əraziləri Şeyx Heydərin qoşunu tam nəzarətə götürmüş, çıxış imkanlarını tutmuşdu. Birinci həmlə Şeyx Heydərin başçılığı ilə birbaşa Əbu Səidin özünün qərargahına tərəf yönəldi. Şeyx Heydər Əbu Səidin harada olduğunu yaxşıca öyrənmişdi. Əbu Səidin istidən, aclıqdan əziyyət çəkən adamlarından çoxunu – ətraf ərazilərə dağılmış, aclıqdan, azardan çarə axtarmaqda

olanları tutub Şeyx Heydərin yanına gətirmişdilər. Onlar da Şeyx Heydərin iltifatlı münasibəti sayəsində Əbu Səidin dəqiq inkişafını, ordusunun nə vəziyyətdə baş girlədiyini Şeyx Heydərin ovcuna qoymuşdular. Şeyx Heydər başa düşmüşdü ki, Əbu Səidin ordusu döyüşmək iqtidarında deyil. Onun günün günorta çağı hücumu, şeypurların çağırışı, zərb alətlərinin gurultusu altında elə bir vahimə yaratmışdı ki, Əbu Səid ordusunun adamlarına yerin-göyün bir-birinə qarışması kimi gəlmişdi. Nəticədə qabaqda olan və Əbu Səidin arxalandığı sərkərdə Sədrəddinin alayı Şeyx Heydərin birinci həmləsinə qarşı bircə ox da atmadı. Qoşun əlini qılınca uzatmadı. Sərkərdə Sədrəddin ətrafında olan süvariləri ilə birgə Şeyx Heydərdən aman istədi. Qalan az qisim inadkarlar özlərini müdafiə edə-edə sürətlə geri çəkilməyə, son nəticədə isə silahlarını atıb qaçmağa üz qoydular.

Əbu Səid ətrafındakı beş-on nəfərlə vahimələnmiş halda o tərəf-bu tərəfə hərəkət edir, qışqırır, əmrlər verirdi. Kimlərinsə adını çəkir, ünvanına söyüş və qarğışlar yağdırırdı. Bir ucdan Fərrux Yasarı söyüb təhqir edir, xəyanətdə suçlayırdı. Əbu Səid başını qaldıranda qarşısında gənc və sifətdən Uzun Həsənə bənzəyən süvarini görüncə çaşdı. Yanılmamışdı, sifətdən Həsən padşaha bənzəyən bu cavan onun oğlu Zeynal idi. Zeynal bəy ötkəm səslə qışqırdı:

– Sultan, gərək sən unutmayaydın ki, bu yerlər bizim dədə-baba torpağımızdır. Ona görə də həmişə güc də, qələbə də bizim tərəfimizdə olacaq.

Zeynal bəy atın döşü ilə Əbu Səidi aşırtdı. Bunu elə ustalıqla elədi ki, Əbu Səid zədə almasın, az zərər görsün. İstəsəydi, köməksiz vəziyyətdə qalan Teymuri sultanını bircə zərbəylə o dünyaya göndərərdi. Ancaq əl qaldırıb öldürmədi. Çünki Uzun Həsən mümkün qədər sultanı sağ ələ keçirməyi tapşırmışdı.

Mahmudabad savaşı tarixin yaddaşında sonuncu Teymuri əmiri Əbu Səidin biabırçı məğlubiyyətilə qaldı. Əbu Səidin ordu-

sunun əldən-ayaqdan düşənləri ətraf yaşayış yerlərinə dağılmışdı. Uzun Həsənin əmrilə təslim olan hər kəsə aman verilmişdi. Məğlub ordudan nisbətən işə-gücə yarayanlar Ağqoyunlu ordusuna qatılmaq istəklərini bildirmiş, Şeyx Heydər onları kiçik dəstələrə ayırıb, öz qoşununun tərkibinə yerləşdirmişdi.

…Təbrizdə Uzun Həsən Əbu Səidi axırıncı dəfə görmək üçün hüzuruna çağırtdırdı. Miskin görünüşlü Əbu Səidi gətirdilər. Doğrudur, onu incitməmişdilər. Alaq otuna oxşar təkəmseyrək tükləri uzanıb sifətini örtmüşdü, gözləri çuxura düşmüşdü. Ruh düşkünlüyü onu vaxtından əvvəl qocaldıb nəfəsini kəsmişdi.

Uzun Həsən onun bu mağmın görkəmini görüb istehza ilə qımışdı. Onu başdan-ayağa süzüb, asta-asta dedi: – Hə, Əbu Səid, sən gücünə belə güvənirdin, Xorasana sığmadın, Azərbaycanın içərilərinə doğru yeridin?

Əbu Səid dodağının altında nəsə mızıldandı. Deyəsən, Fərrux Yasarın adını çəkdi. Yəqin Fərrux Yasarı qınayır, onu xəyanətdə suçlayırdı.

Uzun Həsən ona acı-acı baxdı:

– Demək, sən hələ ağlını başına yığmamısan, unudursan ki, Fərrux Yasar Şirvanşah İbrahim deyil, sən də Teymurşah.

– Hər ağac öz budağına uyğun meyvə yetirər, – bunu Əbu Səid dedi.

Uzun Həsən başa düşdü ki, o, babasının keçmiş şan-şöhrətini xatırlatmaq istəyir. Amma Uzun Həsən yenə təmkinini pozmadı və Əbu Səidin nə düşündüyünün və demək istədiyinin fərqinə varmadan fikirlərini dilinə gətirdi:

– Mən sənin qanına əlimi batırmaq istəmirəm.

Deyəsən, bu sözlər Əbu Səidin yaşamaq ümidini təzədən oyatdı. Başını qaldırıb diqqətlə Uzun Həsənə baxdı: «Bəlkə məni bağışlayacaq?»

Hələ ötən axşam Uzun Həsən divanda müttəfiqləri ilə bərabər Əbu Səidin taleyi ilə bağlı müzakirələr aparmışdılar. Şirvan qa-

zisi qəti şəkildə Əbu Səidin edam edilməsində israrlı idi. Təbii ki, Uzun Həsən Əbu Səidə rəhm eləmək fikrində deyildi. Çünki Əbu Səidlə bircə görüşdən sonra onun necə hiyləgər, fəndgir olduğunu anlamış, başa düşmüşdü ki, təbiətinə görə çox etibarsız olan bu adam hər hansı bir imkan düşən vaxtda ən yaxın adamına belə xəyanət eləməyə hazırdı. Elə bu səbəbdən də Uzun Həsən Əbu Səidin azad buraxılmasına razı ola bilməzdi. Digər tərəfdən o, Əbu Səidi özü edam etmək istəmirdi. Çünki Orta Asiyadan üzü bəri Ərəbistan çöllərindən Kiçik Asiyaya, hətta Qafqaza qədər tanınan-tanınmayan, güclü-gücsüz o qədər Teymuri şahzadəsi var idi ki… Bir gün onlardan hansısa birinin qisas xəncəri Uzun Həsənin gözləmədiyi bir yöndən kürəyinə saplana bilərdi.

Uzun Həsən divandakılara üzünü tutub «Yox, Əbu Səid Təbrizdə edam edilməyəcək, onu Şahruxun oğlu Məhəmməd Yadigara diri təslim edəcəyik. Onsuz da onu sağ buraxmayacaqlar…» – deyəndə təəccüb və heyrət dolu baxışları üzərində hiss etdi.

Uzun Həsən bu baxışları unudub tarixin dolanbaclarına daldı…

…Əbu Səid Herat taxtına çıxanda Sultan Şahrux onun əleyhinə qiyam qaldırmış, qan su yerinə axmışdı. O vaxt Əbu Səid güclü çıxmışdı. O, dünyasını çoxdan dəyişmiş Sultan Şahruxun əhli-əyalını ələ keçirdi və vaxtilə onun sevimli xatunu olmuş, el arasında dindarlığı və xeyirxahlığı ilə tanınan, yaşı yetmişi haqlayan Gövhərşad bəyimi amansızlıqla edam etdirmişdi. Amma Şahruxun xatunu Gövhərşad bəyimdən olan oğlu Məhəmməd Yadigar onda canını ölümdən qurtara bilmişdi. İndi kiçik bir əyalətin hakimi olsa da, Əbu Səidin əlində olan Xorasana da iddialıydı. Qoy hələlik Xorasan da Məhəmməd Yadigarın ixtiyarında olsun. Onsuz da Məhəmməd Yadigar sənin hər bir çağırışına sədaqətlə cavab verir. Bu səbəbdən də Əbu Səidi Məhəmməd Yadigarın ixtiyarına göndərsən, çox ədalətli olar. O, Əbu Səidin qanını içməyə

hazırdı. Çünki heç bir oğul anasını öldürən canini bağışlamaz. Elə də oldu… İndi o səhər çoxdan açılmışdı. Təkcə Azərbaycanın yox, eləcə də, Şərqin tarixinin yeni bir səhifəsi də təzə hadisələrlə dolmuşdu. Uzun Həsən yaxşı bilirdi ki, Əbu Səidi Məhəmməd Yadigara «ənam» göndərməklə, onu da öz tərəfinə çəkmiş olur. Onsuz da Məhəmməd Yadigar Ağqoyunlu hökmdarı ilə heç vaxt ərazi və hakimiyyət savaşına çıxmaq niyyətində deyildi. Hər halda, indiki vəziyyətdə bu, belə görünürdü.

…Uzun Həsən başını qaldırıb onun hər bir hərəkətini diqqətlə izləyən Əbu Səidə nəzər saldı. Əbu Səid ac it yem gözləyirmiş kimi, həm gözlərini açmışdı, həm də ağzını. Uzun Həsənin nə deyəcəyinin fərqindəydi. O, yaxşıca bilirdi ki, elə bu an Uzun Həsənin ağzından çıxacaq cümlə onun taleyini həll edəcək. Əbu Səidin bütün həyatı indi Uzun Həsənin iki dodağının arasındakı kəlmələrə bağlı idi.

Uzun Həsən sarayın yaxın otağında hökmdarın səsinin eşidiləcək yerində əmr gözləyən mühafizlərə səsləndi:

– Gəlin, bunu aparın!

Həmin andaca taleyinin necə olacağını kəsdirə bilməyən Əbu Səidin gözləri bərəldi. Hansı tərəfə dönəcəyini, nə deyəcəyini də bilmədi. Heç qımıldanmağa belə vaxt tapmamış, gözləri bərəlib hədəqəsindən çıxmaqda olan Əbu Səidi mühafizlər yanladılar. İndi onun dizləri də taqətdən düşmüş, az qala yerə çökmüşdü. Ancaq mühafizlər buna imkan vermədilər. Demək olar, onu sürüyə-sürüyə hökmdarın hüzurundan çıxartdılar.

Hökmdarın yanında dayanan yüksək məqamlı saray əyanları qımıldanmadan Uzun Həsənin qərarının nəticəsinin necə olacağını gözləyirdilər. Əbu Səidi əsir tutan oğlu Zeynal bəy də sakitcə atasının hərəkətlərini izləyirdi. Padşah qəfildən Zeynala sarı döndü:

– Əbu Səidi təqib edib əsir götürən sənsən, bəlkə sənin nəsə bir təklifin var?

– Xeyir, hökmdarım, Allah bütün məsələlərdə qərar vermək ixtiyarını bizim ali padşahımıza verib. Biz də onun hökmlərinin iltifatından bəhrələnib ayağını basdığı yerə başımızı qoymağa hazırıq.

Cavab Uzun Həsəni razı saldı. Padşah saray mühafizlərinin başçısı Nizaməddin Mehdiyə üz tutdu:

– Güclü mühafizə ilə onu Herata apararsan.

Nizaməddin Mehdi tez cavab verdi:

– Baş üstə, hökmdar.

– Mənim adımdan yazılan məktubu öz əlinlə Məhəmməd Yadigara çatdırarsan.

Nizaməddin Mehdi hökmdarın hüzurunda təzim edib, dilləndi:

– Hökmdarın hökmü mənim üçün Allahın fərmanıdır, – dedi.

Daha əlavə izahata ehtiyac yox idi. Uzun Həsənin hüzurunda dayanmış əyanlar da, lap elə Zeynal bəy də aydınca başa düşdü ki, hökmdarın Əbu Səid haqqında verdiyi qərar nə qədər ədalətlidir. Çünki tarixdə olub-keçənləri buradakıların hər biri yaxşı bilirdi. Zeynal bəyə də yaxşı məlum idi ki, bir qadını öldürməyə qədər alçaqlığa yuvarlanmış Əbu Səidin ən layiqli cəzasını onun özünün günah yerindəcə elə ən böyük zərərçəkən  Məhəmməd Yadigar verə bilər.

Az keçməmiş saray darvazaları açılıb – bağlandı və bir dəstə atlı Təbrizdən üzü Herata tərəf çaparaq uzaqlaşdılar. Ayrıca bir atın üstündə əli-qolu bağlanmış, ayaqları atın belinə sarınmış Əbu Səid daşlara dəyən nalların cingiltili səsilə xəyalında danışırdı, çünki başqa bir kimsə ona nəsə demir, nəsə soruşmurdu. Elə o özü də kimsəyə nəsə deməyin mənasız olduğunu anlayırdı.

Atın belinə aşırılıb aparılan Əbu Səid olub-keçənləri ağlından keçirdikcə özünü lənətləməkdən başqa əlindən heç bir şey gəlmədiyinin fərqindəydi. Daşa toxunan hər nal səsindən sonra Uzun Həsənin bütün nəslini, nəcabətini də qarğımaqdan qalmır-

dı. Yaxşı bilirdi ki, aparıldığı yerdə ölüm mələyi ağuşunu açıb onu gözləyir. Yanılmırdı, Gövhərşad bəyimin oğlu Məhəmməd Yadigar onu elə həmin ilin qışında edam etdi…

* * *

…Ağqoyunluların möhtəşəm Mahmudabad qələbəsi münasibətilə Həsən padşah möhtəşəm ziyafət təşkil edilməsini tapşırdı.

Həsən padşahın əmrilə həmin günlərdə Təbrizin bütün yoxsullarına yardımlar verilir, ehtiyac üçün sarayın qapısına üz tutan hər kəsin diləyi yerinə yetirilirdi.

…Çal-çağır bütün saraya səs salmışdı. Sazəndələr, xanəndələr, mütrüblər, rəqqasələr hamısı sanki ziyafətin daha yaddaqalan olması üçün dəridən-qabıqdan çıxır, bir-birlərinə aman vermədən yarışırdılar.

Həsən padşahın əmrilə xüsusilə həmin günlərdə Təbrizin bütün yoxsullarına yardımlar edilir, ehtiyac üçün sarayın qapısına üz tutan hər kəsin diləyi yerinə yetirilirdi. Ziyafətin başlanmasından sonra isə Uzun Həsənin əmrilə ziyafət üçün bişirilən təamlardan da sarayın yaxınlığından keçən hər kəsə pay verilirdi.

…Udun, neyin, rübabın səsi bir-birinə qarışmışdı. Hamı yeyib-içib şənlənir, Dövləti-Bayanduriyyənin əzəmətinin əbədi olması şərəfinə şərab piyalələri qaldırılırdı. Ziyafət süfrələri Allahın nemətləri ilə dolub-daşır, məclisə bir ucdan qızardılmış bütöv əmlik quzular, kabablar, meyvələr, çərəzlər daşınırdı. Sarayın həm iç, həm də çöl hissəsində ayrı-ayrılıqda çoxlu xırda çadırlar qurulmuş, saray əyanları, divan mənsubları vəzifəsinə və saraydakı mövqeyinə uyğun olaraq müvafiq guşələrdə yerini almışdılar. Ziyafətin çal-çağırı, Təbrizin günəşli səmasında əks-səda tapırdı.

Həsən padşah divanın ən yuxarı məqamlı adamlarını – vəzirləri, sahib – divanı, üzvlərini, möhürdarı, dövlətin ən tanınmış əmirlərini, valiləri özüylə bir məclisdə oturtmuşdu.

Hərəmxana guşəsində də qələbəlik idi. Mütrüblərin çıxartdığı oyunları izləyən, yeyib-içən xatunların gülüşləri azacıq kənarda oynayan uşaqların şən səs-küyünə qarışmışdı.

Şahzadələr və onların dostları ayrıca əyləşib əylənirdilər. Şahzadələr incə hərəkətlərlə məclisi rövnəqləndirən gənc rəqqasələrin gözəlliyindən cuşa gəlib dayanmadan qırmızı şərabdan xumarlanır, xanədanın şərəfinə təriflər yağdırırdılar.

Uzun Həsən həmişə olduğu kimi iştahla yeyir, dayanmadan müşk qoxulu, qan rəngli məşhur Şiraz şərabından içirdi. Musiqidən yaxşı başı çıxdığı üçün sazəndələri bəzən yanına çağırır, onlara nəyi necə ifa etmələri ilə bağlı zarafatyana əmrlər verirdi. Adətən öz zabitəsi və sərtliyilə ürəkləri titrədən padşah yəqin Ağqoyunlular imperiyasının bir-birinin ardınca qazandığı qələbələrin məstedici təsirindən idi ki, bu ziyafətdə xüsusilə şən idi, deyib-gülür, məclisdə ətrafındakı hər kəslə zarafatlaşırdı. Sifəti qızardığından, olduğundan daha artıq yaraşıqlı görünən hökmdar incə tüllər və parlaq ipək libaslar içində rəqs edən yarıçılpaq rəqqasələrin musiqinin ahənginə uyğun qıvrılıb-açılan gözəl əndamları ilə ətrafa yaydığı bihuşedici müşk qoxusundan məst olurdu… Döyüşlərin qalibi olan hərb cahangirlərinin sərt ürəklərinin misilsiz qadın gözəlliyinin qarşısında təslim olmaqdan başqa çarələri qalmırdı… İnsanı başdan çıxaran göbək rəqsi ilə rəqqasələrdən biri padşaha yaxınlaşdı, onun qarşısında qollarını geriyə doğru qıvrıldaraq ustalıqla başını arxaya ataraq fatehin qarşısında canlı bir körpüyə bənzəyişiylə oynayırdı… Padşah ayağa durub qıpqırmızı Şiraz şərabından bir neçə qurtum qarşısında körpü vəziyyətinə rəğmən yenə də ustalıqla rəqs etməyə davam edən rəqqasənin göbəyinə ehmalca tökdü… Qız elə məharətlə oynayırdı ki, o vəziyyətdə olmasına baxmayaraq dərin göbəyindəki al-qırmızı şərab dünyanın ən gözəl çuxurunda ahəstəcə yırğalanır, yerə tökülmürdü… Rəqqasənin ağappaq və yumşaq qarnının üstündən qırmızı şırımlar açaraq yavaşca kənarlara süzülən şərab

uca bir dağın zirvəsində partlayıb ətəklərə doğru axan vulkanın odlu nəhrləri kimi iz salırdı. İçi qıpqırmızı şərabla dolu bu yumru, xəfifcə tərpənən ağappaq göbək dünyanın ən böyük fatehlərini öz dərinliyində qərq eləmişdi… Nə qədər güclü olursan ol, eşqin dəryasında məharətlə üzməyi bacarsan belə, bir gün qadının başdançıxarıcı dərinliyində boğulmaq hər kişinin qismətidir… Həsən padşah bu misilsiz mənzərəni bir müddət seyr etdikdən sonra qarşısında körpü vəziyyəti almış gözəlin qarnına doğru əyilib xatunun müşki-ənbər qoxusu verən göbəyindən – dünyanın ən gözəl piyaləsindən Şiraz şərabını qurtumladı…Yalnız bundan sonra rəqqasə qamətini düzəldərək qıpqırmızı şərabın izlər saldığı ağappaq əndamını məharətlə oynadaraq canalıcı rəqsini davam etdi…

– Çağırın, indi də məclisə Şəbi Yeldam gəlsin – deyə Uzun Həsən içkinin məstliyindən və o anlarda yaşadığı məsudluğun təsiri ilə parıldayan gözləri ilə ayaq üstə müntəzir gözləyən mühafizlərə təpindi.

Belinəcən uzanan qapqara dalğalı saçlarının gözəl ətir qoxusunu məclisə yayaraq sanki barmaqlarının ucunda yeriyirmiş kimi incə addımlarla padşahın oturduğu səmtə addımlayan ayüzlü, canalan baxışlı Bəyimcan xatun Uzun Həsənə çatıb işvəylə təzim elədi. Padşah incəbelli, dünya gözəli olan xatunun qara tül libası altında daha da cəlbedici görünən ağappaq vücudunu ehtiraslı və heyranedici baxışlarla süzdü. İşarə ilə yaxınlığında əyləşməyi buyurdu. Vaxtilə azğın kütlənin əlindən qurtarıb saraya gətirəndə tərtəzə çiçək olan xatun illər keçdikcə yetkinləşərək qadınlıq gözəlliyinin zirvəsinə çatmışdı. Bilgisilə hamını heyran edən, yazıb-oxumağı bilən, gözəl rübab çalıb qəzəllər oxumağı, eyni zamanda ağlı başdan çıxaran misilsiz rəqsləri ilə sarayın hərəmxanasının ən cazibədar cariyələrindən sayılan Bəyimcan xatun uzun illər idi, Həsən padşaha aşiq idi. Ancaq ziyafətlərdə sevdiyinin üzünü görmək nəsib olan və bir də hərdənbir Allahın hansısa xoş günlərinin birində Həsən padşahın yadına düşəndə

xəlvətcə pişvazına çağırılan, Uzun Həsənin tükənməz istəklə, Şəbi Yeldam çağırdığı Bəyimcan xatun bu qısa səadətə də qane idi. Təki sevdiyi fatehin üzünü görüb qoxusunu içinə çəkmək hərdənbir olsa da nəsibi olsun… Uzun Həsən öz əlilə piyaləyə süzdüyü şərabı yaxınlığında əyləşdirdiyi Bəyimcan xatuna uzatdı. Çərəz məcməyisindən ən dadlı təamları seçib xatunun piyaləsindəki şərabdan seçilməyən qırmızı gilas kimi dolğun dodaqlarının arasına qoydu… Bəyimcan xatun o dəqiqələrdə dünyanın ən bəxtəvər qadını idi. Dünya fatehlərindən biri sevgi dolu baxışları ilə ruhunu oxşayırdı. Bəyimcan xatun içdiyi şərabdan daha çox bu inanılmaz səadətin təsirindən xumarlanan gözəl gözləri ilə padşahın hər bir hərəkətinə məhəbbət dolu incə hərəkətlərilə qüvvət verir, məclisdəki musiqinin ahəngilə oturduğu yerdəcə yarıçılpaq yumru çiyinlərini, şirmayı qollarını rəqs edirmişcəsinə oynadırdı…

– Böyük padşahımıza məlum olsun ki, zati-alilərinin şanını, şöhrətini və qüdrətini dünyanın gəlib keçmiş ən böyük fatehlərindən olan İskəndər və Əmir Teymurla müqayisə edirlər. Və müqayisələrdə üstünlüyü bir çox baxımdan böyük fateh Həsən padşaha verirlər…

Uzun Həsən bu sözləri kitabxanasında çalışan üləmalardan eşitmişdi, Avropada, Osmanlı imperiyasında və yaxın-uzaq yerlərdə belə bir müqayisənin aparıldığını bilirdi. Amma indi bunu təkrar böyük bir ziyafətdə ona aşiq olan qənirsiz gözəl olan bilgili bir xatunun dilindən eşitmək xüsusilə həzz verdi.

– Rübabını dilləndirib sevgi haqqında gözəl bir qəzəl söyləsənə, Şəbi Yeldam?

– Fateh istərmi Azərbaycanın məşhur şairlərindən olan Seyid Əli İmadəddin Nəsimidən bir əsər oxuyum?

– Adını eşitmişəm o şairin, mən doğulmamışdan əvvəl Hələbdə edam edilən deyilmi o?

– Elədir, padşahım, dünyanın əslində ən inanclı və imanlı şairlərindən birini onu gözügötürməyən bədxahların fitnəsi ilə kafir

adlandırıb dərisini soyub, saman təpiblər… Bu yaxınlarda sarayımızın kitabxanasına onun qəzəllərindən bir qismi gətirilib, üzü köçürülüb. Söyləyimmi?

– Söylə, xatunum…

Bəyimcan xatun bağrına basdığı rübabı kökləyib dilləndirdi. Baxışlarını padşahın parıldayan gözlərinə dikib ovsunlayıcı avazla oxumağa başladı:

*Üzün məndən nihan etmək dilərsən, etməgil!*
*Gözlərim yaşın rəvan etmək dilərsən, etməgil!*

*Bərgi-nəsrin üzrə mişkin zülfünü sən dağıdıb,*
*Aşiqi bixaniman etmək dilərsən, etməgil!*

*Qaşların qövsündə müjganın xədəngin gizləyib,*
*Ey gözü məstanə, qan etmək dilərsən, etməgil!*

*Canımı vəslin şərabından ayırdın, ey gözüm,*
*Eynimi gövhərfəşan etmək dilərsən, etməgil!*

*Qoymuşam eşqində mən kövnü məkanın varını,*
*Can nədir kim, qəsdi-can etmək dilərsən, etməgil!*

*Bürqəi üzündən açarsan məgər naməhrəmə,*
*Gizli əsrarı əyan etmək dilərsən, etməgil!*

*Yandırırsan könlümü eşqində, məlum oldu kim,*
*Anı risvayi-cahan etmək dilərsən, etməgil!*

*Doğruyam eşqində oxtək, kirpigin tanıqdurur,*
*Qəddimi neyçün kaman etmək dilərsən, etməgil!*

*Çünki eşqin məskənidir könlümün viranəsi,*
*Həsrətə anı məkan etmək dilərsən, etməgil!*

*Çün yəqin bildi Nəsimi ağzının var olduğun,*
*Ol yəqini sən güman etmək dilərsən, etməgil!*

…Sübhə qədər davam edən sözlü-nəğməli ziyafət sanki qarşıdan gələn qovğalara sinə gərmək gücü qazanmaq üçün fələkdən oğurlanan xoş bir gün idi…

* * *

Tarix XV əsrin yetmiş üçüncü ilinin qorabişirən yayına doğru sanki öz ağır ləngəri ilə yox, köhləni üstə çaparaq gedirdi. Artıq Osmanlılarla Ağqoyunlular arasında baş verən hadisələrin axarı elə bir məcraya yönəlmişdi ki, daha qarşısını almaq heç cür mümkün deyildi. Doğrudur, Osmanlıların qızışdırıb Uzun Həsənin üzərinə göndərdiyi Ağqoyunlu müxalifləri Bayandurların sahib olduqları səltənətin gücünü sarsıda bilməsələr də, hər halda bu müharibələrdə Uzun Həsən xeyli canlı qüvvə itirmiş, tələfat vermişdi. Ağqoyunlular itirdikləri qüvvələri bərpa etmək, ordunun döyüş gücünü təkmilləşdirmək üçün səylər göstərirdi. Ayrı-ayrı Avropa krallıqlarına Uzun Həsən məktublar yazır, onları gələcəkdə Osmanlılar tərəfindən necə təhlükələrin gözlədiyini bildirir, bu təhlükənin qarşısını almağın yeganə yolunu birləşməkdə, Osmanlılar üzərinə birgə hərəkət etməkdə gördüyünü deyirdi.

Doğrudur, ayrı-ayrı Avropa ölkələrindən cavablar gəlir, hətta kömək vədləri də verilirdi. Bildirilirdi ki, guya tezliklə əsas təhlükə mənbəyinə qarşı durmaq üçün Uzun Həsənə odlu silah, sursat göndəriləcək. Fəqət, bunların hamısı məktub üzərindəki sözdən başqa bir şey deyildi. Nəhayət, Uzun Həsən başa düşdü ki, o, Sultan II Mehmedlə özü təkbaşına qarşılaşmalı olacaq. Əslində, Uzun Həsənin Sultan II Mehmedlə qarşılaşmasından elə də bir qorxusu yox idi. Düzdür, Uzun Həsənə Sultan II Mehmedin ordusunun ehtişamı, saysız-hesabsız odlu silaha, uzaqvuran toplara malik olduğunu çatdırırdılar. Ancaq bu məlumatlar onsuz da labüd müharibədən yayınmaq üçün bəhanə deyildi. Tarixin qanlı savaşa doğru yeridiyi zamanda hökmdarların bir-birinə kini, qəzəbi də

aşıb-daşmaqda idi. Sultan II Mehmed qəzəbini Uzun Həsənə yazdığı məktubda açıq-aşkar bildirmişdi: «Qüvvət və qüdrət Cənabi Haqqa məxsusdur. Keçən dəfə ananın xahişiylə əlimdən canını qurtardın. Dəyişildiyini düşünüb səni bağışladım. Halbuki sənin kimi Türkmənin mənim torpaqlarımda səltənət davası salmağı haramdır. Hətta biz özümüz imkan verdik ki, sən güclənəsən. Ancaq bizə məlumdur ki, qürur badəsindən içib sərxoş olmusan, münasibətimdən sui-istifadə edib Tokat və Qaramana əsgərlərini göndərmisən, oraları talan etmisən. Ona görə, bu ilin yazında səni öldürməyə və torpaqlarını talan etməyə gəlirəm. Səni bağışlamaq fikrim yoxdur. Sən ölkə dağıtmağı nə hesab edirsən?.. Torpaqlarımıza təcavüz etdiyin üçün qılıncımız sənin köksündə qana batmalıdı. İgidsənsə, çıx meydana. Qaçıb gizlənmə, hazırlaş, sonra demə ki, xəbər vermədilər. Onsuz da sürünürsən və üzr istəməyin faydası yoxdur».

Osmanlı sultanının hikkəsi o həddə çatmışdı ki, hər hansı bir müharibə, hərbi yürüş vaxtını heç vaxt heç kimə bildirməsə də, bu məktubda Uzun Həsənə müharibənin vaxtını belə bildirməkdən çəkinməmişdi. Sultan II Mehmed Uzun Həsəni qəsbkar adlandırmış, onu bütün əməllərində günahkar kimi tanıdığını bildirmişdi. Əslində, Sultanın bu iddialarını Uzun Həsən doğru saymırdı. Çünki bir zaman Qazi Bürhanəddinin tabeçiliyindəki əraziləri o, qanuni olaraq Ağqoyunlu torpaqları kimi qəbul edirdi. Axır ki, Uzun Həsən bu hədələrdən, az qala təhdid səviyyəsinə qalxan tələblərdən bezərək, qoşuna hərəkət əmri verdi. Uzun Həsənin orduya hərəkət əmri verməsinin başqa bir səbəbi də vardı. Bu da ondan ibarət idi ki, 1473-cü ilin yayında Qaramanlılarla sultan qüvvələri arasında toqquşma baş vermişdi. Qaramanlılar Qazi Bürhanəddindən sonra daha çox Ağqoyunlularla yaxın münasibətdə idi. Sultan isə buna çox qısqanclıqla yanaşırdı. İndi bu toqquşmadan istifadə etməyi Həsən padşah ən yaxşı fürsət hesab edirdi.

Ağqoyunlu şahı Osmanlı sultanının məktubundakı təhqiramiz ruhu unuda bilmirdi. Vaxtilə Sara Xatun Sultan II Mehmedlə görüşündə ona «oğlum» deyə müraciət etmiş, sultan da öz növbəsində Sara Xatunu özünə ana bildiyini söyləmişdi. Uzun Həsənə də acıq gələn o idi ki, Osmanlı sultanı həmin məktubunda ana ləyaqətini ucuz tutmuş, ana adına hörmətsiz yanaşmışdı.

Sultan II Mehmed də çoxminlik ordusu ilə Uzun Həsəni qarşılamağa gəlirdi. Şərqin iki nəhəng dövləti bir-birinin üstünə yeriyirdi. Bu qarşıdurmanın ən böyük faciəvi tərəfi onda idi ki, onların hər ikisi türk dövlətiydi. Və hər ikisinin ixtiyarında qədərincə böyük ərazilər var idi. Onlar bir-birinə dayaq durub ölkələrinin gücünü, qüdrətini daha da artıra bilərdilər. Böyük türk xalqı iki dövlətin qüdrətli səltənət sarayı sayəsində firavan həyat sürə bilərdi. Elm-ürfan inkişaf edərdi, ticarət genişlənərdi, iqtisadi əlaqələr güclənərdi. Bir sözlə, mədəniyyət çiçəklənər, dövran insanların üzünə gülə bilərdi. Fəqət, iddialar bir-birinə qarşı kin, qəzəb, hakimiyyət ehtirası onları sakit qonşuluq şəraitində yaşamağa qoymurdu.

Ərzincanda məlum oldu ki, Uzun Həsənin qoşunları da Osmanlı ordusuna sarı hərəkət edir. Beləcə bir-birinin üstünə yeriyən orduları indi Fərat çayı ayırırdı. Fəratın sağ sahilində, Malatya yaxınlığında Sultan II Mehmedin, sol sahilində isə Uzun Həsənin qoşunları düşərgə salmışdı. Öz dövrünün eyni soy-kökdən olan iki ən böyük türk sərkərdəsi, iki hərb cahangiri, iki şöhrətli fatehi üz-üzə, göz-gözə dayanmışdılar.

Osmanlıların ixtiyarında çoxlu odlu silah, toplar vardı. Ağqoyunlu ordusunun ixtiyarında isə qılınc, ox, nizə. Ancaq Ağqoyunluların cəngavər süvariləri Yaxın və Orta Şərqdə məşhur idilər. Ağqoyunlu qoşununun əsas qüvvələrinə Uzun Həsənin oğulları Xəlil bəy, Zeynal Bəy və Uğurlu Məhəmməd də daxil olmaqla Dövləti-Bayanduriyyənin ən məharətli sərkərdələri başçılıq edirdilər. Uzun Həsən at üstündə Fəratın sağ sahilinə yerləşmiş Sultan II Meh-

medin qoşunlarını görəndə heyrətdən gözləri böyüdü: Osmanlı ordusu qarışqanı xatırladırdı, ucu-bucağı görünmürdü.

Uzun Həsənin ordusu odlu silah sarıdan korluq çəksə də, təchizatı və canlı qüvvəsi baxımından dövrünün ən nizami, cəngavər və müzəffər ordularından sayılırdı. Bütövlükdə yüz minlik Ağqoyunlu ordusunun elə təkcə döyüşçüləri qırx min nəfərdən artıq idi. Qalan altmış min nəfərini isə xidmətçilər təşkil edirdi. Həmin dövrdə Ağqoyunlu qoşunundakı süvari dəstələrinin heç bir yerdə misli-bərabəri yox idi və Sultan II Mehmed də bunu yaxşı dərk edirdi. Uzun Həsənin ordusunda altı min alaçıq, otuz min dəvə, beş min yük qatırı, beş min yük atı, iki min ulaq, iyirmi min minik atı, iki min minik qatırı, iki min qaramaldan ibarət sürü, iyirmi min qoyun, yüz ov pələngi, iki yüz «cins» və «mələz» qızılquş, üç min tazı, mindən yuxarı müxtəlif it, əlli qırğı, on beş min qılıncla silahlanmış döyüşçü, iki min silahlı qul, dəvəsürən və ox-kamanla yaraqlanan minlərlə qulluqçu var idi. Orduda müxtəlif sənətkarlar və peşə sahibləri, o cümlədən dərzi, dəmirçi, yəhərçi, çəkməçi və başqa insanlar çalışırdı. Alverçilər, ərzaq tədarükçüləri və hətta əczaçılar da Ağqoyunlu qoşununun xidmətindən kənarda deyildilər.

Uzun Həsənin bütün hərəkətlərini Sultan II Mehmed necə izləyirdisə, Ağqoyunlu hökmdarı da onu eləcə daban-dabana izləyirdi. Haqqında hər cür məlumatı vaxtında alır, hər hansı bir məsələnin nə demək olduğunu yetərincə ağlından-fəhmindən keçirirdi. Uzun Həsən hərbi hərəkət baxımından Sultan II Mehmeddən çox çevik idi. Həm də Uzun Həsən Sultan II Mehmeddən fərqli olaraq bütün qüvvələrini ölkənin öz adamlarından cəmləmişdi. Onun qənaətinə görə, insanlar öz torpaqları uğrunda vuruşmağı hər cür puldan, qənimətdən üstün bilirlər. Uzun Həsən öz döyüşçüləri arasında tez-tez olur, ayrı-ayrı dəstəbaşılarla yaxından görüşür, dilləşir, gələcək döyüşlər üçün onların nə düşündüyünü öyrənməyə çalışırdı. Hətta ordunun ölkəylə, Vətənin taleyi ilə bağlı narahatlıq, nigarançılıq ifadə edən münasibəti də Uzun

Həsəni sevindirirdi. O, yaxşıca anlayırdı ki, savaşda kimin qalib gəlməsi döyüşçünün döyüşə öz düşüncəsində necə hazırlaşmasından çox asılıdır. Ayrı-ayrı böyük dəstələr önündə Uzun Həsən öz döyüşçülərilə bir ata, böyük qardaş, müdrik şəxsiyyət kimi danışırdı. Ən başlıcası, onun toplum qarşısında aydın və parlaq nitqi döyüşçülərin bütün vücuduna sirayət eləyirdi.

Döyüşqabağı Uzun Həsən öz sərkərdələri önündə sonuncu dəfə at belində görünməli oldu. Uzun Həsənə döyüş üçün xüsusi atlar bəslənilirdi. Həm də bu zaman atlar elə təlim edilirdi ki, süvarinin hər hansı bir hərəkətini döyüş zamanı düzgün hiss edir və sahibinin istəyinə uyğun manevrlərlə cavab verirdi.

Ağqoyunlu padşahı onsuz da ucaboylu idi. Hündür sağrılı Qarabağ atının üstündə isə xüsusilə əzəmətli görünürdü. Uzun Həsən son vaxtlaracan bütün hərbi yürüşlərdə öndə olur, çox vaxt mühafizəçilərinin də arasından keçib düşmənin arasına girirdi. Cəld və sərrast qılınc işlətməyi, düşmən tərəfinin təhlükəli hədəfinə dürüst nizə atmağı, üzərinə hücuma keçən qüvvədən vaxtında yayınmağı ustalıqla bacarırdı. İndi qoşunun önündə dayanmış bu əzəmətli sərkərdənin məğrur görkəmi minlərlə ona zillənmiş gözlərdə inam işığına çevrilirdi. Onların qəlbində qürur və iftixar hissi doğururdu. Padşahın səsindəki əzəmət sanki döyüşçülərin varlığına axır, damarlarında qana qovuşur, onlara güc bəxş eləyirdi.

– Mənim igidlərim… Ağqoyunlu səltənətinin ər oğulları! Sizin atalarınızın, bizim hamımızın, ulularımızın açdığı yoldan kənara çıxmamışıq. Onlar bizə, soyumuza uyğun yol qoyublar. Dövlətimizin əsası, səltənətimizin bünövrə daşı bizdən əvvəlkilərin əlilə qoyulub. Biz də əmanət olanı qorumaq niyyətindəyik. Biz kimsənin torpağına göz dikməmişik. Yaxşı olardı ki, kimsə də bizim torpağımıza göz dikməyəydi. Amma iş ki, gəlib bu yerə çatıb, biz canımızla, qanımızla adımızı, sanımızı, həm də böyük Ağqoyunlu səltənətini qorumağa hazır olmalıyıq. Əgər bu yolda

mən düşmən qılıncı ilə parçalansam da, inarıram ki, Ağqoyunlunun saysız igid oğulları bu yolu axıracan aparacaq. Hamınıza məlum olduğu kimi, son döyüşdə mən oğlanlarımı itirdim, ancaq bu, məni sındırmadı, çünki bilirdim savaşım haqq savaşıdır. Yenə də elə bu fikirdəyəm. Biz ya Ağqoyunlu səltənətinin xəzinəsini Sultan II Mehmedə verməli, onun önündə diz çökməli, əbədi şöhrətimizdən keçməliyik. Ağqoyunlu səltənəti ayrı-ayrı səltənətlərə bölünüb Osmanlıların tabeliyində təhqiramiz bir zaman yaşayası olmalıdır, ya da bütün varlığımızla öz həqiqətimizi qorumağa haqq mücadiləsinə qalxmalıyıq. Bu həqiqət isə bizə canımızdan əziz olan yurdumuzdur. Sizə qalibiyyətli döyüş arzulayıram. Heç nədən çəkinməyin. Tanrı bizim tərəfimizdədir. Bizim ayağımızın altındakı torpaq özümüzündür. Ona görə də ayağımızın altından qaçmayacaq. Tanrı sizə yar olsun!

Qoşunun içərisindən gurultulu səs-sədayla cavablar gəldi. Hamı bir ağızdan səslənirdi.

– Var olsun Həsən padşah! Əbədi var olsun Ağqoyunlu səltənəti! Düşmən layiqli cavabını alacaq!

Uzun Həsən bu səsləri, sədaları dinlədikcə qəlbi dağa dönür, özünü və qoşununu məğlubedilməz sanır, bu inamın Osmanlıların toplu-tüfəngli qoşunundan daha üstün olduğuna şəkk etmirdi.

Hər iki tərəf güclü orduya malik olmasına baxmayaraq, heç bir tərəf hücum üçün ilk addımı atmağa tələsmirdi. Həsən padşah uzun illərin döyüş təcrübəsi ilə anlayırdı ki, Fəratı adlayıb hücum etmək Ağqoyunlu ordusuna baha başa gələ bilər. Osmanlı qoşunundakı topların atəşi altında Ağqoyunlu ordusunun xeyli hissəsi məhv ola bilərdi. Uzun Həsən məharətli bir döyüş planı düzəltdi: Bir dəstə Ağqoyunlu süvarisi hücum edərək Fəratı keçərkən padşahın oğlu Uğurlu Məhəmmədin sərkərdəlik etdiyi əsas qüvvələr Fəratın sahilində pusquda duracaqdılar. Düşmən Fəratı keçən dəstəyə hücum edəndə Ağqoyunlu ordusu geri çəkilməli və Os-

manlı qoşununu Fəratın sol sahilinə – Həsən padşahın ordugahına doğru keçirməli idilər. Elə bu zaman Uğurlu Məhəmmədin qoşunları cinahlardan sultanın qüvvələrini arxadan mühasirəyə alıb məhv etməli idilər. Həsən padşahın illərə söykənən döyüş təcrübəsinə əsaslanaraq qurduğu plan uğurlu oldu. Avqustun birində üç saatdan artıq davam edən qanlı Malatya döyüşündə Sultan II Mehmedin qoşunu darmadağın edildi.

Uzun Həsən Osmanlı sultanının sülh təklifilə gələn elçilərini də rədd etdi. Osmanlı sultanı elə qorxuya düşdü ki, Malatya döyüşünün elə ertəsi günü geri qayıtmağa üz qoydu. Sultan II Mehmed çəkinirdi ki, Avropa dövlətlərinin birləşmiş hərbi qüvvələri bu məğlubiyyətdən xəbər tutub qərbdən hücum edərək İstanbulu ələ keçirərlər.

Ağqoyunluların Malatya savaşındakı qələbəsindən sonra Uzun Həsən sərkərdələrlə xeyli məsləhət-məşvərət etməli oldu. Sərkərdələr təkid edirdilər ki, Ağqoyunlu ordusu Osmanlı qoşununu təqib etsin. Uzun Həsən əvvəlcə buna razı olmurdu, lakin sonra sərkərdələrin israrı ilə razılaşdı. Yenə Həsən padşahın planı ilə Malatya vuruşmasından on gün keçdikdən sonra Dövləti Bayanduriyyənin süvariləri Ərzincanla Ərzurum arasında Üçağızlı dərəsində Sultan II Mehmedin qoşununu qabaqladılar. Ağqoyunluların döyüş planına əsasən, Ağqoyunlu süvariləri həm qabaqdan, həm də yanlardan Osmanlı qoşununu qəfildən yaxalamalı idi. Bununla da Osmanlı ordusu dərədən düzə çıxa bilməyəcəkdi. Osmanlı qoşunu geri çəkildikdə isə Uzun Həsənin başçılığı ilə süvari dəstələri onları qarşılayacaqdı. II Mehmed Uzun Həsənin planını anladığı üçün ön cəbhədə ordusunu fəallaşdırdı. Bununla da Osmanlı qoşunu tələfat versə də düzə çıxmağa müvəffəq oldu. Otluqbeli döyüşü adı ilə tarixə düşmüş bu savaş səkkiz saatdan çox sürdü.

…Tarix çoxlu qanlı savaşlar görüb. Ancaq Otluqbeli savaşı insan qırğınına görə bu savaşların ən dəhşətlilərindən biri idi…

Əvvəlcə, Zeynal Mirzənin başçılıq elədiyi mərkəz qüvvələri Osmanlı ordusunun içərisinə cəsarətlə yeridi. Əgər iş belə gedərdisə, müharibənin tezliklə Ağqoyunluların xeyrinə bitəcəyini hər kəs təsdiqləyərdi. Uzun Həsən hündur bir yerdən döyüşü müşahidə edirdi. Hara, hansı qüvvələrin irəli yeridilməsi, hansı qüvvələrin yerini necə dəyişməsi… hamısı onun ixtiyarında idi. Ancaq qəflətən dəhşətli gurultular aləmi başına götürdü. Zeynal Mirzənin əsas qüvvələrinin cəmləşdiyi yerlərdə tüstü-duman və toz cəhənnəmi göyə qalxdı, dalbadal atılan top atəşlərilə bir anda Ağqoyunlu qoşunun mərkəzi hissəsi pərən-pərən düşdü, əsas qüvvələr dağıdıldı. Uzun Həsən Ağqoyunlu qüvvələrinin sağ qalan hissələrini bir yerə cəmləməyə çalışdı. Hər halda onun vəziyyəti düzgün qiymətləndirməyi Ağqoyunluları tamam məhv olmaqdan xilas elədi. Qoşun pərakəndə hala düşmədi. Qalan qüvvələr nizamlı şəkildə geri çəkilməyə başladı. Ara sakitləşən kimi alay başçılarından kimin sağ qalıb-qalmadığı araşdırıldı. Məlum oldu ki, Uzun Həsənin oğulları geri çəkilən qüvvələr arasında yoxdu. Sağ qalan şahidlər Zeynal Mirzənin mərkəzdə necə cəsarətlə, son damla qanına qədər mərdanəliklə vuruşduğunu heyranlıqla söyləyirdilər.

Ağqoyunlu süvariləri nə qədər mətanətlə dayansalar da, sonuna qədər mübarizə aparsalar da odlu silahlara malik olan türk piyadasının, xüsusilə də yeniçəri alaylarının inadkarcasına müqavimət göstərməsinə tab gətirə bilmədilər. Ağqoyunlular məğlub oldular. Osmanlı ordusu mətin və cəsur Ağqoyunlu qoşununu ağır toplarla susdurdu…

Sultan II Mehmed özü də döyüşü müşahidə edirdi. Əsir götürülənlərin arasında Uzun Həsənin oğlanlarının olduğunu biləndə sevincini gizlətmədi. Ətrafındakı yaxınlarına aldığı xəbərin sevincini belə bildirmişdi:

– Biz bu döyüşdə qalib gəldik. Ancaq Uzun Həsənin bütün gücünü məhv edə bilmədik. O, vaxtında vəziyyəti qiymətləndirib qo-

şununu geri çəkdi. Ola bilsin ki, o yenidən qüvvələrini cəmləyib, bizimlə qarşılaşmağa hazırlaşacaq.

Yaxınlıqda olan, Sultan II Mehmedin özünə sağ əl hesab elədiyi Ömər bəy dilləndi:

– Sultanın qüdrəti göy gurultusundan da dəhşətlidir. Yəqin ki, Uzun Həsən heç vaxt bu gurultuları yaddan çıxarmayacaq. Ona görə də biz Ağqoyunlular üzərinə yürüşü davam etdirməliyik.

Sultan Ömər bəyi diqqətlə dinlədi, onun nə demək istədiyinə varmaq, anlamaq üçün lap gözlərinə baxdı.

– Demək, Ömər bəyin dediyindən belə çıxır ki, biz savaşı qələbəyəcən başa çatdırmalıyıq.

– Bəli, bəli, sultan, mən elə bunu demək istəyirəm.

Sultan II Mehmed hiss olundu ki, Ömər bəyin cavabından razı qalmayıb, başını təəssüflə yellədi.

– Sən bir meydana bax, bu meydanda on minlərlə Osmanlı əsgərinin meyiti qalıb. Onlar bizim ordunun ən qüdrətli əsgərləri idi. İndi onların yerini hansı qüvvəylə bu tezlikdə doldura bilərik? Üstəlik, təqibə başlasaq, ərzaq ehtiyatından məhrum olarıq. Ağqoyunlu ərazilərinin içərilərinə getdikcə, düşmən qüvvələrini bərpa edəcək. Biz isə hər cür köməkdən məhrum olacağıq. Qoy, eybi yoxdu, onlar geri çəkilsin. Biz yenidən döyüşə hazırlaşarıq. Hələ biz istəyimizə yetməmişik.

Ömər bəy sultanın narazılığından çəkindi, daha sözünə davam eləmək istəmədi. Sultan onun susduğunu görüb, birdən qəhqəhə ilə güldü.

– Sən unudursan ki, biz Ağqoyunlu şahı Uzun Həsənə elə bir yara vuracağıq ki, ən betər döyüşün də yarasından üstün olacaq.

Ömər bəy sultanın nə demək istədiyini anlamadı. Sultan isə bundan daha da məmnun oldu. Deyəsən, Ömər bəydən daha çevik düşündüyü üçün qürrələndi də. Axır ki, Ömər bəyi intizarda saxlamadı.

– Sən bilirsən ki, biz bu döyüşdə çox böyük qənimət götürmüşük.

Ömər bəy təəccüblə çiynini çəkdi. Otluqbeli təpələrini bir də nəzərdən keçirdi. Sultan hansı qənimətdən danışırdı, başa düşmədi. Uzun Həsənin ordugahı salamat geri çəkilmişdi, əgər xəzinə də var idisə, onlar özləri ilə aparmışdılar. Deməli, nəsə sultan başqa bir məsələni nəzərdə tuturdu. Ömər bəy sultanını başa düşmədiyindən təəssüfləndi, yazıq-yazıq çiynini çəkdi.

Axır ki, sultan özü təntənəli şəkildə elan etdi:

– Hə, Ömər bəy, sən nəzərə almırsan ki, biz Ağqoyunlu şahının oğullarını əsir almışıq. İndi onların ölümü bəs eləyir ki, Ağqoyunlu şahının beli sınsın. Uzun Həsən özünə sədaqətli oğullarının ölümündən sonra çətin ki, qamətini şax dikəldə bilsin.

Doğrudur, Uzun Həsənin oğlanları əsir düşmüşdü. Amma Sultan II Mehmed bilmirdi ki, Zeynal bəy döyüşdə aldığı yaradan artıq keçinmişdi. O, Zeynal bəyi özünün edam edə bilməyəcəyindən də xeyli məyus oldu. Sultan II Mehmed təcili Uzun Həsənə təzə hədə məktubları göndərdi. Onu itaətə çağırdı. Ağqoyunlu şahının itaət etməyəcəyi təqdirdə isə oğlanlarının edamına əmr verəcəyini bildirmişdi.

Uzun Həsən isə ona cavab yazmışdı ki, sultan onun bütün nəslini edam eləsə belə, Ağqoyunlu şahının itaətindən söhbət gedə bilməz. Hətta Uzun Həsən onun bu cinayətlərinə görə yaxın zamanlarda cəzalanacağını da söyləməkdən çəkinməmişdi. Sultan II Mehmed tarixdə ən ədalətsiz bir hökm verdi. O, Uzun Həsənin oğlanlarını edam etdirdi.

Neçə yüz illər keçəcək, bu qanlı savaş da, ədalətsiz hökm də yaddan çıxmayacaq. İnsanlar Uzun Həsənin igid oğlu Zeynal bəyin məzarı üstə türbə quracaq, onu müqəddəs məkan kimi ziyarət edəcəkdilər…

* * *

…XV əsrin axırına bir qərinə vaxt məsafəsi qalırdı. Uzun Həsən demək olar ki, saray çəkişmələrindən Ağqoyunlu sülaləsini xilas eləmiş olsa da, özünün qurub-yaratdığı səltənətinin daha bundan sonra nəinki bir əsr, heç bəlkə bir qərinə də təhlükəsiz yaşaya biləcəyinə inanmırdı. Baxmayaraq ki, Ağqoyunluların Böyük Qafqazın cənub ətəklərindən Anadolu civarına, eləcə də Şiraza, Diyarbəkirəcən, bir tərəfi də Bağdadacan sərhədləri uzanırdı. İş orasındaydı, bu nəhəng dövlətin idarəedicilәri elə Uzun Həsənin özünün simsarları, doğmaları, bir çoxunda isə oğulları hakimlik eləsələr də, onların öz aralarında olan çəkişmələr bitib-tükənmirdi.

Bir çox salnamə yazanlar Ağqoyunlular dövlətinin böyük bir bəlasını da ayrı-ayrı əraziləri idarə edən Uzun Həsənin oğullarının iddialı və tamahkar münasibətlərində görürdülər. Lap elə salnaməçinin təbirincə desək, bu vaxt siyasi aləmdə ayrı-ayrı əyalətlərin hakimiyyət taxtında əyləşmiş və yaxud da, hakimiyyət hərisiydi və taxt-tac iddiasında olan şahzadələr az deyildi. Onların hər biri hakimiyyət uğrunda ölməyə belə hazır idilər.

Son vaxtlar Uzun Həsən özü də fikirli və gərgin görünürdü. Çoxları bunu onun yaşlaşmağı, saray əyləncələrindən qaçmağı ilə bağlayırdılar. Əslində, Uzun Həsənin oğlanlarının bir-birilə və onların bəzilərinin mərkəzi hakimiyyətlə iddialı çəkişmələri qurtarmırdı ki, qurtarmırdı. Həqiqətən, əhalinin əksəriyyətinin etimadı mərkəzi hakimiyyətə idi. Onlar Ağqoyunlular dövlətinin gücünü Uzun Həsəndə görür, əmin-amanlığı, dinc yaşamaq ümidlərini də elə ona bağlayırdılar. Amma müxtəlif ərazilərə hakimlik edən şahzadələr gücləri və tamahları qabağında idarə etdikləri əyalətləri kiçik sayır, öz torpaqlarını genişləndirmək üçün qoşun toplayır, tərəfdar yığırdılar. Mərkəzi hakimiyyətin paytaxtına yaxın yerdə Uğurlu Məhəmməd Mirzə payına düşənlə qətiyyən barışmır, az qala Uzun Həsənin əlinin çatacağı yerlərə qədər öz qoşunu ilə həmlə edir, Təbrizətrafı mahalları soyub-talayır, hakimlik etdiyi İsfahana daşıtdırırdı.

Onun əməlləri Uzun Həsən tərəfindən saymazyana qarşılansa da, artıq təhlükəli həddə çatmışdı. Apardığı əyalət müharibələri sayəsində xeyli var-dövlət yığmış və elə bu sərvətlə də müsəlləh qoşun hazırlamışdı.

Bir gün səhərin gözü açılmamış Uzun Həsənə xəbər verdilər ki, Uğurlu Məhəmməd Mirzənin başçılıq elədiyi qoşunlar demək olar ki, Təbrizi mühasirəyə almaqdadır. Daha bir ağrıdıcı xəbər o idi ki, bütün bunlarda Uzun Həsənin qardaşı Üveys Mirzə də Uğurlu Məhəmmədə dəstək olurdu. Eyni vaxtda həm oğul xəyanəti, həm də qardaş etibarsızlığı…

Xəbər az qala Asiyanın yarısına hakimlik edən hökmdarı sarsıtdı, bir xeyli nəsə demək istəsə də dinə bilmədi, nitqi qurudu. Yerində qurcalandı. Yaxınında oturan cavan zövcəsi onun iniltili səsini eşitdi. Əslində, Uzun Həsənin dodaqları tərpənməmişdi. O, heç nə deməmişdi. Elə bil ki, gizilti onun sinəsindən, ürəyinin başından qopmuş, varlığından çıxıb ətrafa yayılmışdı. Gözünün qabağında qan içində çabalayan oğlunu görürdü. Ona elə gəldi ki, bəd xəbərlə birgə sarayın yataq hücrəsinə – Uzun Həsənin olduğu otağa əcaib-qəraib varlıqlar dolmuşdu. Gözə görünən və görünməyən bu varlıqlar hərəsi bir tərəfdən onun canına daraşıb gözünü tökmək, sinəsini parçalamaq, bədənini tikə-tikə etmək istəyirlər. Uzun Həsən gözlərini yumub təzədən yatağına sərələndi. Bir xeyli müddət sakit və səssiz qaldı. Belə vaxtlarda – çox olmasa da belə hallar hərdən olurdu – cavan hərəm də ona yaxınlaşmağa cəsarət etmir, çəkilib başqa otağa gedir-gəlir, onu sakit və səssiz buraxırdı.

Uzun Həsənin budəfəki sükutu çox çəkmədi. Əslində onun huşu yerində idi. Sakitcə qalxıb divana getməli, paytaxta hücum etmək istəyən naxələf oğul haqqında hökm verməliydi. Bax, bu verəcəyi hökmün dərdi, ağrısı Uzun Həsənə güc gəlmişdi.

Zamanının ən qüdrətli sərkərdələrinə qarşı çarpışmalardan hünərlə çıxmış, üzbəüz döyüşlərdən çəkinməmiş Uzun Həsən üçün oğluna qarşı verəcəyi savaş qərarı ağır idi. Yaxşı yadına gəlirdi,

bir vaxt qardaşı Cahangir Mirzəyə qarşı da sonuncu döyüşdə elə bu əhvalı yaşamışdı. Onda da çox tərəddüdlər etmiş, hörmətli ağsaqqalları araya çəkmiş, qardaşı Cahangir Mirzəni, xilas etmək istəmişdi. Amma Cahangir Mirzə qardaşının bu istəklərini, son nəticədə az qala yalvarışlarını qulaqardına vurmuş, onun zəifliyi və gücsüzlüyü kimi başa düşmüşdü. O vaxt qardaşının bu münasibəti Uzun Həsənə bir həqiqəti anlatmışdı. Hakimiyyət ehtirası ilə həqiqət arasında dərin uçurum var. Hər kəs bu uçurumu asanlıqla keçə bilmir. Olsun ki, tamah nə vaxtsa qalib gələ bilər, həqiqəti ayaqlaya da bilər.

Bu düşüncələrdən sonra Uzun Həsənin dodaqları titrədi, üzündə kinayəli bir təbəssüm oynadı. Yaxında kimsə olsaydı, belə bir gərgin vaxtda onun nə üçün belə kinayəli gülümsəməyinin səbəbini soruşardı. Ola bilsin, heç Uzun Həsən belə bir sorğuya cavab da verə bilməzdi. Amma hökmdarın özünə məlum idi ki, Avropa ölkələrinin, eləcə də lap yaxınlıqdakı Osmanlı dövlətinin hərblə Ağqoyunlulara dov gələ bilmədiyi bir vaxtda, mərhum Sara Xatunun təbirincə desək, ağzından süd iyi gələn bir uşağın yersiz cəsarəti belə bir kinayəli təbəssümü necə doğurmaya bilər?

Artıq mənasız düşüncələrin, təəssüf dolu xəyalların zamanı deyildi. Uğurlu Məhəmməd Mirzə İsfahandan basa-basa gəlib Təbrizə çatmışdı. Ən pisi də bu idi ki, neçə gün əvvəl Uzun Həsənə demişdilər ki, Təbriz əhlinin içərisində çoxlu yad adamlar peyda olub, onlar tezliklə Uzun Həsənin taxtında Uğurlu Məhəmməd Mirzənin əyləşəcəyindən dəm vururlar. Onlar hər künc-bucağa soxulur, bazarda, məsciddə, əhalinin gur olduğu yerlərdə Uğurlu Məhəmməd Mirzənin hər kəsə nicat gətirəcəyi haqqında əfsanələr uydurur, təbliğatını yetərincə beyinlərə yeritməyə cəhd edirdilər.

Əlbəttə, əhali içində yara-səbatsız adamlar, hakimiyyətdən narazı olanlar, bir çox hallarda xəyanətkarlar bu təbliğata inanır, Uğurlu Məhəmməd Mirzənin Təbrizə girəcəyi təqdirdə ona hər cür yardım etməyə, gəlişini sevinclə qarşılamağa vədlər də verirdilər.

İndi Uzun Həsən buracan Uğurlu Məhəmməd Mirzənin əməllərini saymazlığa vursa da, daha bu işin çox ciddi bir şəkil aldığının fərqindəydi. O, qətiyyətlə ayağa durmalı idi. Məsələnin şitişoru çıxmışdı.

...Təbriz ətrafındakı Uğurlu Məhəmməd Mirzənin qərargahında ətrafına xeyli adam yığışmışdı. Onların arasında nisbətən yaşlı kimsələr, cavan döyüşçülər də az deyildi. Hiss olunurdu ki, bu adamların hamısı Uğurlu Məhəmməd Mirzənin özünə yaxın bildiyi, son anda güvənc yeri olan şəxslərdilər. Üstəlik də Uğurlu Məhəmməd Mirzənin Təbrizin lap astanasınacan gəlib çatmış olan qoşununa baxıb fərəh duyanlar az deyildi. Əlbəttə, onların hər biri cavan hakimiyyət iştahlısının qələbəsi sayəsində mənsəb alacaqlarını, var-dövlət sahibi olacaqlarını düşünürdülər. Axı Uğurlu Məhəmməd Mirzə hamıya elan eləmişdi ki, Uzun Həsənin, yəni atasının adamları əyaləti soyub-talayır, bütün var-dövləti Təbrizə cəmləyirlər. Vergi yığanlar Uzun Həsənin göstərişilə əhalidən ikiqat vergi tələb edirlər. Ona görə, biz onun hakimiyyətinə son qoymalı, hakimiyyəti Bayandurlar nəslinin daha cavan, ədalətli adamlarına qaytarmalıyıq. Tamahkarlar üçün bu şirnikdirici vədlər qılıncdan da kəskin idi.

Uğurlu Məhəmməd Mirzə üzünü özünə ən yaxın olan sərkərdə Şərbaf ağaya tutdu:

– Necə bilirsən, Uzun Həsən hakimiyyəti könüllü təhvil verərmi? Biz onun yanına adamlar göndərək, ya yox?!

Şərbaf ağa deyilən şəxs təcrübəli döyüşçü idi. Uğurlu Məhəmməd Mirzədən yaşca xeyli böyük idi. Əslində, Uğurlu Məhəmməd Mirzənin mərkəzi hakimiyyəti ələ keçirmək niyyətinə düşməsinin bir səbəbi də elə Şərbaf ağanın tamahgirliyi olmuşdu. Uğurlu Məhəmməd Mirzənin yanına qaçmamışdan əvvəl o, saray xəzinəsində mühafizlərin başçısı idi. Uzun müddət Ağqoyunlular sülaləsinin xəzinəsini göz-bəbəyi kimi qorumuşdu. Amma vaxt gəlib çatmışdı ki, tamah hər şeyi üstələmiş, vergi əvəzinə əhalidən

alınmış çoxlu sayda xalı-xalçanı, zinət əşyalarını mənimsəmiş və bu barədə kimsəyə bir sirr verməmişdi. Gizlincə də topladığı sərvətin xeyli hissəsini ayrı-ayrı əyalətlərə, etibar etdiyi adamların yanına göndərmiş, bir qismini də İsfahana – Uğurlu Məhəmməd Mirzəyə çatdırmışdı. Yalnız məsələ şişəndə, açılanda iş gəlib açılanda boğazının kəndirə keçəcəyini başa düşmüş və dabanına tüpürüb qaçmışdı.

İsfahanda Uğurlu Məhəmməd Mirzə onu hörmətlə qarşılamışdı. Döyüş şücaətlərindən xəbərdar olduğu üçün onu qoşununa başçı təyin etmişdi. Vəd vermişdi ki, atası Uzun Həsənlə sonuncu haqq-hesabı çürüdəndən sonra onu ordunun baş sərkərdəsi təyin edəcək.

Uğurlu Məhəmməd Mirzə üzünü Şərbaf ağaya tutub məsləhətini soruşanda, olub-keçənlərin hamısı Şərbaf ağanın xəyalında təzədən canlandı və birdən ona elə gəldi, Təbriz artıq onun ovcunun içindədir:

– Cavan hökmdara ağlının itiliyi qabağında məsləhət vermək mənə düşməz. Ancaq olub-keçənləri yada salıb bir məsələni aydınlaşdırmalıyam.

– Hansı məsələdir o, Şərbaf ağa? – Uğurlu Məhəmməd Mirzə qətiyyətlə soruşdu.

Şərbaf ağa özünü cəmləyib irəli yeridi. Demək olar, düz Uğurlu Məhəmməd Mirzəylə qabaq-qənşər dayandı. Deyəsən, udqundu da. Amma tez özünü ələ aldı:

– Bu, o məsələdir ki, bir vaxt sənin atan əminə qarşı belə bir addım atmışdı. Cahangir Mirzə razılaşmamışdı. Nəticədə Cahangir Mirzənin başına nələrin gəldiyini hamı yaxşı bilir.

– Bəlkə, bir qədər açıq danışasan, Şərbaf ağa, – Uğurlu Məhəmməd Mirzə sərtliklə sözünü ağzında qoydu.

– Açığı budur ki, o, heç bir barışığa razı olmayacaq. Hakimiyyəti də əldən vermək fikrində deyil. Aldadıcı fəndlər işlədə bilər. Vaxt qazanıb özünü cəmləyər, onda da bizə aman verməz.

Şərbaf ağanın bu sözləri Uğurlu Məhəmməd Mirzənin ağlına batdı. Dodaqaltı xeyli mızıldadı, yalnız axırıncı sözləri aydınca eşidildi:

– Bəli, elədir, heç mən də olsam, razılaşmaram.

– Onda hökmdar öz qərarını versin, – bunu Şərbaf ağa dedi.

– Təbrizə həmlə başlayanda sən mərkəzdə olacaqsan. Əsas qüvvələr də sənə tabe olacaq. Ən sadiq adamlardan bir dəstə ayırarsan, məni mühafizə eləyər. Çünki mən atamı yaxşı tanıyıram, o, köhnənin qurdudur. Hərbin hər cür elmini bilir, hiyləgərin də biridir. Hakimiyyət yolunda nəinki təkcə məni, o biri oğlanlarının hamısını da qılıncdan keçirər, heç «of» da deməz.

Şərbaf ağa bircə söz dedi: «Baş üstə, hökmdar».

…Elə həmin məqamda Təbrizdə Uzun Həsənin sarayında da belə bir məsləhət-məşvərət gedirdi. Orda da kimlərsə götür-qoy eləmək, Uğurlu Məhəmməd Mirzənin yanına adamlar göndərib yola gətirmək təklifi verirdilər. Ancaq Uzun Həsən artıq qardaşı Cahangir Mirzəylə cəng elədiyi zamanın Uzun Həsəni deyildi. O, yaxşı bilirdi ki, əgər Uğurlu Məhəmməd Mirzə Təbriz divarlarının dibinəcən gəlib çatıbsa, demək, ölümünü gözünün altına alıb. Və qalib gələcəyi təqdirdə də Ağqoyunluların mərkəzi hakimiyyətinin bütün sütunlarını yıxacaq, hər kəsi qılıncdan keçirəcək.

Uzun Həsənin dodaqları səyridi. Deyəsən, bir az rəngi də avazımışdı. Ancaq çətinliklə olsa da, hökmünü verməli oldu:

– Müqavimət göstərənlərlə axıracan vuruşun! Aman istəyəni öldürməyin! Uğurlu Məhəmməd Mirzə isə Təbriz camaatı qarşısında mühakimə olunacaq!

Hökm aydın idi. Daha kimsə bir söz deyə bilməzdi.

* * *

Göydəki buludlar sıxlaşmış, ağı qarasına qarışmış, tez-tez səmtini dəyişən küləklərin qabağında göy üzündəcə pələsəng olmuşdu. Hərdən dağılır, hərdənbir də ayrılıb bir-birinin üstünə şığı-

yırmış kimi qəzəblə toqquşmağa tələsirdilər. Təbriz belə buludlu havaları çox görmüşdü. Deyəsən, bu dəfəki tutqunluq əvvəlkilərə bənzəmirdi.

…Həsən padşah öz otağına çəkilmiş, mühafizlərinə tapşırmışdı ki, kimsəni yanına buraxmasın. Vəziyyətin belə şəkil alacağını Uzun Həsən qabaqcadan bilməsə də, təəccüb də eləmirdi. Çünki nəsillərin əvəzlənməsi siyasət meydanına təzə qüvvələr gətirməkdəydi. Bu qüvvələr də hər biri özünə görə iddia, istək xülyasında idi. Uzun Həsən bir hökmdar kimi çox bərkdən-boşdan çıxmışdı. Hələ dimdiyinin ucundan sarısı təzəcə getmiş quş kimi qanad çalan Uğurlu Məhəmməd isə səmanın genişliyindən xəbərsiz idi. O bilmirdi ki, göyə qalxan quş hansı yüksəkliyəcən qanad çırpar, haradan, hansı yüksəklikdən ovunun üstünə necə şığıya bilər? Hələ onu da bilmirdi ki, ovu caynağına götürə biləcək, ya yox? Uğurlu Məhəmməd Mirzə hələ uşaqlığından qardaşları ilə ünsiyyət saxlamır, onlardan kənar gəzib-dolanırdı. Uşaqlıqdan qardaşlarına, xüsusilə də, Zeynal Mirzəylə Xəlil Mirzəyə daxilində kin-küdurət yığaraq böyüyürdü. Bağdad, İsfahan, eləcə də, Ağqoyunluların digər bölgələrinə təyinat almış qardaşlar arasında elə bir mehribanlıq yox idi. Xüsusilə də, Uğurlu Məhəmməd Mirzə sarayda qalmış, atasının xidmətində olan Zeynal Mirzəni görəndə yanıb-yaxılmışdı. Gələcəkdə Bayandurlar nəslinin gözü kimi qoruduğu Ağqoyunlular dövlətinə hökmdar ola biləcək Zeynal Mirzənin adı onun yanında çəkildikcə cin atına minirdi.

Uğurlu Məhəmməd Mirzənin qüvvə toplayıb Təbrizə hücum çəkməyə vadar edən hiss elə qardaşlarına olan paxıllıqla bağlı idi. Bir sözlə, o, ciddi-cəhdlə Uzun Həsənin digər xatunu Səlcuqşah Bəyimdən doğulan oğlu Xəlil Mirzənin hakimiyyətə gedən yolunun qarşısına elə indidən sipər çəkmək istəyirdi. O, gecə-gündüz Allaha dua eləyirdi ki, bu Təbriz yürüşündə qələbə çalsın. Elə ilk qarşılaşmada Xəlil Mirzəni yerlə-yeksan eləsin, başını bədənindən ayırsın, atasını da ömürlük saray dustağına çevirsin.

Uzun Həsən çıxılmaz vəziyyətdə qalmışdı, bir yandan Osmanlıların Bayanduriyyəni ələ keçirmək üçün fürsət gözləməsi, digər tərəfdən doğmaca qanından olan xələfinin nankorluğu onu ağır düşüncələr içində əzir, axırına çıxırdı. Bir sözlə, XV əsrin əriyən sonuncu qərinəsi həm yer-göy arasında, həm də insanların düşüncəsində belə bir qatı duman çəkmisdi. Cavan olmasına baxmayaraq, Uğurlu Məhəmməd Mirzə az aşın duzu deyildi. O da atasının qüvvələrini yaxşıca hesablamış, bu döyüşün nə qədər ağır olacağını ölçüb-biçmişdi. Bir sözlə, dünyanın ən qədim şəhərlərindən biri övlad naxələfliyi üzündən qan gölünə çevrilə bilərdi.

Və bunu Təbriz əhli də bilirdi. Əhalinin dinc, orduya dəxli olmayan təbəqəsi də çaş-baş qalmışdı. Bu qarışıqlıqda Uğurlu Məhəmməd Mirzənin şəhərdə yaydığı şayiələrin də təsiri az olmamışdı. Axı elə saray əyanları Uzun Həsənin şaxələnmiş nəsli-nəcabəti arasında da Məhəmmədə həmişə rəğbət bəslənilmişdi. Anadan olanda adı Məhəmməd qoyulmuş, üləmalar yanında yaxşı təhsil almış, elmdə-təhsildə fərqlənmiş, bu səbəbdən mirzə ləqəbini qazanmışdı. Doğulandan sonra onun arxasınca Uzun Həsənin bir neçə övladı – çoxu da oğlan uşağı olmuşdu. Elə Uğurlu adını da ona nənəsi Sara Xatun vermiş, çünki ayağını uğurlu bilmişdi. Onun arxasınca Bayandurlar nəslini yaşadacaq neçə oğul övladı dünyaya gəlmişdi. Bu oğulların hər biri gələcəkdə Ağqoyunlular səltənətinin bir sarsılmaz sütunu olacaqdı. Dədə-babadan bir misal var, deyərlər ki; sən saydığını say, gör fələk nə sayır? Fələk isə tamam başqa mətləblərdən xəbər verirdi. Uzun Həsəni də sonsuz kədərə bələyən fələyin bu namərdliyi idi. Axı o oğlunu İsfahana ona görə vali qoymamışdı ki, güclənən kimi atasına qarşı çıxsın? Uzun Həsən Cahanşah və Əbu Səid üzərindəki qələbələrdən sonra orda-burda baş qaldırıb mərkəzi hakimiyyətə qarşı çıxan əmirlərin müqavimətini qırmaqla məşğul olarkən oğlunun ona arxadan zərbə vura biləcəyini ağlına gətirməmişdi.

Təbrizi ələ keçirmək üçün fürsət gözləyən Uğurlu Məhəmməd Mirzə istəyirdi ki, atası qoşunla onun qabağına çıxsın. Qabaqcadan Ağqoyunlu qoşunundakı bir çox dəstəbaşılarla onun adamlarının razılaşması olmuşdu. Döyüşün qızğın yerində onlar qılıncı yerə qoyacaq, Uğurlu Məhəmməd Mirzə tərəfə keçəcəkdi. Bu plan əgər baş tutardısa, Uğurlu Məhəmməd Mirzə çox itki vermədən, Təbrizin dinc əhalisinə qılınc qaldırmadan məqsədinə çatacaqdı. Burada da Uğurlu Məhəmməd Mirzə fələyin saydığını nəzərə almamışdı. O, bilmirdi ki, Uzun Həsənin qoşunundakı guya razılığa gəlmiş dəstəbaşılar hökmdarı məxfi məsələdən hali ediblər. Uzun Həsən də həmin sərkərləri, sərkərdələri öz yerində saxlamaqla, Uğurlu Məhəmməd Mirzənin önünə göndərəcək, sonra əsas qüvvələri olan süvarilərlə Uğurlu Məhəmməd Mirzənin üstünə hücuma keçəcəkdi. Şeypurlar guruldadı, davullar vuruldu. Şirazda qanlı qarşılaşma baş tutdu. Hələ də Uğurlu Məhəmməd Mirzə inanırdı ki, qoşun yaxınlaşan kimi əsas dəstələr qılınclarını endirib ona təslim olacaq. Məsafə o qədər qısaldı ki, artıq adamlar bir-birini aydın görməyə başladı. Uğurlu Məhəmməd Mirzənin gözləri tanış üzlər axtarırdı. Amma o bu sifətləri görə bilmirdi. Çünki Uzun Həsən son anda ehtiyatı əldən verməmiş, ayrı-ayrı dəstələrin başçılarının yerini dəyişmişdi. Uğurlu Məhəmməd Mirzənin tanıdığı dəstəbaşıları qoşunun önündə gözə dəymirdi. Qoşun onun ordugahını demək olar, əhatələməyə başlamışdı. Verilən vədlərdən ümidini üzən Uğurlu Məhəmməd Mirzə qabağa çıxıb qılıncını çəkdi, atın üstündə «Ya Allah» – deyib irəliyə şığıdı. Bir-birinə doğma adamlarının bir-birilə qarşılaşmasından tökülən qanların şahidi oldu. «Qələbə bizim tərəfimizdədir. Uzun Həsənə də, onun yolunda döyüşənlərə də ölüm!» sözləri Uğurlu Məhəmmədin ağzından çıxar-çıxmaz qoşunun arxasından gurultulu səslər qopdu. Hər yandan yel kimi şığıyan süvarilər haradan çıxmışdı, haradan gəlmişdi, bunu Uğurlu Məhəmməd Mirzə bilmədi. Bir anlığa çaşıb qaldı. Bunlar hansı qüvvələr idi, özünün-

mü adamları idi? Birinci ağlına gələn bu oldu ki, gələn qüvvələr Uzun Həsəndən üz döndərib onun tərəfinə keçənlər olacaq. Ancaq gördü ki, yox, süvarilər onun qoşununu qılınc və nizə zərbələrinə hədəf eləyib, süvarilərdən daha çevik olan dəstə düz onun üstünə yeriyirdi. O, qardaşı Maqsud Mirzəni dəstənin önündə gördü. İndi hər şey aydın olmuşdu. Başa düşmüşdü ki, atasını belə asanlıqla məğlub etmək heç də mümkün deyilmiş. Şərbaf ağa yaxınlığında idi. Qalan dəstələri pərən-pərən düşmüşdü. Ancaq ətrafında cəmləşən qüvvələr döyüşçülərlə çarpışır, onları Uğurlu Məhəmməd Mirzənin yaxınlığına buraxmaq istəmirdilər. Məsafə o qədər azaldı ki, Uğurlu Məhəmməd Mirzəni hər hansı bir döyüşçü bir nizə zərbəsilə də yıxa bilərdi. Döyüşün başlanmasından çox az keçmiş Uzun Həsən başa düşdü ki, Uğurlu Məhəmməd Mirzə iddialarına rəğmən o qədər də güclü sərkərdə deyil. Müdafiəni yaxşı təşkil edə bilmir. Ancaq hücuma üstünlük verir. Bu hücum nə qədər çəkər, ayrı-ayrı cinahlardan – boş qalan yönlərdə rəqibin necə hücuma keçə biləcəyini unudursa, onun qələbəsinə demək olar, ümid az olar, bəlkə heç olmaz. Uzun Həsən qoşunun qabağında getsə də, döyüşə girməyi özünə ar bildi.  Ancaq ordunun açdığı yolla öz atının üstündə irəliləyirdi. Onu tamam özgə fikir götürmüşdü. Oğlu ilə qarşılaşanda, nə deyəcək. Oğlunun ölüm qorxusu altında atasına zillənən baxışlarına necə baxacaq? Bütün bunlar Uzun Həsənin qəlbini didirdi. O, artıq əmin idi ki, tezliklə Uğurlu Məhəmməd Mirzə qolları arxada bağlanmış bir vəziyyətdə, onun hüzuruna gətiriləcək. Baxmayaraq ki, Uğurlu Məhəmməd Mirzə onun ciyərparası idi, demək, həm də Təbrizin gələcəyidi. Ona da, Təbrizə əziz olan bir adamın Təbriz meydanında mühakimə olunması paytaxta və atasına xain çıxmış bir oğul kimi ölümlə cəzalandırılması… bütün bunlar ağır idi. O, haqq-ədalət naminə xəyanətkara layiq olduğu cəzanı mütləq almalı idi. Amma oğula bu cəzanı vermək bir ata üçün də çox çətin idi. Elə bu səbəbdən də Uzun Həsən Allaha yalvarırdı. Elə olaydı ki,

Uğurlu Məhəmməd Mirzə döyüş meydanında həlak olaydı. Lap elə qaçıb canını qurtaraydı, təki onunla qarşı-qarşıya gəlməyəydi, onunla göz-gözə durmayaydı. Axı Uğurlu Məhəmməd Mirzənin ölümü, əsir düşməsi Bayandurlar nəslinin hamısının faciəsi olacaqdı. Bunu da Uzun Həsən xəyalında dolandırır, onu mühafizə edən qüvvələrin müşayiətilə mərkəzi meydana tərəf irəliləyirdi. O meydana ki, orada birazdan oğlunu ya qolubağlı, ya da qanına qəltan görəcəkdi.

Uğurlu Məhəmməd Mirzə Şərbaf ağa və bir neçə nəfərlə meydanın ortasında idi. O, bir neçə dəfə istədi ki, mühasirəni yarıb bir tərəfə çıxsın, mümkün olmadı. Bunu ona yaxınlaşan Maqsud Mirzə də hiss edirdi. Maqsud Mirzə süvarilərinin yönünü dəyişdi. Uğurlu Məhəmməd Mirzənin arxa tərəfinə çəkildi. Bu da Uğurlu Məhəmməd Mirzənin nəzərindən qaçmadı. İndi onun qarşısında iki yol vardı: döyüşüb əsir düşmək, ya da qaçıb canını qurtarmaq.

İlk dəfə idi ki, Uğurlu Məhəmməd Mirzə döyüşdə qəribə hadisələrin şahidi olurdu. Uzun Həsənin qüvvələri əl qaldırıb – aman istəyəni öldürmədiklərinə görə, onun qoşunları bu mənzərəni gördüyündən silahlarını yerə tökür, əllərini yuxarı qaldırır, aman diləyirdilər. Uğurlu Məhəmməd Mirzə başa düşdü ki, qardaşı Maqsud Mirzə ona qaçıb canını qurtarmaq imkanı yaratdı. Bu, artıq onun son ümidi, canının sağ qalması üçün axırıncı şansı idi.

Elə bil tarix təkrar olurdu… Hər şey olduğu kimi qalmışdı. Necə var elə… Yenə də eyni qanı daşıyan doğmaların dişləri qana susamışdı. Hakimiyyət hərisliyi yenə də nəsil bağlarını qırıb-çatmaqda, qardaşı qardaş üstə idi. Ölən də, öldürən də eyni qan daşıyıcıları…

Təkcə adlar dəyişmişdi. Cahangir Mirzənin dayandığı səmtdən indi Uğurlu Məhəmməd Mirzə qılıncını sıyırmışdı. O zaman da belə olmuşdu; Sara Xatun da, Uzun Həsən də nə qədər böyük babal daşısa da canlarının bir parçası olan Cahangir Mirzəyə qıymamışdılar. Həlledici savaş meydanında aradan qaç-

maq üçün fürsət vermişdilər ona. Doğmalıq, qardaşlıq hissi o zaman da önə çıxmışdı… İndi savaşın bu həlledici məqamında elə bil mühafizlərinin əhatəsində təşvişlə meydana dikilən gözlər heç Uğurlu Məhəmmədin gözləri deyil, eynən əmisi Cahangir Mirzənin gözləriydi. Uğurlu Məhəmməd ətrafında baş verənlərə onun nəzərləri ilə baxırdı. Baxıb görürdü ki, hansısa gözəgörünməz bir qüvvə onun qaçıb canını qurtarması üçün nicat yolu açır. Ona aman verir. Ölümü ondan uzaqlaşdırır. Elə bil keçilməz dərya bir göz qırpımında iki bölünüb nicat yolunu nişan verirdi. Ya elə aləmi qaranlığa qərq etmiş kor duman qatı birdənbirə para-parça olub onun yolunu açırdı. Vaxtilə Uzun Həsən ona qarşı qiyam qaldıran qardaşı Cahangir Mirzənin də qurtuluş yolunu belə açmışdı. Əfv etmişdi onu. İndi də bu iltifatı doğmaca oğlu, ciyərparası Uğurlu Məhəmmədə əta olunmuşdu. Uğurlu Məhəmməd amanda idi. Onu da əmisi Cahangir Mirzənin aqibəti gözləyirdi.

Uzun Həsən meydanın ortasına – Uğurlu Məhəmməd Mirzənin döyüşdüyü yerə çatanda meydan bomboş idi. Uğurlu Məhəmməd Mirzədən qalan adamlar çəkilib bir tərəfdə dayanmışdılar. Onların yaraq-yasağı toplanmışdı, bir az əvvəl döyüş meydanın ortasında qılınclar, nizələr, qalxanlar üst-üstə qalaqlanmışdı. Uğurlu Məhəmməd Mirzə yox idi. Onun bayrağı Maqsud Mirzənin mühafizi tərəfindən başıaşağı sallanmışdı. Əvvəlcə onu ayaqlamaq istəmişdilər, Maqsud Mirzə buna imkan verməmişdi.

Bu arada Təbriz üstündə qarşı-qarşıya durmuş buludlar toqquşdu, göy guruldadı, müxtəlif tərəflərdə şimşəklər oynadı. Bir ağ yağış başladı. Təbriz hasarlarının çölündə həlak olmuş, yaralanmış insanların göl-göl olmuş qanı yağış suları ilə yuyuldu, qırmızıya çalan selləmə sular gölməçələrdən axıb arxlara doldu. Birazdan meydan elə yuyulmuşdu ki, sanki burada heç döyüş olmamış, oğul ataya qarşı çıxmamış və insan qanı axıdılmamışdı…

Uğurlu Məhəmməd Mirzə döyüş meydanından qaçandan sonra bir neçə qapıya pənah aparmağa cəhd eləsə də, alınmamışdı. Son istinadgahı isə Otluqbeli döyüşündə Ağqoyunluları məğlub edən II Sultan Mehmedin qapısı idi… Gözlənilənin əksinə, bu qapı onun üzünə taybatay açıldı. Ağqoyunlu imperiyasına qarşı növbəti müharibəyə hazırlaşan Sultan Mehmed üçün Uğurlu Məhəmmədin ona pənah gətirməsi taleyin bəxşişi kimi bir hadisə idi. Buna görə Sultan Mehmed bu bəxşişin «haqqını» lazımınca vermək qərarına gəldi. Qızı Gövhərxan Sultanı Uğurlu Məhəmmədə ərə verən Osmanlı sultanı bununla da gələcəkdə Uzun Həsənin ölümündən sonra sülalə qohumluğu vasitəsilə Azərbaycan taxtını ələ keçirmək niyyətindəydi… Qızını Uğurlu Məhəmməd Mirzəyə verməklə də, uzaq keçmişlə bağlı niyyətlərinin əsaslı bünövrəsini qoymaq istəyirdi. Çünki gələcəkdə Uğurlu Məhəmməd Mirzəyə elə bir yol açsın ki, bu səmtlə o, Ağqoyunlular taxtına sahiblənmək istəyini başa çatdırsın. Və onun vasitəsilə Ağqoyunluları özünün nəzarəti altına alsın. Bir sözlə, Ağqoyunlular dövləti siyasi, hərbi, iqtisadi baxımdan ikinci dərəcəli bir siyasi mərkəz olmaqdan o tərəfə keçməsin. Əgər tarixin bir az da irəli tərəfinə addımlamalı olsaq, baxarıq ki, Sultan II Mehmed xeyli uzaqgörən imiş, bu düşüncələrinin də kifayət qədər əsası varmış. Həmin uzaq gələcəkdə Sultan II Mehmedin qızı ilə Uğurlu Məhəmməd Mirzənin izdivacından dünyaya gələn, boyca balaca olsa da, iddiaları boyunu aşan Gödək Əhməd adlı nəvəsi Ağqoyunlu taxtınacan gəlib çıxmışdı. Ancaq o zamana hələ xeyli vardı…

* * *

Zaman XV əsrin ikinci yarısını asta-asta əridib bitirməkdəydi… Artıq Ağqoyunlular dövlətinin kifayət qədər güclü olduğunu Osmanlı hökmdarı II Mehmed də yaxşı bilirdi. Roma Papası ilə apardığı danışıqlarda, göndərdiyi məktublarda, aldığı cavablarda Uzun Həsənin gələcəkdə nəinki Osmanlılara, eləcə də, bütün

Avropaya təhlükə olduğu vurğulanırdı. İş burasında idi ki, belə bir yazışma və gizli get-gəllər Avropa ilə Uzun Həsən arasında da davam edirdi. Onlar Uzun Həsəni gizli xəfiyyələri ilə Osmanlılara qarşı nifrətə, qəzəbə sövq edir, aradakı münasibəti qızışdırırdılar. Şərqi Anadolu əraziləri tarixən həm mənəvi, həm iqtisadi baxımdan Azərbaycana nə qədər yaxın olsa da, Osmanlı hökmdarları bunu qətiyyən qəbul etmək istəmirdilər. Həmçinin Osmanlı hakimlərinin diqqətində belə bir əsas məsələ dayanırdı ki, əgər Ağqoyunlular Anadoluya nəzarəti bütövlükdə ələ keçirsələr, Osmanlı ərazilərini daim təhlükə altında saxlayacaqdılar. Əslində Ağqoyunluların Osmanlılar ərazisinə heç bir iddiaları yox idi. Sadəcə, məsələni bu yerə Avropanın siyasi dairələrinin aramsız təbliğatı və qızışdırıcı münasibətləri gətirib çıxarmışdı.

Sultan II Mehmedə məlum idi ki, Ağqoyunlu hökmdarının ölkədə əsas dayağı Ərdəbil şeyxlərinin ətrafında toplanan qüvvələrdir. Hələ ki, o, heç bir vasitəylə bu əqidəli insanları Ağqoyunlular sülaləsinin üstünə qaldıra bilmirdi. O, bilirdi ki, nə qədər Ağqoyunlular sülaləsinə əqidə və məsləklə inanırlar, demək, bu sülalə öz sütunlarının gücünü, qüdrətini axıracan qoruya biləcək. Ancaq başqa bir yol da var idi; bu da sülalənin özünə məxsus olan adamların mənəvi mühitinə yol tapmaq, onların hakimiyyət iştahlarından bəhrələnmək. Bu məsələ Sultan II Mehmed üçün Uzun Həsəni zəiflətmək yolunda əsas amilə çevrilə bilərdi.

Bütün zamanlarda hakimiyyətə müxalif olan, hakimiyyətdən narazı olan qüvvələr var. Özünü ön plana çıxarmayan, üçüncü qüvvələr də var ki, onlar narazıların gücündən həmişə faydalanmağa çalışıblar. Elə bu səbəbdən, Sultan II Mehmed Uzun Həsəndən narazı olanlara həvəslə qucaq açır, qayğı göstərir, ərazi səlahiyyəti verir, qohumluq əlaqəsi qururdu… Beləliklə, Uzun Həsəni qüvvədən salmaq üçün onları Ağqoyunlular üzərinə yönəldirdi. Sultan II Mehmed bilirdi, həmin narazılarla Ağqoyunluları məğlub etmək, nəticədə onların taxtlarını başlarına uçurmaq müm-

kün deyildi, amma siyasi düşüncədən kasad olan, iddialı olsalar da, təcrübəsiz cavanlar Sultan II Mehmedin hiylə tələsinə asanlıqla düşürdülər.

* * *

…Uzun Həsən səhəri dirigözlü açdı. Bütün gecəni fikir içində çabalamış, taleyinin yaşanmış və artıq ötmüş ömrə çevrilmiş günlərini birər-birər yaddaşında çək-çevir eləmişdi. Harada, nə günah işlətmiş, kimin haqqını tapdalamış, hansı xeyirxahlığın qabağını kəsib, şərə rəvac vermişdi? Ağlına elə bir tutarlı hadisə gəlmirdi ki, özünə təqsirli, suçlu bilə, deyə ki, bax, bu əməlimə görə Allahın qəzəbinə gəlmişəm. Bəs yox yerdən bu hadisələr niyə, haradan törənirdi? Allahın nəyə görə ona rəhmi gəlmirdi ki, övladlarını üzünə ağ eləyirdi? Uğurlu Məhəmməd Mirzənin xəyanətinin ağrısı hələ də canından çıxmamışdı. Axı ona nə vacib olmuşdu ki, yenidən qoşun çəkib atasının üstünə gəlirdi? Əgər Təbriz əhli bilsəydi ki, vaxtilə döyüş meydanından qaçıb Sultan II Mehmedin sarayına sığınan Uğurlu Məhəmməd Mirzənin o qanlı savaşdan sağ-salamat qurtulması əslində atasının da, qardaşı Maqsud Mirzənin da istəyi ilə baş vermişdi, onda Həsən padşahın bir hökmdar kimi xalq arasında nə nüfuzu olardı? Axı şah gərək ölkə üçün, səltənət üçün rəiyyətlə şahzadə arasında fərq görməsin, axı xəyanət xəyanətdi. Bəs Uzun Həsən neylədi? Maqsud Mirzənin təkidilə Uğurlu Məhəmməd Mirzə ilə qarşılaşmasına imkan verdi. Sevimli oğlu Maqsud isə döyüş meydanında qardaşını əsir götürmək əvəzinə onun aradan çıxmasına şərait yaratdı. Uzun Həsən təcrübəli hərbçi, və meydangir olduğundan, döyüş meydanını izlədiyindən açıq-aşkar başa düşmüşdü ki, Uğurlu Məhəmməd Mirzə Maqsud Mirzənin sayəsində meydandan sağ-salamat çıxıb.

Əslində, Həsən padşahın özü də meydanda gördüklərinə bir növ gözünü yummuşdu. Axı o, Məhəmməd Mirzəni təqib etmək

üçün süvariləri göndərə bilərdi. Amma bunu etməmişdi, bacarmamışdı. Həmin günün səhəri oğlu Maqsud Mirzəylə söhbətində, ata da, oğul da baş verən olayla bağlı bir-birinin gözünün içinə dik baxa bilmirdilər.

– Maqsud Mirzə, qardaşın Uğurlu Məhəmməd Mirzənin xəyanətkar olduğunu, bizə qarşı döyüşdüyünü unutdunmu?

– Xeyr, hökmdarım, unutmadım, – Maqsud Mirzə atasının sərt müraciətinə müti bir təbəə kimi cavab verdi. Sanki bununla da etiraf edirdi ki, əgər söhbət hakimiyyətdən gedirsə, onda bu söhbət ata-oğul söhbəti yox, hökmdar və təbəə söhbətidir.

– Bəs bilmədinmi, xəyanətkar gərək öz cəzasını xalqın qarşısında alsın? Yoxsa, xalq bizim haqqımızda nə düşünər?

– Bilirəm, hökmdarım, – Maqsud Mirzə yenə həmin qayda ilə dilləndi.

– Bəlkə, elə bilə-bilə xəyanətkarın aradan çıxmasına özün kömək elədin?

Maqsud Mirzə irəli yeridi, qılıncını çıxarıb əlinin üstündə tutdu:

– Ata, mənim boynum bu qılıncın qabağındadır, hansı cəzanı istəyirsən verə bilərsən.

Həsən padşahın gözləri doldu, ancaq bunu oğluna bildirmək, göstərmək istəmədi. Ona görə gözünü elə bərk sıxdı ki, yaş qurudu. Bir an danışmadı. Gözlədi ki, kövrəkliyindən tutula biləcəyi səsi əvvəlki ahənginə qayıtsın. Axır ki, başını qaldırıb oğluna tərəf baxdı.

– Sən deməsəydin də mən bunu bilirdim.

Həmin anda Maqsud Mirzə də xəyalından keçirirdi: «Bilirəm, sənin hər şeyi bildiyini… və onu da bilirəm ki, sən də bilə-bilə süvari dəstələrini kiçik bir bölmə ilə qaçmaqda olan Uğurlu Məhəmməd Mirzənin təqibinə göndərmədin». Elə həmin andaca Həsən şah da bunu vərəvurd edirdi: «Mən oğlumu necə ittiham edirəmsə, o da mənim üzümə eyni günahı deyə bilər. Mənim səhvimi hökmdar düzəldə bilərdi, o niyə düzəltmədi?» Elə bu sə-

bəbdən də hər iki tərəf, əslində, söhbəti dərinləşdirmək istəmirdi, ancaq bir hökmdar kimi Həsən padşah bilmək istəyirdi ki, bu əməli Maqsud Mirzə öz ağlı ilə törədib, ya bu düşüncənin arxasında başqa bir kimsənin əməli var? Ancaq bunu oğlundan soruşmağa ehtiyatlandı.

…Səhər açılacaq və o, Uğurlu Məhəmmədlə yenidən düşmən kimi qarşılaşacaq. Otağında tək oturub fikrə gedən Uzun Həsən qəfildən bağırdı:

– Yox!!!

Səs sarayın divarları arasında əks-səda verdi. Və özünə qayıtmış səsinə elə özü də cavab verdi: – Yox, onların istədikləri baş tutmayacaq və bu dəfə Uğurlu Məhəmməd özünün haqlı cəzasını bu savaşda almalı olacaq. Beləcə, Uzun Həsən öz sarayının divarları arasında oğlunun ölüm hökmünü verdi…

* * *

Avropa ölkələrinin mənəvi mərkəzi Vatikan illər boyu apardığı siyasətin bəhrəsini görməyə tələsirdi. Tarixin hələ aşağı qatlarında qalmış hadisələrin Vatikanda nəticələri çözülür, Qərbin Şərqə doğru yolunun üstündə qərar tutmuş nəhəng Osmanlı dövlətinin necə çökdürülməsi planları tez-tez dəyişsə də, məqsəd sabit olaraq qalırdı. Qərbin Şərq üzərindəki hegemonluğunun əbədi təmin olunması üçün təkcə Osmanlı dövlətinin məhvi yox, daha sürətlə parlamaqda olan Ağqoyunlu dövlətinin də sıradan çıxması ən vacib məsələlərdən biri kimi Avropanın gündəmindəydi. Papanın iç üzü açılmışdı. Çünki ona təzəcə xəbər çatmışdı ki, Osmanlılar Uzun Həsənlə oğlu arasında barışmaz bir nifaq salmış, övladı atanın üstünə qaldırmışdılar. Bu da Papanın maraqlarını xüsusilə təmin eləyirdi. Ona görə ki, Uzun Həsənlə II Mehmedin qarşılaşmasının baiskarı kimi guya Uzun Həsənin oğlanlarına qarşı qəddarlığı səbəb kimi görünürdü. Əslində II Mehmed də yaxşı bilirdi ki, Papa onun üçün yaxşı heç nə vəd eləmir, öz planları-

nın həyata keçirilməsi xətirinə onun məktublarına həvəslə cavab verirdi. Və Papadan bunun müqabilində lazım olan kömək və yardımları ala bilirdi. Həmin yardımlar odlu silah yarada bilən mütəxəssislərdən ibarət idi. Papanın təşkilatçılığı ilə göndərilən odlu silah ustaları II Mehmedin məmləkətində emalatxanalar yaradır, odlu silah istehsalına rəvac verirdilər. Silahlar bir-bir sınaqdan keçirildikcə Sultan Mehmedin gözləri işıqlandı. Hər bir sınaqdan çıxarılmış, topdan atılan mərminin yaratdığı cəhənnəm tüstüsünə və yanğına II Mehmed qələbə əlaməti kimi baxırdı. Düşünürdü ki, belə bir cəhənnəmi o, tezliklə Uzun Həsənin ordularının başı üstündə yarada biləcək. Deməк, əslində, üçbucağın iki tərəfi Osmanlılarla savaşmaq gücündə olan Ağqoyunluların məğlubiyyət gününü labüdləşdirirdi.

II Mehmed Uğurlu Məhəmmədə xeyir-dua verib onu atasının üzərinə göndərərkən, qələbənin necə yaxında olduğunu qərarlaşdırmış və bu münasibətlə ən hörmətli sərkərdələrini – Ömər bəyi, Əhməd Çələbini, Hacı bəyi sarayın ziyafət otağına çağırmışdı. Saray rəqqasələri, müğənnilər, hələ sultanın kefini açmaq üçün təlxəklər də bir tərəfdə hazır dayanmışdılar. Görünür, sultan əvvəlcə bəzi mətləbləri araşdırmaq istəyir və bundan sonra ziyafətin başlanması haqqında göstəriş verəcəyini düşünürdü.

Sultan üzünü Əhməd Çələbiyə tutdu:

– Uğurlu Məhəmmədin Uzun Həsən üzərindəki qələbəsindən sonra bizim görəcəyimiz işlər indidən məlum olmalıdır. Qoy bizim Əhməd Çələbi fikrini bildirsin.

Əhməd Çələbi ayağa qalxdı, bir-iki addım sultana tərəf atıb, təzim elədi. Sonra asta-asta sözünə başladı:

– Hamımıza məlumdur ki, Uzun Həsənin sarayında get-gedə əsas söz sahibi Ərdəbil ocağından gələnlərdir. Düşünürəm ki, biz birinci növbədə Ərdəbildə kök salmış, bu qatı şiə ocağını birinci növbədə söndürməli, külünü göyə sovurmalıyıq. Qoy bundan sonra bu ocaq bir də heç vaxt alovlanmasın.

Sultan razılıqla başını tərpətdi. Onun düşüncəsinə görə Əhməd Çələbi məsələni lap kökündən düz buyururdu, çünki Şeyx Heydərin ətrafında olanların təbliğatı artıq Anadolunu da aşmaqda və birbaşa sultan sarayının özünə doğru yeriməkdə idi. Hələ sultanın belə bir şübhəsi də var idi ki, divanda onun ətrafında olanların bir çoxu Ərdəbil tərəfdən gizli gələn qızılbaş düşüncəli adamların təbliğatına uyub. Onları araşdırıb üzə çıxarmaq çətin olsa da, bu şiə məzhəbinə məxsus adamların qabağını kəsmək vacib idi. Ona görə də Əhməd Çələbinin sözlərini təqdir edirdi.

Sultan digər Osmanlı sərkərdələrinin diqqətini Əhməd Çələbinin dediklərinə cəlb etmək üçün dedi:

– Düşünürəm ki, Əhməd Çələbi düz buyurur. Bunun üçün əlavə qüvvələri də Uğurlu Məhəmmədin qələbəsindən sonra Əhməd Çələbinin başçılığı ilə Ağqoyunlu ərazilərinə göndərərik. Qoy onlar orada əhalini zəhərlənmiş düşüncə sahiblərindən təmizləsinlər. Əslində, bu qənaət Ağqoyunlu ərazilərində əgər Uğurlu Məhəmməd qələbə çalacaqdısa, ondan sonra daha böyük qırğınlara səbəb olmaq demək idi.

Əhməd Çələbi başa düşdü ki, sultan bu göstərişilə əslində, Ağqoyunlu ərazilərində ən azı qatı şiəliyin yayıldığı yerlərdə əsas ixtiyaratı ona verir. Lap Uğurlu Məhəmməd qalib gəlib hakimiyyət sahibi olsa da, o, bir oyuncaq şah olacaqdı. Bu da Əhməd Çələbini daha bərk sevindirirdi. Çünki sultanın gözündən, nəzərindən uzaq Azərbaycan ərazilərində öz hakimiyyətini quracaqdı. Və bunu da özünün qanuni haqqı hesab eləyirdi. İllər boyu sultana xidmət eləmiş adlı-sanlı sərkərdə kimi bu torpaqların ona verilən halal pay olduğunu düşünürdü. Əhməd Çələbi sultanın göstərişindən necə məmnun olduğunu yanındakı sərkərdələrindən gizlətmək istəsə də, hər halda məmnunluğunu da bildirməli idi:

– Hörmətli sultanın etimadını özümə çox böyük hörmət bilirəm. Onun etibarını doğrultmaq nə qədər çətin olsa da, bunu

bacaracağıma inanıram. Lap bu istiqamətdə başımı verməli olsam da, sultanın yolunda ölümü şərəf bilərəm.

Sultan razılıqla başını tərpətdi və ona əyləşməyə icazə verdi. Əhməd Çələbi asta-asta geri çəkildi, bir daha təzim edib yerində əyləşdi.

– Bəs sərkərdə nə düşünür? – Sultan üzünü Ömər bəyə çevirdi.

Ömər bəy qısqıvraq adamdı. Əhməd Çələbiylə müqayisədə xeyli cavan nəzərə çarpırdı. Ötkəmliyi, sözünü açıq qəti bildirməkliyilə saray adamlarından fərqlənirdi. Ən ağır döyüşlərdə asanlıqla qələbə çalmağı bacardığı kimi, sultanın özü ilə də cəsarətlə danışmağı ona sarayda məxsusi nüfuz qazandırmışdı. O, Azərbaycanın Əhməd Çələbiyə verilməsindən daxili bir narazılıq hissi keçirsə də, bunu büruzə vermədi. Şəstlə ayağa qalxıb, yüngülcə təzim elədi və dedi:

– Bir Allah şahiddir ki, mənim qılıncım sultanın yolunda heç vaxt qınına girməyəcək. Sultan hökmünü nədə göstərsə, mənim qılıncım bu hökmün yerinə yetirilməsinə doğru gedəcək. Ancaq unutmaq olmaz ki, Ağqoyunlu ərazisi çox böyükdür. Uzun Həsənin gücü də heç bizim düşündüyümüz qədər asan yeniləsi deyil. Ona görə də biz ehtiyatı əldən verməməliyik. Əgər sultan məsləhət bilsə, biz gücümüzü Bağdad tərəfə yönəltməliyik. Qoy Uzun Həsən iki od arasında qalsın.

Ömər bəy bu sözləri ilə hərbi taktikanın əhəmiyyətini vurğulasa da, əslində, öz tamahını bildirməkdən çəkinmirdi. O, istəyirdi ki, əgər Təbriz paytaxt olmaqla, Azərbaycanın əsas ərazilərini Sultan Çələbiyə verirsə, qoy Ağqoyunluların cənub ərazilərini də onun ixtiyarına versin.

Sultan Ömər bəyi dinlədi, əlilə saqqalını sığalladı. Qısa saqqalın tükləri onun ovcunun içində görünməz oldu. Dişilə bığlarının ucunu çeynədi. İllər boyu sultanı yaxşı tanıyan sərkərdələr bunun nə demək olduğunu anladılar. Demək, sultan sərkərdələrinin

bir-birilə tamah davasına çıxdığına əsəbiləşmişdi. Bəlkə də başqa vaxt olsaydı, o, sərkərdələrinə qəzəbini gizlətməzdi. Onlara elə buradaca elə bir gəliş gələrdi ki, istəklərini nəfəsləri ilə birlikdə ürəklərində boğardılar. Amma indi bunun zamanı deyildi. O, sərkərdələrini dünyanın qarışmaqda olduğu bir zamanda özündən narazı salmaq istəmirdi. Həm də ki, bu sərkərdələrin igidliyi sayəsində Osmanlı sərhədləri genişlənmiş, ölkədə əmin-amanlıq yaranmışdı. Sultan Ömər bəyin nəzərdə tutduğu ərazilərə Osmanlı qoşunun bir hissəsini göndərməyi vacib bildiyindən əsəbini başqa vaxta saxladı.

– Yaxşı, çox yaxşı. Mən bilirdim ki, Ömər bəy savaş alovlarının qalxdığı bir məqamda sarayda boş-boşuna vaxt keçirmək istəməz. Bəs onda Hacı bəyin fikirlərini bilmək də yaxşı olmazmı?

Hacı bəy də ağır sınaqlar görmüş sərkərdəydi. Onun da divanda sözü keçərli idi. Amma düşünəndə ki, əsas əraziləri ondan əvvəl digər sərkərdələr artıq qamarlayıblar, bəs onun payına nə düşəcək. Və payına düşəsi olanı sultan ona verəcəkmi? Ona görə də təmkinlə, asta-asta danışmağıyla dediklərinə sultanı inandırmağı qərara aldı.

– Əhməd Çələbinin də, Ömər bəyin də fikirləri çox yaxşıdır. – Hacı bəy bu sözlərilə ondan əvvəl payını almış sərkərdələrin deyəcəyinə rəğbətini almaq üçün dilindən car eləyirdi. Əgər sərkərdələrdən hansısa biri onun niyyətinə etiraz eləsəydi, əli hər şeydən çıxacaqdı. Və o da sultanın yanında qalacaq və bir gün saray kələkbazlarının qurbanı olacaq. Beləliklə, meydanda camaat qabağında boğazı asanlıqla yağlı bir kəndirə tuş olacaqdı. İndi hər şey onun hökmdarı inandıra biləcəyindən asılıydı. Sultan II Mehmedin Hacı bəyə rəğbəti çox idi. Və elə bu rəğbət və inama görə o, Hacı bəyi Osmanlı sərhədlərinin daxilində saxlamağı, ölkədə əmin-amanlığı ona tapşırmağı istəyirdi. Onun bu niyyətini də Hacı bəy bilirdi. Elə bu səbəbdən sözünə sultanın düşündüyü tərəfdən gəldi:

– Mənim şərafətli sultanım, bilirəm ki, ölkənin əmin-amanlığı heç də ölkənin sərhədlərindən kənardakı qələbələrdən az əhəmiyyətli deyil. Ona görə, biz ölkənin içərilərində həmişə asayişi bərqərar saxlamalıyıq. Əgər ölkənin daxilində ixtişaşlar olarsa, onda biz kənara göndərilən orduları qədərincə təmin edə bilmərik, nə silah-sursat, nə də ərzaq sarıdan. Hələ orduya yeni adamlar da toplamaq vacib məsələlərdən biridir.

Sultan sərkərdənin danışığından narazı qalmadı. O, Hacı bəyi həmişə gözütox, təmkinli insan kimi tanıyırdı. Elə bu söylədikləri də ona fikirində yanılmadığını təlqin edirdi. Ancaq hiss elədi ki, Hacı bəyin də ürəyində sözü var.

– Yaxşı, bəlkə, yenə deyiləsi sözün var, Hacı bəy, buyura bilərsən.

Sultan bu sözləri elə mehribanlıqla dedi, Hacı bəy başa düşdü ki, indi əsl istəyini dilinə gətirə bilər.

– Hə, mənim sultanım, ölkənin içərilərində nizamı saxlamaq nəzarəti hər yerdə təmin etmək düşünürəm ki, vacibdir və bu ixtiyar ancaq sultanın özündə olmalıdır. Mənim düşüncəmə görə Naxçıvan, Qarabağ, üzü Şirvana tərəf əraziləri öz nəzarətimizə götürmək daha vacibdir. Çünki Azərbaycanın bu Şimal torpaqlarında sonsuz bərəkət var. Biz qoşunu hər cəhətdən təmin etmək üçün o yerlərin sərvətini əlimizə keçirməliyik. Əgər hökmdar bunları nəzərə alsa, səltənətin sabahına çox faydası olar. Qoy hökmdar kimi istəyir, həmin yerə qoşunla göndərsin.

Hacı bəy daha başqa heç nə demədi. Və onun bu təklifi də sultanı xeyli razı saldı. Sultan əlini-əlinə vurdu. Bu, artıq ziyafətin başlanması demək idi.

Çal-çağırın ərşə qalxdığı Osmanlı sarayından uzaqda isə Uğurlu Məhəmməd atası ilə qarşılaşacağı tarixin lənətlənmiş məqamını gözləyirdi…

* * *

Şeyx Heydər də gecəni yaxşı yatmamışdı. O da fikir içində demək olar, səhərə qədər vurnuxmuş, qarşıdakı döyüşün necə olacağını, hansı nəticələr verəcəyini götür-qoy eləmişdi. Hər halda görürdü ki, Uğurlu Məhəmməd Uzun Həsənin ordusuna qarşı kifayət qədər güc gətirib. Üstəlik, də onun qüvvələri Osmanlı sultanının səyilə silahlanmış, təcrübə toplamış döyüşçülərdən təşkil olunmuşdu. Bütün bunların heç birisi Şeyx Heydər üçün can qorxusu yaratmırdı. Onu düşündürən tamam başqa məsələlər idi.

Əvvəla, bu döyüş Uzun Həsənlə birbaşa onun düşməni arasında deyildi. Ata-oğul qarşılaşacaqdı. Şeyx Heydər də yaxşı bilirdi ki, artıq Uzun Həsən üstünə yeriyən oğluna heç bir güzəştə getmək fikrində bulunmayacaq. Ona görə də bu döyüş qəti bir döyüş olacaq, heç şübhəsiz, tərəflər arasında ağır itkilər yaşanacaq. Uzun Həsənin itirəcəyi qüvvələrin gələcəkdə hansı fəsadlara səbəb olacağını da başa düşürdü. II Mehmed əslində, Uğurlu Məhəmmədi qabağa verməklə, özünün Uzun Həsənlə qarşılaşacağı zamana hazırlıq məqsədi güdürdü. Belə ki, ata-oğul qarşılaşmasında Uğurlu Məhəmməd qalib gəlsə, çox yaxşı, yox, əgər Uzun Həsən qalib gəlsə, bu qələbə elə onun məğlubiyyətinə bərabər hesablanacaqdı. Və gələcəkdə Uzun Həsənin taleyini bu döyüş həll eləməli idi. Bütün bunları Şeyx Heydər başa düşürdü. Bu başa düşdüyündən əlavə onu bir başqa məsələ narahat edirdi. Əgər Uzun Həsən sabahkı döyüşdə qəflətən fikrini dəyişib Uğurlu Məhəmmədin üzərinə onu göndərsəydi, onda Şeyx Heydər məcburiyyət qarşısında dayısı oğlu Uğurlu Məhəmməd ilə savaşın taleyini həll eləməliydi.

Uğurlu Məhəmmədin qüvvələrilə özünün tərəfdarları arasındakı güc nisbətini düşünəndə, müəyyən fərqləri aydın görürdü. Dayısı oğlunun tabeliyində olan qüvvələr müəyyən qənimət naminə cəmləşmiş, qələbə əvəzində döyüşdən sonra müəyyən pay almaq niyyətində idilər. Öz tərəfdarları isə əqidə və inamla Şeyx Heydərin ətrafında birləşmişdi. Onların hər biri Şeyx

Heydərin və əslində, Şeyx Səfiyyəddin ocağının yolunda qurban getməyə hazır idilər. Baxmayaraq ki, Uğurlu Məhəmmədin silah sarıdan üstünlüyü vardı, inam sarıdan Şeyx Heydərin qüvvələri daha güclüydü. Onların hər biri son damla qanına qədər vuruşmaq əzmində olmaqla bərabər bu yolda ölməyi də özlərinə şərəf bilib, bu ölümü üstün tutardılar.

Beləliklə, Şeyx Heydərin sayəsində Ağqoyunluların qələbəsi onun üçün demək olar, şübhə doğurmurdu. Pis orası idi ki, sabah qəflətən Uzun Həsən onu Uğurlu Məhəmmədin üzərinə göndərə bilərdi. Bu da Ağqoyunlu şahının oğlunun onunla savaşda ölümüylə nəticələnəcəkdi. Bax, Şeyx Heydər bu qana əlini bulaşdırmaq istəmirdi. Bilirdi ki, Bayandurlar nəslinin xeyli hissəsi, xüsusilə də hakimiyyətdən asi tərəflər Uğurlu Məhəmmədin qələbəsinə ümid bəsləyir. Döyüşdə onun öldürülməsi onların Şeyx Heydərə münasibətində dəyişiklik yaradacaq və müxtəlif şayiələr baş alıb gedəcəkdi. Onsuz da indidən camaat arasında belə bir söz yayılmışdı ki, Uzun Həsən özünə varis kimi həm bacısı oğlu, həm də kürəkəni Şeyx Heydəri görür. Bu da şübhəsiz, Bayandurlar nəslini qane eləmirdi.

Hər halda Şeyx Heydər Uzun Həsən hakimiyyətinə axıracan sədaqətlə xidmət etmək əqidəsində tərəddüd göstərmirdi. Onun düşüncəsinə görə hakimiyyət niyyətilə hökmdara xəyanət eləmək dünyanın ən alçaq bir hərəkəti olardı. Çünki o, öz müridlərinə tutduqları yolda sədaqətli olmağı təlqin edirdi. Hər hansı bir xəyanətin heç vaxt bağışlanmayacağını dəfələrlə demişdi. Elə bu səbəbdən də o, özü hökmdara axıracan sədaqətli olmağı daha üstün bilirdi. Şeyx Heydərin yaxşı yadında idi. Diyarbəkirdə son günlərini yaşayan Sara Xatun bir zaman ona demişdi:

– Biz çox uzun yol gəldik. Gəldiyimiz yolda çox bəlalar gördük, məqsəd və məramımız halal olduğundan Ağqoyunlular üçün bir səltənət qurduq. İndi bu səltənəti gərək etibarlı əllər elə qorusun ki, mənim də o dünyada sümüklərim sızıldamasın…

Tanrıya yalvarırdı ki, sabahkı döyüşdə Uğurlu Məhəmmədlə qarşılaşmalı olmasın. O qətiyyən qılıncını Uğurlu Məhəmmədin qanına batırmaq istəmirdi. Bəs tale nə göstərəcəkdi? Yenə də onun ruhunda bir təskinlik işığı yandı. Dünyanın hər üzünü görmüş hökmdarların savaşı arasında iradəsi və ağlı ilə sədd çəkməyi bacarmış Sara Xatunun dediyi sözlər nəyinsə xətirinə verilən vədlər deyildi.

Həqiqətən Sara Xatunda pirlik, öncəgörməlik vardı. O, atası pir Əli Bayandurın tərbiyəsilə böyümüş, elə dədə-baba ocağındaca dini və dünyəvi elmləri öyrənmiş, tarixi, siyasəti, ürfanı, coğrafiyanı, həmçinin insanların düşüncə aləminə nüfuz eləməyə müvəffəq olmuşdu. Onun ən çətin məqamlarda özündən razı hökmdarlarla qarşılaşanda, ən çətin məqamlarda inamlı görünməsinin səbəbi də bu idi. Sara Xatun qarşılaşdığı adamların niyyətini bir neçə kəlmədən sonra aydın dərhal oxuyurdu. Bir zaman Sultan II Mehmedin sarayında onun söhbət zamanı da Sultanın gizli niyyətini aydın anlamışdı. Sultan ona «ana» desə də, uzunmüddətli sülh müqaviləsi bağlasa da, onun nə vaxtsa, dediklərinə dönük çıxacağını məqamında tutmuşdu. Elə bu səbəbdən oğluna – Uzun Həsənə təkrar-təkrar anlatmışdı ki, təkcə Bayandurlar nəslinə güvənməsin. Ağqoyunlular səltənətinə tabe olan ərazilərdəki güclü soy-kökləri özünə bağlasın. Bu yolda lazım gələndə, qohumluq əlaqələrindən barınsın. Ağıllılarına, bacarıqlılarına uyğun mənsəb versin. Yalan olmayan vədlərdən də çəkinməsin. Sara Xatun dərk edirdi ki, əgər Uzun Həsən onun söylədiklərinə əməl eləyə bilsə, onda hakimiyyəti də uzun çəkəcək. Ölkə içəridən sarsıntılara məruz qalmayacaq. Əslində elə Şeyx Səfiyəddin ocağı ilə Bayandurlar nəslinin qohumluğunun binəsində də Sara Xatunun niyyətləri dayanmışdı. O, vaxtında hiss eləmişdi ki, Ərdəbil xanədanına yaxın olmaq səltənəti ikiqat gücləndirmək deməkdir.

Şeyx Heydər indi bunları xatırladıqca nənəsinin necə dərrakəli olduğuna heyran olurdu. Axı, bu qüdrətli qadın həyatda yaşadı-

ğı zaman üçün dünyanın ən nadir dövlət xadimlərindən biriydi. Çox böyük əraziləri özünə tabe eləmiş Ağqoyunluların bəxt ulduzu həqiqətən elə Sara Xatun imiş.

Bir anlığa gənc Şeyxin ruhuna bir kədər çökdü. Düşündü ki, görəsən, Sara Xatun sağ olsaydı, onun Uğurlu Məhəmmədlə qarşılaşmasına xeyir-dua verərdimi? Axı Uğurlu Məhəmməd doğmaca oğul nəvəsiydi və həm də birbaşa Bayandurlar nəslinin övladı idi. Amma bu tərəddüdlü duyğular ruhundan dəli rüzgar kimi keçib getdi. Tez özünü cəmlədi. Elə bil ki, Sara Xatun gözlərinin önünə gəldi. Nənəsinin nurlu siması onunla üzbəüz dayandı. Şeyx Heydər xəyalından boylanan bu nurlu simaya açıq və aydın nəzərlə diqqət ayırdı. Onun nə söyləyəcəyini hələ deməmişdən əvvəl bilmək istədi.

Sara Xatun xəyalında sonuncu dəfə gördüyü libasda idi. Yenə ona inamla və sevgi dolu nəzərlərlə baxırdı. Şeyx Heydərə elə gəldi, yenə onun dodaqları asta-asta tərpənir: «Bu haqq yoludur, haqq yolunda vuruşmaqdan çəkinmə. Bu döyüşdə qələbə ədalət tərəfdarının olacaq. Haqlı olan kəsi gələcək nəsillər rəhmətlə xatırlayacaq».

Birdən Şeyx Heydər yerindən sıçrayıb qalxdı. Özünü o qədər qıvraq və güclü hiss etdi ki, sanki dağa əl atsaydı, yerindən oynadardı, qılıncını qayaya çırpsaydı, qaya parçalanardı. O, üzünü göyə tutdu. Ay par-par yansa da, ulduzlar çəkilmişdi. Səhər isə çoxdan üzü ona tərəf gəlməkdə idi. Birazdan üfüq qızaracaq, dan yeri aramla söküləcəkdi. Günəş aləmi nura boyayacaqdı.

Şeyx Heydər qətiyyətliydi. Bayandurlar nəslinin üzərinə əsən, şaxtası-sazağı kəsən bu acı küləkləri qılıncının gücünə kəsib doğrayacaq, ram edəcəkdi. Qəti bir inamla bayıra çıxdı. Hələ hər tərəfdə sakitlik idi.

* * *

Sultan II Mehmedin sarayındakı ziyafətdən sonra adlı-sanlı sərkərdələrinin – Əhməd Çələbinin, Ömər bəyin, Hacı bəyin və eləcə də, digərlərinin əlləri göydəydi; Allaha yalvarırdılar ki, Uğurlu Məhəmmədlə qarşılaşmada, Ağqoyunlu şahının bəxt ulduzu birdəfəlik sönsün. Elə Sultan II Mehmed də ürəyində kimsəyə bildirmədiyi gizlin bir sirri  açmır, pünhan saxladı. Bu da Ağqoyunlu şahından çəkinəcəyi idi. Get-gedə daha çox hiss eləyirdi ki, Osmanlıların silahları yeni ordusunun sayı-hesabı sarıdan nə qədər üstün olsa da, Ağqoyunlu şahının gücü-qüdrəti müqabilində heç də zəif deyildi. Ancaq nəhayət, elə bir vaxt çatar ki, Sultan II Mehmed qabağa durar, xırıldayan Ağqoyunlu şahı Uzun Həsənin başını özü kəsər…

Osmanlı sarayındakı ziyafətdə məsləhət-məşvərət zamanı hər kəs öz içində Ağqoyunlu şahı ilə qarşılaşmanın qorxusunu yaşayır və biri digərinə bunu bildirməməyə çalışırdı. Hadisələr isə ayrı-ayrı adamların istəyilə yox, bütövlükdə tərəflərin ciddi-cəhdləri, məqsədə doğru dönmədən irəliləmələrilə hesablanır. Ziyafətin səhəri günü Roma Papasından Sultan II Mehmedin sarayına bir elçi təşrif gətirdi.

Əlbəttə, Sultan II Mehmed uzaq qonağı böyük rəğbətlə qarşıladı. Gətirdiyi məktubu qəbul etdi. Həmişə sarayda saxladığı Avropa ölkələrinin dilmanclarından Romadan gələn məktubu səlis oxuya biləni çağırdı. Dilmanc içəri girib sultana təzim elədi. Sultan məktubu ona verib dedi:

– Gör bu məktubda xristianların hökmdarı bizim üçün nə yazıb?

Dilmanc məktubu əlinə aldı. Xüsusi möhürlə bağlanmış naməni o üz-bu üzə çevirdi, sonra sultanın üzünə baxıb, dilləndi:

– Hökmdar məktubu mənim açmağıma izn verirmi? – soruşdu.

Sultan II Mehmed başı ilə razılığını bildirdi. Dilmanc məktubu elə elçinin yanındaca açıb oxumağa başladı…

…«Günəşin doğduğu yerdə, uca Allahın kölgəsi altında qərar tutmuş Sultan II Mehmed həzrətlərinə bizim tərəfimizdən rəğbətlərimiz əbədidir. Mən sonsuz inamıma görə bildirirəm ki, belə rəğbət bizim Avropa ölkələrimizin hamısı tərəfindən sultanın ünvanına çatdırılmağa müntəzirdir. Avropa ölkələrinin adından sultana çatdırmağı özümə borc bildim xəbər çatdırım, Ağqoyunlu şahı ciddi-cəhdlə sizin Osmanlı torpaqlarını zəbt etmək planları hazırlayıb. Bu yolda özünə tərəfkeş toplamaq üçün bütün imkanlarını səfərbər edib. Ayrı-ayrı ərazilərdəki qohumluq əlaqələrinə güvənməklə bəzi Avropa ölkələrindən hərbi qüvvə sarıdan kömək almaq istəyir. Biz Osmanlının şanlı hökmdarı Sultan II Mehmedin tərəfini heç vaxt Ağqoyunlu şahına vermərik. Biz istərdik ki, onun istər Şimala, istərsə də Cənuba doğru uzanan əllərini Sultan II Mehmed tezliklə kəssin. Bu yolda biz köməyimizi əsirgəmərik. Sultana məlum olduğu kimi onun sərəncamına ən yaxşı odlu silah ustalarını göndərmişik. Bu silahlarla davranmaq üçün hərb bilicilər də ayrılıb və onlar sultanın hüzurundadır. Bundan sonra da əlavə nə yardım istəsə, bizim tərəfimizdən göstəriləcək. Osmanlı hökmdarının hörmətini həmişə uca tutan Papa IV Sikst».

Dilmanc məktubu birbaşa oxumuşdu, sonra da hissə-hissə oxuyub mənasını çatdırdıqca, sultanın qaşları gah dartılır, gah da açılırdı. Hərdən onun üzündə təbəssüm görünür, hərdən də bu təbəssüm qəzəblə əvəz olunurdu. Sultanın hörmətli sərkərdələri də bu məktubun oxunuşunda iştirak edirdilər. Yəqin ki, onlar da sultanın dəyişən vəziyyətinə baxır, onun nə üçün belə əsib kükrədiyini başa düşməyə çalışırdılar. Belə məsələlərdə fəndgir olan Əhməd Çələbi yaxşıca anlayırdı ki, xristianların din başçısı məktubunda əslində, boş və mənasız sözlər yazıb. Bu yalnız şirnikləndirici sözlərdən ibarət olan, mənasız vədlər idi ki, uzun illərdən bəri davam edirdi. Doğrudur, Avropadan odlu silah ustaları və bu silahla davranmaq qaydalarını öyrədən adamlar gəlmişdilər. Onlar Sultan II Mehmedin məxsusi olaraq ayırdığı

böyük xərclər hesabına özlərini çatdırmışdılar. Əhməd Çələbi anlayırdı ki, hökmdar da bunu yaxşı başa düşür, ancaq ətrafındakı hərbi xadimlərə pis təsir edəcəyini düşünüb, məsələnin üstünü vurmurdu. Ömər bəy də, Hacı bəy də az-çox məsələdən hali idilər, onlar dərk edirdilər, xristianların din başçısı çox istəyir, Osmanlıların əlilə Ağqoyunluların çırağı söndürülsün. Hakimiyyəti dağıdılsın. Ondan sonra hadisələr necə inkişaf edəcək sonranın işi idi. Amma Sultan II Mehmed və onun sərkərdələri başqa bir məsələdən xəbərsiz idilər. Bu da ondan ibarət idi ki, eyni vaxtda digər bir elçi də Papa IV Sikstin adından Ağqoyunlu sarayına özünü çatdırıb. Həmin təmtəraqlı məktubdan biri də Həsən şaha verilib.

Ağqoyunlu sarayında Uzun Həsən döyüşün başlayacağı vaxtdan bir-iki gün əvvəl aldığı məktubu Qabriel vasitəsilə oxutdurub, məzmunu ilə tanış olmuşdu. Bu da o Qabriel idi ki, öz sevgilisini kişi paltarında Avropadan keçirib, Ağqoyunlu sarayına pənah gətirmişdi. Haçansa onu Papanın özü göndərmişdi. Vatikandan üz çevirmiş Qabriel sevgilisilə birgə Papanın nüfuz dairəsindən canını qurtarmaq üçün onun təklifini göydəndüşmə hesab eləmiş və razılıqla gəlib Ağqoyunlu hökmdarının itaətinə yetişmişdi. İndi məktubu oxuyub məzmununu Uzun Həsənə danışandan sonra dayanıb fikirləşirdi şaha necə izah eləsin ki, avropalıların din rəhbəri sadəcə boş vədlərlə onu Sultan II Mehmed üzərinə qızışdırır.

– Sən bilən o bizdən nə istəyir? – hökmdar nüfuzedici nəzərlərlə Qabrieli süzdü. Sanki onun nə deyəcəyini özü danışmamışdan əvvəl bilirdi. Qabriel də bu isti nəzərləri üzərində hiss elədi, özünü itirmədi. Necə vardısa, düşündüyü kimi danışmağa çalışdı.

– Hökmdar, onlar istəyirlər ki, siz bir-birinizlə savaşasız.

– Axı nə üçün onlar istəyir ki, biz savaşaq?

Bu sualdan sonra Qabriel məsələni köklü şəkildə hökmdar üçün izah eləməyə çalışdı:

– Mənim hökmdarım, siz türklərin dediyi kimi, yaxşılığı unutmaq insanı bədbəxt eləyər. Mən də sizin yaxşılığınızı unutmaram. Ölənə qədər də sizin xidmətinizdə olacağıq, – Qabriel bu sözləri deyəndə yəqin arvadı Aqnesi və artıq böyüməkdə olan oğlunu və kiçikyaşlı qızını da nəzərdə tuturdu. Yəqin onun sözlərinin mənasını hökmdar Uzun Həsən də anladı, çünki o, bunları deyəndə, Qabrielin nə qədər səmimi bir doğmalıqla danışdığını müşahidə edirdi.

Uzun Həsən razılıqla başını tərpətdi. Qabriel başa düşdü ki, bu onun söhbətinə davam etməsinə işarədir.

– Mənim hökmdarım, bir vaxt az qala dünyanın o başından bir türk cəngavəri üzü günbatana doğru qoşun çəkib. Qarşısında heç bir mane tablamayıb. Onun gücü o qədər çox və nəhayətsiz olub ki, Avropanın ən qüdrətli dövlətlərinin orduları elə ilk toqquşmadaca darmadağın ediliblər. Adlı-sanlı sərkərdələr o qüdrətli türk sərkərilə təkbətək döyüşdə bir-birinin arxasında gizləniblər. Həmin şəxs Avropanı diz çökdürmüşdü. İndi də Avropanın canında bir türk qorxusu var.

Uzun Həsən bir zaman sarayda ona elm öyrədən ustadlarından belə bir türk sərkərdəsinin adını eşitmişdi. Amma həmin sərkərdənin taleyinin necə olduğu yadında qalmamışdı. Əli ilə alnını ovuşdurdu. Dodaqaltı bir neçə dəfə «At… Atil… Atil…», – dedi.

– Bəli, hökmdarım, onun adı Atila idi. Əslində, Attiladır. Avropalılar onu Atila çağırırdılar.

– Qabriel, sənin nə dərin biliyin varmış. Bəs o türk fatehinin son taleyi necə olub?

Qabriel hökmdarın bu razılığından fərəhləndi, sanki yararlı bir iş üçün hökmdarın köməyinə yetmişdi. Hökmdarın ona məxsusi diqqət göstərdiyini hiss edib, sözünə davam elədi:

– Bəli, mənim hökmdarım, gərək onun taleyini də mütləq biləsiniz.

– Aha… – Uzun Həsən başını qaldırıb Qabrielə diqqət kəsildi.

– Attilanın hər hansı bir hərbi yolla, müharibəylə, güc-qüvvəylə aradan götürülməsi mümkünsüz imiş. Elə bu səbəbdən də Romada onun məhv edilməsi planı hazırlanır. Öncə ona Roma şahzadəsiylə evlənmək təklifi edilir. Çox qiymətli hədiyyələrlə şahzadə Attilanın yanına göndərilir. Türk sərkərdəsinin evlənməsi məclisi təntənəli keçir. Ancaq elə həmin gecə gizlin öyrədilmiş, hazırlanmış şahzadə onu zəhərləyir.

– Bəs çox ayıq olan Attila bu tələyə necə düşür?

– Şahzadə xanım son anda zəhəri ağzında saxlayır, Attila ilə öpüşəndə, zəhəri onun ağzına ötürür. Zəhərin təsirindən Attilanın burun damarları partlayır. Və o, qanitirmədən zifaf gecəsi ölür.

Qabriel sözünü bitirdi. Araya dərin bir sükut çökdü. Uzun Həsənin nəzərləri Qabrielin başı üzərindən uzaqlara zillənmişdi; baş verə biləcək döyüşün gətirəcəyi bəlalardan da o tərəfə.

Bu söhbətdən sonra sanki Uzun Həsən ilk dəfə idi ki, necə bir hiyləgər dünyayla üz-üzə qaldığını düşünürdü. Onun xəyalını məşğul edən təkcə Sultan II Mehmed deyildi. Əslində, o, indi yaxşıca anlayırdı ki, Sultan II Mehmed də Roma Papasının qurduğu torun içində çabalayan balıqdır.

Əgər Sultan II Mehmedin hüzurunda Qabriel kimi bir ağıllı və Avropanı yaxşı tanıyan bir məsləhətçisi yoxdursa, çətin o ətrafında hörülən hiylə torundan çıxa bilsin.

Uzun Həsənin xəyalından keçdi ki, necə yaxşı olardı dil bir, din bir, kök bir Osmanlılarla arasındakı soyuqluğu götürmək, artıq açıq-aşkar görünməkdə olan və qatı düşmənçiliyə yetmiş münasibətləri tənzimləmək, bu dünya işlərini yoluna qoymaq mümkün olaydı.

Heyhat… qarşıda hər kəsin özünün yaşayacağı taleyi dayanırdı. Taleyi idarə etmək isə Uzun Həsənin düşüncəsinə görə tək Allahın işi deyildi, həm də bu idarə edən insanın öz əməlidir.

İnsan haqq yolunda nə qədər sabitqədəm olsa, taleyi də onun üzünə daha çox gülər.

…Bayırda qəfil külək qopdu. Hər yan toz-torpağa büründü. Külək elə dəhşətlə əsirdi ki, sanki köklü ağacları da bir anda qoparıb, harasa göyün dərinliklərinə aparacaqdı. Amma Uzun Həsən nə küləkdən, nə də bu küləyin qopardığı tufandan qorxacaq halda deyildi. O, belə bir qəti inamda idi ki, uca Tanrı öz haqqını qoruyanların tərəfində olar. Axı o, kimsəyə müharibə elan eləməyib, kimsə ilə savaş planı qurmayıb. Özünün doğmaca oğlu ona və xanədanına asi kəsilmiş adamların fitvası ilə üstünə yağı kimi gəlir…

* * *

Uzun Həsən oğlu Uğurlu Məhəmmədin ordusu ilə Təbriz yaxınlığında qarşılaşdı. Bu, Uzun Həsənin qarşılaşdığı qüvvəni qiymətləndirməsilə bağlı idi. Uğurlu Məhəmməd irəlilədikcə, ona demək olar, müqavimət göstərilmirdi. Ancaq Uzun Həsənin çaparları Uğurlu Məhəmmədin keçib gəldiyi ərazilərin hamısına ciddi xəbərlər yayırdılar. Demək olar, Uğurlu Məhəmmədin qoşunu üçün arxadan heç bir kömək, yardım və ərzaq gətirilə bilməzdi. Ayrı-ayrı ərazilərin nəzarətçi dəstələri yolları kəsir, pusqular qoyur… bir sözlə, Uğurlu Məhəmmədin Osmanlı səltənətilə əlaqəsi kəsilirdi. Bununla da təcrübəli və dünyagörmüş Uzun Həsən Uğurlu Məhəmmədi arxalandığı qüvvələrdən təcrid eləmiş olurdu. Digər tərəfdən, Uğurlu Məhəmməd müqavimət görmədiyi üçün şirniklənir və daha inamla irəliləyirdi. Ona elə gəlirdi, əhali Ağqoyunlu hakimiyyətindən cana doyub, bezib və ciddi narazılıq var. Əslində, bu Uzun Həsənin taktiki tələsi idi. Və Uğurlu Məhəmməd də bunu başa düşmədən tələyə doğru daha çox can atırdı. Uzun Həsən Uğurlu Məhəmmədi Təbriz yaxınlığında qarşılamağı qərarlaşdırarkən, onun daha çox aldanışlara və səhvlərə yol verməsini gözləyirdi. Uğurlu Məhəmməd Təbriz ətrafında da-

yanmalı oldu. Vəziyyəti aydınlaşdırmaq, Uzun Həsənin planlarından xəbər tutmaq üçün bir-iki gün səbir eləməyi qərara almışdı. Onun xəbəri yox idi ki, Uzun Həsən Uğurlu Məhəmməd hərəkətə başladığı andan üzübəri müşahidə eləyir, qüvvələri haqqında məlumat toplayır. Sərkərdələrinin kimlər olduğu, hansı döyüşə üstünlük veriləcəyini, oxçuların hansı məsafədə yerləşəcəyini, süvarilərin hansı cinahlardan həmlə edə biləcəyini… bütün bunların hamısını öyrənmiş, bəzi məqamları da təxmin etməklə, özü üçün aydınlaşdırmışdı. Döyüşün başlanmasına yəqin ki, az qalırdı, çünki Uzun Həsən Uğurlu Məhəmmədin uzun, ağır səfərdən yorğun düşmüş ordusuna dincəlmək üçün vaxt vermək fikrində deyildi.

Artıq Şeyx Heydərə xəbər çatmışdı ki, Uğurlu Məhəmmədin düşərgəsi ordunun dincəlməsi üçün qurulub. O da bu fürsəti əldən buraxmamağı Uzun Həsənə birdirmək istəsə də, Uzun Həsən onu qabaqladı.

– Şeyxin döyüşqabağı əhvalı necədi?

– Hökmdara bildirirəm ki, biz öz torpağımızdayıq. Adamlarımızın hər biri bu yerlərin bütün cığırlarına, gədiklərinə, dağına, dərəsinə bələddir. Düşmən hərəkətə gəlib müxtəlif tərəflərdən həmlə etmək istəyəndə, yolunun hansı səmtə getdiyini bilmir, amma biz hər yeri ovuc içi kimi tanıyırıq.

– Bu çox yaxşıdır. Kimin ki, ayağı öz torpağındadır, o, gərək qorxmasın.

– Hökmdarım, qorxu bizə yaddır. Ancaq bir məsələ var.

– Bəlkə, Şeyx desin görək o nə məsələdir?

– Bildiyimə görə Uğurlu Məhəmmədin ordusu elə təzəcə düşərgə salmağa başlayıb, onlar yəqin ki…

Uzun Həsən əlini yuxarı qaldırdı. Şeyx Heydər sözünü yarımçıq saxladı.

– Bilirəm, sən deyəcəksən ki, biz gərək onun dincəlməyinə imkan verməyək.

– Bəli, hökmdarım, mənim demək istədiyim elə budur.

– Şeyx mən yaxşı bilirəm ki, sənin süvari dəstələrin çox sürətlə irəliləyib Uğurlu Məhəmmədi arxadan sıxışdırar. Onu da bilirəm ki, Uğurlu Məhəmmədin başını yalan vədlərlə dolduranlar ona deyiblər ki, nəinki Ağqoyunluların dayağı olan tayfalar, eləcə də, bizim Bayandurlar nəslinin özü də bizim hakimiyyətimizdən narazıdır.

– Bilirəm, hökmdarım, – Şeyx Heydər cəsarətlə dilləndi – ona elə gəlir ki, o, Təbrizə çatan kimi Təbriz əhli üsyan qaldıracaq, taxt-tacı ələ keçirib, Uğurlu Məhəmmədə təhvil verəcək.

– Bəli, bəli, mən bunu yaxşı bilirəm, ancaq hər ehtimala qarşı biz Təbrizdə də nizam-intizamı qoruyacaq qüvvələr saxlamışıq. İndi əsas odur ki, sən sürətlə hərəkətə keçirsən və Uğurlu Məhəmmədi Təbrizə doğru sıxışdırarsan. O, sənə qarşı ciddi müqavimət göstərməli olsa, ordusu parçalanacaq, bizimlə döyüşən tərəflər zəifləyəcək. Və iki qüvvənin arasında vurnuxan Uğurlu Məhəmməd ilə özüm qarşılaşacağam. Uzun Həsən «özüm qarşılaşacağam» sözlərini xüsusi vurğu ilə, bir qədər də qəzəb qarışıq ahənglə işlətdi. Uzun Həsən sözünə bir az aram verdi, Şeyx Heydərin dinmədiyini görüb davam elədi: – Qoy gələcək nəsillər bilsinlər ki, əslinə, torpağına, yurduna xain çıxanların qabağına necə çıxmaq lazımdır. Artıq burada ata-oğul məsələsi əhəmiyyət kəsb etmir. Burada təcavüzkarla savaş var, xəyanətkara qarşı döyüş var.

Şeyx Heydər ağır təəssüratla dinləyirdi. Əvvəla, Uzun Həsənin hökmü əslində, onu sevindirmişdi, çünki o, Tanrıya dua eləyirdi ki, Uğurlu Məhəmməd qılıncının qabağına keçməsin. Və bunu nə üçün arzuladığını da özü yaxşı bilirdi. Orası da var idi ki, Şeyx Heydər döyüşün ağırlığını öz üzərinə götürəndən sonra Uzun Həsənin Uğurlu Məhəmmədlə təkbətək qarşılaşmada qalib gələcəyinə tam inanırdı. Şeyx Heydər əlini sinəsinə qoyub təzim elədi. Bu o demək idi ki,

hökmdarın bütün dediklərinin hamısını axıracan anlayır və yeni əmrini gözləyir.

– Hə, Şeyx, qoy Tanrı haqq savaşımızda bizim tərəfimizdə yardımçı olsun.

Şeyx Heydər yenə təzim eləyib, dilləndi:

– Tanrının haqqın tərəfində durduğuna varlığım qədər inanıram.

Hökmdar qılıncını sıyırıb Şeyx Heydərə gedəcəyi istiqaməti göstərdi:

– Atın büdrəməsin, ya Şeyx!

Bu dəfə Uzun Həsənin səsində bir kövrəklik də duyuldu. O, artıq özünü indiyəcən saysız savaşlarının arasında görə bilmədiyi bir qanın içində görürdü.

Şeyx Heydər bir anda Qarabağ köhləninin belinə sıçradı. O, atına elə bir təlim keçmişdi ki, sahibi belinə sıçrayan kimi istəklərini göydəcə hiss edir, duyurdu. Şeyx əvvəlcə atın yüyənini çəkdi, at dal ayaqları üstə şahə qalxdı. Bir kişnərtilə sanki düşmən üstünə şığımaq üçün yiyəsindən icazə istədi. Şeyx Heydər ordugahın bir tərəfində onu müntəzir gözləyən süvarilərinə tərəf çapdı. Az keçməmiş toz dumana qarışdı. Uzun Həsən bildi ki, az sonra Şeyxin süvariləri arxadan Uğurlu Məhəmmədə hücum çəkəcək.

Uzun Həsən bir tərəfdə dayanmış Maqsud Mirzəyə işarə elədi. Bu işarənin də mənası o idi ki, Şeyx Heydər öz süvariləri ilə Uğurlu Məhəmmədin qüvvələrinin sağ tərəfini mühasirəyə alıb arxasına keçəcək. Maqsud Mirzə isə sol tərəfdən hərəkətə başlayacaqdı. Ata-oğul bu döyüş haqqında hələ ötən gün aralarında müzakirə aparmışdılar. Həmin müzakirə vaxtı Maqsud Mirzə anlamışdı ki, daha bu hənə o hənadan deyil, atasının üzü yaman dönüb. Yəni indi Uğurlu Məhəmmədin taleyi bu gün bu meydandaca həll olunmalı idi. Maqsud Mirzənin yadına düşdü ki, nənəsi Sara Xatun atasının varisi kimi Maqsud Mirzəni gördüyünü gizlətməmiş

və Uğurlu Məhəmmədin də bilməsini istəmişdi. Amma o vaxt Uğurlu Məhəmməd də bu bölgüdən narazı qalmışdı. Ona ayrılan ərazini başlı-başına buraxıb, Osmanlı sarayına üz tutması əslində illər öncəsi narazılığının axır nəticəsiydi.

Maqsud Mirzə başa düşürdü ki, daha bu məsələlər haqqında düşünməyin heç bir mənası yoxdur. Uğurlu Məhəmmədin bu döyüşdə qalib gəlməsi bütün Bayandurlar nəslinin Uzun Həsənin tərəfində olan adamlarının edamı deməkdir. O cümlədən elə atasının da, özünün də… ölümünə artıq sultan sarayında fitva verilmişdi. Maqsud Mirzə bu düşüncələri at üstündə xəyalından keçirirdi, birdən qarşısında Uğurlu Məhəmmədin atlılarını görən kimi bütün düşüncələri dağıldı. Yalnız onun üstünə siyirməqılınc gələn döyüşçünü gördü. Yahu! – deyə hücuma keçən yağının zərbəsinə qalxanını qarşı tutdu. Elə həmin andaca onun qılıncı yağının qılınc vuran qolunu üzüb atdı. Qolundan qan süzülə-süzülə at üstündə meydandan çıxan döyüşçünün necə qışqırdığını eşitmədi. Çünki qana susamış yağı hər tərəfdən onun üstünə şığımaqda idi.

– Hamınız qılınc vuran qolunuzdan məhrum olacaq, başınızı itirəcəksiz, çünki yerinizdən-yurdunuzdan çox uzaqdasız. Biz ölsək, öz torpağımızda dəfn olunucağıq, siz isə…

Maqsud Mirzənin səsini eşidən döyüşçüləri qızğın bir ruhla hər tərəfdən hücuma keçdi. Meydan böyük olsa da, düşmən arasında olan çaxnaşmadan məlum oldu ki, Şeyx Heydərin süvariləri az qala ordugaha yaxınlaşmaqdadır. Uzun Həsən bir qədər hündür ərazidə döyüşə rəhbərlik eləyir, meydanın görünən tərəflərinə diqqət yetirirdi. O, Şeyx Heydərin süvarilərinin Uğurlu Məhəmmədin ordugahına girdiyini gördü. Başa düşdü ki, indi Uğurlu Məhəmməd hər tərəfdən sıxışdırıldığı üçün özü onun üstünə gələcək. Kiçik bir dəstə ilə özünü qurtarmağa çalışan Uğurlu Məhəmməd günortaya yaxın qalib gəlmək ümidini tamam itirdi.

Demək olar, öz atlı dəstələrilə döyüşmədən Uzun Həsənə tərəf çapırdı. Ancaq bilmirdi ki, sərt qüvvələrlə elə burada qarşılaşacaq. Uzun Həsən əvvəlcədən döyüşçülərinə tapşırmışdı ki, Uğurlu Məhəmməd ilə haqq-hesabı özü çürüdəcək. Ona görə də Uzun Həsənin xüsusi təlim görmüş güclü süvariləri bir anda Uğurlu Məhəmmədin dəstələrini pərən-pərən saldılar.

Meydanın düz ortasında Uzun Həsənlə Uğurlu Məhəmməd qarşı-qarşıya dayanmışdı. Uğurlu Məhəmməd ətrafına baxdı. Onu müdafiə edəcək bir kimsə görünmürdü. Qarşısında dayanmış atasının qəzəbli baxışları ilə qarşılaşanda sarsıldı. Atası onun gözündə dağ qədər qüdrətli görünürdü. Sanki indicə yuxudan ayıldı. Ürəyində Sultan II Mehmedi dəfələrlə lənətlədi. Onun oxçuların məharətindən bəhrələnməyi dəfələrlə tapşırmış olsa da, oxçular indi heç nəyə yaramamışdılar. Çünki Uzun Həsənin dəstəsi xəyanətkar varisin başının üstünü qəflətən almışdı.

Uzun Həsən də oğlunun atın üstündə büzüşdüyünü hiss elədi. Bu Uğurlu Məhəmmədin peşmançılığını anlamaq demək idi. Yəni Uzun Həsən başa düşdü ki, oğlu öz əməlindən elə indicə peşman olub. Sanki oğlu ilə ürəyində dilləşdi: «Artıq gecdir, bu peşmançılıq sənin başını xilas edə bilməyəcək». Deyəsən, oğlu da ona yalvarırdı: «İndi öz oğlunu bu meydanda qanına qəltan edəcəksən?» Özü ona cavab verdi: «Bəli, sən qanına qəltan olunmağa layiqsən». Oğlu yenə yalvarışlı nəzərlə baxdı: «Ata, buna sənin əlin necə qalxar?» Uzun Həsən düşüncəsində qəti hökm verdi: «İndi görərsən».

Uğurlu Məhəmməd qəflətən yuxudan ayılmış kimi atını dəhmərlədi. O istədi ki, atın cilovunu yana tərəf döndərsin. Bəlkə qaçıb meydandan canını qurtara bildi. Bəlkə keçən dəfəki kimi yenə onu öldürmədilər – düşündü. Yox, deyəsən, at onun sözünə baxmadı. Yana çəkilmiş yüyəni başı ilə dartıb boşaltdı. Qarşısında kişnəyən ayğıra tərəf şığıdı. Uğurlu Məhəmməd Uzun Həsənlə qarşı-qarşıya gələnəcən, siyirməqılınc atasının önünə çatanacan

qalxanını qaldırmağa belə macal tapmadı. Uzun Həsənin qılıncı bir anda Uğurlunun başını boynundan qopartdı. Kəllə yerdə dığırlanırdı. Vahimələnmiş at kənara sıçradı. Uğurlu Məhəmmədin başsız bədəni atın üzərində dayana bilmədi. Köhlənin üstündən yana yıxıldı. Bir ayağı üzəngiyə ilişmişdi. At meydan boyu onun başsız bədənini böyrüncə dolandırdı. Bədəndən axan qan sanki yerdə Uğurlu Məhəmmədin xəyanətkar taleyi haqqında son hökm yazırdı.

Uğurlu Məhəmmədin meydan boyu əhatəyə alınmış və vahimə ilə qaçan atı Maqsud Mirzənin yaxınlığından keçəndə sanki o, yuxudan ayıldı. Bir ayağı üzəngiyə ilişmiş cəsəd atın yanından sallanmışdı. Başsız bədən və yanlara açılıb uzanan qollar yerlə sürünürdü. Ətrafda heç kim tərpənmirdi. Elə bil ki, hamını qan tutmuşdu. İllah da ki, Uzun Həsən heç qımıldanmırdı da. Atın üstündə heykələ dönmüşdü. Gözlərinin qabağında, bir neçə addım o yanda bədənsiz başın gözləri bərələ qalmışdı. Bəlkə də, sonuncu anda Uğurlu Məhəmməd bağıraraq, atasına son sözlərini demək istəyəndə, gözlərini necə açmışdısa, indi də eləcə baxırdı. Uzun Həsənin qolları sustaldı. İxtiyarsız olaraq qılınc əlindən yerə düşdü. Qılıncın şiş ucu elə onun sağ ayağının yanından yerə sancıldı. Uzun Həsənin qılıncı qoluna uyğun idi. Ağırlığı, sanbalı da öz yerində. Yerə düşəndə də yaş torpağa elə dikinə düşmüşdü. Qılınc öz ağırlığı ilə ləngərləndi, amma əyilmədi. Torpağa elə sancıldı ki, sancıldığı kimi qaldı. At fınxırdı, iki dəfə ayaqlarını götürüb – qoydu, sanki sahibindən izn istəyirdi ki, bu dəhşətli mənzərədən yönünü çevirib getsin. Sahibinin hərəkətsiz dayanmağı atı da sakitləşdirdi. Uzun Həsənin atın üstündə heykəl kimi quruyub qalması ətrafa da üzücü təsirini göstərmişdi, heç kim qımıldanmırdı, hətta Uzun Həsənin yaxın adamları da bilmirdilər, iki hissəyə bölünmüş, bir-birindən ayrı düşmüş başla bədənə kim necə münasibət göstərsin. Heç kim cəsarət edib nə başa yaxın düşə bilirdi, nə də meydan boyu dolanan, hələ də sakitləşməmiş, atın

yanından asıla qalmış bədəni gətirib başın yanına qoya bilirdi. Artıq Maqsud Mirzə növbəti dəfə at ona yaxınlaşanda əlini qaldırdı. O, döyüş atlarının xasiyyətinə bələd idi. Bilirdi ki, əlini qaldırmaqla atı sakitləşdirə biləcək. Əslində, at özü də bu vahiməli vəziyyətdən qurtulmaq üçün kimdənsə kömək gözləyirdi. Elə bil ki, əlini qaldıran cavan döyüşçü onu başsız bədəndən xilas etmək istəyir. Düz onun qabağında dayandı. Maqsud Mirzə atından yerə sıçradı. Sağ əlini yuxarı qaldırıb, yavaş-yavaş, bir qədər də ehtiyatla Uğurlu Məhəmmədin köhləninə yaxınlaşdı. At hər şeyi anlamışdı, ona görə də başını asta-asta tərpədir, arabir fınxırır, amma kənara sıçramadan dayanıb ona tərəf gələn Maqsud Mirzəni gözləyirdi. Maqsud Mirzə əvvəlcə atın boynundan sallanan yüyənindən tutdu, əlini qaşqa alnında gəzdirdi. Ehmalca yalının üstündən əlini sürüşdürüb, yavaş-yavaş Uğurlu Məhəmmədin qızıl qana bələnmiş yaxasından tutdu. Onu qucağına aldı, yuxarı qaldırdı. Üzəngiyə ilişmiş ayağını çevirib azad elədi. Sonra atın yanından aralayıb, atasının yaxınlığında olan bərələ qalmış gözlərlə baxan başın yanına apardı. Yerə uzatdı. İstədi ki, başını qaldırıb atasına tərəf baxsın. Onun nə deyəcəyini, nə göstəriş verəcəyini gözləsin, tez də fikrindən yayındı. Daha atasından nəsə soruşmağa, izin istəməyə lüzum görmədi. Maqsud Mirzə qardaşının başına tərəf yeridi. Əvvəlcə diz çökdü, sonra əlini uzadıb qardaşının başını özünə tərəf döndərdi. Bərələ qalmış gözlərinin üst qapağını əllərilə qapadı. Bunu bir neçə dəfə təkrar eləsə də, qardaşının göz qapaqları örtülmədi. Maqsud Mirzə başa düşdü ki, ölünün göz qapağı isti-isti örtülə bilər, bir az vaxt keçəndən sonra bu mümkün olmur. Beləcə, başı iki əlilə ehtiramla götürüb bədənə sarı gətirdi.

Bu dəfə meydanı bütün gözlərilə gəzdi. Atlıların arasında onun digər qardaşları da vardı. Bayandurlar nəslinin Ağqoyunlular səltənətinə dayaq adlı-sanlı kimsələri də vardı. Sanki o, gözlərilə bu adamların hamısına deyirdi doğmalığından, yadlı-

ğından asılı olmayaraq, hər kəs gərək öz kökünə, yurduna sadiq olsun. Başqalarının şirin dilinə aldananların aqibəti dəhşətli sonluqla bitir. Qardaşının başını qucağında tutmuş Maqsud Mirzə hamını demək olar ki, nəzərdən keçirdi. Nəhayət, baxışları atasına yönəldi. Uzun Həsən hələ də sonsuz kədər içində boylanıb baxırdı, qımıldanmırdı da. Amma Maqsud Mirzə gördü ki, atasının göz yaşları yanaqlarından aşağı süzülür. Əgər bu anda kimsə yaxına durub onu itələsəydi, bir quru kötük kimi, cansız daş kimi aşıb yerə düşərdi. Əslində, heç bu mənzərənin yaranmasını atası da diləməzdi, Maqsud Mirzənin özü də istəməzdi. Maqsud Mirzə yaxşı başa düşürdü ki, bu hadisə bir çıxılmazlıq üzündən baş verib. Axı Uzun Həsən Uğurlu Məhəmmədi yola gətirmək üçün nə qədər adamlar göndərmişdi. Ağqoyunlular səltənətinin ən hörmətli, nüfuzlu simalarını onun yanına yollanmış, tutduğu mövqedən çəkinməsini istəmişdi. Hətta onu əvvəlki kimi yenə ən böyük əyalətlərdən birinə hakim kimi təzədən göndərəcəyini vəd eləmişdi. Təəssüf ki, Uğurlu Məhəmməd onun bu təkliflərinin heç birisiylə razılaşmamışdı. Bəlkə də o, ağıllı təkliflərin sərt, ancaq inandırıcı hökmlərin qabağında sınardı, atasının qoyduğu yola gələrdi. Amma Sultan II Mehmedin Uğurlu Məhəmmədin yanında ən mühüm qulluqlarda olan adamları həmin andaca məsləhətə, məşvərətə çəkilir və tezliklə Osmanlı ordusunun sayəsində Uğurlu Məhəmmədin Ağqoyunlu səltənətinin şəriksiz hökmranı olacağına inandırırdılar. O da bu bihuşedici inamların tezliklə həqiqət olacağını gözləyirdi. Elə bu səbəbdən də Uzun Həsənin göndərdiyi adamlar ən yaxşı halda Uğurlu Məhəmmədin ismarıcları ilə yanına qaytarılırdı. Gələn vasitəçilərin danışdıqları Uzun Həsənin eyninə deyildi, çünki Uğurlu Məhəmmədin və Sultan II Mehmedin söylədiklərini araşdıranda, ağlıkəsən heç nə görmürdü. Doğrudur, Uğurlu Məhəmməd dəfələrlə elə Uzun Həsənin öz elçiləriylə atasına çatdırmışdı ki, Bayandurların Uzun Həsənə tərəfdar hər bir kəsi amanda olacaq. Onlara bir kimsə

toxunmayacaq. Atası yenə sarayda hörmət-izzət sahibi kimi qalacaq. Elə buna görə zor-xoş Uğurlu Məhəmməd istəyirdi ki, atası sarayı döyüşsüz, qansız-qadasız ona təslim etsin. Sultan II Mehmedin Uğurlu Məhəmmədin yanında olan adamları da ordunun gücündən-qüdrətindən danışır, Uzun Həsənə təlqin etmək istəyirdilər ki, bu ordunun qabağında Uzun Həsənin «çoban-çoluğu» çətin ki, dayansın.

Uzun Həsən onun misilsiz süvarilərini «çoban» adlandıran II Mehmedə nə qədər qəzəblənirdisə, elə oğluna da o qədər hirslənirdi. Ona görə, doğma övladı Uğurlu Məhəmmədin qulaqları eşidə-eşidə Osmanlı sultanı və sərkərdələri Ağqoyunluların ən adlı-sanlı sərkərdələrini «çoban-çoluq» adlandırırdılar, o da susurdu. Bu, qeyrət, heysiyyət məsələsiydi. Uzun Həsən başa düşürdü ki, əgər Uğurlu Məhəmməd öz soyundan olan adlı-sanlı döyüşçülərin belə təhqirlərlə aşağılanmasına dözürsə, demək, onun öz yurduna bağlılıq hissi yoxdur, məhv olub. Onun doğmalarına münasibətini şirnikləndirici vədlər çevirib nifrətə, qəzəbə və nəhayət, qərəzə…

Maqsud Mirzə qardaşının başını bədənin qoparılmış yerinə söykədi. Onun əlləri də qardaşının başından süzülən, hələ laxtalanmamış qanın qırmızısına bələndi. Maqsud Mirzə ayağa durdu. Nəzərləri cəsədi yerdə uzanmış, başı boynuna söykənmiş qardaşının cansız görkəminə dikilib qaldı. Bu anın nə qədər keçdiyindən xəbəri olmadı. Başını qaldırıb göyə baxanda, hiss elədi ki, buludlar lay-lay sökülüb, parçalanır. Günəş görunmürdü, əslində, Günəş görünsə də, görünməsə də, gündüz idi və Maqsud Mirzənin gözlərinin qaralması heç Günəşin görünməməsi ilə bağlı deyildi. Dünya-aləm gözündə qaralmışdı. Ona elə gəldi, indi bircə addım atsa, ayaqları dolaşacaq, yeriyə bilməyəcək və o da elə qardaşının yanına yıxılıb qalacaqdı. Bu vaxt kimsə onun sağ çiyininə toxundu. Maqsud Mirzə səksənən kimi oldu. Ayıldı, gözünü açıb təzədən ətrafa baxdı. Şeyx Heydər Maqsud Mirzənin

yanında idi. Əslində, Uğurlu Məhəmmədin boynunun vurulmağı ilə başlanmış bu dəhşətli mənzərədən çox vaxt keçməmişdi, sadəcə, hadisələr o qədər sürətlə cərəyan eləmişdi ki, adamlar özlərinə gəlməyə macal belə tapmamışdılar.

Kənardan meydanı müşahidə edən Şeyx Heydər nəhayət, onun durumunu görmüş və yaxına gəlməklə onu bu dəhşətli sarsıntıdan ayıltmaq istəmişdi. Şeyx Heydər özü cavan olsa da, bu mənzərənin dözülməz dərəcədə ağır olduğunu və elə bu mənzərəylə Ağqoyunlular taxtının necə laxladığını da anlayırdı. Bundan sonra hadisələr necə cərəyan edəcəkdi, nələr baş verəcəkdi, bu, gələcəyin işi idi. Amma Şeyx Heydərin əsas qayğısı Uzun Həsənlə bağlı idi. Doğrudur, o başa düşürdü ki, Uğurlu Məhəmmədə Ağqoyunlu ordusundan heç kim öldürücü zərbə vurmayacaqdı. Bəlkə də, Uğurlu Məhəmmədin sonuncu hücumu olmasaydı, heç Uzun Həsən də onu döyüş meydanında öldürməyəcəkdi. Hər halda ata oğlunun boynunu qılıncı ilə vurmuş, başını bədənindən ayırmış və övlad qatilinə çevrilmişdi. Və bunu da bütün ordunun gözü qarşısında eləmişdi. Bax, Şeyx Heydəri də əslində, narahat edən dayısı Uzun Həsənin bu sarsıntıdan sonra hansı halı keçirəcəyini bilməsiydi. Bir ordu başçısı, dövlətin hökmdarı kimi Uzun Həsən mənəvi durumunu necə bərpa edəcəkdi? O, bilməli idi ki, Uğurlu Məhəmməd Ağqoyunlulara qarşı istifadə edilən aldadıcı vasitədir. Hərbin hər cür tərəfindən hali olan Sultan II Mehmed Uzun Həsənin oğlanlarından ona görə istifadə edirdi ki, onların əliylə ən böyük rəqibini aldadıcı döyüşlərə çəkib, zəiflətsin. Bu, ata-oğul qarşıdurmalarında tərəflərin hər hansı birinin məğlubiyyəti, həm də ikinci tərəfin, yəni qalib tərəfin özünün də məğlubiyyəti olacaqdı. Şeyxi sabahkı vəziyyət qayğılandırırdı.

Əslində, Sultan II Mehmed istəyinə nail olmuşdu. İki dəfə atanı oğlu ilə qarşılaşdırmış və bu qarşıdurmada Ağqoyunluları nə qədər itkiyə məruz qoymuşdu. Bu ərazilərdəki hakimiyyətdən

narazı qüvvələr Uzun Həsənə xilaf çıxır, oğullarının yanına qaçır, onun tərəfinə qoşulur və nəticədə Ağqoyunluların özləri birbirinə qarşı döyüşə girirdilər.

…Şeyx Heydər acı-acı gülümsündü. Doğrudur, onun qımışdığını ətrafdan heç kim görmədi. Çünki bu acı gülüş onun varlığında idi, doğma yurdun insanlarının düşmənin fitnə-felinə uyaraq, öz yurduna, məmləkətinə qarşı çıxmağına acımağın ifadəsiydi.

Şeyx Heydər Maqsud Mirzənin qolundan tutub kənara çəkdi. Onu hələ də atın üstündə heykəl kimi donub qalmış atasının yanına apardı.

Deyəsən, Uzun Həsənin heç ağlına gəlmirdi ki, bundan sonra o, necə hərəkət etməlidi. Doğrudur, üstünə hücum çəkən onun oğlu idi. Ancaq hücum edən övlad olsa da, düşmən olaraq qalırdı. O, xəyanət etmişdi. Uzun Həsən də illərdən bəri hakimiyyət başında dayanıb, onu idarə etməyin əsas şərtlərini də yaxşı bilirdi. Xəyanətkarın ölümünə təəssüflənmək olmaz. Amma bu xəyanətkar onun öz ailəsindən çıxmışdı, öz canından-qanından idi. İndi onun cəsədini, bədənindən ayrılmış başını bu meydanın ortasında qoyub gedəsi deyildi ki…

Şeyx Heydər əlini uzadıb Uzun Həsənin qolundan tutdu, onu özünə tərəf çəkdi. Zeynal da atdan enən atasına dayaq durdu. Uzun Həsən ayağını yerə dirədi. Səndələyən Uzun Həsən özünü yığışdırdı. Ayaq üstə qürurla, əyilmədən dayandı, sonra bir neçə addım irəli yeridi, amma uzaq gedə bilmədi, dizləri bükülən Həsən padşahın bir qolundan bacısı oğlu, o biri qolundan öz oğlu yapışıb müvazinətini saxladılar…

* * *

Son günlər divanda heç kim fikirli və kədərli görünən Həsən padşahın gözünə görünmək istəmirdi. Əlbəttə, vəziyyətdən hali olanlar yaxşı bilirdilər ki, hökmdarı dərin fikirlərə qərq edən, onu qəm dəryasında boğan öz oğlu ilə qarşılaşması məsələsidir. O,

çox yollar, çarələr axtarmışdı. Oğlunu da döyüşdən yayındırmaq üçün neyləsə də, vəziyyəti heç cür dəyişdirə bilməmişdi.

İndi belə bir vaxtda Təbriz əhlinin dərdi təkcə müdafiə məsələsi deyildi. Pis olan orası idi ki, həmin vaxt Təbrizin xas camaatı içərisindən, xüsusilə də, saraya bağlı olan Bayandurlar nəslinin tanınmış adamlarından da Uğurlu Məhəmmədin yanına qaçanlar vardı. Onların hər biri Uğurlu Məhəmmədlə təzədən Təbrizə qayıtmaqla, qələbədən sonra hakimiyyətin müxtəlif pillələrində yerlərini tutmaq istəyində idilər. Bütün bunlar Təbriz əhlinin öz qayğısı idi. Yaxınlarını, doğmalarını döyüşdə itirmək, ən yaxın qohum insanlarla ölüm meydanında qarşılaşmaq... günlərin dərdi-bəlası kimi qara buluda dönüb Təbrizin başı üstünə çökmüşdü.

...Qabrieli bu məsələlər narahat eləmirdi. O, öz Aqnesini götürüb bu məmləkətdən başqa birisinə də gedə bilərdi. Onsuz da onlar uşaqları ilə birgə yerli dili elə mənimsəmişdilər ki, kimsə onların özgə diyardan gəlmiş yad adamlar olduqlarını ağıllarına belə gətirməzdilər. O, hara dönsə, rəhmətlik Sara Xatunun diqqətli və qayğılı nəzərlərini öz üzərində hiss edirdi və elə bu nəzərlərin sayəsində hələ Sara Xatun sağkən saray yaxınlığında rahat həyat yaşamışdı. Ailəsi də bu rahatlıqdan qədərincə bəhrələnmişdi. Sonralar da bu qayğını Uzun Həsən davam etdirmiş, səltənətdən ona çatası pay ayırmış, özünü etibarlı bir insan tək saray daxilində hörmətli şəxs kimi elan etmişdi. Axı Avropa ölkələrindən gələn elçilərlə Qabrieldən başqa kim danışar, dil tapardı? Qabrielin başqa dil bilicilərindən fərqi onda idi ki, o, Avropanın bir neçə dilini sərbəst danışırdı. Eləcə də o yerlərin ölkələri, insanları haqqında dərin və əhatəli bilgilərə sahib idi. Məhz bu cəhətlərinə görə Uzun Həsən Qabrieli hərdən yanına çağırır, onunla həmin ölkələr haqqında maraqlı söhbətlər edirdi. Qabrielin vasitəsilə Avropanın müxtəlif məmləkətlərinin hökmdarlarına məktublar yazdırır, öz ölkəsi haqqında məlumat verir, uzaqdakı yad diyarlarla dostluq münasibəti qurmağa çalışırdı. Qabriel onu

da bilirdi ki, haçansa onun yerini kimsə tuta bilər. Dil bilən, dünya haqqında təsəvvürləri geniş olan bir şəxsi lap haradan olsa, tapıb saraya gətirər, Uzun Həsənin ixtiyarına verərdilər.

İş burasındaydı ki, Qabriel məsələnin başqa bir təhlükəli tərəfini görür və ardıcıl müşahidələrilə bu təhlükənin get-gedə Uzun Həsənə yaxınlaşdığını hiss edirdi. Doğrudur, son vaxtlar Roma Papasının göndərdiyi adamların əksəriyyəti onunla əlaqə saxlamasa da, Qabriel mənsub olduğu nəslin məqsəd və məramını bilirdi. Qabriel hiss edirdi ki, Papa bütün hiylə və kələklərin boşa çıxacağı təqdirdə Həsən padşahı kiminsə öldürməsinə də tam məxfi göstəriş verə bilərdi.

Qabriel artıq illərdən bəri dil tapıb dostlaşdığı müsəlmanlar arasında Çevik əfəndi adı ilə tanınan və təbabət işində də məşhurlaşmış Nikolu demək olar, zərərsizləşdirmişdi. Qabrielin inamına görə Nikoldan Uzun Həsənə bir təhlükə yox idi. Lakin Avropadan gələn yad adamların hələ də onunla əlaqələrinin davam etməsini müşahidə etdikdə, başa düşürdü ki, Uzun Həsənin ətrafında hansısa ona məlum olmayan qara qüvvə şəbəkəsi dolaşır. Qabriel qarşısına məqsəd qoydu ki, bu şəbəkənin zəncirində kimlər olduğunu tezliklə öyrənib Uzun Həsənə çatdırsın. Yox, əgər o, uzaq diyardan Təbrizə qədər gəlib çatmış bu şəxslərin hiyləsinin torunu aça bilməyəcəksə, onda təhlükə mənbəyi kimi gördüyü adamları gərək axıracan nəzarətdə saxlasın. Elə bu səbəbdən Qabriel Nikolla birgə Uzun Həsənlə oğlunun qarşılaşdığı döyüş meydanına getməyi qərara almışdı.

Oradakı müdhiş səhnəni isə Qabriel hələ də qorxu və həyəcansız xatırlaya bilmirdi: Uzun Həsənlə Uğurlu Məhəmmədin qarşılaşdığı səhnə öz qorxunc qeyri-adiliyilə ətrafı dondurmuşdu. Adamlar ata-oğulun bu qarşılaşmada necə hərəkət edəcəklərini düşünür və beləcə hərə bir tərəfdə bir anlığa əlini saxlayıb dayanmış, lal sükut içində olayı seyr eləməli olmuşdu. Bu səhnənin necə qurtaracağı kimsəyə qabaqcadan bəlli deyilsə də, hər halda şahı qorumalı olan

mühafizəçilər də Uğurlu Məhəmmədin qılınc oynatmaqda mahirliyini yaxşı bilirdilər. Uğurlu Məhəmməd ölümündən əvvəl Uzun Həsənin üstünə at salıb yürüş edərkən, hökmdarın həyatını qorumağa borclu olanlar heç qımıldanmağa da vaxt tapmamışdılar. Və onlar onda ayılmışdılar, Uğurlu Məhəmmədin başı yerdədir. Bax, bu vəziyyət bütün mühafizəçilərin diqqətini çəkmiş və şahın təhlükəsiz olduğunu duyub arxayınlaşmışdılar.

Bir neçə addım hökmdardan arxada dayanan bir şəxsin qılıncını sıyıraraq necə irəli cumduğu demək olar ki, bir kimsənin diqqətini cəlb eləməmişdi. Hökmdar Maqsud Mirzə ilə Şeyx Heydərin arasında idi. Arxadan hökmdara tərəf yüyürən şəxs qılıncını hökmdarın kürəyinə saplayacağı anda arxadan atılan xəncər həmin şəxsin kürəyini deşmiş, dəstəyinəcən bədəninə sancılmışdı. Qılıncın ucu Uzun Həsənə çatmamış onun dizləri yerə gəlmişdi. Və qəfil baş verən hadisəyə təəccüblə nida səsləri ətrafa yayılmışdı. Hamı dönüb baxmışdı. Yerə yıxılıb və dərhal canını tapşırmış şəxsin kim olduğunu ətrafdakı dəstəbaşılar və Uzun Həsənin öz mühafizəçilərindən bir kimsə tanıya bilməmişdi. Doğrudan da bu şəxs kim idi? Və o, nə üçün bu xəyanətə addım atmışdı. Əvvəlcə bir çoxları elə düşünmüşdü ki, Uzun Həsənə sui-qəsd fikirinə düşmüş bu şəxs ya Sultan II Mehmedin adamlarındandır, ya da Uğurlu Məhəmmədin ölümündən qəzəblənmiş tərəfdarlarındandır. Uzun Həsən dönüb xəncəri atan, xəyanətkarı öldürən adamı aramışdı. Və Qabrieli görmüşdü. Sanki oğlunun ölümünü də unutmuşdu. Onun həyatını xilas etmiş Qabrielin şücaətinə ilkin mükafat olaraq razılıqla başını tərpətməklə cavab vermişdi.

Qabriel öz əməlindən qətiyyən qürrələnənə oxşamırdı. Hətta onun sifətində bir təəssüf görkəmi də vardı. Hökmdar Qabrielə tərəf baxarkən, onun yaxınlığındakı Çevik əfəndinin də gördü. Bu adamın da sifəti ona tanış gəlirdi. Orduda yaralıları müalicə edən yaxşı bir təbibin olduğu haqqında söhbət gedərkən Çevik

əfəndini göstərmiş və «həmin təbib budur» demişdilər. İndi Uzun Həsən Qabrielin yanında dayanmış Çevik əfəndini də görəndə iti yaddaşını vərəqlədi və bildi ki, bu da həmin şəxsdir. Hər halda Uzun Həsənin ölümdən qurtulması atasının yanında durmuş Maqsud Mirzəni və hökmdarla yan-yana dayanmış Şeyx Heydəri çox sevindirdi. Şeyx Heydər iti nəzərlərilə bu şəxsləri izləyir, hətta ölənin də bu yerlərin adamına bənzəmədiyini hiss etdi. Ona görə, hökmdara tərəf dönüb yalnız şahın eşidə biləcəyi bir tərzdə dedi:

– Hökmdar, mənə elə gəlir ki, burada kökü dərinlərə gedib çıxan məsələ var.

Uzun Həsən Şeyx Heydərin sözlərinə fikirli-fikirli başını tərpətdi.

– Necə olub ki, arada belə bir xəyanətkarın olduğunu bizim mühafizəçilər hiss etməyiblər.

Şeyx Heydər astaca dilləndi:

– Düşmən çox hiyləgərdi, o, həmişə fürsəti və dəqiq zamanını gözləyir.

Uzun Həsən irəli yeriyib ordunun nüfuzlu sərkərdələrilə üzüzə dayandı.

– Əzizlərim, bu döyüşdə bizim qurdumuz uladı. Bizi öz doğmamızın qılıncı ilə yenmək istəyən düşmənin niyyətini puça çıxartdıq. Əslində, düşmən Uğurlu Məhəmmədin vasitəsilə bizə zərbə vurmaq istəyirdi. O qədər də çox qüvvəmiz təlafata uğramadı. Bu cəsədi yerdə olan şəxsin isə taleyini özünün tamahı və ağılsızlığı yazıb. Uzun Həsən qoşuna nəzər yetirdi. Sanki birdən elə bil qoşuna əmr verdi. Hərə bir ağızdan qışqırdı:

– Var olsun, hökmdar!

– Uzun Həsənin səltənəti ədəbi yaşasın!

– Səltənətin dayağı olan Bayandurların böyük hökmdarını Tanrı qorusun!

– Var olsun!

– Allah qorusun!

– Allah saxlasın!

Uzun Həsən əlini yuxarı qaldırdı. Hələ adamlar sakitləşməmişdilər. Padşahın hələ də yerdə sancılmış qılıncını Şeyx Heydər əyilib götürdü. Və sonra qılıncı iki əlinin üstündə Uzun Həsənə uzatdı. Sanki bununla Şeyx Heydər Uzun Həsənə növbəti dəfə öz sədaqətini elan edir, çatdırırdı ki, nə qədər zamanı və imkanı olacaq o, Uzun Həsənin köməyində duracaqdı. Bu əhdi-sədaqəti heç bir Allah bəndəsi poza bilməzdi.

Şeyx Heydər yaxındakı qorumalara göstəriş verdi ki, Qabriellə birgə Çevik əfəndini və onları tanıyan şəxsləri sabah saraya yanına gətirsinlər. Şeyx Heydər yenidən üzünü döndərib Uzun Həsənə baxdı. Sanki bununla Uğurlu Məhəmmədin cəsədi ilə bağlı fikrini çatdırırdı.

Uzun Həsən isə qətiyyətlə dilləndi:

– Bunu isə götürün. Başı ilə birgə Təbriz yaxınlığındakı qəbiristanlıqda dəfn edin, ancaq başını ayaqlarının altında qoyun.

Uzun Həsən qılıncın dəstəyindən yapışıb yuxarı qaldırdı. Təzədən izdihamın gur alqış səsləri ətrafı bürüdü.

Bütün bu alqış sədaları təkcə hökmdarın şərəfinə deyildi. Həm də arxasında böyük qüvvələr dayanmış düşmənə qarşı döyüşdə Ağqoyunluların gücünün, qüdrətinin təntənəsi idi. İnsanlar Ağqoyunlular səltənətinin gücünü duyduqlarından qürurlanır və bunu öz alqışları ilə bildirirdilər.

Amma bu vaxt Uzun Həsənə sonsuz hörmət və ehtiramla bircə nəfər baxırdı. Bu, uzaq diyardan gəlib Təbriz sakinlərinə doğmalaşmış Qabriel idi.

Qabriel görürdü ki, Uzun Həsənin yanaqlarından üzü aşağı yaş süzülür. Bir kimsə deyə bilməzdi ki, bu yaş hansı səbəbdən belə hökmdarın yanağından axır.

Döyüşdə qalib gəlməyin sevinci idimi?

Oğlunu öldürən atanın sonsuz kədərinin qanlı seli idimi?

Ölümdən özünün xilas olmağına sevinməyin nəticəsiydi bəlkə?

Ancaq yox, belə insanlar döyüş meydanında ölümü şərəf bilirlər. Şübhəsiz, Uzun Həsən üçün də döyüş meydanında ölümdən xilas olmağı o qədər də onun ruhunun təntənəsi ola bilməzdi. Bu düşmənin niyyətinin puça çıxması, üzü gələcəyə doğru yolda baş verəcək dəhşətli döyüşlərin ilkin qələbəsinin qürur yağışı idi. – Qabriel elə beləcə də düşünürdü.

* * *

Ağqoyunlu padşahı Uzun Həsənə qalsaydı, bir daha silaha əl atmaz, ölkəsinin iqtisadi qüdrətini, təsərrüfatını və ticarətilə dirçəldərdi. Çoxdan bəri düşüncələrində dolaşan tikinti-abadlıq işlərini görər, bir sözlə, qalan ömrünü insanların rahat həyatını təmin eləməyə sövq edərdi. Bu, təcrübəli şahın illər boyu ürəyində qalan arzuları olsa da, bilirdi ki, istər hökmdar olsun, istərsə də sıradan olan bir kəndli, nəyisə diləmək bir şeydi, onu həyata keçirmək tamam başqa şey. Amma neyləyəsən ki, nəinki sadə adamların, heç hökmdarların da dediyinə baş əyməyən dünya öz işində idi, məlum səbəbdən hələ də ən təhlükəli buludların Ağqoyunlu səltənətinin başı üzərindən ötüb keçmədiyini anlayır, istər-istəməz nigaranlıq keçirir, Osmanlılarla savaşdan sonra yaranan bu nisbi sükutu ayın-arxayın yaşaya bilmirdi.

Hərdən saray şənlikləri vaxtı araya gələn rəmmalların bir zaman onun bəxti haqqında dediklərini xəyalən yada salır və acı-acı qəhərlənirdi. O vaxt rəmmallar cavan Həsənin ilkin uğurlarından sonra onun bəxti haqqında nikbin xəbərlər yayırdılar. Yəni ki, Uzun Həsən xoşbəxt ulduz altında doğulub. Bütün ömrü boyu onun qılıncının qabağında bir qalxan dayana bilməyəcək. Hər vaxt onun ardıcıl qələbələrinə uca Tanrı özü yar olacaq. Həmişə Uzun Həsənin düşmənləri xar olacaq, dostları sevinəcək. Doğrudur, o, acı-acı bu xatirələri yaddaşında çək-çevir eləsə də, deyilənlərdə bir həqiqət olduğunu düşünür və təskinlik tapırdı. Axı, o, indiyə qədərki bütün savaşlarında düşməndən heç vaxt

zəif olmamış, heç bir biabırçı məğlubiyyətə uğramamışdı. Tale ona imkan vermişdi ki, balaca Amid bəyliyini nəhəng Ağqoyunlu səltənətinə çevirsin. İndi bu səltənətin bir tərəfi İraq, ərəb ölkələri, Fərat sahilləri, digər tərəfi Böyük Qafqazın yuxarı ətəklərinəcən uzanırdı.

Son vaxtlar Anadolu ərazilərini itirsə də, qalan yerlər tam şəkildə külli-ixtiyarında idi. Bütün bunları o, qüdrətli hərbi sərkərdə, döyüş fəndlərini mükəmməl icra edən bir hökmdar olmağı sayəsində qazanmışdı. Özü də hər qələbəsinin sonunda müxtəlif ağrı-acıdan keçməli olmuşdu. Üstünə qalxan qardaşı ilə savaşmalı olmuş, Osmanlılarla döyüşdə oğlanlarını itirmiş, övladlarından ona naxələf çıxanları olmuşdu. Fitvalara uyan oğullarda səltənəti parçalamaq, böyük bir məmləkət qurmuş atanı məhv etmək xülyası baş qaldırmışdı. Ancaq bu günə qədər bir kimsə onun önündə haqqın daxilini qatlaya bilməmişdi.

İndi Uzun Həsən olub-keçənləri – xəyalında dolandırdıqca, bir daha əmin olurdu ki, uca Tanrı haqlı olanın tərəfindədir. Orası da vardı ki, uca Tanrı haqlı olanı da bəzən sınağa çəkir, ağır imtahanlardan çıxarırdı. İtirdikləri onun uca haqqın önündə ən çətin sınağa imtahana çəkilməsi idi. Bütün bunları hökmdar yaxşı bilir, həqiqətə tapınmağı ilə təskinlik duyurdu. Bunlarla belə onun üçün iztirablardan yaxa qurtarmaq da çətin idi.

Dərin düşüncələrə qərq olan Ağqoyunlu padşahı son vaxtlar gecələr yaxşı yata bilmir, şirin yuxusu ərşə çəkilirdi. Hökmdar müharibələrdən bezmiş, usanmışdı. Qətiyyən məğlub olacağı təqdirdə öldürüləcəyilə barışmırdı. O, istəyirdi ki, qurub başa çatdırdığı ölkəsinin abadlığına başlasın.

Uzun Həsənin müharibəni istəməməyində ikinci, daha ümdə bir səbəb də vardı. Bu da ondan ibarət idi ki, onun haqlı olduğunu təsdiq edən, kömək vədlərini verməkdə israrlı Avropa ölkələrinin saxta və yalançı olduğunu tam başa düşmüşdü. Roma ayrı-ayrı vaxtlarda göndərdiyi casuslarla onun həyatına dəfələrlə sui-

qəsdlərlə cəhdlər etmiş, yalan, şirnikdirici vədlərlə vaxtı ötürüb heç bir əməli iş görməmişdi.

Başqa da səbəb vardı. O, əhalinin müharibələrdən yorulduğunu da hiss eləyir. Xalqı dinc həyata qaytarmaq istəyirdi. İndi əvvəlki kimi cavanlar orduya həvəs göstərmirdilər. Onun ordusunda Osmanlıların sahib olduğu güclü odlu silahlar, müasir toplar yox idi… Osmanlıların sahib olduğu elə həmin dəhşətli silahlar sonuncu dəfə Ağqoyunluları Tərcanda sarsıdıcı məğlubiyyətə uğratmışdı…

…Yay səhəri çoxdan açılmışdı. Amma hökmdar hələ də öz hücrəsindən kənara çıxmamış, cari divan işlərinə başlamamışdı. Divan adamları narahat və nigaran idilər. Ancaq bir kimsə cəsarət edib onun hüzuruna gedə bilmirdi. Divanbəyi hökmdarın sevimli zövcəsi Dəspinə Xatunun divanın yan tərəfindəki bağçada olduğunu gördü. Qoca divanbəyi bunu yaxşı əlamət sanıb, Dəspinə Xatuna yaxınlaşdı.

– Xanımın hər vaxtı xeyir olsun. Allah onun işığını hökmdarımız Uzun Həsənlə baqi etsin, – dedi.

Dəspinə Xatun başını qaldırıb divanbəyiyə hörmətlə cavab verdi.

– Allah da sizi hər vaxt haqqın tərəfində qorusun. – Sonra da divanbəyinin sözlü olduğunu görüb soruşdu: – Bəlkə, bizim hörmət sahibi divanbəyinin bir sözü, istəyi var? Buyursun.

– Bəli, Dəspinə Xatun. Hökmdarın tapşırığına görə divan hazırdı. Bəzi vacib işlər də var ki, hökmdarın iştirakı ilə onu müzakirə etməliyik, amma… – Divanbəyi sözünün gerisini gətirmədi.

– Hə, hökmdar deməli hələ divana gəlməyib, bunumu demək istəyirsən…

– Bəli, başına dönüm. Bu dəfə divanbəyi rəsmiyyətdən kənara çıxdı. Bir ata mehrilə cavan qadınla dialoqa keçdi. – Deyirəm, bəlkə xanım hökmdarın diqqətinə yetirə istəyimizi.

Dəspinə Xatun divanbəyinin narahatlığını başa düşmüşdü. Elə o özü də nigaran oldu ki, nə əcəb, hökmdar indiyə qədər divana gəlməyib.

– Yaxşı, mən indi hökmdarın yanına gedərəm.

– Allah sənin ömrünü uzun eləsin, qızım. Tanrı hökmdarın qalan övladlarından ona bala dağı göstərməsin.

Divanbəyi təzim eləyib getdi. Əvvəlcə Dəspinə Xatun da istədi ki, elə birbaşa bağçadan ərinin yanına getsin, nə ağlından keçdisə, dönüb əncir ağacına baxdı. Qara, iri əncir meyvələri budaqlarda «gəl-gəl» deyirdi. Əncirin yaxşı yetişən vaxtı idi. İri meyvələrin göbəyindən balı süzülürdü.

…Qapı açılanda hökmdar taxtın bir tərəfində əyləşib başını iki əlinin arasına almışdı. Heç qapının səsinə də fikir vermədi. Başını qaldırmadı. Dəspinə Xatun şux addımlarla yeriyib düz onun yanında qaldı. Bir əlində enli mis sinidə əncir tutmuşdu. Tabaqdakı qara yetişmiş əncirlər görənin ağzını sulandırır, tamaha salırdı.  Dəspinə Xatun o biri əlilə hökmdarın başına sığal çəkdi.

– Qurbanın olum, nə yaman fikrə getmisən?

Hökmdar başını qaldırdı. Müəyyən hadisələr təsirini göstərsə də Dəspinə Xatun əvvəlki gözəlliyilə yenə bərq vururdu. Dilinin də şirinliyi elə əvvəlki kimiydi. Bir anda hökmdarın üstünə çökmüş kədər buludu dağıldı, alnının qırışları açıldı. Hələ də əli onun saçında olan sevimli Teodorasının – Dəspinə Xatunun əlindən tutdu. Göz-gözə gəldilər. Dəspinə Xatun əlindəki sinini hökmdarın gözlərinin qabağında dolandırıb, yaxındakı kətilin üstünə qoydu, özü də yanında oturdu.

– Allah həmişə səni qoruyub, Həsənim, bundan sonra da kərəmini səndən əsirgəməz. Sənə belə ağır fikirlərə qərq olmaq yaraşmaz.

– Kimsənin torpağına göz dikməmişəm, kimsənin üstünə qoşun çəkməmişəm. O şey ki, qədim zamanlardan bu yerin insan-

larının ixtiyarında olub, yad əllərin onu qəsb eləməyinə imkan verməmişəm.

– Bu yolda Allah da sənə dayaq olub, həmişə qalib gəlmisən.

– Elədir, ancaq bəs itkilərimi necə yaddan çıxarım? Bir-birinin ardınca neçə igid oğul itirdim. Haqq işimiz uğrunda vuruşub həlak olanları demirəm. Axı, naxələf çıxanların ağrı-acısını necə unudum?

– Qurbanın olum, bəs Allah da insanı elə ağır işlərlə imtahana çəkir. Sən o ağrı-acılara da dözməlisən. Qaldı ki, döyüş meydanında həlak olan oğulların…

– Hə, elə onlar da ağır dərddir, mənim üçün, – hökmdar asta-asta dilləndi. Sonra da əlavə elədi: Oğul itkisini yaddan çıxarmaq mümkündürmü?

– Bilirəm, padşahım, nə desən yeri var, amma yaxşı bilirsən ki, oğul da elə ona görə böyüdülür, vaxtı gələndə düşmən qabağına çıxsın. Bəs sənin o biri övladların da var idi ki, döyüşdə qabağa çıxıb sənin başını uca elədilər. Bundan yaxşı nə ola bilər? Bəs bunun özü az təskinlikdir?

Deyəsən, hökmdarın qırışığı yavaş-yavaş açılmışdı. O, ayağa qalxdı. Dəspinə Xatun tez gümüş qabdan su tökdü. Uzun Həsən suyu ovuclayıb üz-gözünə vurdu. Sonra dəsmalla qurulandı.

– Hə, indi deyirsən, bu əncirin dadına baxaq?

– Əlbəttə, baxaq. Nübar əncirdir. Hələ birini də özüm yeməmişəm. Gətirdim ki, birinci sən dadına baxasan.

– Yaxşı, onda sən də götür.

Dəspinə Xatun da, hökmdar da əncirdən daddılar. Sonra da padşah xatununun sininin bir tərəfində gətirdiyi tez yetişən kişmiş üzümünün də dadına baxdı.

Hökmdar hələ də divana getməyə tələsmirdi. İndi Dəspinə Xatun divanbəyinin sifarişini hökmdara çatdırmağın vaxtı gəldiyini düşündü. Amma Uzun Həsənin dillənməyi onu bir az da susmağa vadar elədi.

– Xatunum, mən indi divana gedəcəm, orada biz yeni müharibəyə hazırlaşmağın vaxtını müzakirə edəcəyik. Bilirəm, indi divanda məni gözləyirlər.

Dəspinə Xatun başa düşdü ki, hökmdar heç nəyi unutmayıb, sadəcə, vəziyyətin gərginliyindən ləng tərpənib. Hansı addımı atacağını, hansı hökmü verəcəyini hələ də dəqiqləşdirə bilməyib. Deməк, hökmdarın ləngiməyi onun üçün imiş ki, düşünüb-daşınsın, ağıllı, sanballı qərar versin. Uzun Həsən bilirdi ki, daha əvvəlki zaman deyil, indi bir səhv addım bütün məmləkətin taleyini risq altında qoyar.

– Bilirsən, Teodoram, Sultan II Mehmed kinli adamdı. Bilirəm ki, elə indidən o, çox ciddi savaşa hazırlaşır.

– Hökmdar, qurbanın olum, düşmənin qabağından qaçmayacaqsan ki, tale nə yazıb, o da olar. Amma sən yaxşı bilirsən ki, Allah həmişə haqlıları pənahında saxlayıb.

– Həmişəmi? – Uzun Həsən suallı nəzərlə qadınını süzdü.

– Bəli, həmişə, ancaq tezi-geci var.

Uzun Həsən otaqda bir neçə dəfə var-gəl elədi. Heç nə demədən o yan-bu yana getdi. Axır ki, dayanıb, qəti qərar verdi:

– Qoy olsun, biz ki, onun üzərinə getmirik, o gəlir. Atalar deyib ki, «günah öləndə olar». Gələr, cəzasını alar.

Uzun Həsən sözünə ara verdi, xeyli sükut oldu. Sonra aram-aram sözünə davam elədi:

– Ancaq o, hiyləgərin biridi. Heç vaxt özünü qabağa verməz, məqam və fürsət gözləyər.

Dəspinə Xatun başı ilə razılaşdığını bildirdi. Hökmdar yaxına gəlib arvadının boynunu qucaqladı, başını sinəsinə sıxdı, sonra ayrılıb, sürətli addımlarla divana tələsdi.

* * *

Təbrizin növbəti yayı bərk isti keçirdi. Ona görə də Ağqoyunlu divanı bu dəfə sarayın yeldöyən tərəfində yığışmışdı. Padşah

içəri girəndə divan üzvlərinin hamısı ayağa qalxıb təzim elədi. Uzun Həsən gözünü dolandırıb adamları bir-bir nəzərdən keçirdi. Təzə-təzə divanda öz yerini tutmaqda olan Zeynal Mirzəni görməyib, sanki onun ölümünü indicə bilirmiş kimi bərk tutuldu. Əvvəlcə varlığına ağır bir kədər hakim kəsildi. Neçə övladının itkisini yaşamış atanın təzədən belə qüssələnəcəyini gözləməyən divan üzvləri də hüznlü görkəmlə başlarını aşağı saldılar. Hökmdarın varlığına hopmuş kədər onun ürəyindən vulkan kimi püskürməkdə idi. Və bu da bir ata hönkürtüsü ilə başa çatacaqdı. Çox çətinliklə hökmdar özünü ələ aldı. Dodağının altında hansısa bir duanı zikr eləməyə başladı. Qurani-Kərimdən oxuduğu kiçik ayə ona təskinlik gətirdi – sakitləşdi. Özünü cəmləyib taxtında əyləşdi. Haradan, necə başlayacağını, yeni savaşa hazırlığın vəziyyətini necə aydınlaşdıracağını hələ dəqiq düzüb-qoşa bilməmişdi. Çünki baş verən hadisələr o qədər yaxın idi ki, yaraların göynərtisi ötməmiş, sarsıntılar sovuşmamışdı.

Bu vaxt divanbəyinin səsi eşidildi.

– Ağqoyunlu səltənətinin möhtərəm hökmdarının taxt-tacını Tanrı əbədi etsin. Bəlkə də, divanbəyi sözünə davam edəcəkdi, amma Uzun Həsənin başını qaldırıb ona diqqət yetirməsi divanbəyini dayandırdı. Deyəsən, Uzun Həsən divanbəyinin sözə başlamağından razı qalmışdı. Çünki başını razılıqla tərpədib, ona sözünü bitirməsinə işarə elədi. Divanbəyinin yenə də tərəddüd etdiyini görüb, dilləndi:

– Ağqoyunlu səltənətinin divanbəyisi deyəsən sözünü axıra çatdırmadı.

Hökmdarın bu sözləri divanbəyinin soluxmuş inamını özünə qaytardı, yenidən fikirlərini cəmləyib, sözünə başlamazdan əvvəl təzim elədi. Sonra da asta-asta danışmağa başladı:

– Sonuncu müharibə göstərdi ki, hökmdarımızın hərbi qüdrəti yenilməzdi. Axı, biz özümüz yaxşı bilirik ki, düşmənin qoşunlarının sayı bizimkindən qat-qat artıq olsa da, bizim qoçaq sü-

varilərimizin misli-bərabəri yoxdur. Hərbi qüdrət, döyüş fəhmi üstün olan yerdə qoşunun sayı şərt deyil. Sadəcə, Osmanlılar ilk savaşda ona görə qalib gəlməyi bacardılar ki, top-tüfəngləri, odlu silahları həddindən çox idi. Yoxsa heç bir halda Osmanlı qoşunu qələbə qazana bilməzdi. Malatya döyüşündə də başa düşdük ki, əgər hökmdarın qüdrətinə onun sərkərdələri, lap elə sıradan olan əsgərləri inanırsa, qələbənin ixtiyarı onların əlində olacaq. Ən əsası da odur ki, biz haqq uğrunda vuruşurduq. Biz kimsənin üzərinə qoşun çəkib getməmişdik. Düşmən bizim torpaqlarımızın sərhədlərini pozmuş, ərazilərimizə soxulmuşdu. Ona görə qələbə qazansa belə bunu böyük itkilər hesabına əldə edə bildi…

Divanbəyi hələ çox danışdı. Kimlərsə divanbəyidən sonra da söhbətə qoşulub, ötən savaş haqqında mülahizələrini bildirməkdən çəkinmədi. Artıq Uzun Həsən bunların heç birisini eşitmirdi. Onun xəyalı bu üzücü müharibələrin başlandığı zamandan dolanıb gəlməkdə idi. Ən başlıcası, çoxdan dünyasını dəyişmiş anası Sara Xatunun oğluna məhəbbətlə baxan gözləri xəyalında üzünə zillənmişdi. Anası elə diqqətlə baxırdı ki, əvvəlcə hökmdar bu qayğının narazılıqmı, razılıqmı ifadə etdiyini başa düşmədi. Amma xəyalındakı bu gözlərin, nəhayət, diqqətdən keçib, qürurlu baxışlara döndüyünü görəndə, başa düşdü ki, anası onun qələbələrindən çox böyük fərəh duyur. Elə bil, Sara Xatun oğluna deyirdi, əgər Sultan II Mehmed mənə saxtakarlıqla «ana» deyib, yalandan səninlə qardaşlığı əbədi davam etdirəcəyinə söz verib, sonra da xəyanət yolu seçibdisə, demək, haqlı cəzasını almalıdır.

Uzun Həsənin divanqabağı varlığına hopmuş kədər tamam dağılıb getmişdi. Bir-birinin arxasınca danışan divan üzvləri onun simasında təbəssüm gördükcə elə bilirdilər ki, hökmdar danışanlardan razı qaldığı üçün belə qürrələnirdi. Hökmdarın isə xəyalı sonuncu döyüş səhnəsinə tərəf yönəlmiş, özü də xəyalən pərvaz-

lanıb göyə uçmuş və yuxarıdan bu döyüşün mənzərəsini heyrətlə izləməkdə idi…

…Ağqoyunlu əsgərləri əvvəlcə Əhməd Çələbinin dəstələrini mühasirəyə aldı. Əhməd Çələbi demək olar ki, özü qılınca əl atmırdı. Nisbətən hündür bir tərəfdə dayanıb göstərişlər verir, yaxınlıqdakı dəstəbaşıları döyüşə ruhlandırırdı. Onun bir tərəfində Ləvəndoğlu, digər tərəfində İkramulla Əfəndinin dəstələri çarpışmaqda idi.

Uzun Həsən də bu döyüşü izləyirdi. Əgər Əhməd Çələbi tərəfə əlavə qüvvələr göndərməsəydi, yəqin ki, onun inadla vuruşan qüvvələri Ağqoyunluları asanlıqla geri çəkilməyə vadar edəcəkdi. Uzun Həsən əlilə işarə elədi. Yaxınlıqdakı çapar özünü hökmdara yetirdi. Əhməd Çələbi tərəfdə, təpənin arxasında pusquda dayanmış Rəvan Mirzənin və Zikrulla bəyin ixtiyarında olan qüvvələri Əhməd Çələbinin üzərinə yeritsinlər. Çapar hərəkətə keçməmiş Uzun Həsən yanındakı Ağalaroğlunun da onunla getməyinə işarə verdi. Ağalaroğlu Ağqoyunlu ordusunda çoxdan xidmət edirdi, doğrudur, bir az yaşı keçmişdi, lakin Rəvan Mirzə və Zikrulla bəy onun yetirmələriydi. Döyüş elmini də ondan öyrənmişdilər. Ağalaroğlunun göndərilməsi o demək idi ki, Rəvan Mirzə və Zikrulla bəy ona tabe olacaq, onun göstərişlərilə hərəkət edəcəkdilər.

Uzun Həsənin bu tapрışığı az keçmədi ki, döyüş meydanında öz bəhrəsini verdi. Ağalaroğlunun qətiyyətli hərəkətilə hücuma keçən Ağqoyunlu əsgərləri Əhməd Çələbinin inadla vuruşan iki dəstəbaşısını meydanda qanına qəltan elədilər. Rəvan Mirzə ilə Ləvəndoğlu, Zikrulla bəylə İkramulla Əfəndi qarşı-qarşıya gəlmişdi. Tərəflər bir-birinə üstün gələ bilmirdi. Bu vaxt Ağalaroğlunun gur səsi gəldi:

– Təslim olmayanı öldürün!

Düşmən dəstəbaşılarının hər ikisi bu gur səsdən diksindi. Nərə o qədər yaxından gəlmişdi, o qədər güclü idi ki, onlar ölüm qoxusunu öz canlarında hiss etmişdilər. Bu da ani sarsıntı yarat-

mışdı. Rəvan Mirzə Ləvəndoğlunu, Zikrulla bəy isə İkramulla Əfəndini bircə anda cəhənnəmə vasil elədi. Əhməd Çələbi igid dəstəbaşılarının ölümünü görüb silahı yerə qoydu və onun tabeliyində olan qüvvələr də ixtiyarsız çökdülər.

Adlı-sanlı Osmanlı sərkərdəsi Xasmuradın əsas qüvvələri Əhməd Çələbinin ixtiyarında idi. Xasmurad görəndə ki, Əhməd Çələbi tərəfdə döyüş səngidi. Ömər bəyə və Hacı bəyə çaparları ilə xəbər göndərdi ki, həmin tərəfə hücuma keçsinlər. Artıq gec idi. Ağalaroğlunun qüvvələri Xasmuradın özünün üzərinə yeriməkdə idi. Beləliklə, Xasmuradla digər Osmanlı sərkərdələri Hacı bəy və Ömər bəy arasındakı əlaqə kəsildi. Məcburiyyət qarşısında Xasmurad özü döyüşə girişmişdi. Az keçmədi ki, Ağqoyunlu qoşununun Ağalaroğlunun başçılığı altında irəliləyən ordusu Hacı bəyi və Ömər bəyi də əsir götürdülər. Bu, o demək idi ki, artıq Xasmurad meydanda təklənmişdi.

Birdən Ağqoyunlu hökmdarının qanı cuşa gəldi. Sürətlə atlandı. Əvvəlcə hansı tərəfə çapacağını bircə baxışla təyin elədi. O, hiss eləmişdi ki, uzun illər Sultan II Mehmedin müharibələrdə qələbələrini təmin edən Xasmurad aradan çıxa bilər. Çünki Uzun Həsən aydınca başa düşürdü ki, Xasmurad meydan döyüşündən özünə yol açmaq niyyəti güdür. Əgər adı qulağına dəymiş Xasmuradı bu döyüşdən buraxmalı olsaydı, Ağqoyunlu səltənəti üçün daha ciddi bir təhlükənin bünövrəsini qoymuş olardı.

Hökmdar yaxşı anlayırdı ki, Xasmurad kimi adı qulağına dəymiş sərkərdələr məğlubiyyətlərini sinirə bilmir. Zaman keçdikcə qəzəbi kükrəyir. Öz hisslərini varlıqlarında kin-küdurət yadigarı kimi saxlayırlar. Hansı yollasa, təzədən üz-üzə gəlib qisas almağa çalışırlar. Üstəlik, Ağqoyunlu şahı bilirdi ki, Xasmuradın bu döyüşdən sağ-salamat çıxmağı Sultan II Mehmedin qüvvələrini sürətlə bərpa edəcəyinə şərait yaradacaq. Çünki Xasmurad Osmanlı ordusunda hərbi quruculuq işini ən yaxşı bilən sərkərdələrdən idi.

Uzun Həsən öz atını Xasmuradın döyüşə-döyüşə yol açmaq cəhdində olduğu tərəfə çapdı. Ağqoyunluların ehtiyatda qalan çevik qüvvələri də Uzun Həsənlə idi. Süvarilər Xasmuradın üstünə ley kimi şığımışdılar. Süvarilərin iti qılıncları inadla döyüşən düşmən piyadalarını kəsib-doğramaqda idi. Meydanda qan su yerinə axırdı. Çığıran, bağıran, kömək istəyən, iniltilər, bağırtılar bir-birinə qarışmışdı. Bir Ağqoyunlu əsgəri Xasmuradın lap yaxınlığına kimi çatdı və onun sağ tərəfində vuruşan döyüşçünün başını bədənindən elədi. Həmin anda bir Osmanlı əsgəri qılıncını onun belinə sapladı. Beləcə, öldürənlə ölənin arasındakı sərhəd çoxdan itmişdi. Xasmurad qarşısındakı boşluğu görəndə sevindi. Elə başa düşdü ki, o, təhlükədən sovuşub, bircə an bəs idi ki, yaxınında döyüşən süvariləri ilə meydandan qaçsın. O, Uzun Həsənin adamlarına qışqırıb dedi:

– Bu döyüşdə siz qalib gəldiniz, amma borclu borclunun sağlığını istər. Tezliklə mənim qılıncımla üz-üzə gələcəksiniz.

Heç söz Xasmuradın ağzından çıxmamış, qarşısında Uzun Həsənin süvarilərini gördü. Süvarilər onu araya alsalar da, Uzun Həsən Xasmuradla üzbəüz döyüşə özü can atırdı.

Xasmurad vahimələnmişdi. Dördgözlə ətrafa baxırdı. Axı Ağqoyunluların qüvvələri o qədər az idi ki, gərək bu savaşda onlar bütün qüvvələrini itirmiş olaydılar. Bəs bu təzə süvari dəstələri haradan çıxdı?

Ağqoyunlu padşahı qışqırdı:

– Ehey, Xasmurad, sən çox qanlar tökmüsən. Ötən dəfəki yarı-yarımçıq qələbən sənə xoşbəxtlik yox, bədbəxtlik gətirib, sənin də, hökmdarının da gözləri o qədər tutulub ki, haqqı görə bilməkdən məhrum olmusunuz.

Osmanlı sərkərdəsi qəzəbindən qızardı. Ağqoyunlu şahının belə kinayəli sözləri sanki onun varlığını parçalamışdı. Gözünü ətrafına dolandırıb, yaxınlıqdakı Osmanlı qüvvələrini döyüşə ruhlandırmaq istədi. Ha istədi ki, qışqırıb Uzun Həsənə cavab ver-

sin, səsi çıxmadı. Süvarilər Xasmuradın ətrafındakı qüvvələri geri qatlamaqda idilər. Xasmuradın geriyə yolu qalmamışdı. Çünki arxadan da Ağqoyunlu qoşunu onu sıxışdırmaqda idi. Onsuz da Xasmurad elə onların arasından çıxıb canını qurtarmaq istəyirdi. Bu vaxt Uzun Həsən Xasmuradın çaşqın vəziyyətindən istifadə eləyib atını düz onun üstünə sürdü. Ağqoyunlu şahı ilə adlı-sanlı Osmanlı sərkərdəsinin gözləri havada toqquşdu. Xasmurad heç əlini tərpətmək imkanı tapmadı. Sağ qolu qılınc qarışıq yerə düşdü. Uzun Həsənin atı onun yanından keçib irəli ötmüşdü. Atını geri döndərdi. Təzədən Xasmuradın üstünə sürdü. Xasmurad hələ də yerdə səyriyən qoluna baxırdı. Sağ çiynindən qan fışqırıb sağ yanı ilə üstdən aşağı axırdı. Uzun Həsən atını düz onun atı ilə üzbəüz saxladı. Əvvəlcə istədi ki, Xasmuradı bu tək qolu ilə buraxıb, üzünü döndərib getsin. Ancaq onun necə təhlükəli bir məxluq olduğunu təzədən xatırladı: «Yox, belə düşmənə aman verməzlər». Uzun Həsənin gözlərində şimşək oynayırdı. Sanki at da sahibinin qəzəbini hiss edirdi, yoxsa əvvəlcə Uzun Həsən köhləninin yönünü döndərmək istəyəndə, belə vərdişləri yaxşı bilən alapaça kənara çapardı. At da qəzəbə dolmuşdu. Fınxırtısı, kişnərtisi ilə qəzəbini çatdırırdı. İrəli dartınıb dırnağı ilə düşməni məhv eləmək istəyirdi.

Xasmuradın gözlərində isə bir yalvarış var idi. Dünya-aləm bir anda onun nəzərindən düşmüşdü. Təkcə canının hayında idi. Uzun Həsən qılıncı ilə bir anda onun boynunu da vurdu. Yerə dığırlanan başa baxıb dedi: – Bu da Zeynal Mirzənin qanının əvəzi…

Xasmuradın yerə dığırlanan başında ölü gözləri açıq idi. Sanki bu gözlər onu döyüş meydanına göndərən Osmanlı Sultanı II Mehmedə lənət yağdırırdı.

* * *

Təkcə Təbrizdə yox, Ağqoyunlu dövlətinin demək olar, əsas ərazilərində kiçik münaqişələr nəzərə alınmazsa, dinclik hökm

sürürdü. Ağqoyunlularla Osmanlıların savaşı digər sərhəd ölkələrinə də görk olmuşdu. Kimsə cəsarət edib ölkənin sərhədlərini poza bilmirdi. Hər tərəfdə belə fikir hökm sürürdü ki, Ağqoyunlularla savaşa çıxmaq, göz görəsi başını itirmək demək idi. Çünki Osmanlılarla bir neçə savaşda Ağqoyunlular iki-üç dəfə artıq olan qüvvələrlə döyüşə bilibsə, kiçik məğlubiyyətlər, Anadolu-Ərzincan ərazilərindən bəzi bölgələrin Osmanlı nəzarətinə keçməsi nəzərə alınmasa, ölkənin sərhədlərinin bütövlüyü qorunub saxlanmışdı. Qafqazın cənub ətəklərindən tutmuş, ta İraqa qədər böyük ərazilərə sahib olan Ağqoyunluların idarə üsulu elə idi ki, hər yeri güclü təsir dairəsində saxlamağı bacarırdılar.

Ağqoyunlu hökmdarı Həsən padşah qonşu ölkələrlə, xüsusilə, Osmanlı və Avropa ilə münasibətlərində baş verən bütün siyasi yenilikləri müntəzəm müşahidə edir, hakimlərin Ağqoyunlularla dostluq, yaxud ixtilaf yarada biləcək heç bir artıq əmələ yol vermirdi. O, görürdü artıq Osmanlıların Avropayla kəskinləşmiş münasibətləri müharibə müstəvisinə keçib. Sultan II Mehmed daha Ağqoyunlular üzərinə yürüş etmək gücündə deyil.

Ancaq həmin dövrdə Həsən padşah Misir sultanlığına etdiyi, – birləşib Osmanlı imperiyasına qarşı birgə hərəkət etmək təklifinə rədd cavabı aldıqdan sonra, gürcü knyazları da Ağqoyunlu hökmdarı ilə əlbir fəaliyyət göstərməkdən boyun qaçırtdılar. Bu Həsən padşahı özündən çıxardı..

1477-ci ildə Uzun Həsən iyirmi min süvari və on bir min piyadadan ibarət qoşunla İberiyaya (Gürcüstana) hücum edib gürcü knyazlarının özbaşınalığına son qoymaq qərarına gəldi. Tiflis və bir sıra böyük əyalətlər Həsən padşahın qoşunu tərəfindən fəth olundu. Gürcü knyazları Fateh Həsən padşaha on altı min dukat bac ödəməli oldular. Uzun Həsən sərkərdə Xəlil bəy Bəktaşini Tiflisin canişini təyin edərək, zəfər yürüşünü başa çatdırıb Təbrizə döndü.

Misir sultanlığı da Həsən padşahın təklifini rədd etdiyi üçün ağır əvəz ödəməli oldu. Gürcüstana səfərə gedərkən Uzun Həsən Misir sultanlığı üzərinə də ordu yeritmişdi. Möhtəşəm Ağqoyunlu ordusu Urfa və Amid yaxınlığında Misir məmlüklərinə də qalib gəlmişdilər…

Son zəfərlərdən sonra Uzun Həsəni yalnız ölkənin təsərrüfat həyatını dirçəltmək, adamların güzəranını yaxşılaşdırmaq, çoxdankı niyyətlərini həyata keçirmək düşündürürdü. Özü də yaxşı bilirdi, ölkənin iqtisadi həyatı inkişafdan qalsa, səltənəti qoruya biləcək güclü ordu yaratmaq və onu saxlamaq mümkün deyil.

Axı, iri şəhərlər arasında ticarət əlaqələrini genişləndirmək və bununla birgə memarlıq və abadlıq işlərini də istəklərinə uyğun aparmaq üçün dincliyin, sabitliyin böyük əhəmiyyəti vardı.

Təbriz öz görkəmini sürətlə dəyişməkdə idi…

…Dəspinə Xatun bağçada Həsən padşahla birgə iri əncir ağacının altına tərəf addımlayırdı. Onlar ağacın yanında dayandılar. Yeni əncir mövsümü idi, amma qocalmış ağac yarpaqlarının xeyli hissəsini vaxtından əvvəl tökmüş, qalan yarpaqlardan da saralanları vardı. Meyvələri ağacda ara-sıra gözə dəyirdi. Dəspinə Xatun bilirdi ki, şah ənciri xoşlayır. Budaqların arasına diqqət yetirdi. Axır ki, iki iri, bənövşəyi əncir tapdı. Birini hökmdara uzatdı, o birini özünə saxladı. Hökmdar əvvəlcə əncirin saplağından tutub diqqətlə nəzərdən keçirtdi.

– Xatunum, yadındadır, bu əncirin saplaq yerindən necə bal süzülürdü? – Hökmdar fikirli-fikirli əncirə baxmaqda davam elədi.

Dəspinə Xatun ərinin kədərli olduğunu sezdi. Onun könlünü almaq istədi. Qarşısına keçib sevgi dolu nəzərlərlə gözlərinin içinə baxdı. Hökmdar xanımının ona belə diqqətlə baxdığını görüb sifətinə xoş ifadə verdi.

– Hə, qurbanın olum, doğrudur, bir vaxt elə idi. Əncir də insan kimidir. Bir vaxt gəlir ki, əvvəlki görkəmini itirir. Gövdə qocalır, budaqlara qədərincə qida verə bilmir, barına da şirə…

Hökmdar Dəspinənin ağıllı danışığından xoşlandı. Təbəssümü bir az da artdı. Amma bu təbəssüm onun kədərini üzündən tamam silib aparmadı. Handan-hana hökmdar sevimli xatununun sözlərini cavabsız qoymamaq üçün şirin söhbəti davam etdirdi:

– Hə, elədir, elə bizim kimi. – Hökmdar sözünü dedi, sonra əncirin dadına baxdı. Sanki əncirin dadının da dəyişdiyini Dəspinəyə bildirmək istədi:

– Deyəsən, tamı da dəyişib, əzəlki deyil.

– Əlbəttə, elə olar, – istədi ki, əlindəki ənciri də hökmdara versin.

– Yox, yox, istəmirəm, onu da sən ye.

– Hə, əzizim, dadı da dəyişib, mən də elə hiss elədim. – Dəspinə xatun cavab üçün ərini çox gözlətmədi.

– Bəli, qocalığın bir əlaməti də budur. – Hökmdar əncirin gövdəsinə yaxınlaşdı. Dəspinə xatun da onunla birgə irəlilədi. Bu vaxt Dəspinənin birdən-birə əhvalı dəyişdi. Əvvəl heyrətini gizlətdi, sonra güldü. Sağ əlini əncirin dibinə uzadıb, ərinə göstərdi:

– Bir bax, qurbanın olum…

– Nəyi deyirsən? – hökmdar soruşdu.

Dəspinə xatun dönüb ərinin nəzərlərini əncirin dibindən qalxan təp-təzə pöhrələrə tərəf yönəltdi:

– Heç qəm eləməyə dəyməz, görürsənmi, əncirin dibindən necə pöhrələr qalxır. Çox keçməz, bu pöhrələr qalxıb gövdəni əvəz eləyər. Yenə dadını-tamını özünə qaytarar.

Həsən şah razılıqla başını yellətdi. Əvvəlcə əncirin dibindən qalxan pöhrələrin yaşıl yarpaqları, sağlam şivləri onun ruhuna xoş duyğular gətirdi. Sonra da arvadının ağıllı müşahidəsi könlünü açdı.

Asta-asta irəlilədilər. Sarayın bağçaya açılan qapısının ağzında dayandılar. Bura yaxşı kölgəlik idi. Oymalı taxta oturacaqlar qoyulmuşdu. Hər ikisi yan-yana əyləşdi. Dəspinə Xatun ərinin düşüncələrinə mane olmamaq üçün dinmirdi, sakit-sakit üzü

baxçaya tərəf baxır, budaqlarda tez-tez yerini dəyişən quşların cikkiltisinə diqqət yetirirdi. Ancaq fikri-zikri hökmdarın yanında idi. Əslində, elə həmin mənzərəni hökmdar da görürdü. Onlar beləcə xeyli sakit əyləşdilər. Birdən Dəspinənin yadına düşdü ki, hökmdar mərkəzi meydandakı Nəsriyyə məscidinin tikintisinə baxmağa gedəcək. Düşündü ki, bəlkə hökmdarın yadından çıxıb. Bir qədər ehtiyatla bu barədə söhbət salmaq istədi.

– Hökmdarım, Nəsriyyənin işləri nə yerdədir?

Uzun Həsən səksənən kimi oldu. Axı arvadı ona ikilikdə olanda heç vaxt «hökmdar» deyə müraciət eləmirdi.

– Qurbanın olum, niyə təəccüblənirsən? Bilmirsən ki, dövləti işlərə aid olan hər hansı bir məsələdə hökm səlahiyyət yiyəsi hökmdardır. Mən də elə ona görə belə xitab etdim.

Padşah nəvazişdən lap xoşhallandı. Birdən əlini-əlinə vurub qəhqəhə çəkdi.

– Sən ağıllı qadınsan. Lap anam Sara Xatun sayağı düşünürsən.

Bu sözlər də Dəspinə xatunun ürəyinə yağ kimi yayıldı. Bilirdi ki, hökmdar anasının xətrini həmişə əziz tutur. Əgər onu anasına bənzədirsə, demək, Dəspinənin də onun ürəyində yeri başqadır. Həqiqətən, Dəspinə Xatun ərindən razı idi. Uzun Həsən evli olduqları müddət ərzində həmişə Dəspinə xatunun mərtəbəsini uca tutmuşdu. Onu incidəcək bir səhvə yol verməməyə çalışmışdı. Bunun bir səbəbi də Dəspinənin Sara Xatunun ölümünə qədər ona doğma yanaşması olmuşdusa, digər səbəbi də ağıllı qadın və tanınmış nəsildən olmasına rəğmən hökmdarla heç vaxt iddialı danışmamasındaydı, yerini bilməsindəydi. Hətta Uzun Həsən oğlanları ilə savaşda belə övlad qanı tökməyə məcbur olanda da, Dəspinə xatun onun xətirinə dəyməmiş, dərdinə şərik olmağa çalışmışdı. Bütün bunlar vaxtından tez qocalmaqda olan Uzun Həsənin yaddaşında xoş bir xatirəyə çevrilmişdi. Hətta bir dəfə aralarında oğlunun döyüş meydanında öldürülməsindən sonra bir söhbət də olmuşdu.

Dəspinə xatun intizarla gözləri qan-yaş dolu bir halda ərinin qabağına çıxıb əvvəlcə əllərindən öpmüş, sonra da başını onun sinəsinə qoyub hönkür-hönkür ağlamışdı. Hökmdar isə ana kədərinə şərikliklə dillənmişdi:

– Ağlama, xatunum, bilirəm, mən sənə dərd gətirmişəm.

Dəspinə xatun isə hönkürtüsünü güclə saxlayıb, azca başını qaldırıb hökmdarın gözlərindəki kədərə şərik çıxdığını belə bildirmişdi:

– Yox, hökmdar, sən mənim başımın tacısan. Sən o tacı sağ-salamat qaytarmısan. Elə bu da mənə bəsdir. Əgər başımın tacı olmasaydı, onda mənim yaşamağımın nə dəyəri olardı?

Bu əhvalatdan sonra uzun müddət Uzun Həsən öz hücrəsində tək qalmış, kimsəni qəbul eləməmişdi. Tökülüb qalmış divan işlərinin intizarında olan cavabdehlər hökmdarı hücrəsindən çıxara biləcək bir kimsə kimi yenə Həsən padşahın sevimli Teodorasına – Dəspinə xatununa üz tutmuşdular. Onda da Dəspinə Xatun hökmdarı divana gətirəcək tək şəxs olmuşdu.

– Hökmdar, nəvələrin var, səltənəti salamat saxlamaq sənin borcundu, – deyib əlindən yapışmışdı.

O vaxt Uzun Həsən ona hökmdar deyə müraciət edən xanımına diqqətlə baxanda, Dəspinə xatun bu nəzərlərin müşahidəsini anlamış və demişdi:

– Bəli, hökmdar, biz indi özümüzün deyilik, biz gələcək nəsillərə məxsusuq. Bu gün səltənət istəyir ki, hökmdar öz yerində olsun.

Bu əhvalatın üstündən illər keçmişdi. Zaman sürətlə keçib getsə də, yaralar asanlıqla sağalmırdı. Uzun Həsən «Nəsriyyə» məscidinin tikintisində işlərin sona çatmasını səbirsizliklə gözləyirdi. Deyəsən, işlər də bu günlərdə başa çatmaqdaydı.

– Hə, Dəspinəm, mən bu gün Nəsriyyəyə getməliyəm. Görüm orada işlər necə tamamlanır.

– Hökmdar, Allah işini avand eləsin, indi orada sənin intizarını çəkirlər.

Hökmdar ayağa qalxıb sarayın həyətinə keçdi. Orada mühafizlər həqiqətən padşahı gözləyirdilər.

…Hökmdar «Nəsriyyə» məcsid-mədrəsəsini yaxşı-yaxşı gəzib-dolandı. Xırda düzəlişlər və kiçik əlavələr üçün göstərişlər verdi. Nəsriyyədən çıxıb Qeysəriyyəyə tərəf getdi. Çoxdan tikilib istifadəyə verilmiş məşhur bazarda şıdırğı alver gedirdi. Adamların qayğısızlığı, gündəlik güzəranları ilə məşğul olmaları onu xeyli fərəhləndirdi

…Beləcə, yay qurtardı. Hiss edilmədən payız da ötüb keçdi. Uzun Həsən divana gec-gec gəlirdi. Xəstə idi, zəifləmişdi. Ancaq mühüm məsələlərin həlli ilə bağlı yalnız baş vəzirin və divanbəyinin görüşünə icazə verirdi.

…Böyük çillədən on iki gün keçmişdi. Uzun Həsənin əhvalı birdən-birə dəyişdi. Əslində, bu, qəfləti dəyişmə deyildi. Cəmi əlli beş yaşı olsa da, müharibələrdə, münaqişələrdə övladlarını, dostlarını itirmiş, sarsıntılar keçirmiş, Otluqbeli savaşındakı məğlubiyyət və əsas da oğulları arasındakı ixtilaflar onu əldən salmışdı, axırına çıxmışdı. Həm də padşah Gürcüstana səfər ərəfəsində elə ağır xəstələnmişdi ki, xanədanın ən bilikli təbibləri əllərindən gələni eləsələr də, Uzun Həsən xəstəlikdən tam qurtula bimirdi ki, bilmirdi…

Bütün bunlara baxmayaraq Uzun Həsən ruhən güclü adam idi. Keçmiş dözümünü yada salanda, istər-istəməz hazırkı zəifliyinə acıyırdı. Birdən qəzəblə yerindən qalxdı, sanki bütün ağır düşüncələri və ruhunu sarımış dərdləri, ağrıları bütünlüklə özündən kənara atmaq istədi.

Əvvəlcə ayaq üstə düz, sərrast dayandı. Gücünü yığmışdı, amma birdən-birə başı dumanlandı. Gözlərinə qaranlıq çökdü. Ayaqları titrəməyə başladı. Daha özünü saxlaya bilməyib, kökündən qopmuş qocaman palıd kimi yerə sərildi. Özünü birtəhər toplayıb təzədən ayağa qalxdı, səndələyə-səndələyə lap son anda özünü yatağa atdı…

…Böyük çilədən on yeddi gün ötəndə Uzun Həsən son nəfəsini verdi. Dəspinə xatun onun yanında oturub əllərindən tutmuşdu. Birdən o, hiss etdi ki, ərinin əlləri boşaldı. Ehmalca padşahın əllərini qaytarıb sinəsinin üstünə qoydu. Padşahın göz qapaqlarını sığadı. Beləcə, hökmdar qurduğu böyük imperiyanı bir-birilə yola gedəcəklərinə inanmadığı xələflərinə təhvil verib əbədiyyət evinə köçdü.

Uzun Həsəni özünün tikdirdiyi Nəsriyyə məscidində dəfn etdilər. Yaratdığı Ağqoyunlu imperiyasını isə qarşıda çovğunlu, qasırğalı gecələr gözləyirdi…

***İkinci kitabın sonu***

Hüseynbala Mirələmov

İki Şah, İki Sultan

TRİLOGİYA

# BƏNÖVŞƏYİ ƏNCİR

*İkinci kitab*

Nəşriyyat redaktoru:
SUĞRA OSMANOVA

Dizayn və tərtibat:
RAUF KƏRİMLİ

Yığılmağa verilmişdir: 20.02.2020. Çapa imzalanmışdır: 25.06.2020.
Ölçü: 60x90 1/32. Çap vərəqi: 21,5. Sifariş: 122/20. Say: 1000 ədəd.

NURLAR
Nəşriyyat-Poliqrafiya
Mərkəzi

Bakı, Az1122, H.Zərdabi 78
Tel: 4977021 / Faks: 4971295
E-poçtu: office@nurlar.az